BAKI BEYNƏLXALQ
MULTİKULTURALİZM MƏRKƏZİ
BAKU INTERNATIONAL MULTICULTURALISM CENTRE



QAFQAZ ALBANİYASININ ETNO–MƏDƏNİ İRSİ

№ 2

BAKI 2021

Qafqaz Albaniyasının etno-mədəni irsi (məqalələr toplusu), № 2.
Bakı, 2021, 232 səh.

Baş redaktor: **Kamal Abdullayev**
Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilər Şurasının sədri, Azərbaycan Dillər Universitetinin rektoru, Xalq yazıçısı, akademik

Elmi redaktorlar: **Fəridə Məmmədova**
Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Azərbaycan Milli Yaradıcılıq Akademiyasının akademiki, Azərbaycanın Əməkdar elm xadimi, Respublikanın Dövlət mükafatı laureatı, "Şöhrət" ordeni və "Qızıl Qələm" mükafatçısı, AMEA Tarix İnstitutunun "Azərbaycanın tarixi coğrafiyası və demoqrafiyası" şöbəsinin müdiri, tarix elmləri doktoru, professor

Ülviyyə Hacıyeva
AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun "Etnoarxeologiya" şöbəsinin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru

Layihəyə məsul: **Rəvan Həsənov**
Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru

Redaktor: **Tahir Kazımlı**
Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Analitika şöbəsinin əməkdaşı

Azərbaycanın 2020-ci ilin Vətən Müharibəsində Qarabağın 30 ilə yaxın davam edən işğaldan azad edilməsində Böyük Zəfərinə həsr olunan "Qafqaz Albaniyasının etno-mədəni irsi" jurnalının ikinci nömrəsinin təqdim edilən nəşri albanşünaslığın arxeologiya, antropologiya, tarix, mənbəşünaslıq, etnologiya, memarlıq və incəsənət sahələrində vacib problemlərinin araşdırıldığı məqalələr toplusundan ibarətdir. Bu nəşr həm alimlər, həm də ictimaiyyət üçün, Qafqaz Albaniyasının (e.ə. IV əsr – b.e. VIII əsrinin əvvəli) tarixi və mədəniyyətinin müxtəlif aspektləri və ümumilikdə alban etno–mədəni irsi ilə maraqlanan hər kəs üçün maraqlı olacaq.

ISBN 978-9952-28-562-8

© Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, 2021



AZƏRBAYCANIN 2020-Cİ İL VƏTƏN MÜHARİBƏSİNDƏ
QARABAĞIN İŞĞALDAN AZAD EDİLMƏSİNDƏ ƏLDƏ ETDİYİ BÖYÜK ZƏFƏRƏ –
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ VƏ SİLAHLI QÜVVƏLƏRİN
ALİ BAŞ KOMANDANI İLHAM ƏLİYEVİN BÖYÜK RƏŞADƏTİNƏ,
MÜZƏFFƏR AZƏRBAYCAN ORDUSUNA, ŞƏHİDLƏRİN ƏBƏDİ XATİRƏSİNƏ,
DÜNYA AZƏRBAYCANLILARIN VƏ AZƏRBAYCAN RESPUBLİKASININ
BÜTÜN ETNOSLARININ VƏTƏNPƏRVƏRLİYİNƏ HƏSR EDİLİR.

QARABAĞ AZƏRBAYCANDIR!







MÜNDƏRİCAT

ÖN SÖZ 7

GİRİŞ

MƏMMƏDOVA F. Azərbaycan tarixində görkəmli alban şəxsiyyətləri 11

ARXEOLOGİYA, ANTROPOLOGİYA

RƏHİMOVA M. Qafqaz Albaniyasının antik dövr tarixi və mədəniyyətinin öyrənilməsində arxeologiya elminin rolu..... 26

KWON OHYOUNG, CƏBİYEV Q., KİM JONGİL, NƏCƏFOVA İ.M., SOHN JAEHYEON. Qafqaz Albaniyasında şəhərsalma elementləri Qəbələnin arxeoloji tədqiqi kontekstində 37

MÜSEYİBLİ N., NƏCƏFOV Ş. Ağstafada antik dövr abidələri 46

AXUNDOVA G. Bəzək əşyaları Qafqaz Albaniyasının mədəni–iqtisadi əlaqələri kontekstində 57

CƏBİYEV Q. Mehrəvan – Albaniya tarixinin öyrənilməsində yeni səhifə 68

ƏLİYEV T. Nərgiztəpə arxeoloji kompleksində alban mədəni irsi 76

İSKƏNDƏROV E. Şimali Azərbaycan və Əhəmənilər: problemli məsələlərin qoyuluşu 84

KİRİÇENKO D. Mingəçevir taxta qutu-katakomba tipli qəbirdən olan kəllə haqqında 91

QOŞQARLI Q. İki eranın kəsişməsində Parfiya və Romanın siyasi mübarizə sistemində Qafqaz Albaniyası və Qafqaz – Ön Asiya regionunun digər dövlətləri 95

VƏLİYEV E. Qafqaz Albaniyası ərazisində III–V əsrlərə aid olan maddi–mədəniyyət nümunələrində (torevtika, riton, grifon) zərdüştlüyün izləri 107

TARİX, ETNOLOGİYA, MƏNBƏŞÜNASLIQ

ƏSƏDOV F. Ərəblər, İslam və Albaniya: VII–X əsrlərdə mədəni mühitin qarşılıqlı əlaqələri və transformasiyası 116

İQUMEN ALEKSİY (NİKONOROV). Alban Kilsəsi yeparxiyası VI əsrə qədər 125

İMRANLI- LOWE K. XVIII əsrin sonları – XIX əsrin əvvələrində Rusiyanın Qafqaz strategiyasında Qafqaz albanlarının rolu 138

LOLUA R. Qədim erməni mənbələrində Qafqaz–alban yazısının genezisinə dair məlumatlar 151

MƏLİKOV R. Albaniyada Ay ilahəsi məbədi 161

MOBİLİ R. Azərbaycanın multikultural mühitində udilər və Alban Kilsəsi 172

İNCƏSƏNƏT, MEMARLIQ

HACIYEVA Ü. Azərbaycanın Tərtər və Kəlbəcər rayonlarında Alban abidələri 180

QARABAĞLI R. İrəvanda İslam memarlığı 194

MƏMMƏDOVA L. Qalib Məmmədov yaradıcılığının alban dövrü haqqında 200

RZAYEVA S . Qafqaz Albaniyasının xristianlıqdan əvvəlki təsviri rəmzlərinin tipologiyası 206

VAHABOVA D. “Alban oratoriyası”. Namiq Məmmədovun yaradıcılığının səhifələri 217

ZAMMATTEO P. Azərbaycan xristianları İtaliyada: Komano Terme və onun daş qalıqları 223

ÖN SÖZ

Azərbaycan Respublikası zəngin alban etnomədəni irsinin, Qafqaz Albaniyasının antik və erkən orta əsrlərə aid mədəniyyətinin (e.ə. IV əsr–b.e. VIII əsrin əvvəli) və bu ərazidə sonrakı əsrlərdə yaşamış etnoslar tərəfindən yaradılan bütün tarixi və dini irsin birbaşa tarixi varisi və qoruyucusudur.

Cənubi Qafqazın bu regionunun çoxetnosluluğu və çoxdinliliyi, uzun əsrlər boyunca bu ərazidə birgə yaşayış, alban dilinin, daha sonra Azərbaycan dilinin etnoslararası ünsiyyət vasitəsi kimi istifadə edilməsi çoxəsrlik tolerantlıq ənənələrinə yol açmışdır. Bu ənənələr regionun etnik palitrasının rəngarəngliyi və zənginliyini əks etdirən bütün etnos və subetnosların çiçəklənməsinə şərait yaradaraq müasir Azərbaycan multikulturalizminin əsasını qoymuşdur.

Məlum olduğu kimi, Albaniyada əsrlər boyunca qafqazdilli (albanlar, udilər (utilər, udinlər), qellər, leqlər, qarqarlar, silvlər, çilblər, lpinlər kimi 26 tayfadan formalaşmış Qafqaz-Alban konfederasiyası), türkdilli (hunlar, savirlər, barsillər, saklar) və irandilli (talayilər (talışlar), tatlar, kürdlər) etnoslar, habelə yəhudilər (dağ yəhudilərinin əcdadları) yaşayıb və hazırda bu etnosların törəmələri Azərbaycan Respublikasının vətəndaşlarıdır.

Qeyd etmək lazımdır ki, Ümumdünya Kilsəsini təşkil edən yerli kilsələrdən biri də dini kökləri Yerusəlim Kilsəsi ilə əlaqəli olan Alban Həvari Avtokefal kilsəsi (IV əsr–XIX əsrin əvvəli) idi. Yerli kilsələr, öz növbəsində prixod kilsələri və monastırlarını özündə birləşdirən yepiskopluqlar-yeparxiyaları əhatə edirdi. Kilsənin bu strukturu onun yaranma tarixinin ilk əsrlərində formalaşıb və daha sonra da əsas etibarilə dəyişilməz olaraq qalıb.

IV-VII əsrlərdə alban çarları Arşakilərin və böyük Mehrani knyazlarının hakimiyyəti dövründə həm Albaniyanın özündə, həm də Yerusəlimdə mülki və erkən alban dini memarlığı yaradılıb.

"Alban tarixi" əsərinin müəllifi Musa Kalankatlının verdiyi məlumata görə, Alban Kilsəsinin kilsə-inzibati strukturu aşağıdakı formaya malik idi: Partav arxiyeparxiyası, Partav arxiyepiskopunun, alban katolikosunun idarə etdiyi Lpina və Çola/Çora (maskutların əyaləti) avtonom əyalətlərinin yeparxiyaları; Kabalaka, Baxalat və Bex/Yexnibex, Şəki, Paytakaran və Balasakan, Amaras və Haband, Girdiman, Uti, Mets-Kuenk, Mets-İrank, Qaşua (Xoş/İuşi), Tsri (Çilbka), Yeuta yeparxiyaları; habelə VI əsrin ikinci yarısında faktiki olaraq Alban Kilsəsinin yurisdiksiyasına daxil edilən, təlimatları və müqəddəs yağı alban katolikosundan alan Hun yeparxiyası və Sünik mitropoliyası. Bu struktur alban dövlətçiliyinin VIII əsrin əvvəlində ərəblərin işğalçı yürüşləri nəticəsində süquta uğramasına qədər saxlanılıb, bundan sonra ərazidə İslam dininin yayılması başlayıb.

Müsəlmanlıq Albaniyanın etnik baxımdan zəngin olan əhalisinin əsas hissəsi tərəfindən qəbul edildi və XII əsrədək artıq qafqazdilli albanların, türkdilli və irandilli etnik təbəqələrin vahid Azərbaycan xalqı şəklində etno-linqvistik və mədəni-ideoloji birləşməsi prosesinin əsasını qoymuş və bununla zəngin müsəlman etno-mədəni irsi yaranmışdır.

Yuxarıda qeyd edilmiş etnosların törəmələrinin bir hissəsi – xınalıqlılar, ləzgilər, buduqlar, qrızlar, udinlər, saxurlar, rutullar, hapıtlar, ingiloylar, tatlar, talışlar, kürdlər və digər etnoslar əsrlər boyunca milli kimlik, özünüadlandırma, etnik ənənələr və mədəni kimliyini qoruyub saxlamış, ikili kimliyə yiyələnmişdir: milli (Azərbaycan) və daha konkret etnik kimlik.

Bu etnosların – albanların bir hissəsindən (əsasən udinlərdən) başqa, demək olar ki, hamısı İslam dinini qəbul edərək müsəlman olub, hazırda Azərbaycanda yaşayır və bu dinə sitayiş edir.

Əsrlər boyunca alban knyaz nəsillərinin nümayəndələri IX–XI əsrlərdə Aranda bir sıra müstəqil feodal knyazlıqlar, IX–XII əsrlərdə Sünik çarlığı, XII–XV əsrlərdə Arsax-Xaçın knyazlığı-çarlığı, XV–XVIII əsrlərdə Sacilər (IX–X əsrlər), Salarilər (X əsr), Şəddadilər (XI–XII əsrlər), Atabəylər (Eldənizlər) (XII–XIII əsrlər), Hülakülər, Cəlairilər (XIII–XV əsrlər), Qaraqoyunlular, Ağqoyunlular (XV əsr) feodal dövlətlərinin və Səfəvilər dövlətinə daxil olan Qarabağ-Gəncə bəylərbəyliyinin (XVI–XVIII əsrlər) və Qarabağ xanlığının tərkibində məlikliklər yaradıblar.

Kürün sağ sahilində yaşayan xristian albanlar XIX əsrin əvvəlinədək Alban Həvari Avtokefal kilsəsinə mənsub dindarların ayrılmaz hissəsi, habelə XI–XIII əsrlər və qismən XVII–XVIII əsrlərdə yaradılmış yazılı tarixi–ədəbi əsərləri və inşa edilmiş saraylar, qalalar, monastırlar, kilsələr və sovməələri özündə birləşdirən alban etno-mədəni irsinin yaradıcısı olub.

XIII əsrdə Mehranilər sülaləsindən olan Həsən Cəlal (1215–1261) 1216–1238-ci illərdə Müqəddəs Vəftizçi İohannın şərəfinə Qandzasar monastırını tikdirib. Məbədin inşa kitabəsində tikilinin 1240-cı ildə alban patriarxı III Nerses (1235–1262) tərəfindən inşa edildiyi göstərilib. Bundan sonra alban katolikosluğu Qandzasar adlandırılmağa başlayıb, çünki XIX əsrin əvvəlinədək alban katolikosluğunun mərkəzi məhz bu monastır olub.

XVIII əsrə aid sənədlər – "İrəvan əyalətinin icmal dəftəri", "Naxçıvan sancağının müfəssəl dəftəri", "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri", habelə "Qarabağ əyalətinin təsviri" (1823-cü ildə Gürcüstandakı baş hakim polkovnik Yermolovun göstərişi ilə həqiqi mülki müşavir Mogilevski və polkovnik II Yermolov tərəfindən tərtib edilib) sübut edir ki, Qarabağ, İrəvan və Naxçıvan xanlıqlarının əsas əhalisi azərbaycanlılardan ibarət olub.

XIX əsrdə Cənubi Qafqazın Çar Rusiyası tərəfindən işğal edilməsindən sonra ermənilərin Türkmənçay (1828) və Ədirnə (1829) müqavilələrinin şərtlərinə uyğun olaraq, İran və Türkiyədən qeyd edilən xanlıqların tarixi Azərbaycan torpaqlarına kütləvi şəkildə köçürülməsi nəticəsində regionun etno-siyasi xəritəsi dəyişib. Yuxarıda qeyd edildiyi kimi, Alban Həvari Avtokefal kilsəsi Qarabağ ərazisində xristian albanları əhatə olunduqları və əsrlər boyunca onlara tolerantlıq göstərən azərbaycanlı müsəlmanlarla bir araya gətirərək müstəqil dini fəaliyyətini 1836-cı ilədək həyata keçirib. Bunu XIX əsrə aid yazılı mənbədə verilmiş, Qarabağda "şahidlərin sözlərinə görə, hələ 1828-ci ildə monastırlarda sakinlərin olması və onların çiçəklənən vəziyyətdə olması, lakin Alban katolikosluğunun ləğv edilməsindən, yəni 1828-ci ildən sonra... onların əsas hissəsinin dağılmağa başlaması" haqqında məlumatlar da sübut edir. Alban dini irsinin fiziki və konfessional məhvi onun yeparxiyalarının 1836-cı ildə I Nikolayın fərmanı ilə mərkəzi Eçmiadzində olan erməni-qriqorian kilsəsinin tabeçiliyinə verilməsi nəticəsində baş verib. XIX əsrin sonunadək bir çox alban mülki və dini abidələri məhv edildi; Alban (Qandzasar) katolikosluğunun yepiskopluqlarının mərkəzində duran monastırlarda ibadət dayandırıldı, kitabxana və arxivlər yox oldu, alban xristianları konfessional transformasiyaya, deetnizasiyaya məruz qalaraq dağıldı. XX əsrin əvvəlində Eçmiadzin Çar Rusiyasından arxivlərin məhv edilməsi üçün icazə aldı və bu, Alban kilsələri tarixinin XIX əsr boyunca yoxa çıxmasını rəsmi olaraq təsdiq edir.

XX əsrin əvvəlində baş vermiş geosiyasi dəyişikliklər nəticəsində Cənubi Qafqazda tarix boyunca dövlətçiliyə malik olmamış ermənilər və Eçmiadzin tarixi Azərbaycan torpaqlarında Ermənistan SSR və SSRİ-nin tərkibinə daxil olan Azərbaycan SSR-in tərkibində Qarabağ Muxtar Vilayəti formasında dövlətçilik yaratmaq iqtidarında oldular.

Məhz bu səbəbdən, Azərbaycan alimləri XX əsr boyunca Qarabağ ərazisində elmi araşdırmalar aparmaq imkanına sahib ola bilmədi və bu, ermənilərə mövcud alban dini irsini dəyişdirərək qriqorianlaşdırmaq imkanı verdi. Tarix elmində əsas məqsədi Azərbaycan ərazisində Kür çayının sağ sahilinin gələcəkdə Ermənistana birləşdirilməsi üçün bu torpaqların erməni tarix və mədəniyyətinə mənsubluğunun qanunsuz şəkildə saxtalaşdırılmış əsaslandırılması olan ermənişünaslıq adı istiqamət təsdiqini tapdı.

Azərbaycan tarix elminin tərkib hissəsi kimi "Albanşünaslıq" fundamental əsərləri ilə tarixi Azərbaycan torpaqları ilə bağlı erməni konsepsiyalarının qanunsuzluğu və qeyri-elmiliyini sübuta yetirmiş Z.M.Bünyadov, F.Məmmədova, Voroşil Qukasyan, Z.İ.Yampolski, S.M.Qazıyev, D.Ağayev, G.Məmmədova, K.Əliyev, T.Məmmədov, Q.Qoşqarlı, T.Əliyev kimi milli kadrların yetişməsi ilə XX əsrin 60-cı illərindən etibarən inkişaf etməyə başlayıb.

XX əsrin sonlarında SSRİ-nin dağılması ilə formalaşmış yeni geosiyasi şərtlər erməni silahlı qüvvələrinin Qarabağı işğal etməsinə və 2020-ci ilin payız aylarınadək təqribən 30 il ərzində işğal altında saxlamasına imkan verdi.

Etnik baxımdan zəngin olan çoxdinli Ölkəmizin vətənpərvərlik hissi ətrafında dəmir yumruq kimi birləşmiş bütün etnosların və dinlərin, habelə Avropa və ABŞ-dakı Azərbaycan diasporasının dəstəklədiyi **şanlı Azərbaycan ordusu Azərbaycan Prezidenti və Silahlı Qüvvələrin Rəşadətli Ali Baş Komandanı, Böyük Sərkərdə-Xilaskar İlham Əliyevin** rəhbərliyi altında 44 gün ərzində (27 sentyabr–10 noyabr) Cəbrayıl şəhəri daxil olmaqla Cəbrayıl rayonunu

(04.10.2020), Füzuli şəhəri daxil olmaqla Füzuli rayonunu (17.10.2020), Zəngilan şəhəri daxil olmaqla Zəngilan rayonunu (20.10.2020), Qubadlı şəhəri daxil olmaqla Qubadlı rayonunu (25.10.2020), Xocalı və Xocavənd rayonlarının bir sıra kəndlərini, Hadrut şəhərini (09.10.2020) və Qarabağın incisi – Şuşa şəhərini (08.11.2020) işğaldan azad etdi.

Bu zəfər nəticəsində Azərbaycan, Rusiya və Ermənistan arasında bağlanmış **10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatı** ilə Ağdam şəhəri daxil olmaqla Ağdam rayonu (20.11.2020), Kəlbəcər şəhəri daxil olmaqla Kəlbəcər rayonu (25.11.2020), Laçın şəhəri daxil olmaqla Laçın rayonu (01.12.2020), habelə de-yure olaraq Xocavənd, Xocalı, Tərtər və Xankəndi (10.11.2020) Azərbaycana geri qaytarıldı.

Azərbaycan 2020-ci ilin Vətən Müharibəsində qazandığı Böyük Zəfərə görə bütün etnos və dinlərin nümayəndələrindən olan Ölkənin igid döyüşçülərinin şücaətinə borcludur. Şəhidlərin qəhrəmanlığı Azərbaycan tarixinin şanlı səhifəsi kimi əbədi olaraq Azərbaycan xalqının xatirəsində qalacaq. Onların ali vətənpərvərliyi Ölkəmizin multikulturalizm ideologiyasının dəyərini bir daha sübut etdi.

Qarabağın işğaldan azad edilmiş bütün torpaqlarında, ilk növbədə Şuşa və Ağdamda yenidən azan səsləri eşidildi və udinlər Kəlbəcərdəki Xudavənk/Dadivənk, Laçın rayonundakı Ağoğlan alban monastırlarını və Xocavənd rayonunun Tuğ kəndindəki Müqəddəs İohann kilsəsini ziyarət edərək xristian köklərinə qayıtdılar. Yenə də Kalankatlının verdiyi məlumatlara görə, Albaniyada olduğu kimi "torpaq Tanrının müxtəlif dillərdə vəsf edildiyi müqəddəs surələrin səsləndirildiyi dua səslərindən uğuldayacaq...". Bütün Azərbaycanda müsəlman məscidlərində, pirlərində, udin və pravoslav kilsələrində, sinaqoqlarda ölkəmizin vətəndaşları Azərbaycanın Böyük Zəfəri və bu qədim torpaqların çiçəklənməsi üçün dua oxuyur.

Dünya azərbaycanlıların Ümummilli Lideri Heydər Əliyevin sözü ilə desək, Azərbaycan öz ümdə istəyinə – əcdadlarımızın qədim torpaqlarını bərpa etmək, onların məzarlarına baş əymək, məbədlərimizi – müsəlman məscidlərini, pirlərini və alban məbədlərini qurmaq, məhrum olduğumuz mənəvi dəyərlərimizi canlandırmaq və bu əsrarəngiz diyarın təbii gözəlliyini bərpa etmək arzusuna doğru "nəhəng addımlarla irəliləyir".

Heydər Əliyev Fondu Azərbaycanın mədəniyyət paytaxtı, Qarabağın incisi – Şuşa şəhərində **2021-ci ilin 12–13 may tarixlərində** şəhidlərin əziz xatirəsinə həsr edilmiş Beynəlxalq "Xarı-bülbül" Musiqi festivalını təşkil edib və keçirib. Festivalda Azərbaycan Prezidenti və Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev, Birinci vitse-prezident və Birinci xanımı Mehriban Əliyeva, onların qızları Leyla və Arzu Əliyevalar, Azərbaycanın tanınmış mədəniyyət və ictimaiyyət xadimləri iştirak edib. 30 ilə yaxın bir müddətdən sonra Qarabağın dağlarında və Cıdır düzündə Azərbaycan muğamı "Bayatı-Şiraz"ın səsləri eşidilib. Festivalda Ölkəmizdə yaşayan müxtəlif etnosların musiqi və rəqs kollektivləri, tanınmış azərbaycanlı ifaçılar və musiqiçilər Azərbaycanın şəninə çıxış edib. Çıxışlar arasında Bülbül, Seyid Şuşinski, Xan Şuşinski, Rəşid Behbudov, Şövkət Ələkbərova kimi əfsanəvi Azərbaycan müğənnilərinin Şuşada çəkilmiş ifalarının videoçarxları nümayiş olunub. Bundan başqa, Azərbaycan bəstəkarlarının klassik musiqi əsərləri, o cümlədən Üzeyir Hacıbəyovun "Koroğlu" operasından uvertüra və "Qarabağ şikəstəsi" muğamı ifa edilib. Festival çərçivəsində azərbaycanlı və xarici rəssamların əsərləri nümayiş etdirilib. Heydər Əliyev Fondu tərəfindən hazırlanan, Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndələrinin əsərlərinin notlarından ibarət "Əbədi imzalar" toplusu təqdim edilib.

Festivalın sonunda Dünya azərbaycanlıların Ümummilli Lideri Heydər Əliyevin vaxtı ilə işğal altında olan ərazilərimiz haqqında söylədiyi "Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. İnanın ki, gedəcəyik! Şuşa Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün bu iftixar nöqtəsidir. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir. Amma tək Şuşa yox, Laçın dağları da belə əzizdir. Heç vaxt biz Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhər, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o bulaqları, Kəlbəcərin o İstisuyu. Biz onlarsız yaşaya bilmərik, təsəvvür edə bilmərik" fikirlərini və Azərbaycan Prezidenti və Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin Şuşa şəhərinin işğaldan azad edildiyi gün xalqımıza müraciətində dediyi "Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!" sözlərini əks etdirən videoçarx təqdim edilib.

26 may 2021-ci ildə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikası Dini Qurumları İş üzrə Dövlət Komitəsi, AMEA Tarix İnstitutu və Azərbaycan Memarlıq və İnşaat Universiteti birlikdə "Qafqaz Albaniyası: tarix, din və memarlıq" adlı Beynəlxalq elmi konfrans təşkil edib. Konfransda on biri cəkkiz xarici ölkədən olan 26 alim iştirak edib: Almaniya (Jost Gippert), Norveç (Byorn Aqnar Vegge), Gürcüstan (Roman Lolua), Fransa (Jil Otye), İtaliya (Paolo Zammatteo, İqumen Aleksiy (Nikonorov)), Rusiya (Riçard Danakari, Artem Kuranov, Sarxan Başirov), Litva (Rasa Çepaitine), Türkiyə (Salib Ozmen).

Albanşünaslığın tarix, arxeologiya, antropologiya, etnologiya, dilçilik, memarlıq və incəsənət sahələrində vacib problemlərinin araşdırılması, alban etno-mədəni irsinin saxlanması və müdafiə edilməsi Azərbaycan Respublikasının multikulturalizm siyasətinin vacib istiqamətlərindən biridir.

Akademik Kamal Abdullayev

GİRİŞ

Məmmədova Fəridə
Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü,
Azərbaycan Milli Yaradıcılıq Akademiyasının akademiki,
Azərbaycanın Əməkdar elm xadimi, Respublikanın Dövlət mükafatı laureatı,
"Şöhrət" ordeni və "Qızıl Qələm" mükafatçısı, AMEA Tarix İnstitutunun
"Azərbaycanın tarixi coğrafiyası və demoqrafiyası" şöbəsinin müdiri,
tarix elmləri doktoru, professor

AZƏRBAYCAN TARİXİNDƏ GÖRKƏMLİ ALBAN ŞƏXSİYYƏTLƏR

Tarix, xətti və əvvəlcədən müəyyən edilən bir proses deyil və bütünlükdə cəmiyyətin inkişafı ayrı-ayrı insanların iradəsi ilə ləğv oluna bilməyən özünəməxsus qanunauyğunluqlara əsasən baş verir. Lakin insan tarixin gedişatına əhəmiyyətli dərəcədə təsir göstərə bilər və nəticədə tarixi hadisələrin bir çox alternativləri ola bilər. Hər bir şəxsiyyət öz hərəkətlərinə görə tarix və cəmiyyət qarşısında məsuliyyət daşıyır və ümumilikdə cəmiyyətə bu və ya digər dərəcədə təsir göstərir. Cəmiyyət bütün insanların qarşılıqlı fəaliyyətindən ibarət olduğu üçün hər bir şəxsiyyət hətta ən kiçik təfərrüatlarla belə, tarixi faktlara təsir göstərə bilər. Bununla əlaqədar olaraq şəxsiyyətin rolu konkret tarixi hadisə, fenomen və proseslərdə təzahür edir və onu konkret tarixi faktlara əsasən qiymətləndirmək lazımdır [Гущин, 2013, c.233-237].

Alban etno-mədəni irsi ölkəmizin tarixinin xristianlıq səhifəsini və zəngin Azərbaycan etno-mədəni irsinin bir hissəsini təşkil edir.

Məlum olduğu kimi, Albaniya (e.ə. IV əsr – b.e. VIII əsrin əvvəli) Azərbaycan Respublikası ərazisindəki ilk qədim dövlət olub. Ölkənin minillik tarixi boyu sərhədləri şimalda Dərbənddən cənubda Araz çayına, şərqdə isə Xəzər dənizindən qərbdə Gürcüstan (İberiya) sərhədlərinə (Xnarakert qalasına, İori və Alazan çaylarının yuxarı axınına Kür və Xrami çaylarının kəsişməsinədək) uzanırdı [Мамедова, 1986, c.89, 121, 127-139, 143, 150-151; Мамедова, 2005, c.247, 273].

Ölkənin yerli Aranşahilər sülaləsindən, daha sonra isə fars mənşəli Arşakilər və Mehranilər sülaləsindən çıxmış hakimləri VIII əsrin əvvəllərində Alban dövlətinin süqutundan əvvəl yetərincə mürəkkəb geosiyasi şərtlərdə Albaniyanın müstəqilliyinin qorunmasına və çiçəklənməsinə yönəlmiş Albaniya yönümlü siyasət aparırdılar.

IX–XVIII əsrlərdə Qarabağın və Zəngəzurun ayrı-ayrı ərazilərində bu nəsillərin nümayəndələri Alban hökmranlığının (çarlığın) dirçəlişi ideyasını həyata keçirməyə cəhd göstərmişlər. IV əsrdən XIX əsrin əvvəllərinədək Alban Apostol Avtokefal kilsəsinin müstəqilliyinin və alban mənəvi dəyərlərinin qorunub saxlanılmasına bir sıra görkəmli alban patriarxlarının-katolikoslarının fəaliyyəti qeyd olunmalıdır.

Əsrlər boyunca intellektual yaradıcı alban elitası bir sıra tarixi xronikalar, agioqrafik ədəbiyyat, hüquqi əsərlər yaratmış və ermənilərin yanlış olaraq mətnləri redaktə etməsinə və mətnlərin mənalarını dəyişməsinə baxmayaraq, bu əsərlərdə Azərbaycanın alban etnomədəni irsi – tarixi, hüquq elmi, dini və memarlığı haqqındakı dəyərli məlumatlar günümüzə gəlib çatmışdır.

Məlum olduğu kimi, fars (parfiyalı) Arşakilərin Qafqazda tabeliyindəki ölkələrə qarşı siyasəti qeyri-stabil idi. Hər bir çarlığın asılılıq dərəcəsi müxtəlif vaxtlarda fərqli olmuşdur. E.ə. II–I əsrlərdə Arşakilər tabeliyindəki ölkələrə nəzarət etmək üçün yerli sülalələrin hakimiyyətini qoruyub

saxlayırdılar. Kalankatuklunun bildirdiyinə görə "Valar şahın əmri ilə İafetin nəslinin Sisakan soyundan çıxmış bir nəfər (Aran) onların hamısının başçısı təyin olundu ki, Albaniyanın Erasx çayından Xnarakert qalasına qədər bütün düzləri və dağları ona miras qaldı… Deyilənlərə görə, parfiyalı Valar şah Aranın cəsur və məşhur nəsli üzvlərindən ölkə üzərində voyevoda təyin etdi... Deyilənlərə görə, onun övladlarından Uti, Qardman, Sovdi və Qarqar knyazlıqlarının xalqları törədi" [Каланкат., I, 4, c.5]. Beləliklə, mənşəcə Sisakın (Sisakanın-Sünikin) alban vilayətindən olan Aran Aranşahilər sülaləsinin banisi oldu.

Arşakilər Persiyasının vassallığındakı çarlıqlarda separatizm artdıqca yerli sülalələri kənarlaşdırır və Arşakilər sülaləsinin nümayəndələrinin hakimiyyətini -bərqərar edirdi. Eramızın. I əsrində Albaniyada, Persiddə, Elimaiddə, Atropatenada, Hirkaniyədə, Hindistanda, Ermənistanda, Gürcüstanda, Maxeloniyada kiçik Arşakilər belə yaranmışdı.

Alban Arşakilərinə dair əsas mənbələr Musa Kalankatuklu, Favstos Buzandasi, Yegişe, Xorenasi, Aqafangel, "müqəddəslərin həyatları" (agioqrafik əsərlər), "Carıntir"[1], Gəncəli Kirakos və Mxitar Ayrivanesin yazdıqlarıdır. Kalankatuklu Arşakilər sülaləsinə mənsub 10 alban hökmdarının siyahısını saxlamışdır: "Arandan böyük Arşakilər sülaləsindən olan cəsur Vaçaqana qədər keçən günlərin sayı məlum deyil. Albaniyaya hökmranlıq etmiş hökmdarların adları ardıcıllıqla belədir: Cəsur Vaçaqan (I), Vaçe (I), Urnayr, Vaçaqan (II), Mirhavan, Satoy, Asay, Asuagen, Vaçe (II), ondan sonra Mömin Vaçaqan (III)" [Каланкат., I, 15, c.31].

Persiya hökmdarları Albaniyanın strateji əhəmiyyətini (Qafqaz keçidlərinin köçərilərdən müdafiəsini), təbii resurslarını, ticarət yollarını nəzərə alaraq I–VI əsrlərdə Albaniya dövlət quruluşunu qoruyub saxlamışdılar. Lakin alban Arşakiləri fars mənşəli olmalarına və İran şahları ilə qohumluqlarına baxmayaraq, həmişə müstəqil hakim olmağa can atırdılar. Albaniya mərkəzləşmiş feodal dövləti idi. Hökmdar dünyəvi və dini hakimiyyətin qanunverici və məşvərət orqanına rəhbərlik edirdi və ölkənin bütün hərbi qüvvələrinin baş komandanı idi. Beləliklə, Alban dövləti alban Arşakilərinin hakimiyyəti dövründə qədim Albaniyanın ənənələrini davam etdirmiş və suveren dövlət olmuşdur.

Albaniyada ilk Arşaki hökmdarı Cəsur I Vaçaqan olmuşdur. O, Albaniyanın bütün əyalətlərini birləşdirməyə və vahid mərkəzləşdirilmiş çarlıq yaratmağa [Каланкат., I, 6, c.6] nail oldu ki, onun hakimiyyətinin tarixi əhəmiyyəti də bundan ibarətdir. V əsrədək Alban dövlətinin paytaxtı Kabala (Kabalaka/Qəbələ) şəhəri olmuşdur.

Alban hökmdarı Urnayr [Каланкат., I, 8-10, 13, c.8-11, 23] bacısı ilə evli olduğu fars hökmdarı Uzunömürlü II Şapurun (309–379-cu illər), Bizans imperatoru Böyük Konstantinin (337–361-ci illər) və erməni çarları III Trdat (287–330-cu illər), Tiran (338–345-ci illər), Arşak (345–367-ci illər) və Papın (370–374-cü illər) müasiri idi. Urnayrın adının çəkildiyi ən erkən tarix xristianlığın qəbulu ilə əlaqədar olaraq 313/4-cü ilə [Каланкат, I, 9, c.9], son tarix isə Dzirav döyüşü ilə əlaqədar olaraq 371-ci ilə [Бузандаци, V, 4; Каланкат., I, 13, c.23] aiddir.

Albaniyada xristianlığın təbliğinin qrekofil dövrü Maarifçi Qriqorinin və alban hökmdarı Urnayrın adı ilə bağlıdır. 313/4-cü illərdə xristianlıq Albaniyada dövlət dininə çevrildi [Каланкат, I, 9, 14, c.9, 23]. Qeysəriyyədə baş keşiş (kahanayapet) rütbəsi ilə ordinasiya olunmuş Maarifçi Qriqori (o da Urnayr kimi etnik olaraq parfiyalı idi) Ermənistandan başqa "İberiya ölkəsində və Albaniyada maarifçiliklə məşğul olurdu. Qaband vilayətinə (Albaniya) gəldikdə o, əhaliyə Tanrının Oğlunun hökmünə riayət etməyi nəsihət etdi, Amaras şəhərində kilsənin əsasını qoydu və kilsənin tikintisini tamamlamaq üçün işçilər və gözətçilər təyin etdi" [Каланкат., I, 14, c.26]. Albaniyada xristianlığın Ermənistandan tez yayıldığını alban tarixçisinin aşağıdakı bir sıra mətnləri təsdiq edir: "yunan xronologiyasının 43-cü ilində ermənilər albanların maariflənməsindən 270 il sonra..."; erməni katalikosu Avraamın albanlara ünvanlanmış "Bizimkindən (erməni) əvvəl mövcud olmuş alban taxtı əvvəllər bizimlə (ermənilərlə) razı olurdu" [Каланкат., II, 47, c.216]; "Mübarək Yelisey həvari fəaliyyətinə məmləkətin ucqar yerlərindən başlayaraq Şərqimizin (Albaniyanın) bütün hissələrini deyil, yalnız şimal hissəsini maarifləndirdi və öz xalqı üçün xeyirxah mübarizə aparmaqla özü də

[1] "Carıntir" həcminə və məzmununa görə müxtəlif olan və kilsə xadimlərinin nitqlərinin, martiroloji və digər əsərlərin cəmləşdiyi toplulardır. "Carıntir" icma üzvlərinin doqmatik tərbiyəsini təmin etmək üçündür.

əziyyət çəkdi. Lakin Tanrı bəşəriyyəti ziyarət edərkən bütün Qərbi böyük imperator Konstantinlə nurlandırdı...həqiqi günəşin xilasedici təzahürünü artıq dərk etmiş Şərqi (Albaniyanı) da dinə qaytardı. ***Albanlar ikinci dəfə və daha mükəmməl şəkildə*** Urnayr tərəfindən maarifləndirildilər**.** ***Bütün bu möcüzələr bir anda Tanrı tərəfindən baş verirdi"*** [Каланкат., I, 9, с.9-10].

Yuxarıda qeyd olunanları nəzərə aldıqda elmdə ilk xristian təbliğçilərinin Ermənistandan Albaniyaya yollandığına dair hökm sürən fikrin əsassız **olduğu görünür.**

Urnayrın daxili siyasəti bütpərəstliklə mübarizə, kilsə üçün torpaqların ayrılması, təyinatlar, kilsəyə ilk bəhrələrin, kilsə desyatinlərinin verilməsi ilə səciyyələnirdi [Каланкат., I, 11, с.15]. Lakin Urnayrın dövründə xristianlıq hər yerdə yayılmadı və ümumi din olmadı. Bu din hökmdar, saray əhli, zadəganlar və əhalinin bir hissəsi tərəfindən qəbul olunmaqla formalaşmaqda olan feodal mədəniyyətinin ideoloji əsasına çevrildi. Əsasında təbiət qüvvələrinə sitayişin dayandığı qədim bütpərəst inancları, tenqriçilik, maniçilik, məzdəkilik, zərdüştlük ehkamları var olmağa davam edirdi. Urnayrın xarici siyasəti ilə bağlı isə Albaniyanın II Şapurun vassalı və müttəfiqi olaraq fars–Roma müharibələrinə cəlb olunduğu məlumdur. Belə ki, 359-cu ildə romalılar və farslar arasındakı Amid döyüşündə alban hökmdarı Urnayr fars hökmdarı II Şapuru müşayiət edirdi (Аммиан Марцелин, кн.XVIII, гл.6). Kalankatuklu onu "böyük müharibələrdə şanlı adı miras alaraq Ermənistanın daxilində qələbə bayrağını sancmış rəşadətli ər" adlandırırdı [Каланкат., I, 9, с.10]. Lakin müəllifin hansı müharibələri nəzərdə tutduğu naməlum olaraq qalır. Hökmdar Urnayr 371-ci ildə Dzirav çölündəki döyüşdə də II Şapura Roma və erməni qoşunlarına qarşı köməklik göstərdi (Бузандаци**,** V, 4). Urnayr bu döyüşdə Muşeq Mamikonyan tərəfindən yaralandı [Каланкат., I, 13, с.23; Бузандаци, V, 4]. Onun haqqında məlumatlar bununla bitmir.

Xülasə olaraq, qeyd etmək lazımdır ki, alban hökmdarı Urnayr xristianlığı Albaniyanın rəsmi dini elan edərək təkallahlı dinin köməy ilə Albaniyanın multietnik və polikonfessional əhalisini **birləşdirmiş və Persiyanın zərdüştlüyünə, məzdəkiliyinə qarşı mübarizə** üçün **mühüm addım atmaqla** ölkənin **tarixində mühüm rol oynamışdır.**

Bu ideologiyanı həm vahid konfessiya ilə politeizmi aradan qaldırmağa çalışan alban hökmdarları Arşakilər, həm də daha sonralar onların ardıcılları olan böyük Mehrani knyazları davam etdirmişdilər. IV əsrin sonlarında Albaniyada artıq özünəməxsus subordinasiyası olan zəruri kilsə ierarxiyası formalaşmışdı. Bu, alban ruhanilərinin kilsə başçısını özlərinin təyin etməsinə imkan yaratdı. Kalankatuklu yazır: "Bizim [alban] katolikosun təyin edilməsinə gəlincə, müqəddəs Qriqorisə qədər birincilər [alban katolikosları] Yerusəlimdən [təyin] edilirdilər. Bundan sonra bizim yepiskoplarımız tərəfindən [təyin] edilirlər" [Каланкат., III, 8, рук. С-59].

IV əsrdə alban dilində yazının və ədəbiyyatın yaranması Albaniyanın xristianlaşdırılması ilə bağlıdır. Suriya və yunan dillərindən İncil və digər teoloji ədəbiyyat alban dilinə tərcümə olunurdu. 1996-cı ildə Gürcüstan EA-nın müxbir üzvü Z.N.Aleksidze tərəfindən Sinay dağındakı Müqəddəs Katerina monastırında aşkarlanmış gürcü-alban palimpsesti (M/8т-13, M/5ш-50) bunun sübutu olaraq çıxış edir. Yalnız öz dilində İncilin bütöv mətninə malik xalq leksionari yarada bilər. Bu leksionari heç bir dildən tərcümə olunmayıb, alban dilindəki İncil kitabının əsasında tərtib olunub və hazırda itmiş olan yunan leksionarisi əsasında təqdim olunub [Алексидзе, 2002, 15-26].

Bu, alban əlifbasının **guya V** əsrdə **Mesrop Maştos tərəfindən yaradıld**ığını **bildirən erməni uydurmasının** əsassız **olduğunu təsdiqləyir.** Əslində **o heç erməni** əlifbasını **da icad etməyib, sadəcə onu efiopiyalılardan mənimsəyib** [Ольдеропе, 1975, с.208].

Alban hökmdarı **Asuagenin (Yesuagenin)** hakimiyyətinin tarixi əhəmiyyəti ondan ibarət idi ki, onun dövründə köhnə alban yazısının təkmilləşdirilməsi yolu ilə **yenisi yarandı**. Buna dair məlumatlar Kalankatuklunun və V–VIII əsrdəki erməni müəllifləri olan Koryun və M.Xorenasinin əsərlərində günümüzə gəlib çatmışdır. Yesuagen tərəfindən **alban uşaqlarının təhsilinin** təşkili isə xüsusi maraq kəsb edir. O "ölkənin vilayət və bölgələrindən bir çox uşağa xəttatlıq sənətini öyrətməyi, onları qruplar şəklində məktəblərə, münasib və rahat yerlərə göndərməyi və onlar üçün "qida ehtiyatı" ayırmağı əmr etdi" [Тревер, 1959, с.308-309].

444-cü ildə Yesuagenin və fars hökmdarı II Yezdəgirdin (438–457-cü illər) bacısının oğlu **II Vaçe** alban hökmdarı oldu. 428-ci ildə Sasanilər

Ermənistanda hökmdar hakimiyyətini ləğv edərək onu canişinliyə çevirdilər. Albaniya bu dövrdə hökmdar hakimiyyətini, dünyəvi feodalların və ruhanilərin imtiyazlarını qoruyub saxlamış vassal ölkə idi. Alban hökmdarlarının separatizmi Albaniya, Gürcüstan və Ermənistanın hərbi qüvvələrini səfərbər edərək ölkənin şimal-şərq sərhədlərinə hunlarla mübarizəyə göndərmiş II Yezdəgirdi narahat edirdi (Yegişe**,** I). İqtisadi, siyasi və mədəni-ideoloji təzyiq 450–451-ci illərdə alban, iber və ermənilərin farslar əleyhinə hərəkatına səbəb oldu. Hərəkatın başlaması üçün bəhanə 700 nəfər olaraq gəlmiş və 300-nün albanları məzdəkiliyə yönəltmək üçün təyin olunduğu fars maqların məzdəkiliyi yaymaq cəhdi oldu (Yegişe, II). Alban hökmdarı II Vaçe üsyançıları dəstəkləyə bilmədi. Belə ki, o, II Yezdəgirdin fars sarayında məzdəkiliyi qəbul etməyə məcbur edilən əsir idi (Yegişe). Albaniyadakı üsyana ölkənin katalikosu və xazarapeti rəhbərlik edirdi [Калакатуйский, II, 2, с.85; Егишэ, III]. Üsyan 451-ci ildə yatırıldı, II Yezdəgird güzəştə getmədi. 457-ci ildə II Yezdəgirdin ölümündən sonra İranda hakimiyyət uğrundakı daxili müharibədən istifadə edən hökmdar II Vaçe farslar əleyhinə üsyana rəhbərlik etdi (457–463-cü illər) [Каланкат., I, 10, с.11; Егишэ, X]. Üsyanın xarici təzahürü II Vaçenin məcburən qəbul etdiyi zərdüştlükdən üz döndərməsi oldu. 459-cu ildə İranda hakimiyyətə Firuz (459–484-cü illər) gəldi və onun dövründə tabeliyindəki xalqların ağır vəziyyəti uzun illər davam edən quraqlıq, qıtlıq və onun xarici düşmənlərlə apardığı müharibələrlə daha da ağırlaşdı. Alban üsyançıları Çol keçidlərini ələ keçirmiş, maskut qoşunlarını buraxaraq Böyük Qafqazın on bir "hökmdarı" ilə ittifaq bağlamış və onların köməyilə Albaniyaya soxulmuş sasani qoşunlarına qarşı iki il uğurlu hərbi əməliyyat aparmışdılar. Farsların dəfələrlə II Vaçe ilə danışıqlara başlamaq cəhdləri əbəs oldu. Bu zaman Firuz külli miqdarda pulla hunları-onoqurları çağırdı və onlar Alan darvazasından (Dəryal) Albaniyaya soxuldular (Yegişe, VII). 462-ci ildən başlayaraq onoqurlar bütün il boyu alban hökmdarı ilə savaşdılar [Каланкат., I, 10, с.11-12; Егишэ, VII]. Albaniyadakı üsyan yalnız 463-cü ildə yatırıldı. Hökmdar Firuzun əmri ilə II Vaçe Firuzabad (Partav) şəhərini saldı [Каланкат., I, 5, с.6] və bu şəhər VIII əsrin əvvəlinədək Albaniyanın paytaxtı oldu. Paytaxtın Qəbələdən Partav şəhərinə köçürülməsi və Alban patriarxlığının taxtının Çol şəhərindən gətirilməsi kilsəni və Müqəddəs Kitabı yandırmış köçərilərin (xəzər, sabir) Albaniyaya tez-tez baş verən hücumları, şəhərin və kəndin dağıdılması ilə izah olunur [Каланкат., II**,** 4, с.90]. Sasanilər yenidən Albaniyada möhkəmləndilər, hökmdarlıqdan əl çəkən II Vaçe atasının mirası olan 1000 evdən ibarət torpaq payının özünə qalması üçün Firuzdan icazə aldı. Yepiskop Gütün hökmdar II Vaçeyə taxtdan əl çəkdikdən sonra yazdığı məktub bir növ II Vaçenin şərəfinə himn hesab olunur [Каланкат., I, 10, с.12, II]. **Beləliklə, alban hökmdarı Arşaki II Vaçenin hökmdarlığı Albaniyanın, başda alban katolikosu** olmaqla, 450–451-ci illərdə **farslar** əleyhinə **hərəkatda iştirakı, 457–463-cü illərdə Albaniyada hökmdar II Vaçenin başçılıq etdiyi farslar** əleyhinə üsyan **və onun tərəfindən Albaniyanın yeni paytaxtı olan Partav (Bərdə)** şəhərinin **tikilməsi ilə yadda qalmışdır.**

463-cü ildə Albaniyada hökmdar hakimiyyəti ləğv olundu və fars canişinlərinin (mərzbanlarının) rejimi quruldu. "Vaçedən Mömin Vaçaqana qədər 30 il ərzində Albaniya hökmdarsız qaldı..." [Каланкат., I, 16, с.32]. Firuzun uğursuz müharibələri, albanlara qarşı cəza səfərləri, vergi zülmünün artması, naxararların irsi imtiyazlarının məhdudlaşdırılması, dini təqiblər Albaniya, İberiya və Ermənistanda baş verən üsyanların səbəbləri idi (481–484-cü illər). Firuz öldürüldü və 484-cü ildə eftalitlər Persiyanın hüdudlarına soxuldular. Bu, fars qoşunlarını Albaniyadan çıxmağa məcbur etdi. Persiyadakı ağır siyasi və iqtisadi vəziyyət bu dövləti Qafqaz xalqları ilə sülh bağlamağa vadar etdi. Nvarsak sülhünün şərtlərinə əsasən Albaniyada Arşakilərin hökmdar hakimiyyəti, etiqad azadlığı, alban zadəganlarının imtiyazları bərpa olundu və naxarar nəslinin iyerarxiya prinsipi sarsılmaz olaraq qaldı. Sasanilər məzdəkiliyi zorla qəbul etdirməməyi öhdələrinə götürdülər, xristianlar isə atəşpərəstləri öz inanclarına döndərməməli idilər. Albaniyadan Persiyaya gedəcək xəracın miqdarı azaldıldı. Albanlar Persiyanın süvari qoşununa atlı göndərməkdən azad olundu.

487-ci ildə "yenidən bir hökmdarlıqda birləşmiş Albaniya sakinləri hökmdarın övladlarından Yezdəgirdin oğlu, alban hökmdarı Vaçenin qardaşı, cəsur, müdrik... Vaçaqanı fars hökmdarı Valar şahın köməy ilə taxta çıxardılar" [Каланкат., I, 17, с.36]. Alban hökmdarı **III Mömin Vaçaqan** ölkədə dini birliyə, xristianlığın ümumi dövlət dininə çevrilmə-

sinə nail olmağa can atırdı. O, bu məqsədlə atəşpərəstləri inadla təqib etmiş, bütün bütpərəst sektaların kökünü kəsmiş, məktəblər açmış, "ildəki günlərin sayı qədər kilsə və monastırlar" tikmiş [Каланкат., III, 22, c.276] və kilsə rütbələrini bərpa etmişdi. 488-ci ildə III Vaçaqan tərəfindən çağırılmış Aquen məclisinin səbəblərini izah edərkən Kalankatuklu bildirir ki, "dünyəvilərlə ruhanilər arasında, azadlarla rəiyyət (ramiklər) arasında narazılıqlar yarandı; bu zaman hökmdar böyük divanxana olan məclis çağırmaq istədi" [Каланкат., I, 26, c.65]. III Vaçaqan Aquen kanonlarının köməyilə dövlət hakimiyyətini gücləndirməyə, özbaşına feodalların (azadların) qarşısını almağa, ruhanilərin hüquqlarını dünyəvi zadəganlarla bərabərləşdirməyə, vergi verən zümrənin dünyəvi zadəganlarla və ruhanilərlə münasibətlərini tənzimləməyə, ölkənin siyasi müstəqilliyini qoruyub saxlamaq və digər dini təsirlərlə mübarizə aparmaq üçün bütün təbəqələrin dini vəhdətinə nail olmağa çalışırdı. Albaniyada xristianlığa müxalif nestorianlıq və maniçilik də təbliğ olunurdu, təbliğçiləri isə Nestorun tərəfdarı suriyalı İbasın (457-ci ildə ölmüşdür) ardıcılları və suriyalı maniçi Bundosun (V əsr) ardıcılları idi. 488-ci ildəki Aquen məclisinin kanonlarına əsasən alban ruhaniləri dünyəvi zadəganlar olan azadlar qarşısında öz hüquqlarını qoruyur və hüquqi cəhətdən onlarla bərabər olmağa çalışırdılarsa, 705-ci ildəki kanonlara əsasən ruhanilər azadlarla mübarizəyə girmiş, onların özbaşınalığını məhdudlaşdırmış və Kilsənin və ruhanilərin işlərinə qarışmağı onlara qəti surətdə qadağan etmişdilər [Каланкат., I, 26, c.65-69, III, 11, c.248-252].

Bir daha qeyd etmək lazımdır ki, hökmdarlar Urnayr, II Vaçe, III Vaçaqan müxtəlif bütpərəst inanclara qarşı amansız mübarizə apararaq onların kökünü kəsməyə çalışmışlar. **III Mömin Vaçaqanın hökmdarlığı Albaniyanın siyasi və mədəni–dini dirçəlişi demək idi.**

510–629-cu illərdə Sasanilər Albaniyada fars canişinlərinin (mərzbanların) hakimiyyətini bərpa etdilər. VI əsrin ortalarında I Xosrov Ənuşirəvanın (531–579-cu illər) hərbi-inzibati islahatları nəticəsində Albaniya bir fars mərzbanı tərəfindən idarə olunan Şimal Adurbadagan mərzbanlığına daxil idi.

III Mömin Vaçaqanın ölümündən sonra "bu nəsil zəifləməyə başladı və Mehran soyundan, Sasanilər nəslindən olan knyazlar Persiyadan gələrək Albaniyada möhkəmləndilər" [Каланкат., III, 22, c.276]. Kalankatuklu alban Mehranilər soyunun genealogiyasını verir: Mehr, Armael, Vard, Cəsur Vardan, Vard, Varazman, Varaz-Qriqor, Varaz-Firuz, Cavanşir, Yezud-Xosrov və Varazman [Каланкат., II, 17, c.135-137, III, 22, c.276-277]. Sasanilərin alban Mehranilərlə bağlı ümidləri doğrulmadı. Mehranilər etnik farslar olaraq xristianlığı qəbul edərək yerli alban zadəganları ilə qohum oldular, alban mədəniyyəti və dilinə daxil oldular. V.V.Bartold hesab edirdi ki, Albaniyada Mehranilərin simasında "yenidən alban milli sülaləsi bərpa olundu, lakin fars mənşəli idi". Alban Mehraniləri albanyönümlü siyasəti davam etdirirdilər. Albaniyada 603-cü ildə bərqərar olsalar da, yalnız 630-cü ildən etibarən Albaniyanın "ilk böyük knyazları" oldular.

Mehranilərin hakimiyyəti dövründəki görkəmli alban şəxsiyyətləri arasında alban **katolikosu Vironu** (536–630-cu illər) qeyd etmək lazımdır [Каланкат., III, 23, c.281]. İran-bizans müharibələrindən istifadə edən Albaniya əhalisi 603–604-cü illərdə katolikos Vironun başçılığı altında sasani zülmünə qarşı üsyan qaldırdı. Üsyan II Xosrov tərəfindən amansızcasına yatırıldı. Alban zadəganlarının bir çox nümayəndəsi həlak oldu, Xosrovun arvadı Şirinin havadarlığı sayəsində alban katolikosu Viro II sağ qaldı. O, 25 il fars sarayında bu şərtlə saxlanıldı ki, ömrünün sonuna qədər "öz ölkəsinə qayıtmayacaq, sarayda nəzarət altında qalacaqdı. O, [II Xosrov] patriarx gəlirini onun əlindən almadı və onu katolikos rütbəsindən məhrum etmədi" [Каланкат., II, 14, c.117-118]. Alban katolikosu Viro dustaq olduğu halda II Xosrovun Mehranilər sülaləsindən olan alban knyazlarına "Qardman hakimləri və Albaniya knyazları" titulu verilməsinə dair sərəncam verməsinə nail oldu [Каланкат., II, 23]. II Xosrov fars kilsə məclisini çağırdı və 641-ci ildə bu məclisə əsasən Bizansın diofizitizminə qarşı monfizitizmi Persiyada, Qafqazda və Bizansın işğal olunmuş şərq əyalətlərində tabeliyindəki bütün xristianların rəsmi dini etdi. 624–628-ci illərdə Albaniya və İberiya fars-bizans müharibələrinin əsas arenasına çevrildi [Каланкат., II, 9-12, c.97-109]. 629-cu ildə Xəzərlər Şatın başçılığı altında yenidən Albaniyaya soxuldular. Fars mərzbanı Persiyaya qaçdı, alban zadəganları isə fars əsirliyindən qayıtmış katolikos Vironun başçılığı altında 629–630-cu illərdə xəzərlərin üstün gücünü qəbul etdilər [Каланкат., II, 14, 16, 169, c.121-134]. Cəbu xaqanın qətli və Xəzər dövlətindəki daxili müharibələr xəzərlərin Albaniyada hökmranlığına son

qoydu və Albaniya müstəqillik əldə etdi. Buna Bizans və Persiyanın 628–629-cu illərdə fars-bizans müharibələrindən yorğun çıxması səbəb oldu. 630-cu ildə katolikos Viro Varaz-Qriqor Mehranini (630–642-ci illər) xaç suyuna çəkdi. O, monofelitlikdən monofizitizmə keçmiş və katolikos Vironun fars şahənşahı II Xosrovdan aldığı Albaniyanın böyük knyazı titulu ilə ölkəyə başçılıq etmişdir. Albaniya Xəzərlər tərəfindən talan edilmişdi, ölkədə aclıq və epidemiya baş alıb gedirdi, bunların qurbanları arasında Albaniyanın katolikosu Viro da var idi (630-cu il).

Katolikos Vironun patriarxlığının tarixi əhəmiyyəti **ondan ibarət idi ki, o farslar** əleyhinə üsyana **rəhbərlik etmişdi və** üsyan **yatırıldıqdan sonra II Xosrovun** əsirliyində **olduğu halda alban Mehraniləri** üçün **"Qardman hakimləri və Albaniya knyazları" titulunun verilməsinə nail olmuşdu.**

Albaniya Sasani Persiyasının təsir sferasında qaldı. Bu zaman Yaxın Şərqdə ərəblər güclənir və 632-ci ildə Persiyaya doğru hərəkət edirdilər [Каланкат., II, 18, с.137]. Onlar Qafqaz ölkələrinə münasibətdə Sasanilərin siyasətini davam etdirərək Qafqaz xalqlarını Bizansdan ayırır və monofizitizmi dəstəkləyirdilər. III Yezdəgird ərəblərlə mübarizə üçün tabeliyində olan ölkələrin hökmdarlarından yardımçı qoşun tələb edirdi.

Kalankatuklu yazır: "Varaz-Qriqor ikinci oğluna, qürurlu, vüqarlı və yaraşıqlı **Cavanşirə** diqqət yetirdi... silahlarda mahir, qartal kimi çevik, atasının dayağı olan, hər şeydə müvəffəq olan Cavanşir öz aləmində ona dünyəvi işlərdə kömək etməyə, böyüklərə tay olmağa və hökmdarların yanında olmağa hazırlaşırdı" [Каланкат., II, 18, с.137]. 636–642-ci illərdə Cavanşir alban qoşunlarının baş komandanı olaraq farsların ordusuna daxil olmuşdu. Kadisiyyədə Ölü suların sahilindəki döyüşdə (637-ci il) o, cəsurluğu ilə seçildi və III Yezdəgird tərəfindən layiqincə qiymətləndirildi. "Yezdəgird ona bayraqlar və gurultulu borular, iki qızıl mizraq və iki qızıl suyuna salınmış qalxan verdi – bunları hər zaman onun önündə aparırdılar. Belinə üzərinə mirvari düzülmüş qızıl kəmər və sapı qızıldan olan qılınc saldı, qoluna bilərzik verdi və başına gözəl çələng taxdı. Ona həmçinin üzərinə mirvari səpələnmiş sarğılar verdi və boynuna mirvari düzülmüş çoxlu sap saldı" [Каланкат., II, 18, с.138-139]. 640-cı ildə ərəblər Persiyanın paytaxtı Ktesifonu mühasirəyə aldıqda Cavanşir altı ay ərzində alban qoşununun (3 min nəfərlik) başında farslarla birlikdə şəhəri müdafiə etmişdir. O həmçinin, 642-ci ildə fars ordusunun tamamilə alt-üst olduğu Nəhavənd döyüşündə iştirak etmişdir. Beləliklə, Cavanşir yeddi il boyunca (635/6–642/3-cü illər) müharibələrdə iştirak edərək 11 ağır yara almış və Albaniyaya geri qayıtmışdı. 642–643-cü illərdə o, Varaz Qriqorun sağlığında Albaniyanın birinci böyük knyazı oldu. "Mübarək Cavanşir fars müharibələrindən şanlı adla geri qayıtdı və hökmdarın əmri ilə bütün Albaniyanı özü ilə ucaltdı" [Каланкат., II, 19, с.141]. Az sonra Cavanşir fars hökmdarlarına qarşı üsyan qaldırdı. Knyaz Varaz Qriqorla yanaşı Partavdan (Bərdədən) şimala, Kür çayının sol sahilinə çıxdı. Bu zaman Albaniyaya Sasanilər dövlətinin ərəblər tərəfindən dağılmasından sonra Albaniyada möhkəmlənməyə çalışan fars qoşunları soxuldu. Cavanşir Qardman və Kambisen vilayətlərini farslardan təmizlədi və burada İberiya hökmdarı Atrnersexlə ittifaq bağladı. Cavanşir köməyə gürcü qoşunlarını alaraq Uti vilayətinə yola düşdü, oradan farsları qovdu, paytaxt Partavı onlardan təmizlədi, farslar tərəfindən əsir alınmış qohumlarını (anasını və qardaşlarını) azad etdi. Atropatenadan göndərilmiş yeni fars qoşunları Sakasen vilayətindəki iki döyüşdə Cavanşir tərəfindən məğlub edildi. Cavanşir farslarla sülh bağladı. "ilk şərq (alban) hökmdarlarının müstəqilliyini xatırlayaraq və onları hökmdar cah-cəlalındakı özü ilə müqayisə edərək bir daha öz knyazlığını heç kimə tabe etməməyi qərara aldı" [Каланкат., II, 19, с.141-143]. Onun farslarla Albaniyanın müstəqilliyi uğrunda mübarizəsi ərəblərin hücumu ilə bitir. 642–645-ci illərdə farslar Atropatena tərəfdən Mərkəzi Qafqaza hücum etdilər və Albaniyaya daxil oldular, lakin orda məskunlaşmağa macal tapmadılar (Себеос, XLIX).

Bu dövrdə Ermənistan praktiki olaraq Bizans imperiyasının əyaləti idi, bu səbəbdən ermənilər ərəblərin gəlişi ilə nisbi müstəqillik əldə edəcəklərinə və erməni əyalətlərinin birləşəcəyinə ümid bəsləyirdilər.

Böyük knyaz Cavanşir ərəblərə qarşı mübarizədə Bizansın vassalı olmağı zəruri hesab etdi. Bizans imperatoru II Konstantinə (641–668-ci illər) göndərdiyi məktubda Knyaz Cavanşir yazırdı: "Qüdrətli ağa, əzəmətli və lütfkar hökmdar yunan Konstant... asparapet və alban knyazı Cavanşir itaətkar Şərq ölkəsindən sənə təzim edir və səni itaətkarlıqla salamlayır. Xristianlığa layiq hökm-

ranlığın qoy uzaq xalqı yeni təbəəliyə qəbul etməyə razı olsun...” [Каланкат., II, 20, c.144-145]. Bizans imperatoru cavab məktubunda öz razılığını bildirmiş və Cavanşiri “Qardman hakimi, Albaniya knyazı, asparapet və protopatriki adlandırmışdı” [Каланкат., II, 21, c.145-146]. Cavanşirə bəxşişlərdən başqa 1200 kişini patrik, ipat, apoipat və digər Bizans titullarına yüksəltmək üçün pativlər (ehtiram, vəzifə) göndərildi [Каланкат., II, 20, c.145]. 660-cı ildə Cavanşir imperator II Konstantinlə iki dəfə görüşmüş (Persiyada və Vaqarşapat şəhərində) və imperator onu böyük ehtiramla qəbul etmişdi: “Cavanşir imperator sarayına ***hökmdar kimi*** daxil oldu”, “imperator ***ona bütün əyanlardan yüksək hörmət göstərdi”,*** “imperator cəsur babası Heraklın və ulu babası Nikitanın kəmərini onun belinə saldı”, “imperator ona müqəddəs Xaçın bir hissəsini, hökmdar paltarları verdi”, “ona iki bayraq verdi”, “imperator onun oğullarını patrisilər etdi”. “Erməni əyanları və sərkərdə Amazasp ona bu cür valehdici hədiyyələr çatdığını gördükdə güclü həsəd apardılar... İmperator onu Ararat azadlarının müşayiətində öz qulu kimi yox, ***birgə taxt-tacda oturduğu qardaşı kimi yola saldı...”***. “O [Konstant] ona [Cavanşirə] nəsildən-nəsilə bütün kəndləri və ***alban hökmdarlarının məmləkətlərini*** verdi və ona Şərqi ***hökmdar kimi*** qorumağı həvalə etdi” [Каланкат., II, 22, c.147]. Knyaz Cavanşir Albaniya dövlətini Bizansdan vassal asılılığı şərtilə qoruyub saxlaya bildi. 664–665-ci illərdə xəzərlər yenidən Albaniyaya hücum etdilər, bu səbəbdən Cavanşir xəzərlərlə ittifaq bağladı və xəzər xaqanının qızı ilə evləndi [Каланкат., II, 23, 26, c.149-150, 153-154]. Xəzərlərin basqınları, Bizansın zəifləməsi, ərəblərin aqressiv siyasəti Cavanşiri xəlifəyə tabe olmağa sövq edirdi [Каланкат., II, 27, c.155-158]. Knyaz Cavanşir 667-ci ildə Dəməşqdə xəlifə Müaviyəni ziyarət edir və nəticədə Albaniya əhalisi üç il müddətinə xarici hücumlardan azad olur. 670-cı ildə Cavanşir yenidən dəvət üzrə Müaviyəni ziyarət edir. Xəlifənin gözündə Cavanşirin nüfuzu o qədər yüksəlir ki, ona xilafətlə Bizans arasındakı diplomatik danışıqlarda vasitəçi kimi çıxış etmək səlahiyyəti verilir. Cavanşir danışıqları elə məharətlə apardı ki, hər iki tərəf razı qaldı. Xəlifə ona hədiyyələr verərək Sünik knyazlığını onun tabeliyinə verir və Atropatenanın idarəetməsini ona tapşırır. Lakin Cavanşir bu təklifdən imtina edərək xəlifədən “[xilafətin] onun ölkəsinin üzərinə qoyduğu ağır vergiləri yüngülləşdirməsini xahiş edir və cənub hökmdarı məmnuniyyətlə buna razı olur və vergi yükünü üçdə birə qədər azaltmağı əmr edir” [Каланкат., II, 28, c.159-163]. Alban müəllif qeyd edir ki, xəlifə Cavanşiri “elə ehtiram və təmtəraqla qəbul edir ki, ölkənin heç bir canişininə bunu etməmişdi”. “O, şərq knyazına ***tac qoyulmuş hökmdar kimi ehtiram göstərməyi əmr etdi”*** [Каланкат., II, 27, 28].

Knyaz Cavanşirə istər Bizans imperatoru II Konstant, istərsə də xəlifə Müaviyə tərəfindən ***hökmdar ləyaqəti, hökmdar ehtiramı*** göstərilməsi onun VII əsrdə farslar, ərəblər, bizanslılar və xəzərlər arasındakı mübarizədə Albaniyanın müstəqilliyini qoruyub saxlamağı bacarmış görkəmli sərkərdə, müdrik siyasətçi, mahir diplomat, mühüm dövlət xadimi olduğunu göstərir. O, “Albaniya tarixi” əsərinin sifarişçisi idi. Bu əsərdə şair Dəvdəkin böyük Albaniya knyazı Cavanşirin ölümünə akrostix formasında yazdığı elegiya günümüzə gəlib çatmışdır [Каланкат., II, 35]. Elegiyada Cavanşirin şəxsiyyətinin böyüklüyü vurğulanır (“Onun şanı bütün yer üzündə yayılmışdı, onun adı dünyanın sonuna gedib çıxmışdı”). Bir qrup tədqiqatçının fikrincə Knyaz Cavanşir 683-cü ildə, son mülahizələrə əsasən isə 684-cü ildə siyasi sui-qəsd nəticəsində öldürülmüşdür. Kalankatuklu yazırdı: “O, dörd istilaçı dövlət tərəfindən hörmət və ehtiram görürdü və bu hökmdarlardan aşağı deyildi” [Каланкат., II, 28]. “O, İberiya sərhədlərindən hun darvazalarına və Araz çayına qədər mütləqiyyət və əzəmətlə hökmranlıq edirdi” [Каланкат., II, 21, c.146]. Beləliklə, onun hakimiyyət **müddətini Albaniyanın siyasi və mədəni tərəqqi dövrü hesab etmək olar.**

705-ci ildə alban knyazı Varaz-Trdat tam olaraq ərəb təbəəliyini qəbul edir [Каланкат., III, 12, c.254]. Keçmiş Albaniyanın ərazisində IX–XIII əsrlərdə Azərbaycan dövlətləri olan Şirvanşahlar, Sacilər, Salarilər, Rəvvadilər, Şəddadilər, Atabəylər dövlətləri formalaşdıqda yenidən yaranmış xırda alban çarlıqları-knyazlıqları bu Azərbaycan dövlətlərinin tərkibinə daxil idi.

IX əsrdə Kürün sağ sahilində alban knyaz soylarından olan nəsillərin başçılıq etdiyi bir sıra feodal mülkləri yarandı: Xaçında Artnersex, Qardmanda Ketritç, Utidə Stepan Klia, Arranda Əsai əbu Musa (Mil-Muğan, Balakəndən Araz çayına qədər), Şəkidə, Arranda, Sünikdə Səhl ibn Sunbat başçılıq edirdi. Uzunmüddətli mübarizədən sonra

bu mülklər ərəb sərkərdəsi Buğa əl-Kəbir tərəfindən ələ keçirildi [Каланкат., III, 22, с.278; Буниятов, 1965, с.184-194]

Xaçın hakimi Artnersexin oğullarından biri, "süniklilərin başçısı" Səhlin nəvəsi, "Kiçik Sünikin və Ağvanın" knyazı **Mömin Qriqor Hamama** 886-cı ildə "alban hökmdarı olaraq dağıdılmış **Alban** çarlığını **bərpa etdi"**, "kilsələr, ehtiyaclılar və yoxsullar üçün böyük və səxavətli əməllər işləyirdi" [Каланкат., III, 21]. Əl-Məsudiyə əsasən (Мурудж, II, с.86), Humam (Hamam) ərəblər tərəfindən başsız qoyulmuş Alban çarlığını birləşdirmiş "**Şərqin böyük knyazı"** və "**Albaniyanın hökmdarı"** idi. Asoqik də Hamamı "Ağvan hökmdarı" adlandırır. Qriqor Hamamın torpaqları qərbdə Göyçə gölünün şərq sahilindən qərbdə Partav (Bərdə) şəhərinin girəcəyinə qədər uzanırdı. O öz hakimiyyətini bu istiqamətdə yayaraq Kambiçanı-Şəkini də, yəni alban Arşakilərinin və Mehranilərin dövründə alban hökmranlığının hüdudlarından kənarda qalan əraziləri də [Каланкат., III, 22; Буниятов, 1965, с.189] öz torpaqlarına daxil etdi.

Qriqor Hamamın oğullarından biri, **II Artnersex** 910-cu ildə Kambiçanda–Eretdə özünü hökmdar elan etdi. Onun hakimiyyəti dövründə ("Картлис цховреба", I, 264) 915-ci ildə abxaz çarı III Konstantin (893–922-ci illər) və kaxetinli xorepiskop I Kvirike (892–918-ci illər) Şəki çarlığına hücum etdilər və nəticədə bir neçə sərhədyanı şəhərlər işğal olundu. Lakin II Artnersex 925–929-cu illər arasında Sacilərin Mərkəzi Zaqafqaziyaya irimiqyaslı hücumundan sonra bu şəhərləri geri qaytardı. Beləliklə Şəki çarlığı bütün X əsr boyunca öz ərazi hüdudlarını qoruyub saxladı [Насибов, 1985, с.19; Мас'уди, "Мурудж"]. X əsrin ortalarında erməni katolikosu Ananiya Mokasinin bildirdiyinə görə "hökmdar taxtında hökmdar Artnersexin oğlu və **mömin Ağvan hökmdarı** mübarək Hamamın nəvəsi İşxanik oturdu [Мамедова, 2005, с.396].

Arsax və qismən Uti vilayəti Qriqor Hamamın digər oğluna **Saak Sevadaya** keçdi və onun hökmranlığı XI əsrə qədər davam etdi [Каланкат., III, 21, 22]. O, Uti əyalətində Qardman vilayətini, Arsax əyalətində Kost və Parnas vilayətlərini, habelə Ararat əyalətində Soroqeta (Şirak) vilayətini özünə tabe etdi. Saak Sevadanın nəslindən X əsrdə yenidən canlanmış Albaniyanın hökmdarları çıxdı. Bunlar onun nəticələri İoann Sənəkərim və Filippe idilər [Каланкат., III, 22].

İoann **Sənəkərim** haqqında alban müəllif yazır ki, "Uca Tanrının sağ əli çoxdan bitmiş çarlığın hökmdarını seçdi və Tanrı bu çarlığı onun vasitəsilə canlandırdı. Fars hökmdarı ona böyük rütbələr, öz atasının tacını və atını verdi. Elə həmin ildə yunan magistr David Tanrı tərəfindən seçilmiş ərin şərəfinə və hörmətinə hökmdar çələngi və əzəmətli porfir göndərdi. Hökmdar Məsihin şanına patriarxın sağ əli ilə hökmdar kimi xeyir dua aldı" [Каланкат., III, 22, с.270]. Alban müəllif hökmdar rütbəsinin qanuniliyini üç dəfə vurğulayır: "fars hökmdarı...tacı verdi", "yunan magistr David ona hökmdar çələngi göndərdi" və nəhayət "patriarxın sağ əli hökmdar kimi xeyir-dua aldı". Fars hökmdarı deyildikdə burada həmin dövrdə Azərbaycanı (Şimali və Cənubi) idarə edən Salarilər nəzərdə tutulur. Digər hökmdarlarla yanaşı Arsax–Sünik çarlığının hökmdarları da onlardan vassal asılılığında idilər. **Onun hakimiyyət dövrü X** əsrin **sonlarınadək** Şəki çarlığının **tərəqqi dövrü hesab olunur** [Крымский, 1974, с. 593-594].

XII əsrin sonlarında qədim Albaniyanın bir hissəsi hesab edilən Xaçın çarlığı-knyazlığı yaranır. "Əcaib-əd-dünya" əsərində də qeyd olunduğu kimi, Xaçın Aranın tərkibinə daxil olan mahal idi və Arsax və Uti ərazilərini tuturdu, mərkəzi isə Xaçınçay və Tərtər çaylarının hövzələrindən ibarət idi [Мамедова, 2005, с.408]. Arsax-Xaçın çarlığının-knyazlığının yaranması görkəmli şəxsiyyət, Aşağı Xaçının hakimi Vaxtanq Tankik (Tonkik) və Xorişaxın (Qafqaz tarixində məşhur qardaşlar Spasalar Zaxariya və İvane Atabəy Dolqorukov-Aqutinskinin bacısı) oğlu **Həsən Cəlalın** adı ilə bağlıdır. O həmçinin, Sünik sülaləsinin ikinci dərəcəli qohumu olan, kökü bu ölkənin hakimi Sənəkərimdən gələn arvadı Mamkan vasitəsilə Sünik hakimləri ilə qohum idi. Həsən Cəlalın yaşayıb yaratdığı dövr Qafqaz tarixində tarixi hadisələrlə zəngindir. Bu hadisələr alban müəlliflər Gəncəli Kirakos, Ağvanlı Vardan və Mxitar Qoşun əsərlərində öz əksini tapmışdır. Fars, erməni, gürcü sinxron mənbələrində, həmçinin epiqrafik kitabələrdə Həsən Cəlala yüksək titullar verilib: "knyazların knyazı", "şahanə-əzəmətli", "Xaçın ölkəsinin knyazı", "Xaçın və Arsax ölkələrinin böyük knyazı", "hökmdar", "padşah", "Albaniya hökmdarı", "Albaniyanın böyük sərhəd mühafizəçisi" [Мамедова, 2005, с.408-413]. 1216–1238-ci illərdə müqəddəs vəftizçi İoannın adına Gəncəsər monastırı inşa edildi. Monastırın

epiqrafikasında yazılırdı: “Mən Tanrının müti qulu, Vaxtanqın oğlu, böyük Həsənin nəvəsi, uca və böyük Arsax ölkəsinin əsil hakimi və bir çox vilayətlərin hökmdarı Cəlal Dövləyəm; atam vəsiyyət edərək mənə və anam Xorişaya Gəncəsərdə atalarımızın qəbri üzərində bu kilsəni tikməyimizi tapşırıb və biz 665-ci ildə (1216-cı il) bu kilsənin tikintisinə başladıq... Bu kilsə 689-cu ildə (1240-cı il) Ağvan katolikosu ter Nersesin patriarxlığında işıqlandı” [Бархударянц, с.154-156, 160, примеч. 403]. Knyaz Həsən Cəlal monastıra səxavətlə şumluq torpaqlar, gümüş müqəddəs əşyalar hədiyyə etmişdir ki, bunlar da kitabədə ətraflı sadalanır.

1220-ci ildə Xaçın monqol qoşunlarının hücumuna məruz qalır. 1227-ci ildə (yaxud daha sonra) xarəzmşah Cəlal-əd-Dinin yürüşü zamanı onun vəziri Şərəf əl-Mülk Xaçın qalasına yaxınlaşır. Həsən Cəlal 10000 dinar ödəyərək azad olur. Daha sonra Xaçın yenidən monqolların hücumuna məruz qalır. Həsən Cəlal öz vilayətinin sakinləri ilə birlikdə Xoxanaberd qalasına yerləşir. “Müdrik Cəlal dinsizlərin hücumunu görüb öz xalqını farsca Xoxanaberd adlandırılan qalada gizlətdi. Tatarlar (monqollar) gəldikdə isə, bu qalanı mühasirəyə alaraq onu ələ keçirməyin mümkünsüz olduğunu görərək Həsənə dostluq və sülh təklif etdilər”. Həsən Cəlal monqolların yanına çoxsaylı hədiyyələrlə yola düşdü. Monqollar “ona öz ölkəsini və bir sıra əlavə əraziləri verdilər”. Bunun müqabilində isə Həsən Cəlal həmişə onların yürüşlərində iştirak etməli idi. Bu 1238–1240-cı illər arasında baş vermişdir. Ehtimalla Çarmağanın oğlu Bora Nuinin Həsən Cəlalın qızı Ruzukanla evlənməsi bu vaxtla əlaqələndirilməlidir. 1243-cü ildə Həsən Cəlal Çarmağanın yerini tutmuş Baçunun Rum sultanı III Qiyasəddin Keyxosrova qarşı yürüşündə iştirak edir. Bu zaman Həsən Cəlal monqol baş komandanının yanında müəyyən nüfuza malik idi. Məhz Həsən Cəlalın köməyi sayəsində Kilikiya çarı Xətumun elçiləri özlərini Baçuya, Çarmağanın arvadı Eltina xatuna təqdim edə bildilər. 1246–1247-ci illərdə yeni vergi normaları ilə əlaqədar Arqun və Buğa tərəfindən ağır təzyiqlər Həsən Cəlalı Qızıl Ordu xanı Batının oğlu Sartakın simasında yeni himayədar tapmağa məcbur elədi. 1251-ci ildə o Sartakın yanına yollanaraq itaətini bəyan edir. Sartak Həsən Cəlalı öz atası Batunun yanına yola salır (Xəzər dənizinin sahilində qərargaha) və Batı, Həsən Cəlala irsi torpaqları olan Çaraberdi (Craberd), Akana və Karkarı geri qaytarır, həmçinin onu bir sıra yeni torpaqların hakimi elan edir. Həsən Cəlal alban katolikosu Nerses üçün imtiyazlar əldə etməyə nail olur və onun mülkiyyətini vergi toxunulmazlığı ilə təmin edir. Gəncəli Kirakosun məlumatı diqqətəlayiqdir: “...lakin onlar (monqollar) digər ölkələrlə belə etmirdilər, getdikləri hər yerə zülm və əsarət gətirirdilər” (Киракос, с.136). 1255–1260-cı illərdə Həsən Cəlal Arqunun təqiblərinə görə ikinci dəfə Monqolustanın Qaraqorum şəhərimə böyük Batu xanın yanına yollanmalı olur. Böyük xan yenidən bütün irsi torpaqlarını və ölkənin idarəetməsini ona geri qaytardı və ona “hakimiyyətin yazılı təminatını verdi”. Həsən Cəlal 10 il müddətinə (1251–1261-ci illər) Xaçın knyazlığının müstəqilliyini qoruyub saxlaya bildi. Monqol ordugahından qayıtdıqdan qısa müddət sonra Həsən Cəlal Arqun tərəfindən monqollar əleyhinə üsyanda şübhəli bilindi. Onu “taxta boyunduruqla qandallanmış halda” Qəzvinə yola saldılar və 1261-ci ildə yolda qətlə yetirdilər. Onun oğlu Atabəy Xaçın knyazı oldu və 1287-ci ilə qədər knyazlığı idarə etdi.

Beləliklə, ağır siyasi şərtlərdə **müdrik,** çevik **siyasəti sayəsində Həsən Cəlal Xaçın** çarlığının-knyazlığının **müstəqilliyini qoruyub saxlamağa nail oldu. Alban xristian etnosunun, Alban Apostol Avtokefal kilsəsinin bütövlüyünü qoruyub saxlamaq naminə Həsən Cəlal dəfələrlə monqol ordugahına getmiş, onların müharibələrində iştirak etmiş, illərlə monqol ordugahında qalmış və nəhayət, onların qurbanı olmuşdur.**

Gəncəsər məclisində Alban katolikosluğu yerləşir, bundan sonra o, Gəncəsər katolikosluğu adlanır və 1836-cı ilə qədər sonrakı albanların dini mərkəzinə çevrilir. Həsən Cəlalın özünün Gəncəsər məclisini “Albaniyanın paytaxt məclisi” adlandırması çox mühümdür. Alban ruhanilərinin nümayəndələrindən Viro ilə birlikdə katolikoslar Yesai Həsən Cəlalın və Sarkis (Sergey) Həsən Cəlalın adını çəkmək lazımdır.

Alban katolikosu **Yesai Həsən Cəlalyan** Gəncəsər patriarx taxtını 1702–1728-ci illərdə idarə etmişdir. O, Qarabağ və Zəngəzur məliklərinin müstəqillik əldə etmək cəhdlərini dəstəkləyirdi və onlar bunu çar I Pyotra müraciət etməklə bildirmişdilər [Тер-Григорян, 1989, с.6]. Katolikos Yesai Həsən-Cəlalyan Qarabağda farslar əleyhinə üsyana başçılıq etmişdi və üsyan məğlubiyyətə uğramışdı. Onun böyük məziyyəti yazdığı “Alban ölkəsinin qısa tarixi (1702–1722-ci illər)” əsəri

olmuşdur [Хасан-Джалалян Есаи, 1989]. Əsərdə regionun həmin dövrünə dair qiymətli məlumatlar toplanmışdır. Əsərin adı belə XVIII əsrdə Qarabağda alban özünüdərkinin qorunub saxlandığını təsdiqləyir.

Son alban katolikosu **Sarkis (Sergey) Həsən Cəlal** 1794-cü ildə Gəncədə Gəncəsər katolikosluğu ilə Yerek Mankunk monastırının özü-özünü elan etmiş katolikosluğu arasında konfessional qarşıdurmanın, həmçinin Qarabağ xanı İbrahim xanla Gülüstan, Crabert və Dizak məlikləri arasında siyasi qarşıdurmanın olduğu mürəkkəb bir vaxtda ordinasiya olunmuşdur. Məlikləri öz suverenliyini qorumaq cəhdlərində dəstəkləyərkən Qarabağ xanına müxalif olan və məğlub olan katolikos Sarkis (Sergey) Həsən Cəlal 1798-ci ildə öz kilsəsinin dindarları ilə birlikdə Gürcüstana köçməyə məcbur oldu. Burada o gürcü çarı tərəfindən çox gözəl qarşılandı və Axpat monastırının arxiyepiskopu təyin edildi. 1812-ci ildə Sarkis (Sergey) Həsən Cəlal kilsə dindarları ilə birlikdə Gəncəsərə geri döndü və 1828-ci ildə ölümünədək katolikos rütbəsində alban kilsəsinə rəhbərlik etdi [Раффи].

Bir sıra görkəmli alban hökmdarlarının və katolikoslarının fəaliyyətinin tarixi əhəmiyyətinin qısa icmalı belədir.

Albaniya V–VIII əsrlər boyunca sosial-iqtisadi, konfessional və siyasi şərtlər nəticəsində öz ədəbiyyatının yaranmasına hazırlanmışdı. Bu, hakim Arşakilər sülaləsinin və onları əvəz edən böyük knyazlar Mehranilərin idarə etdiyi Albaniya dövlətinin, həmçinin Alban Apostol Avtokefal kilsəsinin mövcud olduğu müddət idi. Kalankatuklu (I, 3) romalı müəllif İppolitin verdiyi məlumatlara əsaslanaraq bildirir ki, albanların adı dili və yazısı olan xalqların siyahısında çəkilir [Мамедова, 1986, с.42]. VIII əsrdə yaşamış erməni tarixçisi Qevond İncilin tərcümə olunduğu dilləri sadalayarkən 12-ci sırada alban dilini qeyd edir. Alban dilinə dair məlumatlar XVII–XVIII əsrlərdə, Müqəddəs ataların Şərqdə alban dilində yazılmış "Müqəddəs və ilahi yağın tarixi haqqında" adlı əlyazmanı tapdığı 1669 və 1726-cı illərə aid əlyazmalarda mövcuddur. Elə onlar əlyazmanı qədim erməni dilinə tərcümə etmişdilər. Bu qədim erməni əlyazması A.D.Anasyan tərəfindən Matenadaranda aşkarlanmışdı [Еремян, 1958; Шанидзе, I960, с.169; Алексидзе, 2003, с.36; Абуладзе, 1940, с.317-319; Ямпольский, 1957, с.149-156; Алиев, 1962, с.17; Буниятов, 1965, с.97].

VII–VIII əsrlərin kəsişməsində alban tarixi-ədəbi ənənəsinin formalaşmasında **Musa Kalankatuklu** son dərəcə qiymətli rol oynamışdır. Onun günümüzə alban dilindən qədim erməni dilinə tərcümə olunmuş variantda gəlib çatmış "Alban tarixi" əsərində I–X əsrlərdə Albaniyaya dair əsas tarixi məlumatlar (sosial-iqtisadi, siyasi, kilsə-ideoloji tarix, Alban Apostol Avtokefal kilsəsi, mədəniyyət, tarixi coğrafiya haqqında) əks olunmuş və Azərbaycanın etnogenez problemlərini, alban, türk, Qafqazda və onun hüdudlarından kənarda yaşamış bir çox digər etnosların tarixini işıqlandırmağa imkan verir. A.Q.Şanidze yazır: "Ehtimal olunur ki, Musa Kalankatukluya aid edilən "Alban tarixi" alban dilindən erməni dilinə tərcümə olunub, eynən "Kartlis tsxovreba" tarixi xronikalarının "Gürcüstanın tarixi" adı altında gürcü dilindən erməni dilinə tərcümə olunduğu kimi [Шанидзе, I960, с.169].

"Alban tarixi"nin müəllifinin adı ilk dəfə Mxitar Qoş (XII–XIII əsrlər) tərəfindən yarımçıq "Alban xronikası" əsərində çəkilir: "...alban sülaləsi haqqında tam hesabat hazırlamış Musa Dasxuransinin yazdığı tarix" [Гош Мхитар, 1960, с.8]. Musa Dasxuransinin adını həmçinin Mxitar Qoşun tələbəsi Vardapet Vanakan (Gəncəli Kirakosun müəllimi) da çəkir. XIII əsrdə Gəncəli Kirakos və Mxitar Ayrivansi ilk dəfə olaraq "Alban tarixi"nin müəllifinin adını Musa Kalankatuklu olaraq qeyd edirlər [Гандзакеци Киракос, 1946, с.15]. Görünür Kalankatuklu ləqəbi "Alban tarixi"nin özünün kontekstinə əsaslanmışdır, belə ki, əsərdə yazılır: "Düşmənlər qaçanları təqib edirdilər və onların bir hissəsini Uti vilayətində mənim də kəndim olan böyük Kalankatuk kəndi ilə üzbəüz, dağın ətəyində tuturdular" [Каланкат., II, 11, с.106]. Ç.Douset V.B.Heninqin fikrinə əsaslanaraq ləqəbin Kalankatukda Musa üzvü olduğu monastırın adı ilə bağlı olduğunu, Dasxuransi ləqəbinin isə mənşəcə gəldiyi Dasxoren kəndinə aid olduğunu ehtimal edir. "Bu Kaqankatvasi və Dasxuransiyə eyni şəxs kimi baxmağa imkan verir". Bundan başqa, Ç.Douset Dasxuransi adına üstünlük verir [Dowsett, 1958, p.476, XIX; Мамедова, 2005, с.32; Каланкат., I, 26, с.66]. N.Adonsun, T.Ter-Qriqoryanın, K.V.Treverin, Z.M.Bünyadovun, V.Arakelyanın, L.M.Meliksetbeyovun, K.Q.Əliyevin fikrincə I və II kitablar Musa Kalankatuklu tərəfindən, III kitab isə Musa Dasxuransi tərəfindən yazılıb.

Beləliklə, qeyd olunmalıdır ki, tarixşünaslıqda VII–VIII əsrlərin kəsişməsində yaşamış Musa Kalankatuklu "Alban tarixi"nin müəllifidir, "Dasxuransi" isə ya onun ləqəbidir, ya da kitabın III hissəsinin müəllifinin adıdır. Kalankatuk kəndi, böyük ehtimalla Partav şəhərindən qərbdə yerləşmiş və Dvin-Partav yolunda, ehtimalla Maqavus kəndi ətrafında mühüm dayanacaq olmuşdur. I–II kitablar VIII əsrin əvvəlinə aiddir, III kitabı isə tədqiqatçılar burada Partavın (Bərdənin) ruslar tərəfindən alınması hadisəsinin qeyd olunduğuna əsasən X əsrə aid edirlər.

"Alban tarixi"nin nəşrlərinin – üç qədim erməni, müasir erməni, ingilis və rus dillərində tədqiqi, həmçinin St-Peterburqdan və Paris Milli kitabxanasından əlavə dörd əlyazmanın cəlb olunması – bunlardan ikisi variantın kontekstinə görə alban (J10 ИВАН С-59 и Р4 220), ikisi isə erməni nəşrinə [ЛО ИВАН В-56 и Pi 217 (каталог Маклера)] aiddir [Мамедова, 1982, с.38-39] – bu əsərin əlyazma siyahılarının genealogiyasını öyrənilməsi ilə mənbənin əlyazmalarının genealoji şəcərəni tərtib etmək mümkün olmuşdur ki, bu da variantına görə iki qrupa ayrılır: 1) erməni kilsəsi tərəfindən redaktə olunmuş, 2) redaktə olunmamış [Каланкат., 1861; C.J.F.Dowsett, The History of the Caucasian Albanians by Movses Dasxuranci, 1961].

Tekstoloji təhlilə, abidənin yazı stilinin, "Alban tarixi"ndə hadisələrin xronoloji tarixlərinin müəyyən edilməsi sisteminin öyrənilməsinə əsasən belə nəticəyə gəlmək olur ki, bu əsərin məzmunu (qədim dövrdən VIII əsrin əvvəlinədək Albaniya ölkəsinin tarixinin: alban etnosunun, ölkənin hökmdarlarının, ölkənin müxtəlif dövrlərdə Kür çayının fərqli sahillərində yerləşən ərazi hüdudlarının üç dəfə müəyyən edildiyi Alban kilsəsinin və s. tarixinin verildiyi), ifadə üsulu, müəllifin təsvir olunan hadisələrə münasibəti, ayrı-ayrı tarixi şəxsiyyətlərə (katolikos Viroya, III Vaçaqana, Cavanşirə, şair Dəvdəkə) münasibət, ciddi tərtib edilmiş xronoloji sistem – hadisələrin tarixlərinin alban hökmdarlarının hakimiyyəti üzrə, həmçinin fars və Bizans hökmdarlarının hakimiyyəti üzrə qeyd olunması (tarixlərin sinxronlaşdırma ilə qeyd olunması) yeganə nəticəyə gəlməyə əsas verir ki, "Albaniya tarixi" alban müəllif tərəfindən alban xalqı üçün yazılıb [Мамедова, 1977; Мамедова, 1986, с.8-21; Мамедова, 2005, с.8-69, 669-670]. **Musa Kalankatuklu həmin görkəmli alban tarixşünasıdır ki, "Albaniya tarixi"** əsəri **ermənilərin yanlış redaktələrinə baxmayaraq I–X** əsrlərdə **Qafqaz, Albaniya və xristianlıq haqqında** çox **qiymətli məlumatları qoruyub saxlamış və** əsrlər **boyu XXI** əsrin əvvəlinədək **bir** çox **tarixçinin, arxeoloqun, mənbəşünasın, dilçinin, etnoloqun, memarın stolüstü kitabı olmaqla Qafqazın həqiqi tarixini təsəvvür etməyə imkan verir.**

Tədqiqat alban yazı irsinin tərəqqi dövrünün Sünik, Qarabağ-Arsax, Şəki-Kambisendə yerli alban çarlıqlarının-knyazlıqlarının yaranması ilə əlaqəli olduğunu göstərir. Məhz bu dövrdə alban tarixşünaslığının David Alavik ("Nəsihətverici Qaydalar" XII əsr), Mxitar Qoş ("Alban xronikası", "Qanunnamə", "Gəncəli Xosrovun həyatı və şəhadəti" XII–XIII əsrlər) [Гош Мхитар, 1960], Gəncəli Kirakos ("Tarix" XIII əsr) [Гандзакеци Киракос, 1946], Böyük Vardan Aravelsi/Ağvanesi (Şərqi/Alban) ("Ümumi tarix" XIII əsr) [Вардан Великий, 1861; Vardan Arewelc'I, 1989], Qriqor Patmiç-Maqaki ("Monqolların tarixi"), Smbat Sparapet ("Qanunnamə" XIII əsr) [Судебник Смбата Спарапета (Гундстабля), 1971; Смбат Спарапет. Летопись, 1859, 1956, 1974], Sünikli Stepannos ("Sisakan nəslinin tarixi" XIII əsr) [Степаннос Сюнийский, 1861], Xetum Patmiç ("Şərq ölkələrinin tarixinin bağçası") kimi məşhur nümayəndələrini yetişdirmiş Gəncə şəhərinin rolu artır. Onlar öz əsərlərində XI–XIII əsrlərdə, Qafqazda və Ön Asiyada səlcuq və monqol hakimiyyəti dövründə alban cəmiyyətinin, onun siyasi və mənəvi həyatının ayrı-ayrı aspektlərini əks etdirmiş, həmçinin Gürcüstan, Ermənistan, Bizans, Kilikiyanın tarixinə dair, ümumilikdə xristianlığın və xüsusən Alban Apostol Avtokefal kilsəsinin tarixinə dair qiymətli məlumatları qoruyub saxlamışlar. Kilikiyada yaşayan tarixçi Xetum Patmiçin (əslən Gəncədən çıxmış Xetumilərdən idi) 1307-ci ildə qədim fransız dilində yazdığı "La Flor des estoires de la Terre d'Orient" ("Şərq ölkələrinin tarixinin bağçası") kitabında verdiyi məlumata əsasən XIV əsrdə alban yazısından istifadəyə dair məlumatlardan – "...müxtəlif əlifbalar var idi, biri erməni, digəri isə alban əlifbası idi" – (I, гл. IX) [Мамедова, 2005, с.103; Мирный, 1956, с.72-82] çıxış edərək ehtimal etmək olar ki, yuxarıda adı çəkilən əsərlər alban yazısı ilə yazılmış və daha sonra erməni dilinə tərcümə olunmuşdur.

Həmçinin alban katolikosu Yesai Həsən Cəlalyanın ilk dəfə 1839-cu ildə Şuşada mitropolit Baqdasar Həsən Cəlal tərəfindən nəşr olunmuş "Alban ölkəsinin qısa tarixi (1702–1722-ci illər)" əsərini qeyd etmək lazımdır. Əsərin ikinci nəşri 1868-ci ildə

Yerusəlimdə nəşr edilib. Əsər fransız dilinə akademik M.Brosse tərəfindən tərcümə olunub və 1876-cı ildə Peterburqda nəşr olunub [Хасан-Джалалян Есаи, 1989, с.6].

Çox səciyyəvidir ki, VIII əsrdən başlayaraq XVIII əsrə qədər sadalanan bütün müəlliflərdə alban özünüdərkin mövcudluğu istər mənbələrin mətnində, istərsə də əsərlərin başlıqlarında müşahidə olunur.

XIV əsrə qədər alban dilində yaradılmış ədəbiyyat XIII əsrdən başlayaraq ermənilər tərəfindən qədim erməni dilinə tərcümə olunmağa başlayır. Alban ədəbiyyatının qədim erməni dilində qorunub saxlanması çox güman ki, alban etnomədəni irsinin erməni irsinə transformasiyasında maraqlı olan geosiyasi dəyişikliklərlə bağlı idi və buna alban tarixi-ədəbi ənənəsinin dəyişdirilməsindən başlanılmışdı. 1836-cı ildə çar hökuməti tərəfindən Alban Apostol Avtokefal kilsəsi ləğv olunduqdan və Eçmiadzinə tabe etdirildikdən sonra erməni ruhaniləri alban ədəbiyyatını erməni dilinə tərcümə edərək və dərindən düşünülmüş erməni konsepsiyası ilə redaktə edərək nəşr etməyə başladılar. Lakin hətta redaktə olunmuş variantda belə, alban yazılı irsi alban tarixi-ədəbi ənənəsinin inkişafının xronoloji ardıcıllığını bərpa etməyə imkan verir.

Görkəmli alban şəxsiyyətləri (hökmdarlar, katolikoslar və tarixşünaslar) haqqında qısa tarixi icmal təsdiqləyir ki, onlar öz hərbi-siyasi, diplomatik və ədəbi əməlləri ilə əsrlər boyunca Azərbaycan dövlətçiliyinin və tolerantlığının çoxəsrlik ənənəsinin formalaşmasına mühüm töhfə verərək, müstəqilliyi və inkişafı müddətində sadiq xidmət etdikləri Vətənin ərazi bütövlüyünü xarici istilaçılardan qorumuşlar.

XX əsrin sonundan Azərbaycanın müstəqilliyini əldə etdiyi dövrdə çoxəsrlik dövlətçilik ənənələri ölkə Prezidenti və dünya azərbaycanlılarının Ümummilli Lideri **Heydər** Əliyevin siyasi fəaliyyətində (1993–2003-cü illər) öz təcəssümünü tapdı. Ölkəmiz ağır geosiyasi şərtlərdə, iqtisadi və hərbi-siyasi böhran, birinci Qarabağ müharibəsindəki məğlubiyyət və Azərbaycanın 20% torpağının itirildiyi şəraitdə ölkənin hərbi-siyasi, sosial-iqtisadi, mədəni–ideoloji inkişafının möhkəm əsaslarını qoymağa nail oldu [Мамедова, 2010, с.12].

Azərbaycan Prezidenti və Azərbaycan ordusunun Rəşadətli Ali Baş Komandanı, Xilaskar sərkərdə, müdrik siyasətçi, mahir diplomat, görkəmli dövlət xadimi İlham Əliyev 2003-cü ildən etibarən idarəetməsi ilə bütün dünyaya Azərbaycan dövlətçilik ənənələrinin irsi olduğunu nümayiş etdirdi. Ölkənin iqtisadi inkişafı Azərbaycanda hərbi-siyasi potensialı yüksək səviyyəyə qaldırmağa və yüksək peşəkarlığa malik Azərbaycan ordusunu yaratmağa imkan verdi. Multikulturalizm və yüksək vətənpərvərlik ideyalarında əks olunmuş milli siyasət multietnik və multikonfessional Azərbaycanı bir dəmir yumruqda birləşdirdi. Erməni separatizminin və onların siyasi müttəfiqlərinin təxminən 30 il müddətində Azərbaycan üçün yaratdığı Qarabağ problemi Böyük Vətən müharibəsində 44 gün müddətində (2020-ci il, 27 sentyabr–10 noyabr) ildırım sürətilə həll olundu.

Azərbaycan Prezidenti İlham Əliyev multietnik Azərbaycanın müxtəlif konfessiyalarda nümayəndələri olan və Prezidentin ətrafında dəmir yumruq kimi birləşmiş bütün vətəndaşlarının və dünya azərbaycanlılarının dəstəklədiyi Müzəffər Azərbaycan ordusunun başında olmaqla qədim Qarabağ torpağını və bütün regionu erməni faşizmindən azad etdi. Azərbaycan Prezidenti İlham Əliyevin Böyük Qələbəsi şəhidlərin əbədi xatirəsi, həmçinin müasirlərimizin və gələcək nəsillərimizin Birinci və İkinci Qarabağ müharibələrinin bütün iştirakçılarına minnətdarlığı kimi Azərbaycanın tarixinə həmişəlik qızıl hərflərlə həkk olundu.

ƏDƏBİYYAT:

1. Алексидзе А. Что может рассказать об истории церкви Кавказской Албании обнаруженный на Синайской горе грузино–албанский палимпсест/ The history of Caucasus. The scientific–public Almanac, 2002, №2, s.15-26.
2. Абуладзе И.В. Новые сведения о существовании письменности у кавказских албанцев // Сообщения грузинского филиала Академии наук СССР, т.1. 1940, №4, с.317-319.
3. Алиев К. К вопросу об источниках и литературе по истории древней Кавказской Албании / ВИКА. Баку, 1962, с.17.
4. Бархударян М. Арцах. Баку, 1895, часть I–II (ermənі dilində) / Перевод Яргуляна, 1949 – НАИИАНА Инд. №1622.2010.
5. Буниятов З.М. Азербайджан в VII–IX вв. Баку, 1965, 384 с.
6. Вардан Великий. Всеобщая история / Перевод Н.О.Эмина. М., 1861, 201 с.
7. Гандзакеци Киракос. История / Перевод с древнеарм.яз. Т.Тер-Григорьяна. Баку: Изд-во АН Аз.ССР, 1946, 302 с.
8. Гош Мхитар. Албанская хроника / Предисловие, перевод и комментарии З.М.Буниятова. Баку: Изд-во АН Аз.ССР, 1960, 34 с.
9. Гущин А.А. Роль личности в истории // Модели, системы, сети в экономике, технике, природе и обществе, 2013, №3(7), с.233-237.
10. Еремян С.Т. Идеология и культура Албании III–VII вв./ Очерки истории СССР (III–IX вв.). М., 1958, с.324.
11. Каланкатуйский М. История агван / Перевод с армян. К.Патканова. СПб.: типография Императорской Академии наук, 1861, 376 с.
12. Крымский А.Е. Труды. Страницы из истории Северного, или Кавказского, Азербайджана (классической Албании). Шеки. Т. IV. Киев: Наукова Думка, 1974, с.593-594.
13. Мамедова Ф. Интерпретация новых дополнительных глав парижского списка «Истории албан» Моисея Каланкатуйского в свете эпиграфических данных Гандзасарского храма / Тезисы докл. всесоюзной научной сессии «Актуальные проблемы изучения и создания письменных исторических источников». Тбилиси, 1982, с.38-39.
14. Мамедова Ф. «История албан» Моисея Каланкатуйского как источник по общественному строю раннесредневековой Албании. Баку: Элм, 1977, 202 с.
15. Мамедова Ф. Кавказская Албания и албаны. Баку, 2005, 800 с.
16. Мамедова Ф. Политическая история и историческая география Кавказской Албании (III в. до н.э. – VIII в. н.э.). Баку: Элм, 1986, 284 с.
17. Мамедова Ф. Хранитель истории и государства Азербайджана // Gənc aviator, №3 (8), 5 may 2010, s.12.
18. Мирный С.М. «La Flor des estoires de Terre d'Orient» Гайтона как историко-географический источник по Востоку и по истории монголов // «Советское востоковедение», 1956, №5, с.72-82.
19. Насибов Ю. Азербайджан в V– первой половине XII вв. (по древнегрузинским источникам): Автореф. дисс. канд. истор. наук. Баку, 1985, 26 с.
20. Ольдерогге Д.А. Из истории армяно–эфиопских связей (Алфавит Маштоца) / Древний Восток: Сб.1. М., 1975, с.208.
21. Раффи. Меликства Хамсы. «Мшак», 1882/ bookdesigner @ the-ebook.org 13.10.2008/ Раффи. Собрание сочинений в 12-ти томах, т.IX. Ереван: Советакангрох, 1987. Прим. и словарь сост. Л.Казаряном.
22. Смбат Спарапет. Летопись. Париж, 1859; Венеция, 1956; Ереван, 1974.
23. Судебник Смбата Спарапета (Гундстабля). 1265 / Перевод со среднеарм., предисл. и примеч. А.Г.Сукиасяна. Ереван: Изд-во Ереван. ун-та, 1971, 208 с.
24. Сюнийский Степаннос. История рода Сисакан / Перевод с арм. М.Эмина. М., 1861, 249 с.
25. Тер-Григорян Т.И. Есаи, католикос албанский/ Есаи Хасан-Джалалян. Краткая история страны Албанской /1702–1722 гг./ Перевод

с древнеарм.яз. Т.И.Тер-Григоряна, предисловие, издание акад.З.М.Буниятова. Баку, 1989, с.6.
26. Тревер К.В. Очерки по истории и культуре Кавказской Албании. М.-Л.: Изд-во АН СССР, 1959, 392 с.
27. Хасан-Джалалян Есаи. Краткая история страны Албанской / 1702–1722 гг./ Перевод с древнеарм. яз. Т.И.Тер-Григоряна, предисловие и подготовка к изданию академика З.М.Буниятова. Баку: Элм, 1989, 48 с.
28. Шанидзе А.Г. Язык и письмо кавказских албанцев // Вестник отделения общественных наук. Тбилиси, №1, I960, с.169.
29. Ямпольский З.И. К изучению Летописи Кавказской Албании // Изв. АН Аз.ССР. Сер. обществ, наук, 1957, №9, с.149-156.
30. Dowsett. C.J.F. The Albanians Chronicle of Mkitar Gos / BSOAS, XXI, 1958, T.XXI, №3, p.478.
31. The History of the Caucasian Albanians by Movses Dasxuranci / translated by C.J.F.Dowsett. London: Oxfort University press, New York, Toronto, 1961, 252 p.
32. Vardan Arewelc'i. The Historikal Compilation of Vardan Arewelc'i / Translated by R.W.Thomson. Dumbarton Oaks Papers.No.43. Washington D.C.1989.



ARXEOLOGİYA, ANTROPOLOGİYA

Rəhimova Maisə
AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu,
tarix elmləri doktoru, professor

QAFQAZ ALBANİYASININ ANTİK DÖVR TARİXİ VƏ MƏDƏNİYYƏTİNİN ÖYRƏNİLMƏSİNDƏ ARXEOLOGİYA ELMİNİN ROLU

Tədqiqatçılar Cənubi Qafqazdakı ən qədim dövlətlərindən biri olan Albaniyanın min ildən artıq tarixində iki dövrü ayırırlar. Birinci qədim dövr ellinizmdən antik dövrün sonlarına qədərki xronoloji dövrü (e.ə. IV əsr – b.e. III əsrin əvvəli), ikinci, erkən orta əsrlər dövrü isə Sasanilər dövlətinin yaranmasından Qafqazda Alban dövlətinin müstəqil siyasi tarixinə son qoymuş ərəb işğalına qədərki dövrü (III əsr – VIII əsrin əvvəlləri) əhatə edir. Albaniyanın tarixinin ikinci dövrü çoxsaylı Sasani, Bizans, Suriya, ərəb, erməni və gürcü mənbələrində [Тревер, 1959, c.7-24] yetərincə yaxşı işıqlandırılsa da, erkən qədim dövrü üzrə geniş mənbəşünaslıq bazası mövcud deyil. Burada məlumatları çox vaxt səthi, ziddiyyətli, bəzən isə diametral zidd olan kifayət qədər dar çevrəli antik mənbələrə rast gəlirik.

Albanlar Cənubi Qafqazın aparıcı və böyük etnoslarından biri olaraq yazılı mənbələrdə ilk dəfə Qavqamel döyüşü (e.ə. 331-ci il) ilə əlaqədar qeydə alınmışlar. Bu döyüşü təsvir edən Roma tarixçisi Flavi Arrian alban döyüşçülərinin fars şahı III Daranın qoşununun hərbi sıralarında yer aldığını qeyd etmişdir [Аррuан, 1993, кн.III, 11, 3]. Bu vaxtdan etibarən albanlara və onların e.ə. IV əsrin sonu–III əsrin əvvəllərində Cənubi Qafqazda Böyük Qafqaz dağlarından Araz çayına qədər geniş ərazidə yaratdıqları dövlətə dair məlumatlara bir sıra yunan və Roma müəlliflərinin əsərlərində rast gəlinir.

Alban dövlətinə ən çox iki eranın ayrıcında yaşamış tarixçi və coğrafiyaçı Strabon diqqət yetirmişdir [Страбон, 1964, кн.XI, гл.IV, 1-8; Грацианская, 1988, с.6-175]. O özünün "Coğrafiya" əsərində e.ə.IV-I əsrlərdəki daha erkən yunan və Roma müəlliflərinin bizə gəlib çatmayan əsərlərində Albaniyaya dair məlumatlardan geniş istifadə etmişdir. Strabonun istinad etdiyi mənbələr arasında Patrokl (e.ə.IV əsr), Eratosfen (e.ə.III əsr), Skepsiyalı Metrodor (e.ə. II əsr), Posidoni (e.ə. I əsr) və Pompeyin Qafqaz yürüşündə iştirak etmiş Feofan Mitilenskini (e.ə. I əsr) və digər müəllifləri qeyd etmək olar [Тревер, 1959, с.7-9; Алиев, 1992, с.21]. Müxtəlif dövrlərdə yaşamış bu müəlliflərin bütünlükdə Qafqaz, xüsusən Albaniya haqqında məlumatlarının mexaniki birləşməsi və ümumiləşdirilməsi nəticəsində Strabonun əsərində çoxlu sayda qeyri-dəqiqliklər, ziddiyyətlər və bir-birini inkar edən məlumatlar mövcuddur. Çox vaxt bu məlumatlarda zaman və məkan dəyişdirilmiş olur [Тревер, 1959, с.8-9; Алиев, 2003, с.25-26].

Albaniya haqqında əsasən romalıların yürüşü və Cənubi Qafqaz siyasəti ilə bağlı qısa məlumatlara bizim eranın Roma dövrünə aid antik müəlliflərin əsərlərində rast gəlirik. Beləliklə, Plutarxın "Müqayisəli tərcümeyi-hallar" və Dion Kassinin "Roma tarixi" əsərində Roma sərkərdəsi Qney Pompeyin Albaniya və qonşu İberiyaya yürüşü ətraflı təsvir edilmişdir [Плутарх, 1994, Помпей, 34: Дион Кассий Коккеиан, 1948, кн. XXXVI, гл.54, 3-5; кн.XXXVII, гл.3, 1-6; гл.4, 1-4]. Albaniya haqqında qədim dövrün görkəmli coğrafiyaçısı və astronomu Klaudi Ptolomey mühüm məlumatlar vermişdir. O, Albaniyanın bir neçə şəhəri, o cümlədən paytaxtı Qəbələ haqqında bir sıra məlumatlar vermiş, həmçinin Albaniya ərazisindən axan bir çox çaylar, Böyük Qafqazın dağ keçidləri, albanların dəniz və quru ticarətindən xəbər verir [Птолемей, 1948, с.232-257]. Ptolomey adını çəkdiyi bütün coğrafi obyektlərin coğrafi koordinatlarını çızır və bu, onların yerinin müəyyən olunmasında böyük köməklik göstərə bilərdi, lakin Yer kürəsinin qeyri-dəqiq uzunluğundan istifadə etməsi obyektlərin yerinin onun verdiyi koordinatlarla müəyyənləşdirilməsini mümkünsüz edir [Томсон, 1953]. Albaniyanın təbiətinə və albanların özlərinin məişəti və həyat tərzinə dair bir sıra məlumatlara Romanın aparıcı ensiklopediyaçı alimi Böyük Plininin (b.e. I əsr) məşhur "Təbii Tarix" əsərində rast gəlirik [Тревер, 1959, с.9-10; Алиев, 1992, с.21]. Plininin özünün bildirdiyinə görə, Albaniyanı təsvir edərkən əvvəlki dövr müəlliflərinin, o

cümlədən Makedoniyalı İsgəndəri Şərqə yürüşü zamanı müşayiət edən müəlliflərin əsərlərindən istifadə etmişdir [Алиев, 1992, c.21].

B.e. I–III əsrlərində Tit Livi, Tasit, Pomponi, Mela, İosif Flavi, Qay Svetoni Trankvil kimi digər antik müəlliflərin əsərlərində Albaniya və albanlar haqqında məlumatlar olduqca qısadır və çox vaxt bir-birinin eynisidir, həmçinin yuxarıda adları çəkilən müəlliflərin məlumatlarını təkrarlayır. Qeyd olunan amillər səbəbindən Qafqaz Albaniyasının tarixi keçmişinin yenidən bərpa olunmasında həlledici rolu arxeoloji tədqiqatlar oynamalı idi.

Ümumilikdə Azərbaycanda arxeologiya elmi XX əsrin birinci yarısında, konkret olaraq Azərbaycan arxeologiyasında albanşünaslıq cərəyanı isə yalnız ötən əsrin ikinci yarısında formalaşmışdır. Buna qədər bütün XIX əsr boyunca Azərbaycanda rus və əcnəbi arxeoloqlar, bəzən isə elmi qazıntılar üzrə metodikası olmayan yerli məmurlar ara-sıra arxeoloji tədqiqatlar aparmışdır. Bu zaman müstəsna olaraq qəbir abidələri (əsasən tunc dövrünə aid) tədqiq olunur, aşkarlanan material isə Azərbaycandan kənara aparılırdı. Belə ki, 1834-cü ildə isveçrəli səyyah Frederik Dyubua de Monpere indiki Göygöl rayonu ərazisindəki qədim məzarlıqda qazıntılar aparmış, aşkarlanan artifaktları isə Fransaya aparmışdır. Fransalı səyyah Adolf Bernye 1862-ci ildə Muğan düzündə bir sıra qədim abidələri tədqiq etmiş, həmçinin aşkarlanan materialları Fransaya aparmışdır [Azərbaycan Milli Ensiklopediyası, 2007, s.652-653]. XIX əsrin sonunda Gədəbəy rayonunda mis istehsalı ilə məşğul olan "Simens və K" alman şirkətinin əməkdaşı V.Belk son tunc-erkən dəmir dövrünə (e.ə. II minilliyin sonu – I minilliyin əvvəli) aid 300-dən artıq "daş qutular" tipli qəbri qazmışdır. Aşkarlanmış bütün arxeoloji və antropoloji material Almaniyaya göndərilmişdir və bu günə qədər də oradadır [Göyüşov, 1986, s.8]. Eyni dövrdə fransız arxeoloqu Jak de Morqan Talış dağları ərazisində son tunc və erkən dəmir dövrünə məxsus 230 qəbri qazmışdır. Bütün arxeoloji material Fransaya göndərilmiş və bu günədək Sen-Jermen muzeyində saxlanılmaqdadır [Yacones de Morqan, 1927, pp.263-283]. XIX əsrin sonu – XX əsrin əvvəllərində Rusiya İmperator Arxeologiya Komitəsinin tapşırığına əsasən E.Resler, Q.Rozendorf və A.İvanovskiy Qarabağda Gəncəçay vadisində və Azərbaycanın digər qərb rayonlarında son tunc-erkən dəmir dövrünə məxsus çox sayda qədim məzarlıqlarda tədqiqatlar aparmışlar. Bu qazıntılar zamanı aşkarlanan materiallar Sankt-Peterburqa, Moskvaya aparılmış, elmi hesabatlar isə "İmperator Arxeologiya Komitəsinin Hesabatlarında" [Гусейнова 2011, c.154], "Arxeologiya Komitəsinin Xəbərlər toplusu"nda və "Qafqaz Arxeologiyası üzrə Materiallarda" dərc olunmuşdur [Ивановский, 1911, вып.VI, c.85-172].

Beləliklə, alban dövrünün abidələri məqsədyönlü olaraq tədqiq edilməsə də, albanologiya sahəsində ilk addımlar məhz bu dövrə aiddir. 1829-cu ildə Türkmənçay sülh müqaviləsi bağlandıqdan sonra İmperator Arxeologiya komitəsi qədim tarixi abidələri aşkarlamaq məqsədilə Aleksandr Yanovskini Zaqafqaziyaya (Cənubi Qafqaz) göndərmişdir. A.Yanovski bölgəni araşdırmaqla yanaşı, Albaniyanın paytaxtı Qəbələ ərazisində kəşfiyyat qazıntıları aparmışdır [Бабаев, 1990, c.17]. Tədqiqatın nəticəsi 1846-cı ildə dərc olunmuş və albanologiya sahəsində sərhədlər, siyasi quruluşlar, şəhərlər, mənbələr üzrə analitik məlumatlar və s. ilə bağlı məsələlərə toxunulan, faktiki olaraq ilk elmi məqalə – "Qədim Qafqaz Albaniyası haqqında" məqalə olmuşdur [Яновский, 1846, c.97-203]. Həmçinin qeyd etmək lazımdır ki, hələ A.Yanovskidən əvvəl 1835-ci ildə Fridrix Kruzenin məqaləsi dərc olunmuşdur. K.V.Treverin fikrincə sifarişlə yazılan [Тревер, 1959, c.24] bu məqalədə İberiyanın, Albaniyanın, Kolxidanın və Ermənistanın qədim tarixinin öyrənilməsinin, xüsusən Xəzər dənizi və Qara dəniz arasındakı qədim ticarət yolunun bərpa olunması baxımından əhəmiyyəti qeyd olunmuşdur [Крузе, 1835, c.423-438].

XIX əsr – XX əsrin birinci yarısında Qafqaz Albaniyasının tarixi ilə əlaqədar bir sıra məsələlərə rus alimləri İ.Şopen, B.A.Dorn, V.V.Bartold, V.F.Minorski, Y.A.Krımski və S.V.Yuşkovun, həmçinin avropalı tədqiqatçılar H.Hipert, V.Tomaşek, İ.Markvart və Q.Hyubşmanın, o cümlədən digərlərinin əsərlərində rast gəlinir [Алиев, 1992, c.6-9].

Albaniya mövzusuna toxunan ilk azərbaycanlı tədqiqatçı A.A.Bakıxanov olmuşdur. O özünün məşhur "Gülüstani-İrəm" əsərində Azərbaycan tarixini qədim dövrlərdən Gülüstan müqaviləsinə qədər (1813-cü il) araşdıraraq və antik dövr və Şərq mənbələrindən, toponimika məlumatlarından və bir sıra tarixi-memarlıq abidələrindən istifadə edərək həm

də Albaniyanın tarixi coğrafiyası, tayfaları və onların Roma və digər işğalçılarla mübarizəsinə dair bir sıra məsələlərə toxunmuşdur [Бакиханов, 1991].

Alban abidələrinin arxeoloji tədqiqatına yalnız XIX əsrin sonlarında-XX əsrin əvvəllərində başlanılmışdır. Belə ki, E.Resler 1895-ci ildə Qalatəpə və Qarabulaq rayonunda (indiki Ağcabədi və Füzuli rayonları) Mil düzündə küp qəbirlərin olduğu qədim məzarlıqlar aşkarlamış [Халилов, 1985, c.12], 1903-cü ildə Q.O.Rozendorf isə indiki Göygöl rayonu ərazisində tarixi iki eranın ayrıcına gedib çıxan, çiy kərpic sərdabələrdə 16 qəbri araşdırmışdır. 1905-ci ildə bu qədim məzarlıqda qazıntıları V.A.Skinder davam etdirmiş və bu növdə daha 6 qəbri araşdırmışdır; 1937-ci ildə Y.İ.Qummel bu növdə 8 qəbri, 1938-ci ildə isə bu qədim məzarlıqda basdırılmış daha 12 qəbri araşdırmışdır [Гошгарлы, 2012, c.60-65]. 1915-ci ildə Y.A.Lalayan indiki Qəbələ rayonunda Nic kəndinin ətrafında və Türyançay sahilində alban dövrünə aid torpaq qəbirlərdə qazıntılar aparmışdır [Халилов, 1985, c.13]. Bunlar Azərbaycan Respublikası ərazisində alban abidələri üzrə ilk elmi qazıntılar idi.

XX əsrdə Azərbaycanda bütünlükdə arxeologiya elminin inkişafında, o cümlədən qədim alban dövrünə aid abidələrin arxeoloji tədqiqatında mühüm addım 1920-ci ildə Azərbaycan Dövlət Tarix Muzeyinin yaradılması oldu. 1923-cü ildə isə Azərbaycan ərazisində arxeoloji abidələrin planlı araşdırılması məqsədilə Azərbaycan Arxeoloji Komitəsi və Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyəti yaradıldı. Yuxarıda adı çəkilən bu üç elmi strukturun aktiv fəaliyyəti sayəsində XX əsrin 20–30-cu illəri milli arxeoloq kadrların formalaşdığı dövr olmuşdur. Məhz bu dövrdə Davud Şərifov, Ələsgər Ələkbərov, İshaq Cəfərzadə, Y.A.Paxomov, Yakob Qummel və Saleh Qaziyev öz elmi arxeoloji fəaliyyətlərinə başlamışlar. Onlar hamısı Azərbaycanda arxeologiya elminin inkişafına, o cümlədən antik dövrə aid alban abidələrinin tədqiqinə görkəmli töhfə vermişlər.

1926-cı ildə Azərbaycan Dövlət Tarix Muzeyinin ekspedisiyası D.M.Şərifovun rəhbərliyi altında Yaloylutəpə adlı ərazidə antik dövrə aid torpaq qəbirləri tədqiq etmişdir. Qəbirlərdə keramik qablar, əmək alətləri, bəzəklər, o cümlədən tarixi e.ə. I əsrə gedib çıxan Roma sikkəsindən ibarət müxtəlif zəngin inventar var idi [Шарифов, 1927, c.7; Пахомов, 1965, c.22]. Rus arxeoloqları T.Passek və B.Latının bu qazıntı materialları ilə maraqlanmış və Yaloylutəpədəki qəbirlərdən çıxarılmış keramik materialın təhlilinə həsr olunmuş məqalə dərc etmişlər [Пассек, Латынин, 1927, c.217-222].

XX əsrin 20–30-cu illərində antik dövr alban tarixinə aid qəbirlərin ən çox yayılmış növü – küp qəbirlərin tədqiqi üzrə irihəcmli çöl işləri aparılmışdır. Akademik İ.İ.Meşaninov və Ə.K.Ələkbərovun rəhbərlik etdiyi ekspedisiyalar Mil düzündə, Şəki, Göyçay və digər rayonlarda onlarla küp qəbri tədqiq etmişdir. Ə.K.Ələkbərovun fikrincə, küp qəbirlər Kür və daha sonra Rioni çayları üzərindəki qədim ticarət yolu boyunca cəmləşmişdir. O, həmçinin, bu dəfn ayinlərinin daşıyıcılarının alban tayfalarından biri, məhz Mil və Muğan düzü ərazisindəki bir sıra toponimlərdə iz buraxmış qarqarlar ola biləcəyini ehtimal etmişdir. 1935-ci ildə Ə.K.Ələkbərov Leninqradda (indiki S-Peterburq) İran mədəniyyəti üzrə keçirilmiş Beynəlxalq konqresdə Azərbaycandakı küp qəbirlərə həsr olunmuş məruzə ilə çıxış etmişdir [Алекперов, 1960, c.30-36].

1937-ci ildə T.S.Passek Sabirabad rayonu Cəfərxan kəndində torpaq və küp qəbirlərin olduğu qədim məzarlığı tədqiq etmişdir. O, həmçinin, e.ə. I minilliyin ortaları və ikinci yarısında inşa edilmiş suvarma kanallarının şaxələndirilmiş sistemini araşdıraraq bu qədim suvarma qurğularını Strabonun Albaniyada torpaqların çaylarla və digər sularla Misir və Babilistandan daha yaxşı suvarıldığına dair məlumatları ilə əlaqələndirmişdir [Пассек, 1946, c.169-188].

XX əsrin 30-cu illərində alban dövrünə aid yaşayış məskənlərini və qədim məzarlıqları həmçinin arxeoloq və numizmat-alim Y.A.Paxomov araşdırmışdır. O, küp qəbirlərin olduğu bir sıra qədim məzarlıqların aşkarlandığı İsmayıllı, Göyçay, Ağcabədi, Mingəçevir rayonlarına bir sıra səfərlər etmişdir [Пахомов, 1939, c.70-74; 1944, c.46-53]. Bu səfərlərdən birində Mollaisaqlı kəndi yaxınlığında Y.A.Paxomov antik dövrə məxsus, yüksək sənətkarlıqla hazırlanmış terrakot heykəlcikləri aşkarlamışdır [Пахомов, 1936, c.23-28].

XX əsrin 30-cu illərində Qafqaz Albaniyasının bir çox abidəsinin araşdırılmasına böyük töhfə vermiş arxeoloqlardan biri S.M.Qazıyev olmuşdur. O, Azərbaycan Tarix Muzeyinin elmi əməkdaşı olaraq 30-cu illərdə Azərbaycanın demək olar ki, bütün bölgələrini əhatə edən 70-dən artıq elmi ezamiyyət

və ekspedisiyanın iştirakçısı olmuşdur [Джафарова, 2009, c.14-20]. Lakin onun diqqətini daha çox Qəbələ zonasındakı alban abidələri cəlb etmişdir. O, 1941-ci ildə "Qəbələ mahalının qədim abidələri" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir; dissertasiya işində bu ərazidəki bir çox abidənin ətraflı təhlili, o cümlədən Azərbaycanın tarixi-arxeoloji ədəbiyyatında ilk dəfə Qafqaz Albaniyasının paytaxtı Qəbələnin ətraflı təhlili verilmişdir [Джафарова, 2009, c.17]. Bu dissertasiya faktiki olaraq Qafqaz Albaniyasının qədim dövr tarixi üzrə arxeoloji və etnoqrafik materialın cəlb olunduğu ilk ümumiləşdirici əsər olmuşdur.

30-cu illərdə qədim alban dövrünə aid abidələrin arxeoloji tədqiqatları həm də Mingəçevir ərazisində aparılmışdır. 1934–1938-ci illərdə Mingəçevir ərazisində küp qəbirlərin tədqiqini Y.A.Paxomov həyata keçirmişdir. Bu tədqiqatlarda S.M.Qazıyev fəal iştirak etmişdir [Джафарова, 2009, c.38]. 1939–1940-cı illərdə S.M.Qazıyev bir daha müstəqil şəkildə Mingəçevirin ətraf ərazilərini tədqiq etdikdən və bu bölgədə müxtəlif tarixi dövrlərə, o cümlədən alban dövrünə aid qiymətli arxeoloji abidələrin mövcudluğundan əmin olduqdan sonra SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının Rəyasət Heyətinin iclasında müvafiq məlumatlarla çıxış edərək Mingəçevir ərazisində geniş arxeoloji tədqiqatlar aparmağın zəruriliyinə dair məsələ qaldırmışdır. 1941-ci ildə SSRİ EA-nın Azərbaycan filialının Rəyasət Heyətinin qərarı ilə S.M.Qazıyevin rəhbərliyi altında Mingəçevir ekspedisiyası yaradıldı. Ekspedisiya Mingəçevir ərazisindəki bütün arxeoloji abidələri aşkarlamaq və qeydə almaq məqsədilə elə həmin ilin yazında burada çöl tədqiqat işlərinə başladı. Lakin II Dünya Müharibəsinin başlaması ilə əlaqədar olaraq tədqiqat işləri dayandırıldı [Джафарова, 2009, c.39-40].

Bütünlükdə XX əsrin birinci yarısını albanşünaslıq sahəsində arxeoloji materialların toplandığı və ilk peşəkar albanşünas arxeoloqların ortaya çıxdığı dövr hesab etmək olar. Lakin bu sahədə ciddi inkişaf üçün hələ kifayət qədər potensial yox idi. Arxeoloji artifaktlar əsasında elmi cəhətdən əsaslandırılmış yenidənqurmalara və Qafqaz Albaniyasının tarix və mədəniyyətinin müxtəlif aspektlərinin ümumiləşdirilməsinə nail olmağa imkan verəcək sayda faktoloji material aşkarlamaq məqsədilə arxeoloji abidələrin irihəcmli kompleks tədqiqatını aparmaq zəruri idi.

İkinci Mingəçevir arxeoloji ekspedisiyası bu cür irəliləyiş amili oldu. 1946-cı ildə Mingəçevir rayonunda Qafqazın ən iri hidroelektrostansiyasının tikilməsi ilə əlaqədar olaraq burada təkcə geniş ərazidəki sənaye obyektlərinin tikinti məqsədilə özgəninkiləşdirilməsi deyil, həm də 65 km^2 sahədə süni su anbarının yaradılması planlaşdırılırdı. Elektrik stansiyası və su anbarının tikildiyi ərazinin çoxsaylı abidələrlə (məzarlıqlar, kurqanlar, yaşayış məskənləri, ibadətgahlar və s.) zəngin olduğunu nəzərə alaraq, Azərbaycan SSR EA-nın Rəyasət Heyətinin təşəbbüsü ilə arxeoloji ekspedisiya yaradılmış və 8 il (1946–1953-cü illər) ərzində HES-in tikildiyi ərazidə irihəcmli və ilk dəfə olaraq kompleks tədqiqatlar aparmışdır. Bu enerji obyektinin tikintisi üçün nəzərdə tutulmuş və qısa müddətdə həyata keçirilməli çöl işlərinin iri miqyasını nəzərə alaraq ekspedisiya bütün il boyu fəaliyyət göstərməli idi. Ekspedisiyanın rəisi S.M.Qazıyev təyin edilmişdi. Qeyd etmək lazımdır ki, bu ekspedisiya Mingəçevir zonasında eneolit və tunc dövründən orta əsrlərə qədər uzanan geniş xronoloji diapazona məxsus arxeoloji abidələri araşdırmışdır, lakin daha çox alban dövrünə məxsus abidələr tədqiq edilmişdir. Məhz burada, Mingəçevir ekspedisiyasında S.M.Qazıyevin rəhbərliyi altında Azərbaycan Tarix Muzeyinin, Azərbaycan SSR EA-nın Tarix İnstitutunun onlarla elmi əməkdaşı və Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinin müəllimləri, aspirantları və tələbələri arxeoloq kimi formalaşmış və çöl tədqiqatlarının metodikasını mənimsəmişlər. Bu ekspedisiyanın əməkdaşlarının bir hissəsi, məsələn, Q.İ.İone, T.İ.Qolubkina, Q.M.Aslanov, R.M.Vaidov, C.A.Xəlilov nəticədə görkəmli albanşünas arxeoloqlar olmuşdur.

Daha əvvəl də qeyd olunduğu kimi, Mingəçevir ekspedisiyası kompleks şəklində idi. Ekspedisiyanın işində arxeoloqlarla yanaşı etnoqraf və epiqrafistlər (M.İ.Atakişiyeva, Z.A.Kilçevskaya, A.N.Hüseynov, T.A.Bünyadov) dəiştiraketmişlər, antropoloji materialı R.M.Qasımova [Касимова, 1960; 1971, c.44-53], osteoloji materialı isə N.A.Ələkbərov və N.O.Burçak-Abramoviç tədqiq etmişdir. Ekspedisiyanın işinə məşhur paleobotanik V.A.Petrov, mineroloq Q.Q.Leymlen [Леймлен, 1949, c.83-87] və memar A.V.Salamzadə də cəlb olunmuşdur. Mingəçevirdəki qədim metal predmetlərin spektral və kimyəvi

təhlilini İ.R.Səlimxanov aparmışdır. Ekspedisiyanın fəaliyyətinin müxtəlif dövrlərində buraya dəfələrlə görkəmli rus arxeoloqları S.V.Kiselyov, A.A.İessen və B.B.Piotrovski səfər etmişlər. 8 illik çöl işləri dövründə 35 min kv.m sahə araşdırılmış və 20 mindən artıq artifakt aşkarlanmışdır [Джафарова, 2009, c.42-43]. Alban dövrünə məxsus bir neçə yaşayış məskəni və antik dövrə aid yüzlərlə müxtəlif növ qəbir araşdırılmışdır. Bunlar arxası üzərində uzadılmış sümüklərin olduğu torpaq qəbirlərdən, güclü və zəif əyilmiş sümüklərin olduğu torpaq qəbirlərdən, küp qəbirlərdən, taxta qutu qəbirlərdən, katakomba qəbirlərdən, həmçinin kombinə olunmuş küp və katakomba-taxta qutu qəbirlərdən ibarət idi. Yaşayış məskənləri və məzarlıqlarla yanaşı çoxsaylı istehsal tikililəri, o cümlədən müxtəlif sənətkarlıq emalatxanalarının və dulusçuluq sobalarının qalıqları da tədqiq olunmuşdur [Ионе, 1951, c.31-77]. Antik dövr Albaniyasına aid, araşdırılmış qəbirlərdə və yaşayış məskənlərində minlərlə müxtəlif artifaktlar aşkarlanmışdır. Bunlar əmək alətləri və məişət ləvazimatları, müxtəlif silahlar, bəzək əşyaları, bədii metal məmulatları, gemmalar (üzərində yazı və ya şəkil qazılmış qiymətli daşlar) və bullalar, dini ayinlər üçün nəzərdə tutulmuş predmetlər, müxtəlif sənətkarlıq alətləri və s.-dən ibarət idi. Antik Albaniyanın keramik məmulatları özünün funksional və bədii müxtəlifliyi ilə heyrət doğurur. Mingəçevirdə çoxlu sayda antik idxal predmetləri aşkarlanmışdır ki, bu da antik dövr Albaniyasının ətraf dünya ilə möhkəm ticari-iqtisadi əlaqələrinin olduğundan xəbər verirdi. Bunu həmçinin, Mingəçevirdə aşkarlanmış və müxtəlif ölkələrdə kəsilmiş antik sikkələr də təsdiq edirdi [Пахомов, 1951, c.141-146].

XX əsrin 50-ci illərində artıq aşkarlanmış arxeoloji materiallar əsasında Qafqaz Albaniyasının antik dövr tarixinə dair arxeoloji materialların geniş şəkildə cəlb olunduğu ilk əsərlər yaranmağa başladı. Bunlar S.M.Qazıyevin "Azərbaycanın maddi mədəniyyəti" toplusundakı məqalələr seriyası [Казиев, 1949, c.9-49; 1951, c.5-30], Q.İ.İonenin məqaləsi [Ионе, 1946, c.399-406; 1948, c.451-457; 1951, c.31-77; 1953, c.82-97], R.M.Vaidovun məqaləsi [Ваидов, 1951, c.81-85; Ваидов, Фоменко, 1991, c.80-102] və Q.M.Aslanovun [Асланов, 1953, c.61-66] məqaləsindən ibarət idi.

XX əsrin 50–60-cı illərində həm də ilk dəfə Qafqaz Albaniyasının tarixi və mədəniyyəti üzrə ümumiləşdirici əsərlər hazırlanmağa başladı. Bu əsərlərdə tarixi problemlərin geniş spektrinin əsaslandırılması üçün arxeoloji materiallardan istifadə olunmağa başlanıldı. Bunların arasında O.Ş.İsmizadənin [Исмизаде, 1956], N.M.İvaşenkonun [Иващенко, 1947, c.73-80], Q.Q.Leymlenin [Леймлен, 1949, c.83-87], V.N.Leviatovun [Левиатов, 1950, c.65-95], R.M.Qasımovanın [Касимова, 1960] və bir sıra digər tədqiqatçıların əsərlərini qeyd etmək olar. Lakin əsl elmi sensasiya K.V.Treverin 1959-cu ildə dərc olunmuş "Qafqaz Albaniyasının tarixi və mədəniyyətinə dair oçerklər" adlı fundamental əsəri olmuşdur. Əsərdə həmin vaxta qədər alban dövrünə aid dərc olunmuş arxeoloji materiallara geniş yer verilmişdir. Faktoloji materialların təhlili sayəsində K.V.Trever bu nəticəyə gəlmişdir ki, tədqiqatçıların yazılı mənbələrə və ilk növbədə Strabonun məlumatlarına əsasən antik dövr Albaniyası haqqında guya Albaniyanın ictimai inkişaf baxımından qonşu ölkələrdən geri qaldığına dair formalaşdırdığı təsəvvür "...bu dövrü arxeologiya məlumatları ilə işıqlandırdıqda tənqidə tab gətirmir" [Тревер, 1960, c.3]. K.V.Treverin əsərinin ardınca S.M.Qazıyevin Mingəçevirdəki küp qəbirlərə həsr olunmuş əsəri [Казиев, 1960], Q.M.Aslanov, R.M.Vaidov və Q.İ.İoenin Mingəçevirdəki qazıntılara həsr olunmuş kollektiv fundamental tədqiqatı [Асланов, Ваидов, Ионе, 1959] və Z.İ.Yampolskinin antik Albaniya haqqında ümumiləşdirici əsəri [Ямпольский, 1962] ortaya çıxdı.

Beləliklə, XX əsrin 60-70-ci illərində Azərbaycanda tarix, arxeologiya, memarlıq, sənətşünaslıq, antropologiya və s. sahələrdə tədqiqatları özündə ehtiva edən çoxtərəfli "Albanşünaslıq" yekun olaraq formalaşdı. Bu zamana qədər Moskva və Leninqradın (indiki S-Peterburq) aparıcı elmi mərkəzlərində hazırlıq keçmiş mühüm sayda tarixçi və albanşünas arxeoloqların olması bir çox antik abidələr, ilk növbədə Qafqaz Albaniyasının şəhərləri üzrə irihəcmli tədqiqatlara başlamağa imkan verdi.

Mingəçevir zonasındakı tədqiqatçıların antik mənbələrdə qeyd olunan Samunis şəhərinə bənzətdikləri antik şəhər ərazisindən tapılmış kütləvi sayda unikal materialları nəzərə alaraq Qafqaz Albaniyasının məhz antik dövrə aid şəhərlərinin tədqiqatının genişləndirilməsinə qərar verildi. 1959-cu ildə Qəbələ arxeoloji ekspedisiyası yaradıldı və eksredisiya bu günədək öz tədqiqatlarını davam

etdirir. 1959–1971-ci illər ərzində ekspedisiyaya S.M.Qazıyev, sonrakı illərdə isə Q.M.Əhmədov və İ.A.Babayev rəhbərlik etmişdir. Müxtəlif illərdə tərkibində albanşünas arxeoloqlar R.B.Göyüşov, İ.A.Babayev, F.L.Osmanov, O.Ş.İsmizadə, T.İ.Qolubkin və A.A.Qarahmədovanın iştirak etdiyi bu ekspedisiya Qafqaz Albaniyasının tarixinin və mədəniyyətinin öyrənilməsinə böyük töhfə vermişdir. Antik Qəbələnin ilkin olaraq Çaqqallıq adlanan ərazisində [Babayev, Əhmədli, 1981, s.8-21], b.e. I əsrin sonu – II əsrin əvvəllərində qədim şəhərin mərkəzinin Səlbir və Qala adlı yerə köçürüldüyü və burada şəhər həyatının son orta əsrlərə qədər davam etdiyi müəyyən olunmuşdur. Qəbələnin çoxillik tədqiqatı Mingəçevir qazıntıları kimi antik dövr və orta əsr Albaniyasının tarixinin öyrənilməsinə misilsiz töhfə verdi. 1964-cü ildə "Azərbaycanın maddi mədəniyyəti" toplusunun bütünlüklə Qəbələnin tədqiqatın nəticələrinə həsr olunmuş növbəti beşinci cildi işıq üzü gördü [Материальная культура Азербайджана, т.5, 1964]. Antik Qəbələnin tədqiqi Qafqaz Albaniyasında şəhər mədəniyyətinin yüksək səviyyəsindən, inkişaf etmiş şəhər planlaşdırılmasının, çoxsahəli sənətkarlıq istehsalının, fundamental ictimai tikililərin və ibadətgahların, geniş beynəlxalq əlaqələrin və s.-nin mövcudluğundan xəbər verir [Бабаев, 1990, с.62-101]. Qəbələnin antik qatlarında və məzarlıqlarında aşkarlanmış çoxsaylı müxtəlif arxeoloji materialla yanaşı, qazıntılar zamanı ellinizm dövrünə aid mühüm sayda antik sikkələr aşkarlanmışdır. Bunlar Makedoniyalı İsgəndərin, Selevki, Parfiya və Yunan-Baktriya hökmdarlarının adına kəsilmiş, həmçinin Roma əsrinə aid sikkələrdir. Qəbələdə aşkarlanmış antik sikkələrdən ibarət iki xəzinə xüsusi elmi dəyər kəsb edirdi [Бабаев, Казиев, 1971, с.16-32; Гошгарлы, 2020, с.80]. Qəbələdə və Albaniya ərazisində aşkar olunmuş digər antik sikkə xəzinələri (Xınıslı, Əlibayramlı, Nüydü, Şarakun, Lənkəran) Qafqaz Albaniyasının xarici dünya ilə geniş iqtisadi əlaqələrinin olduğunu əyani surətdə göstərir. Bundan əlavə Albaniyada sikkələrə tələbat o qədər yüksək idi ki, e.ə. III əsrdən başlayaraq, albanlar öz sikkələrini kəsməyə başlamışlar və bu sikkələr müxtəlif antik sikkələrə bənzəyirdi [Rəcəbli, 2012, s.33-68].

Beləliklə, bir sıra tədqiqatçıların, xüsusən də erməni tarix məktəbinin nümayəndələrinin antik dövrdəki alban cəmiyyətinin arxaikliyinə dair Strabonun albanların yüzdən artıq rəqəm bilmədiklərinə görə adətən kəsilmiş sikkədən istifadə etmədiklərinə, yalnız kiçik ticarətlə məşğul olduqlarına dair məlumatlarına əsaslanan iddiaları Qafqaz Albaniyasının arxeoloji tədqiqatı zamanı aşkarlanmış mühüm numizmatik materiallarla tam təkzib edilmişdir.

XX əsrdə genişmiqyaslı arxeoloji tədqiqatların obyektinə çevrilən daha bir antik alban şəhəri antik mənbələrdə həmçinin adı çəkilən qədim Şamaxıdır (Kemaxiya). Müasir Şamaxının antik şəhərin izləri qeydə alınan Xınıslı kəndi ərazisində intensiv qazıntılar 15 ildən artıq müddətdə aparılmışdır. Ekspedisiyaya Azərbaycanın həmin dövrdəki aparıcı albanşünas arxeoloqlarından biri olan C.A.Xəlilov rəhbərlik etmişdir. O qədim şəhərin 2000m^2-dən artıq sahəsini və oradakı bir sıra məzarlıqları tədqiq etmişdir. Onlarla yaşayış, ictimai və dini tikililər, istehsal mərkəzləri və tikililəri aşkarlanmış və tədqiq edilmişdir; minlərlə maddi mədəniyyət predmetləri, mühüm antropoloji, osteoloji material və kömürləşmiş buğda və arpa qalıqları, müxtəlif meyvə bitkilərinin çəyirdəkləri və s. aşkarlanmışdır [Халилов, 1985, с.19-20]. Məhz Xınıslıda ilk dəfə yerli alban kəsimi sikkələr aşkarlanmış və bu abidənin öyrənilməsinin elmi əhəmiyyətini şərtləndirmişdir.

XX əsrin 70-ci illərində C.A.Xəlilovun rəhbərliyi altında Azərbaycanın şimal-şərqindəki arxeoloji abidələr toplusunun tərtib olunması üzrə daha bir iri elmi layihə reallaşdırıldı. Burada müxtəlif tarixi dövrlərə aid yüzlərlə arxeoloji abidələr, o cümlədən antik Albaniyanın bir sıra yaşayış məskənləri, qədim şəhərləri və məzarlıqları aşkarlanmış və ilkin olaraq araşdırılmışdır [Халилов, Кошкарлы, Аразова, 1991]. Bu zonada Quba rayonunun Rustov kəndində antik məzarlıqların [Халилов, 1974, с.58-59; Кошкарлы, 1985, с.44-45], Xaçmaz rayonunda qədim şəhər yerinin və Canaxar məzarlığının [Халилов, Кошкарлы, Аразова, 1991, с.109-113; Dostiyev, Qoşqarlı, 2011, s.103-109], nəticədə Xızı rayonunda Altıağac məzarlığının [Qoşqarlı, 2012, s.25, 102-105] tədqiqi Albaniyanın bizim eranın ilk əsrlərində Sarmat-Alan çevrəsinin köçəri tayfaları ilə əlaqələrinə dair təsəvvürləri əhəmiyyətli dərəcədə genişləndirməyə imkan vermişdir. Bu zona həm də Klaudi Ptolomeyin dörd iri alban şəhərinin –

Taleybu, Albanu, Geldu və Qaytaru şəhərlərinin burada – Soanna, Gerra, Kasia və Albana çaylarının mənsəbində yerləşdiyini qeyd etdiyinə görə maraq kəsb edir [Птолемей 1948, V, II, 1]. İstisna deyil ki, Xaçmaz rayonunda aşkarlanmış və geniş ərazini tutan antik Canaxar şəhəri Ptolomeyin bu ərazidə qeyd etdiyi şəhərlərdən biridir.

Albaniyanın tədqiq olunan antik şəhərləri arasında Torpaqkalu şəhərini qeyd etmək lazımdır [Vahidov, 1965, s.201-211]. Burada qədim şəhərlə yanaşı həmçinin eramızın ilk əsrlərinə aid torpaq, küp və katakomba qəbirlər da tədqiq olunmuşdur [Халилов, 1985, c.20-21; Vahidov, 1965, s.207; Aslanov, 1961, s.33-35].

Antik dövrə aid tədqiq olunmuş iri arxeoloji komplekslər içərisində həmçinin Ağsu rayonunda Qırlartəpəni də qeyd etmək mümkündür. Bu abidəni uzun illər ərzində arxeoloq F.Osmanov araşdırmışdır [Osmanov, 2006, s.74-126]. O həmçinin Ağsu və İsmayıllı rayonlarında antik dövrə aid, Qafqaz Albaniyasının maddi mədəniyyətinə dair çox dəyərli artifaktlar vermiş bir çox məzarlığı (Mollaisaqlı, Nüydü, Uzunboylar) tədqiq etmişdir [Османов, 2006].

Qafqaz Albaniyasının antik dövrə aid bir çox arxeoloji abidəsinin çoxillik tədqiqatının və əldə olunmuş artifaktların dərin elmi təhlilinin nəticələri Azərbaycan alimlərinə XX əsrin ikinci yarısında bu mövzu üzrə bir sıra ümumiləşdirici əsərlər yaratmağa imkan vermişdir. Burada ilk öncə C.A.Xəlilovun "Qafqaz Albaniyasının maddi mədəniyyəti", İ.A.Babayevin "Qafqaz Albaniyasının şəhərləri" adlı fundamental tədqiqatları, K.Q.Əliyevin "Antik Qafqaz Albaniyası", Q.O.Qoşqarlının "Azərbaycan ərazisində antik dövrə aid qəbir abidələrinin tipologiyası" adlı əsərlərini, həmçinin Albaniyanın memarlıq tarixi [Ахундов, 1986] və incəsənət tarixi [Рзаев, 1976] üzrə bir sıra ümumiləşdirici əsərləri qeyd etmək olar.

Qeyd olunan ümumiləşdirici əsərlərlə yanaşı, Azərbaycan arxeoloqları antik Albaniyada keramika istehsalını [Бадалов, 2003], silahları və hərbi işi [Алиев, 2008], şüşə istehsalını [Nuriyev, 1981], qliptikanı [Бабаев, 1965], torevtikanı [Кошкарлы, 1989], əmək alətlərini [Мехтиев, 1990] və bəzək əşyalarını [Ахундова, 2020] tədqiq etmiş və monoqrafik əsərlərdə ümumiləşdirmişlər. Qafqaz Albaniyasının antik dövrdə beynəlxalq əlaqələrinə xüsusi tədqiqatlar həsr olunmuşdur [Расулова, 2008; Гошгарлы, 2001].

Qeyd etmək lazımdır ki, Dağıstan ərazisində Albaniyanın antik dövrə aid abidələri üzərində Dağıstan arxeoloqları tərəfindən ciddi elmi tədqiqatlar aparılır. Belə ki, ötən əsrin müxtəlif dövrlərində tədqiqatçılar A.S.Başkirov, M.İ.İsayev, daha sonra isə V.T.Kotoviç Dərbənd rayonunda qədim Torpaqqala şəhərini araşdırmışlar. İ.A.Babayevin fikrincə bu qədim şəhər Xəzəryanı zonada Albaniyanın yuxarıda adıçəkilən dörd şəhərindən biri ola bilər [Бабаев, 1990, c.26-27]. V.Q.Kotoviçin rəhbərliyi altında qədim Urtseki şəhəri tədqiq olunmuşdur [Гаджиев, 2002, c.11; Маммиев, 1970]. Bu şəhərin Musa Kalankatlının qeyd etdiyi Varaçan şəhəri ilə oxşar olduğu müəyyən edilmişdir [Халилов, 1985, c.49]. 70-ci illərdən etibarən dağıstanlı arxeoloqlar iri Tarqu şəhərinin tədqiqinə başlamış və burada antik alban-sarmat dövrünə aid mədəni təbəqələri aşkarlamışlar [Котович и др., 1983, c.57-82]. 1970-ci ildən etibarən 50 ildən artıq müddətdə əvvəlcə A.A.Kudryavtsevanın, daha sonra isə M.S.Hacıyevanın rəhbərliyi altında Dərbənddə stasionar tədqiqatlar aparılmış, antik və orta əsrlər dövrünə aid təbəqələr aşkarlanaraq tədqiq olunmuşdur. Alimlər xronologiya və stratiqrafiya, şəhərin qurulduğu vaxt, inkişaf dinamikası, qədim və orta əsrlər dövründəki tarixi rolu ilə bağlı qəliz məsələləri həll etməyə nail olmuşlar [Кудрявцев, 1982; Гаджиев, 2002]. Albaniyanın antik dövrə aid qədim şəhərlərinin və qəbir abidələrinin araşdırılmasına O.M.Davudov böyük töhfə vermişdir [Давудов, 1996].

Beləliklə, Dağıstandakı qazıntılar təbii olaraq, Azərbaycandakı tədqiqatları tamamlayaraq antik dövr Albaniyasının müəyyən yerli xüsusiyyətlərə malik vahid maddi mədəniyyətini yenidən formalaşdıracaqdır.

Təəssüflər olsun ki, XX əsrin sonlarında SSRİ-nin dağılması və ardınca Azərbaycan ərazisinin mühüm hissəsinin Ermənistan tərəfindən işğal olunması nəticəsində Azərbaycandakı arxeoloji tədqiqatlar müvəqqəti olaraq dayandırılmışdır. Lakin artıq XXI əsrin əvvəlində antik dövrə aid alban abidələrində də yenidən geniş miqyaslı qazıntılar başlamışdır. Bu dövrdə yuxarıda adları çəkilən bir çox abidələr üzərində tədqiqatlar davam etdirilərək, həmçinin düzən Qarabağ və Naxçıvan zonasında

antik alban abidələrinin tədqiqatına başlanılmışdır. Daha geniş miqyaslı tədqiqatlar antik Bərdə ilə oxşar olduğu müəyyən edilən qədim Şortəpə şəhərində [Məmmədov, Əliyev, 2013, s.208-211; 2015, s.207-210; 2017, s.234-245] və bəzi tədqiqatçılar tərəfindən Strabonun adını çəkdiyi alban şəhəri Ayniana ilə oxşar olduğu müəyyən edilən qədim Qalatəpə şəhərində aparılmışdır [Страбон, кн.XI, гл.7,1]. Burada qədim şəhərlə yanaşı torpaq və küp qəbirlərin olduğu məzarlıqlar da araşdırılmışdır [Əliyev, 2012, s.216-234; 2013, s.202-207; 2015, s.199-206; 2017, s.225-232].

Naxçıvan Muxtar Respublikasında artıq uzun illərdir ki, şəhər tipli iri qədim yaşayış məskəni olan Meydantəpə araşdırılmaqdadır [Bədəlov, Əsədov, 2012, s.221-225; 2013, s.198-201; Bədəlov, 2015, s.193-198; Bədəlov, 2017, s.215-220]. Hazırda Arxeologiya və Etnoqrafiya İnstitutunun antik dövr arxeologiyası şöbəsi Qafqaz Albaniyasının antik abidələri üzrə bütün əsas tədqiqatların əks olunacağı fundamental ümumiləşdirici kollektiv əsərin nəşrinə hazırlıq işlərini tamamlamaqdadır.

Bu gün əminliklə demək olar ki, Albaniyanın qədim abidələrinin arxeoloji tədqiqatı təkcə Alban dövlətinin və həmin dövrkü cəmiyyətinin tarixi, mədəniyyəti, ictimai və sosial quruluşu haqqında təkcə əvvəllər formalaşmış düşüncələrin yenidən gözdən keçirilməsinə səbəb olmamış, həm də antik dövrdə bu dövlətin şimalda Qafqaz dağlarından cənubda Araza qədər, şərqdə Xəzər sahillərindən qərbdə Göyçə gölünə qədər uzanan sərhədlərini müəyyən edən özünəməxsus marker rolunu oynamışdır. Antik müəlliflərin antik dövrdə Qafqaz dövlətlərinin sərhədləri haqqında ziddiyyətli, dolaşıq və heç də həmişə reallığı əks etdirməyən məlumatlarından çox vaxt qədim zamanlardan albanlara məxsus ərazilərin, xüsusən Kür çayının sağ sahilində Mil, Muğan və Qarabağ (dağlıq) və digər zonaların qədim Ermənistan ərazisinə aid edilməsində istifadə olunduğundan, bu xüsusi əhəmiyyət daşıyır. Ermənilər buradan çıxış edərək, çox vaxt Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış torpaqları üzərindəki bugünkü iddiaları əsaslandırmağa çalışırlar.

Bu gün Azərbaycanın antik dövrdə Albaniyanın tərkibinə daxil olan və Ermənistan tərəfindən işğal edilmiş tarixi torpaqları təntənəli surətdə azad olunduqdan sonra AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu tərəfindən, azad edilmiş rayonlarda irimiqyaslı arxeoloji tədqiqat proqramı hazırlanır. Şübhəsiz ki, prioritet istiqamətlərdən birini həm də bu torpaqlarda antik dövrə aid alban abidələrinin tədqiqi təşkil edəcəkdir.

ƏDƏBİYYAT:

1. Azərbaycan Milli Ensiklopediyası. Bakı, 2007, s.652-653.
2. Aslanov Q.M. Torpaqqalada arxeoloji qazıntı işlərinin ilk yekunları // Известия АН Аз.ССР, серия общественных наук, 1961, №8, с.33-35.
3. Eminli C.T. Azərbaycanın ellinizm dövrü saxsı məmulatı (e.ə. IV–I əsrlər): Tarix elm. namiz. diss. avtor. Bakı, 2008.
4. Əliyev T.R., Babayev F.İ., Hüseynova T.T., Əliyeva G.İ., Abbasov V.B., Əliyev V.T. Qalatəpə antik şəhər məskəni və nekropolunda tədqiqatlar / Azərbaycanda Arxeoloji Tədqiqatlar 2011. Bakı, 2012, s.226-234.
5. Əliyev T.R., Babayev F.İ., Hüseynova T.T., Əliyeva G.İ., Abbasov V.B., Əliyev V.T. Qalatəpədə aparılan arxeoloji tədqiqatlar haqqında / Azərbaycanda Arxeoloji Tədqiqatlar 2012. Bakı, 2012, s.202-207.
6. Əliyev T.R., Babayev F.İ., Hüseynova T.T., Əliyev V.T. Mil–Qarabağ ekspedisiyası Qalatəpə dəstəsinin 2013–2014-cü illərdə apardığı göl tədqiqatlar haqqında / Azərbaycanda Arxeoloji Tədqiqatlar 2013–2014. Bakı, 2015, s.199-206.
7. Əliyev T.R., Babayev F.İ., Əliyeva G.İ., Əliyev V.T. Mil–Qarabağ ekspedisiyası Qalatəpə dəstəsinin 2015–2016-cü illərdə apardığı göl tədqiqatlar haqqında / Azərbaycanda Arxeoloji Tədqiqatlar 2015–2016. Bakı, 2017, s.225-233.
8. Babayev İ.A., Əhmədov Q.M. Gəbələ. Bakı: Elm, 1981, 66 s.
9. Bədəlov Ə.N., Əsədov A.A. Meydantəpə yaşayış yerində arxeololi tədqiqatlar / Azərbaycanda Arxeoloji Tədqiqatlar 2011. Bakı, 2012, s.221-225.
10. Bədəlov Ə.N., Əsədov A.A. Meydantəpə yaşayış yerində arxeololi tədqiqatlar / Azərbaycanda Arxeoloji Tədqiqatlar 2012. Bakı, 2013, s.198-201.
11. Bədəlov Ə.N. Meydantəpədə arxeoloji tədqiqatlar / Azərbaycanda Arxeoloji Tədqiqatlar 2013–2014. Bakı, 2015, s.193-198.
12. Bədəlov Ə.N. 2015–2016-ci illərdə Meydantəpə yaşayış yerində arxeoloji tədqiqatlar / Azərbaycanda Arxeoloji Tədqiqatlar 2015–2016. Bakı, 2017, s.221-224.
13. Dostiyev T.M., Qoşqarlı Q.O. Canaxırda antik nekropol // Bakı Dövlət Universitetinin xəbərləri, 2011, №2, s.103-109.
14. Göyuşov R.B. Azərbaycan arxeoloqiyası. Bakı, 1986, 186 s.
15. Məmmədov A.M., Əliyev T.V. Bərdə arxeoloji qazıntıları / Azərbaycanda Arxeoloji Tədqiqatlar 2012. Bakı, 2013, s.208-211.
16. Məmmədov A.M., Əliyev T.V. Bərdə arxeoloji ekspedisiyasının 2013–2014-ci illərdə tədqiqatları / Azərbaycanda Arxeoloji Tədqiqatlar 2013–2014. Bakı, 2015, s.221-224.
17. Məmmədov A.M., Əliyev T.V., Rəcəbov M.İ., Quliyeva S.A. Bərdə 2015–2016-ci illərdə aparılmış arxeoloji qazıntı, və çöltədqiqat işlərinin / Azərbaycanda Arxeoloji Tədqiqatlar 2015–2016. Bakı, 2017, s.221-224.
18. Nuriyev A.B. Qafqaz Albaniyasının şüşə məmulatı və istehsalı tarixi. Bakı, 1981.
19. Rəcəbli Ə. Azərbaycan sikkələri. Bakı, 2012, 356 s.
20. Vahidov R.M. Torpaqqalada arxeololi qazıntılar / Azərbaycanın Maddi Mədəniyyəti, c.VI. Bakı, 1965, s.201-202.
21. Алекперов А.К. Кувшинные погребения в Азербайджанской ССР/ Исследования по археологии и этнографии Азербайджана, 1960, с.30-35.
22. Алиев А.А. Оружие древних албанов. Баку, 2008.
23. Алиев И.Г. Лжеистория – попытка оправдать агрессию. Баку: Нурлан, 2003, 48 с.
24. Алиев К.Г. Античная Кавказская Албания. Баку: Азернешр, 1992, 238 с.
25. Арриан Флавий. Поход Александра. М.: Миф, 1993, 272 с.
26. Асланов Г.М. Каменные орудия Мингечаура / Материальная культура Азербайджана, т.3. Баку, 1953, с.61-66.
27. Асланов Г.М., Ваидов Р.М., Ионе Г.И. Древний Мингечаур. Баку: Изд-во АН Аз.ССР, 1959, 189 с.

28. Ахундов Д.А. Архитектура древнего и раннесредневекового Азербайджана. Баку: Азерб. Госуд. Изд-во, 1986, 311 с.
29. Ахундова Г.К. Украшения Азербайджана античного периода. Баку, 2020, 280 **с.**
30. Бабаев И.А. Памятники глиптики Азербайджана античной эпохи и раннего средневековья: Автор. дисс. канд. ист. наук. Баку, 1965.
31. Бабаев И.А. Города Кавказской Албании в IV в. до н.э. – III в. н.э. Баку, 1990, 236 с.
32. Бабаев И.А., Казиев. Кабалинский клад монет эллинистической эпохи // Нумизматика и Эпиграфика. Москва, вып. IX, 1971, с.16-32.
33. Бакиханов А.А. «Гюлистан-и Ирам». Баку: Элм, 1991, 304 с.
34. Бадалов А.Г. Гончарное ремесло Азербайджана античного периода (I–III вв.). Баку, 2003.
35. Ваидов Р.М. Фрагменты глиняного подсвечника с албанской надписью // Доклады Академии наук Аз.ССР, №2, 1951, с.81-85.
36. Ваидов Р.М., Фоменко В.П. Средневековый замок в Мингечауре / Материальная культура Азербайджана, т.III. Баку, с.80-102.
37. Гаджиев М.С. Древний город Дагестана. М., 2002.
38. Гошгарлы Г.О. Античная Кавказская Албания в системе международных отношений в IV–I вв. до н.э. / Материалы международной конференции «Этно-культурное наследие Кавказской Албании». Баку, 2001, с.25-30.
39. Гошгарлы Г.О. Типология погребальных памятников античного периода на территории Азербайджана. Баку: Элм, 2012, 248 с.
40. Гошгарлы Г.О. Азербайджан на шелковом пути во II в. до н.э. – III в. н.э. Азербайджан на шелковом пути. Баку, 2020, с.38-99.
41. Грацианская Л.И. «География» Страбона. Проблемы источниковедения / Древнейшие государства на территории СССР. М., 1988, с.6-175.
42. Давудов О.М. Материальная культура Дагестана албанского времени (III в. – IV в. н.э.). Махачкала: ДНЦ РАН, 1996, 428 с.
43. Джафарова Э. Вклад Салех Мустафа оглы Казиева в развитие археологии Азербайджана. Баку, 2009.
44. Дион Кассий, Коккеиан. 1948. Римская история//Вестник древней истории, №2, с.268-277.
45. Ивановский А.А. По Закавказью / Материалы по археологии Кавказа, вып. VI, 1911, с.85-172.
46. Иващенко М.М. Кувшинные погребения Азербайджана и Грузии // Известия АН Аз.ССР, 1947, №1, с.73-80.
47. Ионе Г.И. Археологические раскопки в Мингечауре // Доклады Академии наук Аз.ССР, 1946, т.II, №9, с.399-406.
48. Ионе Г.И. Археологические раскопки в Мингечауре // Доклады Академии наук Аз. ССР, 1948, т.IV, №10, с.451-457.
49. Ионе Г.И. О гончарных обжигательных печах Мингечаура / Материальная культура Азербайджана, т.II, Баку, 1951, с.31-77.
50. Ионе Г.И. Мингечаурская разновидность наконечников стрел «скифского типа» / Материальная культура Азербайджана, т.III, Баку, 1953, с.82-97.
51. Исмизаде О.Ш. Ялойлутепинская культура. Баку: Изд-во АН Аз.ССР, 1956, 131с.
52. Казиев С.М. Археологические раскопки в Мингечауре / Материальная культура Азербайджана, т.I. Баку, 1949, с.9-49.
53. Казиев С.М. О некоторых типах оружия из Мингечаура / Материальная культура Азербайджана, т.II, Баку, 1951, с.5-30.
54. Казиев С.М. Альбом кувшинных погребений Мингечаура. Баку, 1960.
55. Касимова Р.М. Антропологическое исследование черепов из Мингечаура. Баку, 1960.
56. Касимова Р.М. О краниологических материалах из раскопок в Мингечауре / Вопросы истории Кавказской Албании. Баку, 1962, с.44-53.
57. Котович В.Г., Котович В.М., Салихов Б.М.. Городище Таргу / Древние и средневековые поселения Дагестана. Махачкала, 1983, с.57-82.
58. Кошкарлы К.О. Античная и раннесредневековая торевтика из Азербайджана. Баку: Элм, 1985, 139 с.
59. Крузе Ф. О важности южнокавказских областей России в отношении антикварном и о Птолемее главном писателе в рассуждении Географии сей страны / Журнал Министерства

Народного Просвещения, ч.5, 1835, с.423-438.
60. Кудрявцев А.А. Древний Дербент. М.: Наука, 1982**,** 176 с.
61. Левиатов В.Н. Азербайджан с V в. до н.э. по III в. н.э. // Известия АН Аз.ССР, 1950, №1, с.65-95.
62. Леймлен Г.Г. Основные типы каменных бус Мингечаурского некрополя // Доклады АН Аз.ССР, 1949, т.V, № 2, с.83-87.
63. Маммиев М.М. Ремесло Дагестана албано-сарматского и раннесредневекового периода: Автореф. дисс. канд. ист. наук. Махачкала, 1970.
64. Материальная культура Азербайджана. T.V. Баку, 1964.
65. Мехтиев Т.С. Орудия труда Кавказской Албании: Автореф. дисс. канд. ист. наук. М., 1990.
66. Османов Ф.Л. История и культура Кавказской Албании IV в. до н.э. – III в. н.э. Баку, 2006.
67. Пассек Т.С. Джафарханский могильник // Вестник древней истории, 1946, №2, с.169-188.
68. Пассек Т., Латынин Б. К вопросу о керамике из Ялойлу-Тепе // Известия Общества обследования и изучения Азербайджана. Баку, 1927, №4, с.217-222.
69. Пахомов Е.А. Статуэтка из Молла–Исаклинского сельбища и её датировка // Известия Аз.ФАН СССР, Баку, 1936, №1, с.23-28.
70. Пахомов Е.А. Обследование и раскопки кувшинных погребений Азербайджана // Известия Аз.ФАН СССР, Баку, 1939, №3, с.70-74.
71. Пахомов Е.А. Кувшинное погребение из Мингечаура // Известия Аз.ФАН СССР, Баку, 1944, № 9, с.46-53.
72. Пахомов Е.А. Монеты Мингечаура / Материальная культура Азербайджана, т.II. Баку, 1951, с.141-146.
73. Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Баку, 1965, вып.IX.
74. Плутарх. Сравнительные жизнеописания. Т.II. М.: Изд-во «Наука», 1994, 672 с.
75. Птолемей, Клавдий. «Географическое руководство» // Вестник древней истории, 1948, №2, с.232-257.
76. Расулова М.М. Торгово–экономические и культурные связи Кавказской Албании с античным и эллинистическим миром. Баку: Мутарджим, 2008, 228 с.
77. Рзаев Н.И. Искусство Кавказской Албании IV в. до н.э. – VII в. н.э. Баку: Элм, 1976, 256 с.
78. Страбон. География. Ленинград, 1964.
79. Томсон Дж.О. История древней географии. М.: Изд-во иностр. лит-ры, 1953, 592 с.
80. Тревер К.В. Очерки по истории и культуре Кавказской Албании. М.-Л.: Изд-во АН СССР, 1959, 391 с.
81. Тревер К.В. К вопросу о культуре Кавказской Албании. М., 1960.
82. Халилов Дж.А. Могильник у с.Рустов Кубинского района и его место в культурных связях Дагестана и Азербайджана / Пятые крупновские чтения по археологии Кавказа. Махачкала, 1974, с.58-59.
83. Халилов Дж.А. Материальная культура Кавказской Албании. Баку, 1985.
84. Халилов Дж.А., Кошкарлы К.О., Аразова Р.Б. Свод археологических памятников Азербайджана. Баку: Элм, 1991.
85. Шарифов Д.М. Раскопки в Ялойлутепе / Материалы Азгосмузея, вып. I. Баку, 1927, с.1-32.
86. Ямпольский З.И. Древняя Албания III–I вв. до н.э. Баку: Изд-во АН Аз.ССР, 1962, 389 с.
87. Яновский А.А. О древней Кавказской Албании / Журнал Министерства Народного Просвещения, 1846, ч.52, с.97-203.
88. Yacques de Morqan. La prehistoire orientale. Paris, 1927, pp.263-283.

Kwon Ohyoung
Seul Milli Universiteti (Koreya), Koreya tarixi kafedrası, professor

Cəbiyev Qafar
AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun "İlk orta əsrlər arxeologiyası" şöbəsinin baş elmi işçisi, tarix elmləri doktoru, professor

Kim Jongil
Seul Milli Universiteti (Koreya), İncəsənət tarixi və Arxeologiya kafedrası, professor

Nəcəfova İradə M.
AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun "Arxeoloji irsin tarixi və nəzəriyyəsi" şöbəsinin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent / SEBA

Sohn Jaehyeon
Seul Milli Universiteti (Koreya), Asiya Mərkəzi, elmi işçi

QAFQAZ ALBANİYASINDA ŞƏHƏRSALMA ELEMENTLƏRİ QƏBƏLƏNİN ARXEOLOJİ TƏDQİQİ KONTEKSTİNDƏ

Qəbələ şəhərinin adı (*"Kabalaka"* formasında) ilk dəfə yazılı mənbələrdə eramızın I əsrində məşhur Roma alimi Böyük Plininin ensiklopedik "Təbii tarix" əsərində [Babayev, Əhmədov, 1981, s.3]. Qafqaz Albaniyası dövlətinin baş şəhəri (paytaxtı) kimi çəkilmişdir.

Qəbələ haqqında məlumatlara Klavdi Ptolemey (II əsr), Əl-Bəlazuri (IX əsr), İbn Xəvqəl (X əsr), Əl-Müqəddəsi (X əsr), Yaqut əl-Həməvi (XIII əsr), Bədr Şirvani (XV əsr), Abbasqulu ağa Bakıxanov (XIX əsr) [Qəbələ tarixi, 2017, s.27, 52, 64, 69 və s.] və başqalarının əsərlərində rast gəlinmişdir.

Qəbələ şəhərinin tarixi üzrə yazılı mənbələrlə yanaşı, arxeoloji mənbələr də çox dəyərlidir. 1926-cı ildən başlayaraq Davud bəy Şərifov, Saleh Qazıyev, Ömər İsmizadə, Qara Əhmədov, İlyas Babayev, Firudin Qədirov, Qafar Cəbiyev [Qəbələ tarixi, 2017, s.30] və başqalarının rəhbərliyi altında aparılan arxeoloji qazıntılar Qəbələ şəhərinin e.ə. V əsrdə mövcud olduğunu müəyyən etməyə imkan verir. Qədim Qəbələ şəhərinin qalıqları Bakı–Şəki şosesindən cənubda, Azərbaycan Respublikası Qəbələ rayonunun Çuxur Qəbələ, Mirzəbəyli, Tövlə, Şamlı kəndlərinin yaxınlığında yerləşir.

Qəbələ arxeoloji tədqiqatlarının yeni mərhələləri

SEBA (Seul–Bakı) Azərbaycan–Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının təşəbbüsü və dəstəyi ilə 2005-ci ildən başlayaraq Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutu, 2009-cu ildən isə Koreya mütəxəssislərinin iştirakı ilə Qəbələnin arxeoloji tədqiqinin yeni mərhələsinə başlanıldı. 2005–2019-cu illərdə arxeoloji ekspedisiyasının əsas tədqiqat obyekti Qəbələ şəhər yerlərinin üç ərazisi – Antik şəhər yeri, Səlbir və Qala əraziləri olmuşdur. Xatırladaq ki bu ərazilər Qəbələ Dövlət Tarix–Bədii Qoruğunun ərazisində yerləşir.

Tədqiqatlar nəticəsində şəhərin inkişaf mərhələləri və şəhərsalma mədəniyyəti barədə elmi cəhətdən çox qiymətli və müxtəlif maraqlı tapıntıları üzə çıxarılmışdır.

Şəhərin ilkin olaraq yarandığı və inkişaf etdiyi ərazi olan *Antik* şəhər *yerində* e.ə. V əsrdən eramızın I əsrinə qədər həyat olub. Orada e.ə. III – eramızın I əsrlərində tikilən beş oval formalı ictimai binanın qalıqları (onlardan ən böyüyü 1385 m^2);



E.ə. IV–III əsrlərə aid ərzaq anbarının qalıqları / Antik ərazi



E.ə. I– e. I əsrlərinə aid 1-ci oval ictimai konservasiyası / Antik ərazi



Səlbir və Qala ərazilərinin görünüşü



E. II–III əsrlərinə aid 1 nömrəli katakombada qəbrin və əşyaların yerləşdiyi kamera / Səlbir ərazisi

e.ə. III–II əsrlərə aid təkayaq vazaların hazırlandığı dulus kürələrinin olduğu emalatxana; e.ə. IV–III əsrlərə aid içərisində şərab, qoz və s. saxlanılan 200-dən çox təsərrüfat küpünün – pifosların qalıqları olan ərzaq anbarı aşkar olunmuşdur.

Səlbir ərazisində müdafiə divarları, binaların bünövrələri, divar qalıqları, dam kirəmitləri, kərpic döşəmələr, emalatxanalar, hamamlar, hovuzlar, su boruları, kanalizasiya xətləri, qəbirlər, o cümlədən katakombalar, dulusçuluq məmulatı, təsərrüfat quyuları, küplər-pifoslar, kürə-təndirlər, yerli və xarici pullar, silahlar, əmək alətləri, bəzək əşyaları, seladon, farfor və süşə qablar və s. aşkar olunub.

Qala ərazisində aparılan qazıntılar zamanı yaşayış kvartallarına, o cümlədən dulusçu ustalara aid çoxsaylı kürə, emalatxana və digər tikili qalıqları, bina döşəmələri, küçələr və onların kəsişmələri, saxsı borulardan ibarət su sistemi, hamamlar, kürə-təndirlər, pullar, ticarət və mədəni əlaqələr vasitəsilə daxil olmuş fayans, farfor və seladon qab nümunələri, zəngin və rəngarəng çeşidli çıraqlar, əmək alətləri, bəzək əşyaları və s. aşkar olunmuşdur. Güman edilir ki, tikintidə istifadə olunan kərpic, kirəmit və fasad üçün istifadə olunan materiallar şəhərdə və ya onun ətrafında istehsal olunmuşdur.

Tapıntılara əsasən Qəbələdə dulusçuluq, metalişləmə, tikinti, zərgərlik və s. kimi sənət sahələrinin inkişaf etdiyini söyləmək mümkündür. Gətirilmə əşyalar və pullar isə Qəbələnin digər şəhər və ölkələrlə ticarət əlaqələrinin olduğunu sübut edir. Həmin materiallara əsasən bu əlaqələrin coğrafi arealının Avropadan Çinə qədər olduğunu söyləmək olar.

Səlbir ərazisində tədqiqatlar

Azərbaycan–Koreya Beynəlxalq Arxeoloji Ekspedisiyasının 2009-cu ildən başlayaraq Qəbələdə – Səlbir ərazisində tədqiqat aparmasında əsas məqsəd bunlardır: 1) şəhərsalma prosesi və erkən dövlət quruluşu, xüsusilə də Qafqaz Albaniyası haqqında arxeoloji məlumatlar əldə etmək; 2) Şərq və Qərb sivilizasiyalarının mübadiləsi barədə davamlı qarşılıqlı anlaşmaya nail olmaq; 3) iki ölkə arasında xoş niyyəti təşviq etmək məqsədi ilə Azərbaycan və Koreya arxeoloqlarının ortaq qazıntı işləri aparması, bilik və təcrübə mübadiləsi.

Bu günə qədər ümumilikdə on mövsüm tədqiqat işləri aparılmışdır. 2009-cu ildəki ilk tədqiqat mövsümündən etibarən bu günə qədər aparılmış tədqiqatlardan bir çox nəticələr əldə olunmuşdur. Məsələn, şəhərin şimal qala divarlarının tədqiqi başa çatdırılmışdır ki, bu da öz növbəsində eramızdan əvvəl I əsrdən başlayaraq Orta əsrlərə qədər davam etmiş divar tikintisi prosesini ətraflı şəkildə izləməyə imkan vermişdir. Bu müddətdə, əlavə olaraq, şəhərin qərb divarlarının yanındakı ərazidə aparılmış tədqiqatlar qədim dövrlərdən Orta əsrlərə qədər istifadə olunmuş, əsasən katakombalardan ibarət "nekropolun", habelə müxtəlif tikili və sobaların, su təchizatı və sanitariya qurğularının, dulus kürələrinin, təsərrüfat quyularının və digər maddi mədəniyyət qalıqlarının mövcudluğunu ortaya çıxarmışdır.

Beləliklə, Səlbir ərazisində aparılmış tədqiqatlar yüksək səviyyədə inkişaf etmiş şəhər strukturunu qismən də olsa aşkar etməyə imkan vermişdir. Nəticədə şəhərin qala divarları və digər tikililərini inşa etmək üçün istifadə olunmuş müxtəlif mütərəqqi tikinti üsullarını da müəyyənləşdirmək mümkün olmuşdur. Tədqiq olunmuş qəbir tipləri və qəbir əşyaları Qafqaz Albaniyası ilə qonşu dövlətlər və mədəniyyətlər arasındakı mübadilə münasibətlərinin mahiyyətinə də xeyli dərəcədə aydınlıq gətirilməsinə imkan yaradır. Bundan başqa, qəbirlərdə qeydə alınmış şüşə qablar, o cümlədən Roma istehsalı olan şüşə qablar Şərqlə Qərb arasında Romadan Koreya yarımadasına və Yapon arxipelaqına qədər uzanan mədəni mübadilənin mahiyyəti barədə daha dərindən düşünməyə imkan yaradır. Arxeoloji tədqiqatlar nəticəsində əldə olunan tapıntılar təkcə Qəbələnin deyil, bütövlükdə regionun Antik dövr və Orta əsrlər tarixinin bir sıra problemlərini daha dərindən və ətraflı öyrənməyə imkan verir.

Xatırladaq ki, SEBA tərəfindən hər il nəşr olunan hesabatlarda [hesabatların siyahısına ədəbiyyat bölməsində baxa bilərsiniz] Səlbir ərazisinin şimal və qərb divarları yaxınlığında aparılmış qazıntı işləri nəticəsində əldə edilmiş tapıntılar, memarlıq nümunələri və Dizaxlıda tədqiq edilmiş tunc dövrünə aid kurqan barədə ətraflı məlumat verilmişdir.

Şəhər qala divarlarının quruluşu və tikinti üsulu

Vahid qala divarları sistemi ilə əhatələnmiş Qəbələ şəhər yeri iki əsas hissədən – şimalda Səlbir, cənubda isə Qala adlanan ərazilərindən ibarətdir. Orta əsrlər dövründə ortadan xəndək qazılması ilə şəhər ərazisi iki hissəyə ayrılmışdır. Buna görə də, Səlbir ərazisinin əvvəlcədən cənub divarı olmamışdır. Bundan əlavə, şərq divarının az sayda olan qalıqları eroziya nəticəsində dağılmışdır. Beləliklə, hazırda Səlbirdə yalnız şimal divarı və qərb divarı mövcud olaraq qalır. XI əsrdə şəhərin Qala adlanan ərazisinin şimalı da qala divarları ilə möhkəmləndirilib. Həmin qala divarları Q.Əhmədov və Q.Cəbiyev tərəfindən öyrənilmişdir.

Səlbirin şimal qala divarları da əvvəllər Azərbaycan arxeoloqları tərəfindən bir neçə yerdə yoxlama qazıntısı aparılmaqla qismən öyrənilib. Beləliklə, şimal qala divarının ilk inşasından sonra bir neçə dəfə yenidən bərpa edildiyi müəyyən edilmişdir. Son tədqiqatlar nəticəsində birinci və ikinci divarın (torpaq divar) antik dövrdə inşa edildiyi görünür. Üçüncü divarın tarixini müəyyənləşdirmək isə çətindir, lakin qeyd edilməlidir ki, Azərbaycan arxeoloqları çiy kərpicdən istifadə edilərək tikilmiş bu divarı Sasani dövrünə aid ediblər. Həm daş, həm də çiy kərpicdən inşa edilmiş dördüncü divar Orta əsrlərə aid edilə bilər. Çünki qalanın qərb divarında aşkar edilmiş oxşar tikili dəqiq olaraq Orta əsrlər dövrünə aid edilmişdir.

Səlbirin qərb qala divarları üç mərhələdə inşa edilmiş və təmir olunmuşdur. İlk divar tünd-bozumtul mavi qumlu torpaqdan və boz qəhvəyi qumlu gilli torpaqdan istifadə edilərək tikilmişdir. Bu tikinti prosesi zamanı taxtadan hazırlanmış qədim qəbir dağıdılmışdır; oxşar ardıcıllıq şəhərin şimal qala divarında da müşahidə edilmişdir. İkinci divar şəhərin



E. II–III əsrlərinə aid 1 nömrəli katakombadan aşkar olunmuş tapıntılar /Səlbir ərazisi



E. II–III əsrlərinə aid 8 nömrəli katakombanın görünüşü / Səlbir ərazisi



VI əsrə aid qərb qala divarları / Səlbir ərazisi



II–VI əsrlərə aid şimal qala divarları / Səlbir ərazisi

şimal divarının üçüncü divarına bənzər şəkildə, çiy kərpiclərin üst-üstə qoyulması ilə tikilmişdir. Əvvəlcə böyükölçülü, sonra ortaölçülü və nəhayət, kiçikölçülü kərpiclər qoyulmuşdur. Həm plan üzrə, həm də kəsik hissəyə baxan divarın yuxarı və xarici hissələrində aparılmış tədqiqatlar çiy kərpiclərin divar quruluşunu formalaşdırmaq üçün nizamlı şəkildə yığıldığını təsdiqləmişdir.

Beləliklə təsdiq etmək olar ki, şəhərin qərb divarının birinci divarı şimal divarının ikinci divarına uyğundur; qərb divarının ikinci divarı şimal divarının üçüncü divarına, qərb divarının üçüncü divarı isə şimal divarının dördüncü divarına uyğundur.

Yuxarıda deyilənlərə əlavə olaraq onu da bildirək ki, prof. Q.Cəbiyevin rəhbərliyi ilə 2009-cu ildə aparılan tədqiqatlar zamanı şəhərin Qala ərazisinin cənub-şərq kənarında e.ə. I əsrə aid qala divarlarının qalıqları aşkar olunmuşdur. Həmin qalıqlar Səlbirin şimal və qərb kənarı boyunca olan erkən dövr qala divarları ilə tam oxşarlıq təşkil edir. Bu isə o deməkdir ki, hələ e.ə. I əsrdə Səlbir və Qala ərazisində vahid və möhtəşəm qala divarları ilə əhatələnən izdihamlı şəhər həyatı mövcud olmuşdur. Bu, qədim Azərbaycan dövləti olan Qafqaz Albaniyasının Böyük Plininin (Plin.NH.VI.29) ensiklopedik əsərində adı çəkilən "baş şəhəri" Qəbələdir ("Praevalent oppidum Albaniae Cabalaca") [Qəbələ tarixi, 2017, s.27]. Qala ərazisində Antik dövrə aid tapıntılar ilk dəfə keçən əsrin 70-ci illərində prof. Q.Əhmədov tərəfindən aşkar edilib. Bu baxımdan IV qazıntı sahəsində aşkar olunmuş eramızın I əsrinə aid şərab anbarı və dəbdəbəli qəbiri qeyd edə bilərik.

Şəhərdaxili infrastrukturun tədqiqi

Səlbir ərazisinin relyefi qərb hissədə daha yüksəkdir, şərq hissəyə doğru getdikcə isə nisbətən çökəkdir. Ərazinin qərb qala divarına yaxın olan hissəsi düz terras təşkil edir və son illərin arxeoloji tapıntıları əsasən burada cəmləşmişdir. Tapıntıların xronoloji çərçivəsi Antik dövrdən XI–XII əsrlərə qədər uzanır. Orada yaşayış qatının erkən dövrünə aid tapıntılar içərisində daha çox taxtadan hazırlanmış qəbir, katakomba, saxlama (anbar) quyusunun qalıqları, üst təbəqədə isə yaşayış binaları, sobalar, müxtəlif növ ocaqlar, su təchizatı və sanitar qurğular, təsərrüfat quyuları və digər tapıntılar üstünlük təşkil edir. Bunlar arasında da katakombalar, su təchizatı və sanitar qurğular Qafqaz Albaniyasında şəhərsalmanın yaranması və inkişafını sübut edən ən gözəçarpan tapıntılardır. Ərazidə çiy kərpic və dirək daşlarından istifadə edilməklə tikilmiş qədim kvadrat formalı binanın qalıqları tapılmışdır. Həmin tikilinin təyinatı və funksiyasını anlamaq çətindir, lakin orada ocaq və su qurğularının olmaması, həmçinin kiçik dirək daşları ilə müşayiət olunan çiy kərpic döşəmədən istifadə olunması tikilinin gündəlik yaşayış üçün istifadə olunmaması ehtimalını artırır. Ola bilsin ki, həmin tikili dəfn ilə bağlı mərasimlərin həyata keçirildiyi xüsusi məqsədli bir tikilidir.

Səlbir ərazisindəki Orta əsrlər dövrünə aid binaların daha çox gündəlik yaşayış üçün istifadə olunduğu güman olunur. Evlərin davamlı divarları arı pətəyinə bənzər bir quruluş təşkil edir. Qazıntı sahəsinin məhdud olması və stratiqrafiyadakı qırılmalar səbəbindən obyektin ümumi xarakteri haqqında aydın bir fikir formalaşdırmaq çətin olsa da, divarların aşağıdakı ümumi xüsusiyyətlərə malik olduğunu müəyyənləşdirmək mümkündür: divarlar əsasən çiy kərpicdən istifadə edilərək, daş, kirəmit və keramika kimi müxtəlif materiallar qatılmaqla tikilmişdir. Fərqli materiallardan istifadə divar tikintisinin əsas prosesinin bir xüsusiyyəti ola bilər və ya sonradan divarda aparılmış əlavə təmir nəticəsində meydana gələ bilər. 1985–1990 və 2008–2019-cu illərdə şəhərin Qala ərazisində Orta əsrlər dövrünə aid küçə və meydanlar, çoxsaylı tikinti qalıqları aşkar edilərək tədqiq edilib. Şəhərin Orta əsrlərə aid ən möhtəşəm tikilisi isə ötən əsrin 60-cı illərində S.Qazıyev tərəfindən aşkar edilərək öyrənilən ictimai binadır. Bütün bunlar şəhərin daxili infrastrukturunu, bütövlükdə Orta əsr Azərbaycan şəhərlərində memarlıq elementlərinin tədqiqi baxımından çox əhəmiyyətlidir.

Səlbir ərazisində təndirlər əsasən quyular daxilində, lakin müxtəlif dərinliklərdə hörülüb. Onlardan bəzilərinin yalnız ağzının kənar hissəsi görünür, digər hissəsi isə yarıya qədər torpağa basdırılmış vəziyyətdədir. Təndirlərin özülünə (alt hissəsində) havalandırmanı asanlaşdırmaq məqsədi ilə müəyyən bucaq altında borular (su təchizatı və sanitar qurğularda istifadə olunan eyni gil materialından hazırlanmışdır) bərkidilmişdir. Boruların alt hissələri tikilinin döşəmələri altına, yuxarı hissələri isə tikililərin yaşayış səthindən

yuxarıda qalan hissələrinə yerləşdirilmişdir. Təndirlər iki yerdə – tikililərin mərkəzində və ya tikililərin divarlarına bərkidilmiş halda tapılmışdır. İkinci haldan istifadəyə daha çox rast gəlinmişdir. Bu cür sobaların istismar müddətinin 10 ildən artıq olmadığını nəzərə alsaq, çox ehtimal ki, onların daha tez-tez təmiri və dəyişdirilməsi tələb olunmuşdur. Həqiqətən də, eyni ərazidə eyni ölçülərə və quruluşa malik bir neçə təndirin tikildiyini və onların da daxilində bir neçə təndirin olduğu binaları müəyyənləşdirmək mümkün olmuşdur. Çörək bişirilməsi üçün istifadə olunan bu təndirlərdən əlavə şorba və ya çay hazırlanması üçün də istifadə olunan çoxlu sayda ocaqlar aşkar edilmişdir. Ocaqların bir çoxu tikilinin divarlarına yaxın yerləşirdi. Şorba hazırlanması üçün ocaqlardan istifadə olunduğu zaman kirəmitlər bir çox hallarda yanğının qarşısının alınması məqsədilə torpaq üzərində yerləşdirilmişdir. Çay hazırlanması üçün istifadə olunan ocaqlar şorba hazırlanması üçün istifadə olunan ocaqlardan daha kiçik idi.

Plan üzrə daha bir maraqlı struktur aşkar edilmişdir. O, müntəzəm olaraq qalaqlanmış kərpiclərin iki dairəsindən ibarət idi. Daxili dairə kərpiclərin iki layının üst-üstə qoyulması ilə hazırlanmışdır, xarici dairədə isə dörd lay qeydə alınıb. Gil və saxsı qırıntılarından ibarət bünövrə kərpic konstruksiyanın altında yerləşdirilmişdir. Xarici dairəvi strukturun diametri 4,63 m, daxili dairəvi strukturun diametri isə 3,65 m-dir. Bu struktur qərb divarının yuxarısına yaxın, bina qruplarından təqribən 20 m məsafədə yerləşirdi. Daxili və xarici dairə arasındakı boşluq suyun axdığı xəndəyə bənzər bir struktur formalaşdırmışdı. Bu strukturun məqsədi hazırda bəlli olmasa da, onun dini mərasimlər üçün istifadə edilən yuyunma yeri olaraq fəaliyyət göstərdiyi güman olunur.

Tədqiqat aparılan ərazidə müxtəlif dövrlərə aid su təchizatı və sanitar qurğular müəyyən edilmişdir. Onlar su axınını asanlaşdıran boru xəttindən və arxlardan ibarət idi: bişmiş kərpic və borulardan istifadə olunaraq inşa edilənlər və sadəcə torpaqda qazılmış arxlardan ibarət olanlar. Boru xətlərindən su təchizatı, arxlardan isə sanitar məqsədlər üçün istifadə olunduğu güman olunur.

Səlbir ərazisində Antik və Orta əsrlərə aid 100-dən çox quyu öyrənilmişdir. Maraqlıdır ki, quyuların rast gəlinmə tezliyi qala divarlarından uzaqlıq nisbətində artır. Funksiyalarına görə quyular təsərrüfat quyularına, çalalara və çuxurlara bölünə bilər. Təsərrüfat quyularına gəlincə, onların diametrinin dərinliyinə nisbəti 1:1,5-dir və quyu içərisində geniş yer təmin edir. Quyuların içərisində böyük saxlama qablarının olması kimi sübutlar Səlbir ərazisində müşahidə edilməmişdir, lakin müxtəlif növ əşyaların (məsələn, taxıl, qablar, silahlar, saxsı qablar və s.) tikililər daxilində ayrıca saxlanılması faktı bizə həmin quyulardan saxlama məqsədi ilə istifadə edildiyini söyləməyə imkan verir. Quyu strukturları olduğu hesab edilən çuxurların ölçüləri 10 metrdən artıq olmaqla həddindən artıq dərindir. Çuxurların dəliklərinin diametrləri 1,3-1,7 m-dir.

Şəhərdaxili su təchizatı şəbəkəsi bütün tədqiqat sahəsi boyunca uzanır və ərazidən kənarda, şimal və cənub istiqamətində davam edir. Boru xətlərində olduğu kimi həmin qurğular da suyun şimaldan cənuba axması üçün dizayn edilmişdir. Məsələn, Səlbirdən cənubda yerləşən Qalada su təchizatının şəhər ərazisindən şimalda, nisbətən hündür ərazidəki su



II–VI əsrlərə aid şimal qala divarlarının konservasiyası / Səlbir ərazisi



IX əsrə aid şəhərin cənub darvazasının bürcləri / Qala ərazisi



XI–XII əsrlərə aid şar-konusvari formalı qab (Gövdəsində ərəb hərfləri ilə "Əli" yazılıb) / Qala ərazisi



XIV–XVIII əsrlərə aid fayans kasa / Qala ərazisi

mənbələrindən qidalandığı ehtimal olunur. Prof.Q.Cəbiyevin rəhbərliyi ilə 2008–2009-cu illərdə Səlbirin qərb sahili boyunca aşkar edilən şəhərin baş su təchizatı sistemi bu şərhi əsaslandırmaqda əhəmiyyətli rol oynayır.

Tədqiqatlar zamanı Səlbir ərazisində Orta əsrlərə aid saxsı qabları bişirmək üçün istifadə olunan dulus kürələri də aşkar edilmişdir. Bu strukturdan yalnız yanacaq qutusu (odluq) və bişirmə kamerasından ibarət bünövrə qalmışdır. Odluğun döşəməsi və küncləri düzbucaqlı şəklindədir. Divarlarında yüngül şəkildə yapışdırılma əlamətlərinin olduğu və bişirmə kamerasına (saxsı qabın olduğu yer) birləşdirildiyi müəyyən edilmişdir. Odluq əsasən yerin altında, bişirmə kamerası isə torpağın üzərində yerləşir. Odluqla bişirmə kamerası arasında istiliyin ötürülməsinə xidmət edən dəliklər mövcuddur. Bu, bişirmə kamerasına yerləşdirilmiş və ya gil qarmaqdan asılmış keramika nümunələrinin bişirilməsinə xidmət etmişdir. Xatırladaq ki, hələ 1961-ci ildə şəhərin Qala adlanan ərazisində Ö.İsmizadə tərəfindən iki dulus kürəsi [Исмизаде, 1963, с.19], 2008–2013-cü illərdə prof. Q.Cəbiyev tərəfindən isə daha on dulus kürəsi və əvvəllər isə şüşə bilərziklərin bişirilməsi üçün istifadə olunan bir ədəd kürə aşkar edilib [Cəbiyev, 2003, s.31; Qəbələ Arxeoloji Ekspedisiyası, 2014, s.263; Qəbələ Arxeoloji Ekspedisiyası, 2015, s.110].



XIV–XVIII əsrlərə aid şəhər məhəlləsi / Qala ərazisi



Qəbələ Arxeoloji Mərkəzi

Qəbirlərin xarakteristikası

Səlbir ərazisində taxta tabut, quyu qəbir, kirəmit, küp tabut və katakomba daxil olmaqla müxtəlif qəbir növləri aşkar edilmişdir. Tədqiqat müddətində orada iyirmi katakomba qəbiri aşkar edilərək öyrənilmişdir. 1, 8 və 13 nömrəli katakombalardan müxtəlif növ dəfn ləvazimatları tapılmışdır. Onların əsas səciyyəsi barədə bəhs edərkən deməliyik ki, məsələn 1 nömrəli katakomba şaquli şurf və dəhlizdən ibarətdir. Plana görə dəhliz düzbucaqlıdır, uzunluğu 170 sm-dən çox, eni isə 100 sm-ə bərabərdir. Dəfn kamerası dəhlizin cənubunda yerləşir. Dəhliz və dəfn kamerasının döşəmə səviyyələri eynidir. Dəfn kamerasının döşəməsi plan üzrə dairəvi və nisbətən bərabərdir, dəfn kamerasının tavanı isə yarımkürəli günbəz şəklindədir. Dəfn kamerasının uzunluğu təxminən 195 sm, eni 155 sm-ə bərabərdir. Dəfn kamerasının girişində qapı çərçivəsi vardır, bu isə girişin bağlanması üçün taxta qurğudan istifadə olunduğunu göstərir.

1 nömrəli katakombadan əldə olunan artefaktlar aşağıdakılardan ibarətdir: dəfn kamerasının qərb hissəsindən on bir ədəd keramika qab (o cümlədən, quraşdırılmış fincan), bir ədəd toqqa, bir ədəd bürünc üzük; dəfn kamerasının mərkəzi hissəsindən bir ədəd toqqa, iki ədəd bürünc qolbaq, iki ədəd fibula və 673 ədəddən çox muncuq, dəfn kamerasının şərq hissəsindən isə bir ədəd saxsı qab. Maraqlıdır ki, bu katakombada insan qalıqları aşkar edilməyib, lakin fərqli yerlərdə iki toqqanın olması əlavə dəfnlərin baş tutduğunu deməyə əsas verir.

Səlbirin qərb dəhlizinin Orta əsrlərə aid quyuları, su xətləri və arxlar qismən dağıdılmışdır. 8 nömrəli katakomba sonradan bu katakombaya ən azı iki dəfə qəbirlərin əlavə edildiyini göstərir. İlkin dəfn zamanı dəhliz (plan üzrə uzun düzbucaqlı şəklində) ən azı dörd addım olmaqla, demək olar ki, şaquli olaraq qazılmışdır. Əlavə dəfnetməyə gəlincə, ölən

şəxsin dəfn kamerasına necə uzadıldığını dəqiq müəyyənləşdirmək çətin olmuşdur. Katakombanın dəhlizi 30-45° bucaq altında qazılmışdır. Bu katakomba 465 sm uzunluğunda, 170 sm enində və təqribən yer səthindən 4,66 m dərinlikdə aşkar edilmişdir. Oradan əldə olunan artefaktlar aşağıdakılardan ibarətdir: dəfn kamerasının cənub hissəsindən bir ədəd qulplu küp, bir ədəd qulplu butulka, bir ədəd sikkə, iki ədəd bürünc əşya, yeddi ədəd dəmir əşya; dəfn kamerasının qərb küncündən təxminən əlli ədəd dəmir ox başlığı; dəfn kamerasının şimal hissəsindən müxtəlif artefaktlar, o cümlədən bir ədəd daş qapaqlı böyük keramika qab, bir ədəd qulplu butulka, beş ədəd qulplu küp, iki ədəd Roma şüşə qabı və iki ədəd dəmir yaba. İrihəcmli qabın içərisində qəsdən çıxarılmış diş, bir ədəd bəzək əşyası və içərisində az miqdarda heyvan sümüyü olan tutacaqlı qab aşkar edilmişdir. Dəfn kamerasının şimal hissəsinin döşəməsində diametri 38 sm, dərinliyi 16 sm olan çuxur qeydə alınmışdır. Onun içərisində təyinatı naməlum olan dəmir əşya var idi. Dəfn kamerasından aşkar edilmiş insan sümüklərinin qadına aid olduğu ehtimal olunur.

13 nömrəli katakombanın dəhlizi və yarımkürə formalı günbəz quruluşlu dəfn kamerası vardır. Dəfn kamerasının döşəməsində insan skeleti tapılmışdır. Dəfn olunan şəxs başı və bədəni şərq istiqamətində, qolları sinəsinə söykənərək əyilmiş vəziyyətdə uzadılmışdır. Skeletin onurğasının yaxınlığında qara ənbər, sümük, qırmızı əqiq və şüşə muncuqlardan ibarət qolbaq tapılmışdır. Skeletin tapıldığı düzbucaqlı sahədən kənarda içərisi yüksək qatılığa malik bozumtul ağ rəngli torpaqla doldurulmuş qəlibin içərisində ikiqulplu bir ədəd küp və dördqulplu küp tapılmışdır.

Xatırladaq ki, bənzər hal ilkin dəfn baş tutduqdan sonra dəfn kamerasının möhürləndiyi 8 nömrəli katakombada da aşkar edilmişdir.

Tədqiqat zamanı ərazidə küp qəbirdə dəfnetmə adəti də qeydə alınmışdır. Dövr etibarı ilə alt səthdə qazılmış dayaz bir çuxura böyük bir küp qoyulmuşdur. Kiçikölçülü olduğuna görə böyük küp çuxura zorla sığmış və bucaq altında yerləşdirildiyindən ağız hissəsi çuxurdan kənara çıxmışdır. Küpün içərisində ortayaşlı qadın olduğu müəyyən olunan şəxsin qalıqları tapılmışdır. Yerləşməsinə əsasən küp qəbiri qədim dövrün son mərhələsinə və ya Orta əsrlər dövrünün ilk mərhələsinə aiddir. Küp qəbirin yerə tam olaraq deyil, qismən basdırılması faktı maraq doğurur. Bu, Səlbir ərazisində müəyyən edilmiş yeganə küp qəbirdir. Bu, həm də 3 nömrəli katakombada ikinci dəfn olaraq istifadə olunan qəbirdir. Küpün böyük ölçüsü ölən şəxsin bütöv bir vəziyyətdə bu küp qəbirə yerləşdirilə biləcəyini deməyə əsas verir.

Küpün içərisindən tapılan artefaktlara müxtəlif materiallardan (sümük, şüşə, qara ənbər və qırmızı əqiq) ibarət bir boyunbağı, yeddi ədəd bürünc üzük, nazik bürünc çubuqlardan hazırlanmış sırğalar kimi bəzək əşyaları və bir ədəd qulplu keramika qab daxildir. Boyunbağında istifadə olunan muncuqlar aşağıdakılardan ibarətdir: sümükdən iki ədəd bəzək əşyası (bir ədəd böyük, bir ədəd kiçik), bir ədəd keramika muncuq, on beş ədəd sümükdən hazırlanmış düzbucaqlı muncuq (bəzilərinin üzərinə qara üzvi maddə çəkilmiş vəziyyətdə aşkar edilmişdir), iki ədəd mişar dişinə oxşar muncuq (şüşə və ya daş), on dörd ədəd çoxbucaqlı boru şəklində sümük muncuq, on dörd ədəd dairəvi sümük muncuq (iki ədəd böyük, on iki ədəd kiçik), bir ədəd qırmızı əqiqdən muncuq, altı ədəd diş formalı qara ənbər muncuq, xarici ticarət yolu ilə alınmış bir ədəd kiçik kauri (balıqqulağı), üç ədəd xurma formalı sümük muncuq, bir ədəd xurma formalı şüşə muncuq, iki ədəd böyük boruşəkilli muncuq, bir cüt şüşə muncuq.

Məlumat üçün bildirək ki, hələ ötən əsrin 60–70-ci illərində Qəbələnin Qala ərazisində, yəni cənub qala divarları önündə və ondan cənubda, habelə Kamaltəpə ərazisində aparılan tədqiqatlar zamanı eramızın ilk əsrlərinə aid çoxsaylı küp qəbirləri aşkar edilərək tədqiq olunub.

Beləliklə, Səlbir ərazisi üzrə bir çox məlumat son on mövsüm ərzində aparılmış qazıntı işləri nəticəsində toplanılmışdır. Buraya şəhərin qala divarlarının quruluşu və tarixi, qədimdən Orta əsrlərə qədər sənətkarlıq nümunələri və gündəlik həyatla əlaqədar müxtəlif arxeoloji tapıntılar, həmin tapıntıların xüsusi təbiəti, növləri və müxtəlif qəbir (dəfn) tipləri haqqında məlumatlar daxildir. Belə qəbir tiplərinə katakombalar, taxtadan hazırlanmış tabutlar, kirəmit və torpaq qəbirlər daxildir. Şəhərin qala divarları, müxtəlif tikinti sahələri və çuxurlar, quyular və su təchizatı strukturlarına dair bu məlumatlara əsasən, Səlbirin şəhər məkan quruluşu, divarla əhatələnmiş bu şəhərin tarixi rolu və mənası,

Səlbirdəki gündəlik həyatın xarakteristikası və qədim Qafqaz Albaniyasında şəhərsalma prosesi haqqında nəticələr çıxarmaq mümkün olmuşdur.

Səlbir ərazisindəki (Qəbələdə və Azərbaycanın digər ərazilərində) katakombaların meydana gəlməsini eramızdan əvvəl I minilliyin sonundan başlayaraq Sarmatlar, Massagetlər və Alanların Albaniyaya gəlməsi ilə əlaqəli olduğunu güman etmək olar. Qeyd etmək lazımdır ki, bu qədər böyük katakomba konsentrasiyasının aşkar edilməsi eramızın I–II əsrlərinə təsadüf edən çox nadir hadisədir. Səlbir ərazisində tapılmış katakombalarda basdırılan şəxslərin kimliyi, habelə qala divarları ilə əhatələnmiş şəhər daxilində dəfn mərasimlərinin qurulma konteksti gələcəkdə nəzərdən keçirilməli olan mövzulardır. Aydın məsələdir ki, aşkar olunmuş bu arxeoloji sübutlar Qafqaz Albaniyasının tarixinin başa düşülməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Xüsusilə 8 nömrəli katakombada aşkar edilmiş Parfiya sikkəsi (II Artabanus) və təndirlərdən birinin içərisində tapılmış Sasani dövrünə aid möhür Qafqaz Albaniyası və İran arasında vaxtilə baş tutmuş intensiv mübadilənin sübutu kimi qəbul edilə bilər.

Qeyd etmək lazımdır ki, arxeoloji qazıntılarla yanaşı, SEBA Assosiasiyasının dəstəyi ilə 2010-cu ildən başlayaraq bəzi abidələrin açıq səma altında konservasiyası da aparılır. Daha dəqiq desək, Səlbirin şimal divarı (490 m^2) və qərb məhəlləsi (2112 m^2) konservasiya olunmuş və üzərində konstruksiya inşa olunmuşdur. Eyni zamanda, Antik ərazidə I oval binanın bünövrəsi (2376 m^2) üzərində də konstruksiya inşa olunmuşdur.

Tariximizi, mədəni irsimizi qorumaq, təbliğ etmək, arxeoloji tədqiqatları davam etdirmək, dəyərli alimlərimiz tərəfindən elmi tədqiqatların aparılması, onların yaşayışı və iş fəaliyyəti üçün lazımi şəraiti yaratmaq məqsədilə SEBA Assosiasiyası tərəfindən Azərbaycanda ilk və yeganə olan Qəbələ Arxeoloji Mərkəzi inşa olunmuşdur. Mərkəzin rəsmi açılışı 22 sentyabr 2014-cü il tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə olmuşdur.

Mərkəzdə iki sərgi salonu (muzey), bərpa laboratoriyası, arxeoloji fond, konfrans zalı, kitabxana, tibb məntəqəsi, yeməkxana, iki və üç nəfərlik 24 otaq, açıq səma altında sərgi, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində olan Qəbələ Dövlət Tarix-Bədii Qoruğunun əməkdaşları üçün ofis otaqları mövcuddur. Tədqiqatların nəticələri Bakıda və Seulda nəşr olunub və SEBA Assosiasiyasının sifarişi ilə Bakı Media Mərkəzi tərəfindən hazırlanmış "Qəbələ-Qafqaz Albaniyasının paytaxtı" adlı sənədli filmdə təqdim olunub.

ƏDƏBİYYAT:

1. Babayev İ.A., Əhmədov Q.M. Qəbələ (tarixi-arxeoloji oçerk). Bakı: Elm, 1981, 66 s.
2. Cəbiyev Q.C. Azərbaycan keramikası. Bakı: Elm, 2003, 233 s.
3. Qəbələ tarixi / Baş red. Teymur Bünyadov. Bakı: CBS PP, 2017, 312 s.
4. Исмизаде О.Ш. О гончарных обжигательных печах, открытых в Кабале в 1961 г. // Известия АН Аз.ССР, 1963, №1, с.13-24.

İllik hesabatlar:

1. Qəbələ Arxeoloji Ekspedisiyası 2005–2010. Tapıntılar. Bakı: CBS, 2011, 236 s.
2. Qəbələ Arxeoloji Ekspedisiyasının Hesabatları 2005–2010 / Məsul redaktorlar: Teymur Bünyadov, İlyas Babayev, Qafar Cəbiyev, Yi Seon-bok. Bakı: CBS, 2012, 416s.
3. Qəbələ Arxeoloji Ekspedisiyası 2011–2012. Tapıntılar. Bakı: CBS, 2013, 347 s.
4. Qəbələ Arxeoloji Ekspedisiyasının Hesabatları 2011–2012 / Məsul redaktor: İlyas Babayev. Bakı: CBS, 2014, 434 s.
5. Qəbələ Arxeoloji Ekspedisiyası: Hesabatlar, Tapıntılar 2013/ Məsul redaktor: İlyas Babayev. Bakı: CBS, 2015, 284 s.
6. Qəbələ Arxeoloji Ekspedisiyası: Hesabatlar, Tapıntılar 2014 / Məsul redaktor: İlyas Babayev. Bakı: CBS, 2016, 227 s.
7. Qəbələ Arxeoloji Ekspedisiyası: Hesabatlar, Tapıntılar 2015–2016 / Məsul redaktor: İlyas Babayev. Bakı: CBS, 2017, 296 s.
8. Qəbələ Arxeoloji Ekspedisiyası: Hesabatlar, Tapıntılar 2017–2018 / Məsul redaktorlar: Qafar Cəbiyev, Kim Jongil, Ceyhun Eminli. Bakı: CBS, 2019, 141 s.
9. The Selbir site. vol.I. Seoul: Zininzin, 2017, 276 pp.
10. The Selbir site. vol.II. Seoul: Zininzin, 2017, 447 pp.
11. The Dizakhli kurgan. vol.III. Seoul: Zininzin, 2017, 139 pp.

Müseyibli Nəcəf
AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun elmi işlər üzrə direktor müavini, tarix elmləri doktoru, professor

Nəcəfov Şamil
AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun "Etnoarxeologiya" şöbəsinin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent

AĞSTAFADA ANTİK DÖVR ABİDƏLƏRİ

Gəncə-Qazax bölgəsi müxtəlif tarixi dövrlərə aid arxeoloji abidələrlə zəngindir. Azərbaycanın qədim dövlətlərindən olan Qafqaz Albaniyasının tarixi ərazilərindən olan bu bölgədə Antik dövrə (e.ə. IV əsr – b.e. III əsri) aid abidələr – həm yaşayış yerləri, həm də qəbir abidələri nisbətən zəif öyrənilmişdir. Ümumiyyətlə, Azərbaycan ərazisində Qafqaz Albaniyasına aid şəhər qalıqları kənd tipli yaşayış yerlərindən daha çox tədqiq edilmişdir. 2002–2005-ci illərdə Bakı–Tbilisi–Ceyhan (BTC) neft və Cənubi Qafqaz (CQBK) qaz kəmərləri dəhlizində tikinti işləri ilə əlaqədar AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun ekspedisiyası tərəfindən aparılan arxeoloji xilasetmə qazıntıları nəticəsində Albaniya mədəniyyətinə aid çoxsaylı kənd tipli yaşayış yerləri və qəbir abidələri tədqiq edilmişdir. Kəmərlərin dəhlizində göstərilən dövrə aid torpaq, küp, taxta qutu və katakomba tipli qəbirlər, yəni Qafqaz Albaniyasına aid əsas qəbir tiplərinə aid qəbir abidələri qazılaraq tədqiq edilmişdir. Bu məqalədə həmin illərdə müəlliflər tərəfindən Ağstafa rayonunun Poylu kəndi yaxınlığındakı Antik dövrə aid yaşayış yerləri və katakomba tipli qəbir abidələrində apardıqları arxeoloji qazıntıların nəticələri verilmişdir. Bu abidələr kənd tipli I Poylu yaşayış yeri, həmin yaşayış yerində və yaxınlıqdakı çoxtəbəqəli II Poylu yaşayış yerində sonradan salınmış katakomba tipli qəbirlərdir.

I Poylu yaşayış yeri. I Poylu yaşayış yeri Ağstafa rayonunun Poylu dəmir yolu stansiyası yaxınlığındakı eyni adlı kəndin ərazisində, stansiyadan təxminən 500–600 m şimal-şərqdə yerləşir. Kür çayından cənubda yerləşən abidənin I Poylu adlandırılmasının səbəbi Poylu ərazisində boru kəmərləri dəhlizində daha iki eyniadlı yaşayış yerinin (kəmərlərin marşrutundakı 408.8 və 409.2-ci km-də) aşkar edilməsi ilə bağlıdır. 409.1-ci km-də, dəniz səviyyəsindən 215 m yüksəklikdə yerləşən I Poylu yaşayış yeri çoxtəbəqəlidir. Boru kəmərlərinin inşasına qədər bu ərazidə arxeoloji abidənin varlığı qeydə alınmamışdır. Çünki, ərazinin kənardan diqqəti cəlb edə biləcək heç bir yerüstü əlaməti müşahidə edilməmişdir. Yaşayış yeri torpağın üst münbit qatının texnika vasitəsilə götürülməsi zamanı arxeoloji monitor qrupu tərəfindən aşkar edilmişdir. Ərazinin bütün yaxın ətrafı əkin və biçənək yerləri kimi istifadə olunur. Hətta yaxınlıqda son dövrlərin tikili qalıqlarına, evlərin bünövrə yerlərinə də rast gəlmək mümkündür [Nəcəfov, 2006, s.7].

Yaşayış yerinin ümumi sahəsi 1 ha-ya yaxındır. Qış aylarına təsadüf edən qazıntı prosesi zamanı bəzi qazıntı kvadratlarında (1, 2, 3A) müəyyən dərinlikdən sonra qrunt suları artıq torpağın yuxarı hissələrinə çıxdığına görə həmin kvadratlarda qazıntını mədəni təbəqənin sonunadək davam etdirmək mümkün olmamışdır [Nəcəfov, 2006, s.7].

I Poylu yaşayış yerində arxeoloji qazıntı işləri BTC neft boru kəmərinin keçəcəyi 4 m enində olan zolaqda aparılmışdır. Qazıntı bəzi kvadratlarda 70–80 sm, bəzilərində isə 1,2–1,3 m dərinliyədək çatdırılmışdır [Nəcəfov, 2011, s.44].

Qazıntı nəticəsində məlum olmuşdur ki, abidənin ərazisində Son Xalkolit, Antik, Orta əsrlərin maddi-mədəniyyət qalıqları mövcuddur.

Mədəni təbəqənin müasir yer səthindən 40 sm dərinliyədək olan hissəsi Orta əsrlərə məxsus maddi qalıqlarla zəngindir. Bu dərinlik qatı uzun illər ərzində əkin işləri zamanı demək olar ki, dağılmış və qarışmışdır. Bu laydan sonra təxminən

5 sm-lik kül və ayrı-ayrı yerlərdə kömür qalıqları ilə müşayiət olunan torpaq layı gəlir.

40 sm-dan başlayaraq 80 sm-ya, bəzi yerlərdə isə 1 m dərinliyədək Antik dövrün mədəni layı müşahidə olunur. Mədəni təbəqənin Antik dövrə aid qatı dövrə xas olan zərif hazırlanaraq, keyfiyyətli və sabit tempraturda bişirilmiş keramika nümunələri və eləcə də ocaq qurğuları ilə zəngindir. Antik dövrə məxsus mədəni təbəqəni bütün qazıntı sahəsi boyunca izlərkən aydın olur ki, müəyyən kvadratlarda o qırılır və birinci mədəni laya məxsus materiallarla qarışıq halda təzahür edir. Məsələn, 7, 8, 13-cü kvadratlarda 60–70 sm dərinlikdən həm Antik dövrə aid, həm də Orta əsrlər dövrünə xas keramika nümunələri tapılmışdır [Nəcəfov, 2006, s.10].

Keramika. I Poylu yaşayış yerinin Antik dövrə aid mədəni təbəqəsində müəyyən sayda keramika nümunələri tapılmışdır. Bu keramika nümunələri əsasən küpə, bardaq, xeyrə, nehrə, kuzə, küp, fincan tipli qablardır və təmiz tərkibli gildən hazırlanmış, qırmızı, qara, çəhrayı, boz rəngdə olub yüksək keyfiyyətlə bişirilmişdir (Şəkil 1–2). Nazik divarlı bu qabların ağız kənarı basma, çərtmə üsulu ilə bəzədilmişdir. Xeyrələrin ağız kənarı cox zaman gövdənin davamı kimi tamamlanır. Əksəriyyət təşkil edən bardaq qırıqlarının ağız kənarı isə zəngin tərtibata malikdir.


Qabların əksəriyyətinin ağız kənarı müxtəlif istiqamətli basma üsulu ilə vurulmuş batıqlarla və dairəciklərlə bəzədilmişdir [Nəcəfov, 2006, s.15-16]. Yaxşı cilalanmış üç nümunə (kasa, küzə və bardaq tipli qab fraqmentləri) aşkar edilmişdir. Boya ilə naxışlanmış saxsı qab fraqmentlərinə də rast gəlinir.

Qazıntılar zamanı I Poylu yaşayış yerindən iri həcmli *təsərrüfat küplərinə* aid qalıqlar əldə edilmişdir. Onların demək olar ki, hamısı küplərin ağız, gövdə və oturacaq hissələrinin fraqmentləridir. Bu fraqmentlər əsasında müəyyən edilmişdir ki, gilinin tərkibində iri və narın qum, eyni zamanda kiçik çınqıl qarışığı olan küplər qalın divarlıdır. Boz və çəhrayı rəngdə olan küp qırıqlarının 0,9–1,8 sm arasında dəyişir. Qeyri-sabit temperaturda bişirilmiş təsərrüfat küplərinin kiçik, yastı oturacağı, armudvari gövdəsi, silindrik boğazı, xaricə qatlanmış köbəli ağız kənarı vardr. Çox zaman onların gövdəsini ornamental kəmər qurşaqlayır. Belə kəmərdə daha çox cızma və qazma üsulu ilə çəkilmiş dalğalı xətlərə rast gəlinir. Daha çox şaquli vəziyyətdə torpağa basdırılan və uzun müddət müəyyən ərzaq məhsullarının, xüsusilə də dənli bitki toxunmlarının saxlanması üçün istifadə edilən bu küplərin yalnız gövdə və oturacaq hissələrinin aşkar edilməsini onunla izah etmək olar ki, abidənin sahəsi əkin məqsədi ilə istifadə edilmək üçün uzun zamanlar texnika vasitəsilə şumlanmış, bunun nəticəsində isə həmin küplərin yuxarı hissələri əksər hallarda tamamilə dağılmışdır.

I Poylu yaşayış yerindən tapılmış *küpələr* əsasən tünd boz, bəzən isə qara rəngli hazırlanmışdır. Onlar şargövdəli olub müxtəlif ölçülərə malikdirlər. Dar boğaza malik küpə fraqmentlərinə də rast gəlinir. Fraqmentlərdən məlum olur ki, küpələrin səthi yaxşı cilalanaraq anqoblanmışdır. Ağız kənarları bir qayda olaraq xaricə əyintilidir. Küpə tipli qablar I Poylu yaşayış yerinin Antik dövr qablarının əksəriyyətini təşkil edir. Onlar əsasən qalın divarlı, yastı oturacaqlı olub keyfiyyətli hazırlanmışlar. Naxışlanma xüsusiyyətləri baxımından sadədirlər [Nəcəfov, 2006, s.15-16].

I Poylu yaşayış yerindən tapılmış keramika məmulatının müəyyən hissəsini də *bardaq* formalı qablar təşkil edirlər. Onlar əsasən uzunsov gövdəli, yastı oturacaqlı və dar boğazlıdırlar. Bardaqların ağız kənarı ilə çiyin hissəsini birləşdirən qulpları dairəvi və lentvari en kəsiklidir (Şəkil 1.13; 2.7-11). Bu tip qabların gili yaxşı yoğrulmuş, keyfiyyətli bişirilmiş və səthlərinə nazik anqob təbəqəsi çəkilmişdir. Antik dövrün katakomba qəbrindən tapılmış bardaq keyfiyyətli hazırlanmışdır. Onun ağzı novçalıdır, üzəri isə yaxşı cilalanmışdır (Şəkil 4.6). Qeyd edək ki, belə novçalı qablar və qab qırıqları I Poylu yaşayış yerlərindən çox az tapılmışdır. Ağzı novçalı süddan, ağzı dörd tərəfə əyməli dopu, şargövdəli bardaqları F.L.Osmanov Qafqaz Albaniyasının ilk dövrləri üçün səciyyəvi sayır [Osmanov, 2006, s.57]. Bu cür bardaqların yerini bir qədər sonra, e.ə. II əsr – e. I əsrlərində şar gövdəli, ağzı üçgül və ördək dimdiyi formasında irəli uzanan novçalı bardaqlar tutur. Onlar öz zərifliyi, keyfiyyəti, estetik baxımlı çalarları ilə diqqəti cəlb edirlər [Qazıyev, 1960a; Osmanov, 2006].

Ağstafa rayonu ərazisindən tapılan şarvari gövdəyə və dar boğaza malik Antik dövr bardaqlarının bəzilərinə Qazax rayonu ərazisindəki Erkən Dəmir dövrü abidələrində geniş rast gəlinir [Xəlilov, 1958,



Şəkil 1. I Poylu yaşayış yerinin Antik dövr keramikası

I tablo, şəkil 3, II tablo, şəkil 1, 3, 4; 17, III tablo, şəkil 1]. Dövr və hazırlanma üslubu baxımından fərqlənsələr də, gilinin tərkibinə və üzərindəki bəzəklərin müəyyən qədər oxşarlığına əsasən bir-birini izləyirlər.

I Poylu yaşayış yerinin Antik dövr *kasalarının* gil tərkibi narın qum qarışıqlı olub yaxşı bişirilmişdir (Şəkil 2.1). Kasaların üzərində naxış elementinə rast gəlinmir. Əsasən boz rəngli, nazik divarlı, oturacaq hissələri qalın olan az sayda *nehrə* fraqmentləri isə (3 ədəd) təmsil olunduqları qabların ağız və çiyin hissələrini təmsil edirlər. 8-ci kvadratın 75 sm dərinliyindən tapılan boz rəngli üzəri cilalanmış nehrə tipli saxsı qabın gövdə və oturacaq hissələri yaxşı vəziyyətdə qalmışdır. *Parç və piydan* tipli qablara əsasən I Poylu yaşayış yerinin 15-ci kvadratında və katakomba qəbirdə rast gəlinmişdir. Onların bəziləri qalın divarlı və əldə kobud hazırlanmış, qeyri-sabit tempraturda bişirilmişlər. Piydanların üzərində qalın his və yanıq izlərinin olması onların məişətdə çox işlədilməsini göstərir [Nəcəfov, 2006, s.14-15].

I Poylu yaşayış yerində çox az sayda gil *fincanlara* da rast gəlinir. Boz və qara rəngdə olub kiçik qulpludurlar. Kobud hazırlanmış, qeyri-sabit tempraturda bişirilmiş fincanlar enli ağızlı, boğazı azca boğmalı, gövdəsi enli, oturacağı isə nisbətən dar və düz formada hazırlanmışdır. Belə gil fincanların adətən bir və yaxud iki qulpu olur. Bəzən gil fincanların bir ədəd qoşa qulp hazırlanmış nümunəsinə də təsadüf edilmişdir [Osmanov, 2006, s.22].

I Poylu yaşayış yerinin məlum təbəqəsindən tapılan az sayda *piyalə* tipli gil qab fraqmentləri əsasən açıq qırmızı rəngdədirlər. Daha çox gövdə və oturacaq hissələrinin fraqmentləri ilə təmsil olunurlar. Qalın divarlı olub, keyfiyyətli hazırlanıblar. Yaşayış yerinin Antik dövr təbəqəsindən saxsı qab qırıqları içərisində tünd qırmızı rəngə boyanmış *vaza* qırıqları da tapılmışdır. Onlar kasavarı gövdəyə malik olub, batıq oturacağa malikdirlər. Eyni formalı bir neçə qabın qırıqlarından ibarət olan bu vazanın bir bütöv və bir də qopmuş oturacağı götürülmüşdür. Qopmuş qab oturqcağının qalığına görə onun ayrıca hazırlandığı və daha sonra gövdəyə yapışdırıldığı məlum olmuşdur. Vaza tipli qab fraqmentlərinin üzərində naxış elementlərinə az rast gəlinir.

Dolça tipli qab fraqmentləri də azlıq təşkil edir. Dolça fraqmentlərinin ağız kənarları xaricə qismən əyintili olub, boğazları içəriyə doğru batıqdır. II Qıraq Kəsəmən Antik yaşayış yerindən tapılmış dolça fraqmentləri I Poylu yaşayış yerindən tapılan dolça fraqmentlərindən bir qədər fərqlidir [Müseyibli və b., 2008; Müseyibli və b., 2012, s.185]. Bu fərq hazırlanma texnologiyasında və zəriflikdə nəzərə çarpır. Belə ki, I Poylu yaşayış


yerindən tapılmış dolçalar eyni formanı saxlasalar da onlarda tədricən kobudlaşma nəzərə çarpır.

Enli boğazlı dolça tipli bir qab fraqmentinin boğazı batıq xətlə və deşmələrlə çevrələnmişdir. Qulpun gövdəyə yapışan hissəsindən köndələn eyni istiqamətdə üç yerdə bərabər məsafədə yumru düyməciklərdən ibarət yapmaları vardır. Bu tip qablara Şəki-Zaqatala bölgəsində [Казиев и др., 1969; Халилов, 1985] və Ağsu ərazisində [Османов, 2006] də rast gəlinmişdir.

Xeyrələrin üzəri cızma və çərtmə üsullarla naxışlanmışdır. Bəzi xeyrələrin daxili səthi oturacaqdan ağıza doğru cızma xətlərlə, onların arası isə dalğalı xətlərlə naxışlanmışdır.Bu tip qabların daha çox ağız kənarından ibarət olan fraqmentləri tapılmışdır. Bu fraqmentlərə əsasən xeyrələrin nisbətən səliqəli hazırlandığını, narın qum qatışıqlı gildən yaxşı bişirildiyini söyləmək mümkündür. Xeyrələrə daha çox açıq-qırmızı rəndə rast gəlinir.

Yaşayış yerində həm də daşdan və dəmirdən hazırlanmış alətlər, əqiqdən və pastadan hazırlanmış muncuqlar aşkar edilmişdir.

I Poylu yaşayış yerinin Antik dövr tapıntıları, xüsusilə də keramika məmulatı ümumilikdə Qafqaz Albaniyasının digər həmdövr abidlərinin materialları ilə tam eyniyyət təşkil edir. Bu baxımdan I Poylunun keramikası Albaniyanın dulusçuluğunun tarixinin tədqiqi üçün əhəmiyyətli tapıntılardır. Eyni zamanda müqayisəli təhlillər göstərir ki, o dövr üçün başlıca informasiya mənbəyi olan arxeoloji materiallar – saxsı qablar texniki-tipoloji xüsusiyyətləri ilə əvvəlki dövrün – Son Tunc–İlk Dəmir dövrünün keramika məmulatı ilə çoxsaylı analogiyalara malik olub kütləvi istehsalda əsas ənənələrin davamıdır. Bütün bunlar Azərbaycanın Xocalı–Gədəbəy mədəniyyəti ilə Albaniya dövrü arasında bilavasitə irsi bağlılığın olduğunu, Albaniya dövlətinin əvvəlki mərhələnin ənənələrinə bağlı olduğunu sübut edən maddi faktlardır. Belə bağlılıq həm də regionda yayılmış əsas qəbir tipləri və dəfn adətlərində də müşahidə edilir.




Şəkil 2. I Poylu yaşayış yerinin Antik dövr keramikası

I Poylu yaşayış yerində Antik dövrə aid katakomba tipli 1 qəbir aşkar edilərək qazılmışdır (Şəkil 3).

1 №-li qəbir. Qəbir kamerasının torpağı çınqıl və qum qarışıqlı idi. Oval şəkilli kameranın ölçüləri 1,45 m, eni isə 1,25 m idi. Qəbir kamerası müasir yer səthindən 1 m dərinlikdə aşkar olunmuşdu. Kameranın özünün dərinliyi isə 35 sm idi. Qəbir kamerasına şimal-şərqdən bitişik dromos 1 m uzunluğunda, 90 sm enində saxlanmışdır. Qəbirdə uşaq dəfn edilmişdir. Skeletin vəziyyətindən aydın olurdu ki, meyit qəbir kamerasına sol yanı üstə zəif bükülü vəziyyətdə, üzü şimala doğru uzadılmışdır [Nəcəfov, 2011, s.46-47]. Şərq-qərb istiqamətində dəf edilmiş meyitin kəlləsinin ətrafına 3 ədəd kiçik ölçülü çay daşı qoyulmuşdur. Kəllənin üstündə 2 ədəd, arxasında isə 1 ədəd obsidian daşları tapıldı. Obsidian daşların üzərində işlənmə izləri yox idi. Qəbir kamerasından 8 ədəd saxsı



Şəkil 3. I Poylu: 1 №-li katakomba qəbri



Şəkil 4. I Poylu: 1 №-li katakombadan aşkar edilən gil qablar

qab aşkar edilmişdir (Şəkil 4). Onlardan yalnız biri-küpə tipli kiçik həcmli qab bütöv vəziyyətdə idi. Digərləri müxtəlif hissələrə çatlamışdı. Gil qablar nazik divarlı, unbonlu kasa, açıq-qırmızı rəngli və üzəri sarı anqobla örtülən qazan, qara rəngli üç ayaqlı piydan, parç, fincan, küpə, bardaq və kuzədən ibarət idi [Nəcəfov, 2006, s.11-12].

II Poylu yaşayış yerində qəbir abidələri. Abidə Poylu dəmir yol stansiyasından şərqdə düzənlik ərazidə yerləşir. Kür çayının yatağından təqribən 2,5 km cənubda yerləşən abidənin üstü və ətraf əraziləri uzun illər əkin sahəsi kimi istifadə edilmişdir. Məhz bu səbəbdən üst laylarında müxtəlif dövrlərə aid arxeoloji materiallar qarışıq şəkildə aşkar edilirdi. Qabarıq yerüstü əlamətləri olmayan abidənin mədəni təbəqəsi müasir yer səthindən aşağı səviyyədə yerləşir [Müseyibli, 2008, s.6].

Yerüstü materialların yayılmasına əsasən II Poylu yaşayış məskənini sahəsi 1 ha-ya yaxındır. Abidədə Son Xalkolit, Erkən Tunc, Son Tunc və Orta əsrlərdə yaşayış mövcud olmuşdur. Bundan əlavə, yaşayış yerinin mədəni təbəqələrində Antik dövrdə aid sallama qəbirlər və heyvanların ritual dəfn edildikləri yerlər aşkar edilmişdir. Bu məqalədə müəllif (N.Müseyibli) tərəfindən tədqiq edilmiş qəbirər təqdim edilmişdir.

3 №-li qəbir. Qəbir 7-ci kvadratın mərkəzində 1,4 m dərinlikdə aşkar edilmişdir (Şəkil 5). Katakomba tipli qəbrin kamerası dairəvi formaya malik olub 1,4 m diametrində olmuşdur. Qəbir kamerasına cənubi-şərqdən bitişik dromos 1 m uzunluğunda, 60 sm enində və 20 sm dərinliyində saxlanmışdır. Qəbirdə meyit başı cənuba, ayaqları şimala, üzü şərqə olmaqla sağ yanı üstdə, qolları və ayaqları bükülü vəziyyətdə uzadılmışdır. Mərhumun başı zəif deformasiya edilmişdir. Skeletin diz sümüyündən 20 sm şərqdə küpə tipli qab qoyulmuşdur (Şəkil 6.1). Qum qatışıqlı, yaxşı yoğrulmuş gildən formalaşdırılmış, yüksək keyfiyyətlə bişirilmiş qırmızı rəngdə küpənin ağız kənarı xaricə meyllidir. Şar gövdəli olub geniş, yastı oturacaqlıdır. Bişirmədən əvvəl çiynində 1 ədəd xaç şəkilli işarə təsvir edilmişdir [Müseyibli, 2008, s.8].

4 №-li qəbir. 2-ci və 3-cü kvadratların kəsişməsində, qazıntının şimal divarı dibində, 1,8 m dərinlikdə aşkar edilmişdir. Qəbir kamerasında Antik dövrə aid iki gil qab aşkar edilmişdir. Onlar yanı üstdə düşmüş vəziyyətdə tapılmışdır. Qonur rəngli bardaq tipli qabın lentvari qulpu ağız kənarı ilə çiyini birləşdirir (Şəkil 6.2). Ağız kənarı novçalıdır. Şar gövdəli, yastı oturacaqlıdır. Qırmızı-qonur rəngli bardaq tipli qab isə qısa boğazlı, qabarıq gövdəli, yastı oturacaqlıdır (Şəkil 6.3). Bardağın qulpu ağız kənarından bir qədər yuxarı qalxmışdır. Qəbir kamerasında digər materiallara rast gəlinməmişdir. Qeyd edilən dərinlikdə qrunt sularının təsirindən qəbir

kamerasının sərhədlərini müəyyən etmək mümkün olmamışdır. Çox ehtimal ki, bu qabların aşkar edildiyi sahə Antik dövr qəbrinin qazıntı sahəsinə təsadüf edən yalnız bir hissəsi olmuşdur [Müseyibli, 2008, s.8-9].

II Poylu yaşayış yerində torpaq qəbirlərdən əlavə Antik dövrə aid heyvanların ritual dəfn edildiyi yerlər də aşkar edilmişdir.

I və II Poylu abidələrinin hər ikisi çoxtəbəqəlidir. Abidələrin dövrünün müəyyən edilməsi üçün bütövlükdə arxeoloji kompleks, maddi mədəniyyət qalıqlarının müqayisəli təhlil və radiokarbon analizin nəticələri əsas götürülüb. İlk növbədə qəbirlərin dövrünü dəqiqləşdirmək zəruridir.

Qeyd etmək lazımdır ki, bu abidələrdən tapılan arxeoloji materiallar, xüsusilə də keramika məmulatı e.ə. I minilliyin ortalarına aid bir sıra xüsusiyyətləri özündə saxlamışdır. Bunlar əsasən tünd boz və ya qara rəngli kiçik ölçülü küpələrdir. Onların bəzilərinin gövdəsində şişvari çıxıntılar vardır. Azərbaycanın qeyd edilən dövrə aid abidələri üçün belə qablar səciyyəvidir. I Poylu yaşayış yerində mədəni təbəqədən aşkar edilən keramikanın böyük əksəriyyəti daha kobud və səliqəsiz hazırlanmışdır. Lakin artıq qeyd edildiyi kimi, bəzi kvadratlarda, xüsusilə də təsərrüfat quyularından aşkar edilmiş bəzi fraqmentlər çox nəfis hazırlanmış nazik divarlı qablara aiddirlər.


Antik dövrdən əvvəlki və sonrakı mərhələlərdə bölgədə dulus çarxı geniş tətbiq edilmişdir. Eyni zamanda, Antik dövrdə Albaniya ilə qonşu ölkələrdə gil qablar dulus çarxında hazırlanmışdır. Məlum olduğu kimi, Qafqaz Albaniyasının Antik dövr gil qabları dulus çarxı tətbiq edilmədən əldə formalaşdırılıb. Məhz Antik dövrdə dulus çarxından istifadə edilməməsi Qafqaz Albaniyası dulusçuluğunun başlıca xüsusiyyəti kimi qiymətləndirilmişdir. Lakin ölkənin cənub vilayətlərində – Ağcabədi rayonundakı Qaraköbər və Cəlilabad rayonundakı Əlikömaktəpəsi abidələrində aşkar edilmiş Antik dövrə aid keramikanın müəyyən qismi dulus çarxında hazırlanmışdır [Müseyibli və b., 2012, s.186]. Albaniyanın mərkəzi vilayətlərindəki abidələrdən yalnız Qəbələdə ellin təbəqəsində İ.A.Babayevin apardığı qazıntılar zamanı dulus çarxında hazırlanmış qablara məxsus cəmi bir neçə fraqment aşkar edilmişdir [Бабаев, 1990, c.136]. Bu fərqi o dövrdə dulusçuluq sənətinin lokal, regional xüsusiyyətləri və qonşu bölgələrlə əlaqələr ilə izah etmək olar [Müseyibli, Axundova, 2007, s.60].

Həm yaşayış yerindən, həm də qəbirlərdən tapılmış keramika məmulatının ən yaxın paralellərinə Azərbaycanın Yaloylutəpə, Mingəçevir, Qəbələ, Cəfərxan və s. abidələrində rast gəlinir [Пассек, 1946; Исмизаде, 1956; Qazıyev, 1960; Халилов, 1985; Osmanov, 2006].

Çox ehtimal ki, bu sahədə I Poylu yaşayış yerində e.ə. III–I əsrlərə aid nekropolun üstünü həmin nekropola aid, yaxınlıqda yerləşən yaşayış yerinin bir qədər sonra e.ə. I – b.e. III əsrlərdə əmələ gələrək genişlənmiş mədəni təbəqəsi örtmüşdür. Yaşayış yerinin qədim təbəqəyə malik,



Şəkil 5. II Poyluda 3 №-li katakomba qəbri



Şəkil 6. II Poyludan aşkar edilən gil qablar: 1-3 №-li katakomba, 2-3-4 №-li qəbir

qəbirlərlə bilavasitə bağlı olan mərkəzi hissəsi çox güman ki, indiki qazıntı sahəsindən cənubda və cənubi-qərbdə yerləşmişdir.

BTC və CQBK tikinti lahiyələri ilə əlaqədar Gəncə–Qazax bölgəsində aparılan arxeoloji qazıntılar Antik dövrə aid torpaq və küp qəbirlərinin aşkar edilərək qazılması baxımından əhəmiyyətli olmuşdur. Əvvəllər bölgənin Antik dövr qəbir abidələri barədə məlumatlar çox səthi və təsadüfi xarakter daşıdığı halda bu qazıntılar nəticəsində zəngin faktiki çöl materialları toplanmışdır. I və II Poylunun Antik dövr qəbir abidələri Yaloylutəpə mədəniyyətinə aiddir. Bu qəbirlər ilə Yaloylutəpə mədəniyyətinə aid analoji abidələr arasında bir sıra eynilik və bəzi fərqli cəhətlər mövcuddur.

I Poyluda Erkən Antik dövr qəbirlərinin üstü Antik dövrün bir qədər sonrakı mərhələsinə aid yaşayış yeri təbəqəsi ilə örtülmüşdür. Belə bir vəziiyət digər iki həmdövr abidədə müşahidə edilmişdir. Xınıslıda eramızın II əsrinin sonlarına aid yaşayış yerinin yerdəyişməsi nəticəsində mədəni təbəqə daha qədim – e.ə. IV–III əsrlərə aid yaşayış yerinin və e.ə. II – b.e. II əsrinə aid qəbirlərin üstünü örtmüşdür [Xəlilov, 1965, s.83]. Yaloylutəpə mədəniyyətinə aid daha bir abidədə – Zaqatala rayonu ərazisindəki Ağyazı abidəsində də eyni hal müşahidə edilmişdir. Oradakı qəbirləri F.Mahmudov e.ə. I əsrə, bu qəbirlərin üstünü örtmüş yaşayış yeri təbəqəsini isə b.e. I əsrinə aid etmidir [Mahmudov, 1965, s.138, 140]. Lakin keramika məmulatının səciyyəvi xüsusiyyətlərinə əsasən Ağyazı qəbirlərini Yaloylutəpə mədəniyyətinin daha qədim mərhələsinə aid etmək mümkündür.

Bu faktlar Yaloylutəpə mədəniyyəti qəbiristanlıqlarının əvvəlki tarixi mərhələdən fərqli olaraq, bilavasitə yaşayış məskənlərinin yaxınlığında salındığını göstərir. 50–100 illik fasilədən sonra yaşayış məskəninin genişlənməsi nəticəsində mədəni təbəqə qəbirlərin müəyyən qisminin üstünü örtmüşdür.

II Poylu yaşayış yerində Antik dövrə aid heyvanların ritual məqsədlə dəfn edildiyi çaladan götürülmüş heyvan sümüyü üzərində aparılan radiokarbon analiz eramızın I–III əsrlərini göstərmişdir (Cədvəl 1).

I və II Poylunun Antik dövr qəbirlərinin tapıntıları Azərbaycan ərazisindəki Nüydü [Osmanov, 2006, s.46-52], Yaloylutəpə [Шарифов, 1927; Исмизаде, 1956], Qəbələ [Казиев и др., 1969, с.376-378], Şəkili [Osmanov, 1970, s.21-25], Ağyazı [Mahmudov, 1965, s.131-144], Şamaxı [Xəlilov, 1961, s.31-47], Cəfərxan [Пассек, 1946], Borsunlu [Qoşqarlı və b., 2003], Alazan vadisindəki torpaq qəbirlərin materialları ilə yaxındır. Belə oxşar nümunələr Şəki- Zaqatala bölgəsinin Antik dövr qəbirləri üçün də səciyyəvidir. Maddi mədəniyyət qalıqlarının yaxın oxşarlığı cəhətinə görə yuxarıda qeyd etdiyimiz rayonlardan biri də Mingəçevirin küp qəbirlərinin materiallarıdır [Qazıyev, 1960]. Göstərilən bu analogiyalar və oxşar nümunələr müəyyən etnik tərkibə malik yerli xalqın iqtisadi, mədəni, ərazi, habelə çox ehtimal ki, vahid ünsiyyət birliyinin də təcəssümünü əks etdirir [Osmanov, 2006, s.51].

Göründüyü kimi, I və II Poyluda Antik dövrə aid katakomba tipli qəbirlər tədqiq edilmişdir. Belə qəbirlər müxtəlif tarixi dövrlərdə Avrasiyanın ayrı-ayrı regionlarında əhalinin dəfn adətlərində müəyyən yer tutmuşdur. Hər bir regionda və tarixi mərhələdə onların quruluşu da müxtəlif olmuşdur.

Cədvəl 1

Site	Context	Laboratory No	Measured Radiocarbon Age	13C/12C Ratio	Conventional Radiocarbon Age	Material	2 sigma 95% probability	1 sigma 68% probability
KP 408.8	Kv 5. Charcoal	Beta 226241	1930+/-40 BP	-24.4 o/oo	1940+/-40 BP	Charcoal	Cal BC 30 to Cal AD 130	Cal AD 20 to 90
KP 408.8	Kv 4. Pit 2. Animal skeletion	Beta 220998	1760+/-40 BP	-18.2 o/oo	1870+/-40 BP	Bone	Cal AD 60 to Cal AD 240	Cal AD 90 to 220

Katakombaların Yaxın Şərqdə və Qafqazda yayılma arealı barədə qısa xülasə ondan ibarətdir ki, ən qədim katakombalar e.ə. VI–V minilliklərə aid olub Mesopotamiyada tətbiq edilmişdir [Мерперт, Мунчаев, 1982].

Azərbaycan ərazisində ən qədim katakomba Qəbələ rayonundakı e.ə. IV minilliyin birinci yarısına aid Qalayeri yaşayış məskəninin alt qatında aşkar edilmişdir. Bu qəbirdə 4–5 yaşlı uşaq dəfn edilmişdir [Museibli, 2016]. Həmin dövrdən e.ə. I minilliyin ilk əsrlərinə qədərki minilliklərə aid katakomba tipli qəbirlər Azərbaycan ərazisində aşkar edilməmişdir. Dağıstanın Xəzəryanı ərazilərində Tunc dövrünə – e.ə. III–II minilliklərə aid çoxsaylı katakombalar tədqiq edilmişdir [Магомедов, 2000].

Göstərilən bütün bu Xalkolit–Tunc dövrü katakombaları arasında tipoloji fərqlərlə yanaşı coğrafi, xronoloji və mədəni bağlantılar olmamışdır. Eyni zamanda, bütün bu katakombaların regionun Antik dövr katakombalarda dəfn etmə adəti ilə heç bir əlaqəsi olmamışdır.

E.ə. I minilliyin ikinci yarısında Şimali Qafqazda katakombalarda dəfn etmə adəti sarmat-alan tayfalarının əsas dəfn adəti olmuşdur. Bu tayfalar Şimali Qafqaza cənubi Ural və Volqaətrafı ərazilərdən yayılmışlar [Смирнов, 1975].

Azərbaycanda katakombalar Son Antik – İlk Orta əsrlərdə (I–VII əsrlərdə) dəfn adətinin bir hissəsi olmuşdur. Bu tip qəbirlər əsasən 1946–1953-cü illər Mingəçevir qazıntılarından məlumdur (200-dən artıq). Sonrakı illərdə Qax, Qazax və Qusar rayonlarında da katakombalar aşkar edilmişdir. Mingəçevir katakombalarının bir qismi və Qusar katakombaları İlk Orta əsrlərə aiddirlər. Antik dövrə aid Qaxda beş, Qazaxda isə cəmi bir katakomba tədqiq edilmişdir. Buna görə də araşdırmaların əsas bazasını Mingəçevir katakombaları təşkil edir [Гошгарлы, 2012, с.82-84].

Mingəçevirin birinci mərhələyə – Antik dövrə aid katakombaları uzun, dar dromosa, künbəzşəkilli örtüyə malikdirlər. Qəbir kameralarının aşağı hissəsi ellipsşəkilli, oval və ya dördkünc, yuxarı hissəsi isə künbəzşəkilli düzəldilmişdir [Гошгарлы, 2012, с.84]. Poyluda tədqiq etdiyimiz katakombalar da Azərbaycanda bu tip qəbirlərin yayılmasının ilk mərhələsinə – b.e.-nın ilk əsrlərinə aiddirlər və struktur baxımından Mingəçevirin bu dövr katakombaları ilə yaxınlıq təşkil edirlər.

Mingəçevir katakombalarında və erkən mərhələyə aid digər belə qəbirlərdə bir və ya nadir hallarda bir neçə meyit dəfn edilmişdir. Ölülər yanı üstdə bükülü vəziyyətdə və arxası üstdə uzadılmışlar. Katakombalarda dəfnlər küplərdə, ağac döşəmələr (kərtilər), çiy və ya bişmiş kərpiclərlə düzəldilmiş döşəmələr üzərində icra olunmuşdur. Qazax rayonundakı Babadərviş yaşayış yerindəki katakombada isə ölünün dəfn edilməsi üçün möhrədən dördkünc formada səki düzəldilmişdir [Qaziyev, 1953, s.18; Əliyev, 1969, s.54-55; Гошгарлы, 2012, с.84-85]. Poylu katakombalarında isə ölülərin dəfni üçün hər hansı döşəmə aşkar edilməmişdir.

Diqqəti çəkən məqamlardan biri də katakomba qəbirlərində dəfn edilənlərin bir qrupunun kəlləsinin süni deformasiya edilməsidir. Belə, deformasiya edilmiş kəllələrə məxsus dəfnlər Cənubi Qafqazda – Gürcüstanda və Azərbaycanda bizim eranın ilk əsrlərində peyda olmuş və həm də Mingəçevir katakombaları üçün səciyyəvi olmuşdur. O dövrdə bu regiona yaxın bölgədə – Böyük Qafqaz keçidlərində və bu keçidlərə bitişik ərazilərdə yaşayan alan tayfaları üçün kəllələrin deformasiya edilməsi etnik əlamət hesab edilirdi [Алиев, Асланов, 1975, с.74; Гошгарлы 2012, с.85]. Eyni zamanda onu da qeyd etmək lazımdır ki, Mingəçevir katakombalarındakı adi və deformasiya edilmiş kəllələrin hamısı dolixokran olub yerli, Cənubi Qafqazda daha qədim dövrlərdən yayılmış antropoloji tiplərə uyğundurlar [Касимова, 1960, с.61, 85].

3 №-li Poylu katakombasında da kəlləsi zəif deformasiya edilmiş insan dəfn edilmişdir. Bu kəllə də dolixokran tiplidir.

Katakombalarla bağlı əsas məsələlərdən biri də bu qəbir tipinin və dəfn adətinin Azərbaycana haradan və necə yayılmasıdır. Bu barədə fikirlər yekdil olmasa da bu qəbir tipini Azərbaycan ərazisinə gəlmə olmasını heç bir müəllif inkar etməmişdir. İ.Əliyev Q.Aslanovla birgə Mingəçevir katakombalarını b.e.-nın əvvəlində Şimali Qafqazdan cənub istiqamətində yürüş edən sarmat-alan, daha dəqiq alan tayfalarına məxsus olduğunu yazmışlar. Müəlliflər öz fikirlərini bu tayfaların yürüşləri barədə yazılı mənbələrin məlumatları, Mingəçevir katakombalarının tipoloji quruluşu, dəfn qaydaları, arxeoloji tapıntılar və antropoloji amillərlə əsaslandırıblar [Алиев, Асланов, 1975].

Onların bu fikirləri ilə razılaşmayan C.Xəlilov katakombaların Azərbaycana cənubdan daxil olduğunu yazmışdır. Onun qənaətinə görə Mingəçevir katakombalarında dəfnlərin yerli, alban adətlərinə uyğun olaraq küplərdə və taxta döşəmə (kərti) üzərində icra edilmişdir və bu qəbirlərin avadanlığı da yerli istehsalın məhsuludur. Albaniyaya daxil olmuş katakombalarda dəfn qaydaları bu ərazinin aborigenlərinin dəfn adətlərindən birinə çevrilmişdir. Tədqiqatçının fikrincə bu qəbirlərdə gətirilmə tapıntıların aşkar edilməsi alban əhalisinin mədəni-iqtisadi əlaqələrinin nəticəsidir [Халилов, 1985, c.101-103].

İ.Babayevin fikrincə Mingəçevirin qədim katakombaları alanlara məxsus olublarsa da onlar çox güclü assimilyasiya edilmişlər idilər. Bu katakombalarda küplərdə və taxta döşəmələr (kərtilər) üzərində bükülü vəziyyətdə icra edilmiş dəfnlər sırf sarmat dəfnləri üçün yaddır. Sarmat-alan elementləri Mingəçevirin sonrakı dövrə aid, IV–VII əsrlərə aid katakombalarında daha aydın şəkildə özünü göstərir [Бабаев, 1990, c.117].

Q.Qoşqarlı katakombalar barədə bütün tədqiqatların nəticələrini təhlil etmiş və ümumiləşdirmişdir. Tədqiqatçı haqlı olaraq katakombalarda dəfn adətinin cənubdan gətirildiyi fikirləri ilə razılaşmır. Nə Naxçıvanda, nə də Respublikamızın Cənub bölgəsində belə qəbirlərin aşkar edilməməsi, qədim katakombaların yalnız Kür hövzəsində aşkar edilməsi, dəfn adətlərinin, qəbirlərdəki arxeoloji materialların xüsusiyyətləri cənub istiqaməti barədəki fikirlərin əsassız olduğunu göstərir. Q.Qoşqarlı həm yazılı mənbələrin məlumatlarını, həm də maddi mədəniyyət qalıqlarını – katakomba qəbirlərin tipoloji xüsusiyyətlərini, arxeoloji materialları geniş təhlil edərək bu dəfn adətinin Albaniyaya şimaldan axıb gələn sarmat-alan tayfaları tərəfindən gətirildiyinin alternativi olmadığını əsaslandırmışdır. Müəllif düzgün olaraq onu da qeyd edir ki, bu qəbirlərin etnik mənsubiyyətinin təhlili zamanı yalnız hərbi yürüşlər nəzərə alınmamalıdır. Çünki hərbi yürüşlərin iştirakçıları üçün belə mürəkkəb struktura malik, qurulması çox vaxt aparan qəbirin yaradılması mümkünsüz idi. Deməli burada uzun müddətə məskunlaşmış əhalidən söhbət gedə bilər [Гошгарлы, 2012, c.114-119].

Biz də bu fikirlərlə razılaşaraq yalnız onu qeyd edə bilərik ki, sarmat-alan tayfaları tərəfindən Albaniya ərazisinə gətirilmiş katakomba tipli qəbirlərin tədricən yerli xüsusiyyətlərinin meydana çıxması və Albaniyanın yalnız müəyyən ərazilərində olsa da yerli dəfn adətlərindən birinə çevrilməsi faktını da nəzərdən qaçırmaq olmaz. Poyluda qazılmış katakomba qəbirləri də Azərbaycanın Antik dövrdəki bu tip qəbir abidələrinin daha geniş ərazilərdə yayılması və dəfn adətləri barədə məlumat bazasını az da olsa artırmışdır.

ƏDƏBİYYAT:

1. Əliyev V. Babadərvişdə katakomba qəbri // Azərbaycan SSR EA-nın Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 1969, №4, s.54-62.
2. Xəlilov C.Ə. Xınıslı qədim yaşayış yeri // Azərbaycan SSR EA Xəbərləri (ictimai elmlər seriyası), 1961, №3, s.31-47.
3. Xəlilov C.Ə. Xınıslıda arxeoloji qazıntıların ilk nəticələri haqqında // Azərbaycanın Maddi Mədəniyyəti, VI cild, Bakı, 1965, s.78-90.
4. Xəlilov C.Ə. Qazax rayonunun Qazaxbəyli kəndi yaxınlığındakı qədim qəbiristanlıq haqqında // Azərbaycan SSR EA Xəbərləri (ictimai elmlər seriyası), 1958, №2, s.29-40.
5. Qazıyev S.M. İki küp və iki katakomba qəbri // Azərbaycanın Maddi Mədəniyyəti, III cild, Bakı, 1953, s.5-35.
6. Qazıyev S.M. Mingəçevir arxeoloji həfriyyatı küp qəbirləri albomu. Bakı: Elm, 1960, 26 s.
7. Qazıyev S.M. Vardanlı arxeoloji qazıntılarınının hesabatı (1956-cı il) // Azərbaycan SSR EA Xəbərləri (ictimai elmlər seriyası), 1960a, №4, s.25-52.
8. Qoşqarlı Q.O., Müseyibli N.Ə., Aşurov S.H. Borsunlu kurqanı. Bakı: Elm, 2003, 81 s.
9. Mahmudov F.R. Ağyazı düzənliyində Yaloylutəpə mədəniyyətinə aid abidə / Azərbaycanın Maddi Mədəniyyəti, VI cild, Bakı, 1965, s.131-144.
10. Müseyibli N.Ə., Axundova G.K. II Qıraq Kəsəmən antik dövr nekropolunda arxeoloji qazıntılar // Azərbaycan arxeologiyası, №3-4, 2007, s.53-65.
11. Müseyibli N.Ə. BTC boru marşurutunun 408.8 km-də yerləşən II Poylu yaşayış məskənində aparılmış qazıntıların geniş elmi hesabatı (AMEA AEİ). Azərbaycan – Bakı, 2008, 74 s.
12. Müseyibli N.Ə., Kvaçidze V.A., Nəcəfov Ş.N. BTC marşurutunun 406-cı km-də II Qıraq Kəsəmən abidəsində 2005-ci ildə aparılmış arxeoloji qazıntıların geniş elmi hesabatı (AMEA AEİ). Azərbaycan – Bakı, 2008, 60 s.
13. Müseyibli N.Ə., Nəcəfov Ş.N., Axundova G.K. II Qıraq Kəsəmən Antik dövr yaşayış məskənində arxeoloji qazıntılar / Antik və Orta əsr Azərbaycan şəhərləri: arxeoloji irsi, tarixi və memarlığı. Beynəlxalq elmi konfransın materialları. 27–28 oktyabr 2010 il. Bakı: "Çaşıoğlu", 2012, s.182-196.
14. Nəcəfov Ş.N. BTC marşurutunun 409.1 km-də yerləşən I Poylu yaşayış yerinin qazıntısı barədə qısa elmi hesabat (AMEA AEİ). Azərbaycan – Bakı, 2006, 41 s.
15. Nəcəfov Ş.N. I Poylu yaşayış yeri // Azərbaycan arxeologiyası və etnoqrafiyası, №1, 2011, s.44-58.
16. Osmanov F.L. Ağsu ərazisində arxeoloji tədqiqatlar. Bakı: "Adiloğlu", 2006, 164 s.
17. Osmanov F.L. İsmayıllı rayonu ərazisində 1970-ci il arxeoloji tədqiqatlarının hesabatı / AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu, Çöl tədqiqatları şöbəsi, №H47.
18. Алиев И.Г., Асланов Г.М. К вопросу о проникновении на территорию Азербайджана племен сармато–массагето–аланского круга в первые века нашего летоисчисления / Материалы по археологии и древней истории северной Осетии. Т.III. Орджоникидзе, 1975, с.72-88.
19. Бабаев И.А. Города Кавказской Албании в IV в. до н. э. – III в. н.э. Баку: Элм, 1990, 236 с.
20. Гошгарлы Г.О. Типология погребальных памятников античного периода на территории Азербайджана. Баку: Элм, 2012, 248 с.
21. Исмизаде О.Ш. Ялойлутепинская культура / Отв. ред. Б.Пиотровский. Баку: АН Аз.ССР, Интут Истории, сектор археологии и этнографии, 1956, 132 с.
22. Казиев С.М., Бабаев И.А., Османов Ф.Л. Работы Кабалинской экспедиции / Археологические открытия 1969 г. М., 1970, с.376.
23. Касимова Р.М. Антропологические исследования черепов из Мингечаура. Баку, 1960, 134 с.
24. Магомедов Р.Г. Материалы к изучению культур эпохи бронзы в приморском Дагестане. Махачкала, 2000, 120 с.
25. Мерперт Н.Я., Мунчаев Р.М. Погребальный обряд племен халафской культуры

(Месопотамия) / Археология Старого и Нового света. М.: «Наука», 1982, с.28-49.
26. Пассек Т.С. Джафарханский могильник (археологические разведки в Муганской степи) // Вестник древней истории, 1946, №2, с.169-188.
27. Смирнов К.Ф. Сарматские катакомбные погребения Южного Приуралья – Поволжья и их отношения к катакомбам Северного Кавказа / Материалы по археологии и древней истории северной Осетии. Т.III. Орджоникидзе, 1975, с.13-20.
28. Халилов Дж. А. Материальная культура Кавказской Албании (IV в. до н.э. – III в. н.э.). Баку: Элм, 1985, 277 с.
29. Шарифов Д. Раскопки в Ялойлу-Тапа (Нухинский уезд 1926 г.). Материалы Азербайджанского Государственного Музея. Баку, 1927, 32 с.
30. Museibli N. Some issues on general features of the Leilatepe culture // Azerbaijan archaeology and ethnography, №2, 2016, pp.15-22.

Axundova Gülnarə
AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun
"Çöl tədqiqatları sektoru"nun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent

BƏZƏK ƏŞYALARI QAFQAZ ALBANİYASININ MƏDƏNİ–İQTİSADİ ƏLAQƏLƏRİ KONTEKSTİNDƏ

Qədim zamanlardan beynəlxalq əlaqələr xalqların, dövlətlərin bir-birini daha yaxından tanımasında böyük rol oynamışdır. Bu əlaqələr sayəsində xalqlar iqtisadiyyatın və mədəniyyətin müxtəlif sahələrində nailiyyətlər ilə tanış olur və bütün bu nailiyyətləri bir-birindən mənimsəyirdilər.

Cənubi Qafqazın, o cümlədən Azərbaycanın qədim dövlətlərindən olan Qafqaz Albaniyasının əlverişli coğrafi vəziyyəti, ölkənin iqtisadi inkişafı, təbii sərvətləri, bu bölgənin qədim Şərq mədəniyyət mərkəzlərinin yaxınlığında yerləşməsi onun başqa ölkələrlə əlaqələrinin yaranmasına səbəb olmuşdur. Makedoniyalı İsgəndərin Şərqə yürüşündən sonra dövlətlər arasında ticari–iqtisadi və mədəni əlaqələr daha da genişlənmişdir. Ellinizm mədəniyyətinin Şərq ölkələrinə gəlişi bununla başlamışdır. Bu yürüş Albaniyanın digər ölkələrlə ticarət əlaqələrinin yaranmasına və inkişafına müsbət təsir göstərmişdir.

Arxeoloji qazıntılar nəticəsində Albaniyanın demək olar ki, bütün ellinizm mədəniyyət mərkəzləri ilə əlaqələrinin olduğu müəyyən edilmişdir. Bu əlaqələri numizmatik materiallardan başqa həm yazılı mənbələr, həm də bir çox maddi mədəniyyət abidələri təsdiq edir.

Qəbələdəki arxeoloji qazıntılar nəticəsində burada ellinizm dünyasına aid ölkələrdən gətirilmiş möhürlərdən istifadə olunduğu müəyyən edilmişdir. Qəbələdən olan onlarla bullalardakı ellinizm dövrünə aid qatlarda ellinizm mədəniyyəti mərkəzlərində yunan ustaları tərəfindən hazırlanmış möhürlərin izləri vardır. Bu möhürlərdə Heraklın, müxtəlif heyvanların, bitkilərin təsvirləri əks olunmuşdur [Бабаев, 1990, с.171]. Gil üzərindəki izlərin mühüm hissəsi gətirilmə üzük-möhürlərlə qoyulmuşdur. Bu isə o deməkdir ki, üzərində təsvirlər olan üzüklər yalnız bəzək və ya amulet deyil, həm də möhür – mülkiyyət nişanı idilər.


Albaniyanın antik dövrdəki əlaqələrini Mingəçevir və Şamaxıda tapılmış iki üzük - möhür də təsdiq edir. Mingəçevirdəki üzükdə dayanmış və camdan şərab içən, çiynində sarmaşıq və tənək yarpağı sarılmış əsa olan cavan satir təsvir olunmuşdur. Üzüyün üzərində antik abidənin təsvir olunduğu ehtimal edilir. Qədim Şamaxıdakı üzükdə isə nöqtəli haşiyənin içərisində delfin, xərçəng, lövbər və yosunlar təsvir edilmişdir [Халилов, 1985, с.157].

Şamaxıda [Халилов, 1985, с.141] və İsmayıllı rayonundakı abidələrdə [Османов, 1995, с.44] spiral şəkilli lövhəsi olan üzük aşkar edilmişdir (Şəkil 1.8-11). Bu üzüklərdə spiral motivinin bəzək və məişət əşyalarında geniş yayıldığı qədim yunan ənənələrinin izi görünür [Кругликова, 1969, с.115-116].

Albaniyanın ellinizm dövründə Yaxın Şərq ölkələri ilə ticarət əlaqələrini Suriya mənşəli müxtəlif şüşə və şirli qabların qırıqları da təsdiq edir [Халилов, 1985, с.129; Бабаев, 1990, с.171]. Suriyanın həmin dövrdə antik dünyanın şüşə istehsalı mərkəzlərindən biri olduğu məlumdur. Suriya mənşəli şüşə muncuqlar qazıntılar zamanı Albaniyanın antik dövrə aid olan əksər abidələrində tapılmışdır. Bu cür muncuqların xüsusən Mingəçevir, Yaloylutəpə, Xınıslı və Dağıstanda çoxlu miqdarda tapıldığı məlumdur [Карахмедова, 1978, с.14-15].

Mingəçevirdəki erkən dövrə aid küp qəbirlərdə Misirdən gətirilmiş skarabey böcəkləri aşkar edilmişdir. Bunlar açıq-yaşıl rəngli Misir pastasından hazırlanmış və yastı tərəflərində təsvirlər əks olunmuşdur. Skarabey böcəkləri qədim Misirdə müqəddəs hesab edilir və amulet kimi istifadə olunurdu. Lakin bu böcəklərdən yalnız

Misirdə istifadə edilmirdi, finikiyalılar onların bənzərlərini (saxtalarını) hazırlayır və bunlarla ticarət edirdilər [Казиев, 1949, с.82]. B.B.Piotrovski skarabey böcəklərinin Zaqafqaziyaya Ön Asiyadan müxtəlif yollarla gətirildiyini hesab edir [Пиотровский, 1958, с.22-23]. A.A.Qarəhmədova Suriyadan, Misirdən, Mesopotamiyadan malların Albaniyaya hələ Əhəmənilər dövründə İran ərazisindən keçən "çar yolu" adlanan yolla daxil olduğunu təxmin edir [Карахмедова, 1978, с.11]. Bu yol haqqında Herodotun əsərlərində də məlumatlar var [Геродот, 1972, I, 104]. Əhəmənilər İranından şimala gedən yollardan biri Xəzər dənizinin qərb sahili boyu uzanırdı.



Şəkil 1.

Qafqaz Albaniyası Ön Asiya ölkələri ilə də ticari–iqtisadi və mədəni əlaqələrə malik idi. İranla əlaqələr xüsusən canlı idi. Albaniyanın İranla sıx və hərtərəfli əlaqələri yerli ustaların İranda mövcud olan bəzi məmulat formalarını mənimsəməsinə səbəb olmuşdur. Məsələn, Albaniyanın ellinizm dövrünə aid abidələrində rast gəlinən ortası əyri bilərziklər, burma halqa şəkilli boyunbağılar (tork), kalaç sırğalar İranın belə məmulatları ilə müəyyən oxşarlığa malik idi [Бабаев, Гусейнова, 1979, с.12-13]. Metal halqa şəkilli boyunbağı taxmaq adəti Ön Asiyaya məxsus olub, Əhəmənilər İranında geniş yayılmışdı.

Mingəçevirdə uzadılmış və zəif bükülmüş vəziyyətdə skeletlərin olduğu torpaq qəbirlərdə [Казиев, 1949, с.28, рис.19] tuncdan tökmə üzük-möhürlər aşkar edilmişdir. Bunların bir hissəsi İrandan gətirilmiş, bəziləri isə yerli istehsaldır. Bu üzüklərin lövhələrində müxtəlif heyvanlar təsvir edilmişdir. Onlar müxtəlif – dayanmış, gəzən, qaçan vəziyyətlərdə göstərilmişdir. Belə ki, lövhələrdən birində aslan tərəfindən təqib olunan maral təsvir edilmişdir. Bəzi üzüklərin üzərində insan təsvirləri vardır. Üzərinə hücum edən aslanla mübarizə aparan insanın təsvir olunduğu üzük də məşhurdur. Təsvirdəki insanın əynində uzun fars kaftanı vardır [Асланов, Бабаев, 1965, с.95].

Bu cür süjetlərə e.ə. I minilliyin əvvəllərinə təsadüf edən tunc kəmərlərdə rast gəlinir. Digər üzüyün lövhəsində çapan atın üzərində olan insan təsviri vardır. Üzərində fantastik məxluqların təsvir edildiyi üzüklər də mövcuddur. Onlardan birinin üzərində aslan başı və balıq quyruğu olan qanadlı əjdaha təsvir edilmişdir. Digər üzüyün üzərində ikibaşlı – maral və aslan başlı maral təsvir edilmişdir [Асланов, Бабаев, 1965, с.95, табл. II, 1, 10]. Bütün bunlar göstərir ki, bu üzüklərin ustaları və sahibləri İran mifologiyası ilə tanış idilər və bu motivlərdən zinət əşyalarında istifadə edirdilər.

Albaniyadakı gətirilmə məmulatlar həm də qabaqcıl nümunələr kimi çıxış edirdi. Sənətkarlar onlara əsaslanaraq analoji, müxtəlif mümkün zinət və qliptika əşyaları istehsal edirdilər. Qeyd edilən predmetlərin yerli istehsalı zamanı bir sıra hallarda yarımfabrikatların və sənətkarlıq nöqsanlarının olduğu görünmüşdür. Yalnız idxal olunan mallar deyil, həm də onların yerli imitasiyaları Albaniyanın antik dünya ilə ticari-iqtisadi və mədəni əlaqələrinin sübutudur.

Albaniya sakinləri skarabeoid şəklində olan muncuqlardan da istifadə edirdi. Bu cür muncuqlar Mingəçevirdə aparılan qazıntılardan məlumdur. Onlar silikon və sarımtıl-ağ kalsitin hidrat formalarından hazırlanmışdır [Голубкина, 1956, c.82]. Üzərlərində həddindən artıq sxematik təsvirlər vardır, bəzi nümunələrdə isə onları ümumiyyətlə ayırd etmək olmur (Şəkil 1.1). Bu skarabeoidlər Finikiyadan mənimsənilmiş ətrafları düz olan yastı-qabarıq formaya malikdir [Голубкина, Расулова, 1966, c.78]. İ.A.Babayev bu skarabeoidlərin yerli istehsal məhsulları olduğunu hesab edir [Асланов, Бабаев, 1965, c.96-97], lakin formaları qədim Misir, Finikiya, Kiçik Asiya skarabeoidinə bənzəyir [Голубкина, Расулова, 1966, c.75].

Ellinizm dövründə Albaniya qonşu Gürcüstan ilə də sıx ticari–iqtisadi əlaqələrə malik idi. Albaniya ilə Gürcüstan arasında kifayət qədər sıx qarşılıqlı əlaqələri arxeoloji materiallar arasındakı oxşarlıq da təsdiq edir. Gürcüstanın qliptika abidələrini tədqiq edən M.İ.Maksimova İberiyanın şüşə möhürlərin istehsal mərkəzlərindən biri olduğunu hesab edir [Максимова, 1941, c.91-92]. Alban abidələrində üç ədəd çoxüzlü şüşə möhürlər tapılmışdır [Бабаев, 1965, c.128-133]. Bunlar paralepiped formasındadır. Möhürlərdən birinin üzərində atlı ilə kentavrın güləşməsi (Şəkil 1.2), ikincisinin üzərində - atlıdan qaçan iki heyvanın – xallı maralla ceyranın atla ovlanması səhnəsi (Şəkil 1.4), üçüncüsündə – quş başlı qanadlı qrifon (Şəkil 1.3) təsvir edilmişdir. İlk iki çoxüzlünün üzərindəki təsvirlər dəqiqliklə gürcü təsvirlərini təkrar edir. İ.A.Babayev hesab edir ki, Mingəçevir və Gürcüstan çoxüzlüləri bir emalatxanada – məhz İberiyada hazırlanmışdır [Асланов, Бабаев, 1965, c.99]. Gürcüstan ərazisindəçoxlu sayda göy şüşədən hazırlanmış bu cür çoxüzlülər aşkar edilmişdir [Максимова, 1941, c.91-92].

Ellinizm dövründə Albaniyanın ticari–iqtisadi əlaqələrində Şimali Qafqaz böyük rol oynamışdır. Şimali Qafqaz bir çox ölkələrlə rahat ticarət yolları ilə sıx əlaqədə olmuşdur. Ən izdihamlı tranzit ticarət yollarından biri Dərbənddən keçməklə Xəzər dənizinin qərb sahili boyu uzanırdı.

Şimali Qafqazda çoxlu xalqlar yaşayırdı. B.e. əvvəl IV əsrdə burada sarmatlar məskən salmış və Cənubi Qafqazın sərhədlərinə gəlməyə başlamışlar [Виноградов, 1963, c.139]. Böyük hərbi gücə malik olan sarmat tayfaları qonşu xalqlarla, o cümlədən albanlarla tez iqtisadi əlaqələr qurmuşdur. Bu əlaqələr arxeoloji materiallarla tədqiq olunur. Belə ki, Mingəçevirin b.e. əvvəlki IV–III əsrlərinə aid küp qəbirlərində təbaşir və kükürddən hazırlanmış muncuqlar aşkar edilmişdir [Казиев, Голубкина, 1949, c.76, 81]. Məlumdur ki, savromatlar və sarmatlar dəfn mərasimlərində təbaşir muncuqlardan, təbaşir və kükürd tozundan istifadə edirdilər, [Алексеева, 1976, c.14-16]. Bu bəzi tədqiqatçılara Mingəçevirdə tapılmış və b.e. əvvəl II–I əsrlərə aid olan küp qəbirlərdə sarmat cizgilərinin ifadə olunduğunu deməyə əsas verir [Карахмедова, 1978, c.12-13]. Bir sıra elementlər –atla birlikdə dəfn etmə, odla, çoxlu sayda silahla bağlı olan ayinlərin olması – bəzi qəbirləri həmin vaxt Şimali Qafqazda geniş yayılmış və Qafqaz Albaniyasının şimal tərəflərində tez-tez rast gəlinən sarmat tipinə aid qəbirlərə bənzədir.

B.e. əvvəl I əsrdən başlayaraq Albaniyanın Şimali Qafqazla əlaqələri daha çox genişlənmişdir. Bu zaman Şimali Qafqazda sarmat qrupu tayfalarına aid aorslar və sirakilər məskunlaşmışdır. Aorsların mövcudluğu Şimal-Qərbi Xəzəryanı sahil rayonlarında müşahidə edilir [Виноградов, 1963, c.142; Давудов, 1996, c.128]. Albanlarla qonşuluqda yaşayan aors tayfaları beynəlxalq ticarətdə böyük rol oynayırdılar. Belə ki, Strabon yazırdı: "/Şimali Xəzəryanı ərazidə yaşayan aorslar/... hind və babil malları ilə dəvələr üzərində karvanı ticarət aparırdılar və bu malları ermənilərdən və midiyalılardan mübadilə etməklə alırdılar" [Алиев, 1987, c.23]. Təhqiqatçıların əksəriyyəti aors ticarət yolunu Dərbənd keçidindən keçən Xəzəryanı yol ilə müqayisə etmişlər [Давудов, 1996, c.131].

Ellinizm dövründə Albaniya Orta Asiya və Hindistanla əlaqə saxlamışdır. Şimali Qafqazda və Cənubi Qafqazda aşkar edilmiş muncuqların çoxu e.ə. II əsrə aiddirlər və İran – Hind mənşəlidir [Леммлейн, 1950, c.158]. Arxeoloji qazıntılar zamanı vətəni Hind və Sakit okean sahilləri olan çoxlu sayda kauri balıqqulaqları aşkar edilmişdir. Onlar qədim zamanlardan yalnız bəzək əşyaları və amuletlər kimi deyil, həm də pul nişanları şəklində istifadə edilirdi [Пахомов, 1959, c.4]. Qafqaz Albaniyasının abidələrində aşkar edilmiş mərcan muncuqlar və sədəfdən asma bəzəklər də Hind və Sakit okeandan gətirilmədir, belə ki, nə mərcan, nə də sədəfin çıxarıldığı dəniz balıqqulaqları nə Albaniyada, nə də Cənubi Qafqazın digər yerlərində yox idi [Голубкина, Расулова, 1966, c.76].

Çox güman ki, Orta Asiya, Hindistan ilə əlaqələr Strabonun qeyd etdiyi su yolu ilə saxlanılırdı. O, çoxlu sayda hind mallarının Oks (Amudərya) çayının axını ilə aşağı Hirkan (Xəzər) dənizinə gətirildiyi, oradan isə "Albaniyaya və Kir çayı və daha sonra başqa yerlər vasitəsilə Pontus Euxinus dənizinə (indiki Qara Dəniz) çatdırıldığı" barəsində yazırdı [Алиев, 1987, c.24].

Eramızdan əvvəl II–I əsrlərdə Roma dövləti öz hakimiyyətini Qərbdə möhkəmləndirib Şərqdə aktiv fəaliyyət göstərməyə başlamışdır. Romanın işğalçılıq fəaliyyəti ilə bağlı Yaxın Şərqdə yaranmış siyasi vəziyyət həm Cənubi Qafqazın, o cümlədən Albaniyanın da mənafeyinə toxunurdu. Roma Cənubi Qafqazı və Qərblə Şərqi birləşdirən bu bölgədən keçən ticarət yollarını da zəbt etməyə can atırdı.

Romalılar e.ə. 69-cu ildə Cənubi Qafqaza yürüş etmişlər. Həmin vaxtdan başlayaraq Albaniya və bütün Cənubi Qafqaz Romanın təsiri altına düşmüşdür. Bu, Albaniyanın Roma dünyası ilə iqtisadi və mədəni əlaqələrinin yaranması və genişlənməsi üçün əlverişli şərait yaratmışdı və III əsrin əvvəlinə qədər bu ölkələr arasında daimi əlaqələr mövcud idi. Bu, Qafqaz Albaniyası abidələrində Roma təsir dairəsinə aid çoxlu sayda gətirilmə məmulatlarla təsdiq olunur. Bu əlaqələri Qəbələdə tapılan bir sıra Roma sikkələri də təsdiq edir [Алиев, Гадиров, 1985, c.28].

Roma təsir dairəsinə aid gətirilmə bəzək əşyaları arasında fibulalar əhəmiyyətli yer tutur. Bunların əksəriyyəti rəngbərəng mina ilə örtülmüş lövhə şəkilli fibulalardır. Onlar Mingəçevir, Şamaxı və Qəbələdə torpaq, küp, taxta qutu və erkən katakomba qəbirlərdə aşkar edilmişdir. Lövhə şəkilli fibula-sancaqların qall-Roma mənşəli məhsullar olması və Şimali Qafqazda nisbətən daha çox aşkar edilməsi onu göstərir ki, fibulalar Albaniyaya Şimali Qafqazdan keçərək gətirilmişdir [Халилов, 1980, c.85].

Şamaxıdakı torpaq qəbirlərdən lövhəsində budaqda oturmuş və başını arxaya çevirmiş qartal formasında olan şarnirli fibula-sancaq tapılmışdır [Халилов, 1985, c.146-147]. Bu sancaq tuncdan tökmə üsulla hazırlanmış və qızılı təbəqə ilə örtülmüşdür (Şəkil 1.16). Oxşar fibula-sancaqlar Roma əyalət sənətinə aiddir və Şimali Qara dənizyanı antik şəhərlərdə və həmçinin Mərkəzi Avropada yetərincə çoxlu sayda aşkar edilmişdir [Амброз, 1966, c.36]. Qafqaz Albaniyasının abidələrindən məlum olan arbalet formasında fibulalar da Roma mənşəlidir.

Şamaxıdakı torpaq qəbirlərdə çox maraqlı qızıl üzük aşkar edilmişdir. Üzüyün halqası üç ayrı-ayrı çubuqdan ibarətdir, iki kənar çubuq iki məftildən burulmuş, ortadakı çubuğun üzərində isə naxışlar vardır. Ürək şəkilli qaş yuvası halqaya lehimlənmişdir. Qaş yuvası nazik lövhədən hazırlanmış və naxışlı məftil ilə haşiyələnmişdir. Bu üzüyün qaşı kombinasiya edilmişdir: üst hissəsi ametistdən, aşağı hissəsi isə – firuzədəndir (Şək. 1.6). Bu üzüyün Romadan gətirildiyi ehtimal olunur [Халилов, 1985, c.142]. Bunu həmin qəbirlərdə aşkar edilmiş digər bəzək əşyaları – arbalet fibula, rəngbərəng minalı fibula-sancaq, qalın ucları olan qızıl qolbaq, kalaç şəkilli qatlanan ilgəkli qızıl sırğalar da təsdiq edir [Ахундова, 2020, c.135].


Yaloylutəpədəki torpaq qəbirlərdə və Mingəçevirdəki katakomba qəbirlərdə kalaç şəklində xalis qızıldan sırğalar aşkar edilmişdir [Асланов, Голубкина, Садыхзаде, 1966, c.18-19]. Sırğalara piramida şəklində düzülmüş dörd dənəcik lehimlənmişdir (Şəkil 2.1, 3). Bunlar oxşar Roma sırğaları ilə bənzərlik təşkil edir [Литвинский, 1973, c.41]. Bu növ sırğalar antik dövr üçün səciyyəvidir. A.A.Qarəhmədova qeyd edilən növ sırğaları tədqiq edərək bu nəticəyə gəlmişdir ki, onlar Albaniya ərazisinə Roma ilə ticarət nəticəsində gətirilmişdir

[Карахмедова, 1974, с.274]. Sonrakı dövrlərdə, bizim eranın III əsrində Albaniya abidələrində bu sırğalara rast gəlinməmişdir. Onların geniş yayılması məhz Roma dövrünə təsadüf edir. Lakin gətirilmə nümunələrlə yanaşı, həm də yerli istehsalın mövcud olduğu şübhəsizdir, bunu Mingəçevirdə I–III əsrlərə aid katakomba qəbirlərdə aşkar edilmiş gümüş və tuncdan hazırlanmış nümunələr də təsdiq edir [Карахмедова, 1975, с.74].

İsmayıllı rayonunun Qalagah kəndindəki küp qəbirdə qayıqşəkilli bir cüt qızıl sırğa aşkar olunmuşdur[Пахомов,1939,с.71,фиг.1]. Sırğaların üzəri xırda dənəciklər və on ədəd müxtəlif ölçüdə və formada – yumru, oval, üçbucaq, dördbucaq şəklində qırmızı qaşlarla bəzədilmişdir. Sırğaların yuxarı tərəfinə bir-birinin qarşısında yerləşdirilmiş iki qızıl halqa lehimlənmişdir, halqalara məftil kilid keçirilmişdir. Sırğanın aşağı hissəsinə dörd kiçik üzüm salxımlı qızıl borucuq lehimlənmişdir (Şəkil 2.6). Bunların hazırlanmasının texniki üsulları – dənəciklər, qaşlar, ensiz qızıl lövhələrdən qaşlar üçün yuvacıqların hazırlanması, incə və zərif işçilik Roma əyalətləri üçün səciyyəvidir ki, bu da sırğaların idxal olunduğunu ehtimal etməyə əsas verir.

Yuxarıda qeyd edildiyi kimi, gətirilmə məmulatlar qabaqcıl nümunə kimi qəbul edilirdi. Yerli ustalar onları əsas kimi götürərək bənzər bəzək əşyaları hazırlayırdılar. Belə ki, bu formada daha iki cüt sırğa var, lakin onlar daha kobud və diqqətsiz hazırlanmışdır [Osmanov, 1982, s.100]. Bu sırğalar həmçinin fərqli vaxtda Qalagahda, şumlanmış torpaqda aşkar olunmuşdur. Bu sırğaların üzəri yeddi qaşla bəzədilmişdir, dənəciklər daha böyükdür və bir çox yerdə itmişdir, aşağı hissədəki detal yoxdur (Şəkil 2.7). Yəqin ki, bu sırğalar yerli sənətkarların məhsuludur.

Qax rayonunda Torpaqqalada katakomba qəbirlərində tapılmış qızıl sırğalar dörd ədəd üçbucaq təbəqədən ibarətdir, üzərlərinə qırmızı qaşlar yerləşdirilmişdir [Aslanov, 1961, c.40, tabl. IV, 1-2]. Sırğalar aşağıya doğru daralaraq piramida forması alır. Sırğaların yuxarı hissəsində cüt ilgəklər var və bunlara məftil kilid keçirilmişdir (Şəkil 2.5). Bu sırğaların hazırlanması zamanı əvvəlki sırğalarda istifadə olunan texnoloji üsullardan istifadə edilmişdir. İncə, zərif işləmə onların Romadan idxal olunanlar sırasına aid edilməsinə əsas verir. Həmin məzarda Q.O.Qoşqarlı tərəfindən Romadan idxal olunan predmetlərə aid edilmiş, dibində qrifon tərəfindən parçalanan maralın təsvir edildiyi gümüş güldanın aşkar edilməsi bu ehtimalı daha həqiqətəuyğun edir [Кошкарлы, 1985, с.48-53].



Şəkil 2.

Gətirilmə məmulatlara Mingəçevirdəki taxta qutu qəbirlərində aşkar edilmiş iki cüt nalşəkilli sırğa da aiddir [Асланов, Голубкина, Садыхзаде, 1966, табл. II, 5, 6]. Sırğaların bir cütü yuxarı hissəsində iki cüt ilgəyi olan və bir-birinə lehimlənmiş iki ədəd qızıl lövhədən hazırlanmışdır. İlgəklərdə məftil kilidlərin qalıqları qalıb. Sırğalarda müxtəlif ölçülü və formalı üç ədəd qırmızı qaş vardır. Qaş yuvasının özülü kiçik dənəciklərlə bəzədilmişdir (Şəkil 2.2). Bu formadakı sırğaların ikinci cütünün səthində yasəmən rəngində şüşədən hazırlanmış oval şəkilli iki qaş vardır. Sırğaların aşağı hissəsi qızıl borucuqla bəzədilmiş və piramida şəklində düzülmüş dörd ədəd dənəcik buraya lehimlənmişdir, onlara da öz növbəsində hər biri dörd ədəd kiçik dənəcikdən ibarət olan iki üzüm salxımı lehimlənmişdir (Şəkil 2.4).

Beləliklə, yuxarıda göstərilən bütün sırğa formalarının müxtəlif olmasına baxmayaraq onlar bir çox ümumi xüsusiyyətlərə malikdir. Bu sırğaların üzəri daş və şüşə qaşlar ilə bəzədilmiş, lehimləmə, dənəcik və filiqran üsulu tətbiq edilmişdir, qaşlar üçün yuvacıqlar ensiz qızıl təbəqələrdən hazırlanmışdır. Bütün bu texniki üsullar Roma əyalətləri üçün səciyyəvi idi ki, bu da onların Romadan gətirilmiş olmasını ehtimal etməyə əsas verir.

Roma təsir dairəsinə aid gətirilmə məmulatlar sırasında üzük çərçivəsinə qoyulan oyma daş və dərinliyində təsvir olan şüşə saxta qaş şəklində qliptika abidələri də çoxdur. Bunların böyük əksəriyyəti Mingəçevirdə, qalan hissəsi isə Xınıslı, Torpaqqala, Qəbələ və Gəncədə aparılan arxeoloji qazıntılar zamanı tapılmışdır. Roma dövrünə aid antik gemmalarda adətən antik panteonun tanrıları – müharibə tanrısı Ares, günəş tanrısı Helios, tanrıların çarı Zevs, bəxt ilahəsi Tixa, məhəbbət və gözəllik ilahəsi Afrodita təsvir olunmuşdur. Tanrılar heykəl pozalarında, onlar üçün səciyyəvi olan atributlarla təsvir edilmişdir. Albaniyadan olan gemmalarda rəqs edən qadınlar, lalə, nəhəng heyvan təsvirlərinə də rast gəlmək olar. Gemmaların birinin üzərində alovdan dilləri olan qurbangahın təsviri vardır [Асланов, Бабаев, 1965, с.98; Халилов, 1985, с.158]. Gəncədə və Mingəçevirdə aşkar edilmiş və üzərində əl sıxma təsviri olan şüşə saxta qaş maraq cəlb edir [Гуммель, 1940, с.156-159; Халилов, 1985, с.158]. Roma dövründə bu təsvir evliliyin rəmzi idi [Максимова, 1950, с.230]. Mingəçevirdəki katakomba qəbirlərdə üzərində yunan hərfləri olan tunc üzük də aşkar edilmişdir [Расулова, 2008, с.162]. Üzüyün üzərindəki yazılarda xoş arzuların ifadə olunduğu güman edilir. Üzərində yazı olan bu cür üzüklərə Roma qliptika abidələri sırasında tez-tez rast gəlinir [Халилов, 1985, с.158].

İ.A.Babayevin ehtimalına görə, antik mövzusu olan gemmalar qonşu Gürcüstanda olduğu kimi [Рамишвили, 1978, с.112], Albaniyada da [Бабаев, 1965, с.127] istehsal edilirdi, lakin onları gətirilmə olanlardan fərqləndirmək çətindir. Lakin buna baxmayaraq, yerli qaşlı üzükləri fərqləndirmək cəhdləri də olmuşdur. Belə ki, antik dövrün alban ustaları çox zaman üzərində müxtəlif heyvanlar təsvir edilmiş üzük möhürlər hazırlayırdılar [Халилов, 1985, с.159]. Lakin gətirilmə gemmaların faizi həddindən artıq çox idi. Romadakı və qədim İtaliyadakı digər ustaların əsərlərini çox vaxt qonşu istehsal mərkəzlərinin məmulatlarından fərqləndirmək mümkün deyil, belə ki, əyalətlər üslub və mövzunu Roma etalonundan olduğu kimi təkrarlayırdılar. Buna baxmayaraq, Albaniya abidələrində aşkar edilmiş müxtəlif antik süjetli üzük-möhürlər Albaniyanın Roma və onun əyalətləri ilə ticarət və iqtisadi əlaqələrinin olmasını təsdiq edir, yerli ustalar tərəfindən antik üzük-möhürlərin oxşarlarının hazırlanması isə antik dünyanın yerli mədəniyyətə təsirindən xəbər verir.

Roma dövründə Albaniyanın Suriya, Misir ilə iqtisadi əlaqələri genişlənmişdir. Gətirilmə əşyalar arasında sayının çoxluğuna və xronoloji çərçivəsinin genişliyinə görə müxtəlif muncuqlar, sapa düzülmüş muncuqlar və asma bəzəklər fərqlənir. Albaniya abidələrində böyük miqdarda müxtəlif rəng, forma və ölçüdə olan şüşə muncuqlar aşkar edilmişdir. Şüşə muncuqlar arasında içərisi qızıl suyuna çəkilmiş, kürəşəkilli, çəlləkşəkilli, rombşəkilli, piramidaşəkilli, arpa dənələri şəklində, iki yastı-qabarıq hissədən ibarət olan, yastı hissələrindən lehimləmə yolu ilə birləşdirilmiş ürək şəkilli, “xallı”, “göz-göz” muncuqlara rast gəlinir. Daxili qızıl suyuna çəkilmiş muncuqların hazırlanması kifayət qədər qəliz idi, yalnız şüşə işinin inkişaf etdiyi mərkəzlərdə mövcud ola bilərdi

və təkcə şüşə emalının müxtəlif üsullarını bilməyi deyil, həm də zərgərlik işinin bilicisi olmağı tələb edirdi. Muncuqların qızıl suyuna çəkilməsi hələ bizim eradan əvvəl IV əsrdə Misirdə başlamışdı, Roma dövründə isə bu üsul geniş yayılmışdı. "Göy və tünd rəngli muncuqlar Finikiyanın Tir və Sidon şəhərlərində, çoxrəngli, o cümlədən "xallı" və "göz-göz" muncuqlar isə Fivdə və Misirin başqa şəhərlərində hazırlanırdı...", oradan isə Albaniyaya gətirilirdi [Голубкина, Расулова, 1966, с.73-74].

Azərbaycan ərazisində arxeoloji qazıntılar nəticəsində Roma zamanlarında geniş yayılmış Misir pastasından hazırlanmış müxtəlif növ asma bəzəklər tapılmışdır. Mingəçevirdə bir küp qəbirdə mavi Misir pastasından hazırlanmış göyərçin fiquru və düymə aşkar edilmişdir [Расулова, 1973, с.70]. Bu materialdan müxtəlif amuletlər – dairəvi - nahamar muncuqlar, amforaşəkilli asma bəzəklər, açılmış əl, insan ayağı, sıxılmış əl-şiş jesti, üzüm salxımı, sinəsinə uşaq sıxmış ilahə fiquru şəklində bəzək əşyaları də aşkar edilmişdir [Карахмедова, 1978, с.14-15]. Bu cür Misir məmulatlarının qalıqları həmçinin Dağıstan ərazisində eramızın ilk əsrlərinə aid Tarki və Qarabudaqkənd qəbirlərindəki materiallarda da tapılmışdır [Крупнов, 1951, с.217]. Misir pastasından hazırlanmış hər hansı növ asma bəzəklər və bəzək əşyaları Misir şəhərləri olan Navkratis və İskəndəriyyənin böyük usta emalatxanalarının məhsulları hesab edilir. Bu bəzək əşyalarının Albaniyaya Qara dənizysahili antik şəhərlər vasitəsi ilə gətirildiyi güman edilir [Пиотровский, 1958, с.22-23].

Mingəçevirdəki küp qəbirlərindən birində aşkar edilmiş, pastadan hazırlanmış və üzərində insan siması təsvir olunmuş muncuqlar çox maraqlı amuletlərdir [Ионе, 1955, с.58, рис. 22, 1-3]. Bu sarımtıl, qara və qəhvəyi pastadan olan muncuqlar vətəni Misir olan sapadüzmə, şüşə mozaikası üsulu ilə hazırlanmışdır (Şəkil 2.8-10) [Сымановић, 1961 с.273]. Bənzər muncuqlar Skif çarlığının Neapol şəhərindən tapılmış materiallarından da məlumdur.

Arxeoloji tapıntılar Roma dövründə Albaniyanın həmçinin Hindistanla iqtisadi əlaqələr saxladığından xəbər verir. Belə ki, Mingəçevir, Xınıslı və Torpaqqalada ağ və qara pasta ilə naxışlanmış hind əqiq muncuqları aşkar edilmişdir. Arxeoloji qazıntılar zamanı Albaniyanın Hindistanla bizim eradan əvvəl I əsrdən bizim eranın III əsrinə qədərki əlaqələrini tədqiq etməyə imkan verən muncuqlar tapılmışdır [Карахмедова, 1978, с.12].

Roma dövründə Albaniyanın ticarət əlaqələrində Parfiya böyük rol oynamışdır. Belə ki, arxeoloji qazıntılar zamanı Albaniyada bir sıra Parfiya mənşəli materiallar aşkar edilmişdir. Bunların arasında qliptika tapıntıları seçilir [Асланов, Бабаев, 1965, с.99]. Parfiya dövrünə aid olan üzük-möhürlərdə fantastik məxluq, qadın, bitki və heyvan təsvirləri mövcuddur. Fantastik məxluqlar qanadlı at – Peqas şəklində təsvir olunmuşdur. Bu təsvirlər qədim İran mifologiyası ilə əlaqəlidir. Parfiya gemmalarında əqrəblər də təsvir olunmuşdur. Əqrəb təsvirlərinə Əhəməni relyeflərində də rast gəlinir. Üzük - möhürlərdəki bitkilər arasında tez-tez dağlaləsi, lalə, zanbaq və ağac təsvirlərinə rast gəlinir. Bitkilər sxematik şəkildə təsvir edilmişdir [Асланов, Бабаев, 1965, с.99]. Albaniyaın Parfiya ilə ticarət əlaqələrini lövhəciyində oturmuş vəziyyətdə hamilə qadın təsviri olan gümüş fibula – sancaq sübut edir. Qadının bədəni dimdiklərində insan başı tutan üç quşdan ibarətdir. Quşların uzun boynu, bərəlmiş gözləri, uzun dimdiyi və qatlanmış qanadları vardır. Mərkəzdə yerləşən quşun quyruğunun ucunda qadın başı vardır. Qadının badamı gözləri, çatma qaşları, iri burnu, dar, azca aralanmış ağzı və çox böyük qulaqları vardır (Şəkil 1.15). A.A.Qarəhmədova bu sancağı Parfiya dövrünə aid etmiş və onda yunan – Parfiya incəsənətinin cizgilərini görmüşdür [Карахмедова, Рагимова, с.98].

Albaniyanın Parfiya ilə ticarət əlaqələrinin olmasını Mingəçevirdəki katakomba qəbirlərdə tapılmış iki diskşəkilli və iki amfora şəkilli asma bəzəklər də təsdiq edir (Şəkil 1.17-18). Diskşəkilli asma bəzəklər şəffaf sarı şüşədən hazırlanmışdır. Bunlardan birinin üzərində anfas kişi üzü, digərində isə sola doğru gedən şir təsvir edilmişdir. Şirin başının üzərində yeddibucaqlı ulduz, kürəyinin üstündə isə aypara var [Карахмедова, 1975, с.73]. Aypara və ulduz işarələri Mitridatlar sülaləsinin məşhur emblemidir [Максимова, 1957, с.80]. Bu işarələrə Arşaki sikkələrində də rast gəlmək mümkündür [Пахомов, 1951, с.146]. Bosforda da bu nişanların təsvir olunduğu gemmalar məşhurdur [Максимова, 1957, с.80].

Albaniyanın Şimali Qara dənizyanı şəhərlərlə də sıx ticarət–iqtisadi əlaqələri olmuşdur. Belə ki, Mingəçevirdə qaş yuvasında çəhrayı rəngdə oval qaş yerləşmiş qabarıq qızıl üzük tapılmışdır [Асланов, Голубкина, Садыхзаде, 1966, с.55, табл. VII, 1]. Qaş yuvasının alt hissəsinə xırda dənəcik lehimlənmişdir. Üzük halqasının geniş hissəsinin hər iki tərəfində üslublaşdırılmış bitki ornamenti vardır (Şəkil 1.7). Bu cür üzüklər Xersones nekropolunda çoxlu sayda aşkar edilmişdir [Пятышева, 1956, с.42, табл. VII, 12, 13]. Alban abidələrində həmçinin, ilk əsrlərdə Şimali Qara dənizyanı şəhərlərdə geniş yayılmış, uclarında iki buruq olan üzüklər də aşkar edilmişdir [Халилов, 1985, с.141, табл. XXXI, 14, 15], (Şəkil 1.12-14) [Кругликова, 1969, с.116]. Alban abidələri arasında yumru məftildən hazırlanmış və ucları spiral şəklində burulmaqla qarmağa bağlanmış tunc qolbağa da rast gəlinmişdir [Халилов, 1985, с.140, табл. XXX, 4, 5]. Bu cür qolbaqlar, e.ə. II–I əsrlərdən başlayaraq Şimali Qara dənizyanı abidələrdə yayılmağa başlamışdır (Şəkil 1.5). Albaniyadakı fibulalar, muncuq materialları, həmçinin Şimali Qara dənizyanı abidələrin materiallarına bənzədilir.

Roma zamanında Albaniya və Şimali Qafqaz tayfaları arasında da sıx ticari–iqtisadi əlaqələr mövcud idi. Bu zaman Şimali Qafqazda sarmat qrupuna aid olan alan tayfaları hökmranlıq edirdi. Onlar b.e. I əsrində Şimali Qafqazın mərkəzi hissəsində məskunlaşmış, daha sonra isə tez bir zamanda qonşu xalqlarla əlaqələr yaratmışlar. V.Kuznetsov qeyd edir: "Qafqaz alanları, şimal qonşuları və Rusiya ilə yanaşı, Gürcüstan, Albaniya və İran ilə də əlaqə saxlayırdılar" [Кузнецов, 1962, с.40]. Bu əlaqələri arxeoloji tapıntılar da təsdiq edir. İ.Əliyev yazır: "Mingəçevirdəki katakomba qəbirlərdən tapılmış əşyalar arasında sarmat-alanlara aid olduğu açıq-aşkar olan xeyli miqdarda əşya var . Bunlara ilk növbədə dairəvi, yarımdairəvi, oval və dördbucaqlı formada, hərəkətli qatlama dilli, təbəqəli çəmbərli – lövhəcikli və lövhəciksiz səciyyəvi sarmat kəmər toqqaları aiddir. Mingəçevir katakombalarından tapılmış kəmər dəstləri, xüsusilə toqqalar sarmat-alan dövrünə aid qədim məzarlıqlardan tapılmış materiallarla birbaşa bənzərlik təşkil edir [Алиев, 1971, с. 204]. Alban abidələrində asma bəzək kimi istifadə edilən müxtəlif zınqırovlara tez-tez rast gəlinir. Bəzi tədqiqatçılar bunların katakombalar dövründə geniş yayılmasını alanların təsiri ilə izah edirlər, çünki donların və at əşyalarının səs çıxaran zınqırovlar və zənglərlə bəzədilməsi – "alanların mühitində və ümumiyyətlə alanlar dövründə geniş yayılmış haldır" [Кузнецов, 1962].

Mingəçevirdəki katakomba qəbirlərdə Osetiyada tapılmış və "alanlara aid" olduğu bildirilən, üzərində muncuq növünə aid naxışları olan muncuqlar aşkar edilmişdir. Katakomba qəbirlərin birində alan qəbirlərində rast gəlinənlərə bənzəyən böyük dairəvi xalsedon muncuq aşkar edilmişdir [Алиев, 1971, с. 204].

Böyük ehtimalla Albaniya Şimali Qafqazla və Bosfor dövləti ilə Böyük və Kiçik Qafqaz dağlarının aşırımlarından, həmçinin Dərbənd keçidindən keçərək Xəzər dənizinin Qərb sahili boyu uzanan yollar vasitəsilə ticarət əlaqələri saxlayırdı.

Beləliklə, bəzək əşyaları Azərbaycanın antik dövrə aid abidələrindən əldə edilən digər arxeoloji materiallarla yanaşı Qafqazdakı qədim albanların Cənubi Qafqaz və Yaxın Şərqdəki qəbilə və xalqlarla, Şimali Qafqaz, Ön Qafqaz, Volqaboyu, Şimali Qara dənizyanı və Şərqi Avropa vilayətləri, Kiçik Asiya, Suriya, Misir, Egey dənizi ölkələri ilə sıx və müntəzəm əlaqələrindən xəbər verir.

Bizə məlum olan zərgərlik sənətinin nümunələri qədim yerli ənənələrə əsaslanan Albaniya incəsənətinin ətraf sivilizasiyalarla sıx qarşılıqlı əlaqədə inkişaf etdiyini deməyə əsas verir. Alban incəsənəti ən müxtəlif xalqların və dövrlərin qabaqcıl bədii zövqünü mənimsəmişdir.

O dövrün yüksək inkişaf etmiş mədəniyyət mərkəzləri, xüsusilə antik dünya ölkələri ilə müxtəlif əlaqələr yerli mədəniyyəti zənginləşdirmiş, yerli əhalinin həyatının bütün sahələrinə öz müsbət təsirini göstərmişdir. Antik təsir həmçinin, zərgərlik işində, metal bəzək əşyalarının formasında və hazırlanma üsulunda da müşahidə olunur. Yüksək sənətkarlıqla hazırlanmış gətirilmə məmulatlar qabaqcıl nümunə kimi götürülürdü. Lakin Albaniyanın zərgərlik sənəti üçün antik dövrə aid bənzər incəsənət əsərlərinin birbaşa təkrarlanması deyil, ümumi ənənələrini yenidən interpretasiya etməklə bunların əsasında həm ənənəvi yerli, həm də gətirilmə üsul, element və formalardan fərqlənən (məsələn, kalaç formasında qarmaqlı sırğalar) üsul, element və formaların yaranması səciyyəvidir.

Üzüm salxımları şəklində çoxsaylı sırğalar qədimdən mövcud olan yerli ənənələrin kənardan gətirilmiş və şəklini dəyişmiş antik ənənələrlə həm ənənəvi yerli, həm də gətirilmə bədii formalardan fərqlənən yeni bədii formaların yaranmasına səbəb olan vəhdətini göstərir.

Gətirilmə bəzək əşyalarının yerli kompleksə təsiri məmulatların çeşidi baxımından fərqli olmuşdur. Fərqli yerlərdə və şəhərlərdə çox vaxt bəzək əşyaları da fərqli olur. Bəzən onlara nadir nüsxədə rast gəlinir. Bəzək əşyaları şəhər əhalisi arasında da qeyri-bərabər bölüşdürülmüşdür. Bahalı olduğu ehtimal edilən gətirilmə bəzək əşyalarından yalnız zadəgan təbəqənin nümayəndələri istifadə edə bilərdilər. Təsadüf deyildir ki, bu cür bəzək əşyaları əsasən zəngin qəbirlərində aşkar edilmişdir. Cəmiyyətin yüksək təbəqələri əcnəbilərin təsiri altına daha asan və tez düşdüyü halda, xalqın əsas kütləsi ənənəvi yerli incəsənətə sadiq qalırdı. Lakin istənilən halda, bu bəzək əşyaları müxtəlif yollarla Albaniyaya gətirilərək əsas yerli əhalinin maddi mədəniyyətinin bir hissəsinə çevrilirdi.

ƏDƏBİYYAT:

1. Aslanov Q.M. Torpaqqalada arxeoloji qazıntılar / Azərbaycan SSR EA Xəbərləri. İctimai elmlər seriyası, 1961, №8, s.29-43.
2. Osmanov F.L. Qafqaz Albaniyasının maddi mədəniyyəti. Bakı, 1982, 158 c.
3. Алексеева Е.П. Этнические связи сарматов и ранних алан с местным населением Северо–западного Кавказа (III в. до н.э. – IV в. н.э.). Черкасск, 1976, 182 с.
4. Алиев И.Г. Сармато–аланы на пути в Иран / История Иранского государства и культуры. М., 1971, с.204-234.
5. Алиев И., Гадиров Ф. Кабала. Баку, 1985, 86 с.
6. Алиев К.Г. Античные источники по истории Азербайджана. Баку, 1987, 132 с.
7. Амброз А.К. Фибулы юга Европейской части СССР (II в. до н.э. – IV в. н.э.) / Археология СССР. Свод археологических источников, вып. Д1-30, М.: Наука, 1966, с.36.
8. Асланов Г.М., Бабаев И.А. Общая характеристика памятников глиптики, найденных при раскопках в Мингечауре // Известия АН Аз.ССР, Серия обществ. наук, 1965, №2, с.94-102.
9. Асланов Г.М., Голубкина Т.И., Садыхзаде Ш.Г. Каталог золотых и серебряных предметов из археологических раскопок Азербайджана. Баку: АН АзССР, 1966, с.20-43.
10. Ахундова Г.К. Украшения Азербайджана античного периода. Баку, 2020, 280 с.
11. Бабаев И.А. О трех стеклянных многогранных печатях, найденных в Мингечауре/ Сборник статей. Археологические исследования в Азербайджане. Баку, 1965, с.123-133.
12. Бабаев И.А. Города Кавказской Албании в IV в. до н.э. – III в. н.э. Баку, 1990, 236 с.
13. Бабаев И.А., Гусейнова Н.С. Влияние иранской культуры ахеменидского времени на материальную культуру древнего Азербайджана / VIII Всесоюзн. конфер. по Древнему Востоку, посвящ. памяти акад. В.В.Струве. М., 1979, с.12-13.
14. Виноградов В.Б. Савроматы Северо–Восточного Кавказа / Труды Чечено–Ингушской НИИ. Грозный, 1963, т.VI, с.139-142.
15. Геродот. История: в девяти книгах /Перевод и примеч. Г.А.Стратановского. Ленинград, 1972, 600 с.
16. Голубкина Т.И. Четыре кувшинных погребения из Мингечаура // Известия АН Аз.ССР, 1956, №3, с.82.
17. Голубкина Т.И., Расулова М.М. О связях древних кавказских албанцев со странами древнего мира (По материалам кувшинных погребений Азербайджана) // Ученые записки Азерб. Государ. университета, серия истории и философии, 1966, №6, с.73-78.
18. Гуммель Я.И. Археологические очерки /Сборник статей. АН СССР. Азерб.Филиал Института истории. Баку: АзФан, 1940, 166 с.
19. Давудов О.М. Материальная культура Дагестана албанского времени (III в. до н.э. – IV в. н.э.). Махачкала: ДНЦ РАН, 1996, 428 с.
20. Ионе Г.И. Мингечаурские кувшинные погребения с оружием // Краткие сообщения Института истории материальной культуры АН СССР (КСИИМК), 1955, вып. 60, с.54.
21. Казиев С.М. Археологические раскопки в Мингечауре. МКА. Баку, 1949, т. I, с. 9-49.
22. Казиев С.М., Голубкина Т.И. Об одном кувшинном погребении // Известия АН Аз.ССР, 1949, №3, с.74-86.
23. Карахмедова А.А. Об одном типе серег из Кавказской Албании // Советская археология, 1974, №4, с.271-274.
24. Карахмедова А.А. О некоторых памятниках митраизма на территории Кавказской Албании // Известия АН Аз.ССР, Серия истории, философии и права, 1975, №1, с.72-80.
25. Карахмедова А.А. Бусы как один из источников изучения истории Кавказской Албании: Автореф. дис. канд. ист. наук. Ереван, 1978, 24 с.
26. Карахмедова А.А., Рагимова М.Н. Ранние фибулы Кавказской Албании /Материалы

научной сессии, посвящ. 100-летию со дня рождения С.М.Казиева. Баку, 1994, с.98.
27. Кошкарлы К.О. Античная и раннесредневековая торевтика из Азербайджана. Баку: Элм, 1985, 140 с.
28. Кругликова И.Т. Некрополь поселения у дер. Семеновка // Советская археология, 1969, №1, с.98-120.
29. Крупнов Е.И. Новый памятник древних культур Дагестана: Опыт первого исследования Таркинского могильника 1947 г. // Материалы и исследования по археологии СССР, 1951, №23, с.208-225.
30. Кузнецов В.А. Аланские племена Северного Кавказа // Материалы и исследования по археологии СССР, №106, М., 1962, 134 с.
31. Леммлейн Г.Г. Опыт классификации форм каменных бус // Краткие сообщения Института истории материальной культуры АН СССР (КСИИМК), вып.32, 1950, с.157-172.
32. Литвинский Б.А. Украшения из могильников Западной Ферганы. М., 1973, 211 с., 19 табл.
33. Максимова М.И. Стеклянные многогранные печати, найденные на территории Грузии // Известия института языка и материальной культуры (ИИЯИМК) АН Груз.ССР, вып. X, Тбилиси, 1941, с.91-92.
34. Максимова М.И. Геммы из некрополя Мцхета–Самтавро. Раскопки 1938–1939 г./ ВГМГ, ХУГ-В, 1950, т.XVI, с.230.
35. Максимова М.И. Боспорская камнерезная мастерская // Советская археология, 1957, №4, с.75-82.
36. Османов Л.Ф. Некоторые образцы художественного металла Азербайджана античной эпохи / Проблемы азербайджанской археологии и этнографии. Баку, 1995, с.34.
37. Пахомов Е.А. Обследование и раскопки кувшинных погребений Азербайджана // Известия Аз.ФАН СССР, 1939, №3, с.70-74.
38. Пахомов Е.А. Монеты Мингечаура / Материальная культура Азербайджана, Баку: Изво АН Аз.ССР, 1951, т.II, с.141-166.
39. Пахомов Е.А. Монеты Азербайджана. Вып.I., Баку, 1959, 79 с.
40. Пиотровский Б.Б. Древнеегипетские предметы, найденные на территории Советского Союза // Советская археология, 1958, №1, с.20-27.
41. Пятышева Н.В. Ювелирные изделия Херсонеса (Конец IV века до н.э. – IV в. н.э.: Коллекция Гос. ист. музея / Науч. ред. канд. ист. наук Е.И.Крупнов. Труды Государственного исторического музея. Памятники культуры; Вып. 18. М.: Госкультпросветиздат, 1956, 84 с., 8 л. ил. : ил.; 26 см.
42. Рамишвили К.И. О распространении римских и древнеиранских памятников глиптики на территории Грузии / Античность и античные традиции в культуре и искусстве народов Советского Востока. М., 1978, с.110-113.
43. Расулова М.М. Торгово–экономические и культурные связи Кавказской Албании с античным и эллинистическим миром: IV в. до н.э. – III в. н.э. Баку, 2008, 228 с.
44. Расулова М.М. Археологические наблюдения к изучению торговли Кавказской Албании в I–III веках // Ученые записки Азерб. Госуд. университета, серия истории и философии, 1973, №5, с.70.
45. Сымanович Э.А. Египетские вещи в могильнике Неаполя Скифского // Советская археология, 1961, №1, с.270-273.
46. Халилов Дж.А. Римские фибулы из памятников Кавказской Албании и пути их проникновения // Всесоюзный симпозиум по проблемам эллинистической культуры на Востоке (ВСПЭКВ). Тезисы докладов. Ереван, 1980, с.85.
47. Халилов Дж.А. Материальная культура Кавказской Албании (IV в. до н.э. – III в. н.э.). Баку, 1985, 236 с.

Cəbiyev Qafar
AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun "İlk orta əsrlər arxeologiyası" şöbəsinin baş elmi işçisi, tarix elmləri doktoru, professor

MEHRƏVAN – ALBANİYA TARİXİNİN ÖYRƏNİLMƏSİNDƏ YENİ SƏHİFƏ

Cənubi Qafqazın qədim dövlətlərindən olan Albaniya antik və erkən orta əsr mənbələrində göstərildiyi kimi, şimalda Sarmatiya, qərbdə İberiya, cənubi-şərqdə Atropatena, şərqdə isə Kaspi dənizi ilə əhatə olunan geniş bir ərazini tuturdu. Movses Xorenliyə görə, Albaniya bütün Şərqi Qafqaz ərazilərini əhatə edən böyük bir ölkədir. İlk mənbələrin əksəriyyətinin yazdığına görə, Albaniyanın içərisindən keçən Kür çayı onu iki hissəyə bölür [Страбон, 1964, s.475]. Albaniya Kür çayının həm sağ sahil, həm də sol sahilini əhatə edən ayrı-ayrı əyalət və vilayətlərə bölünürdü. Xatırladaq ki, Albaniyanın tarixi coğrafiyasının tədqiqi ilə bu və ya digər dərəcədə məşğul olan tədqiqatçılardan Z.M.Bünyadov [Bünyadov, 1989; Буниятов, 1964, c.87-92], N.M.Vəlixanlı [Vəlixanlı, 1974], V.Piriyev [Piriyev, 2002], M.X.Şərifli [Şərifli, 1962, s.89-93], F.C.Məmmədova [Məmmədova, 1993], Q.Ə.Qeybullayev [Гейбуллаев, 1991] və bəzi digər müəlliflərin ayrı-ayrı inzibati-siyasi vahidlərin lokalizəsi ilə bağlı müəyyən mülahizələri var. Bununla belə, ayrı-ayrı inzibati-siyasi vahidlərin lokalizəsi sahəsində boşluq və kifayət qədər ciddi fikir ayrılıqları da qalmaqaldır. Əfsuslar olsun ki, bir çox hallarda əslində elmə aidiyyatı olmayan diletantlar ağıllarına gələni yazmaqla vəziyyəti daha da mürəkkəbləşdiriblər. Fikrimizcə, Azərbaycanın erkən orta əsrlər dövrünün tarixi coğrafiyasının yazılmasında diqqəti cəlb edən ən ciddi qüsur və çatışmazlıq ilkin mənbə məlumatlarının müasir təbii-coğrafi reallıqlarla, tarixi-arxeoloji abidələrlə, qədim mənşəli toponimlərlə, müxtəlif etnik-milli vahidlərin məskunlaşma arealları və nəhayət, zəngin folklor irsi ilə kifayət qədər əlaqəli şəkildə araşdırılmamasıdır. Hansı ki, ayrı-ayrı inzibati-siyasi vahidlərin tarixi coğrafiyasını yazarkən bu amillər mütləq şəkildə nəzərə alınmalıdır.

Albaniyanın iqtisadi, hərbi, siyasi, dini və mədəni həyatında önəmli yeri olan Girdiman vilayətinin adı ilkin olaraq IV əsrin sonu – V əsrə aid mənbələrdə çəkilir. Koryunun, Favst Buzandın, daha sonra isə Movses Xorenli, keşiş Sebeos və Yelişenin əsərlərində Girdiman haqqında məlumatlara rast gəlirik. Alban tarixçisi Musa Kalankatlının "Albaniya tarixi" əsərində isə Girdiman tarixindən nisbətən daha ətraflı və müfəssəl bəhs olunmuşdur.

Diqqət çəkən odur ki, alban tarixçisinin bu əsərində Gidiman vilayəti ilə yanaşı, Girdiman şəhəri, Girdiman knyazlığı, Girdimandakı müqəddəs Allah evi və nəhayət, Girdiman yepiskopluğu barədə məlumatlara da rast gəlirik. Hansı ki, həmin məlumatların xeyli qismi Girdiman ərazilərinin lokalizəsi baxımından olduqca mühüm əhəmiyyət kəsb edir. Məsələn, M.Kalankatlının yazdığına görə, Sasani hökmdarı II Xosrovun intiqamından qurtulmaq məqsədilə Mehranilər nəslindən olan Mehran 30 minlik ailə ilə qaçaraq Albaniya ərazisindən keçməklə xəzərlərlə birləşmək niyyətinə düşür. Sasani hökmdarı Mehranın bu cəhdinin qarşısını almaq məqsədilə ona aşağıdakı məzmunda məktub göndərir: "Qardaşım, əgər mənimlə bir yerdə yaşamağı xoşlamırsansa, bu məktub sənə çatanda nə qədər yol getmisənsə, Albaniyada yaşamaq üçün özünə bir o qədər torpaq götür" [Kalankatlı, 1993, s.101]. M.Kalankatlının yazdığına görə, bu məktub Mehrana "dərə-təpəli Girdiman vilayətində çatmışdır" və o da "bu yerlərin mülayim təbiətinə nəzər salaraq böyük məmnuniyyətlə orada şəhər salıb onu Mehrəvan adlandırdı" [Kalankatlı, 1993, s.101]. Fikrimizcə, Alban tarixçisinin bu qeydləri Girdimanın məhz Şirvan ərazisində lokalizəsi baxımından mühüm əhəmiyyət kəsb edir. Təkcə ona görə ki, Mehran xəzərlərlə birləşmək məqsədilə şimala doğru irəliləyərkən istər-istəməz məhz Şirvan ərazisindən keçməli idi. Çünki, bu, İrandan Dərbəndə ən yaxın yol idi. Görünür, Mehran və onun tərəfdarları xəzərlərin imperiya ərazilərinə basqın və yürüşlərinin, əsasən məhz bu marşrut üzrə həyata keçirildiyindən də xəbərsiz deyildilər.

Təbiidir ki, alban tarixçisinin bu məlumatı Girdiman vilayətinin, o cümlədən Mehrəvan şəhərinin Şirvan ərazisində olduğunu düşünmək üçün çox ciddi əsasdır. Bu mənada Mehrəvan şəhərinin yerinin müəyənləşdirilməsi də tarxiçi-alimlər qarşısında duran olduqca mühüm elmi əhəmiyyət kəsb edən problem olaraq qalmaqdadır.

Məlum olduğu kimi, ötən əsrin 50-ci illərindən başlayaraq Azərbaycanın qədim və orta əsr şəhərlərinin tarixinin arxeoloji cəhətdən öyrənilməsi istiqamətində geniş miqyaslı tədqiqat işləri aparılmışdır. Lakin bununla belə onu da etiraf etmək lazımdır ki, qədim və orta əsr mənbələrində adı çəkilən, bir qisminin isə, hətta, coğrafi koordinatları bəlli olan neçə-neçə Azərbaycan şəhərinin yeri hələ də elm üçün sirr olaraq qalmaqdadır [Cəbiyev, 2010, s.134-136]. Qədim və orta əsrlərə aid bir sıra şəhər yerləri də mövcuddur ki, onların tarixi mənbələrdə adı çəkilən şəhərlərdən məhz hansının qalıqları olduğunun müəyyənləşdirilməsi də hələlik həllini gözləyən problemlərdəndir.


Mehrəvan da tarixi mənbələrdə, xüsusilə də M.Kalankatlının "Albaniya tarixi" əsərində adı çəkilən, lakin bu günədək dəqiq yeri bəlli olmayan erkən orta əsr Azərbaycan şəhərlərindəndir. Doğrudur, Mehrəvanın lokalizəsi ilə bağlı tarixi-arxeoloji ədəbiyyatda artıq müəyyən ehtimallar söylənilib [Cəbiyev, 2003 s.113-119]. Maraqlı burasıdır ki, hələlik Mehrəvan şəhərinin qalıqları olduğu güman edilən abidələrin hamısı məhz Şirvan ərazisindədir. 2004-cü ildə Ağsu rayonu ərazisində aşkar edilən və bu sətirlərin müəllifi tərəfindən Mehrəvan şəhərinin qalıqları olduğu güman edilən daha bir erkən orta əsr abidəsi – Bəyimli qalası da (Yerli sakinlər bu abidəni Torpaqqala adlandırırlar) bu sıraya əlavə olunmalıdır. Xatırladaq ki, Bəyimli qalası Azərbaycanın arxeoloji xəritəsində Torpaqqala adı ilə bəlli olan üçüncü abidədir. Məlum olduğu kimi, Qax və Tovuz rayonları ərazisində də Torpaqqala adı ilə məlum olan orta əsr abidələri mövcuddur. Torpaqqala adı ilə həmçinin Orta Asiya ərazisində də III–VI əsrlərə aid şəhər olduğu bildirilir.

Qaramərəyəm tirəsindən cənubda, Ağsu rayonunun Bəyimli kəndi ərazisində, Girdiman çayının sol sahilində yerləşən Torpaqqala abidəsinin ərazisi 9 hektara yaxındır (Tablo 1–2). Ətrafı 10–15 m hündürlüyü olan val-qala divarı ilə əhatələnib. Düzbucaqlı formada olan abidənin şimal divarlarının uzunluğu 323 m, cənub divarlarının uzunluğu 295 m, şərq divarlarının uzunluğu 338 m, qərb divarlarının uzunluğu isə 405 m. Küncləərdə hündür bürc yerləri olduğu aydın bilinir. Maraqlıdır ki, qala divarlarının xaric tərəfdən hündürlüyü onun içəri tərəfdən olan hündürlüyündən iki dəfə çoxdur. Bu, qala divarlarının xaric tərəfinin torpağının qazılaraq qala divarı üstünə yığılması nəticəsində belə olub. Beləliklə, qala divarları hündürləşdikcə, onun xarici tərəfi daha da dərinə düşməklə bir növ keçilməz xəndək vəziyyəti almışdır. Bu da sözsüz ki, şəhərin müdafiəsini asanlaşdıran faktorlardandır [Babayev, Əhmədov, 1981, s.26-28; Cəbiyev, 2015, s.25-26].

Bəyimli qalasının əsas giriş qapılarının cənub və qərb tərəfdən olduğu güman edilir. Qalanın ərazisi uzun illər ərzində pambıq və taxıl əkmək məqsədilə şumlanıb. XX əsrin 60-cı illərdə isə üzüm əkmək məqsədilə qala ərazisi təqribən 60–70 sm dərinliyində plantaj edilib. Bu




1



2

Tablo 1.
Bəyimli qalasının (Mehrəvan) səmadan görüntüsü və topoqrafik planı (Ağsu rayonu)

zaman çoxlu maddi mədəniyyət nümunələri üzə çıxıb. Təəccüb doğuran odur ki, illər uzunu belə bir möhtəşəm abidə təsərrüfat işləri zəminində ardıcıl olaraq dağıdılıb, yerli orqanlar isə bütün bunlar barəsində vaxtında əlaqədar təşkilatlara məlumat verməyiblər. Beləliklə də, tariximizin neçə-neçə qiymətli yadigarları əldən-ələ keçərək it-bat olmuşdur. Daha təəccüblüsü odur ki, belə bir mühüm abidə, bütövlükdə, elmi ictimaiyyətin də diqqətindən kənarda qalıb. Yəni, bugünədək nəşr edilmiş tarixi-arxeoloji əsərlərdə, xəritələrdə, ensiklopedik nəşrlərdə, hətta Mədəniyyət Nazirliyinin təsdiq etdiyi və dövlət tərəfindən mühafizə olunduğu bildirilən tarix və mədəniyyət abidələrinin siyahısında belə Bəyimli qalasının adına rast gəlmirik. Onun adı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası ərazisində Dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsü" toplusuna da daxil edilməyib.



Tablo 2.
Bəyimli qalasının (Mehrəvan) bərpa eskizi

Belə bir abidənin mövcudluğu barədə ilk dəfə "Xalq qəzeti"nin əməkdaşı Hacı Qüdrət Piriyevin məlumatı əsasında jurnalist Tahir Aydınoğlu 1991-ci ildə "Kommunist" qəzetində "Torpaqqala – unudulmuş xəzinə" adlı məqalə dərc etdirmişdir [Cəbiyev, 2010, s.136]. 2003-cü ildə Azərbaycan Dövlət Televiziyası tərəfindən "Girdiman" adlı tarixi-sənədli film çəkilərkən bu sətirlərin müəllifinin təşəbbüsü ilə Bəyimli qalası barəsində də həmin filmə süjet daxil edilmişdir. Nəhayət, 2004-cü ilin may ayında bu sətirlərin müəllifinin rəhbərliyi ilə Bəyimli qalasında kəşfiyyat xarakterli ilkin arxeoloji tədqiqat işləri aparılmışdır. Bu məqsədlə təşkil olunmuş ekspedisiya qarşısında hər şeydən öncə abidənin xarakterini və dövrünü müəyyənləşdirmək vəzifəsi dururdu. Həmin məsələlərə aydınlıq gətirmək məqsədilə qalanın cənub-qərb tərəfində, taxıl əkilməyən sahədə dörd yerdə yoxlama qazıntısı qoyuldu. Məlumat üçün bildirək ki, kəndin qəbiristanı olan həmin sahə Bəyimli kənd bələdiyyəsi tərəfindən hasara alınıb və bu səbəbdən də son illər orada təsərrüfat işləri aparılmayıb.


İlkin arxeoloji tədqiqatlar zamanı bəlli oldu ki, ərazidə davamlı olaraq təsərrüfat işləri aparılarkən abidənin mədəni təbəqəsi yer səthindən 45–50 sm dərinliyədək büsbütün dağıdılıb. Həmin qatda nizamsız şəkildə aşkar edilən daş və kərpic töküntüləri, müxtəlif növ maddi mədəniyyət nümunələrinin çoxsaylı fraqmentləri bunu deməyə əsas verir. 50 sm dərinlikdən başlayaraq daş döşəmiş yol və səki qalıqları üzə çıxdı (Tablo 3, Şəkil 2). Dərinlik 90–100 sm-a çatdırıldıqda isə ocaq qalıqları və bir neçə müsəlman qəbri aşkara çıxdı (Tablo 3, Şəkil 1). Tapıntılar içərisində şirsiz keramika

nümunələri çoxluq təşkil edir. Qazıntının yalnız üst qatından qeydə alınan bişmiş kərpic nümunələrinin ölçüləri belədir: 22 x 21 x 6 sm; 25 x 24 x 6 sm.

2004-cü ilin tədqiqatları zamanı qarşıda duran əsas vəzifələrdən birisi də abidənin qala divarları ilə bağlı bəzi məsələlərə aydınlıq gətirməkdən ibarət idi. Bu məqsədlə təbiidir ki, ilk öncə qala divarlarında müvafiq ölçmə işləri aparılması tələb olunub. Daha sonra qala divarı-valı ən yüksək nöqtədən başlayaraq içəri tərəfə doğru 90 sm enində kəsdik. Nəticə gözlənildiyindən də maraqlı oldu. Məlum oldu ki, ilk baxışda qalanın müdafiə sistemi bütünlüklə torpaq valdan ibarət olduğu güman edilsə də, əslində o, bir neçə qat çiy kərpic divardan ibarətdir. Biri digərindən təqribən 1,2–1,5 m məsafədə olan bu divarlar bir-birinə paralel olmaqla pilləvari formada tikilərək arası torpaqla doldurulub. Bu isə nəticə etibarı ilə həm divarların, həm də valın möhkəmliyinə təminat yaradıb. Qala divarlarının tikintisində əsasən 42 x 35 x 15 sm ölçülü və tərkibində saman qatışığı olan çiy kərpic nümunələrindən istifadə olunmuşdur (Tablo 4, Şəkil 2). Ehtimal ki, həmin kərpiclər kənar yerdə deyil, məhz qala divarlarının çöl tərəfi boyunca qazılaraq xəndək vəziyyətinə salınan ərazinin torpağından kəsilmişdir.


Xatırladaq ki, tərkibində saman qatışığı olan bu cür çiy kərpiclər daha çox Sasani dövrünün arxitekturası üçün səciyyəvi olubdur [Cəbiyev, 2005, s.215-226].

2004-cü ilin tədqiqatları zamanı ekspedisiya üzvlərinin diqqətini cəlb edən bir ədəd daş sütun altlığının elmi əhəmiyyəti barədə də danışmağa dəyər. Qalanın cənub tərəfindəki əkin yerindən tapılan həmin sütun altlığı yerli sakinlərin dediyinə görə, 70-ci illərdə ərazi plantaj edilərkən üzə çıxıb və sahəni təmizləmək məqsədi ilə onu kənara tullayıblar. Hündürlüyü 45 sm olan sütun altlığı nisbətən yumşaq tərkibə malik məsaməli daşdan yonulub. Alt hissədə eni 75 sm, üst hissədə isə 65 sm-dir. Xatırladaq ki, forma etibarı ilə Qəbələdən tapılmış antik dövrə aid daş sütun altlıqlarına oxşardır. Fərq burasındadır ki, bu tapıntı Qəbələdən məlum olan nümunələrlə müqayisədə bir qədər kobud hazırlanıb. Bu cür əzəmətli daş sütun altlıqlarından adətən iri ictimai binalarda spesifik arxitektura elementi kimi istifadə olunub.



Tablo 3.
1 – Bəyimli qalası (Mehrəvan). I qazıntı sahəsinin planı və kəsiyi
2 – Bəyimli qalası (Mehrəvan). II qazıntı sahəsinin planı və kəsiyi

2013-cü ildə "Miras" İctimai Birliyinin təşəbbüsü və maliyyə dəstəyi ilə Mehrəvan şəhər yerində yenidən arxeoloji tədqiqatlara başlanılıb. Bu sətirlərin müəllifinin rəhbərlik etdiyi AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Ağsu arxeoloji ekspedisiyası tərəfindən ilkin olaraq kifayət qədər geniş bir ərazidə kəşfiyyat axtarışları aparılmışdır. Axtarışlar nəticəsində orada V–VIII əsrlərə aid xeyli tikinti qalıqları,



Tablo 4.
1 – Bəyimli qalası (Mehrəvan). III qazıntı sahəsinin planı və kəsiyi
2 – Bəyimli qalası (Mehrəvan). IV qazıntı sahəsinin planı və kəsiyi

istehsalat ocaqları və digər maddi mədəniyyət nümunələri aşkara çıxarılmışdır (Tablo 5, Şəkil 2).

Tapıntılar içərisində gildən hazırlanmış bir ədəd iri həcmli saxsı təknə (uzunluğu 130, eni 76, dərinliyi 75 sm) xüsusi ilə diqqət çəkir (Tablo 7, Şəkil 2). Məlumat üçün bildirək ki, belə bir nümunəyə Azərbaycan ərazisində ilk dəfədir ki, təsadüf olunur.

2014-cü ildə Mehrəvan şəhər yerində geniş miqyaslı tədqiqatlara start verildi. İlkin olaraq 1500 kvadratmetr sahədə mədəni təbəqənin təsərrüfat işləri zamanı dağıntıya məruz qalmış üst qatı götürülmüşdür (Tablo 5, Şəkil 1). Tədqiqatlar davam etdirilərkən mədəni təbəqənin dağıntıya məruz qalmayan yerlərində bir-birinin ardınca tikinti qalıqları, istehsalat ocaqları, əsasən də bir sıra lokal xüsusiyyətləri ilə diqqət çəkən keramika, metal və daş məmulatından ibarət çoxsaylı maddi mədəniyyət qalıqları aşkar olundu. Tapıntılar içərisində bir neçə mis və gümüş sikkə də var. Bunlar əsasən Sasani və Bizans pullardır. Həmin tapıntının əlbəttə ki, Mehrəvan şəhərinin tarixinin, onun ticarət və mədəni əlaqələrinin öyrənilməsi baxımından xüsusi əhəmiyyəti var (Tablo 10).

2014-cü il qazıntıları zamanı aşkara çıxarılan bir neçə ədəd zər və nərd daşları da elmi cəhətdən maraq doğurur (Tablo 9, Şəkil 6-7). Ərazidə qeydə alınan çoxsaylı iri təsərrüfat küplərində ərzaq və şərab saxlanıldığı ehtimal olunur (Tablo 6).

Bəyimli qalasında 2015-ci ildə aparılan tədqiqatlar da maraqlı nəticələrlə yadda qalan olmuşdur. Bu cəhətdən qiymətli daşdan ibarət qaşı olan bir ədəd qızıl üzük və qızıl zəncirə aid bir ədəd qızıl həlqə xüsusilə böyük maraq doğurur (Tablo 10).

Bəyimli qalasında aparılmış ilkin arxeoloji tədqiqatlara əsasən aşağıdakı nəticəyə gəlmək olar:

1. Ətrafının ilk orta əsr şəhərləri üçün səciyyəvi olan möhtəşəm qala divarları ilə möhkəmləndirilməsi və içərisində ən azı bir neçə əsr ərzində intensiv həyat olması, külli miqdarda istehsal qalıqları, təsərrüfat və məişət vasitələri tapılması faktı deməyə əsas verir ki, Bəyimli qalası Azərbaycanın ilk orta əsr şəhərlərindən biri olub.

2. Aparılan yoxlama qazıntıları nəticəsində müəyyən olunmuşdur ki, Bəyimli qalası birtəbəqəli abidədir. Orada şəhər həyatı təqribən VI əsrin əvvəllərində başlanıb, IX əsrin əvvəllərində isə həyat dayanıb. Üst qatda bişmiş kərpic nümunələrinin çoxluğu, tək-tək şirli qab fraqmentlərinin tapılması və nəhayət, ilk müsəlman qəbirlərinin mədəni təbəqəni kəsməsi bunu tam təsdiq edir. Başqa sözlə, Bəyimli qalasında həyatın başlaması xronoloji baxımdan Mehranilərin Albaniyaya gəlməsi dövrünə, burada həyatın dayanması isə Albaniya ərazilərinin Xilafət orduları tərəfindən istilasının başa çatdığı dövrə təsadüf edir. Deməli, Bəyimli qalası məhz Mehranilər dövründə əsası qoyulan Azərbaycan şəhərlərindən biridir.

3. Fikrimizcə, Bəyimli qalası əhatə etdiyi xronoloji çərçivə və coğrafi koordinatları etibarı ilə daha çox Mehrəvan şəhərinə uyğun gəlir. Məlum

olduğu kimi, orta əsr mənbələrində adı çəkilən Mehrəvan şəhərinin əsası Mehranilərin Albaniyaya gəlişi zamanı qoyulub.

4. Maraqlıdır ki, Mehrəvan və Girdiman şəhərlərinin adı istisna olaraq ancaq sırf ilk orta əsr mənbələrində, yaxud da bilavasitə ilk orta əsrlərə dair tarixi mənbələrdə çəkilir. Sonrakı dövrlərə aid mənbələrdə isə ümumiyyətlə onların adı çəkilmir. Bu da sözsüz ki, daha çox orada həyatın kəsilməsi ilə əlaqədar ola bilərdi. Görünür, Mehranın vəfatından sonra Mehrəvan adı tədricən unudularaq yerləşdiyi vilayətin, yaxud da sahilində olduğu çayın adına uyğun olaraq "Girdiman" adı ilə tapılıb. Akademik Z.M.Bünyadov Girdimanı "orta ölçüdə olan ikinci kateqoriya şəhərlər, yəni qapalı şəhərlər" sırasına daxil edib. Onun fikrincə, "əldən-ayaqdan uzaq olan yerdə, əsas ticarət yollarından kənarda yerləşən bu şəhər sənətkarlıq və ticarət mərkəzi olmaqdan savayı, hərbi dəstələrin saxlandığı qala olub" [Bünyadov, 1989, s.142]. Akademik N.M.Vəlixanlının fikrincə, yerli hakimlərin hərbi dəstələri ilə yanaşı, onların iqamətgahı da məhz Girdiman şəhərində yerləşirmiş [Azərbaycan tarixi, 1998, s.47]. S.P.Tolstov əl-Məsudiyə istinadən Orta Asiya ərazisində də Girdiman adlı şəhər olduğunu bildirir [Толстов, 1948, с.232]. Deyilənlərə onu da əlavə edək ki, Bəyimli qalasının mövcudluğu ilə, Mehrəvan haqqındakı mənbə məlumatları da xronoloji baxımdan üst-üstə düşür. Əksinə, Bəyimli qalasında həyat kəsildikdən sonra Mehrəvan haqqında məlumatlar da tədricən yoxa çıxır. Bunlar təsadüfdürmü?

5. Nəhayət, Girdiman çayı sahilində, Girdiman feodalları olan Mehranilərin Albaniyada siyasi hakimiyyətə nəzarət etdikləri dövrə aid daha bir möhtəşəm şəhər yeri olduğunun müəyyənləşdirilməsi, fikrimizcə, həm də bütövlükdə Girdiman vilayətinin Albaniyanın qərbində, yaxud da şimal-qərbində deyil, məhz Şirvan ərazisində lokalizəsi ilə bağlı söylənilən mülahizələrin daha inandırıcı olduğuna dair yeni sanballı sübut kimi dəyərləndirilə bilər.

Son olaraq onu da xatırladaq ki, Girdiman vilayəti ərazisinin Albaniyanın qərbində olması barədə tezisi ilk dəfə keçən əsrin 30-cu illərinin sonunda elmi ədəbiyyata gətirən erməni alimi, SSRİ Şərqşünaslıq İnstitutu Qafqazşünaslıq bölməsinin rəhbəri, akademik S.T.Yeremyan olub. Bu isə təbiidir ki, gələcəkdə ermənilərin Azərbaycana yenidən ərazi iddiaları üçün elmi baza yaratmaq niyyəti güdürdü. Doğrudur, 50-ci illrədən başlayaraq bəzi Azərbaycan tarixçiləri bu tezisin əleyhinə çıxsalar da, Moskvadan olan təzyiq və təhdidlər fonunda bu problemə münasibətdə kifayət qədər ardıcıl və prinsipial mövqe nümayiş etdirə bilməyiblər. Məsələn, üç cildlik "Azərbaycan tarixi"nin 1954-cü ildə nəşr olunmuş maketində




Tablo 5. Mehrəvan şəhər yerində kəşfiyyat qazıntıları (2013-cü il)




Tablo 6. Tapıntılar torpaq altında beləcə "uyuyub" (Mehrəvan)

Girdiman əraziləri Şirvan regionunda, daha dəqiq desək Girdimançay hövzəsində lokalizə edilib [Макет. История Азербайджана, с.49]. 1958-ciildə işıq üzü görən üç cildlik "Azərbaycan tarixi"ndə isə Girdiman əraziləri heç bir ciddi əsas göstərilmədən Albaniyanın qərbində lokalizə edilib [Azərbaycan tarixi, 1958, s.113].

Bütün bunlar onu deməyə əsas verir ki, Mehrəvan şəhəri yerinin müəyyən edilərək orada əsaslı elmi tədqiqatlar aparılması bütövlükdə Girdiman vilayətinin Şirvan ərazisində lokalizəsi baxımından da çox ciddi elmi nəticədir. Bu, üzdəniraq erməni tarixçilərinin uzun illərdir ki, Albaniya tarixini saxtalaşdırmaq cəhdlərinin çox ciddi elmi dəlillər əsasında ifşası deməkdir. Bir sözlə, Mehranilər sülaləsinin banisi Mehran tərəfindən VI əsrin əvvəllərində əsası qoyulmuş Mehrəvan şəhərinin yerinin müəyyən edilərək orada əsaslı tədqiqatlar aparılması Albaniya tarixinin dərindən və hərtərəfli öyrənilməsində yeni səhifə kimi dəyərləndirilə bilər.



Tablo 7. Erkən Orta əsrlərə aid keramika nümunələri (Mehrəvan)



Tablo 8. Erkən Orta əsrlərin məişət keramikası (Mehrəvan)



Tablo 9. Erkən Orta əsrlərin sümük məmulatı nümunələri (Mehrəvan)



Tablo 10. Erkən Orta əsrlərə aid qızıl əşyalar, əqiq möhür, mis və gümüş sikkələr (Mehrəvan)

ƏDƏBİYYAT:

1. Azərbaycan tarixi: 3 cilddə. I c., Bakı, Elm, 1958, 447 s.
2. Azərbaycan tarixi: 7 cilddə, II c., Bakı: Elm, 1998, 596 s.
3. Babayev İ.A., Əhmədov Q.M. Qəbələ (tarixi–arxeoloji oçerk). Bakı: Elm, 1981, 93 s.
4. Bünyadov Z.M. Azərbaycan VII–IX əsrlərdə. Bakı: Azərnəşr, 1989, 334 s.
5. Cəbiyev Q.C. Bura Vətəndir. Bakı: Nafta-Press, 2003, 308 s.
6. Cəbiyev Q.C. Bəyimli qalasında ilkin arxeoloji tədqiqatların bəzi nəticələri // Tarix və onun problemləri. BDU-nun elmi əsərləri, 2005, №4, s.215-226.
7. Cəbiyev Q.C. Girdiman tarixi. Bakı: "Şərq-Qərb", 2010, 615 s.
8. Cəbiyev Q.C. Girdiman. Tarixi və tarixi coğrafiyası. Bakı: Elm-Təhsil, 2015, 450 c.
9. Kalankatlı Moisey. Albaniya tarixi. Mxitar Qoş Alban salnaməsi / Tərcümə və qeydlər Z.M.Bünyadovundur. Bakı: Elm, 1993, 269 s.
10. Məmmədova F. Azərbaycanın siyasi tarixi və tarixi coğrafiyası. Bakı: Azərnəşr, 1993, 262 s.
11. Piriyev Vaqif. Azərbaycanın tarixi coğrafiyası. Bakı: Araz, 2002, 152 s.
12. Şərifli M.X. Eyni adlı orta əsr Azərbaycan şəhər və qalaları // Azərb.SSR EA Məruzələri. 1962, XVIII c., №3, s.89-93.
13. Vəlixanlı N.M. IX–XII əsr coğrafiyaşünas–səyyahları Azərbaycan haqqında. Bakı: Elm, 1974, 223 s.
14. Бабаев И.А. Города Кавказской Албании в IV в. до н.э. – III в н.э. Баку: Элм, 1990, 236 с.
15. Буниятов З.М. Албаника III // Изв. АН Аз.ССР, сер. общ. наук. 1964, №4, с.87-92.
16. Гейбуллаев Г.А. К этногенезу азербайджанцев: Историко–этнографическое исследование. Баку: Элм, 1991, 552 с.
17. Макет «История Азербайджана» в 2х томах. Баку, 1954, 349 с.
18. Страбон. География в 17 книгах / Перевод с греческого и коммент. Г.А.Стратановского. М.: Наука, 1964, 944 с.
19. Толстов С.П. По следам древнехорезмской цивилизаций. М.-Л.: Изд. АН СССР, 1958, 323 с.

Əliyev Təvəkkül
AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun
"Çöl tədqiqatları sektoru"nun müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent

NƏRGİZTƏPƏ ARXEOLOJİ KOMPLEKSİNDƏ ALBAN MƏDƏNİ İRSİ

Xocavənd rayonundakı Nərgiztəpə arxeoloji abidələr kompleksi Azərbaycanın maddi mədəniyyət abidələri sırasında xüsusi yer tutur. Bu kompleksin "Nərgiztəpə yüksəkliyi" adlanan mərkəzi abidəsi Qarabağ dağ silsiləsi ətəklərinin Mil düzü ilə kəsişməsində, Honaşen çayından 0,7 km cənub-şərqdə, dəniz səviyyəsindən 217 m yüksəklikdə olan təbii təpə üzərində yerləşir (Şəkil 1). Onun hündürlüyü 8 m, sahəsi isə 1,3 ha-ra yaxındır, koordinatları isə belədir: 39°51'46'' şim. en, 47°12'38'' şim.uzunluq kəsiyi. Hələ XX əsrin ortalarında Azərbaycan (Örənqala) ekspedisiyasının rəhbəri A.A.İyessen Orta Tunc dövrünə və Antik dövr küp qəbirləri mədəniyyətinə aid keramika nümunələrinə əsaslanaraq Nərgiztəpəni çoxtəbəqəli abidə kimi qeydə almışdır [Иессен, 1965, с.19]. Nərgiztəpə yüksəkliyi uzun müddət – 28 il (1992–2020) Yuxarı Qarabağın Azərbaycanın nəzarəti altında qalan bir parçası kimi strateji əhəmiyyət kəsb etmişdir.

Nərgiztəpə arxeoloji abidələr kompleksi diametri təxminən 5 km olan geniş bir sahəni əhatə edir. Burada müxtəlif dövrlərə aid abidələr sanki yan-yana düzülmüşdür. Onlar müdafiə və mülki tikililərdən, yaşayış yerlərindən və müxtəlif tipli qəbir abidələrindən (kurqan, daş qutu, torpaq, küp qəbirlər) ibarətdit. Tikinti materialı kimi qaya parçalarından, yuvarlaq formalı girdə və ağır çay daşlarından, çiy və bişmiş kərpiclərdən istifadə olunmuşdur. Əvvəlki dövrlərin tikinti daşları sonrakı dövr tikililəri üçün inşaat materialı rolunu oynamışdır.

Nərgiztəpə ətrafında aparılan kəşfiyyat-axtarış işləri bu ərazidə Tunc dövrünün sonlarından başlayaraq ardıcıl həyat olduğunu göstərmişdir. Burada Son Tunc və Erkən Dəmir dövrü başlıca olaraq müdafiə divarları, o cümlədən siklopik tikililərlə, qaracilalı yüksək keyfiyyətli saxsı qab nümunələri ilə səciyyələnir. 50 metrdən artıq hissəsi izlənilən qala divarı iri və yonulmamış qaya parçalarından bir cərgə düzülməklə inşa edilmiş, xəndək və torpaq valla əhatələnmişdir. Divarın tikintisində hər hansı bərkidici maddədən istifadə olunmayıb. Bu xüsusiyyətinə görə təsvir olunan divar qalığı Azərbaycanda daha çox "təpəgöz qalaları" kimi tanınan və Naxçıvanda, Qərbi Azərbaycanda, Gədəbəy, Daşkəsən və başqa rayonlarda geniş yayılan klassik siklop tikililəri sırasına daxildir [Расулоглы, 1993]. Qeyd edək ki, son illər Mil–Qarabağ bölgəsində aparılan tədqiqatlar zamanı ilk dəfədir ki, belə istehkam qalığına rast gəlinir.

Erkən alban dövrünə – e.ə. VI–IV əsrlərə aid keramika da keyfiyyəti ilə seçilir. Narın gildən hazırlanıb yaxşı bişirilən bu qabların səthi hamar və şüyrəlidir. Onlar bir çox əlamətlərinə görə Əhəməni dövrü keramikasını xatırladır. Geniş əraziyə yayılan küp qəbirlərdən ibarət nekropol və daş qutu qəbirlər, daş və kərpicdən tikili qalıqları Antik dövrdə və Erkən Orta əsrlərdə Nərgiztəpə ətrafında gur həyat olmasından xəbər verir. Bu dövrə aid maddi mədəniyyət nümunələri, xüsusilə saxsı qablar forma və naxışlanmasına görə öz analogiyasını Mil düzünün digər antik dövr abidələrindən (Qalatəpə, Qaraköbər, Qaraköpəktəpə və b.), o cümlədən Kürün sol sahilində yerləşən abidələrdən, məsələn, Yaloylutəpə tipli keramika məmulatından tapır. Bu isə qeyd olunan dövrdə Şimali Qafqazdan Araz çayınadək geniş ərazilərdə, Kür və Araz çayları hövzəsində vahid alban mədəniyyətinin formalaşdığını göstərir.

Nərgiztəpədən cənubdakı geniş sahədə iri daşlardan inşa olunmuş mürəkkəb quruluşlu, mükəmməl tikili qalıqlarının – divarların izləri müşahidə olunur. İki cəgə iri və yumru çaydaşlarından inşa olunmuş, aralarına xırda daşlar və torpaq doldurulmuş bu divarların əsasən bünövrə hissəsi qalmışdır. İlkin tədqiqatların gedişində eni 1 m olan həmin divarların 60 m yaxın hissəsi təmizlənərək açılmışdır. Onların tikintisində istifadə edilmiş minlərlə ağır çay daşının təxminən bir kilometr

aralıdan keçən Honaşen çayının yatağından gətirilməsi ehtimal olunur. Lakin hazırda həmin çayın yatağında belə daşlara rast gəlinmir. Təmizləmə işləri zamanı divarların ətrafından aşkar edilən saxsı (Şəkil 9) və şüşə qab nümunələri bu tikili qalıqlarının Erkən Orta əsrlərə aid olduğunu təsdiq edir. Sonralar əhəmiyyətini itirən bu ictimai tikililərin daşlarından müxtəlif məqsədlər üçün istifadə olunmuşdur [Əliyev, İbrahimli, Əliyeva, 2015a, s.73]. Məsələn, Nərgiztəpənin cənub ətəyindəki Orta əsr müsəlman qəbirləri həmin daşlarla kromlex şəklində əhatəyə alınmışdır.

Nərgiztəpənin cənub ətəyində bir hektara yaxın ərazidə (150x70m) yerləşən və yerli sakinlərin "Avşar qəbiristanlığı" adlandırdıqları Orta əsr türk qəbiristanlığında 300-dən artıq qəbir qeydə alınmış, onlardan bəzilərinin səthində olan işarə və damğalar, oyma naxışlar tədqiq olunmuşdur (Şəkil 5). Üzərində təsvirlər və epiqrafik mətnlər olan bir neçə sənduqə – qəbirüstü daş mükəmməl sənət nümunəsi kimi diqqəti cəlb etmişdir. XIII–XIV əsrlərdən etibarən baş daşları üzərində epiqrafik mətnlər ərəb qrafikası ilə Azərbaycan dilində həkk olunub. Epiqraf həmkarlarımız, AMEA Milli Azərbaycan Tarix Muzeyinin əməkdaşı Həbibə xanım Əliyeva sənduqələrdən birinin üzərində ərəb qrafikası ilə həkk edilmiş yazını oxumuşdur. Həmin yazıda mərhumun adı – Əhməd oğlu Hüseyn bəy qeyd edilmiş, onun ölüm tarixi kimi hicri 701-ci il, miladi təqvimlə 1302-ci il göstərilmişdir. Bu isə Azərbaycanda monqol Hülakülərin (Elxanilərin) hakimiyyəti dövrünə təsadüf edir [Əliyev, İbrahimli, Əliyeva, 2015b, s.120].

Rəvayətə görə, "Kitabi Dədə Qorqud" dastanlarında təsvir olunan hadisələrin bir çoxu, xüsusilə Qaraca Çobanla bağlı əhvalatlar məhz Nərgiztəpə ətrafında baş verib. Yerli əhali hesab edir ki, burada ayrıca bir təpədə yerləşən qəbir Qaraca Çobana məxsusdur, yuxarıda bəhs olunan iri yumru daşlar isə çobanın daşa dönmüş qoyunlarıdır. Ümumiyyətlə, Nərgiztəpə ətrafındakı toponimlər bu ərazinin qədim oğuz türklərinin yurd yerləri olduğunu göstərir: dastan qəhramanı Qazan xan "Qaraçuğun qaplanı" adlandırılır. Nərgiztəpə yaxınlığındakı Qarabağ dağ silsiləsinə məxsus yüksəkliklərdən birinin adı da məhz "Qaraçuğ"dur. Orta əsrlərdə bu ərazidə Qaraçuğ adlı kəndin olması haqqında məlumat da var [Cəmşidov, 1977, s.44-46; Qeybullayev, 1990, s.150].

Beləliklə, bir tərəfdən, türk mənşəli toponimlər, digər tərəfdən isə Nərgiztəpə ətrafındakı işarəli qəbir daşları, eyni zamanda bölgədə tez-tez rast gəlinən Səlcuq və Eldəniz hökmdarlarının adına kəsilmiş mis sikkələr təsdiq edir ki, VII əsrdən başlayaraq bütün Orta əsrlər boyu bəhs olunan ərazidə aramsız olaraq oğuz türkləri həyat sürmüşlər.

Qarabağda VII əsrdən əvvəl də türk tayfalarının yaşadığını göstərən dəlillər az deyildir. Onlardan biri hun türklərinin adı ilə bağlı olan "Honaşen" hidronimidir. Qarabağ silsiləsinin şərq ətəklərindən başlayan bu çayın (rus dilində "h" hərfi olmadığından o, "Xonaşen" kimi qələmə verilmiş, A.A.İyessen isə onu "Xanaşen" şəklində işlətmişdir) uzunluğu 62 km., Xocavənd və Ağcabədi rayonlarının ərazisindən axır və Azərbaycanın qədim suvarma sistemlərindən olan Gavurarxa çatmadan quruyur. 1727-ci ilə aid sənəddə Bərgüşad mahalında Honabad adlı kənd göstərilib. Keçmiş Mardakertin ilkin adı da bir müddət Hunaşen, yaxud Xonaşen olmuş, Qarabağ düzünün böyük bir hissəsi Xonaşen çölü



Şəkil 1. Nərgiztəpənin şərqdən görünüşü



Şəkil 2. Nərgiztəpədə qazıntı sahəsi



Şəkil 3. Çiy kərpicdən divar qalığı



Şəkil 4. Kərpic döşəmədə ocaq yeri



Şəkil 5. Nərgiztəpənin şərq ətəyində orta əsr və son dövr qəbiristanlığı



Şəkil 6. Qəbir abidələrindən saxsı bardaqlar



Şəkil 7. Boyanaxışlı qabın bir hissəsi



Şəkil 8. Boyanaxışlı qabın bir hissəsi



Şəkil 9. Təsvirli qabın gövdəsindən qırıq

adlanmışdır [Qeybullayev, 1990, s.108]. Deməli, Bizans tarixçisi Feofanın "Xonaşen" adlı yeri "Hun ölkəsi" adlandırması da təsadüfi deyildir [Qeybullayev, 1990, s.108]. Yeri gəlmişkən, qeyd edək ki, "şen" sözü qədim türk mənşəlidir və məskun, əhali yaşayan yer mənasını verir. Məsələn, Xəzər xaqanlığında xaqanın qalası əl-Bayda və ya "ağ qala" mənasını verən Saraşen adlanırdı. VIII əsrin əvvəlində isə bu qala Xanbalıq adlanan böyük şəhərin mərkəzinə çevrilmişdir [Плетнева, 1986, с.5]. "Şen", "şenlik" sözləri məskən, toylu-düyünlü yer mənasında Azərbaycan dilində də çox işlənən sözlərdir. Onu da qeyd edək ki, Azərbaycan xalqının etnogenezində mühüm rol oynamış hun türklərinin Cənubi Qafqazda olmalarına dair hələ III əsrə aid məlumatlar var [Джафаров, 1985, с.16, 23]. Bizans tarixçilərinin əsərlərini və gürcü mənbələrini təhlil edən Z.Bünyadov yazır ki, 576-cı ildə küllü miqdarda Sabir türkləri Gəncə (Sakaşen) sahəsinə köçürülmüş və bunun nəticəsində Kür və Araz çayları arasında Hunlar ölkəsi meydana gəlmişdir [Bünyadov, 2007, s.200].

Hazırda Nərgiztəpə kompleksi olan sahə Antik və Erkən Orta əsrlərdə Albaniyanın iki böyük əyalətinin – aşağı (Otena – Uti) və yuxarı (Orxistena – Arsax) hissəsinin qovşağında yerləşirdi. Bu iki əyalətin qeyd olunan dövrlərdə Albaniya – Arranın tərkibində olmasına dair kifayət qədər tədqiqatlar var [Мамедова, 1987; Bünyadov, 2007; Qeybullayev, 1990, s.117, 124, 200-217; Гейбуллаев, 1991, с.220-229 və b.). F.Məmmədova yazır: "Kürün sağ sahilindəki alban əraziləri dörd iri əyalətə (nəhəngə) bölünmüşdü: Arsax, Uti, Paytakaran və Sünik. Onların da hər biri ayrı-ayrı vilayətlərə bölünürdü [Мамедова, 1987, с.7-8]. Məsələn Erkən Orta əsrlərdə Arsaxın özü 11 vilayətdən ibarət idi [Azərbaycan tarixi, 2007, s.86]. Yunan və Roma tarixçilərinin verdiyi məlumatları təhlil edən F.Məmmədova, Uti və Arsaxın e.ə. I əsrdə işğal edilməsi haqqında iddiaları təkzib edir [Мамедова, 1987, с.11]. Alban tarixçisi Moisey Kalankatuklu isə aydın şəkildə göstərir ki, Alban ölkəsinin sərhəddi Araz çayından Hunan qalasına qədər (Xram çayının Kürlə qovuşduğu yerdə olmuş qala-şəhər) uzanmışdır [Kalankatuklu, 1993, I kitab, V fəsil].

Nərgiztəpədə arxeoloji tədqiqatlar 2013–2015 və 2017-ci illərdə aparılmışdır. Kəşfiyyat-axtarış işləri zamanı bir sıra əməli işlərin həyata keçirilməsində Almaniyalı mütəxəssislər – Azərbaycan-Almaniya beynəlxalq ekspedisiyasının üzvləri bizə yardımçı olmuşlar: Geofiziklər Y.Fasbinder və F.Besker ərazinin maqnitoloji xəritəsini çəkmiş, A.Kvast isə müasir texniki avadanlıqlar vasitəsilə abidənin topoqrafik planlarını çıxarmışdır.

Nərgiztəpə yaşayış məskəninin stratiqrafiyasını müəyyən etmək məqsədilə onun şimal-qərb hissəsində 60 kv.m sahədə (A1 və A2 kvadratlarında) aparılan yoxlama qazıntı işləri bu abidənin əsasən, cəmi 4,6 m qalınlığı olan üç mədəni təbəqədən ibarət olduğunu göstərdi: Tunc və Erkən dəmir dövrü, Antik və Orta əsrlər. Sonuncuya – Orta əsrlərə aid üst mədəni təbəqənin qalınlığı 0,8–1,0 m yaxındır. Bu təbəqədə tikili qalıqları, təsərrüfat quyuları və ocaq yerləri ilə yanaşı şirli və şirsiz saxsı qab qırıqlarına və daşdan əmək alətlərinə təsadüf edilmişdir.

Nərgiztəpədə 1,0–1,05 m dərinlikdən antik təbəqə başlayır. Onun ümumi qalınlığı 2,5 m yaxındır. Əvvəlcə burada, qazıntı sahəsinin şimal-

şərq küncündə 42 x 25 x 13(14) sm ölçülü çiy kərpic hörgüyə, qara və qırmızı cilalı qab qırıqlarına rast gəlinmişdir. Qazıntının şərq divarına yaxın 1,35 sm dərinlikdə möhkəmləndirilmiş torpaq qatı – döşəmə və 7 dəlik – ağac dirəklərin yerləri açılmışdır.

A1 kvadratında 1,5 m dərinlikdə çiy kərpiclərdən səliqə ilə işlənmiş divarın bir hissəsi (3,8 m uzunluğunda olan) üzə çıxarılmışdır (Şəkil 3). Eni 53-54 sm olan bu divar yan-yana iki cərgə – iki müxtəlif ölçülü çiy kərpiclərdən hörülmüşdür. İri kərpiclərin ölçüsü 44-45 x 33-34 x 9-10 sm-dir. Kiçik – ensiz kərpiclərin ölçüsü isə 44-45 x 19 x 9-10 sm-dir. Cüzi bitki qarışığından hazırlanan kərpiclər bir-birinə qalınlığı 2 sm-ə yaxın olan çox möhkəm bərkidici xassəyə malik gil-palçıqla bənd edilmişdir. Antik dövr alban məskənlərindəki tikililərdə kvadrat və uzunsov dördkünc çiy kərpiclərdən geniş istifadə olunmuşdur [Babayev, 1990, s.68]. Qaratəpə yaşayış yerinin (Mil düzü, Beyləqan r-nu) II təbəqəsində (e.ə.V–I əsrlər) deyil, alt – e.ə. VII–VI əsrlərə aid üçüncü təbəqəsində daha çox antik dövr tikililərinə xas ölçülərə malik kərpiclərdən istifadə edilməsi maraq doğurur [Исмизаде, 1965, s.76-83]. C.Xəlilovun fikrincə, Qaratəpənin II təbəqəsi üçün göstərilən tarix dəqiq deyil, çünki, burada e.ə. II–I əsrlərə aid tapıntı görünmür və həmin abidənin bu orta təbəqəsi təxminən e.ə. V–III əsrlərə aid edilə bilər [Халилов, 1984, c.26]. Antik dövr tikililəri üçün səciyyəvi ölçülü kvadrat formalı çiy kərpiclərə (42 x 42 x 14/15 sm; 44 x 44 x 15/16 sm) Mil düzündə Qalatəpə şəhər yerində də rast gəlinmişdir [Əliyev və b., 2013, s.204).

Bəhs olunan divardan 0,6 m altda – 2,1 m dərinlikdəki mədəni təbəqədə 10 kv.m sahə təmizlənərkən 16 ədəd saxsı qab qırığına, bir ədəd iri buynuzlu heyvanın dişinə, 3 ədəd daş alətə təsadüf olunmuşdur. Fraqmentlərdən birinin üzərinə qırmızı boya ilə şaquli istiqamətdə su təsviri olan dalğavari zolaqlardan ibarət naxış vurulmuşdur. Belə naxışa Azərbaycanın digər həmdövr abidələrində də (Qalatəpə, Qaraköbər, Töyrətəpə və b.) rast gəlinir. Antik dövr təbəqəsinin tapıntıları arasında qırmızı boya ilə naxışlanmış qabın gövdəsindən qırıq nəzəri daha çox cəlb etmişdir (Şəkil 7). İri tutumlu saxsı qaba aid süd rəngli bu fraqment keyfiyyətli keramikaya mənsubdur. O, narın gildən hazırlanıb yaxşı bişirilmiş, üzərinə qırmızı boya ilə həndəsi, zoomorf (və antropomorf?) naxışlar çəkilmişdir: qoşa düz xətlərin arasında meandr işarəsi var. Aşağıda yüyənli at və qabağa uzanan kəndir təsvir olunub. Qarşıdakı atın üzərində oturan atlı (burada çox cüzi hissə sezilir) bu kəndirin ucundan tutmuşdur [Əliyev, Əliyev, 2017, s.253, şək. 12). Fraqment bir çox əlamətlərinə görə antik yunan keramikasını xatırladır. Qeyd edək ki, xüsusilə meandr işarəsinə e.ə. V əsr yunan qabları üzərində daha çox rast gəlinir [Кругликова, 1984, рис. 6, 11, 26].

2,2–2,3 m dərinlikdə yerləşən mədəni təbəqədəki antik dövr üçün səciyyəvi olan kvadrat şəkilli (42 x 42 x 14 sm ölçülü) çiy kərpiclərdən inşa olunmuş tikili qalıqları, kərpic döşəmənin ortasında uzunsov dördbucaqlı şəklində (0,8 x 0,4 m) ocaq yeri açılmışdır (Şəkil 4). Ocaq yerinin ətrafından 120-yə yaxın keramika nümunəsinə, daş və sümük alətlərə, osteoloji qalıqlara təsadüf olunmuşdur. Saxsı nümunələri əsasən açıq, boz və tünd qırmızı rəngdədirlər. Onlar narın gildən əldə səliqə ilə hazırlanmış və üzərləri yaxşı şüyrələnmişdir. İri tutumlu qab fraqmentlərinə də tez-tez rast gəlinir. Bu təbəqədən bir ədəd şiş uclu dəmir bıçaq tiyəsi də aşkar olunmuşdur (Şəkil 11, a). Onun uzunluğu 13 sm, mərkəzdə eni 2 sm-dir. Tiyə kül qatı arasında qaldığından yaxşı vəziyyətdədir. Aşkar olunan sümük alətlərdən biri xırda buynuzlu heyvanın lülə sümüyündən hazırlanmışdır. Funksiyası tam aydın olmayan bu əşyanın hər iki tərəfindən izi aydın görünən iti alətlə dəlik açılmışdır (Şəkil 11, b).

Qazıntı sahəsinin antik dövr təbəqəsində (kv. A1, dər. 2,4–2,6 m) yanmış gil parçalarına, küpə oturacağının qırıqlarına, qum qarışığı olan gildən hazırlanmış qabların gövdə hissələrinə təsadüf edilmişdir. Bunlarla yanaşı, həmin təbəqədə narın gildən hazırlanıb yaxşı bişirilmiş və üzərinə qırmızı boya ilə həndəsi xətlərdən (düz, çəpəki, dalğavari)




Şəkil 10. Daş və gildən diyircəklər

naxış vurulmuş nümunələr də vardır. Bu tip naxışlı qablar Albaniyanın istər Kürün sol, istərsə də sağ sahili ərazilərindəki yaşayış yerlərinin və dəfn abidələrinin saxsı məmulatı üçün səciyyəvidir. Boyanaxışlı fraqmentlərə qazıntı zamanı 2,8–3,6 m dərinlikdə yerləşən mədəni təbəqədə də rast gəlinmişdir: şarvari gövdəli kiçik küpənin üzərində qırmızı boya ilə çəkilən zolağın və üçbucaq şəkilli naxışın zəif izi qalmışdır. Qabın hündürlüyü 4,2 sm, oturacağının diametri isə 3 sm-dir.

Araşdırdığımız təbəqənin saxsı məmulatı arasında bir ədəd bütöv halda iy başlığı da var (Şəkil 10, b). Onun bir tərəfi yastı, digər tərəfi isə qabarıq – günbəzvaridir. Diametri 3,3 sm, qalınlığı 1,4 sm-dir. Ortasında deşiyi var. Narın gildən hazırlanıb. Abidənin üzərində qazılmış təxminən 2 m dərinliyində səngər yerindən kənara atılmış torpaqdan götürülən bir ədəd əşya da diqqəti cəlb edir. Bərk cinsli və boz rəngli çay daşından olan bu əşya diyircək (təkər) formasındadır. Ortasında hər iki tərəfdən oymaqla (diametri 4,5 sm) dəlik açılmışdır. Əşyanın diametri 16 sm, qalınlığı 6 sm. Bir kənarında kiçik sınığı var (Şəkil 10, a).

Nərgiztəpənin antik dövr təbəqəsində – 2,5 m dərinlikdə aşkara çıxarılan iri oval daşlardan və çiy kərpiclərdən ibarət eni 2,7 m olan divar qalığı böyük maraq doğurur. Onun 5,2 metrlik hissəsi açılmışdır (Şəkil 2). Düşünürük ki, bu divar Nərgiztəpənin 1,3 ha yaxın sahəsini kəmər şəkilində əhatəyə almış, sonrakı tarixi dövrlərdə – Erkən Orta əsr tikililərində, Orta əsr qəbirüstü kromlexlərdə məhz bu qalanın hörgüsündəki daşlardan istifadə edilmişdir. Onu da nəzərə çatdıraq ki, aşkar olunan divar qalığı, təhlükəsizlik baxımından, bünövrəyədək təmizlənməmiş, onun yalnız üst-üstə iki cərgəsi açılmışdır.



Şəkil 11. Dəmir bıçaq və sümük əşya

Nərgiztəpənin cənub qərb tərəfində çuxurlara və ətrafa səpələnmiş daş və saxsı məmulatına rast gəlinir [Əliyev, İbrahimli, Əliyeva, 2017, s.20-25]. Yağış sularının əmələ gətirdiyi bu çuxurlardan birinin ətrafında 2x2 m sahədə yoxlama şurf qoyulmuş və burada ağzı cənuba, oturacağı isə şimala tərəf olan dəfn küpü açılmışdır. Onun hündürlüyü 1,35 m, gövdəsinin kəsikdə eni 0,8 m, ağzının diametri 37 sm, oturacağının diametri isə 22 sm-dir. Ağızın kənarlarına kəndirvari yapma naxışlar çəkilmişdir. Mərhum dəfn küpünün içərisində sol böyrü üstə bükülü vəziyyətdə, başı küpün ağız hissəsinə doğru, üzü isə qərbə yönəlmiş halda dəfn olunmuşdur. Sümüklər güclü deformasiyaya uğramışdır. Qəbir avadanlığına görə mərhumun qadın olduğunu söyləmək olar. Belə ki, dəfn küpünün içərisində – baş tərəfin ətrafında bütöv halda olan bir ədəd boz rəngli bardağa (Şəkil 6, b), parçalanmış halda olan bir dolçaya, nəfis hazırlanmış qara cilalı kasaya (sınmış haldadır), tunc məftildən düzəldilmiş 4 ədəd qolbağa, bir cüt sırğaya, bir üzüyə və müxtəlif materiallardan olan 90-a yaxın rəngarəng muncuqlara rast gəlinmişdir (Şəkil 12). Bu nümunələr öz oxşarlarını Qafqaz Albaniyasının digər antik dövr küp qəbirlərindən tapır [Qazıyev, 1960, XXXVII tablo; Халилов, 1984, с.140, табл. XXX, 6-7; Ахундова, 2020, с.86, табл. XXII, 9-10, табл. XXVIII].

Nərgiztəpənin cənub–şərq səmtində, “Qaraca Çobanın qəbiri” adlandırılan təpəcikdən 25–30 m şərqdə traktorla qazılan xəndəyin kəsiyində yanmış torpaq və kül qatı izlənilir. Ondan 12 m qərbdə isə xəndəyin kənarına atılan torpaq qalağı üzərinə səpələnm qırmızı boyalı saxsı qabın qırıqlarına rast gəlinmişdir. Narın gildən hazırlanan və çəhrayı rəngdə olan iri tutumlu saxsı qabın gövdəsinə aid bu qırıqların bir çoxunun üzərində qırmızı boya ilə çox zəngin naxışlar çəkilmişdir (Şəkil 8). Bu naxışlar həndəsi – düz, perpendekulyar və kəsişən xətlər, tağlar, təbiət təsvirləri – günəş, dağlar və ağaclar və soomorf – maral (buynuzlu və buynuzsuz) təsvirlərindən ibarətdir. Qabın çiyin hissəsində yerləşən qulpunun üzərinə də qırmızı boya ilə kəsişən zolaqlar çəkilmişdir. Qarabağın antik dövr abidələrindən (Qalatəpədən, Qaraköbər, Qaraköpəktəpə və s.), o cümlədən Mingəçevir qazıntılarından tapılan keramika nümunələri üzərində belə naxışlara, yaxud onun ayrı-ayrı elementlərinə tez-tez rast gəlinir [Qazıyev, 1960, VIII–IX tablolar]. Təəssüf ki, bu nadir sənət incisi olan qabın yalnız bir hissəsi, o da qırıqlar halında (50-yə yaxın) əldə edilmişdir. Bəzi fraqmentlər yaxınlıqdakı Nərgiztəpə yaşayış yerinin qazıntısı zamanı aşkar olunan nümunələrlə oxşardır. Təsvir olunan boya naxışlı qab qırıqlarının səpələndiyi torpaq yığını yanında xəndəyin içərisi yoxlanılarkən gövdəsinin üst və alt tərəfi, demək olar ki, biri-birinə sıxılmış, yapışmış halda olan iri dəfn küpünün qalıqları (insan sümükləri ilə birgə) aşkar edilmişdir. Gələcəkdə bu sahədəki qəbir abidələrinin arxeoloji qazıntılar aparmaqla tədqiq edilməsi antik dönəmdə uzun müddət (bunu mədəni təbəqənin qalınlığı və zənginliyi təsdiq edir) Nərgiztəpədə yaşamış qədim sakinlərin dini görüşlərini, dəfn adətlərini araşdırmağa imkan verəcəkdir.



Şəkil 12. Tuncdan və müxtəlif daşlardan bəzək əşyaları

Nərgiztəpə kompleksinə daxil olan hazırkı ərazidə aparılan ilkin tədqiqatlar, o cümlədən müxtəlif yönlü torpaq işləri gedən sahələrin nəzərdən keçirilməsi göstərir ki, burada küp qəbirlərdən ibarət böyük nekropol yerləşir. Dəfn küplərinin az maili yamacda bərk suxurlu torpaq altında, xeyli dərində yerləşməsi onların salamat qalmasına imkan vermişdir. Gələcəkdə bu nekropolda arxeoloji tədqiqatların aparılması qədim Azərbaycan dövləti olan Qafqaz Albaniyasının siyasi, sosial-iqtisadi və mədəni həyatının öyrənilməsində əhəmiyyətli rol oynaya bilər. Albaniyanın maddi mədəni irsində mühüm yer tutan qəbir abidələrini dərindən araşdıran Q.Qoşqarlının fikrincə, üç qəbir tipi – torpaq, daş qutu və küp qəbirlər bütün Antik dövr boyu istifadə olunmuş və belə dəfn adəti Erkən Orta əsrlərdə də davam etmişdir [Гошгарлы, 2012, с.92]. O, küplərdə dəfnetmə adətinin antik dövrdə çox geniş yayılması fenomeninin öyrənilməsinin hələ qarşıda duran bir məsələ olduğunu bildirməklə yanaşı, ehtimal edilir ki, bu əkinçilikdəki inkişafın yeni mərhələsi və zərdüştlüyün yayılması ilə bağlıdır [Гошгарлы, 2012, с.139]. Azərbaycan ərazisindəki küp qəbirlərin dəfn avadanlığının qonşu Gürcüstan və Ermənistan ərazisindəki komplekslərlə müqayisədə daha zəngin və rəngarəng olması digər tədqiqatçılar tərəfindən də qeyd olunmuşdur [Нонешвили, 1992,

c.117]. M.Xəlilov isə haqlı olaraq qeyd edir ki, antik dövrlə müqayisədə ilk orta əsrlərdə Azərbaycan ərazisində küp qəbir abidələrinin sayı əhəmiyyətli dərəcədə azalmış, küp qəbirlərin arealı müəyyən qədər daralmışdır. Tədqiqatçı bunu IV əsrdə Albaniyada xristianlığın dövlət dini səviyyəsinə qaldırılmasından sonra bütpərəstliyin sıxışdırılması prosesi ilə əlaqələndirir [Xəlilov, 2009, s.31].



Şəkil 13. Pastadan muncuq

2015-ci ilin yayında təsərrüfat işləri zamanı Nərgiztəpənin ətrafında qazılmış xəndəkdən kənara torpaq qarışıq yastı daş lövhələr, müxtəlif saxsı qab nümunələri atılmışdır. Saxsı qablardan biri demək olar ki, bütöv halda qalmışdır (Şəkil 6, a). Sarımtıl rəngə çalan, üç novçalı gen ağıza malik oynoxoya tipli bu qab tərkibində qum qarışığı olan narın gildən əldə hazırlanmışdır. Ağızın diametri 14 sm-ə qədərdir. Çubuqvari qulp qabın çiyin hissəsini ağız hissənin kənarı ilə birləşdirir. Xaşal gövdəlidir, mərkəzdə çevrəsinin uzunluğu 55 sm-ə çatır. Yastı, hətta bir qədər oval olan oturacağının diametri çox kiçikdir – 6,5 sm. Qabın hündürlüyü isə 21,5 sm-dir. Oxşar qablara Azərbaycanda həm antik dövr (məsələn, Yaloylutəpə mədəniyyətinə – e.ə. III–I əsrlərə) [Qazıyev, 1960, s.10, XXII tablo, 1-2 və 5-ci şəkillər; Bədəlov, 2003, s.73-74] həm də erkən orta əsr abidələrindən rast gəlinir. Təsvir olunan bu qabın yanından sədəfdən hazırlanmış, yastı, uzunsov düzbucaqlı şəklində, mərkəzində bir dəliyi olan göyümsov rəngli bir ədəd muncuğa da təsadüf edilmişdir (Şəkil 13). Xəndəyin içərisində üfüqi vəziyyətdə olan bir neçə daş lövhənin kənar hissələri aydın görünürdü. Kənara atılan torpaqda dağılmış vəziyyətdə insan sümükləri də aşkar edilmişdir. Bunlar isə təsvir olunan sahədə üstü daş lövhə ilə örtülmüş torpaq qəbirlərin olmasından xəbər verir. Albanların dəfn adətində digər qəbir tipləri ilə yanaşı daş qutu qəbirlər də geniş yayılmışdı. Erkən orta əsrlərdə də bu ənənə davam etmişdir. Məsələn, Nərgiztəpə ilə qonşu olan Yedditəpə nekropolunda (Füzuli rayonu) belə qəbirlərə rast gəlinmişdir [Xəlilov, 2009, s.37]. Bununla belə, nəzərə almaq lazımdır ki, erkən orta əsrlərin xristian qəbirləri artıq bir qayda olaraq qəbir avadanlığı ilə müşayiət olunmur. Yuxarıda göstərilən əşyalar isə buradakı daş örtüklü torpaq qəbirlərin antik dövrə, yaxud da erkən orta əsrlərin bütpərəst dini ayinləri, dəfn adətləri ilə bağlılığını təsdiq edir. Lakin bu haqda daha tutarlı nəticəni yalnız həmin ərazidə bir neçə qəbirin tam açılıb öyrənilməsindən sonra əldə etmək mümkündür.

Göründüyü kimi, Nərgiztəpə abidələr kompleksi qədim Azərbaycan əhalisinin mədəni təsərrüfat həyatının ən müxtəlif sahələrini işıqlandırmağa imkan verir. İlkin arxeoloji qazıntıların nəticəsi bəhs olunan dövrdə alban mədəni irsinin zənginliyini nümayiş etdirir. Dövrün mürəkkəb ictimai-siyasi mənzərəsinə baxmayaraq, albanlar inşaat sənətində böyük uğurlar əldə etmiş, istər istehkam qurğularının, istərsə də mülki tikililərin mükəmməl nümunələrini yaratmağa nail olmuşlar. Ayrı-ayrı sənət sahələri (xüsusilə dulusçuluq, daşişləmə, sümükişləmə və s.) yüksək səviyyədə inkişaf etmişdir. Yaşayış yerləri və qəbir abidələrinin sıxlığı, həm də Nərgiztəpə və onun ətrafında əhalinin sıx məskunlaşmasından xəbər verir. Bu ərazi geniş tədqiqatlar yolu ilə vahid alban mədəniyyətinin bir modelini yenidən qurmaq üçün əlverişli məkandır.

ƏDƏBİYYAT:

1. Azərbaycan tarixi. Yeddi cilddə: II cild (III–XIII əsrin I rübü). Bakı: Elm, 2007, 608s. + 24 s. illüstrasiya.
2. Bünyadov Z. Azərbaycan VII–IX əsrlərdə. Bakı: Qərb-Şərq, 2007, 424 s.
3. Cəmşidov Ş. "Kitabi-Dədə Qorqud". Bakı: Elm, 1977, 176 s.
4. Əliyev T., Babayev F., Hüseynova T. və b. Qalatəpədə aparılan arxeoloji tədqiqatlar haqqında /Azərbaycanda arxeoloji tədqiqatlar (2012). Bakı, 2013, s.202-207.
5. Əliyev T., İbrahimli B., Əliyeva G. 2015a. Qarabağda Nərgiztəpədə ilkin arxeoloji tədqiqatlar // Azərbaycan arxeologiyası. Cild 18, №1, s.67-75.
6. Əliyev T., İbrahimli B., Əliyeva G. 2015b. Nərgiztəpədə türk-avşar qəbiristanlığı // Azərbaycan arxeologiyası və etnoqrafiyası. №1, s.117-124.
7. Əliyev T., İbrahimli B., Əliyeva G. Qarabağda Nərgiztəpə arxeologi abidələr kompleksi. Bakı: "Mütərcim", 2007, 96 s.
8. Əliyev T. Nərgiztəpənin antik dövr təbəqəsində tədqiqatlar / Beynəlxalq elmi seminar – Qəbələ arxeologiyası. Bakı, 2017, s. 204-209.
9. Əliyev T.R., Əliyev V.T. 2017. Mil-Qarabağ arxeoloji ekspedisiyası Nərgiztəpə dəstəsinin 2015-ci il tədqiqatları / Azərbaycanda arxeoloji tədqiqatlar. Bakı, 2007, s.250-254.
10. Xəlilov M. Albaniyanın qəbir abidələri (IV–X əsrlər). Bakı: "Nafta-Press", 2009, 180s.
11. Kalankatuklu Moisey. Albaniya tarixi. Mxitar Qoş. Alban salnaməsi. Bakı: Elm, 1993, 170 s.
12. Qazıyev S.M. Mingəçevir arxeoloji həfriyyatı. Küp qəbirləri albomu. Bakı: Azərb. EA nəşriyyatı, 1960, 71 s. ill. ilə (27 s. +44 tablo).
13. Qeybullayev Q. Qarabağ. Etnik və siyasi tarixinə dair. Bakı: Elm, 1990, 248 s.
14. Ахундова Г.К. Украшения Азербайджана античного периода. Баку: "Elm və təhsil", 2020, 280 с.
15. Бабаев И.А. Города Кавказской Албании (в IV в. до н.э. – III в. н.э.). Баку: Элм, 1990, 236 с.
16. Бадалов А. Гончарное ремесло Азербайджана античного периода. Баку: Элм, 2003, 186 с.
17. Гейбуллаев Г.А. К этногензу азербайджанцев. Баку: Элм, 1991, 552 с.
18. Гошгарлы Г. Типология погребальных памятников античного периода на территории Азербайджана. Баку: Элм, 2012, 248 с.
19. Джафаров Ю.Р. Гунны и Азербайджан. Баку: Элм, 1985, 124 с.
20. Иессен А.А. Из исторического прошлого Мильско-Карабахской степи / Труды Азербайджанской археологической экспедиции, т.II. М.-Л., 1965, с.10-36.
21. Исмизаде О.Ш. Итоги археологического исследования поселения на холме Каратепе / Археологические исследования в Азербайджане (Сборник статей). Баку: Изд-во АН Аз.ССР, 1965, с.72-86.
22. Кругликова И.Т. 1984. Античная археология. М.: Высшая школа, 1984, 216 с.
23. Мамедова Ф. О некоторых вопросах исторической географии Албании в I в. до н.э. – VIIIв. / Историческая география Азербайджана. Баку: Элм, 1987, с.7-45.
24. Нонешвили А.И. Погребальные обряды народов Закавказья. Тбилиси: «Мецниереба», 1992, 260 с. с ил.
25. Плетнева С.А. Хазары. М.: Наука, 1986, 88 с.
26. Расулоглы Т. Циклопические сооружения на территории Азербайджана. Баку, 1993, 147 с.
27. Халилов Дж.А. Материальная культура Кавказской Албании IV в. до н.э. – III в. н.э.). Баку: Элм, 1984, 236 с.

İsgəndərov Emil
AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun "Antik dövr arxeologiyası" şöbəsinin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru

ŞİMALİ AZƏRBAYCAN VƏ ƏHƏMƏNİLƏR: PROBLEMLİ MƏSƏLƏLƏRİN QOYULUŞU

Şimali Azərbaycan ərazisində e.ə. IV əsrin sonları – III əsrin əvvəllərində Qafqaz Albaniyası dövləti yarandı. Bunu həm yazılı mənbələr, həm də Alban abidələrində aşkarlanmış arxeoloji materiallar təsdiqləyir [Бабаев, 1976, с.40-51]. Qafqaz Albaniyası əsasən müasir Azərbaycan Respublikasının ərazisini, Şərqi Gürcüstanın bir hissəsini (Alazan vadisi), müasir Ermənistanı və Cənubi Dağıstanı əhatə edirdi.

Alban dövlətinin qədim dövrünü işıqlandıran yazılı mənbələr əsasən yunan-latın müəllifləri tərəfindən təsvir olunmuşdu və məlumatları əhalinin sosial–iqtisadi və siyasi həyatının bütün spektrini əhatə etmədiyindən tarixçilər üçün böyük boşluq yaradırdı, belə ki, müəyyən dərəcədə ziddiyyətli və natamam olan bu məlumatlar albanşünaslıq üzrə tədqiqatçılar tərəfindən müxtəlif cür interpretasiyalara şərait yaradırdı [Алиев, 1975, с.150-165].

Albaniya ərazisində müxtəlif qəbilələrin yaşadığı haqqında bizə Strabon məlumat verir: "Artıq hamıya bir hökmdar hökmranlıq edir, lakin əvvəllər öz ləhcəsi olan hər bir kiçik xalqın öz hökmdarı var idi; ləhcələrinin sayı isə iyirmi altıdır" [Страбон, XI, IV, 6]. Şübhəsiz, Strabonun dövrünə kimi bu qəbilələr artıq çoxdan albanların rəhbərliyi altında birləşmişdi. Maraqlısı odur ki, albanlar özləri tarixi arenaya ilk dəfə Makedoniyalı İsgəndərin Şərqə yürüşü ilə əlaqədar olaraq, məhz Qavqamel döyüşü zamanı meydana çıxdılar.

Bu hadisələri işıqlandıran Appian öz əsərində Qavqamel döyüşü zamanı albanların qoşun dəstəsinin olduğunu bildirir. Albanlarla yanaşı, gələcək Albaniyanın ərazisində yaşayan digər qəbilələrin də adı çəkilir [Аппиан, 1962, III, 8; 13].

Böyük Plini öz əsərində Makedoniyalı İsgəndərlə alban hökmdarının münasibəti haqqında və sonuncunun İsgəndərə it hədiyyə etdiyi barədə yazır [Гай Плиний Секунд, VIII, 149]. Bu məlumata Solinin də əsərində rast gəlinir. Bu əsər prinsipcə kompilyativ hesab olunur və çox güman ki, bu məlumat elə Böyük Plininin əsərindən götürülüb [Гай Юлий Солин, XV, 6].

Bu baxımdan tarixi (Şimali) Azərbaycanın Albaniya dövləti formalaşmazdan əvvəlki siyasi tarixi mühüm məsələ təşkil edir: bu ərazilərin Əhəmənilər dövləti ilə bağlı rolu nədən ibarət idi?

Məlum olduğu kimi, Əhəmənilər sülaləsinin nümayəndəsi II Kir e.ə. VI əsrin ortalarında Midiya çarlığına son qoyaraq yeni imperiya olan Əhəmənilər imperiyasının əsasını qoydu. II Kirin əsasını qoyduğu bu dövlət onun gələcək nəsli tərəfindən uğurla genişləndirildi. Əhəmənilər dövləti özünün ən qüdrətli çağına fəaliyyəti xüsusən Bisütin kitabəsində əks olunmuş I Daranın hakimiyyəti dövründə çatdı. Onun hakimiyyəti Herodotun "Tarix" əsərində kifayət qədər yaxşı işıqlandırılmışdır. Herodot Əhəməni hökmdarının dövlətin ərazisini 20 satraplığa ayırdığını xüsusilə qeyd edib. Hər bir satraplığa müəyyən xalqlar və vilayətlər daxil idi və bu satraplıqlardan hər biri əvvəlcədən müəyyən edilmiş məbləğdə xərac verməli idi. Burada Herodotun bu satraplıqların tərkib xüsusiyyəti haqqında verdiyi məlumat əhəmiyyət kəsb edir: "Bir çox qonşu xalqlar bir satraplıqda birləşmişdi, bəzən isə yaxın qonşulardan əlavə digər, daha uzaq satraplığın xalqları da ona birləşirdi" [Геродот, 1999, III, 89]. Satraplıqların sərhədləri imperiya daxilində yaşayan xalqların etnosiyasi sərhədləri ilə uyğun gəlmirdi.

Digər mühüm məsələ isə imperiyanın şimal sərhədləri ilə, məhz Cənubi Qafqaz torpaqlarının Əhəmənilər dövlətinin tərkibinə daxil olub-olmadığı və əgər daxil idisə hansı satraplıqlarda təmsil olunduğu ilə bağlıdır. Herodot yazırdı: "Hətta kolxlar və onların Qafqaz sıra dağlarına qədər uzanan ərazilərdə yaşayan qonşuları (axı burada həmin vaxta qədər Fars (İran) dövləti mövcud idi, Qafqazdan şimaldakı vilayətlər isə artıq farslara tabe deyildi)

könüllü bəxşişlər formasında xərac verirlər. Belə ki, bu xalqlar indi də hökmdara 100 oğlan və 100 qız göndərirlər" [Геродот, 1999, III, 97].


Herodotun bu məlumatı tədqiqatçılar tərəfindən müxtəlif cür interpretasiya olunmuşdur. Cənubi Qafqazda Əhəmənilər dövlətinin arxeoloji mövcudluğuna dair uzun müddət dəlillərin olmaması bu ərazilərin Əhəmənilər dövlətinin tərkibinə daxil olduğundan şübhə etməyə əsas vermişdir. Arxeoloji mövcudluq deyildikdə ayrı-ayrılıqda tapılmış əşyalar və hətta Əhəmənilərin burada yaşayan xalqların mədəniyyətinə təsiri nəzərdə tutulmurdu. Burada söhbət birbaşa inzibati tikililərin mövcud olmasından gedir - bu cür tikililər Qafqazda Əhəmənilərin mövcudluğunun bariz sübutu ola bilərdi. Şübhəsiz, Əhəməni çevrəsinə aid bu və ya digər predmetlər hədiyyə və ya mübadilə məhsulu kimi gəlib buralara çıxa bilərdi. Eyni şeyi mədəniyyətin təsiri haqqında da demək olar, belə ki, bu və ya digər xalqlar hər hansı mədəniyyətin tərkibində olmadan da onun təsirinə məruz qala bilərlər. İnzibati tikililərin mövcudluğu isə Əhəmənilərin siyasi hökmranlığını təsdiqləyəcək daha əsaslı sübut qismində çıxış edə bilər.

Tarixi Azərbaycan ərazisində Əhəmənilərə aid inzibati tikililərin qalıqları ilk dəfə Qazaxda aşkarlanmışdır. Arxeoloji qazıntılar nəticəsində burada iki hissədən ibarət tikilinin salamat qalmış hissəsi aşkarlandı (I Şəkil:1). Tikilinin Əhəməni memarlıq elementləri ilə bənzər xüsusiyyətləri dərhal nəzərə çarpırdı. Çiy kərpicdən hörülmüş salamat qalmış divarlardan başqa burada Persopolis variantı adlandırılan zəng tipli iki daş sütun altlığı da aşkarlandı (II Şəkil:2) [Нариманов, 1960, с.162-164; Исмаилзаде, 2002, с.30-38]. Bu tikilinin memarlığı ilə bağlı təfərrüatlara girmədən qeyd edək ki, aşkarlanmış qalıqlar tarixi Azərbaycan ərazisində Əhəməni hökmranlığının arxeoloji izlənilməsi məsələsində ilk ciddi işarə oldu.


Təəssüf ki, Sarıtəpədəki tikilinin qalıqları tam qorunub saxlanılmayıb. Bu sarayın böyük hissəsi kərpic istehsal edən zavodun gördüyü işlər zamanı dağılmışdı.

Qaldırılan məsələdə Qaracəmirli kompleksinin qazıntılarının nəticələri mühüm rol oynadı. Qaracəmirli kompleksi Azərbaycan Respublikası Şəmkir rayonunun Qaracəmirli kəndinin yaxınlığında yerləşir. Bu abidədə arxeoloji qazıntılar 2006-cı ildən başlayaraq aparılmışdır və bugünədək davam edir [Искендеров, Кнаусс, Каниут, 2019, с.115-128; Babayev, Gagosidse, Knauß, 2006, s.291-330; Knauss, Babayev, s.111-122; Babayev, Knauß, Bär…, 2010, s.237-266; Knauß., Gagosidze, Babayev, 2013, s.1-28].

Tədqiqatlarımızın hazırki mərhələsində demək olar ki, Qaracəmirli kompleksi öz aralarında qarşılıqlı əlaqəli olan bir neçə tikilidən ibarətdir. Kompleksdə əsas yer Qurbantəpə adlandırılan təpədə yerləşən saray binasına, həmçinin İdealtəpə adlandırılan təpədə yerləşən propileyə məxsusdur – saraya əsas yol buradan gedirdi. Sarayın ölçüləri kifayət qədər böyükdür.



1




2

I Şəkil:
1. Sarıtəpədəki tikilinin salamat qalmış hissəsinin planı;
2. Sarıtəpədəki sütun altlıqları (İ.Q.Nərimanovun "Azərbaycanda tapılmış e.ə. V–IV əsrlərə aid sütun altlıqları" məqaləsindən // CA, 1960 № 4, c.162-164)



1



2

II Şəkil:
1. Qaracəmirli kompleksinə daxil olan abidələrin ümumi planı;
2. Qurbantəpədəki sarayın planı

Kompleksə əsas saraydan başqa Rizvantəpə, İdealtəpə, Şimal kompleksi və s. kimi tikililər də daxildir (II Şəkil:1).

Qeyd etmək lazımdır ki, Qaracəmirli kompleksi unikaldır və Cənubi Qafqaz ərazisində analoqu yoxdur. Qurbantəpədə əsas sarayın qazıntıları nəticəsində bu tikilinin planını demək olar ki, tam yenidən tərtib etmək mümkün oldu (II Şəkil:2). Maraqlısı odur ki, sarayın ərazisində nisbətən az miqdarda artefakt tapılıb. Bundan başqa, tamamlanmamış sütun altlıqlarının olması xüsusi diqqət çəkir. Daşyonan ustalar yerində işləyir və sütun altlıqlarını sarayda hazırlayırdılar. Qurbantəpə sarayı həmçinin burada müxtəlif növ - birpilləli, ikipilləli və zəng tipli – sütun altlıqlarının aşkarlanması ilə diqqətəlayiqdir (III Şəkil:1, 2; IV Şəkil:1-3). Təəssüflə qeyd etməliyik ki, heç də bütün sütun altlıqları qorunub saxlanılmayıb. Giriş zalında yerləşən sütun altlıqlarının böyük qismi daha sonralar dağıdılıb.

Bizə elə gəlir ki, tarixi Azərbaycan ərazisində bu cür kompleksin mövcudluğu bu ərazilərin Əhəmənilər dövlətinin tərkibinə daxil olması ilə bağlı şübhələrə yer saxlamamalıdır. Qeyd etmək lazımdır ki, Qaracəmirli kompleksi coğrafi yerinə görə Sarıtəpədəki sarayın nisbətən yaxınlığında yerləşir. Əlavə olaraq Cənubi Qafqaz ərazisində aşkarlanmış digər bənzər abidələri – Əhəmənilərə aid Qumbati və ya Bencamin tikililərinin qalıqlarını da - nəzərə aldıqda Cənubi Qafqazda Əhəmənilərin hökmranlığına dair yetərincə aydın mənzərə formalaşır.

Lakin burada yeni suallar yaranır: 1) abidələrin və ilk növbədə Qaracəmirli kompleksinin tarixinin müəyyən olunması. Belə ki, bu kompleks ölçüsünə, qorunub saxlanılmasına və müvafiq olaraq əhəmiyyətinə görə digər abidələrdən üstündür; 2) bu saraylar bir-birinə olduqca yaxın yerləşir; Kür çayından yuxarıda bənzər abidələrin olmaması nə ilə bağlıdır?; 3) bu ərazilər nə vaxt Əhəmənilər dövlətinin tərkibinə daxil oldu?; 4) bu ərazilər, ilk növbədə isə tarixi Azərbaycan ərazisi hansı satraplıqlara daxil idi?.

Qaracəmirli kompleksinə daxil olan əsas saray Kserksin Persepolisdəki sarayı ilə çox yaxın xüsusiyyətlərə malikdir [Искендеров, Кнаусс, Каниут, 2019, с.118; Knauss, Babayev, 2016, c.70-76]. Bu bənzərliklər həmin tikilinin Kserksin dövründə tikildiyindən xəbər verə bilər. Lakin şübhəsiz, bu bölgə daha erkən, böyük ehtimalla I Daranın dövründə işğal olunmuşdu. Kserksin sarayının demək olar ki, təqlidi olan Qurbantəpədəki sarayın tarixi müvafiq olaraq onun hakimiyyətdə olduğu illərlə üst-üstə düşməlidir, lakin zənnimizcə, kompleksin tikintisinə daha erkən, artıq Daranın dövründə başlanılıb. Kserksin dövründə kompleksin tikintisi yəqin ki, davam etdirilib və böyük ehtimalla sarayın özünün tikintisinə başlanılıb. Demək istəyirik ki, əsas sarayın tikintisinə Rizvantəpə və ya İdealtəpə və s. kimi kompleksdəki digər tikililərdən sonra başlanılıb. Lakin bütün bunlar yalnız fərziyyədən ibarətdir və əlavə araşdırma tələb edir. Zənnimizcə, bu sarayın tikintisi hətta yuxarıda deyildiyi kimi Kserksin dövründə də baş tutmayıb. Düşünürük ki, bunun müxtəlif səbəbləri ola bilərdi. Bu bir tərəfdən Kserksin özünün imperiyanın mərkəzindəki tikinti fəaliyyəti ilə bağlı ola bilərdi, digər tərəfdən isə buna imperiyada baş verən siyasi hadisələr, daha doğrusu Kserksin mübarizə aparmalı olduğu üsyanlar səbəb ola bilərdi [Дандамаев, Луконин, 1980, с.106-107].

Qeyd olunduğu kimi, Əhəmənilər dövrünə aid əsas tikililər Kür çayından aşağıda yerləşir. Şübhəsiz, Kür çayı çox böyük əhəmiyyət kəsb edir, o cümlədən nəqliyyatda mühüm rol oynayırdı. Bundan başqa Kür şimaldan gələn hücumlara qarşı da təbii sədd rolunu oynayırdı Lakin zənnimizcə burada daha vacib bir nüans var . Satraplıq saraylarının Azərbaycan ərazisində yerləşməsi seçimi bu ərazilərdə skif tayfalarının kompakt yaşaması ilə bağlı ola bilərdi. Elmi ədəbiyyatda artıq uzun müddətdir ki, e.ə. VII əsrdə tərkibinə bir çox tədqiqatçıların fikrincə Kürdən cənubdakı torpaqların da daxil olduğu Skif çarlığının mövcudluğu ilə bağlı mübahisələr davam etməkdədir. Lakin bu fərziyyənin də əleyhdarları var [Дьяконов, 2008, с.255-266; Алиев, 1979, с.4-14; Халилов, 1971, с.183-187]. Mübahisənin detallarına girmədən qeyd edək ki, burada adı çəkilən çarlığın mövcud olub-olmamasından asılı olmayaraq, bu ərazidə skiflərin bir hissəsi və ya onlarla qohum olan kimmerlər məskunlaşa bilərdi. Skiflərin məişət əşyalarının tapıntıları Qazaxda da, Şəmkirdə də, Mingəçevirdə də aşkarlanmışdır. Strabon Sakasena vilayətinin adını çəkir [Страбон, XI, VIII, 4]. Sakasenlərin adı bundan əlavə Qavqamel döyüşündə albanlarla yanaşı çəkilir [Аппиан, III, 8]. Ola bilsin ki, satraplıqların mərkəzi tikililərinin inşası üçün yer seçimi məhz skiflərin və ya onlara qohum olan qəbilələrin yaşadığı ərazilərdə siyasi möhkəmlənmə ilə bağlı idi.

Herodot ola bilsin ki tarixi Azərbaycan ərazisində yerləşmiş və ya qeyd olunan əraziləri əhatə edən bir neçə satraplığın adını çəkir. Azərbaycanın bu əraziləri "a priori" X, XI və XV satraplıqların tərkibinə daxil ola bilərdi. Herodota əsasən X satraplığa aşağıdakı ərazilər daxil idi: "Ekbatan, Midiyanın qalan hissəsi, parikanilər və ortokoribantilər", "kaspilər, pavsiklər, pantimatlar va dareytlər" XI satraplığa daxil idilər, XV satraplığa isə "saklar və kaspilər" daxil idilər [Геродот, III, 92-93].

Qeyd etmək lazımdır ki, Herodotun siyahısında albanlar haqqında heç nə deyilmir. Bunun müxtəlif səbəbləri ola bilər. Belə ki, bir sıra tədqiqatçının fikrincə albanlar kaspi adı altında gizlənə bilərdi [Тревер, 1959, с.30]. Bununla əlaqədar maraqlı fərziyyə Q.Qoşqarlı tərəfindən irəli sürülmüşdür. Onun fikrincə albanlar adətən tabe xalqların ödədiyi xəracdan azad olunduqlarına görə ola bilsin ki, onların adı çəkilməyib. Tədqiqatçının fikrincə, bu, köçərilərin mümkün yürüşləri ilə əlaqədar olaraq albanların şimal sərhədlərinin müdafiəsinə cəlb olunması ilə əlaqədar idi [Гошгарлы, 2012, с.225-230; Гошгарлы, 2001, с.143-145].

XI və XV satraplıqlarda kaspilərin adı çəkilir. Kaspilərin adı daha əvvəl Elefantin adasında tapılmış arami dilindəki qeydlərdə də çəkilir [Меликов, 2003, с.91-102]. Onlar haqqında məlumatlara Strabonun əsərlərində də rast gəlinir.

XI və XV satraplıqlarda ortokoribantilərin və sakların adı çəkilir. İ.M.Dyakonov Herodotun ortokoribantilərin adını qədim fars dilində "sivri uclu" mənası verən "tigraxauda" sözündən birbaşa tərcümə etdiyini qeyd edərək Midiya satraplığında skiflərin məskunlaşdığından xəbər verir [Дьяконов, 2008, с.260]. Müəllif bu "sivri ucluları" antik mənbələrdəki sakasenlərlə eyniləşdirir [Дьяконов, 2008, с.437] və bu tayfaların yerləşdiyi ərazinin – Sakasenanın "Kürün orta axınından cənubda, təqribən indiki Gəncə ərazisində" yerləşdiyini qeyd edir [Дьяконов, 2008, с.262].



III Şəkil:
1. Qurbantəpədəki zəng tipli altlıq
2. Qurbantəpədəki ikipilləli altlıqlar



IV Şəkil:
1, 2, 3 - Qurbantəpədəki çiy kərpicdən divarlar və sütun altlıqları.

"Sivri uclu" sakların Azərbaycan ərazisində məskunlaşması ilə digər tədqiqatçılar da razılaşır [Алиев, 1989, с.51; Меликов, 2003, с.49]. Elmi ədəbiyyatda "sivri uclu" sakların adətən Orta Asiya ərazisində məskunlaşdığı qeyd olunur və ümumiyyətlə Herodotun məlumatları yanlış hesab edilir. İ.M.Dyakonov bu məsələyə toxunaraq "sivri uclu" sakların Midiya və ya Kiçik Asiya ərazisində məskunlaşmasının böyük ehtimalla sadəcə yürüşlər zamanı müxtəlif yerlərdə məskunlaşmaları ilə bağlı olduğunu qeyd edir [Дандамев, 2013, с.193]. Lakin "sivri uclu" skiflərin Orta Asiyada məskunlaşdığına dair fərziyyənin tərəfdarları onların Midiya ərazisində yaşadıqları fikri ilə razılaşaraq bunu, onların Midiyaya məhz Orta Asiyadan gəlməsi ehtimalı ilə əlaqələndirirdilər [Балахванцев, 2019, с.260-261].

Rauf Məlikovun fikrincə vaxtilə Skif çarlığını yaratmış "Zaqafqaziya sakları" Herodotun X satraplıqda adını çəkdiyi saklardır. Müəllifin fikrincə kaspilərlə birlikdə adı çəkilən kaspilər sonuncular kimi gəmiçilik işi ilə məşğul idilər ki, bunu qismən Kambiazın dövrünə aid babil mətnləri də təsdiqləyir. Bu qeyddə adı çəkilən saklar elə "Zaqafqaziya sakları"dır [Меликов, 2003, с.103]. M.A.Dandamayev isə hesab edir ki, saklar gəmilərdə farslar və midiyalılarla yanaşı mümkün qiyam hallarında "gəminin mühafizəsi" ilə məşğul olurdular [Дандамаев, 2013, с.203].

Tarixi Azərbaycan ərazilərinin ehtimalla daxil olduğu daha bir satraplıq Herodotun fikrincə "Saqartilər, saranqlar, famaneylər, utilər, miklər və Qırmızı dəniz adalarının sakinlərinin" daxil olduğu XIV satraplıq idi [Геродот, III, 93]. Herodotun adını çəkdiyi utilər haqlı olaraq sonrakı yunan-latın mənbələrinin Albaniya ərazisində adlarını çəkdiyi utilərlə eyniləşdirilir. Bu satraplıqda yaşayan müklərin adı isə tədqiqatçıların fikrincə qismən Muğan vilayətinin adında qorunub saxlanılıb. Buna əsasən, Kür çayından cənubdakı Azərbaycan ərazisinin də XIV satraplığın tərkibinə daxil olduğu ehtimal olunur [Меликов, 2003, с.117, 122]. Ola bilsin ki, vaxtilə Qaratəpədəki tikilinin aşkarlanmış qalıqları bu satraplığın inzibati binasının qalıqları olub [Исмизаде, 1965, с.72-86].

Beləliklə, yuxarıdakı mətndən də göründüyü kimi, tarixi Azərbaycan ərazisində Herodotun adını çəkdiyi bir neçə satraplığın yerləşməsi mümkündür. Şübhəsiz, bu məsələ əlavə araşdırılmalıdır. Bununla yanaşı, Şimali Azərbaycan ərazisində şübhəsiz, satraplıqların mərkəzləri olan və Əhəmənilərə aid bir neçə inzibati binanın mövcudluğu gələcəkdə bu problemin həllinə kömək edə bilər.

Şimali Azərbaycanın Əhəmənilər dövlətinin tərkibinə daxil olan əraziləri bu dövlət dağıldıqdan sonra Albaniya dövlətinin əsas hissəsini təşkil edirdi. Burada kök salmış Əhəməni mədəniyyətinə sonralar da rast gəlinir. Şübhəsiz istər Şimali, istərsə də Cənubi Azərbaycan ərazisində yaşayan tayfalar bu mədəniyyətin formalaşmasında mühüm rol oynamışlar. Bununla yanaşı qeyd etmək lazımdır ki, Azərbaycanda Əhəmənilərin memarlıq ənənəsi davam etdirilmir. Albaniyada Əhəmənilər imperiyasının süqutundan sonrakı dövrlərdəki tikililər əhəmiyyətli dərəcədə fərqlənir. Misal olaraq Qəbələdəki oval formalı tikililəri göstərmək olar [Babayev, 2010, s.183-186; Babayev və diq., 2012, s.213-219; Бабаев, 1990, с.62-101].

Zənnimizcə, istər Şimali, istərsə də Cənubi Azərbaycan ərazisinin Əhəmənilər imperiyasının tərkibinə daxil olması ilə bağlı sual şübhə doğurmamalıdır. Bu imperiyanın parçalanması nəticəsində tarixi Azərbaycan ərazisində Albaniya və Atropatena kimi dövlətlər formalaşdı. Təəssüflər olsun ki, yazılı mənbələr heç də bizi maraqlandıran bütün məsələləri işıqlandırmır. Nəticədə burada arxeoloji tədqiqatlar mühüm rol oynayır. Gələcək arxeoloji qazıntılar bu sahədə biliklərimizi genişləndirməyə imkan verəcəkdir.

ƏDƏBİYYAT:

Mənbələr:

1. Аппиан. Поход Александра. М.-Л.: Изд-во Академии наук СССР, 1962, 384 с.
2. Гай Плиний Секунд. Естественная история // ВДИ, 1949, №2, с.273-317.
3. Гай Юлий Солин. Сборник достопримечательностей // Известия древних писателей греческих и латинских о Скифии и Кавказе. Перевод В.В.Латышева. Том II. Латинские писатели. Выпуск 2. Спб.: Типография Императорской Академии Наук, 1906, 454 с.
4. География Страбона в семнадцати книгах / Перевод Р.Г.Мищенка. М., 1879, 1177 с.
5. Геродот. История в девяти томах / Пер. и примеч. Г.А.Стратановского М.: Аст, 1999, 752 с.
6. Страбон. География // ВДИ 1947, №4, с. 177-266.

Ədəbiyyat:

7. Babayev *İ.* Qəbələ arxeoloji ekspedisiyasının antik Qəbələ dəstəsinin 2009-cu ildə apardığı *çöl-tədqiqatlat* işləri haqqında// Azərbaycanda arxeoloji tədqiqatlar – 2009. Bakı: *«Xəzər* Uniiversiteti», 2010, s.183-186.
8. Babayev İ.A., İskəndərov E.Ə., Alışov N.Ə., Mustafaev L.X., İsmayılov R. Qəbələ arxeoloji ekspedisiyası antik Qəbələ dəstəsinin çöl-tədqiqat işləri haqqında // Azərbaycanda arxeoloji tədqiqatlar – 2011. Bakı: «Xəzər Uniiversiteti», 2012, s.213-219.
9. Алиев И.Г. К интерпретации параграфов 1, 3, 4, и 5 IV главы XI книги «Географии» Страбона // ВДИ, 1975 №3, с.150-165.
10. Алиев И. О скифах и скифском царстве в Азербайджане // Переднеазиатский сборник III. М.: «Наука», 1979, с.4-14.
11. Алиев И.Г. Очерк истории Атропатены. Баку: Азернешр, 1989, 160 с.
12. Бабаев И.А. Города Кавказской Албании в IV в. до н.э. – III в. н.э. Баку: Элм, 1990, 236 с.
13. Бабаев И.А. К вопросу о возникновении государства Албании (Кавказской) // Изв. АН Аз.ССР. Серия истории, философии и права,1976, №4, с.40-51.
14. Балахванцев А. Массагеты Геродота и саки тиграхауда ахеменидских надписей: соотношение и локализация / Древности Восточной Европы, Центральной Азии и Южной Сибири в контексте связей и взаимодействий в евразийском культурном пространстве (новые данные и концепции). Материалы Международной конференции, 18–22 ноября 2019 г. Том I. Санкт-Петербург, 2019, с.260-262.
15. Гошгарлы Г. Албаны и Ахеменидский Иран / Место и роль Кавказской Албании в истории Азербайджана и Кавказа. Труды Международной конференции посвященной 75-летию член-корреспондента НАНА Ф.Дж.Мамедовой. Баку, 2012, с.225-230.
16. Гошгарлы Г. Античная Кавказская Албания в системе международных отношений в V–I вв. до н.э. / History of the Caucasus, 2001, №1, с.143-148.
17. Дандамев М.А. Ахеменидская империя: социально-административное устройство и культурное достижения. СПб, 2013, 392 с.
18. Дандамаев М.А., Луконин В.Г. Культура и экономика Древнего Ирана. М.: «Наука», 1980, 419 с.
19. Дьяконов И.М. История Мидии. СПб, 2008, 572 с.
20. Искендеров Э., Кнаусс Ф., Каниут К. Археологические раскопки Гараджемирлинского комплекса // Исследования по археологии Азербайджана / Сборник статей, посвященный 70-летию Гошгара Гошгарлы. Баку: «Elm və Təhsil», 2019, с.115-128.
21. Исмаилзаде Г. Дворцовый комплекс на территории Азербайджана // Археология Азербайджана, 2002, №1-2, с.30-38.
22. Исмизаде О.Ш. Итоги археологического исследования поселения на холме Каратепе / Археологические исследования в

Азербайджане. Баку: Изд-во АН Аз.ССР, 1965, с.72-86.
23. Меликов Р.С. Этническая картина Азербайджана в период ахеменидского владычества (IV–IV вв. до н.э.). Баку: Нурлан, 2003, 198 с.
24. Нариманов И.Г. Находка баз колонн V–IV вв. до н.э. в Азербайджане // Советская археология, 1960 №4, с.162-164.
25. Тревер К. В. Очерки по истории и культуре Кавказской Албании IV в. до н.э. – VII н.э. М.-Л.: Изд-во АН СССР, 1959, 391 с.
26. Халилов Дж.А. Археологические находки «скифского облика» и вопрос о «Скифском царстве» на территории Азербайджана / Проблемы скифской археологии. М.: «Наука», 1971, с.183-187.
27. Babayev İ., Gagosidse I. und Florian S. Knauß. Ein Perserbau in Azerbajdzan. Ausgrabung auf dem Ideal Tepe bei Karacamirli 2006 // AMIT 2006, Band 38, s.291-330; Florian Knauss; Iulon Gagoshidze, Ilyas Babayev. A Rersian Propyleion in Azerbaijan Excavation at Karacamirli // Achaemenid impact in the Black sea, s.111-122.
28. Babayev I., Florian Knauß, Jürgen Bär, Gundula Mehnert, Florian Klauser, Emil Isgändärov, Andreas Mehnert, Jezhun Eminli und Frauke Gutschke. Die achaimenidische Residenz bei Karacamirli. Ausgrabungen auf dem Gurban Tepe und auf dem Rizvan Tepe // AMIT 2010, Band 42, s.237-266.
29. Florian S. Knauß. I.Gagosidze, Ilyas Babayev. Karacamirli: Ein persisches Paradies // ARTA 2013.004, s.1-28.
30. Florian S. Knauss und İlyas Babayev. Xerxes in Aserbaidschan // Antike Welt, 2016, №6, s.70-76.

Kiriçenko Dmitriy
AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun
"Antropologiya Mərkəzi"nin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent

MİNGƏÇEVİR TAXTA QUTU – KATAKOMBA TİPLİ QƏBİRDƏN OLAN KƏLLƏ HAQQINDA

Məqalədə 1949-cu ildə Mingəçevir SES-in tikinti ərazisində arxeoloji işlərin aparılması zamanı aşkar edilmiş (taxta qutu – katakomba tipli) qəbirlərdən tapılmış kəllə sümüyü nəzərdən keçiriləcək (Şəkil 1).

Kranioloji materialın təsvirinə keçməzdən əvvəl Mingəçevir taxta qutu – katakomba tipli qəbirlərinin arxeoloji xüsusiyyətlərinə nəzər salmaq lazımdır.


Taxta qutu – katakomba tipli qəbirlər (Şəkil 2–3) antik Qafqaz Albaniyasında dəfn abidələrinin yeni növü idi. Bunlar yerli alban və gəlmə sarmat-alan əhalisinin dəfn ənənələrini bir araya gətirir və həmin dövrün mədəniyyətlərinin simbiozunu ifadə edirdi.

Yerli alban dəfn ənənələrinə taxta tabutun – çərçivənin künclərinə payacıqlarla bərkidilmiş ardıc kötüklərindən ibarət konstruksiyanı, gəlmələrin ənənələrinə isə katakombanı aid etmək olar.

Arxeoloqlar Mingəçevir zonasında katakomba dəfnetmə ayinlərini əraziyə sarmat-alan tayfalarının şəxsində yeni etnik elementin gəlməsi ilə əlaqələndirirlər [Гошгарлы, 2012, с.117].

Taxta qutu – katakomba tipli qəbirlərdə ölü, katakombanın kamerasında quraşdırılmış taxta çərçivənin içinə yerləşdirilirdi. Bu qəbirlərdə skeletlər böyrü üstə bükülü vəziyyətdə uzadılır və onların yanında gil və şüşə qablardan, müxtəlif muncuqlar, dəmir silahlar, qızıl sırğalar, gümüş kasalar, arşaki sikkələrindən ibarət inventar olur [Тревер, 1959, с.170].


Bir sıra tədqiqatçıların rəyinə görə, Azərbaycanın taxta qutu tipli aid qəbirlərində alban cəmiyyətinin sosial baxımdan əhəmiyyətə malik qruplarının nümayəndələri dəfn olunurdu [Гошгарлы, 2012, с.75]. Arxeoloqlar Mingəçevirin taxta qutu tipli qəbirlərini eramızın I-II–III əsrlərinə aid edir [Гошгарлы, 2012, с.69].




Şəkil 1. Taxta qutu – katakomba tipli qəbirlərin yeri (Mingəçevir)

Ola bilsin ki, taxta qutu – katakomba tipli qəbirlərdə döyüşçülər dəfn edilirdi. Qəbirlərdə müxtəlif silahların tapılması bunu sübut edir.

Mingəçevir zonasında taxta qutu – katakomba tipli qəbirlərdən başqa, katakomba-küp qəbirlər də aşkar edilib. Bunlar da yerli albanlarla



Şəkil 2. Taxta qutu – katakomba tipli qəbir [Асланов, 1955, рис. 25.1, с.65]



Şəkil 3. Taxta qutu – katakomba tipli qəbir [Асланов, 1955, рис. 25.3, с.65]

gəlmə sarmat-alan tayfalarının ənənələrinin bir araya gəlməsini, bu dəfə küpdə dəfn etmə kimi yerli adətin gəlmələrin ənənələri ilə birləşməsini göstərir.

Taxta qutu – katakomba qəbirlərin inventarı Mingəçevirdəki küp qəbirlərdən olan materiallara bənzəyir. Taxta qutu katakomba qəbirləri ölü ilə dəfn edilmiş predmetlərin sayının azlığına görə küplü katakomba qəbirlərdən fərqlənir [Aslanov, 1962, s.66].

Lakin gəlin araşdırdığımız obyektə geri qayıdaq. Çox böyük ehtimalla, tədqiq etdiyimiz kəllə (Şəkil 4) H.MAslanovun qazıntılarından, 97 saylı katakombadan tapılıb. 97 saylı katakomba III Mingəçevir yaşayış yerində aşkar edilib.

III yaşayış yeri Kür çayının sol sahilində, çayın Qalaget ərazisində Bozdağ dərəcəsinə çıxışında yerləşirdi [Ваидов, 1952, с.88]. Burada yaşayış yerindən 400–500 metr şərqdə yerləşən və əsasən, katakomba, taxta qutu və taxta çərçivəli katakomba qəbirlərindən ibarət olan qəbiristanlıq da tədqiq edilib [Ваидов, 1952, с.95].

97 saylı katakomba qəbir 2,75 m dərinlikdə 22-ci qazıntı sahəsində aşkar edilib [Aslanov, 1962, s.61].

Skelet başı cənub-qərb istiqamətində olmaqla sol böyrü üstə, bükülü vəziyyətdə taxta qutunun içinə yerləşdirilmişdir. Taxta qutunun ətrafından 5 ədəd qırmızı rəngli keramik qab aşkarlanıb. Ölünün baş və ayaq hissələrində xırdabuynuzlu mal-qara və quş sümükləri aşkar edilib. Skeletin qarşısına dəmir qılınc, kəllənin yanında isə bıçaq və xəncər qoyulub. Əl barmaqlarının yanında rəngli şüşədən düzəldilmiş iki qaşı olan dəmir üzük, sağ biləyində bürünc qolbaq, dirsəyinin yanında kiçik keramik qab və şüşə qədəhin qırıqları var. Qəbirdə qeyd edilən predmetlərlə yanaşı dəmir xəncər, parıltılı şüşə, müxtəlif muncuqlar, kəmər və asqının dəmir bəndləri, dəmir sancaq, bürünc haşiyə, buynuzşəkilli dəmir məmulat, iki dəmir ox ucluğu, daha bir dəmir xəncər, sümükdən düzəlmiş bıçaq başlıqları və dəmir bıçaq, habelə Parfiya çarı II Qotarzanın adına basılmış gümüş draxma (eramızın 40/41–51-ci illəri) da tapılıb. [Aslanov, 1962, s.61].

İnventara əsasən, qəbirdə həmin dövr üçün kifayət qədər zəngin olan döyüşçünün dəfn edildiyini ehtimal edə bilərik. Kranioloji material R.Martinin paleoantropoloji metodikasına (qısaldılmış proqram əsasında) uyğun olaraq tədqiq edilib [Martin, Saler, 1957; Алексеев, Дебец, 1964]. Patoloji müşahidələr A.P.Bujilovanın hazırladığı metodika əsasında həyata keçirilib [Бужилова, 1995; 1998], habelə digər metodiki vasitələr, təlimatlar və kitabçalar tətbiq edilib [Aufderheide, Conrado, 1988; Ortner et al., 1981; Ubelaker, 1978; Waldron, 2009].

Tədqiq edilmiş kəllə (yaşlı kişiyə məxsus olub) mezokran (Cədvəl 1), pentaqonoid formada olub kəllə qutusunun uzununa orta, eninə kiçik və hündürlüyə orta ölçülü diametrləri ilə xarakterizə edilir. Alın orta enliliyə malikdir. Üz ortoqnatik, orta enlidir, kəllə qutusunun aşağı hissəsində yerləşir, göstəricilərə euriendir. Üz yuxarı və aşağı səviyyədə yaxşı profilə malikdir. Göz çuxurları geniş, orta yüksək səviyyəli, mezokonxialdır. Burun dar, yüksək, leptorindir. Profil xəttinin üstündən xeyri irəli çıxır. Fərdin alt çənəsində yaşadığı müddətdə dişlərini itirməsini görmək mümkündür.

Antropoloji tipi avropoiddir, böyük ehtimalla, tipin cənub qoluna (Aralıq dənizi irqi) aiddir.

Kəllədə patologiya olaraq metopik tikiş (sutura metopica) müşahidə olunur.

Azərbaycan ərazisində antik dövrə aid kəllələrlə və kranioloji silsilələrlə aparılmış müqayisəli təhlil göstərir ki, taxta qutu – katakomba tipli qəbrindən olan kişi kəlləsi küp qəbirlərdən, taxta qutu tipli qəbirlərindən olan kişi kəllələri, Mingəçevirin katakomba qəbirlərindən olan deformasiya izi olmamış kişi kəllələri, habelə müəyyən əlamətlərinə görə Şimali Qafqaz və Aşağı Don ətrafında olan sarmat-alan kəllələri ilə yaxındır.

Bizim fikrimizcə, taxta qutu – katakomba tipli qəbrində dəfn edilmiş kişi alban tayfasının nümayəndəsiymiş, lakin onun damarlarında sarmat-alan qanının axması ehtimalını da tamamilə istisna etmək mümkün deyil.

Azərbaycan əhalisinin paleoantropoloji tədqiqi göstərir ki, qədim Qafqaz Albaniyasının dəfn abidələrinin tiplərində fərqlərin olmasına baxmayaraq, ərazidə ümumilikdə dolixo-mezokran Kaspi antropoloji tipi üstünlük təşkil edir [Кириченко, 2020, с.72].

Kaspi antropoloji tipi ölkəmizin ərazisində Mezolit dövründən başlayaraq geniş yayılıb və günümüzə qədər bütün tarixi dövrlərdə müşahidə edilib.



Şəkil 4. Taxta qutu – katakomba tipli qəbirdən tapılan kişi kəlləsi

Cədvəl 1. Kəllənin fərdi kraniometrik ölçüləri

№ Martinə görə	Taxta qutu – katakomba tipli qəbir, Mingəçevir ♂
1	179
8	136
5	100
9	98
17	134
40	91
45	134
48	64
51	44
52	35
54	24
55	56
77	135
< Zm	126
75 (1)	-
8:1	76
40:5	91
48:45	47,8
51:52	79,5
54:55	42,9

ƏDƏBİYYAT:

1. Aslanov Q.M. I–IV əsrlərdə Qafqaz Albaniyasının maddi–mədəniyyət tarixindən / Вопросы истории Кавказской Албании. Баку: АН Аз.ССР, 1962, с.52-67.
2. Алексеев В.П., Дебец Г.Ф. Краниометрия. Методика антропометрических исследований. М.: Наука, 1964, 128 с.
3. Асланов Г.М. К изучению раннесредневековых памятников Мингечаура // Краткие сообщения Института истории материальной культуры (КСИМК) АН СССР, Вып.60, 1955, с.63-72.
4. Бужилова А.П. Древнее население: (Палеопатологические исследования). М., 1995, 189 с.
5. Бужилова А.П. Палеопатология в биоархеологических реконструкциях // Историческая экология человека. Методика биологических исследований. М.: Старый Сад, 1998, с.87-147.
6. Ваидов Р.М. Археологические работы в Мингечауре в 1950 году // Краткие сообщения Института истории материальной культуры (КСИИМК). Вып. XLVI, 1952, с.86-100.
7. Гошгарлы Г.О. Типология погребальных памятников античного периода на территории Азербайджана. Баку: Элм, 2012, 248 с.
8. Кириченко Д.А. Палеоантропология Азербайджана (VII в. до н.э. –V в. н.э.). Баку: «Apostrof-A», 2020, 208 с.
9. Тревер К.В. Очерки по истории и культуре Кавказской Албании. IV в. до н.э. – VII в. н.э. М.-Л.: АН СССР, 1959, 391 с.
10. Aufderheide A.C., Conrado R.M. The Cambridge Encyclopedia of Human Paleopathology. Cambridge: Cambridge University Press, 1998, 478 p.
11. Martin R., Saller K. Lehrbuch der Anthropologie in Systematischer Darstellung, mit Besonderer Berücksichtigung der Anthropologischen Methoden. Stuttgart: Fischer, 1957. Bd. I. 518 p.
12. Ortner D.J., Putschar W.G.J. Identifcation of Pathological Conditions in Human Skeletal Remains. Washington: Smithsonian Institution Press, 1981, 479 p.
13. Ubelaker D.H. Human Skeletal Remains. Excavation, Analesis, Interpretation. Chicago: Adline Publishing Company, 1978, 116 p.
14. Waldron, T. Paleopathology. Cambridge: Cambridge University Press. The Edinburgh Building, 2009, 279 p.

Qoşqarlı Qoşqar
AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun
"Arxeoloji xidmət" şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent

İKİ ERANIN KƏSİŞMƏSİNDƏ PARFİYA VƏ ROMANIN SİYASİ MÜBARİZƏ SİSTEMİNDƏ QAFQAZ ALBANİYASI VƏ QAFQAZ-ÖN ASİYA REGİONUNUN DİGƏR DÖVLƏTLƏRİ

E.ə. II əsrdə Aralıq dənizi, Ön Asiya və Mərkəzi Asiya regionlarında qlobal siyasi dəyişikliklər baş vermişdir. Bu dəyişikliklər növbəti bir neçə əsr ərzində qeyd edilən regionlarda bir çox aspektdən tarixi proseslərin sonrakı gedişatını müəyyən etmişdir. Proseslərin əsas təkanverici qüvvəsi qədim dövrün iki böyük imperiyası – Roma və Parfiyanın qlobal hərbi-siyasi və iqtisadi qarşıdurması olmuşdur. İki nəhəngin mübarizəsinə bu və ya digər səviyyədə Aralıq dənizi hövzəsinin, Ön və Mərkəzi Asiyanın və Cənubi Qafqazın onlarla böyük və kiçik dövlətləri, eləcə də Azərbaycanın tarixi ərazisində yerləşən ən qədim dövlətlərdən biri – Qafqaz Albaniyası da müəyyən səviyyədə cəlb edilmişdi.

E.ə. II əsrin ortalarında Roma Üçüncü Pun müharibəsi (e.ə. 149–146-cı illər) zamanı Karfagen dövlətini tamamilə məhv edərək Makedoniyanı və Balkanların cənubundakı və Kiçik Asiya sahillərindəki yunan şəhər-dövlətlərini özünə tabe edərək bütün Aralıq dənizinin faktiki sahibinə çevrilmişdi [Еоров, 1989, c.449-451]. Romanın işğalçı müharibələri həm də ticari məqsədlər güdürdü. Aralıq dənizi hövzəsində finikiyalılar, yunanlar və karfagenlilər tərəfindən uzun əsrlər ərzində yaradılmış unikal beynəlxalq ticarət sistemi romalıların nəzarəti altına keçmişdi.

Elə həmin dövrdə nəhəng Selevkilər çarlığı tamamilə süquta uğradıldı. İmperiyanın şərq əyalətlərində hələ e.ə. III əsrdə Parfiya çarlığı yaranmışdı. Parfiya, e.ə. II əsrin ikinci yarısında hökmdar I Mitridatın hakimiyyəti dövründə (e.ə. 171–138-ci illər) sərhədləri şərqdə Amu-Dəryadan qərbdə Fərata qədər uzanan dünyəvi dövlətə çevrilmişdi [Зеймаль, 1989, c.452-455]. Parfiyadan şərqdə e.ə. II əsrin əvvəllərində yunan siyasi quruluş ənənələri və sosial həyatını qoruyub saxlayan qüdrətli Yunan-Baktriya çarlığı mövcud idi [Зеймаль, 1989, c.460], e.ə. II əsrin sonlarında isə onu Kuşan çarlığı əvəz etdi. Kuşan çarlığı iki eranın qovuşduğu dövrdə Parfiya və Roma ilə yanaşı Böyük İpək Yolunun fəaliyyətinin qarantlarından biri idi [Зеймаль, Ильин, 1989, c.220-222; Всемирная история, 1956, c.669-676].

Selevkilər Fəratdan qərbdə olan torpaqları da öz hakimiyyətləri altında saxlaya bilmədilər. Burada e.ə. II əsrdə çox sayda müstəqil böyük və kiçik dövlətlər meydana gəldi. Bunlar Qara dənizin cənub-şərq sahilində yerləşən Pont çarlığı [Сапрыкин, 1996], Van gölü ətrafındakı Erməni çarlığı [Тревер, 1953], eləcə də Kappadokiya, Perqam, Palmira, İudeya və digər çarlıqlar idi [Свенцицкая, 1989, c.330-338]. Selevkilər dövlətinin özü isə e.ə. II əsrin sonlarında kiçik Suriya çarlığı ilə məhdudlaşmışdı. Suriya çarlığı, həmçinin, yuxarıda adları çəkilən və Fəratdan qərbdə yerləşən, Selevkilər imperiyasının dağıldığı dövrdə yaranmış digər dövlətlər də həmçinin e.ə. I əsrdə Roma əyalətlərinə və ya Romadan asılı olan vassal dövlətlərə çevrildi [Еоров, 1989, c.37-38].

E.ə. III–II əsrlərdə Cənubi Qafqazda da vəziyyət sabitləşdi. Burada Qara dənizin qərbində Kolxida çarlığı, ondan şərqdə, Böyük Qafqazın cənubunda İberiya dövləti yerləşirdi. Şimalda Cənubi Qafqazın şərq hissəsində olan Baş Qafqaz silsiləsindən cənubda Araz çayına, Şərqdə isə Xəzərdən qərbdə Göyçə gölünə qədər və şimal-qərbdə Alazan vadisinə qədər Albaniya dövləti yerləşirdi. Bu üç ölkə vaxtilə Əhəməni dövlətinin tərkibində olmuş və tədqiqatçılar arasında "Qafqaz Persepolisi" adını almış Şəmkir rayonundakı əzəmətli saray kompleksinin qazıntılarından da göründüyü kimi, faktiki olaraq e.ə. V–IV əsrlərdə bir satraplığa daxil olmuşdur [Babayev, Qaqoşidze, Knauss и др., 2012, c.379-385]. Əhəmənilər, məlum olduğu kimi beynəlxalq ticarətin inkişafına xüsusi diqqət ayırmışlar. Təsadüfi deyil ki, ticarətin inkişafındakı marağına görə I Daranı "tacir" adlandırırdılar [Рейдер, Черкасова, 1979, c.246]. Əhəmənilər onlardan əvvəl formalaşmış beynəlxalq ticarət sistemini olduğu kimi saxlamış və hətta inkişafına

təkan verməyə çalışmışlar. Buna, əsasən "Qızıl Darik" adlandırılan yeni sikkənin ticari dövriyyəyə daxil edilməsi səbəb olmuşdur. Bu sikkələrin tərkibində xalis qızılın yüksək miqdarda olması (97%) onların beynəlxalq ticarətdə uzun müddət əsas qızıl sikkə rolunu oynamasına imkan vermişdir [Дандамаев, 1989, с.141]. Bununla yanaşı, döşəmə daşlardan "hökmdar yolları" adlandırılan çox sayda yollar salınmışdır. Hökmdar qasidi kimi dövlət tapşırıqlarını yerinə yetirən şəxslərə, eləcə də uzaq ölkələrlə ticarətlə məşğul olan tacirlərə xidmət etmək üçün nəzərdə tutulmuş, şaxələnmiş infrastruktur sistemi bu hökmdar yollarının üzərində yaradılmışdı [Геродот, 2006, V, 52-54, с.347]. Bütün bunlar şübhəsiz farsların Cənubi Qafqazda olan torpaqlarına da aid idi, müvafiq olaraq Roma-Parfiya dövründən xeyli əvvəl Cənubi Qafqazın qeyd edilən dövlətləri arasında kifayət qədər geniş ticari-iqtisadi əlaqələr formalaşmışdı. Həmfikir olduğumuz bir çox tədqiqatçıya görə, məhz Əhəmənilər dövründə e.ə. V əsrin əvvəllərində farslar tərəfindən şimal-qərbi Hindistanın işğalından sonra Mərkəzi Asiyadan keçməklə Hindistandan Xəzərin şərq sahillərinə və oradan da Kürün mənsəbinə, daha sonra bu çay boyu bütün Albaniya və İberiyadan keçməklə oradan Rioni çayı boyu-Kolxidanın Qara dəniz sahillərinə qədər uzanan xüsusi ticarət yolu formalaşmışdı [Брашинский, 1980, с.98-99; Гозалишвили, 1956, с.153-160; Лордкипашидзе, 1957, с.373-389; Гошгарлы, 2009, с.33-40; Гошгарлы, 2020, с.38-56]. Bu cür işlək ticarət yolunun mövcudluğu bir tərəfdən artıq Əhəmənilər dövründə Kolxida, İberiya və Albaniya arasında sıx ticari əlaqələr yaratmış, digər tərəfdən isə onların, göstərilən yolla beynəlxalq ticarətə cəlb edilməsinə kömək etmişdir.

İstisna deyil ki, Herodotun Xəzər dənizini ətraflı, tamamilə düzgün təsvir etməsinə məhz bu ticarət yolunun böyük əhəmiyyətə malik olması səbəb olmuşdur [Геродот, 2006, I, 202-204, с.99]. M.M.Rəsulovanın fikrincə, böyük ehtimalla Herodotun məlumat mənbələri Qara dənizin şərq sahilində ən vacib yunan emporiyalarından biri olan Fasisdə olduğu vaxt əlaqə qurduğu və bu marşrut üzrə ticarətlə məşğul olan tacirlərin özləri olmuşdur [Расулова, 2008, с.82-83]. Lakin, Herodot bu ticarət yolunun özü haqqında heç bir məlumat vermir. Bu sahə üzrə birincilik çələngi Strabona məxsusdur. O, elm dünyasında "Strabon yolları" şərti adını almış bu ticarət yolunun bütün mərhələlərini daha erkən dövrün tədqiqatçıları, xüsusilə Eratosfen, Aristobul və Patrokla istinad edərək ətraflı izah etmişdir.

Bu ticarət yolunu vurğulamağımızın səbəbi onun Ön Asiya və Cənubi Qafqaz tarixinin sonrakı ellinizm və Roma–Parfiya dövrlərində də fəaliyyət göstərməyə davam etməsi və iki eranın kəsişdiyi dövrdə Parfiya və Romanın siyasətinin Cənubi Qafqaza, eləcə də Albaniyaya qarşı münasibətində xarici siyasət vektorunu müəyyən dərəcədə təyin etməsidir.

Roma hələ e.ə. II əsrin əvvəllərində Şərqi Aralıq dənizi sahilləri və oradan da Kiçik Asiyaya kütləvi hərəkətə başlamışdı. Lakin, tezliklə Roma cəmiyyətini bürümüş mürəkkəb sosial, iqtisadi və siyasi problemlər ilə əlaqədar [Егоров, 1989, с.22-29], Romanın Şərqdəki fəallığı dayanmış və yalnız e.ə. I əsrin əvvəlində yenidən başlamışdı. Bu zaman Ön Asiya regionunda növbəti siyasi dəyişikliklər baş verirdi. E.ə. II əsrin ikinci yarısında Parfiyanın da Fəratın qərbində fəallığı zəiflədi, belə ki, şərqdən köçəri toxar tayfaları onu təhdid etməyə başladılar. Faktiki olaraq, e.ə. II əsrin bütün ikinci yarısı boyu Parfiya toxar tayfalarının hücumlarını dəf etməklə məşğul idi və yalnız II Mitridatın dövründə (e.ə. 123–88-ci illər) Şərqdə vəziyyət sabitləşdi və Parfiya Cənubi Qafqazda və Fəratdan qərbdə yenidən öz siyasətini fəallaşdırdı [Зеймаль, 1989, с.453-455]. Məhz II Mitridat, əsirliyində olan erməni şahzadəsi Tiqranı Ermənistan taxtında təsdiqlədi və o, II Tiqran adı ilə Ermənistan hökmdarı oldu. Tiqran dərhal Parfiya ilə ittifaqı pozmaqla və Pont hökmdarı VI Mitridat Yevpatorun qızı ilə evlənərək onunla ittifaq bağlamaqla Parfiyaya "təşəkkür etdi" [История древнего мира, 1989, кн.2, с.390].

E.ə. II əsrin sonunda Böyük İpək yolu belə şəraitdə fəaliyyətə başlamış və ərazisindən keçdiyi bütün aparıcı dövlətlərin xarici siyasətini müəyyən edən ən mühüm amil olmuşdur.

İpək yolu artıq fəaliyyətə başlayandan intensivliyi bu və ya digər tarixi dövrdə bu yol boyu uzanan ərazilərdəki siyasi vəziyyətdən asılı olan və fəal şəkildə işləyən bir neçə qolu formalaşmışdı. Ümumiyyətlə, İpək yolunun antik dövrdə fəal şəkildə istifadə olunan 3 əsas qolu ayırd edilir [Иерусалимская, 1990, с.58-60].

Onların hamısı Çinin paytaxtı–Çanyanda başlayıb, Böyük Çin Səddi boyu Təklə-Məkan səhrasının

başladığı Dunhua şəhərinə doğru uzanırdı. Burada yol səhranın cənubundan və şimalından dolanmaqla ikiyə ayrılırdı. Cənub yolu İssık-kul və Xotan gölü boyu Baktriyaya çıxır və burada ikiyə ayrılırdı. Birinci yol cənubda Hindistana, ikinci yol qərbdə Mərv şəhərinə aparırdı. Bu yol burada şimal yolu ilə birləşirdi, Parfiya torpaqlarından keçərək və Xəzərin cənubundan dolanaraq, Mesopotamiya və Suriyadan keçərək Aralıq dənizi və Qara dənizə çıxırdı. Üçüncü yol daha mürəkkəb idi. O, Çindən çıxıb Tyan-Şan dağları və Fərqanə vadisindən keçərək Səmərqənd, Buxara və Xarəzmə, oradan da Xəzər dənizinə və Xəzər dənizinin şimalından dolanmaqla, Ön Qafqaz çöllərindən keçərək Azov və Qara dəniz sahillərində olan yunan koloniyalarına, o cümlədən Tanaisə çıxırdı [Гошгарлы, 2020, с.36-37]. Bu üç əsas yoldan başqa, onlardan başlanğıcını götürən digər yollar da mövcud idi. Bu yolların fəaliyyətinin intensivliyi, bu marşrutlar boyu bu və ya digər tarixi dövrlərdə bu ərazilərdə mövcud siyasi vəziyyətdən asılı idi.

Mərkəzi Asiyada Baktriya, Soqdiana və Xarəzm bölgələrində Böyük İpək Yolunun marşrutları, yuxarıda qeyd edildiyi kimi, Əhəmənilər çarlığı dövründə (e.ə. VI–IV əsrlər) fəaliyyət göstərən "Strabon yolları" ilə kəsişirdi. Böyük İpək yolunun meydana çıxmasından 3 əsr öncə "Strabon yolu"nun fəal şəkildə işləməsi şübhəsiz, bu yol boyu onun fəaliyyətini təmin edən inkişaf etmiş infrastrukturu formalaşdırmışdı. Əgər buna İpək yolunun Mərkəzi Asiyadan Qara və Aralıq dənizi hövzələrinə ən qısa yol olması faktını da əlavə etsək, iki eranın qovuşduğu dövrdə İpək yolu boyu ticarətlə məşğul olan tacirlərin əsrlər boyu "hamarlanmış" beynəlxalq ticarət yolunu istifadə etməmələri və onu, Böyük İpək yolunun fəal şəkildə işləyən qollarından birinə çevirməmələri qəribə olardı. Bu, Cənubi Qafqaz dövlətlərini iki eranın qovuşduğu dövrdə beynəlxalq ticari mübadilənin fəal iştirakçılarından birinə deyil, həm də bu marşruta və onun keçdiyi ölkələrə nəzarət etməyə can atan o dövrün böyük dövlətlərinin siyasi mübarizə zonasına çevirmişdi. İki eranın qovuşağında (e.ə. II–I əsrlərdən b.e. I–II əsrlərinə qədər) burada əsas mübarizə ən böyük imperiyalar olan Parfiya və Roma arasında gedirdi. Parfiya ticarətdə vasitəçi olmaqla böyük vəsaitlər qazanırdı və Romanı Uzaq Şərqlə birbaşa ticarət əlaqələri qurmaq imkanından məhrum etmək üçün əlindən gələn hər şeyi edirdi. Roma isə öz növbəsində Parfiyanın mane olmaq cəhdlərinə rəğmən Mərkəzi Asiya ölkələri, Çin və Hindistan ilə Parfiyanın vasitəçiliyi olmadan birbaşa və davamlı ticari əlaqələr qurmağa çalışırdı. Bu amil iki imperiya arasındaki xarici siyasət münasibətlərini bir çox aspektdən müəyyən edirdi. Lakin e.ə. II əsrin ikinci yarısının sonlarında Roma və Parfiya qeyd edildiyi kimi bir müddət öz daxili sosial–siyasi və iqtisadi məsələlərini həll edərkən, Ermənistan və Pont çarlığı Böyük İpək Yolu üzərində nəzarət uğrunda mübarizəyə başladı. Böyük İpək yolunun daha fəal cənub marşrutunun son hissəsi onların Kiçik Asiyadakı torpaqlarından keçirdi. Bundan əlavə, Pont hökmdarı VI Mitridat Yevpator e.ə. I əsrin əvvəlində Kolxida, sonra isə Qara dəniz sahilindəki Bosfor çarlığını özünə tabe etmişdi [Немировский, 1980, с.154-160). Bu, VI Mitridat Yevpatorun Qafqaz və Azov boyu ərazilərdə mövqelərini gücləndirməkdən başqa böyük iqtisadi fayda gətirmişdi. Məsələn, Kolxida qızıl, gəmi taxtası, taxıl, kətan, çətənə, mum və digər məhsullarla zəngin idi, həmçinin kolxidalılar yaxşı döyüşçü idilər [Немировский, 1980, с.157-158]. Kolxida və Bosforun işğalından sonra Böyük İpək Yolunun yalnız cənub qolu deyil, həm də digər 2 əsas marşrutu, məhz cənub – Qafqaz marşrutu, başqa sözlə, Kür və Rioni çayları vasitəsilə Kolxida sahilində olan yunan koloniyasına (emporiya) – Fasisə çıxan "Strabon yolu" və Xəzər dənizinin şimalından dolanan və Bosforun Pantikapey və Tanais şəhərlərinə aparan şimal marşrutu da VI Mitridat Yevpatorun nəzarəti altına keçdi.

Pont çarlığının dəstəyindən istifadə edərək Ermənistan hökmdarı II Tiqran da fəallaşdı. O, Fərat və Dəclə çaylarının yuxarılarında, İpək yolunun cənub marşrutu zonasında, Van gölündən cənub-qərbdə yeni paytaxt Tiqranokertin əsasını qoydu və ələ keçirdiyi Suriya və Kiçik Asiya şəhərlərindən çox sayda sənətkarları və tacirləri buraya köçürdü [История древнего мира, кн.2, 1989, с.392].

Yaranmış vəziyyət Parfiyanı çox da narahat etmirdi, belə ki, bu vəziyyət Fəratdan qərbdə yerləşən və İpək yolunun cənub marşrutunun Parfiyanın məsuliyyət və nəzarət zonasına daxil olmayan kəsiminə aid idi. Lakin Roma üçün II Tiqranın hökmdarlığı zamanı Ermənistan, VI Mitridat Yevpatorun hökmranlığı zamanı isə Pont Mərkəzi Asiya regionu, Çin və Hindistan ilə vasitəçi ticarətdə yeni halqalara çevrildi. Bu, bir tərəfdən Roma torpaqlarında İpək yolunun 3 əsas marşrutları üzrə

daxil olan şərq məhsullarını əhəmiyyətli dərəcədə bahalaşdırır, digər tərəfən Roma ticari məhsullarının Şərqə hərəkətinə mane olurdu. Aydındır ki, Roma belə vəziyyətə razı ola bilməzdi və onun Şərqdəki siyasəti artıq e.ə. I əsrin əvvəlində bu lazımsız vasitəçi halqaları aradan qaldırmaq məqsədi güdürdü. Bu siyasət Sulla, Lukull və Pompeyin hərbi yürüşləri nəticəsində həyata keçirilmiş və nəticədə, Roma dövlətinin Şərqdə əhəmiyyətli dərəcədə genişlənməsinə gətirib çıxarmışdır.

Pont və Ermənistan hökmdarları Kiçik Asiyada Roma torpaqlarına soxulmaqla Romanın Şərqə böyük hücumu üçün özləri ona bəhanə verdilər. Afina VI Mitridatın tərəfinə keçdi. Roma senatı dərhal VI Mitridata qarşı Sullanın rəhbərliyi ilə ordu göndərdi. E.ə. 86-cı ildə Xeroneya və Orhomen döyüşlərində VI Mitridat məğlub edildi. E.ə. 85-ci ildə Dardanda sülh müqaviləsi bağlandı. VI Mitridat Romaya bütün torpaqlarını geri qaytardı və təzminat ödədi [Егоров, 1989, с.34]. Lakin tezliklə Romada yenidən ciddi sosial-siyasi problemlər yarandı. Bu problemlər ilk növbədə İspaniyada sərkərdə Kvint Sertorinin qiyamı ilə bağlı idi. Sonra Spartakın rəhbərliyi altında qul üsyanı baş verdi. Bu hadisələr Romanın diqqətini Şərqdəki problemlərdən yayındırdı. Burada VI Mitridat onun maraqlarını yenidən təhdid etməyə başlamışdı [Егоров, 1989, с.36-38]. Bu zaman Roma qəti olaraq bu "Qordi düyünü"nü kəsməyə və Kiçik Asiya və Cənubi Qafqazda vəziyyəti öz nəzarəti altına almağa qərar verdi. E.ə. I əsrin 60-cı illərində elmi ədəbiyyatda dəfələrlə təsvir olunan Roma sərkərdələri Lukull və Pompeyin hərbi yürüşləri nəticəsində VI Mitridat məğlub edildi, Pontdan sıxışdırılıb çıxarıldı və Kolxidaya, oradan da oğlu Farnakın hökmdar olduğu Bosfora qaçdı. Pont, Vifiniya, Suriya və ona birləşdirilmiş İudeya Roma əyalətlərinə çevrildi, sonuncu üçün müəyyən muxtariyyət saxlanıldı [Егоров, 1989, с.38]. Pont çarlığının dəstəyindən məhrum olmuş və Parfiya ilə münasibətləri korlanmış Ermənistan hökmdarı II Tiqran özünü Romanın vassalı olaraq qəbul etməyə və bütün işğal etdiyi ərazilərdən imtina etməyə məcbur oldu.

Beləliklə, güclü müttəfiqlərin dəstəyi ilə qonşu dövlətlərin ərazisinin işğalı nəticəsində yaranmış geniş ərazi Ermənistanın nəzarətindən çıxdı. II Tiqran tərəfindən yaradılmış dövlət o həyatda ikən dağıldı. Pompey ilə e.ə. 66-cı ildə Artaşatda imzalanmış sülh müqaviləsinə görə II Tiqran özünü "Roma xalqının dostu və müttəfiqi" olaraq qəbul etdi və böyük pul təzminatı ödədi. Bundan sonrakı bir neçə əsr ərzində Ermənistanın taleyi Romanın əlində olmuş, ərazisində daimi olaraq Roma legionları saxlanılmışdır.

Beləliklə, "...İran (Parfiya) ilə Roma arasındakı ən vacib yolun üzərində yerləşən, hər 2 dövlət üçün böyük strateji əhəmiyyətə malik olan Ermənistan, etibarlı müttəfiqlərinin köməyi olmadan özünün əsas ərazisinin sərhədləri daxilində öz müstəqilliyini çətinliklə saxlaya bildi. Geniş işğallara gücü çatmadı və Tiqranın imperiyası hələ o həyatda olarkən dağılmağa başlad"ı [История древнего мира, 1989, кн.2, с.392].

Pompey Pontda VI Mitridatı məğlub etdikdən və Ermənistanı Roma hakimiyyətinə tabe etdikdən sonra Cənubi Qafqazın Romaya tabe edilməsi ilə məşğul olmağa qərar verdi. Lakin, Pompey VI Mitridatın gizləndiyi Kolxidaya doğru yola çıxmazdan öncə özünün arxa cəbhədəki təhlükəsizliyini təmin etməyə və Cənubi Qafqazın 2 dövləti –Albaniya və İberiya ilə hesablaşmağa qərar verdi. Onların hər ikisi VI Mitridata və II Tiqrana Roma ilə mübarizədə yardım etmişdilər [Тревер, 1959, с.88-90] və Pompeyin fikrincə, onlar cəzalandırılmalı idilər.

Roma müəlliflərinə (Strabon, Tit Pivi, Böyük Plini, Klavdi Ptolomey, Dion Kassi və s.) görə albanlar əvvəlcə romalıların VI Mitridatı təqib etmək üçün onların ərazilərindən keçmələrinə icazə verdilər, lakin sonra Pompey Kür sahilində qışı Albaniyada keçirməyə qərar verdiyi zaman albanlar onlara hücum etməyə başladılar.

E.ə. 66-cı ilin dekabrında baş vermiş və Romalıların qələbəsi ilə bitmiş bu döyüş Pompeyin Qafqaza olan bütün yürüşləri kimi elmi ədəbiyyatda dəfələrlə ətraflı şəkildə təsvir edilmişdir [Тревер, 1959, с.91-96; История древнего мира, 1989, кн.2, с.392-394; Алиев, 1992, с.173-176; Расулова, 2008, с.124-126; Гошгарлы, 2019, с.47-49], lakin bizim nöqteyi-nəzərimizdən bu yürüşün bəzi məqamlarının bir neçə fərqli izahı ola bilər.

Pompey albanları Kür çayı sahilində məğlub edib onların hökmdarı Oroys ilə sülh bağladıqdan sonra İberiyaya hücum etdi. İberiya hökmdarı Artoku məğlub edib oğullarını əsir götürən Pompey Kolxidaya soxuldu və tezliklə Qara dəniz sahilində yerləşən Fasis şəhərinə gəldi. Roma donanması onu

artıq burada gözləyirdi. Mənbələr və onlara istinad edən tədqiqatçılar Pompeyin Cənubi Qafqaza sonrakı yürüşünü vahid sxem üzrə nəzərdən keçirir.

Fasisə gələn Pompey VI Mitridatı Kolxidada tapa bilmədi. O, Bosfora oğlunun yanına qaça bilmişdi, elə bu vaxt Pompey Oroysun yenidən onunla müharibəyə hazırlaşdığı haqqında xəbər aldı. İki seçim – VI Mitridatı təqib etməyi buraxmaq və ya albanları yenidən ram etməyə yollanmaq – arasında Pompey ikincisini seçdi.

Tədqiqatçılar VI Mitridat Ermənistandan qaçdıqdan sonra Pompeyin onu fəal şəkildə təqib etmədiyinə çoxdan diqqət yetirmişlər. Görünür ki, o, Mitridatı Romanın əsas maraqları üçün artıq təhlükə olaraq görmürdü və bu təqibin gedişində digər məsələlərə, məhz Cənubi Qafqazda Roma nəzarətinin qurulmasına və Parfiyanın təsirinin Atropatenadan şimalda güclənməsinə imkan verməməyə daha çox diqqət ayırırdı.

Lakin Pompey onunla imzaladıqları müqaviləni pozduqları üçün albanları cəzalandırmağa qərar verərək, Albaniyaya uzun yolla, artıq işğal edilmiş İberiyadan keçməklə deyil, Ermənistandan keçərək dolayı yolla getdi. Fasisdən Ermənistana, sonra Albaniya istiqamətinə dönüşlü bu qəribə marşrut son dərəcə məntiqsiz görünür, belə ki, bu seçim albanlara müharibəyə hazırlaşmaq üçün əlavə vaxt vermişdir. Halbuki yaxşı məlumdur ki, sürət və gözlənilməzlik həmişə Pompeyin hərb strategiyasının və taktikasının əsas vasitələri olmuşdur. Elmi ədəbiyyatda bu qəribə marşrutu izah edən bir neçə versiya mövcuddur. Bunların hərtərəfli təhlili K.V.Treverin əsərində verilib [Тревер, 1959, с.96-108]. Lakin bunların hamısı, o cümlədən K.V.Treverin özü Pompeyin ikinci hərbi yürüşünün məqsədinin albanlar tərəfindən müqavilənin pozulmasına görə onları cəzalandırmaq olduğunu yekdilliklə təsdiq edən antik müəlliflərin məlumatlarına istinad edirdilər. Amma Pompeyin ikinci hərbi yürüşünün ətraflı təhlili göstərir ki, bu ikinci hücumun səbəbini başqa yerdə axtarmaq lazımdır. Albaniyaya yeni hərbi yürüş haqqında qərarı Pompeyin Fasisdə qəbul etməsi faktı əhəmiyyətlidir. Burada Pompey Fasisin Şərq ilə geniş ticarətdəki rolundan şəxsən əmin olmaq şansı əldə etmişdi. Fasis Baktriya, Hindistan və Çindən tacirlərin gəldiyi böyük emporiya idi [Юсупов, 1984, с.77-97]. Ticarət "Strabon yolu" üzrə aparılırdı. Faktiki olaraq, bu ticarət yolunun Kolxida və İberiya hissələri Pompeyin nəzarəti altında idi, bu ticarət yolunun alban hissəsi də ona birləşdirilsə, bir dəfəyə 2 məsələni həll etmək olardı: birincisi, yuxarıda qeyd edildiyi kimi Parfiyanın nüfuzunun Cənubi Qafqazda Atropatenadan şimala yayılmasına imkan verməmək, ikincisi isə Parfiyanı ötərək İpək yolunun Mərkəzi-Asiya hissəsinə çıxmaq. Görünür, məhz bu amil ikinci hərbi yürüşü şərtləndirirdi və deməli, albanlar Pompey ilə müqaviləni pozmamışdı və yeni müharibəyə hazırlaşmırdılar.

Yəqin ki, Pompeyin bioqrafları və ilk öncə onun Ön Asiyaya və Cənubi Qafqaza hərbi yürüşlərinin iştirakçıları, xüsusilə qeydləri və hesabatları Roma tarixçiləri üçün bu məsələ ilə bağlı əsas mənbə olan Feofan Mitilenski, albanlarla müqavilənin pozulmasına görə məsuliyyəti Pompeyin üzərindən götürməyə və albanları günahlandırmağa çalışırdı. İkinci hərbi yürüşün təhlili albanların Pompey ilə böyük müharibəyə hazır olmadığını açıq-aydın göstərir. Bu baxımdan Pompey tərəfindən Fasisdən Albaniyaya Ermənistan ərazisindən keçməklə gedilən dolayı yol tamamilə qanunauyğun olur. Belə marşrutla o, son ana qədər özünün əsl niyyətini gizlətdi və gözlənilmədən Ermənistandan Albaniyaya dönməklə Oroysu hazırlıqsız yaxaladı. Pompey öz planını tam şəkildə reallaşdırdı. Ermənistanda Dilican ərazisindən indiki Ağstafaya tərəfə dönən Pompey orada albanların müqavimətinə rast gəlmədi və böyük bir çətinlik yaşamadan Kür çayını keçdi. Kür çayından İori çayına qədər və sonra İoridən "Strabon yolu"nun Alban hissəsinin başladığı Alazana qədər uzanan yolda o, yenə albanların müqavimətinə rast gəlmədi. Yalnız Alazanı keçdikdə, Albaniyanın paytaxtı Qəbələyə birbaşa yol açıldıqda albanlar e.ə. 65-ci ildə romalılara qarşı savaşmağa qərar verdilər və Pompey yenidən qələbə qazandı. Tədqiqatçılar Roma müəlliflərinin bu döyüş haqqında məlumatlarını təhlil edərək bu nəticəyə gəlirlər ki, burada Pompeyə qarşı tərkibində qadınların da iştirak etdiyi tələsik toplanmış və zəif silahlanmış dağ tayfalarının qeyri-nizami qoşunu mübarizə aparmışdır. Piyada qeyri-nizami ordunu gücləndirməli olan zərbə qüvvəsi Oroysun qardaşı Kozisin rəhbərliyi altında atlı qoşun dəstəsi idi. Pompey tərəfindən məhz bu süvari ordunun darmadağın edilməsi Alazan döyüşünün nəticəsi üçün həlledici oldu. Bu döyüşdə qələbə Pompey üçün Albaniyanın paytaxtı Kabalakuya (Qəbələ) yolu açdı, lakin Pompey Böyük Qafqaz

dağlarının ətəklərində düşərgə quraraq Oroys ilə danışıqlara başladı. Bu danışıqların nəticəsi Oroysun Romaya tabe olduğunu qəbul etməsi haqqında məktub, Pompeyə bahalı hədiyyələr və sonradan Pompeyin Romadakı triumfunda iştirak edən alban zadəgan nümayəndələrindən 2 girov verilməsi oldu [Тревер, 1959, с.105]. Pompeyin sonrakı fəaliyyətləri Albaniyaya bu ikinci hərbi yürüşün əsas məqsədini-"Strabon yolu"nun Alban hissəsi ilə Xəzər dənizinə çıxmaq və Qara dənizdən Xəzər dənizinə qədər olan ərazidə bu beynəlxalq ticarət yolu üzərində tam nəzarəti ələ almağı tam şəkildə təsdiqləyir. Lakin, Pompeyin Albaniyaya hərbi yürüşünün bu son mərhələsi Roma mənbələrində çox zəif və ən əsası, ziddiyyətli şəkildə işıqlandırılmışdır [Тревер, 1959, с.105-107]. Pompeyin sonrakı hərəkət istiqamətini Plutarxın məlumatlarına əsasən yenidən bərpa etmək olar: "bu döyüşdən sonra Pompey Xəzər dənizinə qədər getməyi planlayırdı, lakin dənizdən cəmi 3 günlük məsafədə olmasına baxmayaraq, çox sayda zəhərli sürünən heyvanlar səbəbilə geri dönməyə məcbur oldu" [Плутарх: Помпей, 36]. Plutarxın bu abzası Pompeyin "Strabon yolu"nun albanlara aid hissəsini yoxlamaq məqsədi ilə birlikdə romalıların Kürün sağ və sol sahilləri boyu Xəzər dənizi istiqamətində irəlilədiyini iddia etməyə əsas verir. Belə ki, həqiqətən də yay vaxtı Mil və Muğan çöllərində çox sayda zəhərli sürünən heyvanlar olur. Lakin, oykumenin yarısını fəth etmiş Roma legionunu bu, dayandıra bilməzdi. Mənbələr Romalıların albanlarla yeni böyük döyüşləri haqqında məlumat vermir və albanların müqavimət göstərməsinin Pompeyi geri dönməyə məcbur etməsi ilə bağlı V.İ.Leviatovun irəli sürdüyü fərziyyə real təsdiqini tapmamışdır [Левиатов, 1950, с.82]. Pompeyi Xəzərə çatmadan Kiçik Asiyaya qayıtmağa böyük ehtimalla Ön Asiya regionunda siyasi vəziyyətin dəyişməsi məcbur etmişdir.

Lukull və Pompeyin rəhbərliyi altında romalıların Kiçik Asiya və Cənubi Qafqaza hərbi yürüşlərini təhlil edərkən onları Roma və Parfiya arasındakı qarşılıqlı əlaqələrdən ayrı nəzərdən keçirmək olmaz. Bu iki dövlət arasındakı qlobal rəqabət müəyyən tarixi məqamlarda bir-birinə qarşı çevik siyasəti də istisna etmirdi.

Belə ki, 95-ci ildə Parfiya hökmdarı II Mitridat tərəfindən Ermənistan taxtına çıxarılan II Tiqran Parfiyanın müvəqqəti zəifləməsindən istifadə edərək Atropatenanı işğal etmiş, Ekbatana qədər çataraq burada Parfiya hökmdarlarının yay iqamətgahını yandırmış [История древнего мира, кн.2, 1989, с.390-391] və artıq qeyd edildiyi kimi, Pont hökmdarı VI Mitridat Yevpator ilə ittifaq bağlamış və onunla qohum olmuşdu.

Buna cavab olaraq, 92-ci ildə Parfiya hökmdarı II Mitridat Romaya Sullanın yanına elçi göndərmiş və ilk dəfə Roma ilə əlaqələr qurmuşdur. Bu addıma Romanın Kiçik Asiya və Balkanlardakı torpaqlarına bir-biri ilə ittifaq bağlayıb hücum edən Pont və Ermənistan çarlıqları ilə mübarizəsinə Parfiyanın qarışmayacağının bir siqnalı olaraq baxmaq olar [История древнего мира, кн.2, 1989, с.391]. Roma e.ə. 87-86-cı illərdə cəza yürüşü həyata keçirmiş, VI Mitridatı Yunanıstanda və Kiçik Asiyada məğlub etmişdi. Nəticədə artıq qeyd edildiyi kimi e.ə. 85-ci ildə VI Mitridat Sulla ilə Dardan şəhərində sülh müqaviləsi bağlamış, bütün işğal etdiyi Roma əyalətlərini azad etmiş və böyük miqdarda təzminat ödəmişdir [Егоров, 1989, с.34]. Ermənistan bu dəfə məğlubiyyətdən yayınmışdı.

Lukull və Pompeyin hərbi yürüşləri dövründə Parfiya yenə Romanın əli ilə II Tiqran və VI Mitridat Yevpatordan qurtulmağa ümid edərək neytrallığını saxlamışdır [Алиев, 1992, с.34-35]. Lakin Parfiya məqsədinə çatdığı zaman Romanın onu ötərək Mərkəzi Asiya, Çin və Hindistanla ticari əlaqələr qurmasına icazə verərək artıq neytral qalmaq niyyətində deyildi. Parfiya hökmdarı III Fraat Pompeyin Albaniyada "ilişib qalmasından" istifadə edərək II Tiqranın torpaqlarını, faktiki olaraq isə Romanın tabeliyində olan əraziləri talan etməyə başladı və bununla Pompeyin Kiçik Asiyanın şərqindəki nailiyyətlərini təhlükə altında qoydu. Bu, Parfiya ilə Roma arasında mübarizənin yeni dövrünün başlanması demək idi. Bu vəziyyət Pompeyi, Albaniyanı təcili tərk edərək diqqətini Parfiya ilə mübarizəyə cəmləməyə məcbur etdi. Ümumiyyətlə, Roma və Parfiyanın mübarizəsinin bu dövrü e.ə. I əsrin sonlarına qədər tərəflər arasında növbələşən qələbələrlə davam etmişdir.

Beləliklə, Pompey Cənubi Qafqazda uğurla müharibə aparan ilk Roma sərkərdəsi olmuşdur. Albaniya və İberiyanın adı Pompeyin Romada təntənəli yürüşü zamanı işğal edilmiş ölkələr siyahısında çəkilsə də, onların Romadan asılılığı, Romadan uzaqda yerləşməsi və sonrakı siyasi hadisələr

səbəbindən nominal xarakter daşımış və onlar heç vaxt Roma əyalətlərinə çevrilməmişdir [Алиев, 2003, c.35]. Lakin, bu zamandan etibarən Roma Cənubi Qafqazda vəziyyəti daima nəzarət altında saxlamış və buradakı maraqlarına təhdid yarandığı zaman özü üçün mənfi proseslərə dərhal fəal şəkildə cavab vermişdir. Bu məqsədlə Ermənistan, Suriya, Kappadokiya və Kolxidada daimi olaraq Roma legionları yerləşdirilmişdi. İberiya və xüsusilə, Albaniyaya gəlincə, tədqiqatçıların fikrincə Pompeyin hərbi yürüşlərindən sonra Romanın Şərqlə ticarətinin bir hissəsi Ermənistan və Parfiyanı ötərək Cənubi Qafqazdan keçirdi [История древнего мира, кн.2, 1989, c.393].

Roma və Parfiyanın mübarizəsinin növbəti mərhələsi e.ə. I əsrin 50–30-cu illərini əhatə edir. E.ə. I əsrin ortalarında Birinci triumvirat adlandırılan dövrdə Qney Pompey, Mark Krass və Yuli Sezar ittifaq bağlayıb Roma Respublikasının daxili siyasət sistemini özlərinə uyğun olaraq yenidən qurmağa başladılar. Şərqə diqqət yenidən zəiflədi və Parfiya bundan dərhal istifadə etdi. Mark Krass Romanın mövqelərini yenidən bərpa etmək və Şərqdə Pompeydən daha böyük uğurlar əldə etməyə çalışırdı. Lakin e.ə. 53-cü ildə onun Parfiyaya qarşı hərbi yürüşü Roma üçün fəlakətə çevrildi. Mesopotomiyada, Karr döyüşündə Mark Krass məğlub edildi və oğlu ilə birlikdə öldürüldü. 20000 Roma legioneri həlak oldu və bir o qədəri də əsir düşdü [Алиев, 1989, c.89]. Parfiya dərhal Suriyanı işğal etdi və Qüdsə qədər olan bütün əraziyə nəzarət etməyə başladı [Зеймаль, 1989, c.454]. Təbii olaraq Romanın Cənubi Qafqazdakı mövqeləri də zəiflədi. Yuli Sezar vəziyyəti düzəltməyi planlayırdı. Onun möhtəşəm planları var idi. O, ilk növbədə Parfiyanı cəzalandırmaq [Шифман, 1990, c.27], sonra isə Xəzər boyu alban torpaqlarından keçərək Şimali Qafqaza çatmaq və burada alan və sarmatları, Pont çarlığını, sonra german tayfalarını ram etmək və artıq işğal etdiyi Qalliyaya çataraq oradan İtaliyaya qayıtmaq istəyirdi [Дарабади, 2009, c.10]. Lakin, Sezarın gözlənilmədən öldürülməsi bu planların reallaşdırılmasına imkan vermədi.

Nəticədə, Sezarın bu planlarını onun sərkərdələrindən biri olan, İkinci triumviratın iştirakçısı Mark Antoni həyata keçirməyə çalışdı. Romanın bütün şərq əyalətlərinin hökmdarı olan Mark Antoni Misir kraliçası Kleopatra ilə yaxınlaşdı və İsgəndəriyyəyə yerləşdi. Buradan Mark Antoni e.ə. 39 və 38-ci ildə Parfiyaya uğurlu hərbi yürüşlər etdi. Lakin, e.ə. 36-cı ildə Parfiyanın müttəfiqi Atropataneya olan hərbi yürüş Fraaspa şəhərinin uğursuz mühasirəsi ilə bitdi. Bu hərbi yürüşün gedişində Antoni ordusunun böyük hissəsini və mühasirə texnikasını itirdi və Ermənistana geri çəkilmək məcburiyyətində qaldı [Плутарх: Антоний, 37-50; Алиев, 2004, c.107-108].

Mark Antoni öz uğursuzluğunda müqaviləni pozaraq romalılara köməyə gəlməyən erməni hökmdarı Artovazdı günahlandırdı. Artovazd İsgəndəriyyəyə gətirildi və orada edam edildi [Тревер, 1959, c.111]. Antoni Ermənistanı tərk edərkən öz sərkərdəsi Publi Kanidi Krassı burada qoydu və ona İberiya və Albaniyanı fəth etməyi tapşırdı. Bu tapşırıq Krass tərəfindən həyata keçirildi. Plutarxın məlumatına görə, Kanidi öncə İberiya hökmdarı Farnabazı məğlub etdi, sonra onunla ittifaq bağladı. Onlar birlikdə Albaniya hökmdarı Zoberə hücum etdilər və onu Romanın Albaniya üzərində hakimiyyətini tanımağa məcbur etdilər [Тревер, 1959, c.112].

Beləliklə, e.ə. I əsrin 30-cu illərində Roma Ön Asiya və Cənubi Qafqazda öz mövqelərini bərpa etməyə çalışmışdır. K.V.Treverin fikrincə Kanidi qarnizonlarını Ermənistan, İberiya və Albaniyada saxlamışdır, onlar isə Antoni tərəfindən edam edilən Artovazdın oğlu erməni hökmdarı II Artoşat tərəfindən məhv edildi. Bu dövrdə Antoninin Oktavian ilə mübarizəsi həlledici mərhələyə keçdi, Roma yenidən müvəqqəti olaraq Cənubi Qafqaz üzərində nəzarəti itirdi [Тревер, 1959, c.113-114]. Lakin mənbələrin təhlili və sonrakı hadisələrin gedişatı göstərir ki, vəziyyət K.V. Treverin göstərdiyi kimi heç də birmənalı deyildi.

İpək yolunun yuxarıda adları çəkilən 3 əsas marşrutunu ələ keçirməklə əsas Avrasiya yollarına nəzarət etməyə çalışan Parfiya və Romanın apardığı qlobal siyasi mübarizəsinin nəticələrindən bu marşrutların yolu üzərində yerləşən kiçik region dövlətləri əziyyət çəkirdi. Onlar öz coğrafi mövqelərini istifadə edərək ittifaqlar, müqavilələr, hakimiyyətini tanımaq və s. üsullarla daimi olaraq Roma və Parfiya arasında balansı qoruyub saxlamağa, tam müstəqilliklərini saxlaya bilməsələr də, ən azından daxili müstəqilliklərini saxlamağa çalışırdılar. Atropatena buna parlaq nümunə olaraq

göstərilə bilər. Lukull, Pompey, Krass və Antoninin hərbi yürüşləri zamanı o, Parfiyanın fəal müttəfiqi idi, lakin Antoninin Fraaspada uğursuzluğundan və geri çəkilməsindən sonra Parfiya hökmdarı IV Fraat Atropatenanı tam şəkildə özünə tabe etməyə çalışdı. Bu zaman onun hökmdarı Midiyalı Artavazd Mark Antoninin simasında Roma ilə yaxınlaşmağa başladı. Plutarxın məlumatına görə, e.ə. 34-cü ildə Antoni Atropatenanı ziyarət etdi, Artavazd ilə müqavilə bağladı, Kleopatradan olan oğluna Artavazdın qızını istədi [Плутарх: Антоний, 53]. "Kəfgir siyasəti" xarakterli bənzər tərəddüdlər Parfiya və Romanın qlobal qarşıdurması dövründə Cənubi Qafqaz və Ön Asiyanın bütün kiçik dövlətləri üçün səciyyəvidir.

Antoni üzərində qələbə çaldıqdan və e.ə. 30-cu ildə Misiri işğal etdikdən sonra Romanın Şərqdəki siyasətini nəhəng Roma imperiyasının tək hökmdarı olan Oktavian Avqust davam etdirdi. Parfiyada e.ə. I əsrin 20-ci illərində hökmdar IV Fraatın öz qardaşı Tiridat ilə mübarizəsi başladı, nəticədə Tiridat özü ilə IV Fraatın oğlunu da apararaq Romaya qaçdı. Avqust qardaşların mübarizəsində vasitəçi rolunda çıxış etdi. O, Fraata Tiridatı verməkdən imtina etdi, onu Parfiya ilə mübarizədə ehtiyatda saxladığı əsas vasitə kimi istifadə etdi, oğlunun qaytarılmasının qarşılığında isə IV Fraatdan bütün əsirləri və Roma legionlarının bayraqlarını geri qaytarmağı tələb etdi və bu tələblər yerinə yetirildi [Шифман, 1990, с.121].

Sonra Oktavian Avqust Atropatena taxtına IV Fraatın devirdiyi Artavazdı geri gətirdi, Ermənistan taxtına Romada yetişdirilmiş III Tiqranı oturtdu. Bu dövrdə Oktavian Avqust Romanın Cənubi Qafqazdakı mövqelərini də bərpa etdi. Ankira kitabəsi adlanan yazıdan aydın olduğu kimi, Albaniya, İberiya və Midiya hökmdarları elçilər vasitəsilə onunla dostluq etməyi xahiş edirdilər [Тревер, 1959, с.116]. Romalılar Ermənistan və Kolxidada öz legionlarını yerləşdirərək vəziyyətə ciddi şəkildə nəzarət edirdilər. III Tiqranın ölümündən sonra taxta keçən IV Tiqranın və onun bacısı Eratonun hakimiyyəti dövründə Ermənistanın Romanın nəzarətindən çıxma cəhdi fəlakətlə bitdi. IV Tiqran romalılarla müharibədə öldü, Erato taxtdan əl çəkdi, Ermənistanın idarə edilməsi Avqust tərəfindən Atropatena hökmdarı Artavazdın oğlu II Artobarzana verildi [Алиев, 1989, с.101]. İberiya və Albaniyada Roma ordusu yox idi, mənbələr Avqustun hakimiyəti dövründə Romanın onların işlərinə müdaxiləsi haqqında heç bir məlumat vermirlər və görünür ki, belə vəziyyət Romanı tamamilə qane edirdi. Vəziyyət sabitləşdi və demək olar ki, bizim eranın bütün I əsri boyu Roma və Parfiya arasında böyük hərbi qarşıdurma baş vermədi. Lakin bu, Parfiyanın Ön Asiya və Cənubi Qafqazda öz mövqelərinin zəifləməsini və Roma mövqelərinin güclənməsini qəbul etməsi demək deyildi.

Eramızın 14-cü ilində Avqustun ölümündən sonra 20-ci ildə Parfiya Atropatena taxtına öz Arşakilər sülaləsinin bir nümayəndəsini gətirdi. Atropatena tarixində Roma dövrü yekunlaşdı və Atropatena "Parfiya qucağına" geri döndü [Алиев, 1989, с.104]. Lakin Parfiya Ermənistanın da "arşakiləşdirilməsinə" çalışdığında Avqustun varisi Tiberi buna qəti şəkildə qarşı çıxdı. Bundan əlavə o, Albaniya və İberiya hökmdarlarını Böyük Qafqazın onlar tərəfindən nəzarət edilən dağ keçidlərindən köçərilərin-alan və sarmatların keçməsinə icazə vermələri üçün razı saldı. Köçərilər 35-ci ildə Parfiyanı məğlubiyyətə uğratdı və onun bir çox ərazilərini dağıtdılar [Тревер, 1959, с.118-119]. Sonra Roma özünün "parçala və hökmranlıq et" prinsipinə müvafiq olaraq b.e. I əsrinin ortalarında açıq şəkildə İberiyanı dəstəkləyərək İberiya və Albaniyanı bir-biri ilə toqquşdurdu. Görünür , Albaniya vəziyyəti müəyyən qədər tarazlaşdırmaq üçün Parfiya ilə yaxınlaşmışdı.

Yazılı mənbələrdə bu haqda məlumat olmasa da, arxeoloji tapıntılar məhz bu dövrdə Albaniya ərazisində çox sayda Parfiya sikkələrinin olduğunu göstərir [Расулова, 2008, с.146]. Albaniyada eramızın I–II əsrlərində gözlənilmədən yerli əhaliyə səciyyəvi olmayan qəbirlərin olduğu qədim məzarlıqlar meydana çıxmışdır. Bunlar Kürün sağ sahili yaxınlığında, müasir Göygöl rayonu ərazisində aşkar edilmiş çiy kərpiclərdən hazırlanmış sərdabə [Розендорф, 1906, с.86-108; Гуммель, 1940, с.145-160; Алиев, 1973, с.233-243; Гошгарлы, 2012, с.60-65] qəbirlər, eləcə də Kürün sol sahilinə bitişik ərazilərdə aşkar edilmiş gil-sarkofaq qəbirlər idi [Халилов, 1985, с.86-89; Бабаев, 1990, с.106-108; Алиев, Османов, 1989, с.56-67; Гошгарлы, 2012, с.76-81]. Bənzər növ qəbir formaları Parfiya ərazisində də geniş yayılmışdı və uzunmüddətli tarixi ənənəyə malik idi [Литвинский, 1983, с.81-122; Литвинский, Седых, 1983, с.100-104]. Bütün bu məzarlıqlar Mingəçevirdən aşağıda, Kür çayının

sağ və sol sahillərinin yaxınlığında qeydə alınmışdır. Şübhəsiz, Parfiya Albaniyada öz mövqelərini gücləndirmək üçün burada öz dövlətinin müxtəlif ərazilərindən tayfaları köçürmüş, onları Albaniyanın "Strabon yolu"nun albanlara aid hissəsi boyu ticari əməliyyatları nəzarət altında saxlamağa imkan verən strateji əhəmiyyətli ərazisində yerləşdirmişdi. Eramızın I əsrində Parfiyanın Albaniyaya təsirinin nə qədər böyük olduğu bizə məlum deyil, lakin I əsrinin ikinci yarısının siyasi hadisələrinin təhlili göstərir ki, münasibətlər vassallıqdan daha çox müttəfiq münasibətləri idi və Albaniya müstəqil daxili və xarici siyasət yürüdə bilirdi.

E.ə. I əsrin ikinci yarısında Şimali Qafqazın köçəri alan və sarmat tayfaları nəzərə çarpacaq qədər fəallaşdı. Roma və Parfiya, bir-biri ilə mübarizəni dayandırıb, köçərilərin Cənubi Qafqaza və Parfiya daxilinə, həmçinin Romanın Ön Asiyadakı əyalətlərinə basqınlarına qarşı mübarizə aparmaq üçün güclərini birləşdirmək məcburiyyətində qaldılar.

Eramızın 68-ci ilində imperator Neron Albaniyanın nəzarətində olan Dərbənd keçidi üzərində nəzarəti ələ keçirmək üçün Albaniyaya böyük hərbi yürüş planlaşdırırdı. İberiya bu dövrdə Roma tərəfindən idarə olunurdu, bu da Dəryal keçidi üzərində nəzarəti təmin edirdi. Albaniya bu dövrdə Romanın İberiya yönümlü siyasətinə görə Romaya qarşı müxalif mövqedə idi. Bu zaman Parfiyanın da Albaniya üzərində həqiqi nəzarəti yox idi. Belə vəziyyətdə Albaniya zərurət olduqda köçəri tayfaları Dərbənddən buraxa bilərdi. Albaniyanın tək başına müstəqil olaraq köçərilərin qarşısını almaq üçün zəruri hərbi resurslara ümumiyyətlə malik olmaması istisna edilmir.

Mənbələrdə bu hərbi yürüşün əsas məqsədi haqqında məlumat verilmir. Tasit qeyd edir: "Neron, albanlara qarşı müharibəyə hazırlaşaraq, Almaniya, Britaniya və İlliriyadan topladığı çox sayda hərbi qruplaşmaları Xəzər vadilərinə göndərdi, lakin onları yoldan geri qaytardı" [цит. по Расулова: 2008, с.148]. Digər Roma tarixçisi Qay Svetoni Trankvil məlumat verir: "O, Xəzər darvazalarına hərbi yürüşə hazırlaşırdı, İtaliyada boyu 6 fut olan gənclərdən yeni legion topladı və onu "Böyük İsgəndər falanqası" adlandırdı." [Гай Светоний, 1966; Нерон, 19]. Bu yürüş haqqında elmi ədəbiyyatda da yekdil rəy yoxdur. K.V.Trever, Neronun Dərbənd keçidini nəzarət altına almaqla yanaşı, heç kimdən asılı olmayan və öz iradəsi ilə köçərilərin öz torpaqlarından keçməsinə icazə verə bilən Albaniyanı cəzalandırmaq istəməsini istisna etmir [Тревер, 1959, с.121]. Tarixçi T.Mommzenə görə isə Tasit ümumiyyətlə alanları albanlarla qarışdırırdı və Neron Dərbənd keçidi deyil, Dəryal keçidi istiqamətində hərbi yürüş planlaşdırırdı [Моммзеи, 1949, т.5, с.356]. Bir sıra tədqiqatçılar hesab edirdi ki, Neronun bu planlaşdırılmış hərbi yürüşü Trans-Xəzər ticarət yolları üzərində Roma nəzarətinin qurulması üzrə hələ Pompey tərəfindən əsası qoyulmuş siyasəti davam etdirirdi [Кудрявцев, 1948, с.83-96; Расулова, 2008, с.148-149; Бокшанин, 1966, с.209].

Fərziyyə olaraq ehtimal etmək olar ki, Neronun planlaşdırılan bu hərbi yürüşdə əsas vəzifələrindən biri Parfiyanın Atropatena və Ermənistandan sonra Albaniya taxtında da öz Arşakilər sülaləsindən bir nümayəndəni təsdiq etməsinə imkan verməmək idi. Roma başa düşürdü ki, Ön Asiyanın və Cənubi Qafqazın həddən artıq "arşakiləşdirilməsi" Parfiyanın mövqeyini Romanın zərərinə olaraq gücləndirir. Məlum olduğu kimi, Neronun ölümü səbəbilə bu hərbi yürüş həyata keçməmiş, 4 il sonra isə b.e. 72–74-cü illərində bütün Ön Asiya alan-sarmat tayfalarının böyük basqını nəticəsində viran edilmişdi [Тревер, 1959, с.125].

Lakin, eramızın I əsrinin sonunda- imperator Domisian zamanı romalılar yenə də Xəzər sahillərinə gələ bildilər. Bunu Qobustandakı məşhur latın kitabə sübut edir. Kitabədə bunlar yazılmışdır: "İmperator Domisian, Sezar Avqust, Germanik, Lusi Yuli Maksim zamanı, XII legionun senturionu Fuliminata bu kitabəni hazırladı" [Джафарзаде, 1948, с.304-311; Пахомов, 1949, с.86; Тревер, 1959, с.127].

Domisianın bioqrafiyasının ətraflı təsvirini verən Roma tarixçisi Qay Svetoni Trankvill [Гай Светоний, 1966, с.210-220], onun Şərqə doğru hər hansı hərbi yürüşü haqqında məlumat vermir. Digər mənbələrdə də belə hərbi yürüş haqqında məlumat yoxdur. K.V.Trever ehtimal edir ki, hərbi yürüş "alan və digər şimal xalqları və dağ tayfalarının köməyi ilə" Albaniyanın özünün cənub istiqamətində başlanan genişlənməsi ilə əlaqəli ola bilər [Тревер, 1959, с.128]. Ola bilər ki, Roma bu şəkildə Albaniyaya burada kimin sahib olduğunu xatırlatmaq istəyirdi. I əsrin sonlarında Albaniya sərhədləri daxilində, Xəzərin qərb sahillərində Roma ordularının peyda olmasının səbəblərinin digər versiyaları da var.

Lakin, Roma və digər mənbələrin bu məsələ ilə bağlı tam səssizliyi səbəbilə, onların hamısı hələ ki, elmi fərziyyə və versiya səviyyəsində qalır.

Bütövlükdə Qobustandakı bu kitabə Romanın Albaniyaya qarşı marağını və imkan daxilində burada vəziyyəti nəzarəti altında saxlamağa çalışmasını nümayiş etməsinə görə diqqətəlayiqdir. Həmçinin qeyd etmək lazımdır ki, Albaniyanın Xəzər sahilləri Qədim Roma tarixi boyu Roma legionlarının ayaq basa bildiyi ən uzaq şərq ərazisi olmuşdur.

Bütövlükdə b.e. I əsrində Ön Asiya və Cənubi Qafqazda liderlik uğrunda mübarizədə qələbə Parfiyalıların oldu. Onlar Atropatena və Ermənistan taxtlarında öz Arşakilər sülaləsinin nümayəndələrini təsdiq etdirə bildilər və Albaniya ilə dostluq münasibətləri qurdular. Lakin, artıq b.e. II əsrinin əvvəllərində Roma Parfiya ilə mübarizəni yenidən başlatdı. İmperator Trayan Parfiyalıları sadəcə məğlub etmədi, həm də onların paytaxtı Ktesifonu işğal edərək dağıtdı və İran körfəzinə çıxdı [Тревер, 1959, с.129]. O, Ermənistan, Bosfor, Kolxida və İberiyanı Roma əyalətinə çevirdi, albanlara hökmdar təyin etdi. Tamamilə aydındır ki, Trayan Romanın hakimiyyətini qəbul etmiş şəxsi Albaniya hökmdarı olaraq təsdiq etdi. Beləliklə, bütün Cənubi Qafqazda yalnız Albaniya Roma əyaləti elan edilmədi. Bu qərarı verərkən Trayanın nəyi rəhbər tutduğunu K.V.Treverin sözlərinə görə "….demək çətindir, daha doğrusu mümkün deyil" [Тревер, 1959, с.129]. Lakin Romanın bu qələbəsi qısa müddətli oldu. 117-ci ildə Trayan öldü. Ondan sonra Romanın Şərqdə sistemli genişlənməsi bütövlükdə - Septimi Severin (b.e. 198-ci il) və Karakallanın (b.e. 215-ci il) yerli məqsədlərlə hərbi yürüşləri kimi qısa müddətli yürüşləri sayılmazsa – dayandırıldı. Roma işğallardan öz sərhədlərinin müdafiəsinə keçdi.

Trayanın varisi imperator Adrian qoşunlarını Parfiyadan çıxararaq Parfiya ilə Fərat boyu ənənəvi sərhəddi saxladı. O, qoşunlarını Ermənistandan geri çağıraraq burada taxtda Arşakilər sülaləsini bərpa etdi. Adrianın bioqrafı Eli Spartian onun haqqında yazırdı: "….albanlar və iberlərlə ən mehriban dostluq münasibətləri saxlayır, onların hökmdarlarına səxavətlə hədiyyələr verirdi, onlar isə onun dəvətinə laqeyd yanaşırdılar" [Тревер, 1959, с.130].

B.e. II əsrindən etibarən german tayfaları Romanın başağrısına çevrildi. Roma şərqdəki fəal siyasətindən imtina etməyə və Roma tacirləri üçün İpək yolu boyu Şərqlə ticarəti təmin etmək üçün Parfiya, eləcə də Ön Asiya və Cənubi Qafqazın demək olar ki, bütün digər dövlətləri ilə sabit dostluq əlaqələrini saxlamağa məcbur oldu.

Eramızın III əsrinin əvvəllərində Parfiyada hakim Arşakilər sülaləsinin yerinə yeni Sasanilər sülaləsi gəldi. Böyük İpək yolu marşrutları üzərində nəzarət uğrunda mübarizəni davam etdirən yeni qlobal siyasi oyunçuların – erkən feodal türk imperiyalarının, daha sonra isə ərəb xilafətinin meydana çıxdığı yeni dövr başladı.

ƏDƏBİYYAT:

1. Babayev İ.A., Qaqoşidze Y., Knauss F., Balaxvantsev A., İskenderov E.Ə., Alişov N.Ə., Gutschke F., Gutte M., Wüsten-Leyderwold G., Gentzsch C., Schöweitr J. Beynalxalq Şəmkir-Qaracəmirli arxeoloji ekspedisiyasının çöltədqiqat işləri haqqında / Azərbaycanda arxeoloji tədqiqatlar. 2011. Bakı: "Xəzər Universiteti", 2012, s.379-385.
2. Алиев И.Г. Очерки истории Атропатены. Баку, 1989, 160 с.
3. Алиев И.Г., Османов Ф. Ваночные погребения на территории древней Кавказской Албании и вопрос о парфянском элементе в юго–восточном Закавказье// Известия АН Аз.ССР, серия истории, философии и права, 1989, №1, с.56-67.
4. Алиев И.Г. Лжеистория – попытка оправдать агрессию. Баку: Нурлан, 2003, 48 с.
5. Алиев К. О неопубликованных сырцовых гробницах, раскопанных Я.И.Гуммелем / Материальная культура Азербайджана, т.VII. Баку, 1973, с.233-243.
6. Алиев К.Г. Античная Кавказская Албания. Баку: Азернешр, 1992, 238 с.
7. Алиев К. Плутарх о Марке Антонии / Труды научной конференции, посвящённой 80-летию академика Играра Алиева. Баку, 2004, с.106-110.
8. Бабаев И.А. Города Кавказской Албании в IV в. до н.э. – III в. н.э. Баку: Элм, 1990, 236 с.
9. Бокшанин А.Г. Парфия и Рим. Часть II. М., 1966.
10. Брашинский И.Б. Основные черты греко–варварской торговли в античном Причерноморье и её особенности в Колхиде / Кавказ и Средиземноморье. Тбилиси, 1980, с.95-101.
11. Всемирная история. Т.II. М.: Госполитиздат, 1956, 899 с.
12. Гай Светоний, Транквилл. Жизнь двенадцати цезарей. М., 1988.
13. Геродот. История/ Перевод и примечания Г.А.Стратановского. М., 2006.
14. Гозалишвили Г.К. О древнем торговом пути в Закавказье / Труды Института истории АН Груз.ССР, т.II, Тбилиси, 1956, с.153-160.
15. Гошгарлы Г.О. Из истории изучения «Дороги Страбона»/ «Дорога Страбона» как часть Великого шелкового пути Материалы Международной конференции. Баку, 28-29 ноября (2008 г.). Самарканд-Ташкент, 2009, с.33-40.
16. Гошгарлы Г.О. Типология погребальных памятников античного периода на территории Азербайджана. Баку, 2012, 248 с.
17. Гошгарлы Г.О. Рим и Кавказская Албания/ Этнокультурное наследие Кавказской Албании. Баку, 2019, с.46-52.
18. Гошгарлы Г.О. Азербайджан на Шелковом пути во II в. до н.э. – III в. н.э. / Азербайджан на Шелковом пути. Баку, 2020, с.38-99.
19. Гуммель Я.И. Археологические очерки. Баку, 1940, с.145-160.
20. Дандамаев Н.А. Мидия и Ахеменидская Персия/ История древнего мира: [кн.2]. Расцвет древних обществ. М., 1989, с.129-145.
21. Дарабади П. Геополитические процессы в Кавказско-каспийском регионе в античный период / Кавказ и глобализация. Т.III, выпуск 2-3, 2009, с.3-12.
22. Джафарзаде И.М. Древнелатинская надпись у подошвы горы Беюк-Даш // Доклады АН Аз.ССР, №7, 1948, с.304-311.
23. Егоров А.Б. Римская республика с середины II в. до 31 г. до н.э. / История древнего мира: [кн.3]. Упадок древних обществ. М., 1989, с.22-48.
24. Егоров А.Б. Римская республика с конца IV в. до середины II в. до н.э. / История древнего мира: [кн.2]. Расцвет древних обществ. М., 1989, с.432-451.
25. Зеймаль Е.В. Парфия и Греко-Бактрийское царство / История древнего мира: [кн.2]. Расцвет древних обществ. М., 1989, с.452-462.
26. Зеймаль Е.В., Ильин Г.Ф. Кушанское царство. Индия в начале I тыс. н.э. / История древне-

го мира: [кн.3]. Упадок древнего мира. М., 1989, с.220-230.
27. Иерусалимская А.А. К интерпретации главных трасс Великого Шелкового пути / «Формирование и развитие трасс Великого Шелкового пути в Центральной Азии в древности и в средневековье. Ташкент, 1990, с.58-60.
28. История древнего мира: [кн.2]. Расцвет древних обществ. М.: Изд. 3-е, ипр. и доп., 1989, 576 с.
29. Кудрявцев И.В. Восточная политика Римской империи в начале правления Нерона // Вестник древней истории, 1948, №2, с.83-96.
30. Левиатов В.И. Азербайджан с V в. до н.э. по III в. н.э. // Известия АН Аз.ССР, 1950, №1, с.65-92.
31. Литвинский Б.А. Погребальные сооружения и погребальная практика в Парфии / Средняя Азия, Кавказ и Зарубежный Восток в древности. М., 1983, с.81-122.
32. Литвинский Б.А., Седов А.В. Тепаш-шах (Tepai-Shah). М., 1983, 240 с.
33. Лордкипанидзе О.Д. О транзитно–торговом пути из Индии к Чёрному морю // Сообщения АН Груз.ССР, т.19, 1957, №3, с.373-389.
34. Моммзен Т. История Рима (Roman History). T.V. М.: Изд-во иностр. лит-ры, 1949, 631 с.
35. Немировский А.И. Понтийское царство и Колхида / Кавказ и Средиземноморье. Тбилиси, 1980, с.154-160.
36. Пахомов Е.А. Римская надпись I в. н.э. и легион XII Фульмината / Известия АН Аз.ССР, 1949, №1, с.79-88.
37. Плутарх. Сравнительные жизнеописания. Т.II. М.: Наука, 1994, 672 с.
38. Расулова М.М. Торгово–экономические и культурные связи Кавказской Албании с античным и эллинистическим миром (IV в. до н.э. – III в. н.э.). Баку: Мутарджим, 2008, 228 с.
39. Редер Д.Г., Черкасова Е.А. История древнего мира: ч.I. Первобытное общество и Древний Восток. М., 1979.
40. Розендорф Г.О. Раскопки Розендорфа / Отчёт Археологической Комиссии за 1903 г. Спб., 1906, с.86-108.
41. Сапрыкин С.Ю. Понтийское царство: Государство греков и варваров в Причерноморье. М.: Наука, 1996, 348 с.
42. Свенцицкая И.С. Эллинизм в Передней Азии/ История древнего мира: [кн.2]. Расцвет древних обществ. М., 1989, с.317-338.
43. Тревер К.В. Очерки по истории и культуре древней Армении (II в. до н.э. – IV в. н.э.). М.-Л., 1953.
44. Тревер К.В. Очерки по истории и культуре Кавказской Албании. М.-Л., 1959, 391 с.
45. Халилов Дж.А. Материальная культура Кавказской Албании. Баку, 1985, 236 с.
46. Шифман И.Ш. Царь Август (King Augustus). Ленинград, 1990.

Vəliyev Elnur
AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun "Arxeoloji xidmət" şöbəsinin böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent

QAFQAZ ALBANİYASI ƏRAZİSİNDƏ III–V ƏSRLƏRƏ AİD OLAN MADDİ-MƏDƏNİYYƏT NÜMUNƏLƏRİNDƏ (TOREVTİKA, RİTON, QRİFON) ZƏRDÜŞTLÜYÜN İZLƏRİ

Zərdüştilik təlimi dünyəvi və bəşəri əhəmiyyət daşıyan bir təlim kimi bir çox dünya din və mədəniyyətlərinə təsir göstərmişdir. Bir çox tədqiqatçıların fikrincə zərdüştilik dini e.ə. I minillikdə İranın şimali–şərqində Orta Asiya və İranda qədim İran tayfalarının dini inamları və mifik görüşləri əsasında yaranmışdır.

Qədim arilərin dünya görüşlərində mövcüd olan mifik obrazlar öz əksini "Avesta"da mövcud olan Faravaşi, Aşa, Dayena, Mitra, Veretraqna, Hvarna Raşnu, Vayu, Queş Urvan, Sraoşa, Ardvi-Sura Anahita və sairələri maddi–mədəniyyət nümunələrində (torevtika, riton, qrifon, qemma, möhürlərdə) tapmıdır. Azərbaycanın ilkin orta əsrlərdə mövcud olan dini dünya görüşlərini müəyyənləşdirmək baxımından tapılmış arxeoloji materialların, xüsusilə torevtika, riton, qrifon nümunələrinin öyrənilməsi xüsusi əhəmiyyətə malikdir. Əlbəttə bu materiallar, digər etnoqrafik materiallarla yanaşı eyni zamanda tarixi və ədəbi mənbələrlə əlaqəli şəkildə tədqiq olunmalıdır. Biz bu baxımdan Azərbaycan ərazisindən tapılmış torevtika, qrifon, möhür nümunələrini digər yaxın qonşu ölkələrin müvafik dövrə aid olan maddi mədəniyyət nümunələri ilə müqayisəli şəkildə tədqiq etməyə çalışacağıq. Azərbaycan torevtika nümunələri iki yolla əldə edilmişdir. Birincilər təsadüf nəticəsində tapılmış, ikincilər isə son illərdə aparılmış arxeoloji qazıntılar nəticəsində əldə edilmişdir. Arxeoloji materiallar yazılı mənbələrin ən bariz nümunəsidir.

Bakıdan tapılmış bardaq xüsusi diqqətə layiqdir. Ölçü etibarilə heç də böyük olmayan zərlə bəzədilmiş gümüşü bardaq öz dekorativ tərtibatına görə Sasani qabları ilə eyni tiplidir. Onun hündürlüyü 19 sm, eni isə 10 sm-dir (Şəkil 1). Bardağın üzərində bitkiyə bənzər zolaqlarla dörd romb həkk edilmişdir. Rombların içərisində xoruz, qırqovul, ot yeyən vəziyyətdə qartal və Simurq quşu təsvir edilmişdir. Üst aralıqda rombların arasında nəlbəkivari dairə içərisində altı künclü ulduzlar, alt hissəsində isə kiçik heyvan şəkilləri çəkilmişdir. Zolaqların kəsişmə nöqtələrində gül təsvirləri yerləşdirilmişdir [Кошкарлы, 1985, с.72].

Bardağın üzərindəki təsvirlər müxtəlif quş təsvirlərindən ibarətdir. Quş təsvirləri sasani incəsənətində xeyirxahlıq motivləri əsasında yaradılmışdır. Bardaqın mərkəzində təsvir olunmuş Simurq quşu İran, Orta Asiya və Azərbaycan mifologiyasında zoomorfik obraz kimi xeyirxahlıq rəmzi və eyni zamanda uzaq məsafəni bir anda qət edən nəhəng, sehr gücünə malik olan quş kimi təsvir olunur. Simurq quşu Avestaya görə dənizin ortasında bitmiş bir ağacın başında, "Şahnamə"yə görə isə Elbrus dağının zirvəsində yaşayır. Elbrus, Azərbaycan və ərəb folklorunda "Qaf" dağı hesab olunur. Azərbaycan nağıllarında Zümrüd quşu adlanan Simurq quşu ("Simnarın nağılı", "Məlik Məmmədin nağılı" və s.) iştirak etdiyi hər bir əsərdə qəhrəmana kömək edən, qara qüvvələri dəf edən canlı kimi tanınır.

Məşhur "Məlik Məmməd" nağılında Simurqun köməyi ilə Məlik Məmməd öz xain qardaşları üzərində qələbə çalır. Yəni Simurqun köməyi ilə xeyir şərə qalib gəlir.

"Avesta" fəlsəfəsinin əsas qütbləri olan xeyir və şər (Ahura-Mazda ilə Əhriman) arasındakı mübarizə mücərrəd anlayışdır. Buna misal olaraq, "Avesta"da deyilir (Yasna 30) "İlk başlanğıcda, düşüncə aləmində iki əkiz kövhər – yaxşı və pis düşüncə, əməl və davranış meydana çıxdı. Bu iki kövhərdən bədxah adamlar yox, xeyirxah adamlar doğrunu (xeyiri) seçdilər" [Авеста, 1998, s.130].

Xoruz təsviri Sraoşanın simvoludur və o, insanları şər qüvvələrdən qoruyur. Avestada Sraoşa "itaət" mənasında işlədilmişdir. Orta fars dilində "Sraoş", müasir fars dilində isə "Suruş" adlandırılmışdır. "Qatalar"da "dinə itaət" anlamında ifadə edilmişdir. "Avesta"da istər heyvanlara,



Şəkil 1. Bakıdan tapılmış bardaq, III–V əsrlər [Кошкарлы, 1985, s.121]

istərsə də quşlara qarşı münasibət ikilidir. Belə ki, Əhrimənin yaratdıqları insanlara bədxahlıq gətirən, Hörmüzdün yaratdıqları isə xeyirxah əməllərlə bağlı şəkildə ifadə edilir [Авеста, 1998, c.119]. Xeyir və şər antropoloji bir anlayış deyildirlər. Xeyir və şər insan şüurunda mövcüd olan tam əxlaqi və psixoloji aspektdir. Onların pozitiv və neqativ aspektləri özünü insanın xeyirxah fikir, söz və əməllərində biruzə verir.

"Avesta"ya görə Ahura-Mazdanın məskəni, qədim pəhləvi dilində "Elbur", indiki fars dilində və eləcə də bizdə "Elburs" adı ilə məşhur olan müqəddəs Berezant dağındadır. Əfsanəyə görə, yer üzündəki bütün dağların anası hesab olunan bu dağ yüksəlib göylə birləşməkdədir. Avestaya görə burada nə gecə, nə zülmət, nə soyuq nə isti külək, nə də öldürücü xəstəlik vardır. Bu dağın bir neçə zirvəsi vardır. Bunların içərisində "Tahir" adlanan zirvə dünyanın mərkəzi hesab olunur. Günəş, ay və ulduzlar da həmin zirvənin ətrafında dolanırlar. Bu dağın ətəklərində müqəddəs Vourukaşa dənizi yerləşmişdir ki, bu da bir çox alimlərin iddiasına görə indiki Kaspi–Xəzər dənizidir [Təhmasib, 1945, c.5].

Simurq quşu etimoloji baxımdan xüsusi diqqətə layiqdir. Şahnamə əsərini ingiliscəyə tərcümə edənlər onun bu cür mürəkkəb tərkibli adını bu quşun real təsviri ilə izah etməyə cəhd göstərmişlər. K.V.Treverin fikrinə görə "Simurğ" sözünün etimologiyası "ayina" (adenak) – "obraz", "it", son hissəsi "merevo" və yaxud "merv" – "quş" sözü ilə izah edilməlidir. Adın bu cür səslənməsi "saena mevo", "sen-murv" Simurğun zahiri görünüşü ilə də vəhdət təşkil edir [Тревер, 1937, s.25].

Xeyirxah heyvanlar həmçinin şər qüvvələrlə də mübarizə aparırlar. Belə ki Sraoşa, Pəridar (xoruz) səhər tezdən banlamaqla Əhriməni qorxudaraq qovur. İt isə öz baxışı ilə Əhriməni qorxudur ("Videvdat" 8.16-19) [Авеста, 1998, c.112].

"Videvdat"ın 13-cü və digər hissələri (fərgərd) itə həsr edilmişdir. Bu hissələrdə itin iştirakı ilə dini ayinlərin icra olunması və eyni zamanda itə qulluq göstərmək haqqında qaydalardan bəhs edir. "Avesta"da "it" öz müqəddəsliyi ilə demək olar ki, insanla bərabər tutulur. "Avesta"da itlər xeyirxah heyvanlardan hesab olunur ("Videvdat" 13-16), lakin itlərə pərəstiş, sonralar qəbul edilmirdi [Авеста, 1998, c.112-119].

"Sraoşa" adlanan xoruz Hörmüzdün (Xeyir ilahəsi) yaratdıqları sırasında sayılan və xeyirxah qüvvələrdən olub, səhərin açılmasını, yəni işığın Əhriman qüvvələri üzərində qələbə çalmasını xəbər verir . "Vaxtsız banlayan xoruzun başını kəsməsən evdə ölən olar" deyimi də güman ki, "Avesta" ilə bağlıdır. Zərdüştilik ənənəsinə görə, cahanda ilk insan və hökmdar olan Kəyumərsin oğlu Huşəngi divlər öldürür, o, xoruzun banlamasını uğurun başlanğıcı kimi qiymətləndirib onu iqamətgahına gətirir və xoruz həmişə sübh vaxtı banlayıb səhərin açılmasını xəbər verir. Bir dəfə Kəyumərs xəstələnir (xəstəlik,


ölüm isə Əhrimən tərəfindən törədilmişdir). Kəyumərsin xəstə olduğu axşamların birində xoruz banlayır. Xoruzun vaxtsız banlaması adamları təəcübləndirir. Çünki, axşam həm də "şər-vaxtı" adlanır. Adamlar gəlib görüriər ki, Kəyumərs ölüb. O vaxtdan etibarən xoruzun axşam banlaması belə bir deyimin yaranmasına səbəb olub [Abdulayev, 1989, s.9, 10].

Xoruz zərdüştilərin sevdikləri ev heyvanlarından biri idi. Xoruz Əhrimənin qüvvələrindən olan divlərlə mübarizə üçün yaradılmışdır. Dini etiqada görə səhər açılanda xoruzun banlaması onun Əhrimənə qarşı mübarizəsinin təzahürüdür. Xoruz banlamaqla yuxuda olanları oyadır, beləliklə də Əhrəmənin tənbəllik və ətalət yayan yuxu divinin insanlar üzərində qələbə çalmasına imkan vermir. Zərdüştilərin etiqadlarına görə gecələr dünyanı divlərin şərindən qoruyan mələkəyə xoruz və it kömək edir. Orta əsrlərdə xalq arasında belə bir etiqad yaranmışdır ki, guya xoruz olan evə şər yaxınlaşa bilməz [Dadaşzadə, 1985, s.57]. Xoruzla əlaqələndirilən etiqada Nizaminin əsərində də rast gəlirik: "Gələndə qara div, banladı xoruz, Döyüşə səslədi gurlayan təbil".


"Avesta"nın "Videvdat" bölümündə (18) Sraoşa Ahura-Mazdanın "təbil çalan" müjdəçisi, müqəddəs quşu (xoruzu) kimi ifadə edilir. "Yasna"da (57, 2) deyilir: "Sraoşa möminləri pis fikirlərdən, şər qüvvələrdən qorumaq, gecələr isə divlərə divan tutmaq kimi vəzifələri icra edir. Bunun üçün o, toppuzla onları qovur". Çox güman ki, sonrakı ellinizm dövründə yayılan əfsanəyə görə Sraoşa və Raşnu Mitranın silahdaşı kimi onunla birlikdə Çinvat körpüsünün üstündə dayanaraq ölən insanların ruhlarına hakimlik edir. Orta fars dili mənbələrdə Sraoşa ölmüş insanların ruhunu axirət dünyasına yola salır. "Avesta"ya görə bu vəzifəni Zərdüşt peyğəmbər özü icra edir [Dadaşzadə, 1985, s.98-119].

Xoruz təsvirinə sonrakı sasani torevtikasında rast gəlirik. Həmçinin onlar qemmalarda və eyni zamanda qaya üzərində də həkk edilmişdir. Qırqıvol obrazı sasani incəsənətində geniş yayılmışdır. Əsasən boğazında və ya dimdiyində lent təsvir edilmişdir. Onlara gemmalar, möhürlər və parçalar üzərində də rast gəlmək olar. Qartalın ot yeyən heyvanı parçalama səhnəsi sasani incəsənətində daha geniş yayılmışdır. Bununla yanaşı bu təsvirə əvvəlki dövrlərdəki məlumatlarda da rast gəlmək olar. Buna nümunə olaraq Nisədən tapılmış parfiya möhürlərini göstərmək olar. X.Bumerin fikrincə bu mövzu parfiyalılara, daha sonra isə sasanilərə keçmişdir. Qartalın ot yeyən heyvanı parçalaması səhnəsi bir adət olaraq payız və ya bahar fəsli ilə müşahidə olunur. Sasani torevtikasında bu cür süjetə Ufim dəfinəsindən tapılmış kasa üzərində, Perim incəsənət qalereyasında olan boşqab və həmçinin Ermitajda olan bardaqda rast gəlmək olar. Ermitajda olan bardaq, Bakıdan tapılmış bardaqla daha çox yaxınlıq təşkil edir [Кошкарлы, 1985, s.74-75].

Qədim Şamaxıda aparılan arxeoloji qazıntılar zamanı əldə edilmiş zəngin maddi-mədəniyyət nümunələrinin içərisində 1964-cü il qazıntıları zamanı aşkar edilmiş və yumşaq əhəng daşından düzəldilmiş bir əşya diqqəti cəlb edir. Bu abidə qırıqlar halında, e.ə I minilliyin son rübünə aid təsərrüfat quyularının birindən tapılmışdır (Şəkil 2) [Xəlilov, 1973, s.17]. Ritonun üst hissəsində iki insan, bir it başı qabarıq şəkildə təsvir edilmişdir. İnsan başı təsvirləri bir-birindən fərqlənir.



Şamaxıdan tapılmış riton e.ə I minillik



Şəkil 2. Bakıdan tapılmış bardaq, III–V əsrlər [Кошкарлы, 1985, s.124]

Bunlardan biri adamın uzunsifətli olması, ikinci isə birinciyə nisbətən girdə sifət olmasıdır. Bunlarla yanaşı onların hər ikisinin baş geyimləri araxçın (araxçın və ya tübətəy əsasən baş geyimləri papaq, çalma altından geyinirdilər) bənzədilmişdir. İnsan surətlərinin qulaqları və burunları qabarıq şəkildə verilmişdir. Gözləri və ağızları isə yonulma üsulu ilə verilmişdir. Burada diqqətimizi cəlb edən it başının təsviridir. İtin qulaqları kəsilmiş, gözləri isə oyulmuş şəkildə verilmişdir. Bu əşyanın dekarativ tərtibatı onun dini məqsəd daşıması şübhə doğurmur. Şərti olaraq riton adlanılan bu maraqlı əşya bir də onunla maraqlıdır ki, onu istiqamətini, tərsinə çevirdikdə o, piyalə formasını alar. İki insan və bir it başı piyalənin üç ayaqlı formasına çevrilir. Əlbəttə ki, onun məişətdə piyalə kimi istifadə edilməsi çətin olardı. Ona görə ki, riton sal daşdan düzəldilmiş və naxışlarında harmoniya olan bir sənət əsəridir. Çox güman ki, onu müəyyən dini mərasimlərdə içki qabı kimi istifadə etmişlər.

O.V.Leşenkonun ehtimalına görə, İran və ona bağlı olan ərazilərdə heyvan şəkli olan piyalələr və nəlbəkilər Haoma içkisi üçün nəzərdə tutulmuşdur. Buna misal olaraq Lənkərandan tapılmış at fiqurlu piyaləni göstərmək olar. O.V.Leşenkonun fikrincə bu at fiqurlu piyalə zərdüştilik dini ayinlərinin icra olunması üçün istifadə edilirdi [Лешенко, 1996, c.241]. Haoma "Avesta"da "Ham" – "sıxmaq" felindən götürülmüşdür. O, bitkilərdən hazırlanmış məstedici içkidir. Haoma kultu və onun icra olunma ənənələri hindari dövrünə (Zərdüştilik dininin meydana gəlməsindən öncəyə) təsadüf edilir. Haoma "Veda"lardakı "Soma" ilə uyğunluq (eyni tərkibli içki yalnız adları fərqlidir) təşkil edir [Борисов, Луконин, 1963, s.113]. Zərdüşt peyğəmbər "Qata"larda Haoma içkisini inkar edərək, onu şər əlaməti kimi qiymətləndirmiş (Avestanın "Yasna" 48.10) və onun içilməsini qadağan etmişdir. I Daranın (e.ə 522–486) hökmranlığı dövründən başlayaraq Haoma kultu öz əhəmiyyətini itirməyə başlayır. Sasanilərin hökmranlığı dövründə bu mərasim yalnız imperiyanın kənarında zəifləmiş formada qalmaqda idi.

Riton son dərəcə böyük ustalıqla düzəldilmiş və (dini ayinlərin icra olunmasında) piyalə funksiyasını daşıyır. Ritonun üzərindəki təsvirlərə gəldikdə isə, insan başları arasındakı fərdi xüsusiyyətlər, onlardan birinin kişi, digərinin isə qadın olması şübhə doğurmur. Ritonun üzərindəki qabardılmış üçüncü baş itə aiddir. Lap qədim zamanlardan Azərbaycan ərazisində yaşamış qəbilələr itə xüsusi münasibət bəsləmişlər. Buna görə də heç təsadüfü deyildir ki, itlə əlaqədar olan ayinlərə bəzən indi də təsadüf etmək olar. Azərbaycanın bəzi kəndlərində həyətlərdə it kəlləsi asırlar. Güya bu evdə yaşayan insanları bədnəzərdən qoruyur. Ümumiyyətlə it sədaqət simvolu hesab olunur.

İstər yazılı mənbələr, istərsə də arxeoloji materiallar Azərbaycan ərazisinin qədim sakinləri sayılan albanların itə xüsusi diqqət yetirdiklərini qeyd etmişlər. Belə ki, həm təsərrüfatda, həm də hərbdə itlər xüsusi əhəmiyyətə malik idi. Bunlarla yanaşı Strabon özünün "Coğrafiya" əsərində alban itlərinin ovda da böyük əhəmiyyətini qeyd edir. Arxeoloji qazıntılar zamanı Azərbaycan ərazisində son tunc və ilk dəmir dövrünə aid qəbir abidələrinin bəzilərində insan sümükləri ilə yanaşı, it sümüklərinə də təsadüf edilmişdir. Ritonun dövrü üçün qədim Şamaxı tapıntıları xüsusi əhəmiyyətə malikdir. Buradakı arxeoloji tədqiqatlar zamanı e.ə I minilliyin son rübünə və eramızın ilk əsrlərinə aid qəbir abidələrinin bir neçəsində insanı axirət dünyasına itin müşayiət etdiyi aydınlaşdırılmışdır. Bundan əlavə, məzarlarda tez-tez it skletlərinə təsadüf edilir. Bu isə öz növbəsində onların xüsusi mərasimlərlə dəfn olduğunu güman etməyə əsas verir [Борисов, Луконин, 1963, s.114]. III əsrdə yaşamış Yuli Solinin məlumatına görə, albanlar itləri vəhşi heyvanların üstünə göndərir və həmin itlər vəhşi öküzlər və şirləri məhv edirdilər. Yuli Solin qeyd edir ki, alban çarı belə itlərdən ikisini Makedoniyalı İsgəndərə bağışlamışdı [Xəlilov, 1973, s.16]. Göstərilən bütün mənbələrin verdikləri məlumatlarla yanaşı arxeoloji tapıntılar da albanların itə xüsusi əhəmiyyət verdiyini sübut edir. Böyük ustalıqla düzəldilmiş ritonun üzərindəki qabarıq şəkildə təsvir edilmiş iki insan və it başı da mövcud fikirlərin bariz nümunəsidir.

Bakıdan tapılmış bardağın üzərindəki təsvirlərdən biri qeyd olunduğu kimi qartal təsviridir. Bu baxımdan 1932-ci ildə Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun Zoğala kəndindən təsadüf nəticəsində tapılmış və Naxçıvan Dövlət Muzeyinə verilmiş qartal təsvirli tunc qrifon xüsusi diqqətə layiqdir.

E.ə I minilliyin ikinci yarısı və eramızın ilk əsrlərində Azərbaycan tarixinin öyrənilməsi üçün

Naxçıvan Muxtar Respublikası ərazisindəki maddi mədəniyyət abidələri mühüm elmi əhəmiyyətə malikdir. Məlumdur ki, Naxçıvan şəhəri antik dövrdə Azərbaycanın iqtisadi və mədəni cəhətdən inkişaf etmiş əsas ticarət mərkəzlərindən biri olmuşdur [Əliyev, Ağazadə, 1986, s.75].

Zoğala kəndi Naxçıvan şəhərindən 40 km şərqdə Əlincəçayın sol sahilində yerləşir. Kənd hər tərəfdən sıldırım qayalı dağlarla əhatələnmişdir. Buradan keçən ticarət yolu Əlincəçay vadisi Zəngəzur dağları və Batabat aşırımından keçərək dağlıq Qarabağadək uzanır. Bu yol Naxçıvanı cənubi Azərbaycanın qədim ticarət mərkəzləri ilə birləşdirir.

Zoğala kəndindən tapılmış tunc qrifonlar (Şəkil 3) haqqında İ.P.Şeblıkin "Örənqaladan və Naxçıvandan aşkar edilmiş qədim sütun altlıqları" adlı məqaləsində məlumat vermişdir. İ.P.Şeblıkin tunc qrifonlarla Naxçıvan diyarşünaslıq muzeyində tanış olduqdan sonra onların tapıldığı abidədə kəşfiyyat qazıntısı aparmış, lakin buradan sütun altlıqlardan başqa heç bir arxeoloji material əldə etməmişdir. O, sütun altlıqlarını məbəd tikintisi ilə əlaqələndirmiş və qrifonlar haqqında çox az məlumat vermişdir. Bu qrifonlardan biri hazırda Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyində, digəri isə Ermitaj Muzeyində saxlanılır [Əliyev, Ağazadə, 1986, s.75].

Qeyd etmək lazımdır ki, Ermitaj müzeyində saxlanılan qrif yuxarıda təsvir edilən qrifondan yalnız oturacaqsız olması ilə fərqlənir.

Qrifonlar və qriflər qədim şərq xalqlarının mifologiyasında əsas etibarı ilə aslan bədənli, qartal qanadlı, şir, yaxud qartal başlı təsvir edilir və simvolik xarakter daşıyır.

Qrif abidələrdə maddi–mədəniyyət nümunələrinə həkk edilmiş qartala bənzər əjdaha şəklində, qrifonlar isə şir və ya pələng bədənli, qartal və şir başlı bütöv fiqur şəklindədirlər. Naxçıvan fiqurları bu baxımdan məhz qrifonlardır. S.İ.Rudenko tipli qrifonları (şir və ya pələng bədənli, qartal başlı qrifonlar) "qartal qrifonlan" adlandırır. Qeyd etmək lazımdır ki, qrifon təsvirləri Qədim Şərqdə və antik incəsənət nümunələrində geniş yayılmışdır. Elmi tədqiqatlar nəticəsində qriflər Naxçıvandan başqa Azərbaycanın digər arxeoloji obyektlərində də aşkar edilmişdir. Mingəçevirdə aşkar edilmiş e.ə. IV əsrə tunc möhür hazırlanma texnikasına və sənətkarlıq xüsusiyyətlərinə görə Haxamanişin mədəniyyəti (Əhəmənilərin) abidəsi sayılır. Möhürün üzərində Haxamanişi incəsənətinə məxsus olan epik-mifoloji obraz, yəni qanadlı qrif təsvir edilmişdir. Bundan başqa yenə də bizə Mingəçevir abidəsindən tapılmış tunc qrifon quruluşlu kəmərlər məlumdur. Qrifon təsvirinə torpaqdan aşkar edilmiş gümüş vazanın üzərində də təsadüf olunmuşdur [Кacумова, 1993, c.48].

Buna analoji olaraq Şamaxı rayonunun Ləngibaz sıra dağlarının cənub ətəklərində, Hacıqədirli kəndindən 1 km qərbdə yerləşən Şərgah qədim qəbirsanlığında küp qəbirləri kompleksindən ibarət böyük bir qəbiristanlıq yeri aşkar edilmişdir. Burada 8 küp qəbir açılmış və bir sıra arxeoloji materiallar (gil, şüşə və sairədən hazırlanmış məişət qabları, metal, şüşə və müxtəlif daşlardan hazırlanmış bəzək əşyaları) aşkar edilmişdir. Lakin buradan tapılan maddi–mədəniyyət nümunələri içərisində öz orijinallığı ilə seçilən tunc qartal heykəli vardır. Qartal fiqurunun döş hissədəki 4,9 sm, açılmış qanadlarının ikilikdə eni 4,8 sm, dimdikdən quyruğa qədər uzunluğu 6 sm, altlıq hissəsinin hündürlüyü 2 sm, altlığın yaba dişinə bənzər hissə ilə birlikdə uzunluğu isə 4,3 sm-dir. Ümumiyyətlə, sənətkar heykəli hazırlayarkən fiqur hissələrində mütanasiblik qanununu gözləmiş və dəqiq simmetriyaya malik əsər yarada bilmişdir.

Quş təsviri olan maddi–mədəniyyət nümunələri Azərbaycanda tunc dövründən başlayaraq son orta əsrlərə qədər davam edən bir dövrün abidələrində öz əksini tapa bilmişdir [Nuriyev, 1972, s.74].

Arxeoloji məlumatları araşdırarkən qartal təsvirli nümunələrə antik dövr abidələrində də təsadüf etmək olar. Məsələn, antik mifologiyada və o dövrə məxsus abidələrdə Zevs öz intiqamını Prometeydən qartal gücü ilə alır. Bu baxımdan Zevsin qartalla təsvir edilməsi heç də təsadüfi deyildir. Lakin bütün bununla yanaşı qeyd etmək lazımdır ki, bu hal çox az hallarda rast gəlindiyi üçün bu haqda qəti fikir söyləmək çətindir [Тревер, 1959, c.317; Лукoнин, 1969, c.237; Бонгарад, 1983, c.34].

Arxaik miflərdə odun oğurlanması adətən quşlarla, daha dəqiq desək bir çox hallarda qartalla əlaqələndirilir. Lakin burada qəribə bir məqamla rastlaşırıq. Odla su ünsürləri bir-biri ilə əks qütbdə olduğu halda, bu funksiyaların qartal tərəfindən icra olunduğunu müşahidə edirik. "Veda" himnlərində qartal göylərdən İndra üçün Soma (Haoma) içkisini

gətirir (RV IV 27, 1). Görünür qartalın su ilə əlaqəsi bununla izah edilir. Qartal mifologiyalarda əsasən uşağın xilaskarı kimi də tanınır. Ermitajda Sasani imperiyasına aid (VI əsr) saxlanılan boşqab üzərində qartal və yanında iki uşaq təsvir edilmişdir. Oğlan uşaqlarının biri Mitranın digəri isə Koçinin simvolu kimi təsvir edilir [Мифы народов мира, 1992, с.2].

1963-cü ildə C.Ə.Xəlilovun rəhbərliyi ilə Şamaxıda (Xınıslıda) aparılan arxeoloji tədqiqat zamanı 32 №°li torpaq qəbirdə buna oxşar qartal heykəlinə təsadüf edilmişdir. Tapılan torpaq qəbir tipini müəllif IV əsrə aid edir.

Yaxın və Orta Şərqdə olduğu kimi, Azərbaycanda da qartal təsvirli abidələr Sasani imperiyasının təşəkkül tapdığı dövrdən etibarən rəmzə çevrilmişdir.

Mingəçevir məbədlər sahəsində aparılan qazıntı və tədqiqat işləri 1952-ci ildə başa çatdırıldıqdan sonra II məbədin mehrabından tapılmış yazılı daşın iri ağac xaç pyedestalı (sütun altı, bazası) olması haqqındakı fikir indi heç bir şübhə oyatmır. Bununla belə, bu qiymətli abidənin kamizində yerləşən 62 hərfdən ibarət alban yazısı və fasad hissəsində olan qarşı-qarşıya dayanmış iki tovuz quşu və onların arasındakı “dirilik ağacının” qabarıq təsviri bütün ilk orta əsr sənətşünaslarının və dilçilərinin nəzər diqqətini cəlb etməkdədir (Şəkil 4).



Şəkil 3. Naxçıvanın Zoğala kəndindən aşkar edilmiş tunc qrifon, III–VII əsrlər


Bu məbədin tapılan və üst hissəsində alban yazısı olan daşın yerləşdiyi pyedestalın və onun üzərindəki ağac xaçın hündürlüyü bizə məlum deyildir. Ancaq yazılı daşın ətrafına tökülmüş başqa daşların ölçüsünü nəzərə alaraq pyedestalın təxminən 1,2–1,3 m hündürlükdə olduğunu söyləmək olar. Qarşı-qarşıya dayanmış quş və ya heyvanlardan ibarət olan kompozisiya Yaxın Şərq və Şərq ölkələrində ilk orta əsrlərdən başlayaraq geniş yayılmışdır.

Sonralar bu kompozisiya Yaxın Şərqin xristian və hətta müsəlman abidələrində də tətbiq olunmuşdur. Belə kompozisiyalı təsvirlərə gümüş və tuncdan hazırlanmış müxtəlif qablarda, həmçinin daş abidələrdə qabarıq şəkildə, mayolika və toxuma parçalarda isə naxış kimi təsadüf edilir. Qədim Şərqdə bir incəsənət nümunəsi olan bu kompozisiya müxtəlif ölkələrdə və müxtəlif dövrlərdə bir-birindən bir qədər fərqli olaraq verilmişdir. Məsələn, bu növ kompozisiyanın ən geniş yayıldığı Sasanilər dövlətində qarşı-qarşıya dayanmış quşların boynunda getdikcə genişlənən lent və aralarında isə “dirilik ağacı” və ya qurbangah təsvir olunur. Xristian abidələrindəki təsvirlər isə bir neçə xüsusiyyətləri ilə fərqlənir. Əvvəllən, bu abidələrdə quşların boyunlarında lent göstərilmir. Digər tərəfdən, quşların arasında bəzən “dirilik ağacı” əvəzinə xaç təsviri verilir. Bəzi abidələrdə bu kompozisiya sadəcə olaraq qarşı-qarşıya dayanmış quş təsvirlərindən ibarət olur. Azərbaycan ərazisində belə təsvir hələlik Mingəçevirin yuxarıda qeyd etdiyimiz II məbədindəki xaç bazasından və Sumqayıt şəhərinin Yuxarı Fındığan kəndindən tapılmış qəbir daşından məlumdur. Qəbir daşının sağ hissəsində mərhumun adı və hicri tarixinin 789-cı (miladın 1384-cü) ilində vəfat etdiyini göstərən kitabə vardır. Kitabənin sol tərəfində isə çox kobud halda qarşı-qarşıya dayanmış iki quş təsviri verilmişdir. Quşların bədənlərinin uzunsov və quyruqlarının açılmış vəziyyətdə verilməsi göstərir ki, usta tovuz quşu təsvir etmək istəmişdir.

Üzərində quşlardan ibarət təsvir olan qəbir daşının tapılması bu kompozisiyanın İslam dini ilə əlaqədar olan abidələrə də yayıldığını göstərir. Kompozisiyanın mürəkkəbliyi, səlis işlənməsi və dövr etibarı ilə daha qədim olması nöqteyi-nəzərindən, Mingəçevirdən tapılmış təsvir xüsusi ilə maraqlıdır.

Q.N.Çubinaşvili bu qiymətli abidənin öyrənilməsinə həsr etdiyi məqaləsində başlıca olaraq iki məsələnin – abidə üzərindəki təsvirin mühitinin və abidənin dövrünün geniş analizini vermişdir. Birinci məsələnin həlli üçün müəllif təsvirin ümumi kompozisiyasını, tovuz quşlarını, onların boğazındakı lentləri və aralarındakı "dirilik ağacını" ayrı-ayrılıqda götürərək ətraflı təhlil etmiş və bu məsələyə dair mövcud olan geniş ədəbiyyat siyahısı vermişdir.


Orta əsrlərdə Azərbaycan ərazisində mövcud olan maddi və mənəvi mədəniyyət nümunələrin Zərdüştiliklə əlaqələndirilməsi nəticəsində belə bir nəticə hasil olmuşdur ki, Zərdüştilik mədəniyyəti Azərbaycan tarix və mədəniyyətinin mühüm bir hissəsi olmuşdur.



Şəkil 4. Mingəçevir məbədlər sahəsində aşkar edilmiş daş sütun altlıq (V–VI əsrlər)
[Искусство Азербайджана, 1976, s.33, 40]

ƏDƏBİYYAT:

1. Abdulayev B. Haqqın səsi. Baku: Azərnəşr, 1989, 140 s.
2. Dadaşzadə M. Azərbaycan xalqının orta əsr mənəvi mədəniyyəti (tarix ietnoqrafik tədqiqat). Bakı: Elm, 1985, 216 s.
3. Əliyev V.H., Ağazadə T.D. Zağalı kəndindən tapılmış tunc qrifon haqqında // Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri, №3, 1986, s.75-80.
4. Xəlilov C.Ə. Memarlıq incəsənət nümunələri / Azərbaycanın Maddi Mədəniyyəti. VII hissə. Bakı: EA Azərb. SSR, 1973, s.11-18.
5. Nuriyev A.B. Şamaxı rayonunda tapılmış tunc qartal fiquru // Azərbaycan SSR EA məruzələri, 1972, №11-12, s.73-76.
6. Təhmasib M.H. Əfsanəvi quşlar // Vətənin uğrunda. Bakı, 1945, 40 s.
7. Vahidov R.M. Mingəçevir III–VIII əsrlərdə (Arxeoloji qazıntılar əsasında). Bakı: EA Az.SSR, l961, 161 s., 10 s. ill
8. Авеста в русских переводах (1861–1996). СПб.: Нева, Летний сад, 1998, 480 с.
9. Бонгарад-Левин Г.М, Грантовский Э.А. От скифи до Индии. М.: Мысль, 1983, 206 с.
10. Борисов Л.Я., Луконин В.Г. Сасанидские геммы. Л.: Эрмитаж, 1963, 220 с.
11. Искусство Азербайджана IV–XVIII веков /А.С.Бретаницкий, Б.В.Веймарн. М.: Искусство, 1976, 272 с.
12. Касумова С.Ю. Азербайджан в III–VIII веках. Баку: Элм, 1993, 140 с.
13. Кошкарлы К.О. Античная и раннесредневековая торевтика из Азербайджана. Баку: Элм, 1985, 140 с.
14. Лешенко В.Ю., Оборин В.А. Новые находки восточного серебра в Прикамье // Советская археология, 1996, №3, с.241-245.
15. Луконин В.Г. Культура Сасанидского Ирана III–V. М.: Наука, 1969, 244 с.
16. Мифы Народов Мира. Т. 2. М.: Советская Энциклопедия, 1992, 719 с.
17. Тревер К.В. Очерки по истории культуре Кавказской Албании. М.-Л., АН СССР, 1959, 392 с.
18. Тревер К.В. Сэнмурв – Паскудж Собака – Птица. Л.: Эрмитаж, 1937, 74 с.



TARİX, ETNOLOGİYA, MƏNBƏŞÜNASLIQ

Əsədov Fərda
AMEA Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun "Ərəb ölkələrinin tarixi və iqtisadiyyatı" şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent

ƏRƏBLƏR, İSLAM və ALBANİYA: VII–X ƏSRLƏRDƏ MƏDƏNİ MÜHİTİN QARŞILIQLI ƏLAQƏLƏRİ VƏ TRANSFORMASİYASI

IV əsrdə Alban hökmdarı Urnayr xristianlığı rəsmi din kimi qəbul etdikdən sonra Qafqaz Albaniyasının siyasi elitasının mühüm hissəsi xristianlığı qəbul etdi, lakindövlətin ərazisində müxtəlif bütpərəst inanclar, məzdəkilik və zərdüştilik də yayılmışdı [Мамедова, 1986, с.186-187]. 642-ci ildə Sasani İranı üçün sarsıdıcı Nəhavənd döyüşündə qalib gələn ərəb-müsəlman ordusu müasir Azərbaycan ərazisində istilaçı yürüşləri davam etdirmək məqsədilə şimala doğru irəliləmək imkanı əldə etdi. Qafqaz Albaniyasında sosial-mədəni mühit, cəmiyyətin təməli və mövcudluq formaları necə idi? Müsəlman ərəblər işğal olunmuş ölkə və əyalətlərdə əhaliyə hansı yeni mədəni dəyərləri təklif edirdilər və Azərbaycan ərazisi müsəlman dünyasının yeni sərhədləri daxilində qəti möhkəmləndikdən sonra ölkədə dini və etnomədəni vəziyyətin müxtəlifliyi üçün imkanlar qorunub saxlanılırdımı?

Qafqaz Albaniyasında köçərilər və əkinçilər. Köçəri tayfalar və oturaq əkinçilər arasında münaqişə orta əsr icmalarının mövcudluq və inkişafının tarixi şəraitini formalaşdıran mühüm amillərdən biri olmuşdur. Bu münaqişə ən müxtəlif təzahürlərə və ölçülərə malik idi. Köçəri və oturaq tayfalar arasındakı qarşılıqlı münasibətlərin hərbi-siyasi və iqtisadi aspektləri təbii olaraq, başlıca əhəmiyyət kəsb edirdi. Bunlar münasibətlərin xarakterini antaqonistik olaraq müəyyən edirdi, belə ki, Avrasiya çöllərindəki köçərilərin iqtisadiyyatı mövsum köçlü və ya ekstensiv maldarlıq əsasında qurulurdu. Hər iki halda əkinçi və köçəri maldar icmaları arasında potensial münaqişə yaranırdı [Гомбожапов, 2010, с.31-32]. Mövsum köçlü maldarlıqla məşğul olan köçərilərin əkinçiliyə yararlı torpaqları mənimsəməsinə qismən zərurət yaranırdı. Ekstensiv maldarlıqla məşğul olan köçərilərin həyatı isə təbiət-iqlim şərtlərinin dəyişkənliyi ilə əlaqədar idi. Təbiət-iqlim şərtləri əlverişsiz olduqda köçərilərin sağ qalmaq üçün əkinçi əhalinin məhsullarını götürməkdən başqa çarəsi qalmırdı, yəni soyğunçu yürüşlər onlar üçün həyati zərurətə çevrilirdi [Крадин, 2000, с.324-325]. Bununla yanaşı, köçəri və oturaq tayfalar arasında münasibətləri nizamlayan həm də güclü xarici-iqtisadi faktor da mövcud idi. Malların müxtəlif xalqlar və qəbilələr tərəfindən məskunlaşmış geniş ərazilər üzərindən hərəkətini təmin etmək məqsədilə ticarət yollarına nəzarət zəruriliyi nəhəng köçəri imperiyalarının yaradılması və oturaq əkinçi icmalarla inteqrasiya üçün tələb yaradır və təkanverici qüvvə kimi çıxış edirdi [Крадин, 2000, с.329]. Köçəri imperiyalar ticarət yollarının fəaliyyəti üçün mühüm şərt idi, belə ki, güclü köçəri dövlət döyüşkən köçərilər tərəfindən məskunlaşmış çöllərdən bir neçə aylıq ticarət səfərlərinə yola düşən tacirlərin təhlükəsizliyini onların mallarının qorunmasına zamin olurdu.

Qədim dünyanın və orta əsrlərin böyük imperiyaları beynəlxalq ticarət yollarının mühüm sahələri üzərində siyasi nəzarəti əldə etməyə can atırdı, lakin Qafqaz və Volqaboyu çöllərə iddia etmirdi – bu ərazilər Avrasiyadakı köçərilərin dünyası olaraq qalırdı. Bu dünya ilə sərhədlərin bərkidilməsi hərbi zərurət olmaqla yanaşı, iki dünya arasında mədəni sərhəd rolunu da oynayırdı. Bu sərhədlərin hər iki tərəfində bir-birinə qarşı duran iki mədəni məkan mövcud idi.

Cənubi Qafqazın digər əyalətləri ilə müqayisədə Albaniya oturaq əhalinin şimaldan gələn köçərilərlə daha intensiv əlaqədə olduğu ərazi idi. Qədim və orta əsrlər dövründəki ticarət yolları şimalda Avrasiya köçərilərinin olduğu ərazilərdən – Böyük Qafqaz sıra dağlarından qərbi Xəzəryanı ərazilər boyu cənubda Orta Şərqin ticari mərkəzlərinə doğru uzanırdı. Bu ticarət yolunun erkən dövrlərdə mövcud olduğunu təsdiqləyən etibarlı məlumatlar bizə Strabondan gəlib çatmışdır. Strabon böyük ehtimalla b.e. II əsrində və ya ondan əvvəl köçəri aors xalqının midiyalı və erməni tacirlər

vasitəsilə Yaxın Şərq və Hindistanla karvan ticarəti apardığını bildirir. Aorslar Xəzəryanı ərazilərin böyük hissəsini (ehtimalla, şimal-qərb və şimal hissəsini) öz nəzarətləri altında saxlayır və bu ticarətdən böyük gəlirlər əldə edirdilər [Страбон, 1964, с.480]. Bu ticarət yollarını mənimsəyərkən köçəri qrupları həm də ticarət marşrutları boyu uzanan ərazilərə tədricən nüfuz edirdilər.

Köçərilərin Albaniyada məskunlaşmasına həm də öz dövlətinin uzaq şimal sərhədlərini qorumaq məqsədi güdən Sasani İranının köçürmə siyasəti səbəb olurdu. Sasanilər dövlətinin şimal sərhədləri II Yezdəgirdin zamanından başlayaraq Xosrov Ənuşirəvan tərəfindən möhkəmlənənə qədər Sasani hökmdarlarının istilaçı yürüşləri nəticəsində Qafqaz dağlarına doğru irəliləmişdir. Nəticədə köçərilərlə iqtisadi və mədəni birgəyaşayışın formaları yaranırdı. Bu haqda Strabonun aşağıdakı sözlərinə əsasən fikir yürütmək olar: "Albanlar maldarlığa daha çox meylli olmaqla köçərilərə daha yaxındırlar, lakin barbar deyillər və bu səbəbdən elə də döyüşkən deyillər" [Страбон, 1964, с.475].

Erməni mənbələri Kürdən şimala doğru ərazilərin burada ərəblər peyda olana qədər köçəri xonların ölkəsi olduğuna dair kifayət qədər məlumatlar saxlamışdır [Sebeos, 1999, p.32]. Öncəki Sasani məlumat mənbələrini günümüzə qədər qoruyub saxlayan ərəb müəlliflər də eynisini təsdiq edirlər. Ərəb tarixçisi əl-Bəlazuri bildirir ki, Xosrov Ənuşirəvan (530–578) taxta çıxmamışdan əvvəl Arran (Qafqaz Albaniyası) və Curzan Xəzərlərin, Ermənniyyə isə Bizansın tabeliyində idi. Bundan başqa, Xəzərlər vaxtaşırı cənuba doğru hücumlar edir və Sasanilərin Dinavər qalasına çatırdılar. Qalanın xarabalıqları İranın qərbində müasir Kərmanşah şəhərindən şimalda yerləşir. Antik Qafqaz Albaniyasının paytaxtı Qəbələ şəhəri isə Xəzərlərin inzibati mərkəzi olmuşdur [Imamo Ahmed ibn Yahja ibn Djabir al-Beladsori, 1866, p.194-195].

Məhz Xəzərlər qalibiyyətli ərəb istilaçılarının keçmiş Sasani dövlətinin hüdudlarına doğru irəliləməsinə qarşı lazımi müqaviməti göstərə bilərdilər. Xəzər dövləti 640–657-ci illərdə sülalə davası nəticəsində süquta uğramış Qərbi-türk xaqanlığının varisi idi, başqa dillə desək, Xəzər xaqanlığı demək olar ki, Ərəb xilafəti ilə həmyaşıd idi.

Müsəlman ərəblərin köçərilərə münasibəti. Müsəlman dövləti ağ vərəqdən başlamadı, sələfləri tərəfindən sınanmış yolu təkrarladı. Sasani İranının yerini tutan ərəblər əvvəlcə yerli əhali ilə və regiondakı siyasi qüvvələrlə qarşılıqlı münasibətlərə dair öz modellərini müəyyən etməli idi. Bizansla siyasi və ideoloji maraqların toqquşması davamlı qarşıdurmaya gətirib çıxardı. Mərkəzi Asiyada türklərlə arasıkəsilməz müharibə gedirdi və ərəblər onlarla sərhəddə ilk dəfə hücumdan müdafiəyə keçdilər [Бартольд, 1963, с.244]. Sasanilər dövləti süquta uğradıqdan və Cənubi Qafqazda ərəblər peyda olduqdan sonra nə dəyişdi? Müsəlman ərəb istilaçılar köçəri dünyası ilə ərəblərin Qafqazda Sasani sərhədlərinə doğru irəliləməsindən sonra öncə mövcud olan "modus vivendi" şərtlərini yeniləyə bildilərmi?

Yeni imperiya beynəlxalq ticarətdə və siyasətdə öz yanaşmaları ilə yanaşı itaətsiz və döyüşkən köçərilərlə münasibətlərin strategiyalarını axtarırdı. Təqribən VIII əsrin sonlarınadək Mərkəzi Asiyada və Qafqazda türklərlə qarşıdurma xətti davam edirdi və ərəblər artıq köhnəlmiş müdafiə sədlərini qaydasına salırdılar [Асадов, 2012, с.163]. Sonrakı dövrdə ümumi maraqlar formalaşmış və ticarət marşrutları yenilənmişdir. Ərəblər amansız hərbi toqquşmaların nəticəsində əvvəlcə düşmən kimi qəbul edilsələr də, sərhədlərdə türk dünyası ilə mədəni qarşılıqlı münasibətlərə bəlkə də farslardan daha çox hazır idilər. Hədislər və Məhəmməd peyğəmbərin və səhabələrinin həyat və fəaliyyəti haqqında dini hekayələr köçəriləri mədəni dünyanın düşmənləri kimi təsvir edən digər oturaq xalqların rəvayətlərində olduğu kimi döyüşkən türklər haqqındakı ilk təəssüratları əks etdirirdi. "Türklər sizə toxunmadığı müddətcə siz də onlara toxunmayın" - rəvayətdə Məhəmməd peyğəmbərin vəsiyyəti olaraq bildirilmişdir. "Türklər mənim xalqımın torpaqlarını əlindən ala biləcək ilk xalq olacaqdır" – guya peyğəmbər belə deyib [ал-Хамадани, л.168а]. Lakin bunlar ilk təəssüratlar idi. Sonralar dinc birgəyaşayış üçün şərait yaratmaq mümkün oldu. Bildiyimiz kimi, demək olar ki, bütün türk xalqları müsəlman dünyasının bir hissəsinə çevrildi. L.Qumilyovun dili ilə desək, ərəb və İslam tarixindən əvvəl müsbət komplimentarlığın zəruri səviyyəsi hazırlanmışdır. Müsəlman ərəblərin mənəvi-etik dəyərlər sistemində oturaq və köçəri əhali arasındakı tarixi münaqişə vəziyyəti ərəblərin yad köçərilərə qarşı münasibətini təyin edən faktor olaraq qəbul edilməlidir. Hər şeydən əvvəl, İslam meydana gələnə qədər ərəb qəbilələrinin bir-birini qəbilə adları və genealogiyalara görə ayırd

etməsinə diqqət yetirək. Müəyyən vahid ərəbdilli icması mövcud idi, lakin etnosiyasi birlik və onu təyin edən ad yox idi. Bununla yanaşı, ərəb cəmiyyəti mədəni-iqtisadi baxımdan bir-birinə qarşı olan şəhər əhalisinə – tacirlərə və sənətkarlara və köçəri bədəvilərə ayrılırdı. İslam bədəvilərdən çox Quran ayələrinin xitab etdiyi oturaq "kənd əhalisinin" dini idi. Lakin yeni dinin elan etdiyi birlik həm bunları, həm də digərlərini birləşdirdi, ad olaraq isə "çöl adamı", "səhra adamı", "köçəri" mənası verən "ərəb" sözünü qəbul etdi [Грязневич, 1982, с.75, 95-96].

Bu cür birlik Ərəbistan yarımadasında qədim dövrdən bəri köçərilərin və şəhər sakinlərinin dünya ətir ticarətində hər birinin öz rolunun olduğu mühit formalaşdırması sayəsində mümkün olmuşdur. Bu cür ümumi maraqlar siyasi və ideoloji baxımdan bütün qəbilə genealogiyalarının eyni əcdaddan – qəbilə eponimlərindən törəndiyi sistemə daxil edildiyi birlik kimi, dini birliyi irəli sürən İslamın meydana gəlməsi ilə reallaşdırılmağa başladı. Qurandan əvvəlki yazılı və şifahi ənənələrdə ərəblərin ümumi xalq kimi göstərilməsinə demək olar ki, rast gəlinmir. Bəzən ərəb qəbilələri arasında mövcud olan rəqabətə və şəhər sakinləri ilə bədəvilər arasındakı antaqonizmə işarət edilir. Lakin bu rəqabət və qarşıdurmaya həm bir-birinin xüsusiyyətlərinə dair biliklərin, həm də bir-birini qarşılıqlı qəbul etmənin mövcud olduğu dəyərlər sistemi olaraq baxmaq lazımdır. Yüzilliklər ərzində bu etnomədəni mühitin oturaq həyata keçid etmiş nümayəndələri nəcib köçəri obrazına yüksək ehtiram bəsləyirdilər [Грюнебаум, 1981, с.13, 18].

Beləliklə, şəhərli ərəblər üçün köçərilərin dünyası düşmən mühit deyil, əksinə onların anlayışında yetərincə qiymətli, həm də peyğəmbərin və İslamın tarixi ilə təqdis edilmiş mədəni-etik dəyərlər sistemi idi. Bir neçə yüzilliklər sonra görkəmli ərəb alimi-sosioloq İbn Xəldun (XIV əsr) oturaq və köçəri əhalinin birliyini nəzəri olaraq izah etmiş və özünün məşhur "Müqəddimə" əsərində bu cür ifadə etmişdir: "...Bədəvilər öz [həyat] şəraitlərində yalnız zəruri olanlarla məhdudlaşmış və bundan başqa heç nəyi olmayanlardır; şəhər sakinləri isə həyatlarında daha az zəruri şeylərin və dəbdəbə predmetlərinin qayğısını çəkirlər. Lakin şübhəsiz zərurət dəbdəbədən əvvəl tələb olunur və sonuncudan əvvəl gəlir. Çünki zərurət kök, dəbdəbə isə ondan yetişən budaqdır. Beləliklə, bədəvi həyatı şəhərlər və şəhər həyatının əsasını təşkil edir və ondan əvvəl gəlir. Çünki insan ilk olaraq zəruri olanı istəyir və dəbdəbə haqqında yalnız onu [zəruri olanı] əldə etdikdə düşünür [Бациева, 1982, с.327].

İslam və qeyri-ərəb xalqları. Qəbilə sərhədlərini keçmiş, bədəviləri və şəhər sakinlərini birləşdirmiş və Ərəbistan yarımadasında mədəni-bütpərəst birliyi siyasi sistemə çevirmiş İslam milli dəyərlər sistemi kimi yaranır, lakin ümumdünya dini kimi formalaşırdı. Müqəddəs Kitabın, ayinlərin, dini ədəbiyyatın dili ərəb dilində olub və bu gün də elədir. Müsəlman hüququnun presedentləri Məhəmməd peyğəmbərin həyat və təcrübəsindən və onun Ərəbistan yarımadasındakı əhali, əsasən ərəb qəbilələrinin nümayəndələri ilə qarşılıqlı münasibətlərindən irəli gəlirdi. Siyasi arqumentasiyanın ənənəvi formaları, elmə münasibət, hüquqşünaslıq texnikası – bütün bunların kökü və mənşəyi ərəb təcrübəsindən gəlirdi. Bundan başqa, müsəlman icmasına daxil olmaq üçün qeyri-ərəb xalqlarının islamaqədərki şəxsi təcrübəsinin bağlı olduğu müvəqqəti və coğrafi sərhədləri aşmaq lazım idi. Ərəbləşdirmə bunun üçün vasitə rolunu oynadı. Neofitlərinin özləri üçün də islamlaşma və ərəbləşmə demək olar ki, fərqlənmirdi [Грюнебаум, 1978, с.38].

Yerli əhalinin ictimai-siyasi münasibətlər və mədəni dəyərlər sisteminə daxil olmasına imkan verən mühüm sosial institut "vəla" adlanan klientela sistemi idi. İslamın qəbulu adlı-sanlı müsəlman ərəbin himayəsi altında baş verə bilərdi ki, bunun da nəticəsində İslamı yeni qəbul etmiş şəxs öz hamisinin qəbiləsinin müştərisinə (mövlasına) çevrilirdi, yəni rəsmi olaraq öz həmqəbilələrinin statusuna çatırdı.

Şübhəsiz, praktikada "məvalilər" (mövlalar) öz rəsmi ərəb "həmtayfalı"larının imtiyazlarından tam yararlanmırdılar. Məvalilər yüksək dövlət xidmətinə buraxılmır və adətən başqa dinə mənsub olanlardan tutulan vergiləri ödəyirdilər. İslamın ilk iki əsri ərzində, ərəb Əməvilər sülaləsinin hakimiyyətdə olduğu onillik ərzində vəziyyət belə olmuşdur. Abbasilərin inqilabı (750-ci il) sadəcə xilafətdə hakim sülalənin dəyişməsi deyildi, həm də qeyri-ərəb müsəlman əhalinin də dəstəklədiyi sosial hərəkat idi. Nəticədə müsəlman ölkələrin ərəb və qeyri-ərəb əhalisinin sosial-iqtisadi hüquqları bərabərləşdi. İstila olunmuş xalqların milli ənənələri ərəbləşmə və islamlaşma prosesində İslam sisteminə daxil olurdu.

İslamın dünya dini kimi əhəmiyyəti həmçinin digər formalaşmış dünya dinlərinə, hər şeydən öncə xristianlığa təsirdə də təzahür edirdi. Xristian

eykümenizmi - müasir xristian dünyasında müxtəlif doqmatik ziddiyyətlərinin aradan qaldırılması istiqamətindəkitendensiyalar–ilkinolaraqmüsəlman universalizmi şəraitində və təsiri altında yaranmağa başladı. Vahid intellektual məkanda və müsəlman hüquqşünaslar və ilahiyyatçılarla təmasda fəaliyyət göstərən şərqi-xristian ilahiyyatçılar xristianlıq dininin ideya-doqmatik bütövlüyünü əsaslandırır və xristianlığın ardıcıllarında öz dinlərinin bütövlüyünə dair anlayış formalaşdırırdılar [Селезнев, 2012, c.84-85].

Əlbəttə, İslamın özünün doqmatik inkişaf mərhələsi bitdikdən sonra dövlət idarəetməsi, hakim elitanın formalaşması, bilik nəzəriyyəsi və ilahi dərketmə ilə bağlı görüşlərdə eynilə daxili doktrinal fikir ayrılıqlarının aşkarlandığını qeyd etmək mümkündür. Bu fikir ayrılıqları həmçinin müsəlman icmaları arasında dərin nifaq və ədavətə səbəb olurdu. Lakin qeyd olunmalıdır ki, bu ixtilafların radikallaşması etnokonfesssional və sosial münaqişələr zəminində baş verirdi. Bundan başqa, İslamda həmişə təfriqənin güclü alternativi olaraq universallıq ənənəsi mövcud olmuşdur. Burada biz həm də regionda İslamın gəlişi ilə meydana gəlmiş yeni tendensiyaları nəzərdən keçiririk, yəni müzakirə obyektini xilafət cəmiyyətinin mövcud olduğu dövr və ya müsəlman dünyasının böhrandan əvvəlki dövrü təşkil edir.

Ərəblik şübhəsiz, yeni dinin səciyyələndirən bir xüsusiyyət idi, lakin digər xalqların da İslam mədəni dəyərlər sisteminə daxil olmasında keçilməz maneə olmadı, belə ki, bu prinsip olaraq müəyyən edilməmişdi, lakin təbii və vaxtında irəli sürülmüş universallığa gətirən vasitə idi. Önəmli olan dini təlim, onun məfkurə-məna yükü və İslamda milli-etnik sərhədlərin olmadığının vurğulanması idi. Bu Qurandakı aydın yanaşmalar və sonrakı dini ədəbiyyatla təsdiqlənirdi.

Ərəblər Azərbaycanda: əhalinin islamlaşması. Kifayət qədər məlumatı olmayan bəzi müəlliflərin əsərlərində guya ərəblər tərəfindən fəth olunmuş əyalətlərin əhalisinə qarşı irəli sürülmüş sərt ultimatuma dair iddialara rast gəlmək mümkündür. Guya əhaliyə ya İslamı qəbul etmək, ya da döyüşmək təklif olunurdu, məğlub olduqda isə mülklərindən və azadlıqlarından məhrum olurdular. Əslində isə Quran və İslam ehkamlarının əsasları və hüquqları İslamı qəbul etməyə məcbur etmirdi, iqtisadi və ideoloji üsullarla buna təşviq edirdi. Ərəb istilalarının yolunda dayanan xalqlar və hökmdarlar öz dinlərində və ənənələrində qalmaq, lakin bu zaman xərac və can vergisi ödəməklə bağlı müəyyən iqtisadi öhdəliklər götürmək, yaxud da İslamı qəbul etmək arasında seçim edə bilərdilər. Üçüncü seçim də var idi – döyüşmək. Müsəlman hüququ fəth edilmiş torpaqların bu müxtəlif statuslarını tənzimləyirdi və müvafiq olaraq yerli əhali ilə münasibət təcrübəsi formalaşırdı. Fəth olunmuş torpaqlar və əhali üzrə iki hüquqi status yaranırdı: güc yolu ilə (ənvətən) və sülh yolu ilə (sülhən) tabe olunmuş torpaqlar. Sonuncu tərəflər arasında sülh müqaviləsi ilə rəsmiləşirdi [Колесников, 1982, c.148].

Azərbaycan, Muğan və Qafqazın digər əyalətləri ilə bu cür müqavilələrin mətni qorunub saxlanmışdır. Bəzi müqavilələrin rus dilinə tərcüməsini Z.M.Bünyadovun kitabında tapmaq mümkündür [Буниятов, 1965, c.80-81]. Qafqaz Albaniyası Sasanilərin hakimiyyəti altında olan ölkə kimi ərəblərə qarşı döyüşlərdə iştirak üçün öz qoşununu göndərdi. Albaniya hökmdarı Varaz-Qriqor öz ikinci oğlu qorxmaz sərkərdə Cavanşiri bu qoşunun başçısı təyin etdi. O igidcəsinə döyüşdü və öz süzereni tərəfindən rütbəyə layiq görüldü [Vəlixanlı, 1993, c.18]. Lakin Sasani dövlətinin sonunun yaxınlaşdığı aydın idi. Cavanşir də haqlı olaraq artıq süquta uğramaqda olan imperiyanın hərbi qüvvələrini alban torpaqlarına buraxmamağa qərar verdi. O farslarla döyüşdü və onlara əsir düşmüş atasını əsirlikdən xilas etdi [Каланкатуаци, 1984, c.96-97]. Alban hökmdarları Varaz Qriqor və oğlu Cavanşir qüvvələrini məharətlə əlaqələndirirdilər – cənubda ərəblər, qərbdə bizanslılar, şimalda isə xəzərlər arasında manevr edirdilər. Bir müddət bu, dövlətin müstəqilliyini və nisbi sabitliyi qoruyub saxladı [Буниятов, 1965, c.100-102]. Lakin maraqlısı odur ki, sərkərdə Cavanşir öz strateji əlaqələrini məhz xəzərlərlə hun hökmdarının (xəzər xaqanlığının vassalı) qızı ilə evlənməklə qurur [Каланкатуаци, 1984, c.102-103]. Bu nəhəng dövlətlərdən siyasi müstəqillik əldə etmək üçün köçərilərlə əvvəlki tərəfdaşlıq axtarışı strategiyası ilə tam uyğun gəlir. Alban hökmdarı xəzərlərlə ittifaqa sadiq qalırdı və ola bilsin ki, bu onu daxilində iğtişaşların başladığı Ərəb xilafətinin ekspansiyasından qoruyurdu [Новосельцев, 1990, c.175].

Köçərilərin, son illərdə ərəb işğalından əvvəl isə türk-xəzərlərin Azərbaycan ərazisinə nüfuz etməsi və məskunlaşması artan qaydada davam

edirdi. Ərəb-xəzər müharibələrinin təsvirində ayrı-ayrı hadisələr bir-birinə qarışır və bunlara əsasən çoxmillətli əhalinin arasında xəzər dilində yaxşı danışan insanların olduğu nəticəsinə gəlmək mümkündür. Şəhər sakinlərinin arasında İslamı qəbul etmiş xəzərlər də var idi. Onların bəziləri ərəblərə yardım edirdi. Guya İslama keçmək istəyən xəzər döyüşçüsünün xəyanəti sayəsində ərəblər Dərbəndi ələ keçirə bildilər. Lakin əl-Kufi bildirir ki, ərəb sərkərdəsi Mərvanın gedişindən dərhal sonra xəzərlər "əl-Bab şəhərinə qayıdaraq əvvəlki kimi burada yerləşdilər" [ал-Куфи, 1981, с.14-15]. Ərəb mənbələrinin Arranın, yaxud Albaniyanın mərkəzi hissəsinin işğalına dair məlumatları burada böyük toqquşmaların olmadığını deməyə imkan verir. Fərz etmək olar ki, bu dövrdə iri miqyaslı istilaların bütün istiqamətləri üzrə hadisələri işıqlandıran ərəb müəllifləri üçün ərəb qoşunlarının Albaniyadakı hərəkətləri ikinci dərəcəli görünə bilərdi və bu səbəbdən qeyd olunmayıb. Lakin "Albaniya tarixi" əsərinin müəllifi Musa Kalankatuklunun əsərində də böyük döyüşlər haqqında qeyd olunmayıb. Bunu onunla izah etmək olar ki, kiçik alban məlikləri üçün Azərbaycan fatehi Salman ibn Rabianın 4-6 minlik qoşunu döyüşmək üçün böyük və qarşısıalınmaz qüvvə olardı [Большаков, 1993, с.174]. Ermənivyədə də oxşar vəziyyət idi. Erməni hakimlərinin dağınıq qüvvələri ərəb sərkərdəsi Həbib ibn Məsləmənin kiçik qoşununa müqavimət göstərmək üçün yetərli olmadı. Burada ərəb mənbələrinin məlumatları isə yığcam və ziddiyyətlidir. Daha ətraflı məlumatlara erməni mənbələrində rast gəlinir, lakin burada da qeyri-dəqiq və mifik məlumatlar çox olduğundan, onların ərəb məlumatları ilə müqayisəsi də hadisələrin gedişatını dəqiqləşdirməyə kömək etmir [Большаков, 1993, 168, 170].

Bununla yanaşı, əsaslı olaraq ehtimal etmək olar ki, Albaniyada ərəblərə qarşı müqavimət xəzərlər və alban hakimlərinin razılaşdırılmış hərəkətləri ilə yaxşı təşkil olunmuşdu. Sərkərdə Cavanşir əvvəldən də göründüyü kimi, xəzərlərlə ittifaqda öz hakimiyyətini və ölkəsinin müstəqilliyini qorumaq imkanı görürdü. Köçərilərlə ittifaq böyük dövlətlərin təhlükəsi ilə üzləşən alban hakimlərinin ənənəvi siyasəti idi. Salman ibn Rabianın qüvvələri Xəzər xaqanlığının sərhədlərinin yaxınlığında tələyə salındı - xəzərlər burada yerli şəraiti yaxşı bilərək hərəkət edirdilər və böyük qüvvələrlə gəlmişdilər. Burada xəzərlərin Bələncər şəhərində ərəblər ağır məğlubiyyətə uğradılar və Salman ibn Rabia qətlə yetirildi [Abu Muhammad Ahmad ibn Aʿtham Al-Kufi, 1991, p.343-345]. Hadisələrin bu cür gedişatından ərəblərin uğursuz yürüşünün nəticələri də xəbər verir: Xəzərlər yenidən Dərbəndə doğru irəlilədilər, Albaniya isə müəyyən müddət öz müstəqilliyini qoruyub saxladı [Большаков, 1993, с.175].

Salman ibn Rabianın ölümündən sonra xəlifə Osman Məhəmmədin səhabəsi, nüfuzlu hədis ravisi kimi daha məşhur olan Hüzeyfa ibn əl-Yəməni Azərbaycan və Arran hakimi təyin etdi. Ərəblərin əsas rəqiblə müharibə aparmaq taktikası dəyişdi. Onlar yerli əhalini öz tərəflərinə çəkməyə çalışırdı. Yerli şəhər və əyalətlərlə müqavilələrə yerli əhalini ərəb qoşununda xidmət müqabilində can vergisi ödəməkdən azad olunduğu haqqında bəndlər daxil edilirdi. Zimmilərin – ərəblərin himayəsi (zimməti) altındakı əhalinin arasından piyada qoşun yaradılırdı və bu qoşun müsəlman ordusunun hərbi əməliyyatlarında getdikcə daha fəal iştirak edirdi [Бунятов, 1965, с.83-84].

Ərəblər yayılmış fikirlərə baxmayaraq fəth edilmiş əyalətlərin əhalisini İslamı qəbul etməyə birbaşa məcbur etmirdilər. Vergi imtiyazları, ərəblərin sənət və ticarətdə himayədarlığı Azərbaycan şəhərlərində İslamın kifayət qədər tez qəbul edilməsinə səbəb oldu. Mülkədarlar İlamın qəbulunda öz mülkləri üzərində hüquqlarının qorunmasının siyasi təminatını görürdülər. Hətta xristianlaşmış kənd bölgələrinin əhalisi belə nisbətən qısa müddətdə yeni dinə üz döndərdi. Bu iki amillə izah oluna bilərdi. Əlbəttə xristianlıq istənilən yeni din kimi əhalinin əsas kütləsi tərəfindən formal olaraq qəbul edilirdi və görünür, kənd əhalisinin möhkəm etiqadı yox idi. Bundan başqa, ərəblər Cənubi Qafqazın Bizansla müharibə meydanı qismində strateji əhəmiyyətini dərk edərək Albaniyadakı müxtəlif dinlərə mənsub insanlarla kifayət qədər mülayim davranırdılar [Бунятов, 1965, с.89-90]. İslamın yayılması üçün effektiv qurucu tədbirlər görülürdü. Məscidlər inşa edilir və burada maarifləndirici işlər görülürdü. Məsələn, bildirilir ki, 733-cü və ya 734-cü ildə Məsləmə b. Əbd al-Malik Dərbənddə yaşayan müsəlman xəzərlər üçün məscid inşa etmişdir [Brook Kevin Alan, 2006, p.180]. Başlanğıcda məscidlər yalnız ərəblərin hərbi məskunlaşmalarının yerləşdiyi yerlərdə inşa olunurdusa, az sonra hər yerdə tikilməyə başladı. X əsrə doğru demək olar ki, bütün şəhərlərdə

məscidlər inşa olunmuşdu. Came məscidinin mövcudluğu kəndi şəhərdən fərqləndirən əsas əlamət oldu [Vəlixanlı, 1993, c.72]. Bununla yanaşı, dağ əyalətlərində əhali hələ uzun müddət öz əvvəlki etiqadını qoruyub saxlamışdı. Alban səyyahı əl-Qarnati ərəb işğalından dörd yüz ildən artıq müddət keçdikdən sonra öz bütpərəstlik inanclarında qalan dağlıları görməyə nail olmuşdur [Vəlixanlı, 1993, c.68-70].

Qafqaz Albaniyasının əhalisinin dini vəziyyəti və islamlaşma prosesinə alban və erməni kilsələri arasındakı mübarizə də böyük təsir göstərdi. Cənubi Qafqazda baş kilsə roluna iddia edən erməni kilsəsi gürcü və alban kilsələrini təşkilati cəhətdən özünə tabe etməyə çalışırdı. Cənubi Qafqaz kilsələrinin 506-cı və 527-ci illərdə Xalkidon Ümumdünya kilsə toplantısını (451-ci il) mühakimə etməyə razılaşdıqları və qərarlarında nestorian diafizit mövqeyinin təsdiqini nəzərdən keçirdikləri Dvin kilsə yığıncağının qərarından sonra bu birlik bir müddətlik rəsmiləşmişdir. Dvin qərarları bir müddətlik Bizansla doqmatik birliyə xidmət etmiş və demək olar ki, xristianların ümumdünya birliyinə səbəb olmuşdur. Lakin imperator Yustinin (518–527) idarəçiliyi altında Xalkidon razılaşmalarına geri dönüş və daha sonra Bizansın Cənubi Qafqazda ekspansiyası erməni kilsəsinin maraqları ilə Bizansın Qafqazda imperiya siyasəti arasında ixtilaf yaratdı və eyni vaxtda alban kilsəsinin erməni kilsəsi ilə ittifaqdan ayrılmasına səbəb oldu. Albaniyanın baş keşişləri katalikos Abasdan başlayaraq (551–695) müstəqil olmuş və öz yepiskoplar şurası tərəfindən ordinasiya olunmuşdur. Bizans kilsəsi ilə əqidə razılaşması erməni kilsəsi ilə mübarizədə mühüm idi. Katalikos Virodan başlayaraq (595–630) alban kilsəsi xalkidonizmə meyl edir. Ərəblərin gəlişi bu qarşıdurmada tərəzinin gözünü ermənilərin xeyrinə ağırlaşdırdı. Erməni kilsəsi xəlifənin dəstəyini alırdı. Erməni katalikosu İliyanın xəlifə Əbd al-Malikə xəbərçiliyi sayəsində Albaniyanın baş keşişi Nerses Bakur (688/9–704/5) tutularaq işgəncə ilə öldürülmüşdür. Hər halda Nersesin hərəkətlərinin arxasında həm də ölkənin müstəqilliyini qorumağa can atan alban zadəganlarının siyasi partiyası dayanırdı. Görünür ki, alban zadəganları alban hakimi Varaz Trdatın həyat yoldaşı Spramanı öz tərflərinə çəkməyə nail olmuşdular [Буниятов, 1965, c.49, 94-97].

Bu hadisələr şübhəsiz, ərəblərin alban kilsəsinə münasibətinə təsir edirdi. Alban xristianlarına təzyiq siyasi cəhətdən təşviq edilirdi. Görünür bu səbəbdən ərəblər burada İslamın yayılması üçün daha əzmlə və böyük xərclərlə tədbirlər görürdülər. Hakim Cavanşirin varisi Varaz-Trdat çox güman ki, dövlətin qorunub saxlanmasının mümkünlüyünü Cavanşirin siyasi xəttindən kənarlaşmaqda və öz həyat yoldaşı Spramanın partiyasına qarşı çıxmaqda görürdü. Lakin tezliklə hakimlər və bir çox alban zadəganları Suriyaya sürgün edildi [Каланкатуаци, 1984, c.160]. Bunları İslamın Azərbaycan ərazisində yayılma tarixinin əlamətdar hadisələri hesab etmək olar. Ərəblərə sadiq olmayan alban kilsəsi erməni kilsəsinə tabe etdirildi və tale alban xristianları qriqorianlaşdırmaya - Erməni kilsəsinə tabe olmağa, yaxud İslama keçməyə məcbur olurdular.

Buna baxmayaraq, alban xristianlarının gələcək nəsillərinin kiçik icması, udinlər və Alban kilsəsi Cənubi Qafqazda 1828-ci ildə Rusiya ilə İran arasındakı Türkmənçay müqaviləsi ilə rəsmiləşdirilmiş Rusiya hökmranlığı qurulana qədər varlığını qoruyub saxlamışdır. Etnik udin icması bu gün də Azərbaycanın Qəbələ və Oğuz rayonlarında yaşayır. Alban kilsəsinin taleyi kədərli oldu, kilsə rəsmi olaraq ləğv edildi, təşkilati strukturları və dindarları isə 1836-cı ildə Çar hökumətinin əsasnaməsi ilə erməni-qriqoryan kilsəsinə tabe edildi [Мамедова, 2005, c.556].

Erkən müsəlman müəlliflərin əsərlərində multikultural dünya mənzərəsinin formalaşması

Ərəb və qeyri-ərəb xalqlarının ümumi dil kimi ərəb dilinin istifadə olunduğu vahid intellektual mühitinin formalaşması müxtəlif xalqların nümayəndələrində maarif və kitabçılığa həvəsin yaranmasına səbəb oldu. İran, türk, yunan mənşəli intellektuallar və bir çox digər xalqların nümayəndələri digərlərinin təcrübəsindən yararlanmaq və öz dəyərlərini və mədəni nailiyyətlərini müsəlman intellektual mühitinə daxil etmək imkanı əldə etdilər. Nəticədə müxtəlif etnik mənşəyə malik intellektuallar tərəfindən müsəlman dünyasının multikulturalizmi dərk edilir və formalaşırdı. Bu prosesdə məşhur müsəlman ərəb nasiri Əbu Osman Əmr İbn Bəhr əl-Cahizin (776–868) əməyi böyük olmuşdur. Onu yeni ərəb nəsrinin banisi və ərəb etnoqrafiyasının atası adlandırırdılar [Мец Адам, 1966, c.198].

Məşhur yazıçı çox yoxsul ailədən gəlirdi. O, yetkin həyatının əvvəllərində ailəsini dolandırmaq üçün balıq alveri ilə məşğul olmaq məcburiyyətində

qalmışdı. Rəvayətə görə babası qaradərili afrikalı olmuşdur. Əl-Cahiz ensiklopediya xarakterli bir neçə iri əsərin müəllifi kimi məşhurdur, lakin onun müəllif zövqü görünür yığcam, məntiqi tamamlanmış və adətən traktatın adında qeyd olunan konkret məsələlərə həsr olunmuş əsərlərə meyl edirdi. Onun yaradıcılığı haqqında təsəvvürə malik olmaq üçün bu əsərlərdən bir neçəsinin adını sadalamaq faydalı olar: "Ərəblər və məvalilər haqqında kitab", "Haşimin və Əbd-Şəmsin nəsli arasındakı ziddiyyətlər haqqında kitab", "Mədənlər haqqında kitab və qiymətli daşlar və müxtəlif minerallar haqqında hekayə", "Qaraların ağlar qarşısında nə ilə qürurlandıqları haqqında kitab" [Асадов, 1993, с.34-35].

Onun "Türklərin və xəlifənin digər qoşunlarının məziyyətləri haqqında Fəth b. Hakana müraciətnamə" traktatı xüsusi diqqətə layiqdir. Traktat xəlifə əl-Mötəsimin dövründə və göründüyü qədərilə onun istəyinə cavab olaraq, yaxud hətta onun sifarişi ilə yazılmışdı. Bu xəlifə türkləri paytaxtda və xəlifə qvardiyasında hərbi xidmətə geniş miqyasda cəlb etməsi ilə məşhurdur. Bununla da əvvəlki hərbi və məmur elitası tərəfindən rəqabət və ədavətə şərait yaranırdı. Əl-Cahiz öz əsərində türklərin dövlət və İslam qarşısındakı xidmətlərini göstərməyi və oxucunu türklərin də, ərəblərin də və digər xalqların da müsəlman dünyası və dövlət üçün eyni dərəcədə mühüm olduqlarına inandırmağı məqsəd olaraq qoyur. Traktatın məqsədləri ona ümumilikdə xalqlar arasındakı fərqlər və onların təkcə müsəlman dünyası deyil, bütün bəşəriyyətin mədəniyyəti qarşısındakı xidmətləri haqqında düşünməyə imkan verir.

Əbul-əla Məhəmməd b. Əli b. əl-Xassulun (450/1058-ci ildə vəfat edib) "Türklərin digər döyüşçülər qarşısında üstünlükləri haqqında kitab" əsəri əl-Cahizin əsəri ilə tematik və mənəvi cəhətdən əlaqəlidir. Traktatın müəllifi mənşəcə Həmədandan və böyük ehtimalla fars idi. O, sultan Mahmud Qəznəvinin dövründə yazışma divanının müdiri vəzifəsində çalışmış, Səlcuq işğalının şahidi olmuş və əsərindən də təxmin edildiyi kimi, Toğrul bəy və vəziri Əmid əl-Mülk əl-Kunduri tərəfindən dövlət işlərinə cəlb olunmuşdur [Асадов, 1993, с.38]. İbn əl-Xassulun əsəri müsəlman dövlətində qanuni siyasi hakimiyyətin mənbələrinə münasibəti diqqətə çatdırır. Müəllif adlı-sanlı türk mənşəyini adlı-sanlı ərəb mənşəyi ilə eyni dərəcədə böyük məziyyət və siyasi hakimiyyətə iddia etmək üçün əsas hesab edir. Bununla yanaşı, İbn əl-Xassul öz mühakimələrində Səlcuqluların hakimiyyət üzərində üstün hüquqlarının təsdiqlənməsi ilə bağlı konkret siyasi məqsədlərə müsəlman dövlətində siyasi sistemin və sosial mühitin formalaşması üzrə multikultural prinsipin izahından daha çox sadiq qalmışdır. Bu iki əsəri müqayisə edərək belə nəticəyə gəlmək olar ki, xilafətin qızıl əsri bitdikdən sonra ictimai-siyasi fikir öz məntiq və arqumentasiyasının universallığını və humanizmini itirməyə başlayır. Burada görünür, müsəlman dünyasının siyasi dezinteqrasiyaya meyli təzahür etməkdədir.

Keçmiş Albaniyanın əhalisində bu ilkin universallaşma prosesləri müsbət reaksiyaya, qarşılıqlı mədəni hərəkata və nəticədə islamlaşmanın zəminində mədəni dəyərlərin bütövləşməsinə səbəb olurdu. İslamın Albaniyada yayılması prosesində keçmiş məbədlərin və müqəddəs yerlərin dağılması haqqında məlumatımız yoxdur. Alban kilsələrində xristianlığın qəbulu prosesində olduğu kimi, mənəvi-dini həyat və qəbul edilmiş dinin göstərişlərinə riayət ticarət və mədəniyyət mərkəzləri olan şəhərlərdə cəmləşmişdi. Şəhərdən kənardakı əhali öz dini ayinlərini icra etməyə və ziyarət yerlərinə getməyə davam edirdilər. İslamın şərqi xristianlıqda xristoloji konsepsiyaların toqquşmalarına bənzər qəliz mübahisələrdən azad, sadə doqmatik quruluşu əhalinin etiqad və mövhumatından irəli gələn inanc və ayinləri asanlıqla özünə hopdururdu. Bu inancların və onlarla əlaqəli ayinlərin yeni dinin mühitə tətqini baş verirdi. Bu səbəbdən, əvvəlki dini obyektlər və ziyarət marşrutları qorunub saxlanırdı. Bu obyektlər yerli müsəlman idrakında sarsılmaz mövqe tutmuş və müsəlman inancında onların müqəddəsliyini tanıyan müsəlman rəvayətləri ilə əhatə olunmuşdu. Beləliklə İslama- qədərki müqəddəs yerlərə gedən ziyarət yolları unudulmurdu. Azərbaycanda isə multietnik və multikultural müsəlman dünyasının bir çox digər kənar bölgələrində olduğu kimi insanların dindarlıq obyektləri və mənbələrinin doktrinal sintezləşdirilməsi baş verirdi – İslamaqədərki müqəddəs yerlər haqqında yeni İslami əfsanələr yaranırdı. Bu kompleks dindarlıq tanrı axtarışında olan intellektuallar tərəfindən sezilməyə başlayırdı. X əsrdə Ərəb xilafətində mərkəzdənqaçma tendensiyaları İslamın yerli formaları ilə əlaqədar yerli intellektual axtarışlara daha çox imkan yaradırdı. Müsəlman dünyasının ucqar bölgələrində və ölkəmiz Azərbaycanda sufi tərıqətinin yaranmasının əsas səbəbi də görünür, bununla bağlıdır.

ƏDƏBİYYAT:

1. Vəlixanlı N. Ərəb Xilafəti və Azərbaycan. Bakı: Azərbaycan dövlət nəşriyyatı, 1993, 157c.
2. ал-Куфи Абу Мухаммад Ахмад ибн Асам. Книга завоеваний (Извлечения по истории Азербайджана VII–IX вв.) / Перев. З.М.Буниятов. Баку: Элм, 1981, 84 с.
3. ал-Хамадани, Ибн ал-Факих. «Ахбар ал-Булдан, Мешхедская рукопись (Фотокопия)». 1б-182б: Библиотека С-Петербургского Института Восточных рукописей.
4. Асадов Ф.М. Арабские источники о тюрках в раннее средневековье [Arab Sources about Turks in Early Middle Ages]. Баку: Элм, 1993, 204 с.
5. Асадов Ф. М. Хазария, Византия и Арабский Халифат в борьбе за контроль над торговыми путями Евразии в IX–X вв. / Кавказ и глобализация 6, no. 4. 2012, с.159-172.
6. Бартольд В.В. История культурной жизни Туркестана / В.В.Бартольд. Сочинения, т.2, ч.1. Ред. Б.Г.Гафуров. М.: Восточная Литература, 1963, с. 239-256.
7. Бациева С.М. Бедуины и горожане в Мукаддиме ибн Халдуна / Очерки истории арабской культуры V–XV вв. Ред. О.Г.Большаков. М.: «Наука». Главная редакция восточной литературы, 1982, с.311-356.
8. Большаков О.Г. История Халифата. Эпоха великих завоеваний (633–656). 4 тт., т.2. М.: «Наука». Издательская фирма «Восточная литература», 1993, 294 с.
9. Буниятов З. Азербайджан в VII–IX вв. Баку: Изд-во АН Аз.ССР, 1965, 381 с.
10. Гомбожапов А.Д. Кочевые цивилизации Центральной Азии в трудах Л.Н.Гумилева. Улан-Уде: Издательство БНЦ СО РАН, 2010, 148 с.
11. Грюнебаум Г.Э.Фон. Литература в контексте исламской цивилизации / Арабская средневековая культура и литература. Ред. И.М.Фильштинский и Д.В.Фролов. М.: «Наука», 1978, с.31-45.
12. Грюнебаум Г.Э.Фон. Природа арабского единства в доисламский период / Перев. Н.Чалисова. Грюнебаум Г.Э. Фон. Основные черты Арабо-мусульманской культуры. Ред. М.Б.Пиотровский, А.Б.Куделин. М.: «Наука», Главная редакция восточной литературы, 1981, с.11-29.
13. Грязневич П.А. Развитие исторического сознания арабов (VI–VIII вв.) / Очерки истории Арабской культуры. Ред. О.Г.Большаков. М.: «Наука». Главная редакция восточной литературы, 1982, с.75-155.
14. Гумилев Л.Н. Древняя Русь и Великая Степь. М.: «Мысль», 1989, 764 с.
15. Каланкатуаци Мовсес. История страны Алуанк / Перев. Ш.В.Смбатян. Ереван: Матенадаран, 1984, 258 с.
16. Колесников А.И. Завоевание Ирана арабами (Иран при праведных халифах). М.: «Наука». Главная Редакция восточной литературы, 1982, 269 с.
17. Коран / Перевод академик И.Ю.Крачковский. М.: Главная редакция восточной литературы издательства «Наука», 1986, 727 с.
18. Крадин Н.Н. Кочевники, мир-империи и социальная эволюция / Альтернативные пути к цивилизации. Ред. А.В.Коротаев, Н.Н.Крадин, Д.М.Бондаренко, В.А.Лынша. М.: Логос, 2000, с.314-335. http://abuss.narod.ru/ Biblio/ AlterCiv/kradin.htm.
19. Мамедова Ф. Кавказская Албания и албаны. Баку, 2005, 800 с.
20. Мамедова Ф. Политическая история и историческая география Кавказской Албании (III в. до н.э. – VIII в. н.э.). Баку: Элм, 1986, 284 с.
21. Мец Адам. Мусульманский Ренессанс / Перевод с немецкого и предисловие Д.Е.Бертельса. М.: Наука, 1966, 474 с.
22. Минорский В.Ф. История Ширвана и Дербенда X–XI веков. М.: Изд-во восточной литературы, 1963, 266 с.
23. Новосельцев А.П. Хазарское государство и его роль в истории Восточной Европы и Кавказа. М.: «Наука», 1990, 263 с.
24. Пигулевская, Н.В. Византия и Иран на рубеже V–VI вв. М.-Л., 1946, 287 с.

25. Селезнев Н.Н. Средневековый восточно-христианский экуменизм как следствие Исламского универсализма // Философский журнал, №1 (8), 2012, с.77-86.
26. Страбон. География в 17 книгах / Перевод, статья и комментарии Г.А.Стратановского. М.: «Наука», 1964, 944 с.
27. al-Beladsori Imamo Ahmed ibn Yahja ibn Djabir. Liber Expugnationis Regionum [in Arabic]. Lugduni Batavorum: E.J. Brill, 1866, 536/128 p.
28. al-Kufi Abu Muhammad Ahmad ibn Aᶜtham. Kitab Al-Futuh. 1 ed. Vol.1-2: Dar al-adwaᶜ li at-tabaᶜa wa an-nashr va at-tauziᶜ, 1991, 580 p.
29. Brook Kevin Alan. The Jews of Khazaria. 2nd ed. Lanham, Md.: Rowman & Littlefield, 2006, XII, 317 p.
30. Sebeos. The Armenian history attributed to Sebeos [Translated from the Armenian.] / Translated by Robert W.Thomson and historical commentary by Tim Greenwood with the assistance by James Howard-Johnston. Liverpool: Liverpool University Press, 1999, LXXIX, 363 p.

İqumen Aleksiy (Nikonorov)
İtaliyanın Merano şəhərində Nikolayevski pravoslav prixodunun baş keşişi,
ilahiyyat üzrə elmlər namizədi (Moskva İlahiyyat Akademiyası),
Kilsə tarixi üzrə elmlər doktoru (Pontificio Istituto Orientale /
Papa Şərq İnstitutu)(İtaliya)

ALBAN KİLSƏSİ YEPARXİYASI VI ƏSRƏ QƏDƏR

Ümumdünya Kilsəsi ayrı-ayrı yerli kilsələrdən təşkil edilib. Bu kilsələrdən biri də Qafqaz Albaniyası Kilsəsi idi. Yerli kilsələr öz növbəsində prixod kilsələri və monastırlarını özündə birləşdirən yepiskopluqlar – yeparxiyaları əhatə edir. Kilsənin bu strukturu onun yaranma tarixinin ilk əsrlərində formalaşıb və daha sonra da dəyişilməz olaraq qalıb.

Qeyd etmək lazımdır ki, kilsənin inzibati bölgüsü milli deyil, ərazi prinsipinə əsaslanır [Цыпин, 2004, с.276]. Normal şərtlərdə eyni ərazidə yaşayan istənilən milliyyətə mənsub xristianlar bir prixod formalaşdırır və bir yepiskop tərəfindən idarə olunur, çünki Müqəddəs həvari Pavelin sözlərinə görə İsa Məsih "ellin, yəhudi, sünnət, qeyri-sünnət, varvar, skif, qul, azad insan" anlayışlarının fövqündə durur [Колосянам 3, 11]. Bu normalar Aquen kilsə qanunları ilə də təsdiqlənir [Каланкатуаци, 1984, кн.I, гл.26].

Düzdür, müqəddəs həvarilərin 34-cü qaydasında deyilir ki, "istənilən xalqın yepiskopu onlardan öncə gələni tanımalıdır...", lakin tarixi kontekst birmənalı şəkildə bu qaydada qeyd edilən "xalq" sözü altında bu və ya digər xalqın yaşadığı ərazinin nəzərdə tutulmasını göstərir. Roma İmperiyasının əyalətləri ellinləşmə və latınlaşmanın təsirlərinə məruz qalmış qəbilələrin yaşadığı ərazilərdən təşkil edilmişdi. Əyalətlərin adı bir vaxtlar bu yerlərdə yaşamış xalqların xatirəsini yaşadırdı: Dakiya, Qalatiya, Frakiya, Numidiya. Kilsənin təşkil edilməsinin, xüsusilə də yerli kilsənin yurisdiksiya sahəsinin müəyyən edilməsinin əsasına ərazi deyil, etnik və dil amili prinsipini qoymaq cəhdləri kilsə qaydalarına görə düzgün deyil və tarixən buna bir neçə dəfə cəhd edilsə də, hər zaman ciddi çətinlik və nizamsızlıqlara səbəb olub. Bu prinsiplərin başa düşülməsi Alban kilsəsinin tarixinin müxtəlif mərhələlərində kilsə qaydaları ilə müəyyən edilmiş sərhədlərinin təyin edilməsinə, habelə inzibati sərhədlərlə sıx bağlara sahib olan yeparxiya sərhədlərinin müəyyən edilməsinə kömək edir.

Məlum olduğu kimi, yerli kilsələrin ərazi bölgüsü siyasi-inzibati bölgüyə, dövlət və inzibati sərhədlərə uyğunlaşdırılır. Bu prinsip rahat olmaqla yanaşı, dolayı şəkildə kilsə qaydalarını da əks etdirir. Belə ki, Trull Kilsə Məclisinin 38-ci qaydasında deyilir: "Çar hakimiyyətinin qərarı ilə şəhər yenidən formalaşdığı halda kilsə işlərinin bölgüsü mülki məsələlərin bölgüsünə uyğun olaraq aparılmalıdır". Beləliklə, kilsə qaydalarına əsasən, alban yeparxiyasının sərhədləri Qafqaz Albaniyasının siyasi-inzibati bölgüsünə müvafiq olmalıdır.

Ananiya Şiraklının (Şirakasi) VII əsrdə yazdığı "Coğrafiya" əsərində daxili Albaniyada və ya Kürün sol sahilində altı əyalət (nahanq) olması göstərilir. Qeyd etmək lazımdır ki, bununla bağlı həm fərqli siyahılar, həm də "Coğrafiya" əsərinin fərqli redaksiyaları var. Burada Kürün sol sahilindəki alban əyalətlərinin sayı altıdan on birədək göstərilir. Bu coğrafi əsərdəki bütün siyahıların və əsərin müxtəlif redaksiyalarının tutuşdurulması nəticəsində belə fikrə gəlmək olar ki, Kürün sol sahilini altı və hətta beş əyalətə bölmək lazımdır. Musa Kalankatlının qeydləri də bu məlumatı təsdiqləyir. O, ümumilikdə Alban kilsəsinin Kürün sol sahilində yerləşən beş kilsə-inzibati vahidini sadalayır. Şiraklının sadaladığı əyalətlər: 1.Yexni, 2.Bex, 3.Kambisena, 4.Şəki, 5.Vostan-i mərzban, 6.Balasakan. "Coğrafiya" əsərinin iki ən yeni siyahısında Yexni və Bex əyalətləri birləşdirilərək Yexnibex kimi göstərilir. Alban tarixçisinin qeydlərindən bu ərazidə yurisdiksiyası Kambisenanı da əhatə edən bir yeparxiya və bir yepiskopun olmasını təxmin etmək mümkündür [Hewsen, 2001, map.62, 64, p.73, 75]. Beşinci əyalətin adında bəzi alimlər hər iki sözü ayrıca oxumağa üstünlük verir

və onları fərqli əyalətlərin adı hesab edir, lakin K.Patkanovun fikrincə, fars dilində sözün birlikdə "(v)ostan-i mərzban" şəklində oxunması "Mərzban əyaləti" kimi tərcümə edilir, yəni bu halda söhbət sasani mərzbanlarının iqamətgahı olan Çola əyalətindən gedir [Армянская география, 1877, с.41].

Kürün sağ sahilində aşağıdakı (şimal-qərbdən cənub-şərqədək) əyalətlər yerləşir: Orxistena (Arsax), Otena (Utik) və Paytakaran.

Çox böyük ehtimalla, Orxistena Qarabağın dağlıq ərazisini, yəni coğrafi olaraq Kiçik Qafqaz dağlarının şərq hissəsini, Qarabağ silsiləsini və Qarabağın dağlıq hissəsini əhatə edirdi. A.Şiraklıya görə, əyalətin tərkibində 14 vilayət (havar) vardı. R.Hyusenə görə, bu əyalətin şimal hissəsində (müasir Kəlbəcər rayonu) Mets-İrank yeparxiyası, cənub-şərqində (müasir Xocavənd rayonu) Amaras və Haband yeparxiyaları yerləşirdi. Lakin biz bu əyalətdə daha bir yeparxiyanın – hazırkı Ağdam rayonunda yerləşən, mərkəzi, ola bilsin ki, Vankasar monastırı olan Mets-Kuenk (Mets-Koqmank) yeparxiyasının yerləşdiyini hesab edirik.

Otena əyaləti Kiçik Qafqaz dağlarının bir hissəsini, Qarabağ düzünü əhatə edir və Kür çayının axını boyunca onun sağ sahilində, şimal-qərbdə İberiya (Gürcüstan) ilə sərhəddən cənub-şərqdə Araz çayına qədər uzanırdı. Ananiya Şiraklının "Coğrafiya" əsərinə görə, əyalətdə 8 vilayət vardı. Burada Partav yeparxiyası (onun yaradılmasına qədər Uti yeparxiyası) və Girdiman yeparxiyası (müasir Gədəbəy rayonu) yerləşirdi. R.Hyusen hesab edir ki, əyalətin şimal-qərbində mərkəzi Şəmkirdə olan Xoş (Qaşua, Qoş) yeparxiyası yerləşir və yeparxiyanın Partav yeparxiyası ilə təbii sərhədi Kürəkçay çayından keçir.

Alban kilsəsinin struktur bölgüsü haqqında ətraflı məlumatları kilsə sənədlərində və alban salnaməçilərinin saxladığı rəsmi məktublarda tapmaq mümkündür. Musa Kalankatlı "Alban tarixi" əsərinin ikinci kitabının VII fəslində erməni katalikosu II İovannesin (557–574) alban katalikosu Ter-Abasa (552–596) məktubunu göstərir. Bu məktub burada alban yepiskoplarının adının, nəticə etibarilə sənədin yazıldığı tarixdə, yəni VI əsrin ortalarında Albaniyada mövcud olan yepiskopluqların sadalanması səbəbindən bizə maraqlıdır. Mətndə səkkiz alban yepiskopunun adı çəkilir: Partav, Baxalat, Kabalaka, Amaras, Balasakan, Şəki, Girdiman və Mets-Kuenk.

Qeyd etmək lazımdır ki, yepiskopların sadalanma ardıcıllığı, yəqin ki, yepiskopluğun böyüklüyü (Partav arxiyepiskopu istisna olmaqla) ilə deyil, yepiskopların özünün nüfuzu ilə əlaqədardır. Bu praktika daha sonrakı dövrlərə aid kilsə sənədlərində də təsdiqini tapır.

Mənbələrdə göstərilmiş məlumatlardan belə nəticəyə gəlmək olar ki, alban katolikosu olan Partav arxiyepiskopunun idarə etdiyi Lpina və Çola avtonom əyalətlərinin yeparxiyaları da Alban kilsəsinin tərkibinə daxil idi [Каланкатуаци, 1984, кн.II, гл.15].

Bu kilsə-inzibati vahidlərinə Alban kilsəsinə daxil olan Hun yeparxiyasını da əlavə etmək olar [Каланкатуаци, 1984, кн.II, гл.41, 45]. Salnaməçi qeydlərinə 488-ci ildə Aquen kilsə məclisində iştirak edən yepiskoplar haqqında məlumat da əlavə edir: Qaşua (Xoş/İuşi) yepiskopu, Yeuta yepiskopları, Uti yepiskopu və Tsri yepiskopu [Каланкатуаци, 1984, кн.I, гл.26].

Alban salnaməçisi eyni zamanda göstərir ki, katolikos Abas baş keşiş taxtına seçilməzdən əvvəl Mets-İrankın yepiskopu olub [Каланкатуаци, 1984, кн.III, гл.24] və dəlil olaraq yepiskopun bu mövqedə olmasının qeyd edildiyi sənədi göstərir (erməni yepiskoplarının Vartanes Kertol tərəfindən Amaras yepiskopu Mxitarın məktubuna cavab olaraq hazırladığı məktub): "Şimal diyarının sakinləri, xüsusilə də dinimizin müqəddəsliyindən şübhə edənlər arasında dinləyənlər və danışanlara, Amaras yepiskopu Mxitara, Mets-İrank yepiskopu Simeona və Müqəddəs Kilsənin sizinlə eyni fikirləri paylaşan digər yepiskoplarına, azatlara və Aluank xalqının digər nümayəndələrinə" [Каланкатуаци, 1984, кн.II, гл.49].

Beləliklə, Alban Kilsəsinin kilsə-inzibati bölgüsü aşağıdakı kimi təqdim edilir:

Partav arxiyeparxiyası,
Çola/Çora yeparxiyası (maskutların əyaləti)
Lpina yeparxiyası,
Kabalaka yeparxiyası,
Baxalat və Bex/Yexnibex yeparxiyası,
Şəki yeparxiyası,
Paytakaran və Balasakan yeparxiyası,
Amaras və Haband yeparxiyası,
Girdiman yeparxiyası,
Uti yeparxiyası,
Mets-Kuenk yeparxiyası,
Mets-İrank yeparxiyası,

Qaşua (Xoş/İluşi) yeparxiyası,
Tsri (Çilbka) yeparxiyası,
Hun yeparxiyası,
Yeuta yeparxiyası.

Bu siyahıya VI əsrin ikinci yarısından erməni katolikosu I Abraamın (607–615) hakimiyyətinə qədər faktiki olaraq Alban kilsəsinin yurisdiksiyasına daxil edilən və təlimatları alban baş keşişindən alan Sünik mitropoliyasını da əlavə etmək olar: "O vaxtlar Ermənistan farslar və yunanlar arasında bölüşdürülmüşdü. Baş yepiskop Movses Dvində Müqəddəs Qriqorinin taxtında otururdu, yunan tərəfdə isə taxta hansısa İohannı çıxarmışdılar. Patriarx taxtının iki yerə ayrıldığını görən Sünik yepiskopları onlardan ayrıldılar və son günlərini yaşayan comərd yepiskop Petrin vəsiyyətinə boyun əyərək onların heç birinə tabe olmadılar, Müqəddəs Qriqorinin taxtının birliyi bərpa olana qədər Aluankın rəhbərliyini və xeyir-duasını qəbul etdilər. Buna görə də, Vartanes Sünik yepiskopu mövqeyini Aluank yepiskopu Zaxaridən aldı. Beləcə, süniklilər hər il Müqəddəs zeytun yağını Aluankdan almağa başladılar" [Каланкатуаци, 1984, кн.II, гл.48].

İndi isə Alban kilsəsinin yeparxiyaları haqqında məlumatlara daha dərindən nəzər salaq.

Partav arxiyeparxiyası

Əvvəlcə Perozapat adlanan Partav (Bərdə) Sasani şahənşahı Perozun göstərişi ilə Alban çarı II Vaçe tərəfindən V əsrdə əsası qoyulmuş və şahənşahın şərəfinə adlandırılmış şəhərdir [Каланкатуаци, 1984, кн.I, гл.15]. Orta əsrlərə aid şəhər müasir Bərdədən bir neçə kilometr məsafədə yerləşir. M.Kalankatlının verdiyi məlumatlara görə, Partav əsasının qoyulduğu gündən Qafqaz Albaniyasının paytaxtı, sonuncu alban çarları Arşakilərin, Mehranilər sülaləsinin, fars canişinləri – mərzbanların və VI əsrdən IX əsrədək alban katalikoslarının iqamətgahı olub. Alban salnaməçisi qeyd edir: "Şahənşah Xosrovun hakimiyyətinin ikinci ilində, erməni tarix hesabının əsası qoyulanda Aluank patriarx taxtı Çola şəhərindən paytaxt Partava köçürüldü" [Каланкатуаци, 1984, кн.II, гл.4]. Tədqiqatçılar qeyddə göstərilmiş "Xosrovun hakimiyyətinin ikinci ili" ifadəsini iyirminci ili ilə əvəz etməyi təklif edirlər, çünki erməni tarix hesabının birinci ili (551) şahənşah I Xosrov Ənuşirəvanın hakimiyyətinin (531–579) iyirminci ilinə müvafiqdir.

"Alban tarixi" əsərinin üçüncü kitabında Alban arxiyepiskoplarının Partavdakı kilsəsinin Müqəddəs Maarifçi Qriqorinin şərəfinə ucaldıldığı göstərilir [Каланкатуаци, 1984, кн.III, гл.17]. Bu məbəddə 712-ci ildə Gəncə və Şirvan hökmdarı Əbdül-Əziz Baxlinin hakimiyyəti dövründə həlak olmuş müqəddəs şəhid Manukun cəsədi saxlanılır.

Partavda Alban Kilsəsinin bir neçə kilsə məclisi keçirilib: 704-cü ilin mayında keçirilmiş kilsə məclisi xəlifə Əbd əl-Malikin alban katalikosu Nerses Bakur üzərində məhkəmə üçün sanksiya verməsi ilə erməni katalikosu Yeqiy Arçişetsinin tələbi ilə çağırılmışdı. Məclisdə 4 alban yepiskopu iştirak etdi. Kilsə məclisində yeni katalikos Simeon seçildi. Məclisin nəticəsində Albaniya, Ermənistan və Xilafət arasında saziş imzalandı [Каланкатуаци, 1984, кн.III, гл.7-10]; 768-ci ilin kilsə məclisini alban katalikosu II David çağırmışdı (767–776). Kilsə məclisi Matenadaranda 6409 saylı əlyazmada anılır [Буниятов, 1965, с.223-226].

Partav yeparxiyasının ərazisinə Otena əyalətinin Kürün sağ sahilində yerləşən aşağıdakı tarixi vilayətləri də daxil idi: Azərbaycanın hazırkı Bərdə, Ağdam və qismən Tərtər (ola bilsin ki, Ağcabədi və Beyləqan rayonlarının bir hissəsi) rayonlarına uyğun gələn Uti Arandznak, Aranrot (ola bilsin ki, Aque, Tri və Rotparsean).

M.Kalankatlı Partav arxiyeparxiyasında 680-ci ildə xoryepiskopun (yepiskop köməkçisi) da olmasını göstərir [Каланкатуаци, 1984, кн.II, гл.32].

"Alban tarixi" əsərinin III kitabının 24-cü fəslində 552-ci ildən X əsrin sonlarına (988) qədər Partav yeparxiyasına rəhbərlik etmiş arxiyepiskopların əhatəli siyahısı verilib. Bu siyahıda qeyd edilən dövrdə 32 arxiyereyin adı çəkilir.

Bir vaxtlar Partav yeparxiyasının ərazisində əsası həvari Yelisey tərəfindən qoyulmuş Qis monastırı yerləşib. Alban salnaməçisi Musa Kalankatlının doğma qəsəbəsi Kalankat məhz burada yerləşirdi. Partav yeparxiyasının ərazisində Gavurgala bazilikasının (VI əsr) qalıqları hələ də qalmaqdadır.

Çola/Çora arxiyeparxiyası (maskutların əyaləti)

Çola/Çora Qafqaz Albaniyasının şimal-şərqində yerləşən eyniadlı şəhər və əyalətdir və hazırkı Dərbənd ərazisi və maskutların əyaləti (çarlığı) ilə eyniləşdirilir. Tarixçilərin qeydlərinə görə, Dərbənd həmişə Qafqazda albanlar və sasanilər üçün strateji mövqeyə malik vacib şəhər olub. M.Kalankatlının sözlərinə görə, Çolada Müqəddəs İncilin təbliği ilə Müqəddəs Qriqoris və M.Maştots məşğul olub [Каланкатуаци, 1984, кн.I, гл.14, 27]. Alban çarlığının Sasanilər imperiyasının tərkibinə daxil edilməsindən və Çolada 428-ci ildən 552-ci ilədək alban mərzbanlığının siyasi mərkəzinin qurulmasından sonra Alban kilsəsinin başçısının iqamətgahı bu şəhərdə yerləşib. Paytaxtın və patriarx taxtının Partava köçürülməsindən sonra Alban kilsəsinin başçısına yeni titul verilib: "Albaniya, Lpina və Çora katolikosu" [Каланкатуаци, 1984, кн.II, гл.15]. Bu titul kilsə qanunlarına görə Alban katolikosunun arxiyeparxiyası olan şəhər və əyalətin onun yurisdiksiyasında və onun arxipastır idarəetməsi altında qalmasını göstərir.

Tədqiqatçıların fikrincə, Alban kilsə başçısının Çoladakı (Dərbənd) kilsəsi ya V əsrə aid Narınqalanın sonradan su anbarına çevrilmiş məbədi [Кудрявцев, 1980, с.48-51], ya da hazırda Dərbənd Cümə məscidinin yerləşdiyi VI əsrə aid məbəd ola bilər [Ханбабаев, 2004, 227-246; Артамонов, 1946, с.143].

Lpina yeparxiyası

Alban Kilsəsinin başçısının kilsə qanunları ilə nəzərdə tutulmuş hakimiyyəti Partav (Bərdə) və yaxın ərazilərin daxil olduğu öz yeparxiyası, habelə mərzbanlığın keçmiş paytaxtı Çola/Çora ilə yanaşı, Qafqaz Albaniyasının tərkibinə daxil olan yarımmüstəqil Lpina əyalətini də əhatə edirdi [Каланкатуаци, 1984, кн.III, гл.15, 24].

Lpina əyalətinin tarixi coğrafiyada mövqeyi hələ də sona qədər həllini tapmayıb. Biz isə müxtəlif mənbələrin və tədqiqatçıların rəylərinin təhlilinə əsaslanaraq Lpinanın Albaniya ilə Kaspiana arasında, Şamaxı rayonunda yerləşdiyini hesab edirik. Mənbələrdə Lpinanın əvvəl çarlıq olması [Каланкатуаци, 1984, кн.II, гл.2; Егише, 1971, гл.III], buna görə də xüsusi siyasi mövqeyə malik olması göstərilir. M.Kalankatlının qeydlərinə görə, Müqəddəs İncilin kəlamını bu əyalətə M.Maştots gətirib [Каланкатуаци, 1984, кн.I, гл.27].

Alban xronikasından belə nəticəyə gəlmək olar ki, şərq patriarxları kimi Partav arxiyepiskopu da stavropigiya[1] hüququna sahib idi və Alban dövlətinin tərkibində xüsusi statusa malik olan müxtəlif kilsə əyalətlərinin (Partav, Çola, Lpina, Balasakan) idarəedilməsi hüququnu özündə saxlayırdı.

Kabalaka yeparxiyası

Kabalaka (Kabala, Qəbələ) Qafqaz Albaniyasının qədim paytaxtıdır. Şəhərin adı ilk dəfə Roma müəllifi böyük Plininin əsərlərində çəkilir [Pliny, 1947, кн.VI, §29]. Şəhər 510-cu ildən fars mərzbanlarının iqamətgahına çevrilib [Мамедова, 2005, с.253, 316]. IV əsrin başlanğıclarından, yəni Qafqaz Albaniyasının xristianlaşdırılmasından etibarən Kabalaka Alban kilsəsinin başçısının iqamətgahı oldu. Mərzbanın iqamətgahının ardınca, arxiyepiskop taxtının da 462-ci ildə Çolaya köçürülməsindən sonra Kabalaka başında öz yepiskopu dayanan adi yeparxiyaya çevrildi [Акопян, 1987, с.274].

Kabalaka yeparxiyasının yurisdiksiyası aşağıdakı vilayətlərə şamil edilirdi (Ananiya Şiraklının "Coğrafiya" əsərinin müfəssəl redaksiyasına görə): Kabalak, Hambasi, Qelavu və Heceri.

M.Kalankatlı bir neçə Qəbələ yepiskopunun adını çəkir. Manassi (487–488), Qriqori (VI əsrin II yarısı) və İohann (704-cü il). Bundan başqa, "Alban tarixi" əsərinin üçüncü kitabında Alban kilsəsinin üç başçısının, yəni Partav arxiyepiskopunun taxta Kabalaka yepiskopları arasından seçilməsi qeyd edilir: II Matfey (776–777), IV David (821–849) və V David (923–930).

[1] *Stavropigiya kilsə bölmələri, monastırlar, lavralar (böyük monastır) və qardaşlıqlar, habelə böyük kilsələr və dini məktəblərə verilən, onları yerli yeparxiya hakimiyyətindən müstəqil edən və birbaşa patriarx və ya sinoda tabe olmalarını təmin edən statusdur.*

Baxalat və Yexnibex yeparxiyası

Baxalat yepiskopu Moisey katolikos İovannesin 568-ci ildə yazılmış məktubunda bir dəfə anılır.

S.Yeremyan Baxalatın Azərbaycanın Zaqatala rayonundakı Baxtalo (Bəhmətli) kəndi ilə eyni yer olduğunu hesab edir [Еремян, 1958, с.324]. Görünür, R.Hyusen də bu fikirlə razıdır. O, Qafqaz Albaniyasının xəritələrində Baxalatı A.Şiraklının "Coğrafiya" əsərində Kürün sol sahilində yerləşən altı alban əyaləti arasında qeyd etdiyi tarixi Yexnibex əyalətinin ərazisində (müasir Zaqatala, Balakən və Qax rayonları, habelə Kaxetiyanın şərq hissəsi) göstərir [Hewsen, 2001, map.62, 64, p.73, 75].

Baxalat yeparxiyası eyni zamanda Alazan çayı sahilində Yexnibexdən cənubda yerləşən Kambisena ərazisini də əhatə edirdi və beləcə şimalda Böyük Qafqaz dağları və cənubda Kür çayı, qərbdə Qəbələ və Alazan çayları və şərqdə Kürmüxçay arasındakı ərazini tuturdu. Obyektivlik xatirinə qeyd etmək lazımdır ki, Baxalatın Arsaxda, Yevlax rayonunun Bata kəndində [Геюшев, 1984, с.36-37] və ya Çola (Dərbənd) əyalətində yerləşməsi haqqında da fərziyyələr var [Акопян, 1987, с.131].

Tarixi Yexnibex əyalətinin ərazisində iyirmiyə yaxın məbəd və abidənin qalıqları günümüzə çatıb: Buxovlu kəndi (VII–VIII əsrlər), Pipan kəndi (VII–VIII əsrlər), Qum kəndi (V–VI əsrlər), Lekit kəndi (V–VI əsrlər), Lekit kəndində Yeddi kilsə (VI əsr), Armatay dağında Mamrux məbədi (IV–V əsrlər), Katex kəndi (V əsr, 1020-ci ildən anılır), Hənifə kəndində Ayrıtala kilsəsi (V–IX–XIV əsrlər), Mazımgəray kəndi (V–VI əsrlər), Muxax kəndi (IV–V əsrlər), Paşan kəndi (IV–V əsrlər), Tülü kəndi (V–VII əsrlər), Xalatala kəndi (V–IX əsrlər), Kürmüx kəndində Müqəddəs Georgi kilsəsi (XII əsr), Güllər kəndində Arılıqbinə monastır kompleksi (XIII əsr), Masex (Mazıx) kəndi, Qəbizdərə kəndi, Yuxarı Tala kəndi və Yuxarı Çardaxlar kəndi.

Şəki yeparxiyası

Qafqaz Albaniyasının tarixi əyaləti Şəki (Sakasena, Sake, Şakaşen) Ananiya Şiraklının sadaladığı, Kürün sol sahilində yerləşən altı əyalətdən dördüncüsüdür. Tarixçilər bu ərazidən bəhs edərkən bəzən Kürün sol sahilindəki Şəki əyalətini Kürün sağ sahilində Şəkidən cənubda yerləşən Şakaşen (Otena əyaləti) vilayəti ilə səhv salırlar. Mənbələrə görə, Şakaşendə öncə alban tayfalarının ittifaqına daxil olan irandilli skiflər yaşayırdı. Ərazi Azərbaycanın müasir Şəki və Oğuz rayonlarının ərazisini əhatə edir, qərbdə Kürmüxçay və Alazan çayları, şərqdə Türyançay, cənubda isə Kür çayı ilə həmsərhəddir.

"Məktublar kitabı"nın ardınca "Alban tarixi" əsərində də Şəki kafedrasında yer alan yepiskop Avvakumun (VI əsrin ortaları), patriarx taxtına seçilmiş yepiskop Yeliazarın (680–686), habelə Alban katalikosu olmazdan əvvəl Şəki diakonu olan arxiyerey Mixailin (705–742) adı çəkilir.

Şəki yeparxiyasının ərazisində alban məbəd memarlığının bir neçə nümunəsi günümüzə çatıb: Kişdə Müqəddəs Yelisey kilsəsi (çox böyük ehtimalla əvvəlcə Müqəddəs Məryəmin şərəfinə ucaldılmış) (I–IV–X–XII əsrlər), Calut monastırı (V–VI əsrlər), Yaqış Arakela kilsəsi, Oğuzdakı məbəd, Orta Zəyzid kilsəsi (X əsr), Bideyiz kilsəsi (XII əsr), Əmili kənd kilsəsi (IV–V əsrlər).

Paytakaran və Balasakan yeparxiyası

Tarixçilərin antik Kaspiana ilə eyniləşdirdiyi Balasakan əyaləti daxili Albaniyanın cənub-şərqində yerləşirdi. Elmi mənbələrdə bu əyalətin mövqeyi ilə bağlı iki rəy mövcuddur. Bəzi tarixçilər hesab edir ki, Bazqun-Balasakan torpaqları Xəzər dənizinin sahilində, şimalda Abşeron yarımadasından cənubda Kür çayının mənsəbinə qədər uzanırdı [Hewsen, 2001, map.77; Улубабян, 1977, с.117; Улубабян, 1971, с.178-182]. Digər tarixçilər Balasakanı şimalda Kür çayının Arazla qovuşduğu yerdən başlayaraq Kür çayı ilə əhatə olunan, qərbdə Talış dağlarına, şərqdə Xəzər dənizinə qədər uzanan, Muğan düzənliyinin ərazisində yerləşən Paytakaran əyaləti ilə eyniləşdirir [Мамедова, 2005, с.255]. Balasakanın Paytakaranı, həm də indiki Abşeron yarımadasını əhatə edə biləcəyi haqqında fikirlər də səsləndirilir [Ашурбейли, 1983, с.26]. Bununla belə, VII əsrdə Asiya və Qafqazın coğrafi təsvirini vermiş Ananiya Şiraklı Balasakanı Paytakaranla eyniləşdirmir. O, birincinin adını qədim alban əyalətləri sırasında, ikincinin adını isə Albaniyaya birləşdirilmiş əyalətlər sırasında çəkir [Армянская География, 1877, с.41].

Zaxari Mitilenskinin "Xronika" (555) əsərində bu əyalət xristian torpaqları adlandırılır və buranın özünün çarının və dilinin olduğu göstərilir [Zachariae

Rhetori, 1924, XII, 7, c.327]. Bu məlumatları M.Kalankatlı da təsdiq edir [Каланкатуаци, 1984, кн.II, гл.2]. Paytakaran əyaləti Alban çarı III Vaçaqanın (488–510) hakimiyyət illərindən Qafqaz Albaniyasının tərkibinə daxil edilib. Əyalətin paytaxt şəhəri eyniadlı Paytakaran (Beyləqan) Azərbaycanda Örənqala şəhərciyinin yaxınlığında yerləşir [Мамед-заде, 1983, с.25]. Bununla belə, bəzi tarixçilər hesab edirlər ki, Paytakaran şəhərini Arazın qurumuş qolunun sahilində, müasir Salyan şəhərindən qərbdə axtarmaq lazımdır [Арутюнян, 1981, с.61-76; Акопян, 1987, с.103-104].

Paytakaran hökmdarı, maskut çarı Sanatruk təqribən 330-cu ildə Müqəddəs Qriqorisin əzabkeş ölümünə səbəb olub [Бузанд. 1953, кн.III, гл.5; Хоренский. 1893, кн.III, гл.3; Каланкатуаци, кн.I, гл.14]. Koryunun verdiyi məlumatlara görə, M.Maştots Balasakan yepiskopu Muşelin dəstəyi ilə Balasakanda xristian dinini yayıb, daha sonra "çar, yepiskop və Albaniya kilsəsi ilə vidalaşaraq" İberiyaya gedib [Корюн, 1962, гл.XVII]. Maştotsun Balasakanda dini təbliğatla məşğul olmasından həm M.Xorenski [Хоренский. 1893, кн.III, гл.60], həm də M.Kalankatlı bəhs edir [Каланкатуаци, кн.I, гл.27].

M.Hacıyev "Albaniya və Balasakanın Böyük Katalikosu" adlı qamma-möhürün VI əsrə aid olduğunu hesab edir [Гаджиев, 2004, с.465-479]. Bu artefakt əyalətin yalnız Alban dövləti üçün deyil, Alban kilsəsi üçün də xüsusi mövqeyə sahib olmasını göstərir. Yazılı mənbələrdə göstərilmiş məlumatları təhlil edərək belə nəticəyə gəlmək mümkündür ki, Balasakan Şərqi Qafqazda çox vacib və əhəmiyyətli dövlət-siyasi və inzibati ərazi vahidi olub.

Yuxarıda qeyd edildiyi kimi, Alban katalikosu Abasa yazılmış VI əsrə aid məktubda Balasakan yepiskopu Timofeyin adı çəkilir. Balasakanda o dövrdə (540–554) Alban kilsəsi yeparxiyası ilə yanaşı, Şərq Fars kilsəsinin nestorian yeparxiyası da mövcud idi. Nestorian kilsələrinin sənədlərindən iki yepiskopun adı məlumdur: İohann və İakov [Касумова, 2005, с.44]. Hesab etmək olar ki, alban yepiskoplarının yurisdiksiyası alban Balasakanı - Bazquna şamil edilirdi, nestorian yeparxiyası isə inzibati vahid kimi vaxtaşırı olaraq Atropatenaya tabe olan Paytakaranda yerləşirdi.

Amaras və Haband yeparxiyası

Amaras kəndinin yerləşdiyi Haband Orxistena əyalətinin 12 vilayətindən biridir və Kürün sağ sahilində və Azərbaycanın hazırkı Xocavənd və Cəbrayıl rayonlarının ərazisində yerləşir.

F.Buzand və M.Kalankatlının verdiyi məlumatlara görə, Havandda İncilin müqəddəs kəlamını Amarasda kilsənin əsasını qoymuş Müqəddəs Maarifçi Qriqori təbliğ edirdi [Бузанд, 1953, кн.III, гл.6; Каланкатуаци, кн.I, гл.14]. Təqribən 338-ci ildə Maarifçi Qriqorinin nəvəsi, Albaniya və İberiya yepiskopu Qriqoris bütpərəst-maskutlar tərəfindən öldürüldükdən sonra Amarasda dəfn edilib. Alban çarı III Vaçaqan Müqəddəs Qriqorisin cəsədini 489-cu ildə alaraq onun üzərində sovməə ucaldıb və dağıdılmış kilsəni bərpa edib [Каланкатуаци, кн.I, гл.21-22]. V əsrin əvvəlində M.Maştots Amarasda birinci məktəbin əsasını qoyub. Məlumatlardan görünür ki, Amaras yeparxiyası çar III Vaçaqanın hakimiyyəti dövründə yaradılıb. M.Kalankatlı çarın Amarasa gəlməsini təsvir edərkən vurğulayır: "O vaxt Amarasda yepiskop yox idi" [Каланкатуаци, кн.I, гл.21]. Roma çarı Amaras yepiskopuna Müqəddəs Maarifçi Qriqorinin Konstantinopolda saxlanılan sağ əlini hədiyyə edib. Orta əsrlərdə Amaras iri skriptorium (əlyazmaların köçürüldüyü yer) olan monastır kimi tanınırdı. Amaras tez-tez dağıntılara məruz qalıb (1387-ci ildə Teymurləng tərəfindən dağıdılıb) və bir neçə dəfə bərpa edilib. 1858-ci ildə inşa edilmiş kilsənin qübbələri altında V əsr üçün səciyyəvi ornamentlərə malik cilalanmış bloklardan olan tağlı sərdabə saxlanılıb [Казарян, 2001, с.98].

Amaras yeparxiyasının yurisdiksiyasına aşağıdakı tarixi vilayətlər daxil olub: Myus-Haband, Sisakan-vostan, Muhank və Harçlank.

Amaras və Habandın aşağıdakı yepiskopları haqqında məlumat var: Harnik (V–VI əsrlərin hüdudu), Romik/Horomak (VI əsrin ortaları), Mxitar (VII əsrin əvvəlləri), İsaak (VII–VIII əsrlərin hüdudları), Serob (IX əsrin 2-ci yarısı).

Alban Kilsəsinin üç başçısı baş keşiş taxtına seçilməzdən əvvəl Amaras kafedrasına rəhbərlik edib: II İohann (644–668/671), I İosif (746/748–763/765) və II David (763/765–767/769).

Amaras yeparxiyasının tarixi ərazisində eyniadlı Amaras monastırı (IV–V əsrlər) ilə yanaşı

aşağıdakı məbədlər günümüzə gəlib çatıb: Maskut çarı Sanatrukun oğulları Moisey, Daniil, İliya və Müqəddəs Qriqorisin tələbələri olan digər xristianların IV əsrin 30-cu illərində din yolunda şəhid olduğu yerdə – Ziyarət dağının (Dizapayt) zirvəsində olan Katarovank monastır kompleksi (V–XVII əsrlər); mürəkkəb mərkəzləşmiş planına görə unikal hesab edilən və çox nadir dairəvi çoxapsidli bina növlərinə aid olan Oxtı Drni və ya "Yeddi qapı" kilsəsi (VI–VII əsrlər); Çörəkli kəndində Bri Yextsi monastırı (VII–XII–XIII əsrlər); Tuğ kəndinin yaxınlığında, Aranşah knyazlarının xüsusi himayədarlıq etdiyi Qtçavank və ya "Yeddi qardaş" monastır-kilsəsi (IV–XIII əsrlər); Çinarlı kəndində Spitak Xaç monastırı (XIV–XVIII əsrlər); Ktişvəng monastırı (XIII əsr); Müqəddəs Yaqub monastırı.

Girdiman yeparxiyası

Girdiman Otena əyalətinin səkkiz vilayətindən biridir və müasir Gədəbəy və Daşkəsən rayonlarının ərazisində yerləşir. Girdiman knyazlığı Qafqaz Albaniyasının qərb sərhədlərində vacib strateji və siyasi mövqeyə malik olub. Vilayət VI əsrdən IX əsrədək alban knyazlarının – Mehranilər sülaləsindən olan Aranşahların pay torpaqları olub [Каланкатуаци, кн.II, гл.17]. Bu sülalənin nümayəndələri "Girdiman hökmdarı və Alban ölkəsi knyazı" titulu daşıyıb [Каланкатуаци, кн.II, гл.21].

Koryunun verdiyi məlumatlara görə, Girdimanda xristianlığın təbliğatı ilə knyaz Girdimanlı Xursun xoş qarşıladığı M.Maştots məşğul olub [Корюн, гл.XVII, XVIII].

Girdiman yeparxiyası Girdimanla yanaşı qonşu Kolt və Kusta–Parnes vilayətləri üzərində də yurisdiksiyaya malik olub.

Alban salnaməçisi böyük knyaz Cavanşirin Girdimanda "bütün Alban ölkəsi üçün" möhtəşəm məbəd inşa etməsindən bəhs edir [Каланкатуаци, кн.II, гл.25].

Girdiman yeparxiyası V əsrdə "Yepiskopluqların siyahısı"nda [Ухтанес, кн.I, гл.70, с.100], habelə M.Kalankatlının qeydlərində və 706–707-ci illərdə keçirilmiş Partav kilsə məclisinin sənədlərində qeyd edilir.

M.Kalankatlı Girdiman yepiskopları İohann (VI əsrin ortaları) və Yeliazar (686-cı ildən), habelə əvvəlcə Girdiman kafedrasına başçılıq edən alban katolikosları Nerses Bakur (688/9–705), Feodor (781–785), Qagik (948–958) və Petrin (964–982) adını çəkir. Girdiman yepiskopu Stefan və Sünik yepiskopu Mafusailin adı sənədlərdə 632-ci ilin Feodosiopol kilsə məclisindən sonra diofizit partiyasına qoşulmuş yepiskoplar sırasında çəkilir [Garitte, 1952, p.44]. "Alban tarixi" əsərinin üçüncü kitabında X əsrdə, regionda Parisos çarlığının formalaşmasından əvvəlki dövrdə Parisos monastırının üç başçısının Alban katolikosları taxtına seçilməsi göstərilir: V David (923–929), VII David (965–971) və IV Moisey (987–993).

Girdiman yeparxiyasının tarixi ərazisində Ayrivank kilsəsi (VII–X əsrlər), Böyük Qara Murad kəndində Hamşivank monastırının qalıqları (IX–X–XIII əsrlər), Şəmkir çayının sol sahilində Çarekvəng monastırı (XIII əsr) günümüzə çatıb.

Uti yeparxiyası

Uti yepiskopu bizə çatmış sənədlərdə sadəcə bir dəfə – 488-ci ildə Aquen kilsə məclisində iştirak etmiş arxiyereylərin siyahısında qeyd edilir. [Каланкатуаци, кн.I, гл.26]. Bu vaxt Alban kilsəsinin başçısının iqamətgahı Çola/Çorada yerləşirdi, bununla belə, M.Kalankatlı ola bilsin ki, bununla anaxronizmə yol verərək arxiyepiskop Şupxalişonu "Partav arxiyepiskopu" adlandırır. Kilsə məclisinin keçirildiyi hesab edilən tarix düzgündürsə, Şupxalişonun Partavla heç bir əlaqəsi yoxdur. Məclisdə Uti yepiskopunun iştirak etməsi isə onun əslində Qafqaz Albaniyasının Kürün sağ sahilində yerləşən və Alban çarlarının yay iqamətgahının yerləşdiyi əyalətlərinə başçılıq edən arxiyerey olmasını göstərir.

Bundan başqa, unutmaq olmaz ki, Aquen kilsə məclisinin aktlarını çar və ya patriarx kitabxanasında saxlanılan arxiv sənədlərindən köçürmüş alban salnaməçisi kilsə məclislərində iştirak etmiş iki keşişin – yepiskop Ananiya və İsaakın titulunu ötürüb, ya da tapmayıb. Ola bilsin ki, "Alban tarixi"nin müəllifinin və ya əsəri köçürənlərin istifadə etdiyi mətndə onların yeparxiyalarının adı silinib. Bu səbəbdən, V əsrdə və daha erkən dövrdə daha iki yepiskop kafedrasının mövcud olmasını mülahizə etmək mümkündür.

Yeri gəlmişkən, alban salnaməçisi katolikos Yeliazarın hakimiyyəti dövründə (683–689) Uti əyalətində yerləşən, Qis adlı yerlə əlaqədar olan daha

bir yeparxiyanı qeyd edir: “Bu zaman Müqəddəs arxiyepiskop Yeliazara gələn vəhy ona dərhal İsa Məsihin xeyir-duasını almaq üçün yola düşməsini söylədi. O, səhər tezdən durdu, lazım olan hər şeyi götürərək tələsik Qisavan yeparxiyasında qeyd edilən kilsəyə getdi” [Каланкатуаци, кн.II, гл.33]. Bu yeparxiyanın mərkəzi Albaniya və onun kilsəsi üçün bir çox vacib hadisələrin baş verdiyi Qis olmalı idi.

Mets-İrank yeparxiyası

Mets-İrank (əl-Balazuriyə görə, Böyük Aran, Mesiran [Баладзори, 1927, с.13]) Orxistena əyalətinin Kürün sağ sahilində yerləşən on iki tarixi vilayətindən biridir. Vilayət Azərbaycanın hazırkı Kəlbəcər rayonunda yerləşir. Mets-İrank yeparxiyasının yurisdiksiyasına üç tarixi vilayət daxildir: Mets-Arank, Parsakank və Piank.

Alban salnaməçisi Mets-İrank yepiskopları sırasında arxiyerey Simeon (VII əsrin əvvəli), İovel (VII əsrin sonları) və Alban Kilsəsinin başçısı olmuş Abasın (551/2–595/6) adını çəkir.

Daha sonra, XIV əsrdən başlayaraq Mets-İrank yeparxiyası Alban katalikoslarının iqamətgahına çevriləcək və bizə onların irsi olan, Müqəddəs Vəftizçi İohannın şərəfinə ucaldılmış, alban məbəd memarlığının şedevri olan Gəncəsər monastırını bəxş edəcək.

Mets-İrank yeparxiyasının tarixi ərazisində Gəncəsər monastırı ilə yanaşı həvari Faddeyin tələbəsi Müqəddəs Dadinin (Faddey) dəfn edildiyi yerin üzərində VI əsrdə ucaldılmış Xudavəng (Dadivank) monastırı da yerləşir. Monastır mənbələrdə IX əsrdən göstərilir, lakin hazırkı tikililər XIII əsrə aiddir. Yeparxiyanın daha bir vacib dini mərkəzi V–VII əsrlərdə inşa edilmiş Ağoğlan bazilika-monastırıdır. Daha bir vacib abidə Həsən Cəlalın rəqibləri Craberd knyazları Melik-İsraelyanlar tərəfindən XIII əsrdə ucaldılmış Yerek Mankunk monastırıdır. XVII–XVIII əsrlərdə burada Alban Gəncəsərinin antikatolikosatı yerləşib.

Mets-Kuenk yeparxiyası

Mets-Kuenk (əl-Balazuriyə görə, Böyük Kuank/Kolmank, Meskvan [Баладзори, 1927, с.13]) Orxistena əyalətinin Kürün sağ sahilində yerləşən on iki tarixi vilayətindən biridir. Vilayət Azərbaycanın hazırkı Ağdam və Tərtər rayonlarının ərazisində yerləşib və Mets-Kuenklə yanaşı, Vakunik və Berdadzor tarixi vilayətlərini də əhatə edib.

M.Kalankatlı bu yerin adını bu torpaqlarda M.Maştotsun Yerusəlimdən gətirdiyi gümüş relikerin gizlədilməsi ilə əlaqədar çəkir. Eyni zamanda, M.Maştotsun Yerusəlimdən gəlmiş keşişlərlə birlikdə qardaşlıq və ya monastır yaratmış tələbələri burada, Astlabur dağ dərəsində və Çlax meşə vahəsində Pasxa günündə hunların əlindən həlak olub [Каланкатуаци, кн.I, гл.28-29].

Alban salnaməçisi Mets-Kuenkin aşağıdakı yepiskoplarının adını çəkir: David (VII əsrin sonları), İsrael (VII–VIII əsrlərin hüdudu), Hun ölkəsində maarifçilik etmiş Samuil (877-ci ilədək) və Mixail (877-ci ildən).

Alban Kilsəsinin dörd başçısı baş keşiş taxtına seçilməzdən əvvəl Mets-Kuenk kafedrasına rəhbərlik edib: III David (769–778), II İosif (852–877), Samuil (877–894) və II İsaak (929–947).

Mets-Kuenk yeparxiyasının tarixi ərazisində Avaptuk monastırı (XII əsr), Akobavank monastırı (853-cü il), Harva kilsəsi (XIII əsr), Anapat monastırı (XII əsr), Qazançı kəndində Müqəddəs Georgi, Karmirvank və Mehraker kilsəsi (XIII əsr) və başqa abidələr qalıb.

Ola bilsin ki, Mets-Kuenk yeparxiyasının baş məbədi həvari Yelisey və alban çarı III Mömin Vaçaqanın müqəddəs cəsədlərinin dəfn edildiyi, Murovdağın yamacında V əsrdə inşa edilmiş (hazırkı tikili XII–XIII əsrlərə aiddir) Müqəddəs Yelisey monastırının kilsəsi olub. Yeparxiyanın baş məbədi Əsgəranda, Qaqarçayın sahilindəki təpədə çar III Vaçaqanın xatirəsinə ucaldılmış Vankasar monastırının kilsəsi (V–VII əsrlər) də ola bilər. Vankasar monastırının adı yazılı mənbələrdə ilk dəfə Erməni Kilsəsinin Gürcüstan yeparxiyasının başçısı, məşhur yazıçı və paleontoloq Sarqis Calalyants (1819–1879) tərəfindən çəkilir: “Dağın zirvəsində, əfsanəyə görə, bu yerlərin yeparxiya mərkəzi olmuş məbədin xarabalıqları qalıb” [Джалалянц, 1842, 1856].

Qaşua (Xoş) yeparxiyası

Qaşua yeparxiyasının yurisdiksiyası Otena əyalətinin Azərbaycanın hazırkı Şəmkir, Tovuz və Gəncə rayonlarına uyğun gələn Şakaşen və Tuçkatak vilayətlərinə aid edilirdi. R.Hyusen qədim Skif çarlığının – Şakaşen adının formalaşmasına səbəb

olmuş tarixi Sakasenanın ərazisində qədim alban məbəd mərkəzi Yaşu Xoşun (uti dilində "xaş" – ay) yerləşdiyini hesab edir [Hewsen, 1992, p.145-146].

M.Kalankatlı Xoş yepiskopu İonun (İunan) 488-ci ildə Aquen kilsə məclisində, yepiskop Simeonun isə 704-cü ildə Partav kilsə məclisində iştirak etməsini qeyd edir. Yepiskop Simeon 706/707-ci illərdə Partav kilsə məclisində iştirak etmiş yepiskopların arasında da olub.

Məlumatlardan görünür ki, yeparxiyanın mərkəzi Şəmkir olub. Əl-Balazuri Şəmkirin Bərdə, Dərbənd və Beyləqanla birlikdə Qafqaz Albaniyasının ən vacib siyasi mərkəzlərindən biri olmasını qeyd edir [Баладзори, 1927, с.203]. Bu vilayətdə yeparxiya mərkəzinin yerləşməsini XIX əsrdə yepiskop Makar Barxudaryan da təsdiq edir [Бархударян, 1895, с.44-45].

Xoş yeparxiyasının ən vacib dini mərkəzlərindən biri 1225-ci ilədək tarixçi Kirakos Qandzakskinin və vardapet Vanakanın yaşadığı Çinari kəndində yerləşən Məryəm Ananın şərəfinə tikilmiş Xoranaşat monastırı (1211–1222) olub. Hazırda monastır Azərbaycan-Ermənistan sərhədinin təqribən 100 metrliyində, erməni tərəfində yerləşir.

Yeparxiyanın daha bir vacib dini mərkəzi Berdovank monastırı olub. Alban katolikosu Mixailin 720–730-cu illərdə pavlikianlara qarşı çağırdığı və yaxın qohumlar arasında cinsi əlaqə məsələsinin müzakirə edildiyi kilsə məclisi Şəmkirdə yerləşən bu "monastır-qala"da keçirilib [Каланкатуаци, кн.III, гл.13]. Məclisdə 7 alban yepiskopu iştirak edib [Бартикян, 1961, с.32-33].

Xoş yeparxiyasının ərazisində qalıqları günümüzə çatmış məbədlər arasında Çaparlı kənd kilsəsini (IV–V əsrlər) də qeyd etmək olar.

Tsri və Çilbka yeparxiyası

Tsri yeparxiyasının adı "Alban tarixi"ndə sadəcə bir dəfə, 488-ci ildə Aquen kilsə məclisində iştirak edən yeparxiyaların sadalanması zamanı çəkilir. Yeparxiyanı xoryepiskop Simeon təmsil edirdi.

Alban salnamələrindən bizə sadəcə Tsrinin Çilblər ölkəsinin vacib şəhəri və ya paytaxtı olması məlumdur. Tədqiqatçılar Çilblər ölkəsinin harada olmasını hələ də dəqiqliklə müəyyən edə bilməyib. Mənbələrdən başa düşmək mümkündür ki, Ipinlər və Çilblər Qafqaz Albaniyasının şimal-şərq sərhədlərində yerləşən, Cənubi Dağıstanın dağlıq hissəsinə yaxın ərazilərdə və Yeqişenin siyahısında sadalanmış tayfaların qonşuluğunda yaşayırdılar [Егише, 1971, раздел IV, с.255].

Çilblərin Alazan vadisinin şimalında, yüksək dağlıq ərazilərdə yaşaması haqqında da fikirlər mövcuddur [Еремян, 1939, с.137]. M.Hacıyev onların Samur çayının yuxarı axarlarında və Böyük Qafqaz silsiləsinin qonşu yamaclarında, müasir saxurların ənənəvi olaraq yaşadığı ərazilərdə yaşadığını hesab edir. Tədqiqatçılar bunu əsas götürərək saxurların özlərinə verdiyi adı – "yıxbı" (cəm hal) – "çilb" etnonimi ilə əlaqələndirirlər [Гаджиев, 1998, с.15-16].

İ.Semenov alban salnamələrində yepiskop İsraelin hun torpaqlarına missiyası haqqında verilmiş məlumatları ərəb tarixçilərinin verdiyi məlumatlarla birlikdə tədqiq edərək belə nəticəyə gəlir ki, Çilblər ölkəsi Layzan (şahənşah I Xosrov Ənuşirəvanın vaxtlarından - Layzan şahlığı) hesab edilməlidir [Семенов, 2006, с.3-8]. V.Minorski buranın mərkəzi Lahıcda yerləşən Lahıc vadisi olduğu qənaətindədir [Минорский, 1963, с.33]. Tədqiqatçılar belə nəticəyə gəlir ki, Çilblər ölkəsi Böyük Qafqaz dağlarının Qonaqkənd aşırımının hər iki tərəfində uzanan dağlıq Layzan zonasına uyğun gəlir.

Lakin tədqiqatçı Y.Cəfərov [Джафаров, 1985, с.65-80] qeyd edir ki, Tsri şəhər-qalasının adı yalnız alban tarixçisi M.Kalankatlının əsərlərində çəkilir. M.Kalankatlıya görə, bu şəhər xüsusi statusa malik idi və IV–V əsrlərdə Qafqaz Albaniyasının siyasi və dini həyatında böyük rol oynayırdı. Tsri şəhərinin adı ilk dəfə burada kilsə qurmuş və şəhid cəsədlərinin bir qismini yerləşdirmiş Müqəddəs Qriqoris haqqında hekayədə çəkilir. Daha sonra Qriqoris burada keşiş Daniili qoyub tələbələri ilə birlikdə "maskutların ölkəsi"nə gedir və burada maskutlar tərəfindən öldürülür [Каланкатуаци, кн.I, гл.14].

"Alban tarixi"nin müəllifi maskutların ölkəsi ilə əlaqədar Tsri şəhərinin adını təkrar çəkir. O bildirir ki, zərdüştlüyə sitayiş edən hansısa fars Tsri şəhərində kilsəni mundarlamağa cəhd edib, lakin dəhşətli əzablar içində ölüb. Bu hadisəni maskutların ölkəsində olmuş hun yepiskopu İunan görüb [Каланкатуаци, кн.I, гл.19]. Məlum olduğu kimi, maskutların ölkəsi Dərbənddən cənubda Xəzəryanı düzənlikdə yerləşirdi. Musa Kalankatlı Tsri şəhərini Çilblər ölkəsi ilə əlaqədar da anır. Çilblərin

isə Kürdən şimalda, Böyük Qafqaz dağlarının ətəklərində yaşadığı hesab edilir. Bundan başqa, tədqiqatçılar Tsri şəhərinin çar nəslindən olan alban canişini (çar Yesvalenin nikahdan kənar doğulmuş oğlu) tərəfindən idarə olunmasına da diqqət yetirirlər, belə ki, o, alban salnaməçisinin Albaniyada qeyd etdiyi yeganə alban canişini idi. Üstəlik şəhər fars elementləri olan bütpərəst şəhəri adlandırılır, lakin burada xoryepiskopun başçılıq etdiyi yeparxiya da var. M.Kalankatlı bir daha qeyd edir ki, Tsri şəhəri strateji əhəmiyyətə malikdir və qala-şəhərdir. Hun yepiskopu İon (İunan) da bu şəhərə gəlib. VII əsrdə "Coğrafiya" əsərinin müəllifi olmuş Ananiya Şiraklı Asiya sarmat tayfaları arasında çilblərin də adını çəkir. Bütün bu məlumatlar, habelə Yeqişe, F.Buzand və M.Kalankatlının qeydləri əsasında belə nəticəyə gəlmək olar ki, alban salnaməçisi Tsri şəhəri dedikdə Çora/Çola (Dərbənd) şəhərini nəzərdə tutur və çolalıları və ya Çolanın yaxınlığında yaşayan və onun əhalisini təşkil edən tayfaları isə çilblər adlandırır.

Hun yeparxiyası

Bizim şərti olaraq Alban Kilsəsinə daxil etdiyimiz daha bir ərazi-kilsə vahidi Hun missioner yeparxiyasıdır. Hun-sabir tayfalarının yerləşdiyi, Qafqaz Albaniyası ilə şimal-şərqdə həmsərhəd olan ərazi hər kəsə yaxşı məlumdur. Hunların paytaxtı Varaçan Dağıstanın Qayakənd rayonunda Şah-Səngər adlı şəhərcikdə yerləşib [Гаджиев, 1998, с.15-16].

Qafqaz Albaniyası üçün bir çox siyasi problemlər yaratmış hun torpaqları o vaxtlar Alban kilsəsinin missionerlik fəaliyyəti üçün böyük maraq təşkil edirdi.

Qədim dövrlərdən Kilsədə aşağıdakı qaydalara riayət edilirdi: Yerli Kilsələrin heç birinə daxil olmayan ərazidə qeyri-xristianlığa biət edən xalqı xristianlığa keçirən Kilsə yeni yaradılmış icma, yeparxiya, Kilsə üçün Ana Kilsəyə, kiriarxal kilsəyə çevrilir. Bu norma 411-ci ildə keçirilmiş Karfagen kilsə məclisinin 131 (117) qaydasında ifadə olunub: "Kilsə qaydalarına görə, hər hansı yerdə Kilsələr... onları katolik birliyinə biət etməyə inandırmış yepiskopların taxtına məxsus olmalıdır..."

Məlum olduğu kimi, hunlar arasında xristianlığı məhz Alban kilsəsinin yepiskopları yayıb. Hunlar arasında birinci alban yepiskopu haqqında qeyd M.Kalankatlının Tsri şəhərindəki hadisələr haqqında hekayəsində və Alban kilsəsinin başçılarının siyahısında göstərilib. Siyahıda müəllif bu yepiskopun adını IV əsrin sonlarında alban yazısının yaradılmasına səbəb olmuş arxiyerey İyeremiydən əvvəl çəkir. Hunların yepiskopu adlanan bu yepiskop İondır (İunan) və onun missionerlik fəaliyyəti IV əsrin ikinci yarısına aiddir [Каланкатуаци, кн.I, гл.19; кн.III, гл.24].

Zaxari Mitilenski "Aran Kardoste torpağının yepiskopu" haqqında məlumat verir. O, 537-551-ci illərdə missioner fəaliyyəti və hunlar arasında dini təbliğatla məşğul olmaqla yanaşı, Müqəddəs İncilin mətnlərini hun dilinə tərcümə edib. Suriyalı müəllifin verdiyi məlumata görə, tərcümə 544-cü ildə yekunlaşdırılıb [Zachariae Rhetori. 1924, XII, 7]. Daha sonra müəllif 551–555-ci illərdə yepiskop Makarinin hunlar arasında olması haqqında məlumat verir.

VII əsrin 80-ci illərində alban yepiskopu İsrael hunlar ölkəsinə missiya ilə yola düşür. M.Kalankatlı salnamələrinin ikinci kitabında səkkizinci fəslin XXXVIII-XLV bölmələrini bu missiyaya həsr edib. Alban tarixçisi burada hunların ölkələrində yeparxiya qurmaq istəyi haqqında məlumat verir. Onlar yepiskop İsraelə müraciət edərək deyirlər: "Pak şəxsiyyətinizdən bizim yepiskopumuz və müəllimimiz olmağınızı, Varaçan şəhərində yepiskopluq taxtını təsdiq etməyinizi diləyirik" [Каланкатуаци, кн.II, гл.42]. Nəticədə, alban katolikosu Yeliazarın xeyir-duası ilə "Müqəddəs yepiskop İsrael hunlarla əhd-peymanına və saziş şərtlərinə riayət edərək könüllü şəkildə hunların yanına gedir, hər iki yeparxiyanı idarə edir və xristian dininə biət edən yeni dindarlara himayədarlıq edir" [Каланкатуаци, кн.II, гл.45]. Daha sonra Qafqaz Albaniyasının yepiskoplarının əsasını qoyduğu Hun yeparxiyası digər yeddi missioner yeparxiyası ilə birlikdə Doros mitropoliyasının tərkibinə daxil edildi [Артамонов, 1962, с.93-94; Науменко, 2002, с.544-568]. Bu mitropoliyanın əsasının qoyulduğu vaxt dəqiq məlum deyil, lakin ən erkən mümkün tarix 787-ci il, ən gec tarix isə IX əsrin sonları hesab edilir. Mitropoliyanın üç yeparxiyası Xəzər dənizinin sahilində yerləşirdi: Hun, Xval və Astil. Əlimizdə olan məlumatlara görə, mitropoliyanın mövcudluğu X əsrdən sonra davam etməyib.

Yeuta yeparxiyası

Yeuta yepiskopu sadəcə bir dəfə Aquen kilsə məclisinin iştirakçıları arasında, “Alban tarixi” əsərində K.Patkanovun XIX əsrdə tərcümə etdiyi siyahıda anılıb [Каланкатуаци, 1861, кн.I, гл.26]. Məlum olduğu kimi, K.Patkanovun tərcüməsi 1841-ci ildə keşiş O.Şaxatuni tərəfindən orijinaldan çıxarılmış, daha sonra Sankt-Peterburq Asiya muzeyinə göndərilmiş surətindən edilib. 1984-cü ildə “Alban tarixi” əsərini nəşr etdirmiş Ş.Smbatyan bu yeparxiyanın adını tərcüməsindən çıxarıb. Sonuncu tərcümə üzərində iş zamanı bu əsərin bütün məlum əlyazmalarından istifadə edilib (Matenadaranda olan on bir əlyazma və mikrofilm və fotosurətlər şəklində saxlanan üç əlyazma). Bütün bunların əsasında Yeuta yeparxiyasının mövcud olması ehtimalını tamamilə rədd edirik, üstəlik onun adı Qafqaz Albaniyasının heç bir məlum toponimi ilə üst-üstə düşmür.

Belə bir nəticəyə gələ bilərik ki, Qafqaz Albaniyasında xristianlığın yayılması bərabər şəkildə getmirdi, Alban kilsəsinin ölkədə mövqeyi isə mürəkkəb siyasi vəziyyətlə əlaqədar olaraq bütün regionlarda stabil deyildi. Bununla belə, IV əsrdən başlayaraq xristianlığın şəhərlərdən kəndlərə yayılması və dindarların sayının artması kilsə-inzibati vahidlərinin – yeparxiyaların sayının artmasına səbəb oldu və VI əsrdə bu ərazilərdə artıq ən azı 15 yeparxiya mövcud idi. Lakin orta əsr Alban kilsəsinin yeparxiyalarının ərazisinin və bu yeparxiyalarda yaşayan xristian əhalisinin sayının dəqiq müəyyən edilməsi hələ mümkün deyil. Bunun üçün daha yeni mənbələrin cəlb edilməsi ilə əlavə tədqiqatların həyata keçirilməsinə ehtiyac var. Bütün bunlara baxmayaraq, biz alban tarixçisi M.Kalankatlının Alban kilsəsinin iyerarxiyaları və struktur bölmələri haqqında bütün qeydlərini təhlil edərək VI əsrdə Alban kilsəsinin yurisdiksiyasına daxil olan yeparxiyaların ilk tam siyahısını təklif edə bilmişik.

ƏDƏBİYYAT:

1. Акопян А.А. Албания-Алуанк в греко-латинских и древнеримских источниках. Ереван, 1987, 302 с.
2. Армянская География VII века по Р.Х. (приписывавшаяся Моисею Хоренскому) / Перевод и комментарии К.П.Патканова. Санкт-Петербург, 1877, 84, 26 с.
3. Артамонов М.И. Древний Дербент // Советская Археология, том VIII, 1946, с.121-144.
4. Артамонов М.И. История хазар. Ленинград: Изд-во Гос.Эрмитажа, 1962, 523 с.
5. Арутюнян Б.А. Город Пайтакаран и его локализация // Вестник Общественных наук АН Арм.ССР, №12, 1981, с.301-302 (erməni dilində)
6. Ашурбейли С.А. Государство Ширваншахов. Баку, 1983, 294 с.
7. Баладзори. Книга завоевания стран / Текст и перевод с араб. с извлечениями П.К.Жузе. Известия Общества обследования и изучения Азербайджана. Баку, 1927, 38 с.
8. Бартикян Р.М. Источники для изучения истории павликианского движения. Ереван, 1961, 215 с.
9. Бархударян Макар, епископ. Арцах. Исторический экскурс. Баку, 1895, 408 с. (erməni dilində)
10. Буниятов З.М. Азербайджан в VII–IX вв. Баку, 1965, 384 с.
11. Егише. О Вардане и войне армянской / Перевод с древнеармянского И.А.Орбели, издание К.Н.Юзбашяна, Ереван: Изд-во АН Арм.ССР, 1971, 192 с.
12. Гаджиев М.С. Атрибуция геммы-печати великого католикоса Албании и Валасакана и вопрос очерёдности патриаршества владык Албанской церкви // Проблемы истории, филологии, культуры. Москва-Магнитогорск, 2004, с.465-479.
13. Гаджиев М.С. Лпиния (исторические факты, локализация, этническая принадлежность) // Дагестан в эпоху великого переселения народов. Махачкала, 1998, с.7-42.
14. Геюшев Р.Б. Христианство в Кавказской Албании. Баку, 1984, 192 с.
15. Джалалянц Саргис, архиепископ. Путешествие в Великую Армению. В 2х томах. Тифлис, 1842, 1856.
16. Джафаров Ю. Город Цри и страна чилбов в «Истории албан» Моисея Каланкатуйского // Древний и средневековый Восток. Часть 1. М., 1985, с.65-80.
17. Егише. О Вардане и войне армянской/ Перевод И.А.Орбели. Ереван, 1971, 192 с.
18. Еремян С.Т. Моисей Каланкатуйский о посольстве албанского князя Вараз-Трдата к хазарскому хакану Алп-Илитверу // Записки Института востоковедения Академии наук СССР. Том VII. Л.: Изд-во Академии наук СССР, 1939, с.129-155.
19. Еремян С.Т. Политическая история Албании III–VII вв. // Очерки истории СССР. III–IX вв. М., 1958, гл. II, §12, с.310-322.
20. Казарян А.Ю. Амарас // Православная Энциклопедия, том II. М., 2001, с.98.
21. Каганкатваци Моисей. История агван / Перевод с древнеарм. К.Патканова. СПб., 1861, 376 с.
22. Каланкатуаци Мовсес. История страны Алуанк / Перевод с древнеарм. Ш.В.Смбатяна. Ереван, 1984, 258 с.
23. Касумова С.Ю. Христианство в Азербайджане в раннем средневековье. Баку, 2005, 146 с.
24. Корюн. Житие Маштоца / Перевод с древнеарм. Ш.В.Смбатяна и К.А.Мелик-Огаджаняна. М., 1962, 76 с.
25. Кудрявцев А.А. О христианстве в Дербенте // X Крупновские чтения по археологии Северного Кавказа. М., 1980, с. 48-51.
26. Мамед-заде К.М. Строительное искусство Азербайджана (с древнейших времён до XIX). Баку: Элм, 1983, 234 с.

27. Мамедова Ф. Кавказская Албания и албаны. Баку, 2005, 800 с.
28. Минорский В.Ф. История Ширвана и Дербента X–XI вв. М., 1963, 266 с.
29. Науменко В.Е. К вопросу о характере византийско-хазарских отношений в конце VIII – середине IX вв. // Проблемы истории, филологии, культуры, №12. Магнитогорск, 2002, Вып. 12, с.551-554.
30. Семенов И.Г. О локализации лпинов и чилбов // Вестник Института истории, археологии и этнографии ДФИЦ РАН, №3. Махачкала, 2006, с.3-8.
31. Улубабян Б.А. О границах древнего Алуанка // Вестник Ереванского Универсетета, №1, 1977, с.109-124.
32. Улубабян Б.А. О локализации Баласакана // Вестник Ереванского Университета, №1, 1971, с.178-182.
33. Фавстос Бузанд. История Армении / Перевод с древнеарм. и коммент. М.А.Геворгяна. Ереван: Изд-во АН Арм. ССР, 1953, 256 с.
34. Ханбабаев К.М. Христианство в Дагестане в IV–XII вв. // Сборник трудов ИСПИ РАН. Южно-Российское обозрение, №20, 2004, с.227-246.
35. Хоренский Моисей. Армянская география VII в. по Р.Х. / Перевод К.П.Патканова. Санкт-Петербург, 1877, XXVIII, 84, 26 с., 2 л. карт.
36. Цыпин Владислав, протоиерей. Курс церковного права. Клин, 2004, 700 с.
37. Garitte G. La Narratio de Rebus Armeniae // Corpus Scriptorum Christianorum Orientalium. №132, subsidia 4. Louvain, 1952, p. 482.
38. Hewsen Robert H. Armenia: A Historical Atlas. Chicago, 2001, 11 x 17, 336 p., 232 color maps, 3 line drawings.
39. Hewsen Robert H. The Geography of Ananias of Sirak. The Long and the Short Recension. Wiesbaden, 1992, 467 p., 26 maps.
40. Pliny. Natural History. In 10 vol. / English translation by H.Rackham. Cambridge-London, 1947, vol,II, p.664.
41. Zachariae Rhetori. Historia Ecclesiastica / Edited by E.W.Brooks // Corpus Scriptorum Christianorum Orientalium. Scriptores syri. Series III, vol. VI, 2. Louvain, 1924, p.327.

Dr. Kəmalə İmranlı-Lowe[1]
Müstəqil tədqiqatçı (Birləşmiş Krallıq)

XVIII ƏSRİN SONLARI–XIX ƏSRİN ƏVVƏLLƏRİNDƏ RUSİYANIN QAFQAZ STRATEGİYASINDA QAFQAZ ALBANLARININ ROLU

Təxminən 300 il bundan öncə – 1720-ci illərin əvvəllərində Səfəvilər dövlətinin Cənubi Qafqazda yerləşən əraziləri bir daha hərbi əməliyyatlar meydanına çevrildi. Bölgə uğrunda Səfəvilər və Osmanlıların mübarizə apardığı əvvəlki əsrlərdən fərqli olaraq, strateji və hərbi baxımdan əhəmiyyət kəsb edən bu torpaqlara nəzarət üçün rəqabətə bu dəfə yeni bir dövlət daxil oldu. O zaman de-yure Səfəvilərə məxsus olan bu ərazilərə onların köhnə rəqibi – Osmanlı İmperiyası və həmin dövrün yeni meydana çıxan bir gücü – Rusiya iddia edirdi. Rusların Cənubi Qafqaza irəliləməsinin əsas nəticəsi Rusiya ilə Osmanlı İmperiyası arasında 1724-cü ildə imzalanan, bölgəni Rusiya, həm də Osmanlı nüfuz dairələrinə bölən İstanbul (Konstantinopol) müqaviləsi və Xəzər dənizi boyunca yerləşən əraziləri zəbt etməsi oldu. Lakin Səfəvilərin ruslar və osmanlılar tərəfindən işğal olunmuş əraziləri 1732 və 1736-cı illər arasında qaytara bilməsi nəticəsində yeni bölgünün ömrü uzun olmadı.

Rusiyanın bölgəyə olan yenilənmiş marağı XVIII əsrin son onilliklərinə təsadüf edir. Belə ki, 1780-ci ildə general-leytenant Aleksandr Suvorov Həştərxana gəlir və yeni əməliyyatlara hazırlıq məqsədilə məlumat, o cümlədən Cənubi Qafqaz əyalətləri barəsində bilgi toplamağa başlayır [Бутков, 1869, II, c.71, III, c.152; Эзов, 1901, c.28; Иоаннисян, 1989, c.255]. Kartli və Kaxeti çarı İraklinin Rusiyanın protektoratı olması üçün rəsmi müraciət etməsi istiqamətində Rusiyanın göstərdiyi səylər 1782-ci ilin payızında öz bəhrəsini verdi və 24 iyul 1783-cü il tarixində himayədarlıq haqqında traktatın imzalanması ilə nəticələndi [Бутков, 1869, III, c.164, II, c.118-119, 122-127].

İsfahanı ələ keçirdikdən və sərhəd əyalətlərini çıxmaq şərtilə, əksər hissəsini fəth etdikdən sonra özünü İran şahı elan etməklə hakimiyyətini möhkəmləndirməyi düşünən Əlimurad xan 1784-cü ilin əvvəllərində Qafqazdakı rus qoşunlarının baş komandanı general-leytenant Pavel Potyomkinlə görüşmək üçün öz elçisini Qafqaz xəttindəki Mozdok şəhərinə göndərir. Onun məqsədi hakimiyyət uğrunda mübarizədə rəqibi olan Astrabad xanı Ağa Məhəmmədə qarşı Rusiyanın dəstəyini əldə etmək idi. Əlimurad xan Potyomkinə ünvanladığı məktubda özünün şah kimi tanınmasını və osmanlılara qarşı mübarizəsində kömək istəyirdi. Əvəzində isə o, ruslar üçün əlverişli olan ticarət müqaviləsi imzalamağı təklif edir və 1722–1723-cü illərdə ruslar tərəfindən fəth edilmiş Xəzəryanı əyalətlər, daha dəqiq desək, ətraf əraziləri ilə birlikdə Dərbənd, Bakı, Gilan, Mazandaran, Astrabaddan əl çəkir, eləcə də Qarabağ, Qaradağ, Naxçıvan, İrəvan xanlıqlarını güzəştə gedirdi [Бутков, 1869, II, c.147-148; Дубровин, 1886, II, c.169].

İsfahan hakimi Əlimurad xanın bu mövqeyindən yararlanmaq məqsədilə İmperatriçə Yekaterinadan (1762–1796) ali sərəncam alan Tavriya knyazı Qriqori Potyomkin Dərbənd şəhəri və digər Xəzəryanı ərazilərin işğal edilməsi üçün özü tərəfindən təklif edilmiş rus hərbi əməliyyatlarını təxirə salır. Əvəzində polkovnik Vasili Tamaranı

[1] *Qeyd: Müəllif Birləşmiş Krallığın Birmingem Universitetinin Rusiya, Avropa və Avrasiya Tədqiqatları Mərkəzinin doktoranturasını fəlsəfə doktoru (PhD) elmi dərəcəsi ilə bitirmişdir. 3 kitabın və 6 məqalənin müəllifidir. Əsas etibarilə Qafqazın orta əsr, yeni və ən yeni dövr siyasi tarixinə həsr olunmuş bu nəşrlər arasında "Создание армянского государства на Кавказе: Истоки и последствия" (Москва: Научно-издательский центр "Ладомир»,* **2006***) adlı monoqrafiya, 'The Provisional Government and the Armenian Homeland Project', Revolutionary Russia, Vol.27, No.2 (***2014***): 132-56; 'Reconstruction of the 'Armenian Homeland' Notion', Middle Eastern Studies, Vol.51, No.4 (***2015***): 540-62; 'The Paris Peace Conference and the Armenian Arguments on Garabagh', Central Asian Survey, Vol.34, No.2 (***2015***): 219-36; və 'The polities of the Caucasus and the regional powers in the medieval and early modern period', Caucasus Survey, Vol.8, No.3 (***2020***): 258-277 kimi məqalələr yer alır.*

Əlimurad xanla görüşmək üçün onun elçisi ilə birlikdə İsfahana göndərir [Бутков, 1868, II, c.150; Дубровин, 1886, II, c.34].

30 sentyabr 1784-cü ildə polkovnik Tamaraya verilmiş memorandumda knyaz Potyomkinin Rusiyanın İrana qarşı siyasətinə dair baxışı və Rusiyanın Əlimurad xanı hansı şərtlərdə şah kimi tanıyacağına dair aşağıdakı müddəalar yer alırdı:

> **Birincisi.** O bizə lazım olan və ilhaqına qərar verdiyimiz Dərbənd, eləcə də digər torpaqların bizə məxsusluğunu tanısın. **İkincisi.** O bizimlə İran İmperiyasının dəqiq sərhədlərini müəyyən edən aydın və təfərrüatlı traktat imzalasın. **Üçüncüsü.** Çar İraklinin torpaqları bizim baxışlarımıza uyğun olaraq dəqiq sərhədlərlə müəyyən edilsin. **Dördüncüsü.** Erməni diyarının müstəqilliyi bərpa edilsin. **Beşincisi.** Albaniya vilayəti və ya çarlığının təşkili üçün nəzərdə tutulmuş torpaqlar haqqında da aydın qərar verilsin... [Иоаннисян, 1947, c.282-283]

Bu memorandumda knyaz Potyomkin, həmçinin bildirir: "Eyni zamanda faydalı olardı ki, Erməni və Alban hökumətləri yaradılsın, onlarla bağlı zəruri qərarlar verilsin" [Иоаннисян, 1947, c.283].

Alban siyasi varlığının yaradılması məsələsinə knyaz Potyomkinin II Yekaterinaya ünvanladığı məktubda da toxunulmuşdu. Həmin məktubda knyaz qeyd edirdi: "İmperator Əlahəzrətləriniz tərəfindən çoxdan təklif edilmiş Alban çarlığının yaradılmasına dair planın həyata keçirilməsi üçün vaxt-vədə yetişibdir". [АВПРИ, ф.5, оп.5/1 (1779-1783), д.591, ч.I, л.224] II Yekaterinanın hakimiyyəti dövründə təxminən 10 il dövlət katibi vəzifəsində çalışmış Aleksandr Xrapovitskinin gündəliyi də Rusiyanın Alban dövlətinin əsasının qoyulmasına dair planlarına müəyyən aydınlıq gətirir. 17 avqust 1787-ci ildə Xrapovitski [1862, II, c.37] öz gündəliyində yazırdı: "[T]avriya knyazı Potyomkinin İrandakı hərc-mərclikdən istifadə edərək Bakı və Dərbəndi zəbt edib, Gilanı ilhaq etməklə Böyük knyaz Konstantin Pavloviçin gələcək mirası olaraq Albaniyanın yaradılmasına dair bir məxfi layihə sənədini sandıqdan taparaq oxudum".

Erməni Eçmiədzin Katolikosluğunun Həştərxan yeparxiyasının rəhbəri arxiyepiskop İosif Arqutinskinin gündəliyində də bu mövzuda fikirlərə yer verilir. Arxiyepiskop tərəfindən təqdim edilən məlumatlardan [Эзов, 1901, c.28; Дубровин, 1886, III, c.58] aydın olur ki, 1780-ci ildə qraf Suvorov və knyaz Potyomkin Xəzəryanı əyalətlərin zəbt edilməsi məqsədilə planlaşdırılan hərbi əməliyyatlarla əlaqədar ona çoxsaylı suallar verirlərmiş. Buraya erməni Eçmiədzin Katolikosluğu, katolikosu, erməni milləti, eləcə də Qarabağ məliklərinin vəziyyətləri barədə də suallar daxil idi və arxiyepiskop da onlara dair Suvorova xüsusi memorandum təqdim etmişdir. 21 dekabr 1782-ci ildə (Nikolay Dubrovinə görə, 1783 [1886, II, c.27]) arxiyepiskop eyni mövzu haqqında həm də general-leytenant Potyomkin tərəfindən müxtəlif suallar almış və onları cavablandırmışdır [Иоаннисян, 1947, c.204-212]. Knyaz Potyomkin 1784-cü ildə Arqutinskidən, həmçinin tələb etmişdir ki, onun yanına ermənilər və Qarabağ məlikləri barəsində zəruri məlumatları təqdim edə biləcək bir şəxs göndərsin. Arxiyepiskop isə öz növbəsində bu tapşırığı Stepan Davıdova həvalə etmişdir. Knyaz Potyomkin Davıdova iki dəfə məktub yazır ki, Rusiyanın protektoratı olması məqsədilə imperatriçə Yekaterinaya rəsmi müraciət etmələri üçün onları gizli şəkildə ilhamlandırmağa çalışsın [Бутков, 1869, III, c.181, 284].

Dubrovinə görə [1886, II, c.168], yuxarıda qeyd edilmiş əyalətlərin Əlimurad xan tərəfindən təklif edilən güzəşti knyaz Potyomkinin Cənubi Qafqazda Rusiyanın protektoratı altında böyük xristian dövlətinin yaradılmasına dair arzularını gerçəkləşdirə bilərdi. Kartli-Kaxeti çarı İrakli isə ümid edirdi ki, Rusiyanın ali hakimiyyəti altında həmin bu dövlətdə hökmranlıq edəcəkdir. Bu mövzu ilə əlaqədar sərəncamında çoxsaylı rəsmi sənədləri olan Abqar İoannisyan [1947, c.129] hesab edirdi ki, həmin dövrdə Rusiya diplomatiyasının mümkün planlarına Kartli-Kaxeti çarlığının sərhədlərinin Gəncə xanlığını və ehtimal ki, bir sıra digər Azərbaycan əyalətlərini ilhaq etməklə genişləndirilməsi, eləcə də başqa xanlıqlar hesabına vassal Erməni və Alban dövlətlərinin təşkil edilməsi daxil idi. Arxiyepiskop Arqutinskinin 1783-cü ildə knyaz Potyomkin ilə aparılan danışıqların birbaşa nəticəsi olaraq hazırladığı ilkin layihəyə əsaslanaraq İoannisyan [1947, c.47-48, 1951, c.267] yazırdı ki, paytaxtı Vaqarşapat və ya Ani olan Erməni dövləti Ararat bölgəsində yaradılmalı idi. Ehtimal etmək

olar ki, bu erməni dövləti İrəvan xanlığı və Osmanlı İmperiyasının Ani şəhərinin də daxil olduğu Qars paşalığı hesabına təsəvvür edilir, Kartli-Kaxeti üçün nəzərdə tutulmuş əraziləri çıxmaq şərtilə, Cənubi Qafqazın şərq torpaqlarının yerdə qalan hissəsi isə Albaniyanın tərkibinə daxil olmalı idi.

3 aprel 1783-cü il tarixindən etibarən Kartli-Kaxeti çarı İraklinin sarayında knyaz Potyomkinin səlahiyyətli nümayəndəsi qismində çalışan polkovnik Stepan Burnaşev tərəfindən Qarabağ xanları və məlikləri haqqında hazırlanmış tarixi arayış da maraq doğurur. Həmin materialda Səfəvi Şah Abbas, Nadir şah, Qarabağ xanları: Pənah xan və Ibrahim xanın hakimiyyəti altındakı "Albaniya" haqqında bəzi tarixi məlumatlar paylaşılır. Bu sənədə əsasən, Şah Abbas tərəfindən Qarabağda beş məlikliyin əsası qoyulmuşdur. Bu vəziyyət Səfəvi Şah Hüseyn dövrünə – osmanlılar "bütün qonşu əyalətlər, o cümlədən Sığnaq [məlikliklər] ilə birlikdə Azərbaycanı" zəbt edənə qədər davam etdi. Həmçinin bildirilir ki, Nadir şah osmanlıları Azərbaycandan çıxardıqdan sonra Şah Abbasın dövründə olduğu kimi, eyni sülalədən olan beş məlik ilə məlikləri "saray votçinaları" kimi bərpa etdi [Иоаннисян, 1947, с.258]. Bu mənbə bəzi faktiki qeyri-dəqiqlikləri çıxmaq şərtilə, onu göstərir ki, Qarabağ "Albaniya" konsepsiyasının əsas tərkib hissələrindən biri idi. Bu həm də 1720-ci illərdə Albaniya katolikosları [Иоаннисян, 1967, II (2), с.27, 31], 1780-ci illərdə "bütün Albaniyanın" katolikosu İoan (və ya "Alban" Gəncəsər katolikosu İoan) [Иоаннисян, 1947, с.244-245, 259] tərəfindən yazılan və onlara ünvanlanan məktublardan və digər mövcud dəlillərdən də aşkar görünür.

Rusların 1780-ci illərə dair strateji hədəflərinin reallaşması yalnız çar İrakli ilə 1783-cü ildə traktatın imzalanmasından ibarət oldu. 1787-ci ildə yeni Rusiya-Osmanlı müharibəsinin başlaması ilə polkovnik Burnaşev knyaz Potyomkinin əmri əsasında rus qoşunlarını Kartli-Kaxetidən geri çağırmalı və Rusiyaya qayıtmalı oldu [Бутков, 1869, II, с.154-155, 195-196]. Hadisələrin belə qəfil dəyişməsi Rusiyanın dəstəyi ilə Albaniya çarlığını bərpa etməyə ümid edən Qarabağ məliklərinin planlarına zərbə endirmiş oldu. Bu planların həyata keçirilməsində Alban katolikosu İoan, məlik Abov və məlik Məclum (bəzi mənbələrdə Məcnun) xüsusi fəallığı ilə seçilirdi. Rusların Cənubi Qafqazdan geri çəkilməsindən az sonra – 1788-ci ildə Qarabağın alban əhalisi, daha dəqiq desək, məlik Abovun Gülüstan məlikliyindən (Qarabağ xanlığının beş məlikliyindən biri) olan beş yüz ailə öz vətənlərini tərk edərək Gəncə xanlığındakı Şəmkirə köçdülər. Məlik Məclumun yenə Qarabağ xanlığını təmsil edən Çiləbörd məlikliyindən olan daha min ailə isə Gəncə xanı Cavad xan tərəfindən Şəmşəddildə yerləşdirildi. Bir neçə il sonra məlik Abov Gəncəni tərk etdi və öz adamları ilə birlikdə Kartli-Kaxeti çarlığında yerləşən Bolnisiyə köçdü. Lakin çar İrakli ilə olan fikir ayrılığı səbəbindən orada çox qala bilmədi və 1795-ci ildə Qarabağ xanı İbrahim xanla barışdıqdan sonra öz vətəninə qayıtdı, amma oranı yenidən 1799-cu ildə tərk etdi [Raffi, 1882, s.153, 159-160, 233; Раффи, 1991, с.88, 91, 125; Потто, 1901, XII, с.29; Бутков, 1869, II, с.195].

Bu arada türk tayfası Qacarlardan olan Astrabad xanı Ağa Məhəmməd İran hakimiyyəti uğrunda rəqiblərini məğlub etdikdən sonra de-fakto müstəqil olan xanlıqları öz hakimiyyətinə tabe etmək qərarına gəldi. Araz çayının sol sahilinə keçərək o, qardaşı Əliqulu xanı ordu ilə birlikdə İrəvana göndərdi. Bu xanlığı özünə tabe etdikdən sonra Ağa Məhəmməd xan Qarabağ xanlığına üz tutdu. O, Şuşa qalasını 33 gün ərzində mühasirədə saxladı. Güclü müdafiə ilə üzləşən xan burada vaxt itirməmək qərarına gələrək Tiflisə hücum etdi və 12 sentyabr 1795-ci ildə oranı tutdu. Daha sonra o, Şuşanı ələ keçirmək üçün ikinci dəfə cəhd etdi. Bu dəfə də uğursuzluğa düçar olduqdan sonra Ağa Məhəmməd xan Muğan çölünə keçdi və Araz çayı boyunca yerləşdi [Бутков, 1869, II, с.336-341; Mirzə Camal Cavanşir Qarabağı, 1989, s.123-124; Mirzə Yusif Qarabağı, 1991, s.29-31; Mir Mehdi Xəzani, 1991, s.130-132].

Ağa Məhəmməd xan Muğanda olarkən və onun ordusunun bir hissəsi 1795-ci ilin noyabrında Şirvanı işğal edərkən Rusiya artıq yeni hərbi əməliyyatın planlarını cızmışdı. Qraf Valerian Zubovun rəhbərliyi altında əməliyyatlar üç istiqamətdən başlamalı idi: 1) Xəzər dənizi flotiliyası vasitəsilə Bakıya və Talış sahillərinə; 2) Osmanlı sərhədlərinə yaxınlaşmaqla türkləri təhrik etməmək məqsədilə Osmanlı Qapısına bitişik İrəvan və digər bölgələri çıxmaq şərtilə, Kartli-Kaxetidəkı qoşunlarla Gəncə ilə Qarabağ istiqamətinə; 3) Kizlərdən əsas qüvvələrlə həm Dərbənd, həm də Bakıdan keçməklə Araz və Kür çaylarının qovşağına [Бутков, 1869, II, с.360-

361]. Ağa Məhəmməd xana qarşı müharibədə rusların strategiyası, əsasən, 1784-cü ildə Əlimurad xanın dövründə tərtib edilmiş yuxarıda qeyd edilən müddəaların reallaşdırılmasından ibarət idi [Бутков, 1869, II, c.365]. 1780-ci illərdə olduğu kimi bu hərbi kampaniya zamanı da Cənubi Qafqaz, eləcə də İranətrafı bölgələr və Osmanlı İmperiyası barəsində əsas məlumat mənbəyi Eçmiədzin arxiyepiskopu İosif Arqutinski idi. O, rus hədəflərinin praktiki icrasında da yaxından iştirak edirdi [Дубровин, 1886, III, c.57, 84].

Rus qoşunlarının gəlişindən həvəslənən çar İrakli Qarabağ xanı İbrahim xanla müttəfiq olaraq, Ağa Məhəmməd xana Tiflisə qarşı keçirdiyi əməliyyatlarda vasitəçilik etdiklərini düşündüyü Gəncə xanı Cavad xan və Çiləbörd məliyi Məclumu cəzalandırmaq qərarına gəlir. Müttəfiqlər Gəncəyə hücum edərək onu uzun müddət mühasirədə saxladılar. Nəticədə Cavad xan təslim oldu, sülh əldə edildi və məlik Məclum qətlə yetirildi [Mirzə Camal Cavanşir Qarabağı, 1989, s.124; Mir Mehdi Xəzani, 1991, s.132; Rzaqulu bəy Mirzə Camal oğlu, 1991, s. 222].

Məlikliklərin tarixini yazmaq üçün məlumat toplamaq məqsədilə 1881-ci ildə Qarabağa səfər edən Raffiyə görə [1882, s.202; Раффи, 1991, c.111], məlik Məclum Qarabağ məlikliklərinin bərpasını nəzərdə tutan geniş və əhatəli bir proqramı özü ilə birlikdə məzara apardı. Həmin proqram digər məliklər və arxiyepiskop Hovsepin – İosif Arqutinskinin proqramlarından əhəmiyyətli dərəcədə fərqlənirdi. Raffi [1882, qeyd, s.203; Раффи, 1991, прим. c.111-112] öz əlində olan əlyazmalardan birinə istinadən yazır ki, Ağa Məhəmməd xan məlik Məcluma nəinki İbrahim xanı məhv edərək Qarabağ məlikliklərini bərpa edəcəyini, həm də Kartli-Kaxetiyə nəzarəti də ona həvalə edəcəyini vəd etmişdi. Bu səbəbdən Tiflisin viran olunmasındakı roluna görə məzəmmət ediləndə məlik Məclum acı şəkildə cavab vermişdi: "Biz kifayət qədər aldadılmışıq ... Nə vaxta qədər xülyalarla şirnikləndiriləcəyik? ... Xeyirxahlarımız bizi öz düşmənləri ilə üz-üzə qoyur, özləri isə bundan faydalanır ... Digərləri ilə müqayisədə İran şahına inanmaq üçün səbəbimiz daha çoxdur. Şah Abbas Qarabağ məliklərinin hüquqlarını tanıdı, Nadir onları təsdiqlədi və Ağa Məhəmməd xan mənə öz sələflərindən də çox şey vəd etdi..." [Raffi, 1882, s.202-203; Раффи, 1991, c.111]

17 noyabr 1796-cı ildə II Yekaterinanın vəfatının ardından knyaz Potyomkindən sonra bütün hakimiyyət və nəzarəti öz əlində cəmləşdirən qraf Zubov 4 dekabr 1796-cı ildə Dövlət Hərbi Kollegiyasının sədri Nikolay Saltıkovdan hərbi əməliyyatları dayandırıb Rusiya sərhəddinə qayıtmaq əmri alır [Бутков, 1869, II, c.422]. Rus qoşunlarının qəfil geri çəkilməsindən istifadə edən Ağa Məhəmməd xan 1797-ci ilin yazında yeni hərbi əməliyyata başladı. Onun məqsədi Qarabağ xanı İbrahim xanı qətlə yetirdikdən sonra əsas hücumu Kartli-Kaxeti istiqamətində həyata keçirmək, Şamaxı, Şəki, Salyan, Talış, Kartli-Kaxeti və digər yerlərin sakinlərini özünün irsi əyalətləri olan Mazandaran və Astrabada köçürmək idi. Lakin Ağa Məhəmməd xanın Şuşada qətli bu planların həyata keçməsinə mane oldu [Бутков, 1869, II, c.427, 430-431].

Bu hadisələr I Aleksandrın 12 sentyabr 1801-ci il tarixli manifesti ilə Kartli-Kaxetinin Rusiya tərəfindən ilhaqını sürətləndirdi. Həmin manifest I Aleksandrın sələfi Pavel tərəfindən 22 dekabr 1800-cü ildə imzalanmış, lakin onun 12 mart 1801-ci ildəki vəfatı səbəbindən həyata keçirilə bilməyən manifestə əsaslanırdı. 1801–1828-ci illər ərzində Kartli-Kaxetidən sonra Gəncə və Azərbaycanın digər xanlıqları, sultanlıqları da Rusiya tərəfindən ilhaq edildi. De-fakto vəziyyət Rusiya və Qacar dövləti arasında 1804–1813 və 1826–1828-ci illərdə baş vermiş müharibələr nəticəsində müvafiq olaraq imzalanmış 12 oktyabr 1813-cü il tarixli Gülüstan, 10 fevral 1828-ci il tarixli Türkmənçay müqavilələri ilə təsdiqləndi.

Cənubi Qafqazın siyasi varlıqlarının birbirinin ardınca ilhaqından sonra onun inzibati-ərazi nöqteyi-nəzərindən yenidən təşkili Rusiyanın bu bölgəyə dair niyyətlərini ortaya qoyur. Beləliklə, 12 sentyabr 1801-ci ildə Rusiya tərəfindən Kartli-Kaxetinin ilhaqından sonra çarlığın əsasında Gürcüstan quberniyası yaradıldı və onun ərazisi zaman keçdikcə yeni birləşdirilmiş torpaqlar hesabına daha da genişləndirildi. Keçmiş çarlığın ərazisindən savayı, bu quberniyaya vaxtilə İrəvan xanlığının tərkibinə daxil olan və Rusiya tərəfindən 1801-ci ildə zəbt edilərək Lori qəzasına çevrilən Pəmbək dairəsi, İrəvan xanlığının vassalı olan, həmçinin Rusiya tərəfindən 1805-ci ildə işğal edilmiş Şuragöl sultanlığı daxil idi. Bu iki ərazi vahidi Pəmbək-Şuragöl distansiyası altında birləşdirildi. O cümlədən

bu quberniyaya sonradan distansiyalara çevrilmiş Qazax və Şəmşəddil sultanlıqları, eləcə də Gəncə xanlığı daxil idi. Bu xanlığın 1804-cü ildə baş verən ilhaqından dərhal sonra Gəncə şəhəri Yelizavetpol, xanlıq isə Yelizavetpol qəzası adlandırıldı [Семёнов, 1885, V, с.857; Кавказский календарь на 1861, 1860, отдел 3, с.12-14; Мильман, 1966, с.52, 56-57, 62-63].

Rusiya, bundan əlavə, İrəvan və Naxçıvan xanlıqlarının hesabına 21 mart 1828-ci ildə Erməni vilayəti yaratdı, 1840-cı ildə isə ləğv etdi. Həmin vilayətdən yaradılan Yerevan və Naxçıvan qəzaları yeni təsis edilmiş və mərkəzi Tiflis olan Gürcüstan-İmeretiya quberniyasına daxil edildi. Bu quberniyaya digər ərazi vahidləri ilə yanaşı, Yelizavetpol və Aleksandropol qəzaları da daxil idi: Yelizavetpol qəzası eyniadlı keçmiş qəza, eləcə də keçmiş Qazax və Şəmşəddil distansiyalarından, Aleksandropol qəzası isə keçmiş Pəmbək-Şuragöl distansiyası və Borçalı distansiyasının bir hissəsindən ibarət idi. 1846-cı ildə bütün bu ərazi vahidləri yenicə təşkil edilmiş Tiflis quberniyasının tərkibinə verildi [АКАК, 1878, VII, док.437, с.487; Потто, 1901, с.242-243, 302-303; Семёнов, 1885, V, с.857].

İslahatlardan da göründüyü kimi, keçmiş Kartli-Kaxeti çarlığının ərazisi, doğrudan da, 1780-ci illərdə planlaşdırıldığı kimi, qonşu Gəncə xanlığı və bəzi daha kiçik siyasi varlıqlar hesabına genişləndirildi. İrəvan və Naxçıvan xanlıqları əsasında Erməni vilayətinin yaradılması da qismən Rusiyanın planlarına uyğun idi. Rusların 1783-cü il üçün strateji hədəflərində Yerevan vilayətinin Qarabağ və Qaradağ xanlıqlarından ibarət yeni bir dövlətin tərkibinə daxil edilməsi və ya Kartli-Kaxeti çarlığının bir hissəsi halına gətirilməsi məsələləri yer alırdı [Бутков, 1869, III, с.176; Иоаннисян, 1947, с.250]. Bu hədəflərin içində, həmçinin qraf Zubovun 1796-cı ildə general Rimski-Korsakova göndərdiyi, son dərəcə məxfi saxlanılmalı təlimatlarda da təsvir edildiyi kimi, İrəvan və Gəncə xanlıqlarını birləşdirməklə Gürcüstanın gücləndirilməsi nəzərdə tutulurdu [Дубровин, 1886, III, с.182]. Bu ideyalar 1828 və 1840-cı illərdə baş vermiş inzibati dəyişikliklərdə əks olundu. Lakin onlar siyasi vahidlər deyil, Rusiyanın daxili quberniyaları kimi idarə olunan və qubernatorlarının Sankt-Peterburq tərəfindən təyin edildiyi inzibati vahidlər idi. Kartli-Kaxeti hətta formal çarlıqdan da məhrum oldu, Erməni vilayəti isə vəd edilmiş "müstəqilliy"i görmədi və 1846-cı il üçün bu ərazi vahidlərinin adlarında "erməni" və ya "gürcü" kəlmələrinin də heç bir izi qalmadı.

1780-ci illərdə planlaşdırılan "Albaniya" vilayəti və ya çarlığı layihəsinə gəlincə, "Gürcüstan quberniyası" və "Erməni vilayəti"ndən fərqli olaraq, inzibati islahatlar nəticəsində adında "Albaniya" sözü olan heç bir vahid yaranmadı. Xəzəryanı xanlıqlar, daha dəqiq desək, Dərbənd, Quba və Bakı xanlıqları, eləcə də sonradan Şəki, Şirvan və Qarabağ xanlıqları əyalətlərə çevrildi. Həmçinin 1824-cü ildə mərkəzi Şuşa olmaqla, Qarabağ, Şəki, Şirvan və Talış əyalətlərinin daxil olduğu "Müsəlman dairəsi" adlanan inzibati vahid yaradıldı. Bakı, Quba və Dərbənd əyalətləri isə mərkəzi Dərbənd olan Dağıstan dairəsi altında birləşdirildi [Мильман, 1966, с.67]. Rusiya senatının 10 aprel 1840-cı il tarixli sərəncamına əsasən, "Müsəlman" dairəsi mərkəzi Şamaxı olan Şuşa (keçmiş Qarabağ əyaləti), Nuxa (keçmiş Şəki əyaləti), Lənkəran (keçmiş Talış əyaləti), Bakı və Şamaxı (keçmiş Şirvan əyaləti və Salyan) qəzalarından ibarət "Xəzər" vilayəti ilə əvəz edildi. Dərbənd (keçmiş Dərbənd, Tabasaran, Qaraqaytaq əyalətləri) və Quba (keçmiş Quba əyaləti ilə Samur dairəsi) qəzaları isə hərbi dairə kimi birləşdirildi [Мильман, 1966, с.113].

Başqa sözlə desək, nə Xəzəryanı ərazilərdən, nə də Qarabağ xanlığından planlaşdırılan "Albaniya" təşkil edildi, Qarabağ xanlığı isə 1822-ci ildə eyniadlı əyalətə çevrildi. Rusiya hakimiyyət orqanları aydın, nəzərəçarpan taktiki dəyişikliklər fonunda Alban Katolikosluğunu bir-bir ilhaq olunmuş ərazilərdəki yeparxiyalarından, icmalarından məhrum etməyə başladı və erməni Eçmiədzin Katolikosluğuna tabe etdi. 1801-ci ildə Kartli-Kaxetinin ruslar tərəfindən ilhaqı zamanı Alban Katolikosluğunun yurisdiksiyası şimalda Dərbənddən tutmuş Kür çayının sol sahilindəki xanlıqlar və sultanlıqlar da daxil olmaqla sağ sahilindəki Qarabağ, Gəncə xanlıqları və Qazax, Şəmşəddil sultanlıqlarına qədər ərazini, eləcə də Ağpat və Sənain kimi iki orta əsr Alban monastırının yerləşdiyi Kartli-Kaxetinin bəzi yerlərini əhatə edirdi [Barxudaryants, 1907, II, s.169; Raffi, 1882, qeyd, s.151; Раффи, 1991, прим. с.87; Каганкатваци, 1861, с.363].

Alban katolikosu İsrail 9 avqust 1806-cı ildə Qafqazdakı rus qoşunlarının baş komandanı (1806-1809) qraf İvan Qudoviçə ünvanladığı məktubunda

mərhum sələfi qraf Pavel Sisianovun 1803–1806-cı illərdəki fəaliyyəti dövründə onun Yelizavetpoldakı icmasının Tiflisdəki Eçmiədzin arxiyepiskopu İoannesə (Hovannes) tabe etdirilməsindən şikayətlənmişdir. Yelizavetpol, Qarabağ, Şəki və Şirvanı əvvəllər heç vaxt Ararat (Eçmiədzin) katolikoslarından asılı olmayan Alban əyalətləri kimi təqdim edən İsrail qraf Qudoviçdən soruşurdu ki, hansı hüquqlarla və səbəblərə görə Yelizavetpol yeparxiyası Eçmiədzinə tabe edilmişdir. Əgər bu, Yelizavetpolun Rusiya ordusu tərəfindən ələ keçirilməsinə görədirsə, onda – İsrail məzəmmətlə yazırdı – axı Qarabağ könüllü surətdə Rusiyaya birləşmişdir, ona görə də nə üçün "Amaras monastırını [katolikos İsrailin iqamətgahı] indiyə qədər heç vaxt heç bir mütləq hökmdar tərəfindən, xüsusilə də Qarabağ, Yelizavetpol, Şəki və Şirvanın müxtəlif xanların hakimiyyəti altında olduğu dövrlərdə belə təhqir olunmadığı dərəcədə təhqir edirsiniz". "Və ümumiyyətlə, – deyə o davam edirdi, – dünyəvi idarəçilik heç bir qanuna görə dini düzənə toxunmamalıdır". [АКАК, 1869, III, док.149, с.79-80] Alban katolikosu İsrail kimi Yelizavetpoldakı alban icması da yeni subordinasiyanı qəbul etmək istəmirdi: təxminən beş yüz nəfər Yelizavetpol monastırının qarşısına toplaşaraq Alban katolikosu Israil tərəfindən toplanmış kilsə vergisini müsadirə etməyə gələn Eçmiədzin yepiskopu Minası daşa basmışdı [АКАК, 1869, III, док.151, с.80; Imranli-Lowe, 2015, p.553].

Qraf Qudoviç katolikos İsrail tərəfindən ünvanlanmış bu məktuba 16 noyabr 1806-cı il tarixli cavabında onun Yelizavetpol icmasının erməni Eçmiədzin Katolikosluğuna tabe edilməsini 1805-ci ildə Qarabağ xanlığının Rusiya İmperiyasına ilhaq edilməsindən öncə – 1804-cü ildə Gəncə xanlığının istilası faktı ilə əsaslandırmağa çalışmışdır. Qrafın izahatına görə, qeyd edilən bu fakt Alban katolikosu İsraili Yelizavetpol yeparxiyasına rəhbərlik etmək hüququndan məhrum edirdi, belə ki, o, hələ Rusiya İmperatorunun təbəəsi deyildi. Qudoviç qeyd edirdi ki, Rusiya İmperatoru tərəfindən bu subordinasiya həm də erməni arxiyepiskopu İoannesin "İmperator Əlahəzrətlərinin ən uca taxtına sadiqliyi və onun qarşısında göstərdiyi səylər"ə görədir, bu baxımdan da İsrailin yenidən bu yeparxiyaya rəhbərlik etmək hüququnun bərpa edilməsi mümkün deyil [Агаян, 1972, I, док.323, с.388].

Arxiyepiskop İoannesin Ağpat monastırının işlərinə yersiz müdaxilələri barəsində arxiyepiskop Sarkisin 12 fevral 1807-ci il tarixli məktubuna da Qudoviç tərəfindən 11 mart 1807-ci ildə bənzər cavab verilmişdir. Sarkis Kartli-Kaxetidə yaşayan albanların, o cümlədən 1790-cı illərdə Qarabağdan gələn qaçqınların (özü də onlardan biri idi) dini başçısı idi [Агаян, 1972, I, док.204, с.284, док.343, с.401-402; Raffi, 1882, s.233-238; Раффи, 1991, с.126-128]. Yeni mühacirlər üçün Kartli-Kaxeti çarları İrakli və Georgi tərəfindən Lori, Bolnisi və Borçalıda böyük torpaq sahələri ayrılmışdı. Bu ərazilər əvvəllər Albaniya çarlığına daxil idi və orta əsrlərdə Alban Katolikosluğunun mərkəzlərindən biri olan Ağpat monastırı da məhz burada yerləşirdi. Sarkis 1805-ci ilin yanvar ayında Qafqazdakı rus qoşunlarının o vaxtkı baş komandanı qraf Sisianova ünvanlanan məktubunda xahiş edirdi ki, onu çar Georginin təyin etdiyi kimi, Ağpat monastırının arxiyepiskopu qismində təsdiqləsin. Sarkisin yazdıqlarına görə, bu yeparxiyanın yurisdiksiyası Eçmiədzin monastırına məxsus kiçik bir hissəsini çıxmaq şərtilə, çarlıqda yaşayan bütün monofizitləri əhatə edirdi [АКАК, 1866, I, док.575, с.463, док.877, с.637; Потто, 1901, XII, с.29-30; Каганкатваци, 1861, с.363; Barxudaryants, 1895, s.6; Бархударянц, 2009, с.19; Агаян, 1972, I, док.204, с.284].

Qudoviç Sarkisə ünvanlanan 11 mart 1807-ci il tarixli cavabında onu məzəmmət edərək yazırdı: "[A]rxiyepiskop İoannes [Eçmiədzin] patriarxı[1] Daniil tərəfindən Gürcüstandakı ermənilərin dini rəhbəri təyin olunub [25 sentyabr, 1804; 1805] və bu vəzifəsində İmperator Əlahəzrətləri tərəfindən təsdiqlənib [29 avqust, 1805]; ona görə də indi siz onun tabeçiliyində olan bir şəxs kimi ona hər şey üzrə hesabat verməlisiniz və mən bu ali əmrin gücünü nəzərə alaraq, onun səlahiyyətindən çıxmağınıza dair etdiyiniz müraciəti müsbət cavablandıra bilmərəm". [Агаян, 1972, I, док.198, с.257, док.263 və док.264, с.327, док.284, с.342, док.343, с.401-402] Bununla belə, Qudoviç tərəfindən arxiyepiskop Sarkisə ünvanlanan 9 noyabr 1807-ci il tarixli məktubdan məlum olur ki, arxiyepiskop Sarkis

[1] *Qeyd: XVIII əsrdən başlayaraq XX əsrin əvvəllərinə qədər Rusiya mənbələri (o cümlədən bu tədqiqatda istinad olunanlar) Alban və Erməni katolikoslarına əksər hallarda patriarxlar, katolikosluqlarına isə patriarxlıqlar kimi xitab edir.*

Kaxetinin Ağpat monastırına aid olan kəndlilərindən kilsə vergisi toplayır və bu barədə Eçmiədzin arxiyepiskopu İoannesə hesabat vermirmiş. Qudoviç bu məktubda Sarkisdən dərhal Tiflisə gəlməsini və lazımi hesabatları İoannesə təqdim etməsini tələb edir, çünki İoannes həmin hesabatları Eçmiədzinə göndərməli idi. Əgər bu əmri yerinə yetirməsə, Qudoviç ona qarşı başqa tədbirlər görməli olacaq idi [Агаян, 1972, I, док.375, с.425-426].

Qudoviçin katolikos İsrail və arxiyepiskop Sarkisə ünvanladığı məktublar Alban Katolikosluğu ilə müqayisədə Eçmiədzin Katolikosluğuna açıq-aydın üstünlüyün verildiyini göstərir. Müstəqil Alban Katolikosluğu icmasının zor gücü ilə Eçmiədzinə tabe etdirilməsinə verdiyi əsaslandırma onun cavabındakı ziddiyyətləri və bu addımın arxasında dayanan həqiqi səbəbləri üzə çıxarır. Eçmiədzinin o vaxt ruslar tərəfindən hələ fəth edilməmiş İrəvan xanlığı ərazisində yerləşməsi faktı Qudoviçin səhvə yol verdiyini göstərir və o demək idi ki, Qarabağın Rusiyanın hakimiyyəti altına keçməsindən öncə Gəncə xanlığının zəbt edilməsi bu subordinasiyanın həqiqi səbəbi ola bilməzdi. Qraf cavabının ikinci hissəsində daha səmimi idi. Belə ki, o bu subordinasiyanın səbəbi kimi erməni arxiyepiskopu İoannesin Rusiya qarşısında göstərdiyi səylər və sadiqliyi qeyd edir, bu seçimin Rusiyanın imperiya planlarının həyata keçirilməsində Eçmiədzin və ermənilər üçün ayrılmış rolla bağlı olduğuna işarə edirdi. Rusların bu məsələ ilə əlaqədar strateji hədəfləri Kartli-Kaxetinin Rusiya İmperiyası tərəfindən ilhaqı çərçivəsində İmperator Aleksandr tərəfindən 1801–1803-cü illərdə Qafqazdakı rus qoşunlarının baş komandanı general-leytenant Karl Knorringə 12 sentyabr 1801-ci il tarixində ünvanlanmış reskriptdə təkrar edilmişdi. Bu reskriptdə imperator, həmçinin ermənilərin Rusiya sərhədlərində yerləşdirilməsinin faydalarından yazaraq bunu xristianların sayca üstünlüyünü təmin etməyin ən etibarlı üsullarından biri hesab edir, bu məqsədlə də "Eçmiədzin Ararat Patriarx monastırına himayədarlıq etmək və bu kilsənin rəhbəri ilə dostluq münasibətləri saxlamağın əhəmiyyətini" vurğulayır [АКАК, 1866, I, док.548, пункт 11, с.436].

Özlərinin müsəlman hökmdarlarında şübhələr oyatmamaq məqsədilə XVIII əsrdə Rusiya ilə ünsiyyətlərində ehtiyatlı olan erməni Eçmiədzin katolikoslarından fərqli olaraq, Alban katolikosları və məliklər Böyük Pyotrun dövründən etibarən bölgəyə Rusiya hökmranlığını gətirməyə can atırdılar. Bu səbəbdən də Alban Katolikosluğunun tədricən ləğvi, sadəcə, Qudoviç tərəfindən qeyd edilən erməni ruhanilərinin sadiqliyi və səyləri nəticəsində ola bilməzdi. Qafqaz strategiyası və onun həyata keçirilməsi taktikasına uyğun olaraq, Rusiya Eçmiədzin Katolikosluğunu öz nəzarəti altına keçirərək orada saxlamaq, onun Osmanlı İmperiyası və İran ermənilər arasındakı nüfuzundan istifadə edərək bu ölkələrə qarşı ekspansionist siyasətini irəlilətməyi düşünürdü. Cənubi Qafqazda xristian albanların yaşadığı ərazilərin ilhaqı Rusiya hakimiyyət orqanlarının gözündə 1806-cı ilə kimi artıq tamamlanmışdı və nəticə etibarilə də albanlar onlar üçün əvvəlki əhəmiyyətini artıq itirmişdi. Eçmiədzinin gözləntilərini reallasdıraraq rəğbətini qazanmaq məqsədəuyğun hesab olunurdu ki, bu gözləntilər arasında da müstəqil Alban Katolikosluğunun yeparxiyalarının Eçmiədzinə tabe etdirilməsi mühüm yer tuturdu.

1808-ci ildə Alban katolikosu İsrail vəfat etdi. Bu fakt erməni arxiyepiskopu İoannesə Alban Katolikosluğunun çoxdan planlaşdırdığı ləğvini həyata keçirməsi üçün yaxşı səbəb verdi. O, qraf Qudoviçdən xahiş etdi ki, öz vədini yerinə yetirərək "mərhum [Eçmiədzin] patriarxı Daniilin xahişi əsasında" Rusiya İmperatoruna təsir göstərsin və Rusiya tərəfindən yeni işğal edilmiş ərazilərdəki Alban Katolikosluğu icmasını İoannesin özünün rəhbərlik etdiyi Eçmiədzinin Tiflis yeparxiyasına tabe etsin [АКАК, 1869, III, док.152, с.81]. Eçmiədzin Erməni-Qriqoryan Sinodunun prokuror əvəzi Leonid Frenkel tərəfindən 22 aprel 1903-cü il tarixində yazılan arayışa əsasən, 1806-cı ilə kimi Eçmiədzin katolikosu Daniil əslində Erməni kilsəsinin faktiki idarəçiliyindən kənarlaşmışdı. İdarəçilik arxiyepiskop Nersesin [Aştaraketsi] əlinə keçmişdi. Nerses çox yaxşı başa düşürdü ki, Eçmiədzin Sinodunun 1808-ci ildə əsası qoyulmuş bənzərini, Ali Şuranı yaratmaq kifayət etmirdi. Bu qurum üçün güclü xarici dəstəyin təmin edilməsi də lazım idi, çünki belə dəstək olmadan həmin qurum nəinki müsəlman İran dövləti tərəfindən, həm də onun verdiyi fərmanların Gürcüstan (Tiflis) və Həştərxan erməni konsistoriyaları üçün qeyri-məcburi kimi tanınması nöqteyi-nəzərindən təhlükə altına düşə bilərdi [РГИА, ф.821, оп.7, д.96, ч.III, л.211]. Bu məqsədlə 11 avqust 1808-ci ildə arxiyepiskop Nerses ölüm

ayağında olan katolikos Daniilə Rusiya imperatoruna ünvanlanmış vəsatət imzaladır. Bu müraciətə cavab almadan katolikos 8 oktyabr 1808-ci ildə vəfat edir və İosif Arqutinskini 1799-cu ildə Eçmiədzinin Həştərxan yeparxiyasının rəhbəri kimi əvəz edən Yefrem Eçmiədzin katolikosu seçilir. Yefremin ardınca Rusiyaya göndərilən yepiskop Reteos imperatordan onu da xahiş etməli idi ki, "Albaniya və Gəncəsər" ruhanilərinin Eçmiədzin və Ararat Müqəddəs Taxtının Ali Şurasından asılılığı təmin edilsin və onlar kilsələrin idarəçiliyi məsələlərində Ali Şura və Ararat "patriarx"ının əmrlərinə tabe olsunlar. Frenkel yazırdı ki, həmin vəsatət qəbul edildi və nəhayət, 1810-cu ildə həyata keçirildi. Bununla da gələcək Eçmiədzin Erməni-Qriqoryan Sinodunun yaranma tarixinin başlanğıcı qoyulmuşdur [РГИА, ф.821, оп.7, д.96, ч.III, л.211-213об.].

1790-cı illərdə Kartli-Kaxeti çarları İrakli və Georgi dövründə ərazidə məskunlaşmış alban qaçqınları Gürcüstan quberniyasındakı Rusiya rəsmilərinin münasibətindən getdikcə daha da məyus oldular və tədricən Qarabağa dönüş etməyə başladılar. 1805-ci ildə ilk qayıdanlar arasında Vərəndə məliyi Cümşüd ilə onun camaatı oldu, ardından isə 1809 və 1812-ci illərdə Gülüstan məlikliyinin camaatı, eləcə də arxiyepiskop Sarkis qayıtdılar. Arxiyepiskop Sarkis Qarabağa 1809-cu ildə Alban katolikosu İsrailin vəfatından sonra Rusiya tərəfindən "təyin edilmiş" Qarabağ arxiyepiskopu kimi qayıtsa da, tezliklə o, Qarabağ xanı Mehdiqulu xanın dəstəyi ilə özünü katolikos elan etdi. Eçmiədzin Katolikosluğu və Rusiya dövlət orqanları bu addıma qarşı çıxdılar [АКАК, 1873, V, док.518, с.437, док.522, с.443; Raffi, 1882, s.251-263, 293-295; Раффи, 1991, с.135-139, 154-155; Агаян, 1978, II, док.89, с.124].

Eçmiədzin "patriarxı" Yefrem (1809-1830) tərəfindən Rusiya generalı Nikolay Rtişevə 18 fevral 1814-cü ildə ünvanlanmış məktubdan da aydın olur ki, Yelizavetpol, Qarabağ, Şəki, Şamaxı və qonşu əyalətlərdəki xristianların tabe edilməsində Eçmiədzin hər hansı uğur qazana bilməmişdir [АКАК, 1873, V, док.519, с.439]. Bunun səbəblərindən biri o idi ki, Sarkis Alban katolikosu kimi fəaliyyətini davam etdirirdi və Eçmiədzinə tabe olmaqdan boyun qaçırırdı. General Rtişev 19 oktyabr 1813-cü ildə knyaz Dmitri Orbelianiyə ünvanladığı məktubda sonuncuya tapşırmışdı ki, Sarkisi yanına çağırsın və ona "özbaşına özünü Qarabağ patriarxı adlandırmağı ağlına belə gətirməyi ciddi şəkildə qadağan" etsin və vurğulasın ki, Rusiya İmperatoru yalnız "Eçmiədzin patriarxı" Yefremi tanıyır [АКАК, 1873, V, док.518, с.437]. Orbelianinin 1 noyabr 1813-cü il tarixli hesabatından göründüyü kimi, bu tapşırıq yerinə yetirilmişdir [STsİA, f.2, siy.1, iş 386, v.2-2əks]. Lakin Yefrem tərəfindən yazılmış 18 dekabr 1815-ci il tarixli məktuba əsasən, Sarkis yenə də "patriarx" kimi fəaliyyət göstərməyə davam etmişdir [АКАК, 1873, V, док.522, с.443; STsİA, f.2, siy.1, iş 386, v.11-12əks]. Bununla belə, 1815-ci ildə Eçmiədzin Rusiya hakimiyyət orqanlarının köməyi ilə Sarkisi katolikos titulundan imtina etməyə və arxiyepiskop hüquqlarına malik mitropolit titulunu qəbul etməyə məcbur etdi [Кавказский календарь на 1852, 1851, с.269; Raffi, 1882, s.295-296; Раффи, 1991, с.155; Barxudaryants, 1907, II, s.168-169; Агаян, 1972, I, прим.144, с.659].

Makar Barxudaryantsa görə, qədim Alban Katolikosluğunun ləğvi Nerses Aştaraketsi Eçmiədzinin Gürcüstan yeparxiyasına rəhbər təyin ediləndən dərhal sonra başlamışdır. Eçmiədzin katolikosu Yefrem və arxiyepiskop Nersesin Rusiya hakimiyyət orqanları ilə bu mövzu ətrafında başladıqları danışıqlar reallaşdı. 1815-ci ildə Alban katolikosu Sarkis rəsmən Gəncəsər və ya Qarabağ mitropoliti təyin edildi [Barxudaryants, 1907, II, s.169-170]. Sarkis 1828-ci ildə vəfat etdikdən sonra mitropolit titulu Bağdasara verildi. Alban Katolikosluğu 1815-ci ildə ləğv olunsa da, mitropolitlik də müəyyən muxtariyyət ehtiva edirdi, bu isə o deməkdir ki, Rusiya Alban kilsə təsisatını dərhal ləğv etmək istəmirdi. Bu həm Eçmiədzinin hələ Rusiya tərəfindən işğal edilməmiş İrəvan xanlığının ərazisində yerləşməsi, həm də rusların Osmanlı və İran əyalətlərinə qarşı maraqlarının uğurlu inkişafı üçün Eçmiədzini kifayət qədər canfəşanlıq göstərməyə sövq edən taktikaları vasitəsilə izah edilə bilər.

1813-cü ildə Eçmiədzinin Gürcüstan yeparxiyasının rəhbəri təyin edilən arxiyepiskop Nerses [АКАК, 1873, V, док.519, с.438-439] İran ilə 1826-1828-ci illərdəki yeni müharibə zamanı erməni xalqı üçün nəsihətlə çıxış etdi, düşmən haqqında məlumatların çatdırılmasını öz öhdəsinə götürdü, yepiskop Stepan və arximandrit Nikolayı ruslar tərəfindən yenicə ilhaq edilmiş

İrəvan, Naxçıvan, eləcə də Qarabağ xanlıqlarında ermənilərin yerləşdirilməsinə köməklik göstərmələri məqsədilə səfərbər etdi [АКАК, 1878, VII, док.436, с.486, док.597, с.628]. Rusiya İmperatoru Nikolay arxiyepiskop Nersesə ünvanlanan 25 yanvar 1828-ci il tarixli reskriptdə "hərbi əməliyyatların davam etdiyi müddətdə" göstərdiyi xidmətlər müqabilində və "bütün Erməni xalqına qarşı Mənim xüsusi iltifatımın əlaməti olaraq" onu Müqəddəs Aleksandr Nevski Ordeni ilə təltif etdi. "Uzun müddət ərzində", yuxarıda qeyd edilən reskriptdə bəyan edildiyi kimi, "və bir çox hallarda, xüsusilə də İranlılarla hazırkı müharibə zamanı siz Rusiyaya qarşı çox dəyərli sadiqlik nümayiş etdirmisiniz". [АКАК, 1878, VII, док.205, с.252]

Lakin Rusiya və İran arasındakı müharibənin sonunda, 10 fevral 1828-ci il tarixli Türkmənçay müqaviləsi bağlandıqdan dərhal sonra – 1827–1831-ci illərdə Qafqazdakı rus qoşunlarının baş komandanı qraf İvan Paskeviç arxiyepiskop Nersesi yenicə işğal edilmiş İrəvan və Naxçıvan xanlıqları üçün 6 oktyabr 1827-ci ildə yaradılmış müvəqqəti administrasiyada katolikos Yefremin rəhbərliyi altında ermənilərin dini işlərinin idarəçiliyindən kənarlaşdırdı. Qraf onun fəaliyyətini ermənilərin xeyrinə qərəzli hesab edirdi [Потто, 1901, XII, с.241, 243]. Bu müqavilənin imzalanmasından qısa müddət sonra həmin iki yenicə ilhaq edilmiş xanlığın ərazisində Rusiya İmperatoru I Nikolayın 21 mart 1828-ci il tarixli fərmanı əsasında yuxarıda qeyd edilən Erməni vilayəti yaradıldı. Türkmənçay müqaviləsinin 15-ci maddəsinə əsasən, təxminən 36000 nəfər erməni İrandan Erməni vilayətinə köçürüldü [АКАК, 1878, VII, док.437, с.487; Шопен, 1852, с.639-642]. Osmanlı İmperiyası ilə müharibənin sonunda 1829-cu ildə imzalanmış Ədirnə müqaviləsinə əsasən, əksəriyyətinin ermənilərin təşkil etdiyi "90000 nəfərə qədər insanı əhatə edən 14000-dən çox ailə", o cümlədən "camaat üzərində böyük nüfuza sahib iki erməni arxiyepiskopu" Rusiyaya köçürüldü [АКАК, 1878, VII, док.829, с.845-846].

Eçmiədzin Katolikosluğunun yerləşdiyi İrəvan xanlığının Rusiyanın hakimiyyətinə keçməsindən təxminən bir il sonra Rusiya Daxili İşlər Naziri Dmitri Bludov qraf Paskeviçə ünvanladığı 15 mart 1829-cu il tarixli məktubunda imperatorun əmri ilə Eçmiədzin Katolikosluğunun idarə edilməsinin gələcək qaydalarına dair proqramın hazırlanması təklifini irəli sürdü. 31 dekabr 1829-cu ildə qraf Paskeviç gələcək qaydaların əsaslarının hazırlanması üzrə Məxfi Komitənin yaradılması barəsində baron Bludovu məlumatlandırdı. 8 yanvar 1830-cu ildə komitə ilk fəaliyyətinə başladı və 11 mart 1836-cı ildə "Rusiyada Erməni-Qriqoryan Kilsəsinin İdarə edilməsi haqda Fərman" adlı sənəd qəbul edildi [РГИА, ф.821, оп.7, д.96, ч.III, л.214об.; Полное собрание законов Российской Империи, 1837, XI (1), док.8970, с.194-209].

Qəbul edilmədən öncə həmin sənədin ilkin versiyası dəfələrlə müzakirə edilmişdi. Qraf Paskeviçin 1831-1838-ci illərdəki xələfi baron Qriqori Rozen tərəfindən qraf Bludova ünvanlanmış 17 sentyabr 1835-ci il tarixli məktubdan göründüyü kimi, həmin sənədə baxılması üçün yaradılmış komitənin dördüncü toplantısında düzəlişlər edilmiş qaydaların ilkin versiyasını qəbul etdikdən sonra baron Rozen 56-cı maddədə təklif edilən Cənubi Qafqaz yeparxiyalarının bölgüsü məsələsi ilə əlaqədar 2 iyul 1835-ci ildə katolikos İoannes ilə əlaqə saxlamışdı. Baron Rozen qeyd edirdi ki, Eçmiədzin katolikosu "erməni-qriqoryan" kilsəsinin regionda dörd yeparxiyaya bölünməsini ədalətli hesab edir və onunla hər şeydə razılaşırdı; lakin o, eyni zamanda tövsiyə edirdi ki, guya "ruhanilərlə xalq arasında bas verə biləcək narahatlıq və narazılıqların qarşısını almaq" məqsədilə Tatev monastırı Qarabağ yeparxiyasından çıxarılsın və "bütün icması ilə birlikdə özünün rəhbərlik etdiyi İrəvan yeparxiyasına daxil edilsin". Eçmiədzin Katolikosunun təklifi nəzərə alındı [АКАК, 1881, VIII, док.211, с.293-294, док.208, с.291-292].

Katolikos İoannesin tövsiyələri əsasında baron Rozen 56-cı maddə üçün yeni versiya təklif etdi. Həmin versiyada Rusiyadakı altı "erməni-qriqoryan" yeparxiyasından dördünə Alban Katolikosluğunun keçmiş prixodları daxil edilmişdi. Beləliklə, Yelizavetpol "dairəsi", eləcə də Borçalı, Qazax, Şəmşəddil distansiyaları və Pəmbəkin bir hissəsindəki Alban kilsələri Gürcüstan yeparxiyasına, Tatev mitropolitliyi isə İrəvan yeparxiyasına aid edilmişdi. Bundan əlavə, Qarabağ (öz icması ilə birlikdə Tatev mitropolitliyini çıxmaq şərtilə), Şəki, Talış əyalətlərindəki prixodlar Qarabağ yeparxiyasını, Şirvan, Quba, Bakı və Dərbənd əyalətlərindəki prixodlar isə Şirvan yeparxiyasını təşkil edirdi. Rozen tərəfindən təklif edilən bu versiyada belə bir qeyd də

var idi: “Gəncəsər mitropolitliyi Qarabağ əyalətində qalır, belə ki, Qarabağın hazırkı arxiyepiskopu həm də bu əyalətin mitropolitidir” [АКАК, 1881, VIII, док.211, с.293-294]. 56-cı maddə demək olar ki, baron Rozenin təklif etdiyi şəkildə qəbul edildi, bir dəyişikliyi çıxmaq şərtilə: burada Gəncəsər mitropolitliyi haqqındakı qeyd qəbul edilmiş versiyadan çıxarılmışdı [Полное собрание законов Российской Империи, 1837, XI (1), док.8970, с.200-201; АВПРИ, ф.343, оп.461, д.8].

Frenkelin yuxarıda qeyd olunan 22 aprel 1903-cü il tarixli arayışına əsasən, yetmiş il öncə imperator I Nikolay tərəfindən “xəstə adamın” [Osmanlı İmperiyası] gözlənilən bölünməsi ideyası yarananda ermənilər rusların diqqət mərkəzinə düşdülər. Frenkel yazırdı ki, Rusiyanın Osmanlı Qapısı və Xarici İşlər Nazirliyindəki elçiləri İmperator hökumətinə Osmanlı ermənilərinin Rusiyanın şərq siyasətinin maraqları üçün son dərəcə əhəmiyyətli olması barəsində düşüncələr aşılayırdılar. Həmin bu maraqlar aşağıdakı hallarda reallaşa bilərdi: 1) “Bütün Ermənilərin Katolikosu” titulu Rusiya hökumətinin mənafeyinə sadiq olan şəxsə verilsə; və 2) bu namizəd dini məsələlərdə Osmanlı ermənilərini özünə tabe edə bilsə. Frenkel daha sonra əlavə edirdi ki, bu yanaşma “bizim tərəfdən silsilə güzəştlər və iltifatların edilməsinə təkan verdi ki, bu da yalnız özləri və öz kilsə icmaları üçün 1836-cı il qanunu vasitəsilə tənzimlənən müstəsna mövqenin yaradılması məqsədilə erməni katolikoslarının gələcək təqibləri üçün presedent rolunu oynadı” [РГИА, ф.821, оп.7, д.96, ч.III, л.203об.-204].

Bu qanun qəbul edildikdən sonra Gəncəsər mitropoliti Bağdasarın hüquqları əhəmiyyətli dərəcədə məhdudlaşdırıldı. Raffinin yazdığına görə [1882, s.304; Раффи, 1991, с.159], baxmayaraq ki əvvəllər o, “Alban” mitropoliti hesab edilirdi və öz icması üzərindəki dini hakimiyyətində müstəqil idi, Şuşa qəzasının dini administrasiyasının konsistoriyası yaradıldıqdan sonra o, birbaşa Eçmiədzinə tabe olurdu ki, bu da “bir qayda olaraq mitropolitin sərbəst fəaliyyətinə maneçilik törədirdi...” 27 iyun 1854-cü ildə Bağdasarın Şuşadakı vəfatı ilə “Alban” mitropolitliyi tarixinin də sonu gəldi [Raffi, 1882, s.309-310; Раффи, 1991, с.162].

Beləliklə, Rusiyanın XVIII əsrin əvvəlləri və sonlarında bölgədə Alban siyasi varlığı yaratmaq planları nəinki həyata keçirilmədi, həm də Alban Katolikosluğu, eləcə də onun icması rusların Osmanlı İmperiyası və İrana qarşı yürütdüyü siyasətin reallaşması yolunda bir alətə çevrildi. Barxudaryantsın qeyd etdiyi kimi [1907, II, s.168], “farslar, ərəblər, xəzərlər, qara hunlar, məkrli yunanlar, tatarlar, Çingiz xan, Teymurləng, Osmanlılar və yenidən farsların” hakimiyyətləri dövründə öz varlığını qoruyub-saxlaya bilmiş 1500 illik tarixə malik Alban Katolikosluğu Rusiya hökuməti tərəfindən məhv edildi. Müstəqil Alban Katolikosluğunun öz yeparxiyaları və icmasından bir-bir məhrum edilməsi, nəticə etibarilə, bu qədim kilsə təsisatının ləğvi XIX əsrin əvvəllərində Cənubi Qafqazın Rusiya tərəfindən ilhaqı ilə başlamış, xristian albanların ideoloji, mədəni, etnik transformasiyası prosesinə və alban ilə erməni tarixlərinin yeni reallıqlara uyğun təkrar yazılışına təkan vermişdir. Eçmiədzinin nəzarətinə keçən kilsə məktəbləri, xüsusilə də 1836-cı il qanunundan sonra, Alban Katolikosluğunun keçmiş icmasına erməni kimliyini aşılamağa başladı. Alban Katolikosluğunun sənədlərinin də Eçmiədzinin sərəncamına keçməsi bu prosesi daha da asanlaşdırdı [Imranli-Lowe, 2015, pp.554-556].

Mövzu ilə əlaqədar nəşr edilmiş, nəşr edilməmiş (arxiv) sənədli və digər mənbələrin müqayisəli təhlili həm albanların, həm də ermənilərin keçmiş, həmçinin çağdaş tarixləri haqqında çoxsaylı ziddiyyətlərin mövcud olmasını, biliklərin kifayət qədər və ya dəqiq olmamasını numayiş etdirməklə yanaşı, Albaniya və albanlara dair məlumatların siyasi motivli redaktələrə məruz qaldığını göstərir. Həmin məlumatlar etnik mənsubiyyətin retrospektiv essensializasiyasını, ermənilərin və Rusiyanın maraqları fonunda interpretasiyaları ehtiva edir: “Albaniya” “Ermənistana” çevrilir, bütün əlaqədar məlumatlar ya Ermənistana ya da ermənilərə aid kimi qələmə verilir və şərh olunur, Albaniyanın adı isə heç çəkilmir [məsələn; mövzu haqqında məlumatları müqayisə edin: Храповицкий, 1862, II, с.37; Бутков, 1869, II, с.151; Дубровин, 1886, II, с.171; Иоаннисян, 1947, с.282-283]. 1881-ci ildə Raffinin sərəncamında Alban katolikosu (1815–1828-ci illərdə mitropolit) Sarkisin Qarabağ məliklərinin tarixindən bəhs edən nəşr edilməmiş əlyazma kitabçası var idi. Raffi başa düşə bilmirdi ki, nə üçün Sarkis bu əlyazmasına “*Albanlar* Ölkəsinin *Tarixi”* adını vermişdi. Raffi həm də Sarkisin yuxarıda qeyd olunan məlik Məclum,

eləcə də məlik Abova nə üçün Hayk və ya Aram (öz əfsanəvi əcdadlarının şərəfinə ermənilər özlərini belə adlandırırdı) kimi müraciət etməməsinə dair də öz təəccübünü gizlətmirdi [Raffi, 1882, s.389-393; Раффи, 1991, c.198-199; Imranli-Lowe, 2015, p.555].

Yuxarıda da bildirildiyi kimi, XVIII əsrin sonlarında Rusiya hökuməti üçün ermənilər və albanlar haqqında məlumatları təqdim edən əsas şəxs Eçmiədzinin Həştərxan yeparxiyasının rəhbəri arxiyepiskop Arqutinski idi. O bu vəzifəyə Eçmiədzin katolikosu Simeon Yerevantsi (1763–1780) tərəfindən 1773-cü ildə təyin olunmuşdu. Yerevantsi Alban Katolikosluğunun subordinasiyası və nəticə etibarilə ləğvi məqsədilə böyük səylər göstərməsi baxımından erməni katolikosları arasında xüsusi yer tuturdu. Lakin o, Həştərxan yeparxiyasını 1768-ci ildə Alban Katolikosluğunun yurisdiksiyasından çıxarmaqdan savayı, bu istiqamətdə hər hansı uğur qazana bilmədi [Эзов, 1901, c.5-10; Imranli-Lowe, 2015, pp.553, 555; Имранлы, [2005]2006, c.15-17]. Arxiyepiskop Arqutinski 9 mart 1801-ci ildə vəfat etdi, son sözləri isə Eçmiədzində Yerevantsinin yanında dəfn olunmaq arzusu oldu [Дубровин, 1886, IV, c.224]. Onun ermənilərlə albanlar barəsində Rusiya hökumətinin əsas məlumat mənbəyi kimi missiyası digər Eçmiədzin arxiyepiskopları, daha dəqiq desək, İoannes və Nerses tərəfindən davam etdirildi. Onların hər ikisi Eçmiədzinin Gürcüstan yeparxiyasının rəhbərləri, Nerses isə sonradan 1843–1857-ci illərdə Eçmiədzin katolikosu olmuşdu.

Beləliklə, Rusiyanın Cənubi Qafqaz, İran və Osmanlı İmperiyasına qarşı yürütdüyü siyasət Alban Katolikosluğunun erməni Eçmiədzin Katolikosluğu tərəfindən çoxdan arzulanan ləğvinə gətirib çıxardı və az qala bütöv bir kimliyin silinməsinə səbəb oldu. Xristian albanlar əvvəlcə erməni adlandırıldı, daha sonra isə özlərini – ərazisi XVIII əsrdə və XIX əsrin əvvəllərində Şəki xanlığının tərkibinə daxil olmuş Azərbaycanın hazırkı Qəbələ və Oğuz rayonlarında, eləcə də Gürcüstanın Kaxeti bölgəsinin Zenobiani kəndində yaşamağa davam edən az sayda udinləri çıxmaq şərtilə – erməni kimi tanımağa başladılar.

MƏNBƏLƏR:

1. Архив Внешней Политики Российской Империи (АВПРИ) [Rusiya İmperiyasının Xarici Siyasət Arxivi], фонд 5, опись 5/1 (1779-1783), дело 591; фонд 343, опись 461, дело 8.
2. Российский Государственный Исторический Архив (РГИА) [Rusiya Dövlət Tarix Arxivi], фонд 821, опись 7, дело 96.
3. Sakartvelos Tsentraluri İstoriuli Arkivi (STsİA) [Gürcüstan Mərkəzi Tarix Arxivi], fond 2, siyahı 1, iş 386
4. Mir Mehdi Xəzani. "Kitabi-tarixi Qarabağ"/ Qarabağnamələr. II kitab. Bakı: Yazıçı, 1991, s.93-202.
5. Mirzə Camal Cavanşir Qarabağı. "Qarabağ tarixi"/Qarabağnamələr. I kitab. Bakı: Yazıçı, 1989, s.103-148.
6. Mirzə Yusif Qarabağı. "Tarixi-safi"/Qarabağnamələr. II kitab. Bakı: Yazıçı, 1991, s.5-92.
7. Rzaqulu bəy Mirzə Camal oğlu. "Pənah xan və İbrahim xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri"/Qarabağnamələr. II kitab. Bakı: Yazıçı, 1991, s.203-246.
8. Imranli-Lowe, K. Reconstruction of the 'Armenian Homeland' Notion //Middle Eastern Studies, 2015, №4, pp.540-562.
9. Агаян Ц.П. (ред.). Присоединение Восточной Армении к России. Сборник документов. Том I (1801-1813). Ереван: Издательство Академии Наук Армянской ССР, 1972, 715 с.
10. Агаян Ц.П. (ред.). Присоединение Восточной Армении к России. Сборник документов. Том II (1814-1830). Ереван: Издательство Академии Наук Армянской ССР, 1978, 657 с.
11. Акты собранные Кавказскою Археографическою Коммиссиею (АКАК). Том I. Тифлис: Типография Главнаго Управления Наместника Кавказскаго, 1866, 816 с.
12. Акты собранные Кавказскою Археографическою Коммиссиею (АКАК). Том III. Тифлис: Типография Главнаго Управления Наместника Кавказскаго, 1869, 760 с.
13. Акты собранные Кавказскою Археографическою Коммиссиею (АКАК). Том V. Тифлис: Типография Главнаго Управления Наместника Кавказскаго, 1873, 1170 с.
14. Акты собранные Кавказскою Археографическою Коммиссиею (АКАК). Том VII. Тифлис: Типография Главнаго Управления Наместника Кавказскаго, 1878, 994 с.
15. Акты собранные Кавказскою Археографическою Коммиссиею (АКАК). Том VIII. Тифлис: Типография Главнаго Управления Наместника Кавказскаго, 1881, 1009 с.
16. Бархударянц М. Арцах. Перевод с армянского на русский Нельсона Алексаняна. Санкт-Петербург: Наука, 2009, 384 с.
17. Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 год. Том II. Санкт-Петербург: Типография Императорской Академии Наук, 1869, 592 с.
18. Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 год. Том III. Санкт-Петербург: Типография Императорской Академии Наук, 1869, 620 с.
19. Дубровин Н. История войны и владычества русских на Кавказе. Том II. Санкт-Петербург: Типография И.Н.Скороходова, 1886, 318 с.
20. Дубровин Н. История войны и владычества русских на Кавказе. Том III. Санкт-Петербург: Типография И.Н.Скороходова, 1886, 550 с.
21. Дубровин Н. История войны и владычества русских на Кавказе. Том IV. Санкт-Петербург: Типография И.Н.Скороходова, 1886, 536 с.
22. Имранлы К. Чёрная судьба Чёрного Сада. Москва: Научно-издательский центр «Ладомир», [2005] 2006, 64 с.
23. Иоаннисян А.Р. Армяно-русские отношения в 80-90-х годах XVIII столетия/ История армянского народа, Часть 1. Ереван: Издательство Академии Наук Армянской ССР, 1951, с.265-273.
24. Иоаннисян А.Г. (ред.). Армяно-русские отношения в первой трети XVIII века. Сборник документов. Том II (2). Ереван: Издательство Академии Наук Армянской ССР, 1967, 420 с.

25. Иоаннисян А.Р. Иосиф Эмин. Ереван: Издательство Академии Наук Армянской ССР, 1989, 291 с.
26. Иоаннисян А.Р. Россия и армянское освободительное движение в 80-х годах XVIII столетия. Ереван: Издательство Государственного Университета, 1947, 287 с.
27. Кавказский календарь на 1852. Тифлис: Типография Главнаго Управления Наместника Кавказскаго, 1851, 718 с.
28. Кавказский календарь на 1861. Тифлис: Типография Главнаго Управления Наместника Кавказскаго, 1860, 581 с.
29. Каганкатваци М. История агван. Перевод с древнеармянского К.Патканова. Санкт-Петербург: Типография Императорской Академии Наук, 1861, 374 с.
30. Мильман А.Ш. Политический строй Азербайджана в XIX-начале XX вв. Баку: Азербайджанское Государственное Издательство, 1966, 318 с.
31. Полное собрание законов Российской империи. Собрание второе. Том.XI (1). Санкт-Петербург: Типография Второго Отделения Собственной Е.И.В. Канцелярии, 1837, 896 с.
32. Потто В. (ред.). Утверждение русскаго владычества на Кавказе. Том XII. Тифлис: Типография Канцелярии Главноначальствующаго гражданскою частью на Кавказе, 1901, 523 с.
33. Раффи. Меликства Хамсы: 1600-1827. Материалы для новой армянской истории. Перевод с армянского Л.Казаряна. Ереван: Издательство «Наири», 1991, 240 с.
34. Семёнов П.П. Географическо-статистический словарь Российской Империи. Том V. Санкт-Петербург, 1885, 1000 с.
35. Храповицкий А.В. Памятныя записки. Чтения в Императорском обществе истории и древностей российских при Московском университете. Книга 3. Москва: Университетская типография, 1862, 294 с.
36. Шопен И. Исторический памятник состояния Армянской Области в эпоху ея присоединения к Российской Империи. Санкт-Петербург: Типография Императорской Академии Наук, 1852, 1232 с.
37. Эзов Г. Начало сношений Эчмиадзинскаго патриаршаго престола с русским правительством. Тифлис: Скоропечатня М.Мартиросянца, 1901, 85 с.
38. Barxudaryants M. Artsax (erməni dilində). Bakı: Tparan “Aror”, 1895, 461 s.
39. Barxudaryants M. Patmutivn Ağuanits (erməni dilində). Vol.II. Tiflis: Elektraşarj Tparan Or.N. Ağaneantsi, 1907, 192 s.
40. Raffi. Xamsayi melikutivnnere (1600-1827): nivter hayots nor patmutean hamar (erməni dilində). Tiflis: Kovkasi karavarç, 1882, 414 s.

Lolua Roman
TDU Arn. Çikobava adına Linqvistika İnstitutu,
filologiya elmləri doktoru, professor (Gürcüstan)

QƏDİM ERMƏNİ MƏNBƏLƏRİNDƏ QAFQAZ-ALBAN YAZISININ GENEZİSİNƏ DAİR MƏLUMATLAR

Qafqaz-alban yazısının Maştos tərəfindən yaradıldığını iddia edən əsas mənbələr aşağıdakılardır:

Koryunun "Maştosun həyatı" əsəri (Müəllif V əsrdə yaşayıb. Əsas əlyazmalar XVII–XIX əsrlərə aiddir; XIV və XIV–XV əsrlərə aid iki əlyazma mövcuddur [Корюн, 1962, с.155-156]). Bununla yanaşı, Koryunun fəsillər toplusuna daxil olan bu iki erkən əlyazmasında Maştos tərəfindən Qafqaz-alban (eləcə də gürcü) yazısının "yaradılması" haqqında məlumat yoxdur [Гаприндашвили, 2019]. Koryunun əsərinin geniş versiyasından əlavə qısa (ən erkən əlyazma XII əsrə aiddir) versiyası da mövcuddur və bu versiyanın bizi maraqlandıran kontekstdə əsas fərqi ondan ibarətdir ki, əlyazmaya əsasən Maştos Qafqaz albanlarının əlifbasını yaratmayıb, sadəcə "bərpa edib", "yeniləyib":

"...daha sonra o, Ağvana yola düşdü, onların əlifbasını *yenilədi və oxuma* ənənələrini *dirçəltdi"* [Gorioun, 1869];

Movses Xorenasinin "Ermənistan tarixi" əsəri (ermənişünaslıqda Movses Xorenasinin V əsrdə yaşamış müəllif olduğuna dair fikir yayılmışdır, lakin bir sıra alimlər onun VII–IX əsrlərdə yaşadığını qeyd edir. Daha erkən əlyazmalar XIV əsrə aiddir[1]) [История Армении, 1893; Мовсес Хоренаци, 1990]. Musa Kalankatlıya aid olduğu bildirilən "Ağvan ölkəsinin tarixi" əsəridir (göründüyü qədərilə VII–X əsrlərə aid kompilyativ əsərdir). Əsas əlyazmalar XVII–XIX əsrlərə aiddir və yalnız bir əlyazma XIII əsrə (1289-cu il) aid edilir [Мовсэс Каланкатуаци, 1984].

Maştosun daha sonrakı dövrlərdəki bioqraflarının – "Müqəddəs patriarx Saakın və vardapet Maştosun tarixçəsi" əsərini yazmış IX əsrin anonim müəllifinin, "Müqəddəs vardapet Mesropun həyatı və ölümü haqqında" əsərinin müəllifi Karapet Saspesinin (XII–XIII əsrlər) əsərlərində, o cümlədən aralarında IX–X əsrin tarixçisi Ovanes Drasxanakersinin, XII–XIII yüzilliklərin müəllifləri Kirakos Qandzakesi, Vardan Aravelsi, Stepanos Orbelyan və bir sıra digər müəlliflərin də olduğu erkən orta əsrlərə və son orta əsrlərə aid mənbələrdə də bu məlumatlara rast gəlinir.

Koryun, Xorenasi və daha sonrakı dövrlərə aid digər müəlliflərin məlumatlarına istinad edən əksər erməni mütəxəssisləri, həmçinin bir çox əcnəbi ermənişünaslar öz tədqiqatlarında dəfələrlə Qafqaz-alban (və gürcü) əlifbasının V əsrin əvvəlində maarifpərvər Mesrop Maştos tərəfindən yaradıldığını qeyd edirlər.

Eyni zamanda bu məlumatların doğruluğu ilə bağlı şübhələr də irəli sürülüb.

İ.Cavaxişvili erməni yazılı mənbələrinin tekstoloji təhlilini aparmış və bu nəticəyə gəlmişdir ki, Koryunun "Maştosun həyatı" əsərində gürcü və alban əlifbalarının Maştos tərəfindən yaradıldığına dair məlumatlar olmayıb, əsərə sonradan əlavə olunub. Xüsusən İ.Cavaxişvili qeyd edir ki, V əsrin salnamə yazarı, Maştosun şagirdi Lazar Parplı Koryunun adıçəkilən əsərindən istifadə edib, lakin Maştosun İberiyada və ya Qafqaz Albaniyasındakı fəaliyyəti haqqında heç nə bilmirdi. Alimin fikrincə Koryunun əsərinin hər iki versiyası bizə ilkin formada gəlib çatmayıb, bu səbəbdən də Zaqafqaziya xalqlarında əlifbaların hansı şəraitdə yarandığının aydınlaşdırılmasına töhfə vermir. Alimin fikrincə, Koryunun bir çox məlumatları, hətta Maştosun tərcüməçilik fəaliyyətinə dair məlumatlar sonrakı interpolyasiyalar nəticəsində və müəyyən düşüncələrə əsasən yazılmış və ya əlavə olunmuş redaktor işidir [Джавахишвили, 1998, с.387-421].

K.A.Melik-Oqacanyan bu nöqteyi-nəzərlə polemikaya girərək qeyd edir ki, L.Parplı "ümumiyyətlə Maştos və onun yazı işarələrinin yaradılması ilə

[1] *X–XI əsrlərə aid olan və alban (və gürcü) əlifbasının yaradılması haqqında məlumatın olmadığı kiçik fraqmenti nəzərə almasaq [Коланджян, 1958, с.182].*

bağlı yaradıcı fəaliyyəti haqqında çox az şey danışır". L.Parplı öz oxucusunu Koryunun əsərinə yönləndirir: "Bütün bunlarla bağlı həqiqəti öyrənmək istəyən, qoy, istəkli insan, mübarək Maştosun tələbəsi Koryunun hadisəsindən məlumat alsın, biz də dəfələrlə onun həyat hekayəsini...yazılarını oxuyaraq həqiqəti dərk etmişik" [Мелик-Огаджанян, 1962, с.5].

Bu açıqlama zənnimizcə adekvat deyil. Birincisi, hörmətli tədqiqatçı L.Parplının qeyd olunan sitatı tam göstərməli idi – Lazar Koryunu "dəfələrlə oxuyaraq" elə öz dərk etdiklərini sadalayır. L.Parplı Koryunun əsərindən "onun (Maştosun) həyat hekayəsi və onun erməni yazılarının harada, nə zaman və kim tərəfindən tapıldığına dair məlumatlar"ı çıxarıb.[1] İkincisi, elmi ədəbiyyatda da göstərildiyi kimi, L.Parplı Koryunun əsərindən bütöv parçaları götürüb. Beləliklə, N.Q.Adons qeyd edir ki, "Parplı Lazar Koryunun əsərindən geniş şəkildə və görünür, başqa redaksiyada istifadə edib; inandırıcı deyil ki, tarixçi Koryunun əsərindən bütöv səhifələri götürərək onun üslubunu bu qədər güclü dəyişsin" [Адонц, 1908, с.341]. Beləliklə, L.Parplının Maştosun həyat və fəaliyyəti haqqında hekayəsini heç cür qısa adlandırmaq olmaz. L.Parplının əsərinin üç fəsli ona həsr olunub, həmçinin iki geniş fəsildə L.Parplı erməni əlifbasının yaranma tarixini təfərrüatları ilə qeyd edir, "Daniil yazıları"ndan, Maştosun axtarışlarından, erməni yazısının yekun formalaşmasından, Katolikos Saakın, çar Vramşapuxun və digər şəxslərin bu prosesdə iştirakından bəhs edir və bu zaman Maştosun fəaliyyətində Qafqaz-alban və gürcü əlifbalarının yaradılması kimi vacib "epizod" haqqında bir kəlmə də demir.

N.Q.Adons hələ İ.Cavaxişviliyə qədər Koryunun əsərinin sonrakı əsrlərdə redaktə olunaraq yenidən işlənildiyindən, əsərin günümüzə gəlib çatan versiyasının ilkin hesab edilə bilməyəcəyini qeyd edir. N.Q.Adons Koryunun əsərinin yeni versiyasının VII əsrə aid olduğunu, müəllifinin isə bir çox tədqiqatçının Aqafanqelin əsərinin əsl müəllifi hesab etdiyi ierey Yeznak olduğunu qeyd edir [Адонц, 1908, с.341-342].

Y.A.Manandyan N.Q.Adonsun fikri ilə qismən razılaşaraq Koryunun əsərinin ilkin versiyasının günümüzə gəlib çatmadığını bildirir və əlavə edir ki, "Parplı Lazarın Koryunun əsərindən götürdüyü parçalara diqqət yetirdikdə bundan həqiqətən əmin olmaq mümkündür. Görünür, Lazar Koryunun əsəri ilə qədim redaksiyada tanış olub" [Манандян, 1941, с.10].

Koryunun mətnindəki bir çox qeyri-müəyyənlikləri, üstüörtülü fikirləri, nəql ardıcıllığının pozulmasını və hətta aşkar ziddiyyətləri digər tədqiqatçılar da qeyd edir.

Maştosun gürcü və alban əlifbalarını "yaratdığından" bəhs edən ikinci əsas mənbə olan Moisey Xorenasinin "Ermənistan tarixi" əsəri ilə bağlı da şübhələr meydana çıxır. Buna xüsusən Koryunun və Movses Xorenasinin Qafqaz-alban yazısının yaradılması haqqında məlumatlarının müqayisəsi səbəb olur. Belə ki, bu müəlliflərin məlumatlarını müqayisə edərkən aşağıdakı mühüm fikir ayrılıqları meydana çıxır:

Koryuna görə, Maştosla Beniaminin görüşü Bizansda baş tutub, Xorenasiyə görə isə Mesropla Beniamin Albaniyada görüşüblər;

Koryunun məlumatlarına əsasən, alban əlifbasının yaradılmasının təşəbbüskarı göründüyü qədərilə Beniamin olub, Xorenasiyə görə isə əksinə bu təşəbbüs Mesropa aid olub.

Koryuna görə, alban yazısı Bizansda, Xorenasiyə görə isə Albaniyada yaranıb. Bundan başqa, Xorenasiyə görə Mesrop Bizans Ermənistanına ilk dəfə hərc-mərclik zamanı, gürcü və alban yazısı yarandıqdan, Vramşapuxun ölümündən, Xosrov təkrar hakimiyyətə gəldikdən və Şapur getdikdən sonra səfər edib;

Koryuna görə, Beniamin özü Maştosun yanına gəlib. Movsesa görə isə Mesrop Beniamini çağırıb, Sünik hökmdarı Vasak isə Ananiya vilayətinin yepiskopunun vasitəçiliyi ilə göndərib;

Koryuna görə, Beniamin Albaniya-Ağvan sakini idi, Xorenasiyə görə isə həmin dövrdə erməni müəlliflərinin birmənalı olaraq Ermənistanın tərkibinə aid etdikləri Sünik əyalətinin sakini olub.

[1] *"Should someone wish to confirm this, he may read the history of that desirable man Koriwn, a student of the venerable Mashtoc' which provides information about [Mashtoc's] life,* **his Armenian letters***, about when, where and by whom [the Armenian letters] were found, and about the enthusiastic entreaties of Armenia's king Vrhamshapuh. Koriwn, the aforementioned spiritual man, wrote all of this down accurately. We have read [Koriwn] numerous times, and so confirmed our information" [Ghazar P'arpec'i, 1985, c.12].*

Koryuna görə, Beniamin ierey idi, Xorenasiyə görə isə tərcüməçi olub.

Koryuna görə, Maştos alban yazı işarələrini təkbaşına, Beniaminə yalnız suallar verərək, Xorenasiyə görə isə Beniaminin, çar Arsvalenin və patriarx Yeremiyanın köməyilə yaradıb;

Koryuna görə, Maştos yazını alban, Movsesa görə isə qarqar dili üçün yaradıb;

Koryuna görə, Maştos İovnatanı Balasakan, Xorenasiyə görə isə Ağvan sakinləri üzərində nəzarətçi qoyur.

Koryuna görə o, müəllimlik işində səy göstərən saray keşişi idi; Xorenasiyə görə isə Yovnatan Mesropun şagirdi idi;

Xorenasiyə görə, Mesrop Ağvanda saray keşişlərini təyin edir, Koryunun məlumatlarında isə İovnatanın alban hökmdarlarının sarayında Maştosun gəlişindən öncə də keşiş olduğu bildirilir;

Koryuna görə, Maştos Ağvana Ermənistandan (Vaqarşapatdan), Xorenasiyə görə isə İberiyadan gəlmişdi;

Koryuna görə, Maştos Albaniyaya səfəri (Koryunun bildirdiyinə görə yeganə səfəri) zamanı Balasakana və Qardmana səfər edir, Movsesa görə isə Mesrop Albaniyaya ikinci səfəri zamanı orada olub;

Koryuna görə Maştos Albaniyadan sonra İberiyaya, Movsesa görə isə Ermənistana gedir.

Ən əsası: Koryuna görə, alban yazısı Vramşapuxun oğlu, erməni çarı Artaşesin (Maştos çar Artaşes və katolikos Saakla görüşdən sonra Albaniyaya gedir) hakimiyyəti dövründə, Xorenasiyə görə isə Vramşapuxun özünün hakimiyyəti dövründə yaranıb.

Beləliklə, Maştos tərəfindən alban yazısının yaradıldığından bəhs edən iki əsas və ən erkən mənbənin müqayisəsi aralarında ciddi ziddiyyətlərin olduğunu göstərir. Hər iki müəllifin əksər ermənişünaslar tərəfindən Maştosun V əsrdə yazmış şagirdləri olaraq qəbul edildiyini nəzərə aldıqda bu ixtilaf daha da təəccüblü görünür. Movses Xorenasi sonrakı dövrə aid müəllif hesab edilsə belə, onun Koryunun məlumatlarından istifadə etdiyini ehtimal etmək çətindir.

Koryun, Lazar Parplı və Movses Xorenasinin əsərləri arasındakı mühüm fərqləri izah edən P.M.Muradyanın fikrincə Parplı və Xorenasi Koryunun məşhur olan əsərindən deyil, günümüzə gəlib çatmayan, X əsr müəllifi Aaron Vanandesinin adını çəkdiyi "Müqəddəs Saak və Mesropun tam tarixçəsi" əsərindən istifadə ediblər. Bundan başqa, erməni dilindən qədim gürcü dilinə tərcümə olunmuş (X əsrin sonu–XI əsrin əvvəlinə aid əlyazma) və Xorenasi və Parplının Tarixindən seçilmiş parçaları özündə birləşdirən (İ.Abuladze tərəfindən dərc olunub), "Böyük Nersesin oğlu, müqəddəs Qriqori soyunun altıncı nəsli müqəddəs Saak Partevin ölümü" adlı əsər günümüzə qədər gəlib çatıb. Tədqiqatçının fikrincə, gürcü dilindəki bu tərcümənin məhz erməni dilindəki əsli Xorenasi və Parplı üçün mənbə rolunu oynamışdır [Мурадян, 2005, с.164-165].

Bu ehtimal şübhə doğurur (L.Parplının Maştosun həyat və fəaliyyətini təsvir edərkən mənbə olaraq başqa əsəri deyil, Koryunun əsərini qeyd etdiyini xatırlamaq kifayətdir), hərçənd bu, Koryunun əsərinin ilkin versiyasının əhəmiyyətli dərəcədə dəyişildiyini izah etmir, əksinə təsdiqləyir.

Zənnimizcə, "Ağvan ölkəsinin tarixi" əsərində alban əlifbasının yaradılması haqqında məlumat da mötəbər deyil.

Məlum olduğu kimi, peşəkar ədəbiyyatda bu əsərin yazıldığı vaxt, müəlliflərinin və ya tərtibatçılarının şəxsiyyəti və sayına dair müxtəlif ehtimallar irəli sürülmüşdür. Buna baxmayaraq, hər üç kitabın müəllifinin (kompilyatorunun) və ya bu əsərin I və II kitablarını yazmış birgə müəllifin (VII əsrdən əvvəl yaşamış və bu dövrədək baş verən hadisələri təsvir etmiş) mənşəyi haqqında, onun Utik qavarının (əyalətinin) Kalankat kəndindən çıxdığı və öz ölkəsinin vətənpərvəri olduğu haqqında məlumatlıyıq. Müəllifin vətənpərvərliyini öz ölkəsi, xalqı, onun hökmdarları və görkəmli xadimləri haqqında istifadə etdiyi çoxsaylı mədhedici epitetlər təsdiqləyir, məsələn:

Qafqaz dağlarının hündür silsilələrinin olduğu Ağvan ölkəsi əzəmətli və sevimlidir, hər cür nemətlərlə [doludur]. Məftunedici Kür çayı rəvan şəkildə və əzəmətlə [öz sularını] aparır... [Ölkənin] paytaxtı böyük Partav [şəhəridir] (I kitab, fəsil V).

Bu fonda Mesropun qarqarlar üçün əlifba yaratdığından bəhs edərkən (II kitab, fəsil 3) qarqar dilinin peyorativ olaraq səciyyələndirilməsi gözlənilməz görünür, çünki müəllif özü qarqarları alban tayfalarından biri hesab edir:[1] "boğazdan

[1] *"Onun [Aranın – albanların eponimidir] oğlundan Uti, Qardman, Savdey, Qarqar knyazlıqlarının tayfaları törəmişdi"(Moisey Kalankatlı. I, 4).*

gələn, boğuq, ahəngsiz, kobud". "Ağvan ölkəsinin tarixi" əsərində qarqar əlifbasının yaradılması haqqında məlumat daha sonra təkrarlanmır, yalnız iki yerdə Maştos tərəfindən "aluank yazı işarələri"nin yaradılmasından bəhs edilir. Beləliklə, qarqar və alban (ağvan) bu kontekstdə sinonim olaraq çıxış edir.

Bizim fikrimizcə, bu məlumat Movses Xorenasinin "Ermənistan tarixi" əsərindən interpolyasiya edilib: "Mesrop ... boğaz səsləri ilə zəngin olan, əlaqəsiz, barbar, son dərəcə rabitəsiz olan qarqar dilinin yazı hərflərini yaratdı" [История Армении, 1893, с.193]:

"Ağvan ölkəsinin tarixi" əsərinin mətnində qarqarlar üçün əlifbanın yaradılması haqqında hekayə (II kitab, fəsil 3) Vardan Mamikonyanın başçılığı altında üsyanla əlaqədar hadisələrin təsvirindən (II kitab, fəsil 2 –Yelişedən götürülüb) sonra gəlir; Bu fəsildə Sünik hökmdarı Vasakın "şücaətli" adlandırılması nəzərə çarpır, halbuki əvvəlki fəsildə (II kitab, fəsil 2) üsyançılara xəyanət etdiyinə görə müəllif onu "lənətlənmiş", "dönük", "ədəbsiz" kimi epitetlərlə "bəzəyir".

Bununla yanaşı, ikinci kitabın III fəslinin başlığında ("Vardapet Mesropun Ağvan hökmdarı Yesvalenin yanına gəlişi, yazı hərflərinin yaranması, ikinci dəfə məktəblərin təsis edilməsi, Ağvanda inancın möhkəmlənməsi və digər etiqadların aradan qalxması") "ikinci dəfə məktəblərin təsis edilməsi" ifadəsi diqqət çəkir. Bizim fikrimizcə, interpolyator Ağvanda məktəblərin "birinci dəfə" açılması olaraq birinci "Tarix" kitabında təsvir olunmuş, Mömin Vaçaqan tərəfindən "cadugərlərin, sehrbazların, kahinlərin, barmaq kəsənlərin, adam zəhərləyənlərin uşaqları" üçün məktəbin açılmasını qəbul edir, lakin "Ağvan tarixi"nin özündəki məlumata əsasən Mömin Vaçaqan çar Yesvalen və Vaçedən sonra hakimiyyətə gəlmişdi. Düşünürük ki, interpolyator bu təfərrüatı diqqətindən qaçırıb və bu səbəbdən səhv edib.

Qeyd etmək lazımdır ki, ablan və gürcü əlifbasının "erməni" mənşəli olduğuna dair versiyanın tərəfdarları qədim erməni mənbələrindəki məlumatların mötəbərliyinə dair əsas arqument olaraq bu məlumatlarda həmin dövrün real tarixi şəxsiyyətlərinin adının çəkilməsini qeyd edirlər. Məsələn, K.A.Məlik-Oqacanyan qeyd edir ki, "üç dost Zaqafqaziya xalqının yazısının yaranma tarixində bu və ya digər mərhələnin həyata keçməsini əks etdirən illərin IV əsrə doğru bir neçə il geriyə və ya V əsrə doğru bir neçə il irəliyə çəkilməsi mümkündür, **lakin bir şey aydındır ki, bu yazı işarələri və yazılar IV və V əsrlərin kəsişməsində, erməni çarı Vramşapuxun, katolikos Saakın, İberiya çarları Bakurun, daha sonra taxta çıxan Ardzyuxun və ölkənin yepiskopu Movsesın, Taşir knyazı Aşuşanın, Ağvan hökmdarı Arsvaxın və ölkənin yepiskopu Yeremiyanın dövründə yaradılıb.**.. Buna heç bir şübhə ola bilməz" [Мелик-Огаджанян, 1962, с.5].

Bu nə dərəcədə doğrudur? Qeyd etmək lazımdır ki, hökmdar Arsval (Arsvalen, Yesvalen) və yepiskop Yeremiya (İeremiya) haqqındakı məlumatlar olduqca azdır və yalnız erməni dilindəki mənbələrdə qeyd olunub, alban yazısının yaradılması kontekstində adı çəkilən digər şəxslərin adlarına isə (Beniamin/Veniamin və digərləri) bu kontekstdən kənarda heç rast gəlinmir. Hökmdar Arsval haqqında mövcud cüzi məlumatlar onun hakimiyyət dövrünü şübhə altına qoymağa əsas vermir (hərçənd nə də təsdiqləmir), lakin yepiskop İeremiya ilə bağlı hadisədə anoxrizm olduğuna dərindən inanırıq.

"Ağvan ölkəsinin tarixi"ndə alban katolikoslarının siyahısında İeremiya İovhan (İoan) və Abasın arasında yer tutur. Mxitar Qoşun, Kirakos Qandzakesinin (İovanes kimi adı çəkilir) və Mxitar Ayrivanesinin (Ter-Oqan kimi qeyd olunub) siyahısında da eyni sırada gəlir [Мхитар Гош, 1960; Киракос Гандзакеци, 1976; Хронографическая история, 1869].

Katolikos Abasın xidmət etdiyi illər qismən dəqiq məlumdur. "Ağvan tarixi" əsərində bu, 44 il olaraq qeyd olunub, xidmətə başladığı il olaraq isə erməni xronologiyasının birinci ili (552-ci il) götürülüb (I kitab, fəsil 4, III kitab, fəsil 24). "Məktublar məcmuəsi"ndə erməni katalikosu II Ovanesin (557-574-cü illər) müraciətnaməsində Abasın katolikos olduğu müddət olaraq 552-596-cı illər, həmçinin 44 il göstərilir [Книга писем, 1901, с.81]. Mxitar Qoş da Abasın patriarxlığının erməni erasının birinci ilində başladığını qeyd edir, lakin xidmət müddətini 23 ilədək azaldır [Мхитар Гош, 1960, с.9].

İeremiyanın sələfi, Musa Kalankatlının (III kitab, fəsil 24) və Kirakos Qandzakesinin [Киракос Гандзакеци, 1976, с.134] bildirdiyinə görə, həm də hunların yepiskopu olmuş İoannın xidmət

etdiyi illər müəyyən edilməyib. Buna baxmayaraq, onun Ağvan katalikosu kimi fəaliyyətinin VI əsrin I yarısına təsadüf etdiyini iddia edə bilərik. Erməni mənbələrinin İoann haqqındakı məlumatları hunları xristianlığa gətirmiş, "Aran torpağının yepiskopu", "burada Müqəddəs kitabı hun dilində nəşr etmiş" və 14 və ya mənbədə deyildiyi kimi, "iki həftə il" hunların yepiskopu olmuş Kardost haqqında VI əsrə aid Psevdo-Zaxariya Mitilenski adlandırılan anonim Suriya xronikası ilə heyrətamiz şəkildə üst-üstə düşür [Пигулевская, 1939, с.115]. N.Q.Piqulevskaya Kardostun hunlara 537-ci ildə göndərildiyini qeyd edir [Пигулевская, 1939, с.113], M.İ.Artamonovun fikrincə isə "Kardost hunların ölkəsinə 515-ci ildən tez gəlməyib, 529-cu ildə isə oranı tərk edib"[Артамонов, 1962, с.93].

Erməni mənbələri ilə Suriya xronikasının eyni şəxsdən bəhs etdiyinə dair şübhəmiz yaranmır. İoann və Kardost adlarındakı fərq bizim fikrimizcə, mühüm deyil, belə ki, Psevdo-Zaxariya Mitilenskiyə görə "bu Kardost adı yunan dilinə Teokletos, arami dilinə isə "tanrı tərəfindən çağırılmış" kimi tərcümə olunur [Пигулевская, 1939, с.115]. Buradan belə nəticəyə gəlmək olur ki, Kardost xüsusi ad deyil, hunların yepiskop İoanna verdikləri ləqəbdir.

Beləliklə, Musa Kalankatlının, Mxitar Qoşun, Kirakos Qandzakesinin və Mxitar Ayrivanesinin məlumatlarına əsasən İeremiyadan sonra Ağvan katolikosunun taxtına 552-ci ildə Abas çıxmışdır. İeremiyanın sələfi isə VI əsrin I yarısında fəaliyyət göstərmiş müqəddəs İoann olub. O artıq Ağvanın patriarxı olaraq hunların yanına yollandı[1] və görünür, İeremiyanın patriarx taxtına çıxdığı vaxt İoannın (Kardostun) hunların yanına getdiyi vaxtla üst-üstə düşüb, çünki Ağvanın ali kilsə kafedrasının 14 il naibsiz qaldığını təsəvvür etmək çətindir.

Beləliklə, elə erməni mənbələrindəki məlumatlardan aydın olur ki, hökmdar Yesvalenin (Arsvalın/Arsvalenin) hakimiyyətinin bitməsindən patriarx İeremiyanın (Yeremiyanın) xidmətinin başlamasına qədər təqribən bir əsr keçib, yəni onlar birbirinin müasiri ola bilməzdilər.

Bundan əlavə, göründüyü qədərilə Kirakos Qandzakesi Alban kilsəsinin rəhbərlərinin siyahısını tərtib edərkən Abasın patriarxlığı müddətində tərtib olunmuş mənbədən istifadə etmişdir. Qandzakesi kilsənin baş yepiskoplarının hakimiyyət tarixlərini sadalayır, bundan əlavə, siyahısındakı hər növbəti yepiskop əvvəlkindən bir il çox rəhbərlik edib, üstəlik hakimiyyət müddəti sıra ardıcıllığına uyğun gəlir ...Görünür, Qandzakesi bu tarixləri hansısa naməlum mənbədən, ola bilsin ki, alban mənbəyindən götürüb və sıra nömrələrini (hərflərlə işarələnmiş) kilsə rəhbərlərinin patriarxlıq müddəti kimi başa düşüb. Bu ardıcıllıq sistemi katalikos Abasa çatanda pozulur ki, bu da Qandzakesinin baş yepiskop Abasın dövründə tərtib olunmuş siyahıdan istifadə etdiyi fikrini ağıla gətirir. Katolikos Abasın vaxtında alban patriarxlarının siyahısını tərtib edən şəxsin əvvəlki baş yepiskopun adını bilmədiyini ehtimal etmək mümkün deyil.

Maştos tərəfindən alban yazılarının yaradılması haqqında məlumatların meydana çıxmasını hansı dövrə aid etmək olar? İv.Cavaxişvilinin də ehtimal etdiyi kimi, alban və gürcü yazılarının yaradılması haqqında məlumat Koryunun mətninə VI əsrin sonunda əlavə olunmuşdur [Джавахишвили, 1926, с.403-411].

Z.Aleksidze "Məktublar məcmuəsi"ndəki məlumatları tənqidi baxışdan keçirdikdən sonra gürcü və alban yazılarının "yaradılması" haqqında məlumatların meydana çıxdığı vaxtı VIII əsrin əvvəlinə keçirmiş, daha sonra isə erməni katalikosu Avraamın III epistolunun "Məktublar məcmuəsi"ndəki müvafiq mətnlə müqayisəsinə əsasən göstərmişdir ki, gürcü yazısının guya Maştos tərəfindən yaradılması haqqında məlumat "Məktublar məcmuəsi"nə X əsrdən sonra interpolyasiya edilib [Книга эпистол, 1968, с.035, 042; Ухтанес, 1975, с.293-303].

B.Xursilavın fikrincə, Maştos tərəfindən gürcü əlifbasının "yaradılması" haqqında məlumatlar Ovanes Vanakan və onun şagirdlərinin, Xoranaşat adlı məktəbin nümayəndələrinin – Vardan Aravelsinin, Kirakos Qandzakesinin, Mxitar Ayrivanesinin və digərlərinin "fəaliyyəti" ilə bağlıdır. 1225-ci ildə Xoranaşat monastrı talan edildikdən sonra bu məktəbin nümayəndələri istər Ermənistanda, istərsə də onun hüdudlarından kənardakı müxtəlif təhsil ocaqlarına keçdilər, Vanakanın bəzi şagirdləri isə hətta yeni məktəblərin əsasını qoydular. Tədqiqatçının fikrincə bu Maştos tərəfindən gürcü yazılarının yaradılması haqqında əfsanənin yayılmasına səbəb

[1] *Psevdo-Zaxariya Mitilenskinin aşağıdakı sözləri də bunu təsdiqləyir: "Aran torpağının yepiskopu, Kardost adlı adamın yanına mələk endi" [Пигулевская, 1939, с.115].*

oldu (tədqiqatçı Maştos tərəfindən alban əlifbasının yaradılmasına ehtimal verir) [Хурцилава, 2003, c.109-110].

Sonuncu ehtimal Koryunun əsərinin qısa versiyasının (Psevdo-Koryun) XII əsrə aid əlyazmasının mövcud olması faktı ilə təkzib edilir, belə ki, bu əlyazmada Maştos tərəfindən gürcü yazısının "yaradılması" və alban yazısının "yenilənməsi" haqqında məlumat artıq mövcud idi.

Maştos tərəfindən Qafqaz-alban (və gürcü) yazısının yaradıldığını iddia edən erməni mənbələrinin tənqidi tədqiqi bizi aşağıdakı nəticələrə gətirib çıxardı:

Maştos tərəfindən Qafqaz-alban və gürcü əlifbalarının "yaradılması" haqqındakı məlumatların müəllifi ya Movses Xorenli, ya da "Ermənistan tarixi" əsərinin üzərində işləyərək müəllifin V əsrdə xəbərsiz olduğu pasajları əsərə daxil edən şəxsdir.[1]

Bu cür məlumatların *terminus post quem* yarandığı vaxt VII əsrin əvvəlinə, gürcü-erməni kilsəsinin ayrıldığı vaxta, *Terminus ante quem* vaxtı isə IX əsrin sonuna təsadüf edir. IX əsr daha həqiqətə uyğun hesab edilir.

Bu məlumat Movses Xorenasinin "Ermənistan tarixi"ndən digər müəlliflərin əsərlərinə – "Müqəddəs patriarx Saak və vardapet Maştosun tarixçəsi"nə (IX əsr), Ovanes Drasxanakertsinin əsərinə (IX–X əsrlər), "Ağvan ölkəsinin tarixi"nə (X əsr),[2] Kirakos Qandzakesinin, Vardan Aravelsinin, Stepanos Orbelyanın (XII–XIII əsrlər) və bir sıra digər əsərlərə keçmişdir. Koryunun əsərinin qısa versiyasını da bu sıraya daxil etmək olar.

Adı çəkilən bütün müəlliflər mənbələrdən biri kimi Koryunu qeyd edirlər, lakin Maştos tərəfindən Qafqaz-alban və gürcü əlifbalarının "yaradılması" haqqında məlumatın Movses Xorenasinin əsərindən götürüldüyü müəyyən olunub, belə ki, Koryunun, Movsesın və adıçəkilən müəlliflərin əsərlərində Maştosun guya adıçəkilən əlifbaları yaratdığı vaxt səyahət etdiyi marşrutları müqayisə edəndə bundan asanlıqla əmin olmaq mümkündür. Bütün məlumatlar qısadır, bir lekal üzrə tərtib olunub və Movses Xorenasinin məlumatına uyğundur, "Ağvan

---

[1] *R.Ovannisyanın da qeyd etdiyi kimi, "Ermənistan tarixi" erkən erməni tarixşünaslığında ən dolğun və eyni zamanda ən ziddiyyətli əsər hesab olunur. Tədqiqatçı Xorenasinin əsərində aşağıdakı ziddiyyətlərə toxunur:*

Movses Arşakilər monarxiyasının Mesropun (440-cı ildə vəfat edib) və patriarx Saakın (439-cu ildə vəfat edib) ölümündən sonra süqut etdiyini yazır, lakin adıçəkilən monarxiya 428-ci ildə süqut edib.

Xorenasi yalnız VI–VII əsrlərdə məlum olan şəxslər və yerlər haqqında yazır və V əsrdə əlçatan olmayan mənbələrə istinad edir. O, VIII əsrdə güclənən himayədarlarını –Baqratunilər mədh etmək məqsədilə mənbələri təhrif edir.

X əsrdən əvvəlki mənbələrdə Xorenasiyə istinad yoxdur [Hovannisian, 1997].

Xorenasinin "Tarix" əsərinin ingilis dilinə tərcüməsinin müəllifi R.Tomson Xorenasinin əsərində aşağıdakı anaxronizmlərə işarət edir ki, məhz bunlar əsəri V əsrə aid etməyə imkan vermir: Movses Sünikin Sisakanla eyni olduğunu bildirən ilk erməni yazıçısı olmuşdur. Sonuncu terminə ilk dəfə VI əsrdəki Suriya mənbəsində rast gəlinir. VII əsrə aid erməni coğrafiyasında bu, bütün əyaləti deyil, mahalı bildirir.

Xorenasi dörd Ermənistanın adını çəkir. Bu Bizans əyalətləri 536-cı ildə Bizans imperatoru I Yustinian tərəfindən yaradılmışdı (527–565-ci illər).

O, Van gölündən şərqdəki ərazini Vaspurakan adlandırır. Bu termin 591-ci ildə Ermənistan bölündükdən sonra istifadə olunmağa başladı.

Movses Xəzərlərin adını çəkir. Digər erməni mənbələrində Xəzərlər haqqında ilk dəfə VII əsrə aid "Erməni coğrafiyası"nda məlumat verilir.

O, iranlıların Vifiniyaya irəliləməsindən xəbərdardır. İranlılar qərbə doğru bu qədər uzağa yalnız 604–629-cu illərdə müharibə vaxtı getmişdilər.

Xorenasi Bizans Ermənistanında yalnız 629-cu ildə imperator I İraklinin farslar üzərində qələbəsindən sonra təsis edilmiş vəzifələrin adını çəkir.

Bundan əlavə, Robert Tomson Movses Xorenasini siyasi motivasiyalı və öz himayədarına xidmət edən, mənbələri manipulyasiya edən və Ermənistan tarixini saxtalaşdıran mistifikator adlandırır [Thomson, 1978].

Sadalanan arqumentlərə həmçinin Xorenasinin öz əsərində Maştosun adının ikinci forması olan Mesrop adından istifadə etməsini əlavə etmək olar ki, bu da erkən dövr erməni mənbələri üçün səciyyəvi deyil. Bu forma müəlliflər tərəfindən yalnız VII əsrdən etibarən istifadə olunmağa başlayıb. Y.A.Manandyanın da qeyd etdiyi kimi, "mübahisəli və şübhəli Mesrop adına ilk dəfə sonrakı dövrlərə aid əsərlər olan müqəddəs Nersesin həyatı (Venesiya, 1853-cü il, səh.83 və 110) və Movses Xorenlinin tarixində rast gəlinir" [Манандян, 1941, c.10].

[2] *Əsərin ikinci kitabında. "Ağvan ölkəsinin tarixi"nin birinci kitabında Maştos haqqında hekayə birinci cümləsində interpolyasiya edilmiş parça istisna olmaqla, daha erkən mənşəyə malikdir.*

ölkəsinin tarixi”nin ikinci kitabındakı məlumat isə Movsesın dediklərini demək olar ki, sözbəsöz təkrarlayır.

Zənnimizcə, orta əsr erməni müəlliflərinin alban və gürcü əlifbalarının “yaradılması” ilə bağlı peripetiyaları təsvir etmək üçün mənbə qismində Xorenasinin əsərindən istifadə etmələri yalnız Koryunun “Maştosun həyatı” əsərində bu məlumatın hələ mövcud olmadığını təsdiqləyə bilər. Koryunun əsərinin geniş redaksiyasının (Ermənişünaslıqda ənənəvi olaraq Koryunun mötəbər əsəri hesab edilir) qədim əlyazmalarında (XIV–XV əsrlər) Maştos tərəfindən Qafqaz-alban və gürcü əlifbalarının yaradılması haqqında məlumatın olmaması da bunu təsdiqləyir.

Movses Xorenasinin əsərindən bu məlumatlar ilk olaraq Koryunun əsərinin qısa redaksiyasına, daha sonra, kifayət qədər vaxt keçdikdən sonra (göründüyü qədərilə – XVII əsrdə) əsərin geniş redaksiyasına keçmişdir. Bundan əlavə, Koryunun əsərinin qısa redaksiyasına aid Xorenasinin əsərindən götürülmüş məlumatlar geniş redaksiyadakı məlumatlarla ziddir. Fikrimizcə, bu ziddiyyətlər interpolyatorun Koryunun əsərinin geniş redaksiyasında Maştosu daha da ucaltmaq və əməllərini daha da şişirtmək istəyindən irəli gəlib. Koryunun əsərinin geniş redaksiyası ilə Xorenasinin əsərindəki məlumatları müqayisə edərkən Koryunun məlumatlarının daha həqiqətdən uzaq olduğunu görmək mümkündür. Beləliklə, Xorenasinin məlumatlarına əsasən guya Qafqaz-alban və gürcü əlifbalarının yaradılmasında müvafiq ölkələrin hökmdarları, baş keşişləri və tərcüməçiləri də iştirak edib, yəni Xorenasiyə əsasən əlifbaların “yaradılması” müəyyən şəxslərdən ibarət hər hansı şuranın fəaliyyətinin nəticəsidir. Halbuki Koryunun əsərinin geniş redaksiyasına əsasən Maştos adıçəkilən əlifbaları təkbaşına, bu ölkələrin hüdudlarından kənarda, üstəlik nə alban, nə də gürcü dillərini bilmədən “yaradıb”. Koryuna görə, Maştos alban yazılarını təkbaşına, yalnız Beniaminə suallar verərək gürcü əlifbasını heç bir köməklik almadan “yaradıb” (hər halda, bu barədə bir kəlmə də deyilmir).

Tarixi erməni ədəbiyyatında Maştosun məziyyətlərini artırma tendensiyası müşahidə olunur. Aşağıdakı xətt cızılır: Maştos missionerdir, Xristianlığı təbliğ edir; Maştos erməni əlifbasının islahatçısıdır və Maştos hər üç Qafqaz əlifbasının yaradıcısıdır. Məktublar məcmuəsində (V–XIII əsrlər) Maştosun adı dəfələrlə Xristianlıq inancının təbliğatçısı kimi çəkilir, lakin bir dəfə də erməni əlifbasının yaradıcısı olaraq çəkilmir [Книга писем, 1901]. Maştosun və onun şagirdlərinin Albaniyada yalnız dini fəaliyyətindən bəhs edən “Ağvan ölkəsinin tarixi”nin birinci kitabında (fəsil 27) da Maştos bu cür təsvir olunub. Heç bir maarifçilik fəaliyyətinə, yazının təbliğinə, məktəblərin açılmasına, uşaqların tədrisinə, tərcümələrə və s. işarət edilmir. Sonrakı dövr müəlliflərindən Foma Arsrunini bu qrupa daxil etmək olar (IX–X əsrlər).

İkinci qrupa Maştosu yalnız erməni əlifbasına müəyyən hərflər əlavə etmiş islahatçı, həmçinin Patriarx Saakla birlikdə erməni yazılarının təbliğçisi və tərcüməçi hesab edən müəllifləri daxil etmək olar. Bunlara Filon Tirakski və David Xarkasi aiddir (hər ikisi VII əsrdə yaşamışdır). Daha sonrakı dövrlərə aid bir sıra müəlliflər erməni əlifbasının müəyyən hərflərinin yaradılmasından əlavə, artıq alban və gürcü əlifbalarının yaradılmasını da Maştosun adına yazırlar (Asoqik (X–XI əsrlər), Vardan Aravelsi (XIII əsr) və bir sıra digərləri).

Lazar Parplı (V əsr) erməni əlifbasının yaradılmasında daha çox Katolikos Saakın xidmətlərini vurğulayır (fəsil 10). Lazar Parplının əsas mənbəsinin Koryun olduğunu nəzərə alsaq, bu məlumat Koryunun ilkin mətnində də olmalı idi. Zaman üzrə müşahidə apardıqda Maştosun rolunun necə artdığını və erməni yazısının yaradılmasında iştirak etmiş şəxslərin (yepiskop Daniel, Saak, Ropanos və başqaları) rolunun necə azaldığını görmək olar.

Qədim leksionariyalarda və himnoqrafik toplularda Maştosun adı patriarx Saakla birlikdə əsasən Müqəddəs Kitabın tərcüməçisi kimi çəkilirsə, son dövrə aid liturgiya toplularında (məs., “Saat”) Maştos erməni yazısının əlifbaya sait əlavə etmiş islahataçısı hesab olunur. Sonralar sinaksariyaların yaradıcıları üçün Maştos Müqəddəs Kitabın tərcüməçisi və moizəçi olmaqdan əlavə, artıq Qafqaz xalqlarının üç əlifbasının yaradıcısı idi.

Beləliklə, bu nəticəyə gəlmək olar ki, erməni mənbələrindəki məlumatların yeganə doğru olanı Qafqaz-alban yazısının həqiqətən mövcud olmasıdır (bu, itmiş alban yazı abidələrinin axtarışlarının başladılmasında əsas rol oynadı). Maştos tərəfindən Qafqaz-alban əlifbasının “yaradılması” haqqında məlumatlar isə sonralar, göründüyü qədərilə

VII əsrin əvvəli–IX əsrin sonlarında Movses Xorenasinin əsərində yaranmış, daha sonra isə digər əlyazmaların da səhifələrinə köçmüşdür.

Başqa dillərdəki qeyri-erməni mənbələrində alban və gürcü yazılarının yaradılması haqqında məlumatların olmaması da bu ehtimalı təsdiqləyir. Yeznik Kaxbesi, Yeqişe (Yelişe), Sebeos, Ananiya Şirakasi, David Qrammatik və digər V–VII əsr müəllifləri də Maştos tərəfindən gürcü və alban əlifbalarının "kəşf olunması" barəsində heç nə demirlər. Qeyd olunduğu kimi, Maştos tərəfindən alban əlifbasının "yaradılmasından" bəhs edən əsas mənbələrin (Koryun, Xorenasi, "Ağvan ölkəsinin tarixi") məlumatlarında ziddiyyətlər, anaxronizmlər və digər çatışmazlıqlar var. Məhz əsas mənbələrdəki Varietas lectioni halları, xüsusən Koryunla Lazar Parplının, yaxud "Məktublar məcmuəsi" ilə Uxtanesin, həmçinin Mxitar Ayrivanesinin zidd məlumatlarının müqayisəsi mənbələrin yenidən nəşri zamanı kobud işlənildiyini və bu prosesdə Maştos tərəfindən alban və gürcü yazılarının yaradıldığına dair "məlumatların" ortaya çıxdığını güman etməyə əsas verir.

Bəs görəsən, erməni müəlliflərinin alban yazısının yaranması haqqındakı məlumatlarının digər təfərrüatları necə, doğrudurmu? "Alban yazısı V əsrdəmi yarandı? Beniamin (Veniamin) real şəxsiyyət idimi və alban yazısını o yaratdımı? Movses Xorenasinin məlumatı qarqarlar arasında yazının yaranmasınımı bildirirdi? Alban yazısı çar Yesvagenin (Arsvalın, Arsvalenin) dövründəmi yarandı?" kimi sualları cavablandırmaq olduqca çətindir. Ola bilsin ki, erməni mənbələrindəki məlumatlarda alban əlifbasının yaradılması ilə bağlı hər hansı real peripetiyalar əks olunub və nəticədə mifik və qərəzli məzmunla tamamlanıb, hərçənd bu məsələ ilə bağlı istənilən ehtimal həmişəlik hipotez olaraq qala bilər.

ƏDƏBİYYAT:

1. Адонц Н.Г. Армения в эпоху Юстиниана. СПб., 1908. Второе издание: Ереван: Изд-во Ереванского университета, 1971, 527 с.
2. Артамонов М.И. История хазар. Л.: Изд-во Гос. Эрмитажа, 1962, 523 с.
3. Гаприндашвили Х. Житие Корюна (перевод текста, исследование и комментарии) // Диссертация, представленная на соискание академической степени доктора филологии (Ph.D.). Тбилиси, 2019, 386 с. (gürcü dilində).
4. Джавахишвили И. Грузинская палеография. Тбилиси, 1926, 420 с. (gürcü dilində).
5. *Джавахишвили И*. Древнеармянская историческая литература. Тбилиси, 1935, 170 с.; второе издание: И.А.Джавахишвили. Сочинения в 12-ти томах, т.XI, Тбилиси, 1998, с. 267-436 (gürcü dilində).
6. История Армении Моисея Хоренского / Пер. с др.-арм. Н.Эмина. М.: Тип. В.А.Гатцук, 1893, 363 с.
7. Киракос Гандзакеци. История Армении. / Пер. Л.А.Ханларяна. М.: Наука, 1976, 359 с.
8. Книга писем. Тифлис, 1901, XVIII+584 с. (qədim erməni dilində).
9. Книга эпистол / Армянский текст с грузинским переводом, исследованием и комментариями выпустил З.Алексидзе. Тбилиси: Мэцниэрэба, 1968, 298 с. (gürcü dilində).
10. Коланджян С. Новооткрытый фрагмент рукописи Мовсеса Хоренаци на еркатагире и вопрос времени Данииловых письмен / Вестник Матенадарана. Ереван, 1958, с.163-172 (erməni dilində).
11. Корюн. Житие Маштоца / Пер. Ш.В.Смбатяна и К.А.Мелик-Огаджаняна. Ереван: Айпетрат, 1962, 164 с.
12. Лазар Парпеци. История Армении и Послание к Вагану Мамиконяну / Под ред. Г.Тер-Мкртчяна и Ст.Малхасянца. Тифлис, 1904, 292 с. (erməni dilində).
13. Манандян Я.А. Месроп Маштоц и борьба армянского народа за культурную самобытность. Ереван: Арфан, 1941, 53 с.
14. Мелик-Огаджанян К.А. Корюн и его «История Маштоца» / *Корюн.* Житие Маштоца. Ереван, 1962, с. 5-71.
15. Мовсэс Каланкатуаци. История страны Алуанк. / Пер. с др.-арм. Ш.В.Смбатяна. Ереван: издательство АН Арм.ССР, 1984, 258 с.
16. Мовсес Хоренаци. История Армении / Пер. с др.-арм. яз., примеч. Г.Саркисяна. Ереван; Айастан, 1990, 291 с.
17. Мурадян П.М. Проблема «Совершенной истории» Свв. Саһака и Месропа // Историко-филологический журнал, Ереван, 2005, №2, с. 154-165 (erməni dilində)
18. Мхитар Айриванеци. Хронографическая история / Пер. с др.-арм., предисл., примеч. и указ. Л.Давлианидзе-Татишвили. Тбилиси: Мэцниэрэба, 1990, 142 с. (gürcü dilində).
19. Мхитар Гош. Албанская хроника / Пер. З.М.Буниятова. Баку: Элм, 1960, 34 с.
20. Пигулевская Н.В. Сирийский источник VI в. о народах Кавказа // Вестник древней истории, М., 1939, №1, с.107-115.
21. Ухтанес. История отделения армян от грузин / Армянский текст с грузинским переводом, исследованием и комментариями выпустил З.Алексидзе. Тбилиси: Мэцниэрэба, 1975, 443 с. (gürcü dilində).
22. Хурцилава Б. Бакур Великий основоположник древнегрузинской письменности «асомтаврули». Тбилиси: Издание Национальной библиотеки Парламента Грузии, 2003, 175 с. (gürcü dilində).
23. Мхитар Айриванкский Айриванеци. Хронографическая история. М.: Директ-Медиа, 2010, Текст приводится по изданию: Хронографическая история, составленная отцом Мехитаром, вардапетом Айриванкским: Пер. К.Патканова. СПб., 1869. 164 с.

24. Ghazar P'arpec'i's History of the Armenians / Translated from Classical Armenian by Robert Bedrosian. N.Y., 1985, 356 p.
25. Gorioun. Biographie du bienheureux et saint docteur Mesrob // Collection des historiens anciens et modernes de l`Armenie par V. Langlois. T. II. P., 1869, 155 p.
26. Hovannisian Richard G. The Armenian People from Ancient to Modern Times: The Dynastic Periods: From Antiquity to the Fourteenth Century. St.Martin's Press, 1997, 372 + XII pp.
27. Thomson Robert W. History of the Armenians. Cambridge, MA.: Harvard University Press, 1978, 420 + XXI pp.

Məlikov Rauf
"Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzinin
"Ümumi tarix, Azərbaycan tarixi və arxeologiya" redaksiyasının müdiri,
tarix üzrə fəlsəfə doktoru

ALBANİYADA AY İLAHƏSİ MƏBƏDİ

Bir çox tarixçilər Albaniya ərazisində yerləşən antik Ay ilahəsi məbədi və məbədyanı ərazisi mövzusuna müraciət edib. Lakin onların hələ sovet dövründə monoqrafiya və məqalələr şəklində nəşr edilmiş tədqiqatlarını əldə etmək çox vaxt bir çox müasir tarixçilər üçün çətindir. Bu məqalənin müəllifi göstərilən məqamları nəzərə alaraq əvvəlki tarixçilərin Alban Ay ilahəsi məbədi və məbədyanı ərazisi haqqında tədqiqatlarının nəticələrini ümumiləşdirməyə çalışıb.

İ.Şopen Ay məbədinin yerini müəyyən etməyə çalışan ilk tədqiqatçılardan biri olub və o, məbədin "İberiya ilə qonşuluqda, Qabırrı və Alazan çaylarının qovuşduğu yerdə" yerləşdiyini hesab edirdi [Шопен, 1866, c.363].

T.Momzen romalıların Albaniyaya səfərini təsvir edərkən Ay ilahəsi (Anahita–Selena) məbədinin ərazisini müəyyən etməyə çalışmışdır. Onun fikrincə, bu ərazi Fərat çayının yuxarı axarlarında yerləşirdi [Момзен, 1887, c.106].

A.Y.Krımskinin fikrincə, Selena məbədi indiki Şəki şəhəri ərazisində yerləşirdi [Крымский, 1938, c.371].

Y.A.Manandyan Anahita məbədinin Ahalsıx və Axalkələk ərazisində yerləşdiyini fərz edirdi [Манандян, 1939, c.73-74; Манандян, 1943, c.187-210]. O, eyni zamanda hiyerodulların sosial statusunu da müəyyən etməyə çalışmışdır [Манандян, 1945, c.7, сл.].

K.V.Treverin "Qafqaz Albaniyasının tarixi və mədəniyyəti haqqında oçerklər (e.ə. IV əsr – eramızın VII əsri)" kitabını haqlı olaraq Albaniya mədəniyyəti haqqında ən dəyərli əsərlərdən biri hesab etmək olar [Тревер, 1959]. Monoqrafiya ölkənin qeyd edilən dövrdə tarixinə və mədəni həyatına həsr edilib. O, əsərində alban Selena (Ay) məbədinin tədqiq edilməsinə xüsusi diqqət yetirib. Bununla belə, yazılı mənbələrdən əldə edilmiş məlumatların çatışmazlığı, habelə bu dövrün maddi mədəniyyət abidələrinin kifayət qədər araşdırılmaması müəllifə Ay ilahəsinə sitayiş və məbəd təsərrüfatı mövzusunu hərtərəfli şəkildə araşdırmaq imkanı verməyib. Bununla belə, K.V.Treverin monoqrafiyasında Selena məbədi və məbədyanı ərazi haqqında qiymətli fikirlər və mülahizələr yer alıb.

İ.Ş.Cavadovun fikrincə, K.V.Trever Pompeyin ordusunun qış dayanacağının Kür çayı sahilində, hazırkı Qazax şəhərinin yaxınlığında olmasını hesab edərkən yanılır. İ.Ş.Cavadov Y.A.Manandyanla razılaşaraq dayanacağın Kürün sağ sahilində, Ahalsıx yaxınlığında olduğunu düşünür [Джавадов, 1960, c.707-709].

Z.İ.Yampolskinin "Qədim Albaniya e.ə. III–I əsrlərdə" monoqrafiyasının "Məbəd təsərrüfatı" bölməsində, istifadə edilmiş geniş etnoqrafik məlumatlara əsasən, məbəd təsərrüfatında qul əməyindən istifadə edilməsi məsələsinin açılmasına cəhd edilir [Ямпольский, 1962]. Müəllif həmin dövrdə Albaniyanın ən mürəkkəb və ziddiyyətli məsələlərindən birini – Albaniyanın ictimai quruluşunu aydınlaşdırmağa çalışır.

K.H.Əliyev "Qafqaz Albaniyası" kitabında məbəd torpaqlarından bəhs edir və qədim albanların dini inanclarının müxtəlif məqamlarına diqqət göstərir. O hesab edir ki, Albaniyada iki məbədyanı ərazi mövcud idi. Bunlardan biri İberiya yaxınlığında, digəri isə Pompeyin legionlarının qışlamaq üçün dayandığı yerdə, Kür sahilində yerləşirdi [Алиев, 1974, c.310-311]. K.H.Əliyev arxeoloji qazıntılar zamanı aşkar edilmiş terrakotadan hazırlanmış heykəlcikləri Tasitin qeyd etdiyi Parfiya tanrıları ilə əlaqələndirir. Müəllif fars və alban panteonlarında tanrı üçlüyünün vəhdətini xüsusi olaraq vurğulayır, belə ki, Zevs, Helios və Selenaya "həm farslar, həm də albanlar sitayiş edirdilər" [Алиев, 1974, c.334]. K.H.Əliyev fars və albanların dini inanclarını

müqayisə edərək belə nəticəyə gəlir ki, midiyalılar, farslar və albanlar eyni tanrı panteonuna sitayiş edirdilər. Onun fikrincə, əgər farsların, midiyalıların və albanların baş tanrıları fərqlənmirdisə, çox böyük ehtimalla "bu xalqların dini inanclarının digər xüsusiyyətləri arasında da ciddi fərq yox idi". Müəllif analogiyanı davam etdirərək belə nəticəyə gəlir ki, "Strabonun yunan dilində qeyd etdiyi alban tanrıları Helios, Zevs və Selena tamamilə və ya qismən Mitra, Hörmüzd və Anahitaya müvafiq ola bilər" [Алиев, 1974, c.337, 352, 353].

Y.R.Cəfərovun Selena ilahəsinin məbədyanı ərazisinin lokallaşdırılmasına həsr edilmiş məqaləsini xüsusi olaraq qeyd etmək lazımdır. Müəllif hesab edir ki, Dion Kassinin qeyd etdiyi Anahita məbədi Ay məbədi ilə eynidir və bu ərazi Kür çayının sağ sahilində, Qazax yaxınlığında Xalxal rayonunda yerləşir [Джафаров, 1985, c.97-108].

C.Ə.Xəlilovun daş heykəllərdə təcəssüm olunan əcdadlara sitayişin qalıqları və "xristianlığın qəbul edilməsinədək albanlar arasında bu heykəllərin əsas dini sitayiş obyekti" olması haqqında fikirləri də çox maraqlıdır. Müəllif məbəd qullarının və ya hiyerodulların çalışdığı məbədlər və iri məbəd təsərrüfatları probleminə də toxunub [Халилов, 1985, c.188, 192-193].

Q.A.Koşelenko hesab edir ki, "Cənubi Qafqazda formalaşmış" cəmiyyətlər "periferiya tipli" cəmiyyətlər idi, yəni onlar qədim Yaxın Şərq sivilizasiyalarını hələ ibtidai icma münasibətlərinin hökm sürdüyü qalan dünyadan ayıran sərhəddə yerləşirdi. Ellin dövründə Qərblə təmas artdı, daha sonra isə Parfiyanın regiona göstərdiyi təsir gücləndi. Bu, özünü geyim tiplərində, atların bəzədilməsində, silah-sursatda və nəhayət dində göstərirdi. Sinkretik dini inanclarda "qədim yerli tanrılara sitayişlə onlara funksional baxımından yaxın olan İran tanrılarına sitayiş bir araya gəlir və bu tanrılar arasında Mitra və Anahita xüsusi rol oynayırdı". Bu səbəbdən də, yerli əhali arasında sinkretik mədəniyyət formaları geniş yayılmışdı [Кошеленко, 1985, c.114].

K.H.Əliyevin "Antik Qafqaz Albaniyası" kitabında antik Azərbaycanın mənəvi mədəniyyəti də əks olunub. Müəllifin albanların dini inancları haqqında gəldiyi əsas nəticələrdən biri "farsların, midiyalı-atropatenalıların və albanların tanrıları" arasında analogiyanın olmasıdır və bu, kifayət qədər inandırıcıdır [Алиев, 1992, c.157, 161]. K.H.Əliyev bildirir ki, "eyni tanrıların yunan teonimləri ilə adlandırılması farslar, midiyalılar və albanların analoji panteona malik olmasından xəbər verir, lakin hər bir xalq hansısa konkret tanrıya daha çox sitayiş etməyə üstünlük verirdi. Alban tanrıları Helios, Zevs və Selena tamamilə və ya qismən Mitra, Hörmüzd və Anahitaya müvafiq ola bilər" [Алиев, 1992, c.164].

K.H.Əliyev və F.K.Əliyevanın "Azərbaycan antik dövrdə" kitabında yerli əhalinin müxtəlif dini inancları və alban məbədləri haqqında məlumatlar nəzərdən keçirilir [Əliyev, Əliyeva, 1997, c.50-54].

F.K.Əliyevanın "Antik Azərbaycanın – Midiya Atropatenası və Qafqaz Albaniyasının mədəniyyəti" monoqrafiyasında Selena məbədi və onun məbədyanı ərazisi haqqında məlumat verilir. O, Y.R.Cəfərovun İberiya sərhədindəki Ay ilahəsi məbədi ilə Kür sahilindəki Anahita məbədinin eyniləşdirilməsi haqqında fikrini qəbul etmir [Алиева, 2007, c.76].

Alban Ay ilahəsi məbədi haqqında məlumatların təhlilinə başlamamış qeyd etmək lazımdır ki, Daşkəsən, Şəmkir, Naxçıvan və Şəkidə həyata keçirilən arxeoloji qazıntılar zamanı e.ə. III minilliyə aid olan aypara və günəş formasında qəbir daşı, üzərində Ay ilahəsi və ulduzların şəkli olan üzük, habelə səmavi obyektlərə sitayişlə əlaqədar digər materiallar aşkar edilib [Гёюшев, 1984, c.29; Ахундов, 2001, c.89-99]. Onlar Azərbaycan ərazisində hələ e.ə. III minillikdə Aya sitayişin olmasından xəbər verir. Bu, əsasən "ölən və dirilən" təbiəti (Günəş və Ayın çıxması və batması, Ayın fazalarının hilaldan bədirə kimi dəyişməsi və s.) təcəssüm etdirirdi.

Albaniya əhalisinin dini inancları haqqında ilk yazılı məlumatları ilə Strabonun (e.ə. I əsr – eramızın I əsri) "Coğrafiya" əsərində rastlaşırıq. Antik coğrafiyaçı yazırdı: "Onlar tanrılardan Helios, Zevs və Selenaya sitayiş edir və bunlar arasında Selenaya üstünlük verirlər..." (Strabo XI, IV, 7). Beləliklə, Strabonun fikrincə, albanlar üç əsas tanrıya sitayiş etsələr də, üstünlüyü Selenaya verirlər (Strabo XI, IV, 7). Bunlardan biri Günəş tanrısı Helios, digəri baş tanrı Zevs, üçüncü isə, qeyd etdiyimiz kimi, Selenadır [Алиев, 1992, c.152]. Maraqlıdır ki, ölülərin dəfn edilməsi zamanı onların yanına qoyulan keramik qabların və digər əşyaların bir qisminin üzərində ay və ya aypara təsvirləri var və bu, Ay ilahəsinə

sitayişin mövcudluğunu bir daha təsdiq edir [Алиев, 1974, с.330; Алиев, 1992, с.153].

K.V.Trever albanların sitayiş etdiyi Helios, Zevs və Selena ilə erməni tanrıları Mihr, Armazd və Anahita arasında paralellər aparır [Тревер, 1959, с.151]. O, albanların qonşusu ermənilərin dini inancları ilə bağlı vurğulayır ki, erməni tanrılarının hər üçü ayrılıqda İran panteonunda prototipə malikdir [Тревер, 1959, с.151]. Strabon yazırdı ki, "ermənilər arasında Anahitaya sitayiş xüsusi hörmətlə qarşılanır. Onlar bu ilahənin şərəfinə müxtəlif yerlərdə, o cümlədən Akilisenada məbədlər tikiblər. Burada qadın və kişi qullar həyatlarını ilahəyə xidmətə həsr edir" (Strabo XI, XIV, 16).

Yunan coğrafiyaçısı alban tanrılarını yunan tanrılarının adı ilə adlandırır, yəni Günəş tanrısından, baş tanrıdan və Ay ilahəsindən bəhs edir. Erməni panteonunda da bu üç tanrı daha böyük hörmətə malik idi. Məlum olduğu kimi, Qərbi və Mərkəzi Asiyanın bütün xalqları torpaq, su, bitki, heyvanlar aləmi, məhsuldarlıq və çoxuşaqlılıq tanrısı kimi Anahitaya sitayiş edirdilər. Strabon Kiçik Asiyada, Kappadokiya və Pontda Ay ilahəsinə (Selena, Men) həsr edilmiş məbəd ərazilərinin olmasını təsvir edirdi (Strabo XII, II, 3; XII, III, 32). Qeyd etmək lazımdır ki, Anahitanın şərəfinə məbədlərin inşa edilməsi İran və qonşu ölkələrin əhalisi arasında da geniş yayılmışdı [Алиев, 1974, с.335]. İranın təsiri antik Gürcüstan ərazisində də izlənilir [Гагошидзе, 1980, с.20-21]. Ermənistan və Albaniya memarlığı və inşaatında İrandan, xüsusilə də Parfiya memarlığından və yerli xalqların ənənələrindən qaynaqlanan formalar bir araya gəlirdi. Strabon Anahitanın şərəfinə inşa edilmiş məbədlərin birindən bəhs edir. Belə ki, farslar "qayaya təpə forması verib, daha sonra divarları ucaldıb və Anahitaya, həmçinin onunla ümumi ibadətgaha malik olan tanrılara – fars tanrıları Oman və Anadata həsr olunmuş məbəd inşa ediblər. Onlar burada hər il müqəddəs sakeyi bayramını keçirirdilər..." (Strabon XI, VIII, 4). Strabon yazırdı ki, "adətlərə görə, bu ilahənin məbədi olan hər yerdə sakların bayramı keçirilirdi. Vakxın şərəfinə keçirilən bayramlara bənzəyən bu bayramda skif geyimində olan kişilər içki içir və bir-biri ilə və onlarla birlikdə ziyafətdə iştirak edən qadınlarla mazaqlaşırlar" (Strabon XI, VIII, 5).

Antik müəllif müxtəlif ölkələrin tanrılarını – farsların [Дандамаев, Луконин, 1980, с.312, сл.], midiyalıların [Дьяконов, 1956, с.373, сл.; Алиев, 1960, с.306, сл.] (daha sonra isə atropatenalıların), ermənilərin [Тревер, 1959, с.151; Периханян, 1959, с.79, сл.] və albanların [Алиев, 1974, с.331, 334, сл.; Алиев, 1992, с.157] tanrılarını yunan tanrılarının adı ilə adlandırır. Bu, yalnız antik dünyanın ilkin anlayış və təsəvvürləri ilə yox, "fars adətlərinin bu xalqlarda, midiyalılarda və digər tayfalarda eyni olması..." ilə əlaqədardır (Strabon XV, III, 13).

Antik dövr mütəxəssislərinin çoxu hesab edir ki, Strabon Albaniya və İberiyanı təsvir etmək üçün Pompeyin yürüşü iştirakçılarının qeydlərindən, xüsusilə də Pompeyin Cənubi Qafqaza yürüşü zamanı onu müşayiət etmiş və yürüşü ətraflı təsvir etmiş Mitilenalı Feofanın günümüzə çatmamış əsərindən istifadə edib [Neumann, 1883; Fabricius, 1888; Aly, 1957, с.87-101; Ельницкий, 1961, с.150]. Strabon eyni zamanda Antoninin Parfiyaya yürüşündə iştirak etmiş Dellinin qeydlərinə də istinad edir (Strabo XI, XIII, 3).

Eyni tanrıların yunan teonimləri ilə adlandırılması farslar, midiyalılar və albanların analoji panteona malik olmasından xəbər verir, lakin hər bir xalq hansısa konkret tanrıya daha çox sitayiş etməyə üstünlük verirdi. Misal üçün, antik Albaniyada bu, Selena-Anahita idi. Alban tanrıları Helios, Zevs və Selena tamamilə və ya qismən zərdüşt tanrıları Mitra, Hörmüzd və Anahitaya müvafiq ola bilər [Алиев, 1974, с.353; Алиев, 1992, с.164]. Parfiya dövrü İranın və qədim Albaniyanın dini inancları arasında analogiya belə bir nəticəyə gəlməyə imkan verir ki, hər iki yerdə səmanı təcəssüm etdirən Zevsə, İranda Mitra adı daşıyan Günəş tanrısı Heliosa və məhsuldarlıq, su və digər təbiət hadisələrinin ilahəsi Anahita ilə eyniləşdirilən Selenaya sitayiş edilirdi [Алиев, 1974, с.352, 356].

Strabon qeyd edirdi ki, Selena məbədi "İberiyanın yaxınlığında yerləşir" (Strabon XI, IV, 7). Plutarxın (eramızın I–II əsrləri) qeydlərinə görə, Pompey "Mitridata qarşı yürüşü zamanı Qafqazın ətrafında yaşayan tayfaların torpaqlarından keçmişdi. Bu tayfaların ən böyüyü albanlar və iberlər idi... (Albanlar) əvvəlcə bunu istəyən Pompeyin (ölkələrindən) keçməsi ilə razılaşırlar. Lakin Pompeyin ordusu onların ölkəsində qışlamağa qalanda və romalılar Kronios bayramını keçirəndə (sayı) 40 mindən çox olan albanlar Kirn [Kür – M.R.] çayından keçib onlara hücum etdilər" (Plut., Pomp., 34).

Pompey albanların çoxunu qıraraq onları qaçmağa vadar etdi. Daha sonra, Pompey alban çarının xahişi ilə sülh bağlayaraq iberlərin üstünə yürüş etdi.

Dion Kassi (eramızın II–III əsrləri) bu hadisəni eyni ardıcıllıqla, lakin daha ətraflı şəkildə nəql edir. O, romalıların qışladığı yeri dəqiq şəkildə göstərir: "Və o [*Pompey*. – M.R.], (özünün) ordusunu üç hissəyə bölüb qışı Anahitida ərazisində və Kirn (Kür) çayının yaxınlığında keçirdi" (Cass. Dio, XXXVI, 53, 5). Lakin romalılar sakit şəkildə qışlaya bilmədilər, deyə Dion Kassi davam edir, "çünki Kirn (Kür) çayından yuxarıda yaşayan albanların çarı Oroys bir tərəfdən dostu II Tiqranı razı salmaq üçün, digər tərəfdən isə romalıların Albaniyaya hücum etməsindən qorxduğundan" romalılara Saturnaliya bayramı ərəfəsində qəflətən hücum etdi. Lakin albanlar daha çoxsaylı və intizamlı Roma legionlarının qarşısında məğlubiyyətə uğradılar. Romalılar Kür çayından keçərkən alban ordusunun böyük hissəsini məhv etdilər. Bundan sonra Pompey alban çarının xahişi ilə sülh bağladı" (Cass. Dio, XXXVI, 54, 1-5). Dion Kassi əsərinin digər hissəsində Pompeyin e.ə. 65-ci ildə İberiya və Albaniyaya yürüşündən sonra Ponta qayıtması haqqında yazarkən qeyd edir ki, bu il Roma ordusu yenə həmin ərazidə qışladı: "Pompey onda da qışı Aspidada keçirdi" (Cass. Dio, XXXVII, 7, 5).

T.Momzenin verdiyi məlumata görə, Anahitanın məbədi Fərat çayının yuxarı axarında yerləşirdi [Момзен, 1887, с.106]. A.Y.Krımskinin fikrincə, bu məbəd indiki Şəki ərazisində idi [Крымский, 1938, с.371].

Y.A.Manandyan hesab edir ki, Pompeyin "Tabula Peutingeriana" (Peytinger cədvəli) xəritəsində əks olunmuş Kür istiqamətində hərəkəti qədim Ermənistanın şimal-qərb sərhədləri tərəfə, Artaşatdan indiki Aştarak və Ganlicadan keçərək Axalkələk şəhərinin cənubunda yerləşən indiki Xospiyaya (Peytinger cədvəlində Caspiae) yönəlmişdi. Y.A.Manandyanın fikrincə, e.ə. 66/65 və 65/64 illərdə qədim romalıların qış dayanacağı məhz burada – Xospiyadan (Caspiedən) şimal-qərbdə, Kürün sağ sahilində, müasir Ahalsıx və Axalkələk şəhərlərinin arasında, qədim Qoqarenada yerləşirdi [Манандян, 1939, с.74-75; Манандян, 1943, с.199, сл.].

A.İ.Boltunova alban Ay məbədinin Albaniyanın iqtisadi cəhətdən ən inkişaf etmiş ərazisində, İberiya ilə qonşuluqda (Kaxetiyadan şərqdə) yerləşdiyini hesab edir [Болтунова, 1956, с.441].

Q.A.Melikişvili Y.A.Manandyanın fikirləri ilə razılaşmır. O, Dion Kassinin adını çəkdiyi Anahitidanın Akilisenadakı ərazidən fərqli ərazi olması haqqında mühakimələri inandırıcı hesab etmir. Bundan başqa, Q.A.Melikişvilinin fikrincə, Dionun adını çəkdiyi Aspisi Peytinger cədvəlindəki "Caspiae" ilə eyniləşdirmək üçün kifayət qədər əsas yoxdur. O, hesab edir ki, Dion Kassinin qeydlərindən belə başa düşmək olar ki, "Aspis" ərazisi altında Akilisena nəzərdə tutulur. Nəticədə Q.A.Melikişvili romalıların Fərat çayının yuxarı axarı və Kürün başlanğıcı arasındakı ərazidə qışladığını hesab edən T.Momzenin fikrinə qoşulur [Меликишвили, 1959, с.325-326].

K.V.Trever mənbələrdəki qeyd edilən məlumatları təhlil edərək həm Q.A.Melikişvili və T.Momzenin, həm də Y.A.Manandyanın fərziyələrini əsassız hesab edir. Onun fikrincə, Pompey Mitridata Kolxidada hücum etmək istəyirdi, lakin nəzərə alsaq ki, Roma ordusu Kolxidaya gedən yolda (onlara dost olan Pont çarını torpaqlarından buraxmış) iberlərin hücumuna məruz qala bilərdi, Pompey İberiyaya Albaniya tərəfdən, yəni hücumunun ən az gözlənildiyi tərəfdən hücum etmək qərarına gəlmişdi. Kolxidaya gedən dolayı, eyni zamanda Albaniyaya aparan ən qısa yol Artaşatdan şimala doğru müasir Dilican dərəcəsindən Kür çayının sahillərinə aparan məşhur ticarət yolu idi. K.V.Trever hesab edir ki, Pompey məhz bu yolla hərəkət edib. Bu səbəbdən də, onun fikrincə, Y.A.Manandyanın Kür çayının sahilindəki Anahita məbədinin ətrafındakı ərazi (Anahitida) ilə Ahalsıx və Axalkələk şəhərlərinin arasındakı Ἀσπις (Caspiae–Xospiya) ərazisindəki məbəd torpaqlarını eyniləşdirməsi düzgün deyil, çünki Pompey, şübhəsiz ki, Artaşatdan qərbə deyil, şimala doğru hərəkət edirdi və Kür çayının sahilinə müasir Qazax şəhərinin yaxınlığında çıxacaqdı [Тревер, 1959, с.92-93]. K.V.Trever əsərinin digər hissəsində Anahita məbədinin "İberiya və Albaniya ilə qonşu olan Qoqarenada" yerləşdiyini göstərir [Тревер, 1959, с.93, 150-151].

N.Y.Lomouri fərz edir ki, qeyd edilən məbəd Telavi yaxınlığındakı xristian məbədinin yerində yerləşirdi [Ломоури, 1960, с.190-191].

İ.Ş.Cavadovun fikrincə, K.V.Trever Pompeyin ordusunun e.ə. 66/65-ci illərdə qış dayanacağının Kür çayı sahilində, hazırkı Qazax şəhərinin yaxın-

lığında olmasını hesab edərkən yanılır. İ.Ş.Cavadov Y.A.Manandyanla razılaşaraq və romalıların düşərgəsinin yerini dəqiqləşdirməyə cəhd edərək dayanacağın Kürün sağ sahilində, Ahalsıx yaxınlığında, Peytinger cədvəlinin dayanacaq nöqtəsinin yaxınlığında olduğunu düşünür [Джавадов, 1960, c.707-709].

Bir tərəfdən, Q.A.Melikişvilinin dəstəklədiyi T.Momzenin fikri e.ə. 66/65-ci illərin qışında baş vermiş hadisələrin mənbələrdə aydın göstərilmiş səbəb və nəticələrindən, həmçinin hadisələrin baş verdiyi yerədək olan məsafədən yaranan ziddiyyətləri nəzərə almır. Birincisi, Y.A.Manandyanın tam haqlı olaraq qeyd etdiyi kimi, yazda Mitridatı təqib etməyə davam etmək niyyətində olan və ordusunu Kolxidaya keçirmək imkanına malik olan Pompeyin qışlamaq üçün Araksdakı Artaşatdan Yuxarı Fərat regionuna qayıtması ehtimalı son dərəcədə inanılmazdır. Bundan başqa, Pompeyin eyni zamanda həm Anahitida–Akilisenada, həm də Kür sahilində – bir-birindən 400 km-lik məsafədə olan iki yerdə qışlaması haqqında mülahizə olduqca mübahisəlidir [Манандян, 1939, c.73]. İkincisi, K.V.Treverin əsaslı şəkildə göstərdiyi kimi, Pompey Ermənistanın paytaxtından qərbə doğru Fərat istiqamətində deyil, şimala – Kür çayı istiqamətində hərəkət edirdi [Тревер, 1959, c.93]. Üçüncüsü, çar Oroysun rəhbərlik etdiyi qırx minlik alban ordusunun gizli şəkildə və belə qısa müddətdə (özü də qışda) eyni zamanda Akilisenada Anahita məbədi yaxınlığında və Kür sahilində olduğu və romalıların Kür çayının mənbəyindən 300 km məsafədə Fərat çayının sahilindəki Akilisenadan isə bundan üç dəfə böyük məsafədə yerləşən Albaniyaya mümkün yürüşünün qarşısını almaq üçün Roma düşərgələrinə hücum etdiyi situasiyanı təsəvvür etmək mümkün deyil. Bu dəlillər Roma düşərgələrinin e.ə. 66/65-ci ilin qışında Kür və Fərat çayları arasındakı regionda olması haqqında mülahizəni tamamilə rədd edir [Джафаров, 1985, c.101].

Digər tərəfdən, Y.A.Manandyan və İ.Ş.Cavadovun nöqteyi-nəzəri də etirazlar doğurur. Birincisi, Q.A.Melikişvilinin qeyd etdiyi kimi, e.ə. 66/65-ci illərdə bu qədər şimalda, fəth edilməmiş Kolxida və İberiya əraziləri ilə qonşuluğunda yerləşən dağlıq ərazidə qışlamaq təhlükəsiz hesab edilə bilməzdi [Меликишвили, 1959, c.326].

İkincisi, K.V.Treverin göstərdiyi kimi, Pompeyin məqsədi ilk növbədə albanların, sonra isə iberlərin ona arxadan hücum etməməsini təmin etmək idi. Bu səbəbdən Anahita məbədyanı ərazisinin Xospiya (Caspiae) yaxınlığında yerləşməsi haqqında mülahizə nəzərə alınmamalıdır, çünki bu ərazi heç bir yerdə Albaniya ilə yanaşı deyil [Тревер, 1959, c.93].

Üçüncüsü, romalılar indiki Ahalsıx və Axalkələk şəhərlərinin arasındakı rayonda qışlasaydı, onlar Kürdə albanlarla deyil, iberlərlə toqquşardı, bu isə Plutarx və Dion Kassinin verdiyi məlumatlara ziddir [Джафаров, 1985, c.101].

Dördüncüsü, çar Oroysun rəhbərlik etdiyi alban qoşunlarının Ahalsıx və Axalkələkyədək düşərgələr salmış Roma qoşunlarının qarşısına, Qoqarenaya çıxmaq və Saturnaliya günlərində romalılara hücum etmək üçün Kür çayı axarı boyunca uzun və çətin yolu qət etməsi üçün ehtiyac yox idi. Albaniyadan bu rayona, üstəlik romalıların arxasına Kür çayı üzərindən keçmədən Kürün sağ sahili boyunca indiki Bolnisi, Trialeti, Boqdanovka və ya Borjomi, Bakurianidən keçərək Axalkələk–Ahalsıx rayonuna gedən daha qısa yol mövcud idi. Bundan başqa, albanların Albaniya sərhədlərindən təqribən 300 km məsafədə qırx minlik ordu ilə Pompeyin rəhbərlik etdiyi, T.Momzen və Y.A.Manandyanın mülahizəsinə görə, sayı 50 min nəfərdən çox olan Roma legionlarına hücum etməyə cəsarət etməsi inanılmazdır [Момзен, 1887, c.104; Манандян, 1943, c.174].

Beşincisi, tədqiqatçıların Ay məbədinin lokallaşdırılması ilə əlaqədar Plutarxın vacib qeydlərini hansı səbəbdən nəzərə almaması o qədər də aydın deyil. Plutarx albanların Pompeyin ölkələrindən keçməsinə razılıq verməsini qeyd etdikdən sonra bildirir ki, "Pompeyin ordusu onların ölkəsində qışlamağa qalanda sayı 40 mindən çox olan albanlar Kür çayından keçib onlara hücum etdilər" (Plut., Pomp., 34). Plutarxın bu qeydi hadisələrin növbəti gedişatını ümumilikdə şərtləndirir və mənbələrin şərhi zamanı yaranan ziddiyyətlərin əsas səbəbini aydınlaşdırır. Bu qeyddən aydın şəkildə anlaşılır ki, bir tərəfdən, qış Pompeyin ordusunu alban torpaqlarından uzaqlarda yox, məhz burada haqlayır (Plutarx). Məhz bu səbəbdən, albanlar əvvəlcə Pompeyin ölkələrindən keçməsinə razılıq verir, daha sonra romalıların Albaniyaya soxulmasından qorxaraq çar Oroysun rəhbərliyi ilə Roma düşərgələrinə hücum edirlər (Plutarx, Dion Kassi). Digər tərəfdən, Roma düşərgələrinin yerləşdiyi Kür çayı sahilindəki "Anahitida ərazisi" (Dion Kassi) də

"onların ölkəsində" yerləşirdi (Plutarx) [Джафаров, 1985, c.103].

K.V.Treverin təklif etdiyi kimi, Roma legionlarının e.ə. 66/65-ci illərdə qış düşərgəsinin Kürün sağ sahilində, Qazax şəhəri yaxınlığında yerləşməsindən çıxış etsək, Plutarx və Dion Kassinin Pompeyin e.ə. 66-65-ci illərdə baş tutmuş Qafqaz yürüşünün marşrutu haqqında bütün qeydləri hadisələrin dəqiq və ardıcıl gedişatını ifadə edir [Тревер, 1959, c.96-107].

Burada vurğulamaq lazımdır ki, Dion Kassinin qeydlərinə görə, Roma ordusu iki dəfə eyni yerdə, yəni yuxarıda qeyd edilənləri əsas götürsək, indiki Qazax yaxınlığında qışlayıb. Birinci dəfə bu yer Anahita məbədi – Anahitida ilə, ikinci dəfə Aspida (Aspis) ilə əlaqələndirilir [Джафаров, 1985, c.104]. Məlum olduğu kimi, torpaq, su, od və məhsuldarlıq ilahəsi Anahitaya Qərbi və Mərkəzi Asiyanın bütün xalqları sitayiş edirdi. [Wikander, 1946, c.67; Тревер, 1959, c.151; Дандамаев, Луконин, 1980, c.313, сл.]. Ermənistanda Anahitaya həsr edilmiş, Fərat çayının yuxarı axarında, Akilisenada yerləşən məbədyanı ərazi mövcud idi [Периханян, 1959, c.8]. Yuxarıda artıq qeyd edilmişdir ki, Y.A.Manandyan Dion Kassinin Aspis haqqında qeydlərinə əsaslanaraq Anahitaya həsr edilmiş daha bir ərazinin Qoqarenada, Ahalsıx və Axalkələk şəhərlərinin arasındakı Caspie (Xospiya) ərazisində yerləşdiyini hesab edir, lakin bu mülahizə Plutarx və Dion Kassinin qeydlərinə ziddir [Джафаров, 1985, c.104]. K.V.Trever öz növbəsində hesab edir ki, bu halda ya qədim Xalxal şəhərinin yaxınlığında, ya da Albaniya və İberiya ilə həmsərhəd olan Qoqarenanın şərq hissəsində yerləşən məbəd torpaqlarından söhbət gedə bilər [Тревер, 1959, c.93]. Bununla belə, bir tərəfdən, Pompeyin ordusu "Anahitida ərazisində və Kür yaxınlığında" (Dion Kassi), yəni K.V.Treverin mülahizəsinə görə, Qazax yaxınlığında qışlamışdısa, bu halda Anahitanın məbədi – Anahitida (habelə Aspida) da həmin rayonda yerləşməlidir. Üstəlik, Diondan başqa heç bir mənbə Kür çayı yaxınlığında Anahita məbədinin olmasını göstərmir [Тревер, 1959, c.93, 151]. Digər tərəfdən, K.V.Treverin mülahizəsinə görə hansısa məbəd torpaqlarının yerləşdiyi qədim Xalxal şəhəri məhz Qazax yaxınlığında [Hübschmann, 1904, c.272; Тревер, 1959, c.264, сл.], S.T.Yeremyanın mülahizəsinə görə, Ağstafaçayın aşağı axarlarında [Еремян, 1939, c.85] lokallaşdırılmalıdır. Bu şəhər mənbələrdə alban çarlarının qış iqamətgahı adlandırılırdı [Ераше, 1971, c.77]. Beləliklə Dion Kassinin qeyd etdiyi Anahita məbədyanı ərazisinin – Ἀναΐτις-in (nəticə etibarilə Ἄσπις-in) Kürün sağ sahilində, qədim Xalxal şəhərinin yaxınlığında (indiki Qazax şəhəri yaxınlığında) yerləşməsindən çıxış etsək, belə bir sual meydana çıxır: Ἄσπις adı altında nə başa düşməliyik.

Tədqiqatçılar Strabonun qeydlərinin əsasında alban Ay məbədinin gah Qabırrı və Alazan çaylarının qovşağında [Шопен, 1866, c. 363], gah da müasir Şəkinin yerində [Крымский, 1938, c.371], yaxud Şəki tarixi vilayətində (Azərbaycan Respublikasının indiki Şəki, Qax, Zaqatala və Balakən rayonlarının ərazisini əhatə edirdi), lakin əsasən Alazan çayının orta axarında, Şərqi Kaxetiyada yerləşdiyini hesab edir [Джафаров, 1985, c.105].

K.H.Əliyevin fikrincə isə, Albaniyada iki məbəd olub: Anahita məbədi Kür sahilində Ağstafaçayla Tovuzçayın arasında, Ay məbədi (Selena) isə İberiya yaxınlığında yerləşib [Алиев, 1974, c.311, 313]. Lakin tədqiqatçılar Albaniya şərtlərində Ay ilahəsinə sitayişin Anahitaya sitayiş olmasını bildirsələr də [Тревер, 1959, c.151, сл.; Алиев, 1974, c.353, 356], bu müşahidələrindən müvafiq nəticə çıxarmırlar. Nəticə etibarilə, belə bir mülahizə irəli sürə bilərik ki, Dion Kassinin qeyd etdiyi Kür çayı yaxınlığındakı "Anahitida ərazisi" (habelə Aspida) və Strabonun qeyd etdiyi İberiya yaxınlığındakı Ay məbədinin olduğu məbədyanı ərazi eyni yerdir [Джафаров, 1985, c.106]. Dion Kassi kimi Strabonun da Mitilenalı Feofanın qeydlərindən qaynaqlanaraq Albaniyada iki deyil, bir məbədyanı ərazidən bəhs etməsini nəzərə alsaq, bu mülahizənin haqlı olması ehtimalı daha yüksəkdir. Əks təqdirdə, Strabon mütləq bu ərazidə daha bir sitayiş yerinin olmasını qeyd edərdi (misal üçün, Pontda olduğu kimi), çünki o, yalnız Feofanın qeydlərindən deyil, digər mənbələrdən də istifadə edirdi. Ehtimal ki, Dion Kassinin qeyd etdiyi Anahita məbədyanı ərazisi – Anahitida (Aspida) Kür çayının sağ sahilində qədim Xalxal şəhərinin yaxınlığında (Qazax yaxınlığında) yerləşirdi [Джафаров, 1985, c.106]. Xalxal isə İberiya sərhədinin yaxınlığında Uti əyalətinin (ermənicə Utik, yunanca Otene) Qardman ərazisində yerləşirdi [Ераше, 1971, c.77].

Beləliklə, Y.R.Cəfərovun fikrincə, Pompeyin legionları e.ə. 66/65 və 65/64-cü illərdə iki dəfə Kürün sağ sahilində, indiki Qazax şəhəri yaxınlığında,

Albaniyanın baş tanrısı Aya (Anahitaya) həsr edilmiş alban məbədinin ərazisində qışlamışdılar [Джафаров, 1985, с.107]. O, eyni zamanda bu məbədi Qazax şəhərinin qərbində yerləşən Sarıtəpədə qazıntılar zamanı tunc dövrünə aid pirin üstündə aşkar edilmiş, e.ə. VI–V əsrlərə aid edilən böyük ibadətgah və sütun altlıqlarının qalıqları ilə [Халилов, 1960, с. 68-75; Нариманов, 1960, с.207-210] eyniləşdirməyə çalışır.

Ay ilahəsinə (Strabon onu Σελήνη – Selena və ya Μήν – Men adlandırır) həsr edilmiş məbədyanı ərazilər Kappadokiyada (Komana), Pontda (Komana, Zela, Ameriya), Frigiyada mövcud idi (Strabo XII, II, 3; XII, III, 31-32.). Strabonun fikrincə, Albaniyada İberiya ilə sərhədin yaxınlığında yerləşən məbədin (ἱερόν – hiyeron) də olduğu məbədyanı ərazi (ἱερὰ χώρα – hiyera xora) məhz bu Ay ilahəsinə həsr edilmişdi. Antik məbəd sadəcə sitayiş obyekti yox, eyni zamanda inzibati, hüquqi və hərbi mərkəz idi. Məbədyanı ərazinin başında tam hakimiyyətə malik olan kahin (ἱερεύς – hiyerevs) dururdu. Kiçik Asiyada belə məbədyanı ərazilər arasında Kappadokiyada Komanada yerləşən məbəd daha məşhur idi. Məbədyanı ərazilər Ermənistanda da mövcud idi. Onlar arasında Fərat çayının yuxarı axarında, Akilisenada yerləşən Anahitakan (Anahitanın ərazisi) xüsusilə seçilirdi. Strabon Albaniyadakı məbədyanı ərazinin İberiya yaxınlığında yerləşməsi haqqında qeydlə (Strabo XI, IV, 7.) kifayətlənir. Görünür, məbəd Kaxetiyada dağlarla əhatə olunmuş məhsuldar, yağıntının çox olduğu vadilərdən birində yerləşirdi.

Daha sonra Strabon qeyd edir: "...[məbəddə] çardan (basilevs) sonra ən böyük hörmətə malik ər (hiyerevs) kahinlik edir: [o,] geniş müqəddəs məbəd torpağının (hiyera xora) və çoxu tanrılarla danışan və gələcəkdən xəbər verən hiyerodulların [başında] dayanır" (Strabo XI, IV, 7).

Strabonun Kiçik Asiyada məbədyanı əraziləri təsvir etməsindən aydın olur ki, Ay məbədinin yerləşdiyi Kappadokiya Komanasında əhalinin əksəriyyəti teoforetlərdən və hiyerodullardan ibarətdir (Strabo XII, II, 3), yəni kahinin geniş ərazi və çoxsaylı əhaliyə malik məbədyanı ərazinin və hiyerodulların başında durduğu Albaniyada olduğu kimi əhalinin iki qrupunu fərqləndirmək mümkündür. Komana şəhərinin əhalisi haqqında deyilir ki, onlar çara "başqa şəkildə" tabe olur: əhalinin əksəriyyəti kahinə tabe olur, məbədin başında dayanan kahin hiyerodulları (ümumilikdə 6000 nəfər kişi və qadın) da idarə edir, məbədin geniş əkin torpaqları və bunlardan əldə edilən gəlir çardan sonra ikinci yerdə dayanan kahinə gedir (Strabo XII, II, 3). Strabon Farnakiya haqqında danışarkən Ay (Men) məbədinin, daha sonra "məbəd torpaqlarında çox sayda hiyerodulların olduğu" ticarət şəhərciyi Ameriyanın adını çəkir, daha sonra burada "albanlarda və Frigiyada olduğu kimi Selena məbədinin" olduğunu əlavə edir (Strabo XII, III, 31).

Beləliklə, Albaniyadakı Selena – Anahita məbədinin və məbədə aid olan ərazinin Kiçik Asiyada olduğu kimi təşkil edildiyini mülahizə etsək, qarşımızda belə bir mənzərə yaranır. Qərbi Albaniyanın məhsuldar torpaqlarında, ola bilsin ki, Xalxal (Lala) ərazisində Albaniyada xüsusi ehtiram göstərilən ilahənin məbədinin olduğu müqəddəs ərazi və ya məbədyanı ərazi olub. Məbədə məxsus olan torpaqlarda kişilər və qadınlar işləyirdi, üstəlik torpaqdan və ola bilsin ki, sənətkarlıqdan əldə edilən bütün gəlirlər məbədə gedirdi; gəlirləri hiyerodulların başında dayanan və ölkədə çardan sonra ikinci yer tutan kahin idarə edirdi. Antik müəllifin verdiyi məlumat Selena məbədinin baş ruhanisinin sosial mənsubiyyətini açıqlayır: çardan sonra ikinci adam olan hiyerevs məbəd aristokratiyasının başçısı idi. Məbədyanı ərazinin əhalisinə gəldikdə isə, qeyd edilən sitatdan görünür ki, hiyerevs yalnız Selenaya həsr olunmuş alban hiyeronunu deyil, bütün məbədyanı ərazini idarə edirdi [Алиев, 1992, с.194].

Məbəd torpaqlarında hiyerodullarla yanaşı teoforetlər də yaşayırdı. Strabon alban məbədyanı ərazisini təsvir edərkən teoforetləri "tanrı mübtəları" və "gələcəkdən xəbər verdikləri" kimi bildirir [Тревер, 1959, с.136]. K.V.Trever axırıncı sözlə əlaqədar belə bir mülahizə irəli sürür ki, Albaniyadakı Selena məbədinin yanındakı ibadətgahda sual verənlərə teoforetlər cavab verirdi. Məsələ ondadır ki, Kiçik Asiyada müqəddəs torpaqlardakı məbədlərdə orakullar olurdu. Eyni şeyi Ermənistanda yerləşən müvafiq məbədlər haqqında da demək olar [Тревер, 1953, с.105-112].

Hiyerodullar məsələsinə dair geniş ədəbiyyat mövcuddur, lakin bəzi tədqiqatçılar onları məbəd xidmətçiləri, digərləri "müqəddəs qullar", başqaları isə asılı kəndlilər və s. hesab edir.

Y.A.Manandyan hesab edir ki, məbədyanı ərazi müxtəlif sahələrə bölünürdü və bu sahələr müxtəlif şərtlərlə hiyerodulların istifadəsinə verilirdi. Onun fikrincə, hiyerodullar məbəd qulları yox, "məbəd sakinləri" idi. Onları satmaq olmazdı, yalnız məbəd torpaqları müsadirə edildikdə onlar "çarın adamları"na çevrilirdi [Манандян, 1945, с.7, сл.]. Y.A.Manandyan məbədlərdə qulların ola biləcəyini qəbul etsə də, məbəd torpaqlarında quldar məbəd təsərrüfatının mövcud olduğunu hesab etmir və bu zaman məbəd sakinlərinin "asılı servlər" olması və e.ə. II–I əsrlərdə icmaçı kəndlilərin mülkədar aristokratların güclənməsi nəticəsində təhkimli vəziyyətə salınması fikrinə əsaslanır [Манандян, 1945, с.22]. Lakin bununla razılaşmaq çətindir.

Əlavə etmək lazımdır ki, A.İ.Boltunova hiyerodulları "sözün əsl mənasında qullar yox, məbədyanı ərazidə yaşayan və kahinə pay gətirmək öhdəliyi daşıyan insanlar" hesab edir [Болтунова, 1947, с.157].

Bu məsələni tədqiq edən alimlər onun həlli zamanı yalnız (və ya əsasən) Strabonun verdiyi məlumatlara əsaslanırlar, buna görə də, bu suala dəqiq cavab almaq mümkün deyil. Bunun üçün əlavə məlumatlar və ilk növbədə məbəd ərazilərində aşkar edilmiş və bu ərazilərdəki sosial və iqtisadi həyatla əlaqədar olan epiqrafik yazılar, habelə digər sənəd xarakterli məlumatlar lazımdır. A.Q.Perixanyan epiqrafik məlumatlardan istifadə etmiş, faydalandığı ilkin mənbələr bazasını genişləndirmiş və Kiçik Asiya hiyerodullarını nəzərdən keçirərək belə bir nəticəyə gəlmişdir ki, məbəd qulları olan hiyerodullar məbəd icmalarının mülkiyyəti idi və bu səbəbdən müsadirə edilə bilməzdi, məbədyanı ərazilərdə əsas istehsalçılar asılı kəndlərin sakinləri (məbəd kəndliləri) idi və məbədyanı torpaqların əhalisi sosial müxtəlifliyi ilə seçilirdi [Периханян, 1959]. Lakin Cənubi Qafqazda məbəd torpaqları və hiyerodulların vəziyyətini nəzərdən keçirərkən hiyerodulların əməyinin tətbiq edildiyi konkret şərtləri, vaxtı və yeri də nəzərə almaq lazımdır, çünki məbəd torpaqlarında təsərrüfat həyatının əsrlər boyunca dəyişməməsi ehtimalı çox aşağıdır. E.ə. IV–III əsrlərin məbəd icması Strabonun Komanada e.ə. I əsrdə müşahidə edə biləcəyi icmadan fərqlənməli idi. Albaniyada məbəd torpaqlarının iqtisadiyyatının təşkil edilməsi spesifik xüsusiyyətlərə malik ola bilərdi [Тревер, 1959, с.138].

K.V.Trever Albaniyanın ictimai quruluşu haqqında təsəvvürlərə əsaslanaraq hesab edir ki, Strabonun qeydlərində keçmişdən, ola bilsin ki, e.ə. III əsrdən söhbət gedirsə, bu zaman məbədyanı ərazi müəyyən tanrıya sitayişin bir araya gətirdiyi və kahinin rəhbərlik etdiyi ərazi icması idi. Biz bu icmanın üzvlərini, məbəd qullarını və ya icmaçıları ifadə edən yerli alban terminini bilmirik. Biz İberiya sərhədində yerləşən bu alban məbəd icmasının Albaniyadakı yeganə belə icma olmasını, yaxud digər tanrıların məbədlərinin ətrafında olan məbəd torpaqlarından sadəcə biri olmasını da bilmirik. Bizə Strabonun hekayəsinin ikinci hissəsində tanrıya təmizlənmə məqsədilə qurban verilmənin Strabonun dövrünə, yəni eramızın əvvəlinə aid olması, yoxsa alban məbəd icmasında qalıqları saxlanılmış qədim adət olması da məlum deyil. Strabon yazır ki, "kahin tanrıya mübtəla olan və meşələrdə təkbaşına dolaşan birini tutur, əlqolunu müqəddəs zəncirlə bağlayır və bir il ərzində doyunca yedizdirir" (Strabo XI. IV, 7). Bu tanrıya mübtəla olanların və ya teoforetlərin kim olması sualına cavab vermək çətindir; Strabon onların Kappadokiya Komanasının əhalisi arasında olmasını da qeyd edirdi. Strabon Albaniya haqqında fəsildə bu əhali qrupunu fərqləndirir və onların tanrıya mübtəla, dini ekstaz vəziyyətində olduğunu bildirir [Тревер, 1959, с.138-139].

A.Krımski bu "mübtəlaları" yerli əhalinin məbədə verdiyi divanə və ağlıkəm kimi nəzərdən keçirir [Крымский, 1938, с.370]. K.V.Trever hesab edir ki, bu insanlar, çox böyük ehtimalla, məbədin ərazisində icmanın hesabına yaşayan "tanrı adamları", divanələr idi [Тревер, 1959, с.139].

Strabon hekayəsinə davam edir: "Daha sonra onu (hiyerodulu) tanrıya qurban vermək üçün gətirirlər və üzərinə ətirli yağlar çəkərək digər qurbanlarla birlikdə öldürürlər". Axırıncı söz "qurban verilən heyvanlar" (əsasən qoyunlar) deməkdir, ona görə, bu ifadəni "digər qurban verilən heyvanlarla birlikdə" kimi tərcümə etmək lazımdır [Тревер, 1959, с.139]. Strabon daha sonra yazır: "Qurbanvermə mərasimi belə keçirilir: kütlənin içindən əlində adətə görə insanların öldürüldüyü müqəddəs nizə tutan, bu işdə təcrübəli olan biri çıxır və böyürdən onun ürəyinə zərbə vurur. Qurban verilən yıxılarkən vəziyyətinə görə fal açılır və bütün icmaçılara elan olunur" (Strabo XI, IV, 7).

Bir ildən çox müddət ərzində hazırlanan, bir növ səhnələşdirilmiş tamaşa olan və qurban verilən hiyerodulun baş rol oynadığı bu mərasimin necə təfərrüatlı şəkildə təsvir edilməsi təəccüb doğurur. Mərasimin maddi aksesuarları əsasən müqəddəs zəncir – alyusis və nizə – lonxedir. Hər şey hiyera xorada dolaşan, tanrıya mübtəla olan hiyerodula müqəddəs zəncir taxılması ilə başlayır. Kulminasiya hətta həmin dövr üçün nadir olan bir tamaşa – insanın kütlə qarşısında qurban verilməsidir. Təsvirə görə, insan qurbanları üçün xüsusi olaraq ayrılmış müqəddəs nizə ilə ürəyə zərbə vurulur. Tamaşa ölümcül yaralanmış hiyerodul yerə yıxıldıqdan sonra fal açılması və falın iştirakçılara elan edilməsi ilə sona çatır [Алиев, 1992, с.153].

Nizənin müqəddəs adlandırılması və onun mərasimi qurbanların öldürülməsi üçün "adətə", yaxud "qanuna" görə istifadə edilməsi adətin qədimliyindən xəbər verir. Qurbanı öldürən adamın "bu işdə təcrübəli" olması haqqında qeyd isə bunun kahin icmasının xüsusi üzvü tərəfindən həyata keçirilməsini göstərə bilər. Strabonun son sözləri bu qurbanın mənasını izah edir: "Qurbanı bunun üçün ayrılmış yerə aparanda təmizlənmək istəyən hər kəs onun üstündən adlayır" (Strabo XI, IV, 7). Beləliklə, ölü məbəddə yerləşən hansısa konkret yerə aparılır və burada təmizlənməyə "ehtiyacı olanlar" ölünün üstündən adlamağa başlayır [Тревер, 1959, с.140]. Azərbaycanda hökm sürən inanca görə, hazırda da uzanan insanın üstündən keçmək olmaz, çünki bu zaman bütün xəstəliklər, bədbəxtliklər ona ötürülür. Görünür, hiyera xora sakinləri təmizlənmək, yəni özlərini bədbəxtlik və xəstəliklərdən azad etmək üçün hiyerodulun meyiti üstündən keçirdilər.

Qeyd edildiyi kimi, bəzi hiyerodullar gələcəkdən xəbər verirdi. K.V.Trever hesab edir ki, alban məbədində gələcəyin bildirildiyi xüsusi ibadətgah var idi. Sakinlər tanrıya vermək istədikləri sualları bura ünvanlayır, teoforetlər isə bu suallara cavab verirdilər. Onlar eyni zamanda öncəgörmə ilə bağlı bəzi əlamətləri də izah edirdilər. Kiçik Asiyanın bəzi məbədlərində belə orakullar var idi; belə ibadətgah Armavirdəki erməni məbədində [Тревер, 1953, с.104, сл.] və albanların Uti əyalətinin ərazisindəki Anariaka şəhərində [Тревер, 1959, с.140] də var idi. Strabonun sözlərinə görə, sonuncu məbəddə kahin gələcəkdən xəbər vermək üçün yuxuya dalırdı (Strabo XI, VII. 1).

Hiyerodulların sosial vəziyyəti məsələsinə qayıdaraq qeyd etməliyik ki, qul məbəddə orakul, öncəgörən ola bilməzdi və bu rolu icmadan olan, məbəd torpaqlarından əldə edilən gəlirin hesabına saxlanılan divanələr və dəlilər yerinə yetirirdisə, onlar çətin ki qul hesab edilə bilərdilər.

Beləliklə, Strabonun alban məbəd torpaqları və hiyerodullar haqqında mətni bu məbəd və ya "tanrı" qullarını sosial kateqoriyası kimi yox, icma üzvləri hesab edən tədqiqatçıların nöqteyi-nəzərini təsdiq edə bilər [Тревер, 1959, с.140-141].

Albaniyada məbəd torpaqları Kiçik Asiyadakı analoji məbədyanı ərazilərdən hansısa spesifik xüsusiyyətlərinə, ola bilsin, Strabonun da xüsusi olaraq vurğuladığı kimi, icma üzvlərinin təmizlənməsi məqsədilə mərasimi qurbanvermə ilə fərqlənə bilərdi. Təəssüf ki, alban məbəd icmasını İberiyadakı və Ermənistandakı icmalarla müqayisə etməyə imkan verən məlumatlar yoxdur. Biz alban baş kahininin İberiyada olduğu kimi hüquqi və hərbi funksiyaları yerinə yetirməsini də bilmirik [Адонц, 1908, с.409].

Aya (Selenaya) sitayişin müxtəlif formaları sonralar da mövcud idi. Quba və Qəbələ rayonlarında həyata keçirilən etnoqrafik tədqiqatlar nəticəsində azərbaycanlıların İslamdan öncəki ideologiyasına xas Ay, Günəş və həyat ağacının şəkilləri olan qədim qəbir daşları aşkar edimişdi.

Albanlar üçün səciyyəvi olan səmavi obyektlərə sitayiş elementləri Azərbaycan və Şərqi Gürcüstanın əhalisinin inancları arasında günümüzdə də qalmaqdadır. Uşaqlar üçün aypara şəklində tilsimlərin hazırlanması ənənəsi hələ də mövcuddur. Böyüklər arasında göz dəyməməsi üçün həmayil və muncuq taxmaq adəti var. Qədim dövrlərdən bəri insanlar təzə Ay çıxanda əllərini səmaya uzadaraq hilaldan uzun ömür diləyirlər. Azərbaycanın bir çox regionlarında saxlanılmış bu ənənə İslam ideologiyası ilə birləşib və yaşlı insanlar təzə ay görəndə İslam qaydalarına uyğun olaraq salavat çəkirlər.

ƏDƏBİYYAT:

1. Əliyev K.H., Əliyeva F.K. Azərbaycan antik dövrdə. Bakı, 1997, 119 s.
2. Адонц Н. Армения в эпоху Юстиниана: Политическое состояние на основе нахарарского строя: СПб.: типография Императорской АН, 1908, 526 с.
3. Алиев И. История Мидии. Баку: Изд-во АН Аз.ССР, 1960, 491 с., илл.
4. Алиев К.Г. Античная Кавказская Албания. Баку: Азернешр, 1992, 238 с., илл.
5. Алиев К.Г. Кавказская Албания (I в. до н.э. – I в. н.э.). Баку: Элм, 1974, 363 с.
6. Алиева Ф.К. Культура Античного Азербайджана – Мидийской Атропатены и Кавказской Албании (IV в. до н.э. – III в. н.э.). Баку, 2007, 180 с.
7. Ахундов Т. Северо-западный Азербайджан в эпоху энеолита и бронзы. Баку, 2001, 332 с., илл.
8. Болтунова А.И. Описание Иберии в «Географии» Страбона // Вестник древней истории, 1947, №4, с.142-159.
9. Болтунова А.И. Рабовладельческие государства Закавказья в последние века до нашей эры и их борьба с экспансией Рима / Очерки истории СССР, т.1. Первобытнообщинный строй и древнейшие государства на территории СССР. М., 1956, с.420-455.
10. Гагошидзе Ю.М. О грузинском язычестве в III–I вв. до н.э. // Всесоюзный симпозиум по проблемам эллинистической культуры на Востоке. Ереван, 1980, с.20-21.
11. Гёюшев Р.Б. Христианство в Кавказской Албании. Баку: Элм, 1984, 192 с.
12. Дандамаев М.А., Луконин В.Г. Культура и экономика древнего Ирана. М.: Главная редакция восточной литературы издательства «Наука», 1980, 416 с.
13. Джавадов И.Ш. О стоянке римских войск зимой 66/65 г. до н.э. в Закавказье // Доклады АН Аз.ССР, 1960, №7, с.707-709.
14. Джафаров Ю.Р. О локализации храмовой области в Кавказской Албании // Вестник древней истории, 1985, №2, с.97-108.
15. Дьяконов И.М. История Мидии (от древнейших времён до конца IV в. до н.э.). М.-Л., 1956, 486 с.
16. Егишэ. О Вардане и войне армянской / Пер. И.А.Орбели. Ереван, 1971, 197 с.
17. Ельницкий Л.А. Знания древних о северных странах. М.: Гос. изд-во географической литературы, 1961, 224 с.
18. Еремян С.Т. Торговые пути Закавказья в эпоху Сасанидов // Вестник древней истории, 1939, №1 (6), с.79-97.
19. Кошеленко Г.А. Заключение (к главе четвёртой «Закавказье в античную эпоху») / Древнейшие государства Кавказа и Средней Азии. М., 1985, с.107-176.
20. Крымский А.Е. Страницы из истории Северного или Кавказского Азербайджана (классической Албании). Шеки // Сборник, посвящённый памяти академика М.Я.Марра. М.–Л.: Изд-во АН СССР, 1938, с.369-384.
21. Ломоури Н.Ю. Рец. на книгу: Тревер К.В. Очерки по истории и культуре Кавказской Албании (IV в. до н.э. – VII в.н.э.). М.-Л., 1959 // Вестник древней истории, 1960, №3, с.187-191.
22. Манандян Я.А. Проблема общественного строя доаршакидской Армении // Исторические записки, Т.15, М., 1945, с.3-28.
23. Манандян Я.А. Круговой путь Помпея в Закавказье // Вестник древней истории, 1939, №4, с.70-82.
24. Манандян Я.А. Тигран Второй и Рим. Ереван: Армфан, 1943, 243 с.
25. Меликишвили Г.А. К истории древней Грузии. Тбилиси: Изд-во АН Груз.ССР, 1959, 507 с.
26. Момзен Т. Римская история. Т.III. От смерти Суллы до битвы при Тапсе. М.: типография В.Т.Рихтер, 1887, 593 с.
27. Нариманов И. Древнее «святилище» (пир) в Казахском районе позднебронзового периода // Доклады АН Аз.ССР, т.16, 1960, №2, с.207-210.
28. Периханян А.Г. Храмовые объединения Малой Азии и Армении (IV в. до н.э. –

III в. н.э.) / Ответ. ред. В.И.Авдеев. М.: Изд-во восточной литературы, 1959, 186с.
29. Тревер К.В. Очерки истории и культуры Кавказской Албании (IV в. до н.э. – VII в. н.э.). М.–Л.: АН СССР, 1959, 392 с.
30. Тревер К.В. Очерки по истории культуры древней Армении (II в. до н.э. – IV в. н.э.) / Ответ. ред. И.А.Орбели. М.-Л.: Изд-во АН СССР, 1953, 402 с.
31. Халилов Дж.А. Материальная культура Кавказской Албании (IV в. до н.э. – III в. н.э.). Баку, 1985, 236 с.
32. Халилов Дж.А. Поселение на холме Сарытепе // Советская археология, 1960, №4, с.68-75.
33. Шопен И. Новые заметки на древние истории Кавказа и его обитателей. СПб.: типография Н.Тиблена и комп., 1866, 503 с.
34. Ямпольский З.И. Древняя Албания III–I вв. до н.э. Баку: Изд-во АН Аз.ССР, 1962, 389 с.
35. Aly W. Strabon von Amaseia. Bonn, 1957, 518 s.
36. Fabricius. Theophanes von Mytilene und Quintus Dellius als Quellen der Geographie des Strabon. Strassburg, 1888, 255 s.
37. Hübschmann H. Die altarmenischen Ortsnamen / Indogermanische Forschungen. Bd. 16, Strassburg, 1904, s.197-490.
38. Neumann K.J. Strabons Landeskunde von Kaukasien. Eine Quellenuntersuchung / Jahrbücher für classische Philologie, Supplementband 13, Leipzig, 1883, s.322-354.
39. Wikander S. Feuerpriester in Kleinasien und Iran (Acta Regia Societatis humaniorum litterarum Lundensis, 40), Lund, 1946, 244 s.

Mobili Robert
Azərbaycan Alban-udi xristian icmasının sədri,
Bakı Dövlət Universitetinin kristalloqrafiya, mineralogiya
və geokimya kafedrasının böyük elmi işçisi

AZƏRBAYCANIN MULTİKULTURAL MÜHİTİNDƏ UDİLƏR VƏ ALBAN KİLSƏSİ

Azərbaycanın öz müstəqilliyini bərpa etməsi ilə konfessiyalararası münasibətlərin daha da möhkəmlənməsi, milli-mənəvi dəyərlərin bərqərar olması, tarixən formalaşmış dözümlülük, millətlərarası və dinlərarası dialoq şəraitinin daha da gücləndirilməsi üçün əlverişli şərait yaranmışdır. Bu səbəbdən bu gün Azərbaycan mədəniyyətlərarası məkan, konfessional diskurs və dinlərarası dialoqun mərkəzinə çevrilmişdir.

Titullu etnosla yanaşı daha 20 yerli milli azlığın olduğu vahid çoxmillətli Azərbaycan xalqı arasında udinlər (öz dillərində: "udi") – mənşəyi və tarixi artıq iki əsrdən çoxdur ki, elm dünyasının diqqətini çəkən alban-udi xristian icması da yaşayır [Мамедова, 2005; Джавадов, Гусейнов, 1999; Алексеев, Майсак, Ганенков, Ландер, 2008; Гусейнов, 2008; Данакари, 2013].

Udilər Azərbaycanın yerli əhalisi olmaqla Qafqazın ən qədim yerli etnoslarından biridir və müasir Azərbaycan xalqının əcdadları arasındadır. Dəfələrlə siyasi və dini-konfessional münaqişələrin, böyük dövlətlərin və ya daha güclü qonşuların qarşıdurmalarının qurbanı olmuş udi etnosunun tarixi hörmət və rəğbətə layiqdir.

Udilər unikal etnosdur və dünyadakı bütün etnoslardan fərqli olaraq, taleyin dönüklüyünə, bütün kataklizmlərə və tarixi dəyişmələrə rəğmən, öz kilsəsindən məhrum olduqda belə öz varlığını qoruyub saxlaya bilmiş fenomendir. Udilər qədim mənbələrdə - Herodotun, Strabonun, Ptolomeyin, Böyük Plininin əsərlərində, ərəb mənbələrində, avropalı səyyahların əsərlərində Makdeoniyalı İsgəndərin farslarla Qavqamel döyüşünün (e.ə. 331-ci il) iştirakçıları kimi qeydə alınmışlar. Udilərə dair daha ətraflı faktlar yerli müəllif Musa Kalankatuklunun (Albaniyanın Uti əyalətinin Kalankatuk kəndindən idi) "Alban tarixi" əsərində verilmişdir [Мамедова, 2005; Мобили, 2008a, с.26-29; Mobili, 2008b; Мобили 2013, с.234-236].

Aleksandr Düma 1859-cu ildə Qafqaza səfəri zamanı udi Q.Bejanovla tanış olduqdan sonra yol qeydlərində yazırdı: "udilərin mənşəyi məlum deyil; heç kəs tərəfindən başa düşülməyən dilləri başqa heç bir dilə bənzəmir. Özləri isə çevrələrindəki zülmətin içərisində itib gedirlər" [Дюма, 1985, с.122-123].

Arxiv materialları və son tədqiqatlar udilər haqqında fransız alimi Edvard Düralyenin və ingilis səyyahlarının məlumatlarını, Arutinovun antropologiya materiallarını, A.Yanovski tərəfindən qədim Qafqaz Albaniyasının təsvirini, 1996-cı ildə Sinay yarımadasında tapılmış palimpsesti (əlyazma) qeyd etməyə imkan verir.

XIX əsrin son rübündə udilərin sayına dair məlumatlar Rusiya imperiyasında 10-12 min udinin yaşadığını göstərir [Раффи, 2009; Бежанов, 1892, с.213-262; РГИА: ф.796 (1836), ф.821 (1810, 1897–1910, 1914–1915), ф.735 (1859); Флоренский, 1992]. XX əsrin əvvəlinədək udilər Azərbaycanın bir neçə kəndində kompakt şəkildə yaşamışlar.

Hazırda udilərin ümumi sayı 10 min nəfərdən çoxdur, bunların əsas hissəsi – 5 minə yaxın udi – Azərbaycanda (Nic qəsəbəsində kompakt şəkildə və Oğuzda dağınıq halda, həmçinin Bakıda) yaşayır. Udilər həmçinin Rusiyanın cənub bölgələrində, Qazaxıstanda, Gürcüstanda, Ukraynada və Belarus Respublikasında yaşayırlar. Fransanın cənubunda, İngiltərədə, İtaliyada, Latviyada və ABŞ-da da bir neçə udi ailəsi qeydə alınmışdır. Udilər Azərbaycanda kompakt şəkildə yalnız Nicdə yaşayırlar: qəsəbənin 7500 sakininin yarısını udilər təşkil edir. Udilər bir neçə böyük imperiyanın - Sasanilər dövlətinin, Ərəb xilafətinin, Osmanlı imperiyasının, Rusiya imperiyasının və SSRİ-nin dövründə yaşamış və bu dövlətlərin tərkibinə daxil olsalar da, özlərinin dilini, dinini və mədəniyyətini qoruyub saxlamışlar.

Tarixi dəyişmələrin bütün kataklizmlərinə baxmayaraq, udilər Qafqaz Albaniyasının birbaşa nəsil davamçıları olaraq bugün də yaşadıqları multikultural mühit sayəsində mövcudluğunu davam etdirmiş və dilləri, mədəniyyətləri və ənənələri ilə yanaşı, xristianlıq etiqadını da qoruyub saxlamışlar [Гусейнов, 2008, с.22-25; Джавадов, Гусейнов, 1999; Мобили, 2008а, с.26-29; Мобили, №2, 2009, с.214-219].

Udin- daha doğrusu udi dili (öz dillərində: "udi, udi muz") böyük Nax-Dağıstan (iber-Qafqaz) dil qrupuna aiddir və fərqlilik dərəcələri qarşılıqlı başa düşülməyə mane olmayan iki dialektə ayrılır. Hazırda 10 min nəfərdən artıq insan udi dilində danışır, halbuki bu dil keçmişdə Qafqaz Albaniyasında ən çox yayılmış dillərdən biri olub və IV əsrdə bu dilin əsasında ədəbi dil formalaşmış və alban əlifbası yaranmışdır. Tarixi nöqteyi-nəzərdən hamı tərəfindən qəbul edilmiş Qafqaz-alban dili ən çox udi, daha doğrusu proto-udin dilinə yaxındır. IV əsrdə yaranmış alban əlifbası 52 hərfdən ibarət aramey qrafikasının qeyri-semiotik qolunu təşkil edirdi. Sonralar bu əlifbadan geniş istifadə olunmuşdur: ən mühüm İncil mətnləri, liturgiya, dini nəğmələr alban dilinə tərcümə olunmuş və ən əsası kilsə xidməti bu dildə keçirilmişdir. Lakin sonrakı tarixi səbəblərdən alban əlifbası istifadə olunmamış və tədricən itmişdir. Uzun müddət alimlər arxeoloji qazıntılar zamanı tapılmış artifaktların üzərindəki qədim yazıları oxuya bilməmişlər. 1996-cı ildə Sinay yarımadasındakı Müq.Katarina kilsəsində tapılmış və liturgik əsaslardan və Əhdi-Cədiddən (Yeni Əhd) hissələrdən ibarət liturgiya toplusu olan mətn (palimpsest) həqiqəti gün üzünə çıxardı. Məhz bu tapıntıdan sonra alban əlifbasının və inkişaf etmiş ədəbi dilinin mövcud olduğuna dair bütün şübhələr aradan qalxdı. Hazırda bu mətnlər tam deşifrə olunaraq oxunmuş və on dilə, o cümlədən udi dilinə də tərcümə edilməklə iki cilddə nəşr olunmuşdur [Gippert, Schulze, Aleksidze, Mahe, 2008]. Bu əziyyətli işdə dünya səviyyəli dilçi-qafqazşünaslar Z.N.Aleksidze, Y.Hippert, V.Şults və J-P.Maxe iştirak etmişlər. Bu mətnlərin deşifrə olunmasında açar rolunu tərcümə işinin müəlliflərinin sərbəst bildikləri udi dili oynamışdır. Palimpsest Qafqaz Albaniyasının xristian irsi olaraq İohan İncilindən parçalar, liturgiya və leksionaridən - liturgik oxu mətnlərinin toplusundan ibarətdir. Məhz elmi tədqiqatlar əsasında bu mətnlər tədqiq edildikdən sonra alban əlifbasının IV əsrdə yarandığı qənaətinə gəlinib [Алексеев, Майсак, Ганенков, Ландер, 2008; Ворошил Гукасян, 1974; Мобили, 2009, с.214-219; Мобили, 2010; Мобили, 2011].

Bu gün udilər Şərq xristianlığını təmsil edirlər və qəti olaraq müasir şəraitdə alban-udi xristian etnomədəni irsinin və öz kilsələrinin dirçəlməsinə yönəlmişlər. Alban-udi kilsəsi 1836-cı ildə erməni-qriqoryan kilsəsinin təşviqi ilə çarizm tərəfindən ləğv olunmuşdur.

Nəticədə qədim salnamələr və kitablar məhv edilmiş, böyük dəyərlər itirilmiş, iki min illik tarixə malik mədəni və dini ordinasiya təcrübəsi dayandırılmışdır. Bir sözlə, Azərbaycanın, o cümlədən udilərin mənəvi mədəniyyətinin mühüm qatı, qədim və orta əsrlər dövrünə aid tarixi və ədəbi abidələr, ibadət və liturgiya ənənələri, əsrlərin yaddaşı və dəyərlər sistemi həmişəlik itirilmişdir. Bütün rəsmi etirazlarına baxmayaraq kilsə-monastrdan məhrum olmuş udilər bu müsibət və məhrumiyyətlərə dözmək və kilsələri ləğv olunana qədər onun üzvü olmaq məcburiyyətində qalmışdılar. Lakin udilər ana dillərini və dini köklərini günümüzə qədər qoruyub saxlamağa müvəffəq olmuşlar. Bugün alban dini irsinin 100-dən artıq abidəsi erməni silahlı qüvvələrinin işğalından azad edilmiş Azərbaycan ərazisində yerləşir. Xristianlıq tarixində bu abidələrin taleyinin bənzəri yoxdur.

Udilər qədim Qafqaz albanlarının birbaşa nəsil davamçıları olaraq, digərləri ilə yanaşı, Azərbaycan xalqının əcdadları, həmçinin Albaniyanın xristian irsinin element və simvollarının daşıyıcılarıdır. Onlar özlərinin qədim mədəniyyəti, çoxəsrlik ənənələri, mənəvi zənginliyi, dili, etnoqrafiyası ilə qürur duyur və bunları öz tarixi torpaqları olan Azərbaycanda zənginləşdirirlər [Гусейнов, 2008, с.22-25; Джавадов, Гусейнов, 1999; Мобили, 2008а, с.26-29].

Azərbaycan tarixində əsrlər boyu mövcud olmuş dinlərarası mənəvi münasibətlər bu regionun etnik müxtəlifliyinin inkişaf yollarını göstərir. Mürəkkəb dinlərə malik Azərbaycan xalqı müxtəlif etiqadlara mənsub xalqların tarixində dini harmoniyanın nümunəsi və simvolu kimi çıxış edir. Burada müsəlmanlar, yəhudilər, pravoslavlar, katoliklər və qeyri-ənənəvi konfessiyalar birlikdə harmoniya içərisində, aralarında heç bir qarşıdurma olmadan yaşamış, əksinə bir-birini tamamlamış və



Udi kilsəsinin həyətində iftar süfrəsi



2019-cu il oktyabr ayının sonu, məhsul bayramı, Müq. Yelisey kilsəsinin həyətində



Nic kəndi, Müqəddəs Yelisey kilsəsi (Cotari)



Alban xaçı

tamamlamaqdadırlar. Müxtəlif ibadətlər üçün nəzərdə tutulmuş qədim məbədlər, sinaqoqlar, kilsələr və məscidlər kimi ibadət yerlərinin birgə mövcudluğunun özü ölkəmizin ümumi keçmişini təcəssüm etdirir.

Bunun parlaq nümunəsi udilərin Nic qəsəbəsində kompakt şəkildə yaşamasıdır. Bu cür kiçik məkanda qədim dini ibadət yerləri, üç kilsə və iki məscid yerləşir. Burada iki xristian icması və bir Udi mədəni-maarif mərkəzi fəaliyyət göstərir. Dini dözümlülük fenomeni tarixi mühitimizdə həmişə mövcud olmuşdur, udi icması çərçivəsindəki tolerantlıq vahəsi isə hər şeydən öncə müxtəlifliyin mövcud olduğunu təsdiqləyir.

Ölkəmizdə İslam dininin açıq-aydın üstünlük təşkil etdiyi bugün belə, dini ayinlərə, bayramlara və qarşılıqlı ziyarətlərə hörmət idealları sabitləşmişdir. Xristian udilər bugün də qurban kəsməni dini bayram kimi qeyd edirlər. Beləliklə, İslamın yayılması udilər üçün bu və ya digər formada əlverişli zəmin yaratmaqla dini dözümlülüyün - xüsusən udi icması daxilində - mövcudluğunu möhkəmləndirmişdir [Мобили, 2008; Мобили, 2012, с.165-172].

Nic qəsəbəsinin sakinlərinin qorunub saxlanmış ənənələrindən biri də qonaqpərvərlikdir. Udilər qədimdən istər öz dinlərinə mənsub insanları, istərsə də digər dinlərin nümayəndələrini sevinclə qarşılamışlar. İcma xristianlıqla yanaşı, həmçinin milli adətlərini, mərasimlərini, inanclarını və bayramlarını qoruyub saxlaya bilmişdir. Novruz bayramının təşkili və keçirilməsi icmamızda çox mühüm dini tolerantlıq faktorudur. Əsrlərin dərinliklərindən günümüzə gəlib çatan bu qədim yaz bayramı müsəlmanlar və xristianlar arasında əməkdaşlıq və inteqrasiya faktoru kimi çıxış edir.

Bu nöqteyi-nəzərdən qeyd etmək olar ki, Azərbaycanda hər hansı dinlərarası münaqişənin olduğunu təsdiqləyən heç bir sənəd yoxdur. İcmalar arasında dini dözümlülük, hörmət tarixən formalaşmış və kök salmışdır.

Tarixi traektoriya azərbaycanlıların digər dinlərə qarşı dözümlü olduğunu və Azərbaycanın Avropa məkanında dini müharibələrin olmadığı bəlkə də yeganə ölkə olduğunu göstərir. Bu cür birgə mövcudluğa təhsildə, məişətdə, dildə və etiqadda rast gəlirik. Genlərimizə hopmuş kök əlaqələri səciyyələndirən ümumi müqəddəs yerlərə birgə sitayiş buna misal ola bilər. Bütün bu dəyərlər bizi tolerantlıq modelində xalqlar, etnoslar, dinlər arasında, həmçinin dialoqlarda və hər birimizin qəlbində xeyir və şər arasında incə bir cizginin keçdiyi düşüncəsinə vadar edir.

Biz dövlət strukturlarının, xüsusən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin (2005 , 2011 və 2021-ci illərdə Nic qəsəbəsinə səfər etmişdir), Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsinin, müxtəlif nazirliklərin, QHT-lərin və sadə Azərbaycan vətəndaşlarının böyük dəstəyini hiss edirik.

Tarixi ədaləti və həqiqətləri bərpa etmək naminə 2006-cı ildə Müq. Yelisey adına Çotari Alban-udi kilsəsi əsaslı təmir edilmişdir [Мобили, 2013, с.234-236].

2018-ci il avqust ayının ortalarında Nicdə “Udi ocağı” tarixi etnoqrafik park muzeyi yaradıldı. Park muzeyin yaradılmasına aralarında azərbaycanlı rəssam-memar Şahvələd Məmmədovun da olduğu yerli və polşalı mütəxəssislər kömək etmişdir. “Ocaq” Azərbaycan dilində “tonqal”,

“yuva”, həmçinin əzəldən odla əlaqəli olan “müqəddəs yer” mənalarını verir. Bu cür yerlərə həm udilər, həm də azərbaycanlılar sitayiş edirlər: onları lentlərlə bəzəyir və onlara qurbanlıq qoyunlar gətirirlər. Bütpərəstlik ənənəsi kilsə kanonlarından və müsəlman adətlərindən fərqli olsa da, bu cür məbədlər çoxlu saydadır və tarixin bu ən zəngin qatı hər bir udinin genlərinə hopmuşdur. Parkın ekspozisiyasına Qanqalovlar ailəsinin XVII əsrin sonlarında inşa edilmiş evi və süni göl, bağ, təsərrüfat tikililəri və ocağın olduğu həyətyanı sahə daxildir. Bu bölgədə evlərin adətən mansarda mərtəbəsi olurdu. Yayda çardağın havalandırılan toranında ipəkqurdu baramaları yetişdirilir və tütün yarpaqları qurudulur, payızda isə bayramlar keçirilirdi. Udi evlərini azərbaycanlı və ya ləzgilərin evlərinə bənzər edən xüsusiyyət ibadət otağının olmasıdır. Bağda əsas meyvə məhsulu fındıq ağacıdır. Qəsəbənin iqtisadiyyatı bugün də əsasən fındıq becərilməsi sayəsində ayaqda durur: hər bir Nic sakinin öz plantasiyası var. Nümayiş olunan predmetlər arasında dulusçuluq məmulatları çoxdur, belə ki, xristian udilər müsəlman qonşularından fərqli olaraq şərabçılıqla məşğul olmuşlar və şərabı əsasən saxsı qablarda saxlamışlar. Malikanənin həyətində udilərin zoğal və alçadan şərab çəkdikləri aparat var. Artıq heç kim çardaqda tütün qurutmur, şərabçəkmə prosesini isə yalnız turistlərə nümayiş etdirirlər. Qonaqlar birbaşa park muzeyin ərazisindəki evciklərdə qala bilərlər. Elə bu evciklərdə forumlar, konfranslar və dəyirmi masalar keçirilir.

Nic Azərbaycanda dövlət səviyyəsində keçirilən multikulturalizm kursunun nümunəsi adlandırılır. Bu kursun məqsədi ölkə daxilində müxtəlif mədəniyyətlərin birgə mövcudluğu və inkişafı üçün şərait yaratmaqdan ibarətdir. Udilər Pasxa və ya Miladı qeyd edəndə masa arxasında protestantlar, yəhudilər, pravoslavlar və müsəlmanlar da əyləşirlər. Qəsəbədə iki məscid fəaliyyət göstərir və üç kilsədən ikisi bərpa edilmişdir. Beş məktəbdən üçü rus, ikisi isə Azərbaycan məktəbidir.

2012-ci ildə “Heydər Əliyev Fondu” Nicdə 2 saylı tam orta məktəbi əsaslı təmir etmişdir: udilər burada rus dilində təhsil alırlar, lakin ana dilləri beşinci sinfə qədər tədris olunur.

Alban-udi xristian icmasının əsas missiyası – öz tarixini öyrənmək və təbliğ etməkdən ibarətdir. Qloballaşma və inteqrasiya əsrində öz mədəniyyətini qoruyub saxlamaq təkcə kiçik qrupların problemi deyil, udilər isə bu problemin həllinə dair nümunədir. Udilər heç vaxt təcrid olunmuş formada yaşamasalar da, digər daha böyük etnoslarla da qarışmamışlar. Bugün udilər öz ənənə, etiqad və dillərini qoruyub saxlamışlar və bunlar vasitəsilə öz etnoslarının biliklərini və mənəvi dəyərlərini nəsildən- nəslə ötürə bilmişlər.

“Heydər Əliyev Fondu” “Tolerantlığın ünvanı - Azərbaycan” layihəsi çərçivəsində 2020-ci ilin fevralında Nicdə Müqəddəs Məryəm Ana kilsəsində və kilsənin həyətində əsaslı təmir və bərpa işlərinə başlamış və COVID-19 pandemiyasına baxmayaraq noyabr ayına qədər işləri tamamlamışdır. Sovet dövründə kilsə anbar kimi istifadə olunmuş və tədricən dağılmışdı: günbəz uçmuş, damda otlar və ağaclar bitmiş, divarlar isə tökülməyə başlamışdı. İndi yeni konusşəkilli günbəzin üzərində alban xaçı yerləşdirilib - bu xaç digər kilsələrin xaçlarından fərqlənir. Dörd





Müqəddəs Yelisey kilsəsinin təntənəli açılışı və təqdis olunması (Cotari). 2006-cı il.



Açıq səma altında etnoqrafik muzeyin görüntüsü. Nic, 2021-ci il



«Udi mədəniyyət günü» bayramında (gənclərin milli rəqsi) 20 iyul 2019-cu il





15 may 2021-ci ildə Azərbaycan Prezidenti İlham Əliyev,
Birinci Vitse-prezident Mehriban Əliyeva və qızları Leyla Əliyeva
Müqəddəs Məryəm Ana kilsəsini ziyarət etdilər.

ucunun hər birində üç iti ləçək var: mərkəzdəki - məşəl dili, kənardakılar isə ayın buynuzlarıdır (oraqları). Bu naxışlar Aya və oda sitayiş edən Qafqaz Albaniyası xalqlarının bütpərəstlik inancının qalıqlarıdır. Fəhlələr divarlarda və qübbələrdə gil kameralar – zalın akustikasını yaxşılaşdırmaqla rezonator rolunu oynayan boş saxsı qablar tapmışlar. 2006-cı ildə Nicdəki üç kilsədən birincisinin əsaslı təmiri zamanı bu rezonatorlar yığışdırılmışdı lakin burada əvvəlki yerlərində saxlanıldı. Həmçinin kupellər kilsənin həyətinə qaytarıldı: həmin yerdə yerin altından eyni anda üç bulaq qaynayır. Əvvəllər onların qovuşduğu yerdə xaç suyuna salma mərasimi keçirilirdi. Bərpa olunmuş kilsə Azərbaycanın Alban-udi xristian icmasının istifadəsinə verilmişdir.

Bugün Azərbaycan müxtəlif konfessiya və mədəniyyətlərin tolerantlıq və əməkdaşlıq nümunələrindən biridir. Udilər İcmanın sədrinin simasında Ali Dini Məşvərət Şurasında, YUNESKO-nun sessiyasında, müxtəlif beynəlxalq konfranslarda, forumlarda və görüşlərdə təmsil olunur.

Son olaraq qeyd etmək lazımdır ki, dinlər və konfessiyalar arasındakı fərqlərə baxmayaraq, udilərin Qafqaz Albaniyası dövlətinin yaradılmasında, həmçinin güclü Şərq xristianlığı irsinin, etnik dilin, mədəniyyətin, adət və ənənələrin bugünədək qorunub saxlanılmasında rolu danılmazdır.

Udi kilsəsi bugün Alban Apostol Avtokefal Kilsəsinin ayrılmaz tərkib hissəsidir. Udilər azərbaycanlıların etnogenezinin möhkəmlənməsində də mühüm rol oynamışlar, bu səbəbdən udilər və azərbaycanlılar arasında əsrlər boyu davam edən genetik əlaqələr mövcuddur. Son onillikdə udi etnosu öz intibahının milli özünüdərkdə sıçrayış və etnosun konsolidasiyası ilə səciyyələnən növbəti pik mərhələsini yaşayır. Fərqli millətlər və müxtəlif konfessiyalar arasında harmonik münasibətlərin assosiasiya olunduğu konqlomerat, udilərin kompakt yaşadığı yerlər Azərbaycanın multikultural mühitində tolerantlıq modeli olaraq bu təzahürün parlaq nümunəsi və vahəsidir. Şübhəsiz ki, bu həm də əsrlərdən keçib gələn və bu qədim xalqın genlərində qorunub saxlanan böyük alban irsinin tarixi impulslarının nəticəsi və udilərə tarixi vətənləri olan Azərbaycanın etnomədəni məkan modelində öz nişasını təyin etmək və qoruyub saxlamaq şansı verən zamanın hökmüdür.





Müqəddəs Məryəm Ana Kilsəsinin əsaslı təmirdən sonra görünüşü





Dadivənk/Xudavənk Alban monastr kompleksi (Kəlbəcər). İşğaldan azad olunandan sonra udilərin ziyarəti

ƏDƏBİYYAT:


1. Алексеев М.Е., Майсак Т.А., Ганенков Д.С., Ландер Ю.А. Удинский сборник /грамматика, лексика, история языка/. М.: Изд-во “Академия” РАН (Институт языкознания и Институт востоковедения России), 2008, 446 с.
2. Бежанов М. Краткие сведения о Варташене и его жителях / СМОМПК, вып.XIV, 1892, с.213-262.
3. Ворошил Гукасян. Удинско-азербайджанско-русский словарь Баку: Элм, 1974, 260 с.
4. Гусейнов Р.А. Удины // ИРС («Наследие»). Международный журнал, №3 (33). М., 2008, с.22-25 www.udi.az
5. Данакари Р.А. Этническое бытие удин: опыт политико-философского и феноменологического исследования // Научный журнал. «Исторические, философские, политические науки, культурология и искусствоведения». Волгоград, 2013, с.60-66 www.udi.az
6. Джавадов Г.Дж., Гусейнов Р.А. Удины. Историко-этнографическое исследование. Баку: Элм, 1999, 256 с. (Azərbaycan dilində).
7. Дюма А. Путешествие на Кавказ /Перевод с фр. Г.Пашаева и Г.Аббасова на азерб. язык / Глава «Удины…». Баку: Элм, 1985, с.122-123.
8. Кечаари Г.А. Танец вокруг костра /Образцы удинского фольклора/. Гянджа: Изд-во «Агах», 2001, 78 с. (Azərbaycan dilində).
9. Мамедова Ф. Кавказская Албания и албаны Баку, 2005, 800 с.
10. Мобили Р.Б. Научная и общественная деятельность. Баку: Изд-во «Адильогды», 2008, 216 с.
11. Мобили Р.Б. Этнография удин // ИРС («Наследие»). Международный Азербайджанский журнал, №3 (33), М., 2008a, с.26-29 www.udi.az
12. Мобили Р.Б. Удины: язык, религия, фольклор и традиции// Культурологический журнал «Азербайджан и азербайджанцы в мире», №2, 2009, с.214-219.
13. Мобили Р.Б. Место и роль удин в Албанской (Кавказской) Церкви» / «European Applied Sciences: modern approaches in scientific researches» (Европейские прикладные науки: современные подходы в научных исследованиях). 18-19 февраля 2013 г., Штутгарт (Германия), с.234-236 www.udi.az
14. Раффи. «Меликство Хамсы. 1600–1827 гг. М.: Изд-во «ЮниПресс СК», 2009, 223с.
15. Мобили Р. Албано-удинская христианская община – основа возрождения Албанской (Кавказской) церкви в Азербайджане» / Труды Международной конференции «Место и роль Кавказской Албании в истории Азербайджана и Кавказа». Баку, 2012, с.165-172 www.udi.az
16. Мобили Р. Удинско–азербайджанско–русский словарь. Баку: Изд-во «Леман», 2010, 368 с.
17. Мобили Р. Удины: язык, религия и этнография». Баку: Изд-во «Леман», 2011, 80 с.
18. Флоренский П. Воспоминания прошлых лет. Генеалогические исследования. Из соловецких писем. Завещание. М.: 1992, 376 с.
19. РГИА (Росс. Государ. Истор. Архив): ф.796, оп.17, ед.хр.1821, лл.1-18 (1836 г.).
20. РГИА: ф.821, оп.150, ед. хр. 284, лл.33-42 (1914–1915 гг.).
21. РГИА: ф.821, оп.7, ед. хр. 232, лл.43 (1897–1910 гг.)
22. РГИА: ф.821, оп.138, ед. хр. 87, лл.1-19 и 106-110 (1810 г.)
23. РГИА: ф.735, оп.5, ед. хр. 269, лл.1-9 (1859 г.)
24. Mobili R. Geological interpretation of building materials of the historical Gabala–Sheki region in the ancient Caucasus Albania». DVD. 6–14 august 2008b. Oslo www.33igc.org
25. Gippert J., Schulze W., Aleksidze Z., Mahe J.P. The Caucasus Albanian Palimpsests of Mt.Sinai. Brepols, 2008, 2 vols., XXIV+530 p.



İNCƏSƏNƏT, MEMARLIQ

Hacıyeva Ülviyyə
AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun
"Etnoarxeologiya" şöbəsinin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru


AZƏRBAYCANIN TƏRTƏR VƏ KƏLBƏCƏR RAYONLARINDA ALBAN ABİDƏLƏRİ




Xəritə 1. E.ə. III əsrdə Albaniya



Xəritə 2. V–VIII əsrlərdə Albaniya



Xəritə 3. XI əsr – XII əsrin ortalarında Azərbaycan



Xəritə 4. XVI əsrdə Azərbaycan

Kürün sol sahilində və Qarabağda olan qədim alban abidələri Azərbaycanın etnomədəni irsinin tərkib hissəsidir.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Tərtər və Kəlbəcər rayonlarının ərazisi uzun əsrlər boyunca şimalda Dərbənddən cənubda Araz çayına, şərqdə Xəzər dənizindən Gürcüstan sərhədlərinədək uzanan bütün dövlət quruluşlarının tərkib hissəsi olub: Albaniya (e.ə. IV əsr – eramızın VIII əsri), Sacilər (IX–X əsrlər), Salarilər (X əsr), Şəddadilər (XI–XII əsrlər) [Шарифли, 1978, c.30-89, 344], Atabəylər–Eldənizlər (XII–XIII əsrlər) [Буниятов, 1978], Hülakülər, Cəlairilər (XIII–XV əsrlər) [Пириев, 1987, c.98-105; Пириев, 2005, c.59; Piriyev, 2002], Qaraqoyunlular, Ağqoyunlular (XV əsr) və Səfəvilər dövlətinin tərkib hissəsi olan Qarabağ bəylərbəyliyi (XVI–XVIII əsrlər) [Эфендиев, 1987, c.114; Карабах: история в контексте конфликта, 2014].

Bu regionun əhalisi fərqli etnosları əhatə edir və fərqli dinlərə sitayiş edirdi. Bu isə əsrlik tolerantlıq ənənələri yaradıb və müasir Azərbaycan multikulturalizminin əsasını qoyub. Yüzilliklər boyunca xristian və İslam mədəniyyətinin paralel formalaşması prosesi gedib və bu, onların müxtəlif sahələrə, o cümlədən memarlıq və fərqli incəsənət istiqamətlərinə qarşılıqlı təsirində öz əksini taparaq müasir Azərbaycanın zəngin etnomədəni irsini yaradıb.

Əcdadlarımız olan alban etnik təbəqəsi Azərbaycan xalqının etnogenezində vacib rol oynayıb, habelə bizə Kür çayının sol sahilində və Qarabağda zəngin tarixi-dini memarlıq nümunələrini (qalalar, monastır kompleksləri, kilsələr, sovməələr) miras qoyub.

Qeyd etmək lazımdır ki, 705-ci əsrdə alban dövlətçiliyinin süquta uğramasından sonra [Каланкат., III, 12, c.254] IX–XIII əsrlərdə yuxarıda qeyd edilmiş Azərbaycan dövlətlərinin tərkibində alban knyaz nəsillərinin davamçılarının rəhbərlik etdiyi kiçik alban çarlıqları-knyazlıqları yaranıb: Xaçında Atrnersex, Girdimanda Ketritç, Utidə Stepan Klia, Arranda Yesai Əbu Musa, Şəkidə, Arranda, Sünikdə Səhl ibn Sunbat [Каланкат., III, 22, c.278; Буниятов, 1965, c.184-194]. Xaçın hökmdarı Atrnersexin oğullarından biri, "Süniklilərin başçısı" Səhlin nəvəsi, "Kiçik Sünik və Ağvan" knyazı Mömin Qriqor Hammam 886-cı ildə "alban çarı olub darmadağın edilmiş alban çarlığını bərpa etdi", "kilsələr, ehtiyacı olanlar və yoxsullar üçün böyük və səxavətli işlər gördü" [Каланкат., III, 21]. Əl-Məsudiyə görə, onu "Şərqin böyük knyazı" və "alban çarı" adlandırırdılar, Asoqik Hammamı eyni zamanda "Ağvan çarı" adlandırırdı. Qriqor Hammamın hökmdarlıq etdiyi ərazi qərbdə Göyçə gölünün şərq sahilindən şərqdə Partav (Bərdə) şəhərinin girişinə qədər uzanırdı [Каланкат., III, 22;

Буниятов, 1965, с.189]. Arsax və qismən Uti əyaləti onun oğlu Saak Sevada keçdi və onun hökmdarlığı XI əsrədək davam etdi [Каланкат., III, 21, 22]. O, Uti əyalətində Girdiman vilayətini, Arsax əyalətində Kosti və Parnas vilayətlərini, habelə Arrat əyalətində Tsoroqet (Şirak) vilayətini özünə tabe etdi. XII əsrin sonlarında Qarabağda Xaçın-çay və Tərtər çayının hövzəsində Arsax–Xaçın knyazlığı yarandı. Bu knyazlığın yaranması əcdadları Mehranilər sülaləsinə qədər uzanan alban knyazı Həsən Cəlalın (1214–1261) hakimiyyətə gəlməsi ilə əlaqədar idi [Орбели, 1909, с.429; Орбели, 1963, с.157-158; Орбели, 1968, с.213; Mammedova, 1991, p.307-310; Мамедова, 2005, с.75, 223, 408-410]. O, yazılı mənbələrdə "knyazlar knyazı", "böyük çar", "Xaçın ölkəsinin knyazı", "Xaçın və Arsax ölkələrinin böyük knyazı", "Albaniya çarı", "Albaniyanın böyük hökmdarı" adlandırılır [Мамедова, 2005, с.408-413]. Daha sonra alban knyaz nəsillərindən gələn hökmdarlar XVIII əsrin sonlarınadək Qarabağda feodal torpaqlarının sahibi olub. Bu torpaqlar XV əsrdən məlikliklər adlandırılmağa başlayıb (Gülüstan, Ceraberd, Xaçın, Vərəndə, Dizaq) [Раффи, Mustafazadə, 2010, s.125-127].

Qeyd etmək lazımdır ki, Azərbaycanın hazırkı Tərtər və Kəlbəcər rayonlarında yer alan, aralarında alban Xaçın, Aterk və Ceraberd knyazlarının qalaları, alban katolikoslarının müstəqil patriarxlığı dövründə ucaldılmış monastırlar, kilsələr və sovməələr olan bütün qədim alban tarixi abidələri V–XIII əsrlərdə, bəziləri isə XVII əsrdə inşa edilib.

XVIII əsrin ikinci yarısında yaranmış Qarabağ xanlığı [Алиев, 1987, с.133, 136-138; Mustafazadə, 2010, s.28-51] 1805, 1813 və son olaraq 1828-ci ilin Türkmənçay müqaviləsi ilə Çar Rusiyası tərəfindən ilhaq edildi.

XIX əsrin sonu – XX əsrin əvvəllərində həyata keçirilmiş siyasi–inzibati islahatlar nəticəsində hazırkı Tərtər və Kəlbəcər rayonlarının ərazisi Yelizavetpol quberniyasının 1873-cü ildə təşkil edilmiş Cavanşir qəzasının tərkibinə daxil edildi [КК на 1878 год, 1877, с.323, 326, на 1910 год. Ч.1, 1909, с.483; ЭСБЕ, Т.Ха (1893), с.528, Мильман, 1966, с.157].

Cavanşir qəzası eyni zamanda Azərbaycan Demokratik Respublikasının (1918–1920) da tərkibinə daxil idi.

28 aprel 1920-ci il tarixində yaranmış Azərbaycan SSR-in tərkibində yaradılmış Cavanşir qəzası Tərtər sahəsini əhatə edirdi (1920–1922). 1922-ci ildə Tərtər sahəsinin adı dəyişdirilərək Cavanşir sahəsi qoyuldu və ərazi Ağdam qəzasının (1923–1929), daha sonra isə Qarabağ dairəsinin (1929–1930) inzibati tabeliyinə keçdi.

8 avqust 1930-cu ildə keçirilmiş inzibati-ərazi islahatı nəticəsində Kiçik Qafqazda Tərtər rayonu vadisində Kəlbəcər rayonu və Kür–Araz ovalığının qərb hissəsində, Tərtər, İncəçay və Xaçın-çayın axdığı ərazidə mərkəzi Tərtər şəhəri olan Tərtər rayonu yaradıldı. Ərazi bir neçə dəfə adı dəyişdirildikdən sonra 7 fevral 1991-ci ildən etibarən yenidən "Tərtər rayonu" adlandırılmağa başladı.

1923-cü ildə Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldı, vilayət 1936-cı ildə DQMV adlandırıldı [К истории образования НКАО, 1989]. Cavanşir dairəsinin bəzi kəndləri vilayətin Mardakert rayonunun tərkibinə daxil edildi.

5 fevral 1991-ci il tarixində Azərbaycan SSR Ali Soveti 4-XII nömrəli qərarı ilə respublikanın adının "Azərbaycan Respublikası" kimi dəyişdirilməsi haqqında qanun qəbul etdi.

1991-ci il avqustun 30-da Azərbaycanın Ali Sovetinin sessiyasında "Azərbaycanın dövlət





Xəritə 5. Şimali Azərbaycanın Çar Rusiyası tərəfindən işğal edilməsi.

müstəqilliyinin bərpası” haqqında Bəyannamənin qəbul edilməsi ilə prezident tərəfindən idarə edilən parlament respublikası yaradıldı.

26 noyabr 1991-ci il tarixində Azərbaycan Respublikası Ali Sovetinin qəbul etdiyi qanunla Dağlıq Qarabağ Muxtar Vilayəti inzibati ərazi vahidi ləğv olundu [Цуциев, 2006, с.90] və Mardakert rayonu Ağdərə rayonu adlandırıldı, mərkəzi Ağdərə şəhərində (keçmiş Mardakert şəhər tipli qəsəbəsi) yerləşdi. Rayonun tərkibinə Ağdərə şəhəri, 2 şəhər tipli qəsəbə (Madagiz və Leninavan), habelə təqribən 61 kənd daxil edilmişdi. Leninavan 1991-ci il dekabrın 29-da Şıxarx adlandırıldı.

Azərbaycan Respublikası Milli Məclisinin 25 avqust 1992-ci il tarixli 287 saylı sərəncamı ilə Ağdərə rayonunun Şıxarx, Həsənqaya, Çaylı, Seysulan, Talış, Qarmiravan və Maqavuz yaşayış məntəqələri Tərtər rayonunun tərkibinə daxil edildi.

13 oktyabr 1992-ci il tarixli 327 saylı sərəncamla Ağdərə rayonu inzibati–ərazi vahidi ləğv edildi və rayonun ərazisi Tərtər, Kəlbəcər və Ağdam rayonları arasında bölüşdürüldü [Azərbaycan Respublikasının inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarı. №327. Bakı şəhəri, 13 oktyabr 1992-ci il].

13 oktyabr 1992-ci il tarixli qərara əsasən, Tərtər rayonunun tərkibinə 28 yaşayış məntəqəsi, o cümlədən Ağdərə şəhəri, bir qəsəbə və Umudlu, Zəylik, Metsşen (Ulu Qarabəy), Möhrətağ (hazırda Kiçik Qarabəy), Ağabəyələnc (Ağabəyyalı), Mağavuz (Çardaqlı), Akop Kamari (Lüləsaz), Minqrelsk (Meqrelalay), Nerkin Oratağ (Aşağı Oratağ), Qasapet, Canyataq, Dəmirli, Gülyataq da daxil olmaqla bir sıra kəndlər daxil edildi. Bu kəndlərin bəzilərində qədim alban abidələri günümüzə qədər qalmaqdadır.


Bütün Qarabağın (dağlıq və düzənlik) erməni silahlı qüvvələri tərəfindən təqribən 30 illik müddətdə işğal edilməsindən sonra 2020-ci ilin payız aylarında Şanlı Azərbaycan Ordusu Azərbaycan Prezidenti və Ali Baş Komandanı, böyük sərkərdə İlham Əliyevin rəhbərliyi altında 44 gün ərzində (27 sentyabr–10 noyabr) Cəbrayıl şəhəri daxil olmaqla Cəbrayıl rayonunu (04.10.2020), Füzuli şəhəri daxil olmaqla Füzuli rayonunu (17.10.2020), Zəngilan şəhəri daxil olmaqla Zəngilan rayonunu (20.10.2020), Qubadlı şəhəri daxil olmaqla Qubadlı rayonunu (25.10.2020), Xocalı rayonunun bir sıra kəndlərini (27.09.2020; 07-09.11.2020), Hadrut şəhərini (09.10.2020) və Xocavənd rayonunun bir sıra kəndlərini (14-16, 20, 23, 27-31.10.2020; 07-09.11.2020) və Qarabağın incisi – Şuşa şəhərini (08.11.2020) azad etdi.

10 noyabr 2020-ci il tarixli üç tərəfli bəyanatı ilə Ağdam şəhəri daxil olmaqla Ağdam rayonu (20.11.2020), Kəlbəcər şəhəri daxil olmaqla Kəlbəcər rayonu (25.11.2020), Laçın şəhəri daxil olmaqla Laçın rayonu (01.12.2020), habelə Xocavənd, Xocalı, Tərtər rayonları və Xankəndi (10.11.2020) Azərbaycana geri qaytarıldı, onların bir hissəsi hazırda rus sülhməramlılarının nəzarəti altındadır.


Vətən Müharibəsi zamanı 3 oktyabr 2020-ci il tarixində Tərtər rayonunun Madagiz kəndi Azərbaycan Silahlı Qüvvələrinin ixtiyarına keçdi və 7 oktyabr 2020-ci il tarixli sərəncamla kəndin tarixi adı bərpa edilərək Suqovuşan adlandırıldı. 9 oktyabrda Çaylı kəndi işğaldan azad edildi. Ümumilikdə, 2020-ci ilin payızında Azərbaycanın Tərtər rayonunun şimal-



Xəritə 6. Yelizavetpol quberniyasının Cavanşir qəzası. 1903-cü il



Xəritə 7. ADR (1918–1920)



Xəritə 8. Azərbaycan SSR. 1920-ci il

şərqində Suqovuşan, Talış, Şıxarx, Çaylı, Həsənqaya kəndləri üzərində nəzarəti bərpa edildi.

Hazırda Azərbaycan Respublikasının inzibati-ərazi bölgüsünə əsasən, Tərtər rayonu 2 şəhəri (Tərtər və Ağdərə), qəsəbə və 74 kəndi özündə birləşdirir [İnzibati ərazi bölgüsü təsnifatı, 2020, c.95-96]. Lakin Qızıloba və Seysulan kəndləri təmas xəttində yerləşir, bir qismində qədim alban abidələrinin olduğu 18 yaşayış məntəqəsi isə rus sülhməramlılarının nəzarəti altındadır.

XX əsrin bir neçə onilliyi ərzində və XXI əsrin əvvəlində Azərbaycan tarixçiləri, memarları, arxeoloqları, antropoloqları, mədəniyyətşünasları Qarabağda yerləşən bütün qədim alban abidələrini dərindən araşdırmaq imkanına malik olmayıb. Bu abidələr haqqında məlumat VIII–XIX əsrlərin yazılı mənbələrində və bəzi nəşr edilmiş əsərlərdə saxlanılıb. DQMV hakimiyyəti azərbaycanlı alimlərin ərazidə tədqiqatlar aparmasına mane olmuş, eyni zamanda Qarabağa dəfələrlə səfərlər etmiş Ermənistan alimlərinin cəlb edilməsi ilə alban abidələrinin məqsədli qriqorianlaşdırılması prosesini həyata keçirmişdir. Bu zaman: 1) abidələrdə orijinal epiqrafik mətnlərin silinməsi və onların ermənilərə mənsubluğu göstərən mətnlərlə əvəz edilməsi; 2) alban xaçlarının erməni xaçları ilə əvəz edilməsi və alban xaçlarının qanunsuz şəkildə Ermənistana aparılması və muzeylərdə erməni irsi kimi nümayiş etdirilməsi; 3) alban monastırları və bir sıra böyük kilsələrdə erməni xaçlarının quraşdırılması müşahidə olunub. İşğal dövründə Qarabağda müsəlman mədəniyyətinin demək olar ki, bütün abidələri vəhşicəsinə məhv edilib, xarici alimlərin iştirakı ilə qanunsuz arxeoloji qazıntılar aparılıb və burada aşkar edilmiş, müxtəlif dövrlərə (paleolit, neolit, bürünc və s.) aid olan artefaktlar Ermənistana aparılaraq erməni mədəniyyətinə məxsus artefaktlar kimi nümayiş etdirilib. Alban məbədlərinə erməni-qriqorian görünüşünün verilməsi məqsədilə Qarabağın bir sıra iri monastır və kilsələrində təmir işləri aparılıb (restavrasiya olmayıb), halbuki VIII–XIX əsrlərə aid yazılı mənbələrdə verilmiş məlumatlar bu monastır və kilsələrin alban mədəniyyətinə məxsus olduğunu göstərir. Çox sayda kiçik alban kilsələri və sovməələrinə gəldikdə isə onlara münasibətdə tam etinasızlıq göstərilib. Abidələrin divarlarında dini məbədlərdə yazılması yolverilməz olan rus və erməni sözləri yazılıb, bu da alban irsinin erməni etnomədəni irsinin bir hissəsi olmadığını bir daha sübut edir.

Qarabağın müsəlman və alban dini irsi ilə əlaqədar bütün siyasət sadəcə bir məqsəd daşıyıb – bütün beynəlxalq hüquqların pozulması ilə Qarabağ (dağlıq və düzənlik) ərazisinin zorla mənimsənilməsi və bu torpaqların qanunsuz şəkildə Ermənistana birləşdirilməsi.

Qeyd etmək lazımdır ki, Azərbaycanın hazırkı Tərtər rayonunun ərazisində aşağıdakı qədim alban məbədləri yerləşir.

Orta əsrlərdə Urekan adlandırılan **Talış kəndinin** adı Musa Kalankatlının "Alban tarixi" əsərində çəkilir və ***Qlxovank/Ürəkvəng*** monastırının adı bu addan qaynaqlanır. Orta əsrlərin sonlarında bu kənd Gülüstan məlikləri olan, Raffinin verdiyi məlumatda etnik udin mənşəli olduğu göstərilən Bəylərovların iqamətgahı olub.

Qlxovank/Ürəkvəng monastırı (V əsr) Talış kəndinin arxasındakı meşəli dağın şimal yamacında ucaldılıb. Monastırın adı (qlxo- baş, vank- məbəd) "Alban tarixi" əsərində qeyd edilən, Müqəddəs Yeliseyin nəşinin əldə edilməsi ilə bağlı əfsanə ilə əlaqədardır. Bu monastır nəşin üzərində, daha qədim kilsənin yerində inşa edilib. Bunu Kalankatlının və yepiskop Barxudaryanın bir qrup keşişin Müqəddəs Yeliseyin nəşini Homenk kəndində (hazırda Qəbələ rayonunun Bum kəndi) tapmasından sonra



Xəritə 9. Tərtər rayonu



Xəritə 10. Qarabağ

Urekan kəndindən olan keşiş Stefanın onun başını oğurlayaraq öz kəndindəki məbədə gətirməsi, daha sonra müqəddəsin bədəninin də Qəbələdən bura, yəni Qarabağa gətirilməsi haqqında verdiyi məlumatlar da təsdiq edir. Daha sonra Müqəddəs Yeliseyin cəsədi Ners-Mihr/Cirviştek monastırına gətirilib və monastır sonradan ***Müqəddəs Yelisey monastırı (Yeğişe Arakel monastırı)*** adlandırılıb [Каланкат., I, с.7-8; Бархударянц, 1893, с.256, 280]. Qlxovank/Ürəkvəng monastır kompleksinə kilsə binası, narteks, zəng qülləsi, geniş məzarlıq və qala divarları ilə əhatə olunmuş, digər yarımdağılmış vəziyyətdə olan binalar daxildir. Girişin üzərində olan, XIX əsrin sonlarınadək qalmış yazı göstərir ki, monastır XIII əsrdən öncə tikilib [Бархударянц, II, 241]. Barxudaryan bildirir ki, "narteksdə bir çox yepiskopların və dyakonların cəsədi dəfn edilib, buna görə də, döşəmə qəbir daşları ilə örtülüb. Burada yalnız rahiblər dəfn edilməyib. Böyük Bəylərovlar nəslindən olan şəxsiyyətlərin qəbirləri möhtəşəm abidələr, uzun yazılar və naxışlı qəbirüstü daşlar da məzarlar arasında xüsusi yer tutur [Бархударянц, II, 241-242].

Monastırdan şimalda Gülüstan məliklərinin ***iqamətgahı olan,*** XVIII əsrin əvvəllərində inşa edilmiş, Qaraburq (dördbürclü) adı altında tanınan divarla əhatə olunmuş bürclü kompleksdən ibarət ***qala*** yerləşir [Бархударянц, II, с.231; Мкртчян, 1988, с.59-61].

V əsrə aid Müqəddəs Yelisey monastırı (Yeğişe Arakel monastırı) Murovdağın ətəklərində alban çarı III Mömin Vaçaqan tərəfindən tikilib. Monastır "Alban tarixi" əsərində Ners-Mihr/Cirviştek qardaşlığının müqəddəs məkanı adlandırılır. Məbədin adına Müqəddəs Yeliseyin adının əlavə edilməsi onun müqəddəs nəşinin yuxarıda qeyd edildiyi kimi buraya köçürülməsi ilə əlaqədardır [Каланкат., I, с.7-8]. Kompleksə kafedral kilsə, yeddi sovmə, qədim məzarlıq və digər dağılmış tikililər daxildir. Kilsənin hər iki tərəfində dəfn yeri kimi istifadə edilən üç sovmə yerləşir. Bunlardan birində III Vaçaqanın məqbərəsi, digər ikisində isə Ceraberd məliyi Atamın və yepiskop Məliksetin məzarı yerləşir. Barxudaryanın verdiyi məlumata görə, "üçüncü sovməədə Ağvan çarı III Vaçaqanın məzarı yerləşir. Məzarın üzərində çox böyük ustalıqla hazırlanmış və hamar cilalanmış (1m 60 sm uzunluğunda), lakin yazısız qəbir daşı var. Qəbir daşının yanında yalnız qədimliyi ilə deyil, qədim heykəltəraşlıq sənətinin memarlıq formaları ilə seçilən xatirə xaçı yerləşdirilib. Yeganə ibadətgah yeri olan sovməənin ön tərəfindəki daşda "Bu, III Vaçaqanın məzarıdır" yazılıb". Monastırın yaxınlığında Uxti-matur sovməəsinin xarabalıqları yerləşir [Бархударянц, II, с.246-249].



Müqəddəs Yelisey monastırı (Cirviştek)

Yaxınlıqda yerləşən Tutot kəndində ***Kotrats Yextsi kilsəsi*** (XIII əsr) inşa edilib [Мкртчян, 1988, с.56-57].

Anapat monastırı (səhra monastırı) Ceraberddən şimal-qərbdə inşa edilib və birnefli zal kilsəsindən və rahib hücrələrindən ibarətdir.

Erek Mankunk/Erits mankants monastırı (Üç körpə monastırı) Ceraberdin yaxınlığında yerləşir və XVII əsrdə inşa edilib. Barxudaryanın verdiyi məlumata





Erek Mankunk/Erits mankants monastırı (Üç körpə monastırı)

görə ibadətgahın fasadında "...bu kilsənin əsası İsa Məsihin şərəfinə 1113-cü ildə (1664) qoyulub..." yazısı, girişin üzərindəki daşda isə "Böyük fars çarı Süleyman şahın dövründə, 1140-cı ildə (1691), mən, Tanrının lütfü ilə Ağvan katolikosu olmuş Simeon bu kilsəni tikdim..." yazısı var [Бархударянц, II, c.244-245]. Tikili asimmetrik konstruksiyaya malik üçnefli, qübbəli kilsə zalından ibarətdir.

Suqovuşan kəndi (Madagiz) orta əsrlərdə onun şimal–qərb hissəsində Müqəddəs Yelisey kilsəsinin tikilməsi ilə məşhurdur.







Müqəddəs Yelisey kilsəsi

Talış və Suqovuşan (Madagiz) kəndlərinin arasındakı meşədə yerləşən **Dütakan kəndi** alban çarı III Mömin Vaçaqanın yay iqamətgahı olub. Burada XII əsrə aid kilsənin xarabalıqları var [Бархударянц, II, c.242].

Mağavuz kəndi (Çardaqlı). Hesab edilir ki, "Alban tarixi" əsərinin müəllifinin doğma kəndi, erkən orta əsrlərdə kilsə, ya da monastırın yerləşdiyi qədim Kalankat qəsəbəsi bu kəndin özündə, ya da onun yaxınlığında olub. Alban çarı III Vaçaqanın çağırdığı V əsrin Aquen kilsə məclisində "Kalankat hiyereyi"nin iştirak etməsi haqqında məlumatlar da bunu təsdiq edir [Каланкат., I, 26, c.66]. Ç.Douset V.B.Heninqin rəyinə əsaslanaraq hesab edir ki, Kalankatlı təxəllüsü Musanın da üzv olduğu Kalankat monastırının adı ilə əlaqədardır [Dowsett. C.J.F. The Albanians Chronicle of Mkitar Gos. BSOAS, XXI, 1958, p.476; p.XIX; Мамедова, 2005, c.32].

Mağavuz və Metsşen kəndlərinin arasında Xanəgah adlandırılan yerdə Kaxakatex şəhərciyinin xarabalıqları var. Xarabalıqların arasında ***Ceraberd məliklərinin sarayı*** yerləşir [Бархударянц, II, c.232, 235; Мкртчян, 1988, c.52, 58].

Ceraberd **məliklərinin daha iki sarayı** Möhrətağ kəndində (hazırda Kiçik Qarabəy) və Mayrakaxak adlı yerdə tikilmişdi – ***Kalakateqi qalası*** [Бархударянц, II, c.234, 251], habelə Tərtər çayı və Turağayçayın qovuşduğu yerdə qayanın zirvəsində inşa edilmiş ***Ceraberd qalası*** [Бархударянц, II, c.251-252].



Ceraberd qalası

XVII əsrdə Metsşen kəndində dörd sütunun üzərində daşdan ***Müqəddəs Georgi kilsəsi*** inşa edilmişdir [Бархударянц, II, c.231]. XIII əsrdə Qasapet kəndində su ilə dolu dar dərənin sol yamacında dörd sütunun üzərində daşdan **Müqəddəs Məryəm kilsəsi** tikilib [Бархударянц, II, c.227]. Beşikdağda ***VII əsrə aid kilsə***, Şahbulaqdan şərqdə isə alban knyazı Hammamın qüllələrinin xarabalıqları yerləşirdir [Мкртчян, 1988, c.64].

Hazırda Azərbaycanın Kəlbəcər rayonu Tərtər, Ağdam, Xocalı, Laçın, Daşkəsən, Göygöl, Goranboy rayonları ilə həmsərhəddir və rəsmi olaraq Kəlbəcər şəhərini, İstisu şəhər tipli qəsəbəsini və 145 kəndi əhatə edir [İnzibati ərazi bölgüsü təsnifatı, 2020, c.63-64].

1980-ci ilin məlumatlarına görə, rayon (1936 kv. km) Kəlbəcər şəhəri, İstisu qəsəbəsi və 122 kəndi əhatə edirdi. Əhalisi 40,3 min nəfərdən ibarət idi: azərbaycanlılar (103 kənd), kürdlər (7 kənd), ayrımlar (12 kənd)[1].



Xəritə 11. Kəlbəcər rayonu

Beləliklə, Kəlbəcər rayonu ərazisində qeyd edilən ərazi sərhədləri daxilində ermənilər 1992-ci ilədək ümumiyyətlə yaşamayıb.

Qeyd etmək lazımdır ki, azərbaycanlıların yaşadığı Günəşli, Qasımlar, Daşbulaq, Hacıkənd və Qanlıkənd kəndlərində alban abidələri saxlanılıb. Günəşli və Qasımlar kəndləri 1992-ci ilədək *Kilsəli* adlanırdı, çünki hər bir kəndin ərazisində bir neçə alban kilsəsi var idi. Daşbulaq kəndinin də əvvəlki adı *Kilsəli* idi, çünki burda da alban kilsəsi var idi. Hacıkəndin əvvəlki adı *Sınıqkilsə* idi və bu, kənd ərazisində alban kilsəsinin xarabalıqlarının yerləşməsi ilə əlaqədar idi.

Lev, Knəravan da adlandırılan Qanlıkəndin yaxınlığında alban knyazı Atrnersexin IX əsrdə meşəli və dik dağın zirvəsində, Levçayın sağ sahilindən 600 m məsafədə tikdirdiyi ***Andaberd/Handaberd qalasının*** xarabalıqları var. Qala yerləşdiyi yerlə əlaqədar olaraq Lex və Lok da adlandırılır. Qalaya aparan cığır şimal tərəfdən başlayaraq cənub-qərbdəki qala divarının altından uzanır. Qalanın ərazisində bir neçə daş kitabə qalıb. Yazılardan biri burada "ağvan katolikosu Stepannos"un dəfn edildiyini göstərir. Alban kilsəsinin bu adda beş patriarxı bizə məlumdur: I (993–1079), II (1129–1131), III (1155–1195), IV (1262–1323), V (təqribən 1476) [Никоноров, 2005, с.181].



Andaberd/Handaberd qalası

Bu qaladan şərqdə, Levçayın sağ sahilindən 0,5 km cənubda, meşəli dağlarla əhatə olunmuş vahənin ortasında ***Andaberd monastırının*** xarabalıqları yerləşir. Monastır əhəng məhlulu ilə cilalanmamış və kobud cilalanmış daşlardan tikilib və qübbəli kilsədən və sovməədən ibarətdir.



Andaberd monastırı

13 oktyabr 1992-ci il tarixli 327 saylı sərəncamla, Ağdərə rayonunun 23 kəndi Kəlbəcər rayonunun tərkibinə əlavə edilib. Bu kəndlərdən bəzilərində qədim alban abidələri vardı: Çərəkdar, Qozlu (Vaqauz), Kotavan, Yuxarı Oratağ (Verin Oratağ), Qızılqaya (Arutunaqomer), Yayıcı (Qoço-

[1] *Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. İki cilddə. I. Bakı: Şərq-Qərb, 2007;*
Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. İki cilddə. II. Bakı: Şərq-Qərb, 2007;
Kəlbəcər rayonu /Azərbaycan Sovet Ensiklopediya. T.V. / Red. C.Quliyev. Bakı: Azərbaycan Sovet ensiklopediya baş redaksiyası, Bakı, 1981, s.334.

qot), Dəvədaşı (Poqosoqomer), Heyvalı (Drmbon), Çıldıran, Mehmana, Dovşanlı (Araçadzor), Hayad, Bazarkənd (Tomaqahoq), Şahmansurlu (Şahmasur), Vəngli (Vanklu), Çormanlı (Qarnakar), İmaret Garvend, Zardaxaç, Çapar, Həsənriz (Aterk), Narınclar (Nareştar), Damğalı, Kolatağ. Nəticədə bu rayon 3050 km² ərazini və 145 kəndi əhatə edirdi.

Lakin 1993–2020-ci illərdə Kəlbəcər rayonu silahlı ermənilər tərəfindən işğal edildi və Şaumyan rayonu adlandırıldı: bir sıra Azərbaycan kəndləri və Ağdərə rayonunun 23 kəndi (1992-ci ilin qərarı ilə) Mardakert adlandırılmış rayonun tərkibinə daxil edildi.

Azərbaycan Respublikasının Prezidenti və Ali Baş Komandan İlham Əliyev 25 noyabr 2020-ci il tarixində Azərbaycan xalqına etdiyi müraciətində Kəlbəcər rayonunun Azərbaycan ordusunun tam nəzarətinə keçdiyini bildirdi. Qaytarılmış kəndlər arasında Qılınclı, Nadirxanlı, Qamışlı, Zülfüqarlı, Bağlıpəyə, Qanlıkənd, Zar, Seyidlər, Almalıq, Sınıqkilsə, Çaykənd var idi. Mardakert rayonunun tərkibinə daxil edilmiş 23 kənddən isə (1992-ci ilin qərarı ilə) yalnız 17 kənd qaytarıldı. Hazırda Vəngli, Çərəkdar, İmaret Garvend, Çapar, Damğalı, Zardaxaç, Kotavan kəndləri rus sülhməramlılarının nəzarəti altındadır.

Kəlbəcər rayonunun indiki ərazisində aşağıdakı alban tarixi-mədəni abidələri var:

Vanklu (Vəngli) kəndi. Bu kənddə alban knyazı Həsən Cəlal 1216–1238-ci illərdə Müqəddəs Vəftizçi İohannın şərəfinə ***Qandzasar monastırını*** tikdirib. Monastırın inşa kitabəsində yazılıb: "mən, Tanrının xidmətçisi, Həsən Dövlə, Vaxtınqın oğlu, Böyük Həsənin nəvəsi, geniş əyalətləri olan Xoxanaberdin çarı... Atam, ölümü və digər dünyaya köçməsindən əvvəl mənə və anam Xorişəyə, atalarımızın məzarı olan Qandzasarda bu kilsəni inşa etməyi vəsiyyət etdi, biz də inşaata 665-ci ildə (1216) Ruzi verənin köməkliyi ilə başladıq... Bu kilsə, 689-cu ildə (1240) Alban Katolikosu ter-Nersesin hakimiyyəti dövründə ithaf edildi" [Бархударянц, I, с.154-156, 160, примеч. 403]. Knyaz Həsən Cəlal məbədə geniş əkin torpaqları, çoxlu gümüş qab-qacaq hədiyyə edib və bu hədiyyələr yazıda ətraflı şəkildə sadalanır. Bu monastır Xoxanaberd qalasının qarşısında, IX–X əsrlərə aid daha qədim kilsənin [Орбелян, 1910, с.278-279] və Xaçın knyazlarının məqbərəsinin yerində tikilib. 1261-ci ildə Arqun ağanın əmri ilə Qəzvində öldürülmüş Həsən Cəlalın nəşi oğlu Atabəy tərəfindən gətirilib və burada dəfn edilib [Бархударянц, I, с.157, примеч.19, 403]. Qandzasar monastırı 1836-ci ilədək Alban katolikosunun mərkəzi olub. Katolikosun sonuncu patriarxı 1828-ci ildə burada dəfn edilmiş Sargis (Sergey) Həsən Cəlal olub [Бархударянц, I, с.5-6; Мкртчян, 1988, с.14-18; Мамедова, 2004, с.29]. Monastır, yepiskop Barxudaryanın da verdiyi məlumatlara görə, narteksdə dəfn edilmiş alban katolikoslarının məqbərəsi rolunu oynayıb: "ağvan katolikosu Qriqori, 1120-ci il (1653)"; "bu, Cəlal Dövlənin nəslindən olan ağvan katolikosu Yeremiyanın qəbridir, 1149-cu il (1700)"; "bu, Cəlal Dövlənin nəslindən olan ağvan katolikosu Yesayinin qəbridir, 1177-ci il (1728)"; "katolikos Ovannes" [Барх, ч.I, 157]; "Bağdasar bəyin oğlu katolikos David"; "bu, Cəlal Dövlənin nəslindən olan ağvan katolikosu Ovannesin qəbridir, 1235-ci il (1786)"; "bu, ağvan katolikosu Sargisin qəbridir, 1277-ci il (1828)"; burada eyni zamanda "Arsax ölkəsinin hökmdarı böyük knyaz Cəlalın nəslindən olan, Ağvan Evinin başçısı, İmperatorun arxipastırı, mitropolit Bağdasarın (1303-cü il (1854))" qəbri var [Бархударянц, I, с.157].



Qandzasar (Gəncəsər) monastırı

Həsən Cəlalın sarayı/Xoxanaberd qalası və ya Tarxan qalası Həsən Cəlal tərəfindən dağın zirvəsində, Qandzasar monastırının qarşısında, Vanklu kəndinin yaxınlığında knyazın iqamətgahı kimi tikdirilib. Qalanın içində sarayın xarabalıqlarından bir neçə metr məsafədə orta ölçülü ***2 kilsə-bazilika*** var. Yepiskop Barxudaryan XIX əsrin sonlarında qeyd edirdi ki, bu, "qala divarlarına birləşən və əhəng məhlulu ilə daşdan tikilmiş çox sayda otaqdan ibarət olan geniş binadır". Cəlal Dövlənin sarayında ən cəlbedici yer giriş və dövrün memarlıq üslubunu əks etdirən otaqlardan biridir. Otaqların möhkəm,

hündür divarları və qübbəvarı tavanı var. Cilalanmış çivlərdən hazırlanmış dəstəkləyici tağlar incə və zərif konstruksiyaya malik dayaqlara söykənir. Dar pəncərələrin sayı çox azdır. Otaqların dəqiq sayını müəyyən etmək mümkün olmayıb, çünki bütün otaqlar sıx kolluqla, ağaclarla və moruq kolları ilə örtülüb. Kolluqları təmizləmədən araşdırma aparmaq mümkün deyil" [Бархударянц, II, с.210]. O vaxtdan bəri bu qədim alban abidəsi bünövrəsinə qədər dağılıb.







Həsən Cəlalın sarayının/Xoxanaberd (Xanabert) qalasının qalıqları

Qaladan 30 metr aralıda **müşahidə qülləsi** olub.

Qalanın yanında Həsən Cəlalın qızı Ruzan xatunun **sarayının xarabalıqları** var.

Qaladan şimalda, mənzərəli qayalı təpədə Həsən Cəlalın nəslinə aid **Darpasner sarayının qalıqları** var. Bu knyaz sarayının memarlıq xüsusiyyətləri daha sonra Qarabağ məliklərinin saraylarının tikintisi zamanı istifadə edilib. Analoji **iki bazilika** Darpasnerin yaxınlığında, Xaçın çayının sol sahilində, Keraxani Art adlanan yerdə tikilib [Мкртчян, 1988, с.20-23].

XII əsrə aid **Avaptuk monastır kompleksi** (kiçik kilsə, narteks və kiçik sovmәə) Qandzasardan 5 km cənubda, dağın zirvəsində ucaldılıb. Barxudaryanın verdiyi məlumata görə, XIX əsrin sonlarında kiçik səcdəgahın qapısının çöl tərəfindəki yazı saxlanmışdı: "612-ci ildə (1163) Vaxtanqın və Mama-xatunun oğlu Həsənin knyazlığında mən, Qriqorinin qohumu İohann və Qevorkun qohumu və digər rahiblər ruhlarımızı xilas etmək və valideynlərimizin xatirəsini anmaq adına bu kilsəni ucaltdıq" [Бархударянц, I, с.161]. Başqa yazıya görə, kilsə 1223-cü ildə Həsən Cəlalın dövründə bərpa edilib. Avaptuk monastırı knyaz nəslinin dəfn yeri olub.

Qandzasarın yaxınlığında ***Mukdisi kilsəsi*** tikilib, Vəng kəndindən cənub-qərbdə isə yanında kilsəsi olan ***Ruzan qalası*** (Həsən Cəlalın qızının adlına) (XIII əsr) yerləşib.



Avaptuk monastırı

Həsən Cəlalın 1229-cu ildə kilsə tikdirdiyi ***Vaçar şəhər tipli qəsəbəsinin xarabalıqları*** Qandzasardan şərqdə yerləşir. Kilsənin cənub divarına bitişik ***Vaçar-Tsmakaox*** adlı kiçik sovmәə (Müqəddəs Stepanos kilsəsi və Mank kilsəsi) var [Мкртчян, 1988, с.23-24].


Kolatağ kəndi Xaçının ən qədim qəsəbələrindən biridir, buradakı alban abidələri IX–XVIII əsrlərə aiddir. Kənddə XII əsrə aid ***sovmәə*** və xaçdaşın xarabalıqları var. Kəndin ətrafında, təpələrin başındakı meşələrdə XII əsrin ***Koşik Anapat monastırı*** (səhra monastırı), ***Müqəddəs Yaqub monastırı (Akob Mets-i anats və ya Mets-Aran);*** Xaçın knyazlarının qalaları ***Kaçaxakaberd, Natarin, Det, Tsiranakar*** tikilib.

XII əsrin ***Koşik Anapat monastırı*** (səhra monastırı) Kolatağ kəndindən 8 km məsafədə, meşədə, təpənin üzərində tikilib. O, üç kilsədən

və daş divarla əhatə olunmuş üçtağlı narteks-sovməədən ibarət olub. Sovməəyə bitişik bina monastır yeməkxanası olub, şimal-qərbdə hücrə və digər tikililərin xarabalıqları qalıb.

XIII əsrin ***Müqəddəs Yaqub monastırı (Akob Mets-i anats və ya Mets-Aran)*** Kolatağ kəndindən şimalda, Xaçın-çayın sağ sahilinin yaxınlığında meşəli dağda tikilib. Barxudaryanın verdiyi məlumata görə, XIX əsrin sonlarında ikinci məbədin qapısının üstündə çöldə yazı qalmışdı: "661-ci ildə (1222) mən, Xorişə, Xaçın hökmdarı Vaxtanqın xatunu, Sargisin qızı, Zaxarinin və İvanenin bacısı mets-aranlıların bu kilsəsini yenidən inşa etdirdim" [Бархударянц, I, c.152]. Binanın əsas hissəsi XII–XIII əsrlərdə tikilib. Monastır divarla əhatələnmiş iki kilsədən, iki narteksdən, yaşayış bölməsindən, təsərrüfat bölməsindən ibarətdir. Müqəddəs Yaqubun şərəfinə adlandırılmış birinci kilsə və kilsənin şimal divarına bitişik kiçik hücrələr daha qədimdir. Bu monastır yeparxiya mərkəzi və XIII əsrdə alban katolikosunun iqamətgahı olub [Мкртчян, 1988, c.25-27]. Məbədin bəzi memarlıq xüsusiyyətləri Xudavənk/Dadivənk monastırını xatırladır, bu da alban memarlıq ənənələrinin ümumiliyini bir daha təsdiq edir. Birinci kilsənin narteksinə üçtağlı narteksə və narteks-sovməəyə malik olan ikinci kilsə birləşir. İkinci kilsənin narteklərindən biri zadəganların dəfn yeri olub. Barxudaryanın verdiyi məlumatlara görə, burada bəzi alban katolikosları dəfn edilib: "Ovannes, Aristakes, Simeon (1060 (1611)" [Бархударянц, I, 152]. Rahiblərin hücrələri kilsələrdən şərqdə, düzənlikdə yerləşir.

Kaçaxakaberd (Qaxac) qalası (Xaçın qalası, IX əsr) meşələrlə örtülmüş dağ silsiləsinin zirvəsində, Akobavank/Metsavanits (Müqəddəs Yaqub) monastırının qarşısında tikilib [Бархударянц, II, c.209].



Kaçaxakaberd (Qaxac) qalası (Xaçın qalası, IX əsr)

Kolatağ kəndinin yaxınlığında meşələrdə ***Xndzani və Maturi kilsəsi,*** təpədə ***Yextsun Xut kilsəsi***, Zarunts-tap adlı yerdə daha bir ***kilsə*** tikilib. Kolatağ kəndindən şərqdə Xaçın və Kolatağ çaylarının qovuşduğu yerdə ***XIII əsrə aid qalanın*** xarabalıqları qalıb. Kənddən cənubda təpədə sovməə tikilib.

Dovşanlı (Araçadzor), Kiçan, Çıldıran, Gülyataq, Möhrətağ, Kusapat, Qazançı kəndlərinin ətrafında bir sıra qədim alban abidələri olub.

Dovşanlı (Araçadzor) kəndində XVIII əsrə aid üçnefli ***Müqəddəs Məryəm bazilikası*** (Surb Axtvatsatsin) tikilib, kəndin cənub tərəfində, qayanın altında isə ***XIII əsrə aid iki mağara-sovməədən*** ibarət olan ***Harva-Anapat kilsəsi*** (səhra kilsəsi) yerləşir.

Kiçan kəndindən 3 km məsafədə, yamacın şimal-şərqində 2 kilsə, narteks, yeməkxana və hücrələrdən ibarət olan, XII əsrə aid ***Anapat monastırı*** yerləşir [Мкртчян, 1988, c.29-30].

Köhnə Möhrətağ kəndinin yerində ***məliklərin sarayı*** tikilib [Бархударянц, II, c.229-230]. XVII əsrdə Metsşen kəndində Nor-Moxrataq kəndinin yanında ***Müqəddəs Georgi kilsəsi*** inşa edilib [Бархударянц, II, c.231].

Çıldıran kəndində qalanın; kəndin ətrafında ***Karmir kilsəsinin*** (XIII əsr); Çıldıran, Dəvədaşı, Koçoxot, Heyvalı kəndlərinin arasındakı vadidə ***Amenaprkiç kilsəsinin*** (XII–XIII əsrlər) qalıqları qalıb.

Xaçın çayının sol sahilində, Çobandağın şimal yamacında yerləşən Qazançı kəndi (Vankasar) burada XIII əsrə aid ***Müqəddəs Georgi bazilikasının*** və təpədə ***Karmir kilsəsinin*** yerləşməsi ilə məşhurdur [Бархударянц, II, c.225]. Gülyataq kəndində ***mələk sarayı*** yerləşib [Бархударянц, II, c.226-227].

Tərtər çayı vadisində bir çox qədim alban abidələri var: Zar kəndində knyaz iqamətgahı və Müqəddəs Sergi (Sargis), Müqəddəs Qriqori, Müqəddəs Məryəm kilsələri və Qetamiç monastırı (XII–XIII əsrlər); Xudavəng/Dadivənk monastırı, onun qarşısında Levonaberd qalası, yaxınlıqda Xatravank monastırı və Xatra qalası.

Vəng kəndində yerləşən ***Xudavəng/Dadivənk monastırının*** (VI–XIII əsrlər) əsası əfsanəyə görə I əsrdə həvari Faddeyin tələbəsi Dadi tərəfindən qoyulub. Dadinin adı onun etnik yəhudi olması ilə əlaqədardır. Monastır uzun əsrlər boyunca "Tanrının məbədi", "Səmavi məbəd" mənası verən Xudavəng, Xotavəng, Qotovəng kimi adlandırılan bütpərəst məbədinin yerində tikilib. Barxudaryanın yazdığı

kimi, “monastırın tikildiyi il məlum deyil, çünki bu qədim tikili müxtəlif zamanlarda tədricən bərpa edilib və beləcə tikilinin qədimliyi zamanla yox olub” [Бархударянц, ч.II, с.215]. 1142-ci ildə Arsax–Xaçın knyazlığının başında Sakar Vaxtanqın oğlu Həsən dururdu. Həsən çar Kürikenin qızı Mama-xatunla evlənir. O, 1182-ci ildə 40 illik hakimiyyətdən sonra xatunu ilə birlikdə rahibliyi qəbul edir. Böyük Həsənin altı oğlu vardı. Qeyd etmək lazımdır ki, Həsən özünü Aterk, Andaberd, Açenaberd və Avkaxaqats qalalarının hökmdarı adlandırırdı. Böyük Həsənin oğullarından biri, Tankik və ya Tonkik adlandırılan, Aşağı Xaçının hökmdarı Vaxtanq Qafqazda məşhur olan qardaşlar Zaxari Spasalar və Atabəy İvane Mxarqrdzelinin bacısı Xorişə ilə evlənir. Vaxtanqın Xorişə ilə evliliyindən üç oğlu və üç qızı dünyaya gəlir. Həmin dövrün nüfuzlu ailələrindən olan yuxarıda qeyd edilmiş Mxarqrdzelilərlə yanaşı, Sünik hökmdarı Orbeli ilə də qohumluğu olan Vaxtanqın oğullarından biri Həsən Cəlal idi [Мамедова, 2005, с.405, 408-409]. Arsax–Xaçın knyazlığı-çarlığı haqqında bu cür tarixi detallarının verilməsində məqsəd bu məlumatların hələ XIX əsrdə Xudavənk/Dadivənk monastırının inşa kitabələrində əks olunması və daha sonra yepiskop Barxudaryanın “Arsax” əsərində qeyd edilib günümüzə çatmasını bir daha xatırlatmaqdır. O aşağıdakı təsviri verir: monastır “qədim hasara malikdir”, “(663) 1214-cü ildə şahzadə Vaxtanqın mömin xatununun əmri ilə monastırın yanında 4 sütunun üzərində yonulmuş daşdan olan qeyri-adi tikili ucaldıldı”; “məbəd və narteks Vaxtanqın övladlarının dəfn edilməsi üçün Arzu xatunun əmri ilə tikilmişdi”; “zəng qülləsi elə həmin, həvari Datın şərəfinə ucaldılmış və sonradan dəfələrlə bərpa edilmiş, qədim, dar və uzun monastırda tikilib. Yepiskop Qriqori (XVI əsr) bu monastırın yaxınlığında 4 sütunun üzərində kilsə tikdirib”. XII əsrdə “monastırın başçısı şahzadə Vaxtanqın oğlu yepiskop Qriqori idi” [Бархударянц, II, с.215-219]. Xudavəng/Dadivənk monastırının inşa kitabəsində deyilir: “Tanrının izni ilə, mən, Vaxtanqın oğlu, Aterk və Andaberd, Açenaberd və Avkaxaqatsın hökmdarı Həsən 40 il hökmdarlıq etdim, müharibələrdə düşmənlərimə qələbə çaldım, 6 oğlum oldu, qalalarımı və hökmdarlıq etdiyim ərazini onlara verdim, özüm də monastıra – qardaşım Qriqorinin yanına gəldim və rahib oldum... 631-ci ildə (1182)” [Бархударянц, II, с.215]. Kitabədə hakimiyyətdə olan alban zadəganlarının adları da göstərilmişdi: “Böyük Həsənin xatunu və çariça, çar Kürikenin qızı... 631-ci il (1182)”; “knyaz Kurdun qızı və Aterkin və bütün yuxarı Xaçının hökmdarı çar Vaxtanqın həyat yoldaşı Arzu xatun və onların övladları Həsən, Qriqori (1214)”; “Həsənin həyat yoldaşı Mama-xatun və onların oğlu Qriqori və onun xatunu Əspa, 761-ci il (1312)” [Бархударянц, II, с.215-217]. Bundan başqa, bu monastırında dəfn edilmiş keşiş və katolikosların adı çəkilib – Zaxari, Atanas, Qriqori [Бархударянц, ч.II, с.218] və alban zadəganlarının uzun əsrlər boyunca bu alban məbədinə bağışladığı torpaqlar göstərilib [Бархударянц, II, с.215-221].

Azərbaycanın 2020-ci ilin Vətən müharibəsində qazandığı böyük zəfər sayəsində albanların nəslindən olan udin xristianları əcdadlarının bu qədim məbədini ziyarət etmək imkanı əldə edib.

Xudavənk/Dadivənk monastırının yaxınlığında ***Xavkaxaqats qalası (Laçın qaya)*** tikilib [Бархударянц, II, с.223].



Xudavənk/Dadivənk monastırı

Burada sovməəsi olan kiçik kilsədən ibarət olan, XIII əsrə aid, Müqəddəs Məryəm adına ***Mşaxani monastırının xarabalıqlarını*** [Бархударянц, II, с.222] və 3 km qərbdə, təpənin ətəyində, Tərtər çayının sağ sahilində yerləşən 20 tikilidən ibarət olan ***XII əsrə aid Müqəddəs Məryəm monastırını*** da qeyd etmək lazımdır.

XIII əsrə aid Xatravank monastırı Xudavənk/Dadivənk monastırından cənub-şərqdə tikilib və kilsə, sovməə və yaşayış obyektlərindən ibarət olub.

Xatra qalası eyniadlı monastırın qərb hissəsinin qarşısında, ***İtarin qalası*** isə onun yaxınlığında

yerləşib [Бархударянц, II, с.205-207, 210-211]. Monastırın aşağı hissəsində XIII əsrdə ***körpü*** tikilib [Бархударянц, II, с.207].

Həsənriz (Aterk) kəndinin əsası Tərtər çayının sol tərəfində, məliklərin XII–XIII əsrlərdə ***qala-iqamətgah*** tikdiyi dağın şərq yamacında qoyulub. Kəndin mərkəzində ***Müqəddəs Məryəm Kilsəsi*** olub. Kəndin ətrafında ***Müqəddəs Nişanə kilsəsinin*** (Surb Nşan) qalıqları; Aterkdən şimal-şərqdə ***Akana qalası***, kənddən cənub-şərqdə XII əsrə aid 3 kilsənin xarabalıqları; Aterkin ətrafında ***İtskar*** və ***Kolek monastırları***; Aterkin qərb tərəfində Mxitar Qoşun "Aterk qalası" adlandırdığı ***Berdakar qalası***; habelə ***Astqablur sovməəsi, Karaxunç kilsəsi***, ***Masis sovməəsini*** xarabalıqları, ***Şukavank monastırının*** xarabalıqları, ***Qaranlıqdərə (Mtnadzor) kilsəsinin*** xarabalıqları olub [Бархударянц, II, с.211-213, 224].

Çapar kəndi buradan 3 km məsafədə ***Akarakaberd qalasının***, şimal-qərbdə ***Surb Minas kilsəsinin***, 8 km məsafədə ***Karmir Kari Vank monastırının*** (XII–XIII əsrlər) tikilməsi ilə məşhurdur [Бархударянц, II, с.214]. Çərəkdar kəndində ***Müqəddəs Məryəm monastırı*** (XI–XII əsrlər) yerləşib.

XIII əsrə aid ***Mayrakaxak/Tiramayr monastırının*** xarabalıqları Qozlu (Vaqauz) kəndinin mərkəzində yerləşir. Kəndin ətrafında kilsələrin xarabalıqları, 3 km məsafədə XIII əsrə aid, kilsə, narteks, sovməə və hücrələrdən ibarət olan ***Karmirvank monastırı*** yerləşir [Бархударянц, II, с.234].

Dərənin ətəyində sovməədən başlayaraq dərə istiqamətində şərqdən qərbə uzanan, geniş, iki girişə malik qala tikilib. Qalanın qərb girişinə Tərtər çayının sağ qolunun qonşuluğunda, dərin dərənin ətəyi boyunca yaxınlaşmaq mümkündür, giriş qalan tərəflərdən əlçatmaz sıldırımlarla əhatə olunub. Qalada 2 bürc, habelə 2 böyük otaqdan ibarət olan 3 qülləli bina olub. Qalanın cənub tərəfində hamamlar və yağ çalınan yer olub. Məliklərin ikinci sarayı şərq girişinin yanında tikilib (15 otaq, sobalar, buxarılar, 2 balkon). Sarayın yanında kilsə və tövlə tikilib [Бархударянц, II, с.234-236].

Qandzasardan cənubda, **Qarnakar** kəndinin yaxınlığında, eyni adlı dərədə ***Hammam kilsəsi*** (VII əsr) tikilib.

Yayıcı (Qoçoqot) kəndində 3 kilsə olub. Bunlardan biri VII əsrə aid ***Karmir Yextsi kilsəsidir.***

Hesab edilir ki, Ağdaban kəndinin adı albanlarla əlaqədardır.

Kəlbəcər rayonunda aşağıdakı alban **qalaları** olub: Comərd kəndində Comərd qalası, Camışlı kəndində Keşikçi qalası, Qamışlı kəndində Keşikçi qalası, Qaracanlı kəndində XIII əsrə aid Uluxan qalası, Qalaboyun kəndində Qalaboyun qalası və Çaplar kəndində daha bir qala; habelə Tərtər çayının Bulanıq çayı ilə qovuşduğu yerdə ***Alban kilsəsi***.





Karmirvank (Qızılvəng) monastırı

Azərbaycanın 2020-ci ilin Vətən müharibəsində qazandığı böyük zəfər alimlərə bütün Qarabağın, xüsusilə də Tərtər və Kəlbəcər rayonlarının alban tarixi irsini ətraflı şəkildə öyrənmək və günümüzə gəlib çatmış qədim alban abidələrinin dəqiq siyahısını hazırlamaq imkanı verir.

ƏDƏBİYYAT:

1. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. İki cilddə. I. Bakı: Şərq-Qərb, 2007.
2. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. İki cilddə. II. Bakı: Şərq-Qərb, 2007.
3. Kəlbəcər rayonu /Azərbaycan Sovet Ensiklopediya. T.V. / Red. C.Quliyev. Bakı: Azərbaycan Sovet ensiklopediya baş redaksiyası, Bakı, 1981, s.334.
4. İnzibati ərazi bölgüsü təsnifatı, 2019. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı, 2020, 113 s.
5. Mustafazadə T. Qarabağ xanlığı. Bakı: "Sabah", 2010, 337 s.
6. Piriyev V. Azərbaycanın tarixi–siyasi coğrafiyası. Bakı: "Araz", 2002, 155 s.
7. Алиев Ф. Азербайджан в XVIII в./ Историческая география. Баку, 1987, с.129-139.
8. Бархударян М. Агвания и ее соседи. Тифлис: тип. М.Шарадзе, 1893, 304 с. (erməni dilində)
9. Бархударянц М. Арцах. Баку, 1895, часть I–II (erməni dilində) / перевод Яргуляна, 1949-НАИИАНА инд. № 1622.2010, 415 с.
10. Буниятов З.М. Азербайджан в VII–IX вв. Баку, 1965, 384 с.
11. Буниятов З.М. Государство атабеков Азербайджана. Баку: Элм, 1978, 136 с.
12. Джеванширйский уезд / Энциклопедический словарь Брокгауза и Ефрона. Т.Ха (20). СПб.: Типо-литография И.А.Ефрона, 1893, с.528.
13. Закон Азербайджанской Советской Социалистической Республики от 5 февраля 1991 года № 4-11 об изменении в наименовании Азербайджанской ССР/ http://www.base.spinform.ru/show_doc.fwx?rgn=2888
14. Кавказский календарь на 1878 (33) год. Отд. II. Тифлис: Тип. Глав. Управ. Наместника Кавказского, 1877, 603 с.
15. Кавказский календарь на 1910 год. Ч.1/ под ред. В.В.Стратонова. Тифлис: Тип. «Либерман и К°», 1909, VIII, 928 с., илл.
16. Каланкатуйский М. История агван / Перевод с армян. К.Патканова. СПб.: тип. Импер. АН, 1861, 376 с.
17. Карабах: история в контексте конфликта/ Сост. К.К.Шукюров, Т.Р.Багиев. СПб.: Изд-во «Вестник», 2014, 404 с.
18. К истории образования Нагорно–Карабахской Автономной области Азербайджанской ССР. 1918–1925. Документы и материалы. Баку: Азерб. Госуд. издат-во, 1989, 336 с.
19. Мамедова Г. Зодчество Кавказской Албании. Баку: «Чашыоглу», 2004, 224 с.
20. Мамедова Ф. Кавказская Албания и албаны. Баку, 2005, 800 с.
21. Мильман А.Ш. Политический строй Азербайджана в XIX–начале XX веков (административный аппарат и суд, формы и методы колониального управления). Баку, 1966, 317 с.
22. Мкртчян Ш. Историко-архитектурные памятники Нагорного Карабаха. Ереван: Айастан, 1988, 360 с.
23. Никоноров иеромонах А. История христианства в Кавказской Албании. Баку: Нурлан, 2005, 196 с.
24. Орбели И. Мхитар Гош и его судебник / Избранные труды. Т.1. М.: Наука, 1968, с.213.
25. Орбели И.А. Хасан Джалал, князь Хаченский // Изв. Имп. АН. СПб., вып. IV, №6, 1909, с.429.
26. Орбели И.А. Хасан Джалал, князь Хаченский/ Избранные труды. Ереван, 1963, с.157-158.
27. Орбелян Степаннос. История области Сисакан. Тифлис, 1910 (на арм.яз.).
28. Пириев В.З. Об исторической географии Азербайджана XIII–XV вв./ Историческая география. Баку, 1987, с.98-105.
29. Пириев В.З. Гарабаг в XIII–XIV вв.: притязания армян на эту область и историческая правда / Гарабаг: Кюрекчайский договор–200. Баку: Тахсил, 2005, с.58-66.
30. Раффи. Меликства Хамсы. «Мшак», 1882/ bookdesigner@the-ebook.org
31. Цуциев А. Атлас этнополитической истории Кавказа (1774–2004). М.: Изд-во «Европа», 2006, 128 с.; Газета «Бакинский рабочий» №230, 27.11.1991.

32. Шарифли М.Х. Феодальные государства Азербайджана во второй половине IX–XI вв. Баку, 1978.
33. Эфендиев О. Территория и границы азербайджанских государств в XV–XVI вв. / Историческая география Азербайджана. Баку, 1987, с.110-119.
34. Dowsett. C.J.F. The Albanians Chronicle of Mkitar Gos / BSOAS, XXI, 1958, p.476; p.XIX.
35. Mamedova Farida. Au sujet des dirigeants Albaniens du IX^{e} au XV^{e} siecle (dynastie des Djalalides)/ TURCICA. Revue d'etudes turques. Tome XXI–XXIII.1991.Melanges offerts A Irene Melukoff, par ses collegues, disciples et amis, p.307-310.



Qandzasar (Gəncəsər) monastırı



Xudavənk/Dadivənk monastırı

Qarabağlı Rizvan
Şərq Ölkələri Beynəlxalq Memarlıq Akademiyasının müxbir üzvü,
AMEA Memarlıq və İncəsənət institunun aparıcı elmi işçisi,
memarlıq üzrə fəlsəfə doktoru, dosent

İRƏVANDA İSLAM MEMARLIĞI



Şəkil 1. "Sərdar (Şah Abbas, Abbas Mirzə) məscidi". Rəssam Dübua de Monpere. XIX əsr





Şəkil 2. "Şah Abbas məscidinin" müxtəlif görüntüləri

Tarixdən məlum olduğu kimi Azərbaycanın keçmiş İrəvan xanlığı (indiki Ermənistan respublikası) ərazisində VIII əsrdən İslam dini geniş yayılmışdı, ona görə də burada çox qədimlərdən məscid, mədrəsə və digər ibadət yerləri mövcud olub.

Mənbələrə görə 1912-ci ilə qədər Qərbi Azərbaycanın (indiki Ermənistan) İrəvan uyezdində 42, Eçmiədzin uyezdində 33, Zəngəzur uyezdində 35 məscid fəaliyyət göstərib. Bu məscidlərin ən qədimi İrəvan qalası tikilən vaxtı (1510) Şah İsmayılın əmri ilə inşa olunmuş və sonra hər məhəllənin öz məscidi olmuşdu. Belə məscidlərin 4-ü ("**Novruzəli xan**", "**Hüseynəli xan**"-"**Göy məscid**", "**Xoca Səfərbəy**" və "**Məhəmməd Sərtifxan**") qalanın "Şəhər" adlı məhəlləsində yerləşirdi. Onlar möhtəşəm portalı, əzəmətli gümbəzi və göydələn minarələri ilə şəhərin siluetini səciyyələndirən memarlıq abidələri idi.

Belə məscidlərdən biri Sərdar sarayının qonşuluğunda yerləşirdi (Şəkil 1). Məscidin **əsası** Sərdar sarayı tikilən zaman qoyulsa da müxtəlif dövrlərdə "**Sərdar məscidi**", "Abbas Mirzə məscidi" və "Şah Abbas məscidi" kimi tanınıb. Adların dəyişilməsi göstərir ki, hökmdarların hər biri öz dövründə məscid üzərində bərpa və restavrasiya işləri apartdırıb. Məsələn, 1604-cü ildə I Şah Abbas İrəvan qalasını Osmanlılardan azad edəndən sonra tikinti işlərinə rəhbərlik edən memar Şeyx Bəhaəddinin layihəsi ilə məscid üzərində geniş restavrasiya işləri apartdırıb və guman etmək olar ki, əvvəlkini tamamilə sökdürüb yerində daha möhtəşəm yeni məscid inşa etdirib (Şəkil 2).

Yeri gəlmişkən onu da qeyd edək ki, İrəvandakı "Şah **Abbas məscidi**" ilə Goranboyun Qızıl Hacılı, Tovuzun Yanıxlı və Gəncədəki "Şah Abbas məscidi" arasında oxşarlıq var. Xüsusilə onların günbəz, portal konstruksiyası və bədii memarlığı bir-biri ilə eynilik təşkil edir. Xatırladaq ki, bu məscidlərin də memarı Şeyx Bəhaəddin olub.

Gəncə məscidindəki kimi, İrəvandakı "Şah Abbas məscidi" kompleksinə mədrəsə, kitabxana və digər təyinatlı binalar daxil idi. Məscidin paxlava şəkilli orhamentlərlə bəzədilmiş minarələri sanki xalçaya bürünmüş kimi görünürdü. Onun həyətində inşa edilmiş hovuzun bədi memarlığı da üzərindəki ornamentlərlə həmahənglik təşkil edirdi. Digər tərəfdən İrəvan məscidinin də günbəzi, fasadı və interyeri tünd göy və ağ rəngli nəbati ornamentlərlə bəzədilmiş və Quran ayələri yazılmışdı. Məscidin göy rəngli portalı üzərinə ərəb əlifbası ilə ağ rənglə yazılmış kitabə XX əsrin əvvəllərinə qədər qalırdı. Həmin

kitabənin uçmuş portal üzərində qalan hissəsini, 1928-ci ildə İrəvanda olmuş azərbaycanlı alim İsa Əzimbəyov belə oxumuşdu: "Zəmane şah Abbas cənnətməkan Əz u kəşt abad mülke-cahan" [Nazim Mustafa, 2016] .

İ.Əzimbəyov burada olarkən "Sərdar" yaxud "Şah Abbas" və ya "Abbas Mirzə" adı ilə tanınan məscidin qonşuluğunda digər bir məscidin xarabalığını da görür. Onun qeyd etdiyinə görə, uzunluğu 9 m, eni isə 6 m olan bu məscid bütövlükdə bişmiş kərpiclə tikilmişdi. Məscidin alçaq formalı mehrabı və çox da hündür olmayan girişi olub. Həmin giriş üzərində qalan kitabəyə əsasən İ.Əzimbəyov məscidin tikilmə tarixini h.t. ilə 1098 (m.t.1685) yazıldığını və "Sənge tarixe şu məqsud əz dur zəman, kordən xədid be tarixe qədim Əhməd xan" sözləri yazıldığını qeyd etmişdi [Nazim Mustafa, 2016] .

Nəticə etibarı ilə qed edək ki, tarix boyu bir neçə hökmdar tərəfindən bərpa olunan "**Sərdar məscidi**", 1864-cü ildən başlayaraq İrəvan qalasının sökülməsi ilə əlaqədar müəyyən dağıntılara məruz qalır, lakin tamamilə sökülmür. Ona görə də XX əsrin əvvəllərində Türkiyədən gələn ermənilər burada məskunlaşa bilir. Lakin, Sovet dövründə məscid tamamilə sökülmüş və yerində çoxmərtəbəli yaşayış evləri tikilmişdi. Məsciddən isə günümüzə qədər yalnız 3-4 m enə və hündürlüyə malik olan divar parçası qalıb (Şəkil 3).



Şəkil 3. "Şah Abbas məscidinin" müxtəlif divar qalıqları

İrəvan şəhərində olmuş səyyah və tədqiqatçılar buradakı memarlıq abidələri haqqında yazarkən möhtəşəm görünüşünə, gözəl memarlığına və uca minarələrinə görə, "**Göy məscid"i** xüsusi qeyd ediblər (Şəkil 4). Azərbaycan memarlığının nadir incilərindən olan bu məscidin inşasına 1760-cı ildə başlansa da tikinti işlərində bəzi ləngimələr olub. Lakin Hüseynəli xan Qacarın ayırdığı maliyyə hesabına məscidin inşası 1765-cü ildə tamamlanıb. Bu barədə məscidin cənub portalı üzərindəki kitabədə qeyd olunur. Elə bu səbəbdən də el arasında "Göy məscid"ə bəzən "Hüseynəli xan məscidi" də deyilib.

1768-ci ildə məsciddə bəzi yenidənqurma və tamamlama işləri aparılıb. Bu zaman məscidin ümumi uzunluğu 97,2 m, eni isə 66 m olub. Bu ölçü daxilində məscidin yay-qış zalları, mədrəsə, kitabxana, dindarlar üçün müxtəlif təyinatlı otaqlar və geniş həyətin mərkəzində yaşıllığa bürünmüş fəvarəli daş hovuzu olub. Məscidin oxvari tağla tamamlanan portalının yan tərəfləri və möhtəşəm günbəzi müxtəlif rəngli həndəsi və nəbati ornamentli kaşılarla bəzədilmişdi. Xatırladaq ki, bu məscid də konstruksiya və bədii memarlıq həlli baxımından Gəncədəki Şah Abbas məscidini yada salır. Çox guman ki, Sah Abbasın hakimiyyəti dövründə memar Şeyx Bəhaəddin "Göy məscid" üzərində pərpa və rekonstruksiya işləri aparıb. Bu zaman məscid dörd minarəli olub. İkinci dünya müharibəsindən sonra ermənilər onun üç minarəsini uçurmuş və məscid təkminarəli qalmışdı. Təkminarəli olsa da, "Göy məscid" İslam nişanəsi və azərbaycanlıların bu yerlərin sahibi olduğunu sübut edən fakt kimi şəhərdə diqqət çəkən abidə idi. Lakin bu az imiş kimi ermənilər məscidi iki dəfə yandırıblar. Bu hadisələrin biri 1918-ci ildə, digəri isə 1955-ci ilin martında baş vermişdi. Hər dəfə də məscid müsəlmanların vəsaiti hesabına yenidən bərpa edilib. Lakin, bütün bunlara baxmayaraq 1936-cı ildən başlayaraq ermənilər






Şəkil 4. "Göy məscidin" portalı və günbəzinin dağıdılmız vəziyyəti









Şəkil 5. "Göy məscidin" bərpadan sonrakı görüntüləri

"Göy məscid"i uzun müddət tarix müzeyi, İkinci Dünya Müharibəsi zamanı hərbi sursat saxlanılan anbar, müharibədən sonra Təbiət muzeyi və s. məqsədlər üçün istifadə etmişlər.

1991-ci ildə Ermənistan respublikası müstəqilliyini əldə etdikdən sonra bəzi müsəlman ölkələri, o cümlədən İran İslam respublikası ilə diplomatik əlaqələr qurdu və bundan sonra "Göy məscid"in öz funksiyasını daşıma məsələsi meydana çıxdı. Beləliklə 1991-ci ildə Təbiət və 1994-cü ildə isə Tarix muzeyi məsciddən çıxarıldı. Bir il sonra (1995-ci il) məsciddə bərpa və restavrasiya işləri aparılması üçün Ermənistan ilə İran İslam respublikası arasında müqavilə imzalandı. Həmin müqaviləyə əsasən məscid kompleksində aparılacaq bütün inşaat işlərin xərcini İran hökuməti öz üzərinə götürdü və işin icrası İranın "Bünyad-e Müstəzəfan və Canbazan" ("Müharibə veteranları və şəhidlər") adlıı xeyriyyə fonduna həvalə edildi.

Bərpa və restavrasiya işləri əsasən məscid kompleksinin şimal, cənub-qərb hissəsində və o cümlədən günbəzində, minarəsində, (hündürlüyü 24 m) zalında, kitabxanasında, hücrələrində (28 ədəd) aparılıb və həyətində abadlıq işləri görülüb. Bütün işlər 2006-cı ildə başa çatıb. "Göy məscid" üzərində İran dövlətinin apardığı bərpa və pestavrasiya işlərini bəhanə edən ermənilər indi onu dünya ictimayyətinə "Fars məscidi" kimi təqdim edir (Şəkil 5).

"**Hacı Novruzəli məscidi**" İrəvan dəmiryol vağzalının qonşuluğundakı eyni adlı məhəllədə yerləşirdi (Şəkil 6). Bu məhəllə Qara Seyid adı ilə məşhur olan xeyrxah və xeyriyyəçi şəxsin nəvəsi Növruzəlinin adı ilə bağlı olub. Sözü gedən məscidi XVII əsrdə Qara Seyid inşa etdirmiş, sonra nəvəsi Hacı Novruzəli onun üzərində əsaslı bərpa işləri aparmışdır. O vaxtdan da həm məhəllə, həm də burada inşa edilən tək minarəli məscid Hacı Novruzəlinin adını daşımışdı.

Konstruksiya formasına və memarlıq həllinə görə "Hacı Novruzəli məscidi" "Göy məscid"in kiçik formasına bənzəyir. Hər iki məscidin günbəzi, minarələri və onlar üzərindəki kaşı bəzəkləri bir-biri ilə oxşardı. Buna əsasən, həmçinin tikilmə tarixinin eyni dövrə düşməsini nəzərə alaraq, hər iki məscidin bir memar tərəfindən inşa olunduğunu söyləmək olar.

Məscidə uzun müddət Axund Qasım adlı şəxs rəhbərlik edib. Lakin XX əsrin əvvəlində ermənilər Hacı Novruzəli məscidini tamamilə yandırmışlar. Bununla yanaşı bazarın qarşı tərəfindəki "**Div Sultan**" adlı məscid də eyni vəziyyətə düşmüşdür. 1673-cü ildə İrəvanda olan məşhur fransalı səyyah Jan Şardən onların yanıb dağılmış vəziyyətini öz gözləri ilə görmüşdü.

1724-cü ildə İrəvan qalasını ələ keçirən Türk sərkərdəsi Rəcəb paşa, 1725-ci ildə şəhərdə geniş miqyaslı tikinti, abadlığı işləri apartdırır və bununla yanaşı yeni məscid də inşa etdirir. Məscid onun şərəfinə "**Rəcəb paşa məscidi**" adlanır.

Məscid plan etibarı ilə paralelepiped şəkilli həndəsi biçimə malik idi. Memar bu formanı seçməklə məscidin plan quruluşunu ərazinin formasına tabe etmişdi. Məscidin interyerindəki tağbəndl mehrab, nişalar, pilyastr və gübəz örtüklü tavan konsrtuksiyası, eyni zamanda günbəzin üstünə

bərkidilmiş aypara və fasadı boyu işlənmiş nəbati, həndəsi ornamentlər Şərq memarlığının gözəl nümunəsi idi.

Yeri gəlmişkən qeyd edək ki, Şükürbəyli məscidi də eyni memarlıq həllinə və konstruksiyaya malik olub. Lakin, 1827-ci ildə İrəvan qalası ruslar tərəfindən işğal olunandan sonra, hər iki məscid (memarlar V.Mirzoyev, İ.Kitkin və M.Buynov) rekonstruksiya edilərək interyerlərindəki Quran ayələri silinmiş, yeni dam örtüyü tikilmiş, günbəzlərdəki ayparalar xaçla əvəz edilmiş və fasadlarıına sütunlar əlavə edilib kilsə formasına salınmışdır. Nəticədə "Rəcəb Paşa" rus pravoslav, "**Şükürbəyli** məscidi" isə "Svyatoy Boqoradic" (Müqəddəs Məryəm) kilsəsi adını daşımışdır (Şəkil 7). Kilsələr 1930-cu ilə qədər fəaliyyət göstərib, sonra onlar da ermənilər tərəfindən sökülüb.

İrəvanda olan müsəlman abidələrinin kütləvi şəkildə sökülməsi 1924-cü ildə şəhərin baş planının hazırlanıb təsdiq edilməsi ilə əlaqədardır. Plana uyğun olaraq İrəvandakı müsəlman abidələri sökülməli və yerində parklar, meydanlar salınmalı, hündür mərtəbəli evlər tikilməli idi və belə də oldu.

İrəvanın baş planına əsasən sökülən məscidlərdən biri **"Şəhər" və ya "Zal xan məscidi" olub.** Məscid "Şəhər" məhəlləsində, indiki İrəvanın Respublika meydanında yerləşirdi (Şəkil 8). Onun üzərində əski əlifba ilə, lakin türk dilndə yazılmış kitabə olmuşdur. Kitabədə məscidin tikilmə tarixi h.t. ilə 1098-ci il (m.t. 1687) göstərilib. Bütün İrəvan məscidlərində olduğu kimi, ikimərtəbəli "Zal xan məscidi" də qadın- kişi zalına ayrılıb və qarşısında çoxsaylı hücrələri olan mədrəsə fəaliyyət göstərib. Məscid tağbənd, günbəz konsrtuksiyası və üzərindəki həndəsi, nəbati formalı kaşı ornamentləri ilə "Rəcəb Paşa məscidi" ilə oxşar idi.

İkinci Dünya müharibəsindən sonra məsciddə Rəssamlar evinin sərgi salonu yerləşib. 1928-ci ildə məscidin böyük zalı sökülüb yerində "Yerevan" hoteli inşa edilib.

İrəvandakı minarəli məscidlərdən biri də "**Təpəbaşı" məhəllələsində yerləşirdi** (Şəkil 9). **Məscid** mənsub olduğu **məhəllənin adını daşa da ("Təpəbaşı məscidi") onun** Abbasqulu xan İrəvanski tərəfindən tikdirildiyi guman edilir. Abbasqu xanın evi məscidin qonşuluğunda yerləşir. Görünür məscidin Abbasqulu xan tərəfindən inşa etdirilməsi ona görə guman edilib. Əks təqdirdə məscid "Təpəbaşı" deil, "Abbasqulu məscidi" adlanardı. Divarının qalınlığı 1,5 m olan **"Təpəbaşı məscidinin"** bəzi yerləri və minarəsi 1960-cı ildə sökülüb və salamat qalan hissəsində bir erməni ailəsi yaşayıb. Görünür elə buna görə də məscid bir müddət salamat qalıb.

İrəvan şəhərində zəmanəmizə qədər (1988-il) çatan məscidlərdən biri Hacı Cəfər bəyin tikdirdiyi "Çətirli **məscid"di**r (Şəkil 10). Məscid "Dəmirbulaq" məhəlləsində yerləşdiyi üçün **"Dəmirbulaq məscidi"** kimi tanınib. Onun kitabəsində tikilmə tarixi h.t. ilə 1327-ci il (m.t.1909) göstərilib. Məscidin konstruksiya və bədii memarlıq həlli əvvəlkilərə oxşasa da minarəsi olmayıb. Minarə əvəzi olaraq onun damında 2 m hündürlüyə malik olan çətirli "güldəstə" quraşdırılıb. Buna görə məscid "Çətirli məscid" adını qazanmışdır.





Şəkil 6. "Hacı Novruzəli məscidi"nin müxtəlif görünüşü





Şəkil 7. "Rəcəb paşa məscidi"nin kilsəyə çevirilmiş görüntüləri



Şəkil 8. "Zal xan məscidi"





Şəkil 9. "Təpəbaşı məscidi" və interyeri. Hazırda erməni ailəsi yaşayır



Şəkil 10. "Dəmirbulaq məscidi" yaxud "Çətirli məscid"

1988-ci ilin fevralında başlanmış Qarabağ hadisələri ilə əlaqədar, "Dəmirbulaq məscidi" və azərbaycanlıların təhsil aldığı M.F.Axundov adına 9 №-li orta məktəb ermənilər tərəfindən yandırılmışdır.

İrəvanın dini abidələri sırasında türbələr də tarix və memarlıq baxımından xüsusi önəm daşıyırdı. Təəssüf ki, məscidlər kimi onlar da zaman-zaman ermənilər tərəfindən törədilən dağıntılara məruz qalıb. Yaxşı ki, onların bəziləri müasir dövrə qədər gəlib çatıb.

Belə türbələrdən biri İrəvan şəhərinin qonşuluğunda yerləşən Cəfərabad kəndinin yaxınlığındakı "**Pir Hüseyin türbəsi"dir** (Şəkil 11). Qırmızı tuf daşı ilə oniki üzlü şəkildə inşa olunmuş türbənin müasir dövrə qədər 12 m hündürlüyə malik olan gövdəsi və yarıuçuq vəziyyətdə günbəzi qalıb. Şərq memarlıq üslubunda inşa edilmiş abidənin ümumi gövdəsi üç qurşaq şəkilli karnizlə dövrələnib. Yuxarıdan sonuncu karnizin altı boyunca 50 sm hündürlüyə malik olan süls elementli nəsx xətti ilə kitabə yazılıb (Şəkil 12). Ümumi uzunluğu 22 m olan kitabə mətnini epiqrafçı alim M.Nemət oxuyub. Onun verdiyi məlumata görə kitabədə türbənin tikilmə tarixi h.t. ilə 816-cı il rəcəb ayının 15 göstərilib. Bu da miladi tarixi ilə 1413-cü il oktyabr ayının 11-nə uyğun gəlir [Немат, 2001]. Eləcə də kitabədə türbənin Çuxur Səd vilayətinin Saatlı tayfasından olan əmirlərin – Pir Hüseyinin və atası Əmir Səddin əmiri ilə inşa edirilməsi bildirilir. Maraqlıdır ki belə əzəmətli türbə tikən və onun frizində 22 m uzunluğunda kitabə yazıb qoyan memarın öz adının yazılmasına icazə verilməmişdir. Bu da bir daha sübut edir ki, tarix boyu yaşayıb yaradan memarlar öz əsərləri üzərində sərbəst ola bilməmişlər. Bəzən də "bundan da gözəl əsər yarada bilərsənmi" – sualına sadəcə "bəli" deyən sənətkarın ömrü tikdiyi binanı tamamlayana qədər davam edib. Bina tamam olan kimi qısqanc hökmdarlar onları məhv ediblər ki, bu sənətkarlar ikinci belə əsər yaratmasınlar.


"Pir Hüseyn türbəsi"ndə memarın adı olmasa da onun frizi boyunca düzülmüş "üçyarpaq" ornamenti eyni ilə Səlim karvansarasındakı, eləcədə Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonu ərazisindəki abdələrin ornamentlərini təkrarlayır. Belə bədii memarlıq elementləri "Əli Məcdəddin" memarlıq məktəbinə məxsusdur [Qarabağlı, 2017].

1939-cu ildə Azərbaycan memarları (L.Bretaniski, Q.Yelkin, L.Mamikonov, D.Motis) "Pir Hüseyin türbəsi"ndə tədqiqat işləri apararkən abidənin "Mömünəxatun türbəsinə" bənzədiyini və sadəcə olaraq daş formasında olduğunu qeyd etmişlər. Bu da "Əli Məcidəddin" məktəbinin Qarabağdan Naxçıvana qədər olan coğrafiyasını bir daha təsdiqləyir.

"Pir Hüseyn" abidəsi yerləşən ərazidə çoxsaylı qəbir daşları və bir neçə kiçik türbələr olub. Yaxınlıqda yaşayan ermənilər onları tədricən söküb daşlarından ev tikintisində istifadə ediblər. Xatırladaq ki, "Pir Hüseyn türbəsi" yerləşən Cəfərabad kəndində 1828-ci ilə qədər azərbaycanlılar yaşayıblar. 1830-cu ildən başlayaraq İrandan köçürülən ermənilər zaman-zaman rus himayəsi altında azərbaycanlıları kənddən çıxarmış və burada söküntü işləri aparmış və bu da yetərli olmayıbmış kimi türbə üzərindəki nəhəng kitabəyə məhəl qoymadan onu "Türkmən abidəsi" kimi ictimayətə təqdim ediblər.

ƏDƏBİYYAT:

1. Qarabağlı R. Füzuli rayonunun memarlıq abidələri. Bakı, Nafta-press, 2017, 252 s.
2. Nazim Mustafa. İrəvan xanlığı: Erməni vandallarının yox etdiyi İrəvan məscidləri. Bakı, 2016, 44 s.
3. Немат М. Корпус эпиграфических памятников Азербайджана. Т.3. Баку, 2001, 216 с.





Şəkil 11. "Pir Hüseyin türbəsi" və kitabəli früzindən fraqment

Məmmədova Leyla
Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Elmi katibi,
"Xor dirijorluğu" kafedrasının professoru, sənətşünaslıq üzrə *fəlsəfə doktoru*

QALİB MƏMMƏDOV YARADICILIĞININ ALBAN DÖVRÜ HAQQINDA

Qalib Həsən oğlu Məmmədov (19.04.1946-cı il, Gəncə şəh.) 2002-ci ildən Norveçdə yaşayan tanınmış Azərbaycan bəstəkarıdır. Bəstəkar kimi şəxsiyyətinin formalaşmasına görkəmli Azərbaycan bəstəkarları Fikrət Əmirov, Qara Qarayev, Cövdət Hacıyev və Xəyyam Mirzəzadənin təsiri olmuşdur. Q.Məmmədov elə ilk vaxtlarından bu bəstəkarlardan gözəl məktəblə yanaşı bilik yönümlülüyünü, qarşıya qoyulan məqsədi dərindən düşünmək bacarığını, yaradıcı özünütənqidi və qeyri-adi təvazökarlığı miras almışdır.

Məqalənin müəllifinin həmin illərdə Musiqi Məktəbində və Konservatoriyada fəaliyyət göstərən Xəyyam Mirzəzadə ilə müsahibəsindən (05.04.2013-ci il tarixli) sitat gətirək: "*Q.Məmmədov Q.Qarayevin sinfinə mənim məsləhətimlə daxil olmuşdu. Onun yaradıcı potensialını yaxşı bildiyimdən hesab edirdim ki, bu cür biliklərlə yalnız Q.Qarayevdən dərs almaq lazımdır.* Əslində *Q.Məmmədov təbiətcə* çox *incə və zərif musiqiçidir. Onun istifadə etdiyi intonasiyalar həmin dövr* üçün çox *yeni idi, harmonik dil maraqlı olmaqla yanaşı, melodik təfəkkürə uyğun idi. Q.Məmmədovun* əsərlərinin *obrazları* çox *parlaq, dolğun və maraqlı idi. Bütün bunlar mənə onu Q.Qarayevin sinfinə tövsiyə etmək* üçün əsas *verirdi"*.

Q.Məmmədov Konservatoriyada təhsil aldığı illərdə özünü parlaq gələcəyi olan bəstəkar kimi sübüt etdi. Onun mezzo-soprano, tenor və simfonik orkestr üçün vokal-simfonik silsilə olan "Yeddi bayatı" (1974) adlı diplom işi böyük uğur qazandı.

Q.Məmmədov bir sıra möhtəşəm əsərlərin, o cümlədən: simli kvartet üçün "Allegro" (1974); kamera orkestri üçün "Pərvanə" (1975); simli orkestr üçün "Üzeyir dastanı" (1977); yazıçı Henrix fon Kleystə həsr olunmuş, fortepiano üçün Sonata (1979) [9]; simfonik orkestr üçün Pastoral (1979); kamera orkestri üçün Miniatürlər (1981); "Qara Qarayevin xatirəsinə elegiya" (1982); Nizami Gəncəvinin əsəri əsasında yazdığı "Nüşabə və İsgəndər" xoreoqrafik eskizi (1983), bəstəkar daha sonra, 1985-ci ildə "Sirlər xəzinəsi" baletini tamamlayır; fortepiano üçün 7 uşaq pyesi (1983); kamera orkestri üçün "Uşaq albomu" (1984); kamera orkestri üçün "Vals" (1988); mezzo-soprano, bas və kamera orkestri üçün "Davudun Psalmları" vokal silsiləsi (ingilis dilində) (1992); *a cappella* xoru üçün 39 və 52 saylı Psalmlar (1994); Bakı şəhərindəki Lüteran icması üçün 40 Psalm (2013); "Landet vi kommer fra" vokal-xor silsiləsi (1997); E.Skeyenin sözlərinə yazılmış xor, qiraətçi, solist və kamera ansamblı üçün "Summerland" kantatası (premyerası Osloda, Nobel premiyası zalında baş tutmuşdur); "İlahilər" (2003); "Molla Nəsrəddin", "Cavad xan", "Kül oğlan" teatr tamaşaları üçün yazılmış musiqi (1997, 1999, 1998); "Haray, Xocalı" kinofilmi üçün yazılmış musiqi (1993); kamera-instrumental əsərlər; bir sıra fortepiano pyesləri; Azərbaycan və əcnəbi şairlərin şerlərinə romanslar və mahnılar; xorlar və Azərbaycan xalq mahnılarının xor işləmələri [Мамедова, 2020, с.32-40] və sairə əsərlərin müəllifidir.

Xüsusilə qeyd etməliyik ki, 1984-cü ildə Q.Məmmədov görkəmli Azərbaycan tarzəni Bəhram Mənsurovun ifasında lentə alınmış doqquz Azərbaycan muğamı – "Mahur-Hindi", "Şüştər", "Segah", "Bayatı-Şiraz", "Bayatı-İsfahan", "Bayatı-Kürd", "Navaa", "Çoban-Bayatı" və "Çahargah"ı – nota salmışdır [Гаджибеков, 1957].

Məhz onun sayəsində bəstəkar gələcəkdə öz əsərlərində ustalıqla istifadə etdiyi şifahi ənənəli professional Azərbaycan musiqisində böyük biliklər əldə etmişdir.

Qeyd etmək lazımdır ki, 80-ci illərin sonlarında – 1988–1989-cu illərdə – "Sirlər xəzinəsi" baletinin musiqisi görkəmli balet artisti, baletmeystr, xoreoqraf, teatr rejissoru, aktyor və pedaqoq, SSRİ xalq artisti Vladimir Vasilyevin diqqətini çəkir. O bu baleti Amerikada, Bakıda və hətta ərəb ölkələrindən birində səhnələşdirməyə hazırlaşırdı. "*Qalib Həsən oğlunun musiqisi* çoxsaylı *tamaşaçını valeh etməyə*

bilməzdi. Mən onu zərif ürəyə *və emosionallığa malik istedadlı bəstəkar kimi qiymətləndirirəm*... [*bunların vəhdəti*. – L.M.] *teatr* üçün çox *maraqlı* əsər ərsəyə *gətirəcək"* – deyə V.Vasilyev öz amerikalı prodüsserinə məktubunda belə yazırdı. Təəssüflər olsun ki, müəyyən səbəblərdən baleti səhnələşdirmək heç cür alınmadı.

Q.Məmmədovun yaradıcı bioqrafiyasında 1987-ci ildə ərsəyə gətirdiyi, fortepiano, səs (xanəndə) və maqnitofon lenti üçün hind fleytasının səsi ilə lentə alınmış "Zaratustra və Krişnaya iki dua" əsəri böyük rol oynayır. Q.Məmmədov hind raqası Bxopali ilə Azərbaycan Rast muğamı arasında təmasın maraqlı ortaq nöqtələrini tapır. Əsərin konsepsiyası və quruluşu bəstəkarın o dövrdə yaranmış daxili aləmini ərs etdirmiş, bir çox metafizik ideyaların öyrənilməsinə əsaslanaraq, insanların dünyanı öyrəndiyi fudamental anlayışları – varlığı, obyektləri, və onların xassələrini, məkan və zamanı, hadisələrin səbəbini, nəticəsini və ehtimallarını, mədəniyyətlərin və xalqların bir-biri ilə əlaqəsini – özləri üçün aydınlaşdırmaq cəhdinə əsaslanmış daxili aləmini əks etdirir. Əsər meditasiya zamanı müəllifin təsəvvüründə canlanan özünəməxsus assosiasiyaların təzahürü kimi ərsəyə gəlmişdir.

Cövdət Hacıyev Q.Məmmədovun bu əsərini çox yüksək qiymətləndirmiş və multikultural əlaqələr ideyasını ürəkdən dəstəkləmişdir. Məhz yaradıcılıq uğuru Q.Məmmədovu bu cür fikri genişləndirməyə və ikinci nəşrə ilhamlandırdı (2002). Bundan başqa, incəsənətin sintezinə – Culturmixa müraciəti sonrakı illərdə bəstəkar Q.Məmmədov üslubunun əsasını təşkil etməyə başladı. Və əgər bu əsərdə bəstəkar dinləyicilərin diqqətini hind Raqası ilə Azərbaycan muğamının yaxınlığına cəld edirdisə, sonralar onu Norveç xalq instrumental havaları – slotte – ilə Qədim Azərbaycan mahnı mövzuları və Qədim Alban musiqisinin tarixi arasındakı yaxınlıq və s. maraqlandırırdı.


1999-cu ildə bəstəkarın yaradıcılığında yeni mərhələ başlayır və bu mərhələ şərti olaraq "alban dövrü" adlandırıla bilər. Bu dövrün başlanğıcında Q.Məmmədov kamera orkestri üçün "Allegro Albana" konsert pyesini yazır. Müəllifin özü bu əsəri özünün ən yaxşı əsərlərindən biri hesab edir. Maraqlıdır ki, "Allegro Albana" əsərinin ilk eskizləri yolda, doğma Gəncədən Bakıya gələn qatarda yazılıb. Əsər bütünlükdə şən, bahar əhval-ruhiyyəsi ilə doludur. Bəstəkar əsəri yayda, Şəki yaxınlığındakı Kiş kəndində istedadlı Azərbaycan rəssamı Ucal Haqverdiyevin ailəsi ilə birlikdə istirahət edən zaman tamamlamışdır. Həmin vaxt Kişdə yarıdağılmış alban




kilsəsində bərpa işləri gedirdi və Q.Məmmədovla U.Haqverdiyev birlikdə dünyanın talelyi və Azərbaycanın tarixi haqqında söhbətlərə xeyli vaxt ayırmışdılar.

Məlum olduğu kimi, Kişdəki kilsəni adətən Cənubi Qafqazdakı "Kilsələrin anası" adlandırırlar. Təşəbbüskarlarından birinin 2000-ci ildə bu kilsəni ziyarət etmiş məşhur norveçli səyyah və etnoqraf Tur Heyerdalın olduğu radiokarbon arxeoloji tədqiqatlarının nəticələri də bu versiyanı təsdiqləyir.

Azərbaycan Prezidenti və Dünya Azərbaycanlılarının Ümummilli Lideri Heydər Əliyevin hakimiyyəti dövründə – 2000–2003-cü illərdə Norveç Xarici İşlər Nazirliyi tərəfindən Azərbaycan Memarlıq və İnşaat Universiteti və Norveç Humanitar Cəmiyyətinin Kişdəki kilsənin arxeoloji tədqiqi və bərpası üzrə birgə layihəsi maliyyələşdirildi. Qeyd etmək lazımdır ki, Q.Məmmədov bu alban kilsəsinin bərpasında Norveç Humanitar Cəmiyyətinin və Norveç hökumətinin mədəniyyət və bərpa









məsələləri üzrə Azərbaycan tərəfindən məsləhətçi qismində fəal iştirak edirdi.

Albaniyanın qədim tarixi Q.Məmmədovu dərindən maraqlandırırdı və bəstəkarın bu mövzuda bir neçə əsər yazması da təsadüfi deyil.

"Allergo Albana" əsərinə geri dönərək qeyd edək ki, əsər xüsusi olaraq Azərbaycan Dövlət Kamera orkestri üçün yazılıb və orkestrin bədii rəhbəri Teymur Göyçayevə həsr olunub.

Q.Məmmədovun "alban dövr"ünə aid növbəti əsəri olan "Oratorium Albanum" əsərini tərəddüdsüz Azərbaycan tarixinin musiqi abidəsi adlandırmaq olar. 2000-ci ildə Q.Məmmədov qarışıq xor və uşaq xoru, simfonik orkestr, orqan, kamança və solistlər üçün geniş miqyaslı əsər yaradır. Oratoriya ilk dəfə 26 sentyabr 2003-cü ildə Bakı şəhərində, Azərbaycan Dövlət Filarmoniyasının kamera və orqan musiqisi zalında bəstəkarın müəllif gecəsində səsləndirilmişdir. Bəstəkarın müəllif gecəsi Azərbaycanda Qafqaz Albaniyasının tarixi muzeyinin açılışı ilə eyni vaxta təsadüf etmişdir. Oratoriya Rauf Abdullayevin rəhbərliyi ilə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət simfonik orkestrinin və Gülbacı İmanovanın bədii rəhbəri olduğu Dövlət Xor Kapellasının ifasında səsləndirilmişdir. Kamançada solo partiyanı Elşən Mansurov ifa edirdi. Bu, Qalib Məmmədovun əsrarəngiz və unudulmaz müəllif gecəsi idi. Zalda görkəmli rəssam Namiq Məmmədovun konsert proqramında da təsvir olunmuş rəsmləri sərgilənirdi.

"Oratorium Albanum" müasir dövrün Azərbaycan xor musiqisi janrında ən möhtəşəm əsərlərindən biridir. Müəllif ilk olaraq XX–XXI əsrin hüdudlarında "Od Messasını" yazmağı düşünürmüş. O bu əsərini "*Mystery of Jesus Christe*" – "İsanın Sirri" adlandırmağı planlaşdırırdı (nəticədə oratoriyanın sonuncu – beşinci hissəsi bu ad altında səhnələşdirildi). Lakin bəstəkar daha sonra libretto üzərində işləyərkən əsərə müəyyən yeni çalarlar qatmışdır.

Oratoriyanın orijinallığı Azərbaycan şifahi ənənəli professional sənətinin aparıcı musiqi alətləri olan tar və dəflə yanaşı kamançanın – çoxəsrlik tarixə malik muğam üçlüyünün böyük simfonik orkestrin tərkibinə daxil edilməsindən ibarətdir. Bundan başqa, oratoriyanın obrazlarının daha parlaq nümayiş olunması və realistcəsinə ötürülməsi üçün müəllif qarışıq xorla birlikdə çıxış edən uşaq xorundan istifadə edir. Son olaraq, bəstəkarın seçdiyi mövzu – xalqların vəhdəti, mədəniyyətlərin yaxınlığı və ümumbəşəri dəyərlər əsərə xüsusi unikallıq bəxş edir. Əsərin mövzusunun açıqlanması beş hissədə həyata keçirilir, mətnlər latın dilində yazılıb ki, bu da həmin dövrdə Azərbaycan xor musiqisinin oratoriya janrında yenilik idi. Librettonun müəllifi norveçli yazıçı və şair Eyvind Skeyedir.

Oratoriya bu gün müsəlman Şərqinin ən inkişaf etmiş ölkələrindən biri olan doğma Azərbaycanın tarixinə həsr olunmuş və kökləri qədim dövrlərə, bu torpaqlarda xristian dininin etiqad edildiyi Alban dövlətinin mövcud olduğu qədim dövrə gedib çıxır.

"Oratorium Albanum" əsərinin ideyasının əsasında qədimdən "odlar yurdu" kimi tanınan Azərbaycanın tarixinin İncildən "sönməz alov" haqqında sitatlar altında interpretasiya olunaraq yenidən şəhr edilməsi dayanır. Bəstəkarın fikrincə əsərin musiqisi milliyyətindən asılı olmayaraq

dinləyicilərə Qafqaz Albaniyasının təkcə Azərbaycanın deyil, həm də bütün Cənubi Qafqazın tarixindəki əhəmiyyətini ötürməlidir.

"Oratorium Albanum" təkcə Q.Məmmədovun yaradıcılığında deyil, bütünlükdə Azərbaycan xor musiqisində ən parlaq əsərlərdən biridir. Əsərin ən mürəkkəb daxili obrazının anlaşılması, xarakterin ən detallı və dərin psixoloji aspektlərdə açıqlanması üzərində iş – bu, demək olar ki, ən vacib və ən çətin tapşırıq idi. Q.Məmmədov bu vəzifənin çətinliyini başa düşürdü, lakin daxili instinkti, peşəkarlığı, düşüncə və hisslərinin harmoniyası, zərif yaradıcı intuisiyası və qeyri-adi təfəkkürü nəticədə olduqca mühüm xor opusunun yaranmasına gətirib çıxardı [Алиева, 1990].

Eyni zamanda bəstəkarın əsas işi zaman və nəsillər arasındakı əlaqənin möhkəmləndirilməsi, mədəniyyətlərin bir-biri ilə əlaqələndirilməsi və xalqların birliyi məsələlərinə yönəldilmişdir. Etiraf etməliyik ki, Qalib Məmmədovun bədii proqnozu qüsursuz oldu. "Oratorium Albanum" əsərini tərəddüdsüz Q.Məmmədov yaradıcılığının zirvəsi adlandırmaq olar [Мамедова, 2016, с.64-81; Мамедова, 2016а].

Q.Məmmədov oratoriya üzərində işləməklə paralel olaraq alban mövzusunu davam etdirir və "İlahilər" əsərini yazır. Əsər 2003-cü ildə Kişdə bərpa olunmuş alban kilsəsinin açılışı zamanı elə kilsədə səsləndirilir. Əsər bayatı formasında yazılmış və səhnələşdirilmiş xalq rəvayətini əks etdirir. Q.Məmmədovun ideyasına görə bu, Azərbaycan xalqının tariximizdən və mədəniyyətimizdən irəli gələn zəngin ruhani palitrasını, meditasiyanın müxtəlif formalarına açıq, dərin təfəkküründən xüsusi formaları kimi göstərir (xatırladaq ki, müxtəlif kontekstlərdə "meditasiya" sözü "düşünmək", "əqli düşünmək", " fikirləri inkişaf etdirmək" mənalarını verir).

Əsəri Azərbaycan Dövlət "Yuğ" Teatrının artistlərinin vokal-instrumental triosu ifa edib (bədii rəhbər Vaqif Həsənov idi). İnstrumental müşayiət qədim Azərbaycan alətləri ney, ud, saz və qavala həvalə olunmuşdu.

Bu, müəllifin musiqi materialı ilə yanaşı qədim ibadət mədəniyyətinin elementlərini, "aroma"dan - üzərlik otu yandırmaqla, müxtəlif predmetlərin köməyilə qeyri-adi titrəyişli mistik səslər çıxaran qədim mis qablardan və su səhəngindən tökülən suyun səsindən istifadə etməklə qədim ayinləri göstərmək istədiyi özünəməxsus musiqili teatr idi. Həmçinin ibadətə ayrılan vaxtı simvolizə etmək üçün şamlar yandırılmışdı. Müəyyən qoxuların və qeyri-adi, mistik səslərin köməyi ilə bəstəkar qədim dini mərasimlərun və dualaların xüsusi atmosferini yaratmağa çalışırdı. Şifahi xalq sənətində bu elementlər, xüsusi ilə aşıqların yaradıcılığında, dastana bənzər şəkildə bu günümüzə qədər qorunub saxlanılır. Müəllifin alban xristianlığı haqqında təsəvvürü belə idi.

2002-ci ildə Q.Məmmədov E.Skeyenin sözlərinə "Drömmenes Fjell" ("Dağların yuxusu") uşaq kantatasını yazır. Bu kantata da həmçinin Qədim Alban mövzusunda idi. Norveç hökuməti Kişdə Alban kilsəsinin bərpa işlərində ən fəal şəkildə iştirak etdiyindən, onlar öz vətəndaşlarına alban xristianlığının tarixini geniş yayılmış formada çatdırmaq istəyirdilər. Və bunun üçün uşaq televiziya verilişini ən populyar forma hesab edirdilər. Kantatanın premyerası Norveçin Ulstenvik şəhərində baş tutdu. Verilişdə







Alban kilsəsi, Kiş, 2003-cü il









bütün Norveçdən seçilmiş 200-ə yaxın uşaq iştirak edirdi. Ümumilikdə kantata uşaq xoru, aktyorlar və solistlər (böyüklərin arasından 5 personaj), həmçinin kamera orkestri üçün nəzərdə tutulmuşdu. "Drömmenes Fjell" böyük uğur qazanmış, dəfələrlə Norveç televiziyasında nümayiş etdirilmişdir.

Yekun olaraq qeyd etmək istərdik ki, Qalib Məmmədov istedadlı, qeyri-adi düşüncə tərzinə malik və hər bir əsəri inandırıcı bədii obrazlarla seçilən bəstəkardır. Bəstəkar mükəmməl şəkildə tembr koloritinin zənginliyinə, incə düşünülmüş nüanslara, zərif yaradıcı intuisiyaya, üslub yığcamlığına malikdir ki, bunlar da onu çox gözəl "miniatürist" kimi təqdim edir. Eyni zamanda standart, işlənimlə həll yolları Q.Məmmədova xas deyil, dinləyicini öz fərdi yanaşma yollarını, individual üsullarını axtarmağa dəvət edir. Bəstəkarın özünə qarşı son dərəcə tələbkar olduğuna və tənqidlə yanaşdığına da diqqət yetirək. Q.Məmmədovun bir şəxsiyyət kimi ürəyiaçıqlığı, səmimiliyi və qəlb təmizliyi əsərlərində də özünü büruzə verir. Nəticədə bəstəkarın bütün əsərləri hər bir dinləyicinin qəlbinə asanlıqla yol tapır və istər musiqi həvəskarlarının, istərsə də məharətli və peşəkar musiqiçilərin qəlbini fəth etməklə geniş auditoriyanı ələ almağı bacarır.

Q.Məmmədovun yaradıcılıq potensialı olduqca əhəmiyyətlidir. Bəstəkarın praktiki fəaliyyətinin əsas məqsədi, zaman və nəsillər arasındakı əlaqənin qorunub saxlanılması, mədəniyyətlər və xalqlar arasındakı əlaqənin, onun fəaliyyətinin dərin humanizm və məzmununu inandırıcı şəkildə sübut edir.

Bəstəkar Q.Məmmədovun bədii obrazlarının dünyası onu müasirlərindən fərqləndirərək özünəməxsus qeyri-adi konsepsiyalarla, rəngarəng tembr müxtəlifliyi ilə çox səmimi, aydın və emosional çalarlarla əks olunmuşdur. Onun bütün yaradıcılığını dünyadan çox dünyanı dərk etmək qabiliyyəti səciyyələndirir.

İntuisiya insana deyir ki, yaxın zamanda bəstəkar yenidən alban mövzusuna qayıdacaq, bunun üçün xüsusən çox gözəl səbəb var.

Azərbaycanın İkinci Qarabağ Müharibəsindəki böyük qələbəsindən sonra Qarabağ və bir sıra alban kilsələri, həmçinin Azərbaycanın Kəlbəcər rayonunun Vəng kəndi yaxınlığındakı qədim Xudavəng alban monastr kompleksi (VI–XIII əsrlər) işğaldan azad edildi. Bütün bu illər ərzində ermənilər kilsəni saxtakarcasına bütün dünyaya qədim erməni kilsəsi kimi təqdim edib. Nəhayət, 30 illik işğaldan sonra Azərbaycanın udin xalqı öz Tanrı Məbədinin divarlarına geri qayıtdı. Udinlər qədim Qafqaz Albaniyası dövlətindən xristianlığı miras almış yeganə etnosdur.

Azərbaycan xalqı həmişə tolerant olmuşdur. Ölkə ərazisində yaşayan heç bir millət və xalq heç vaxt hər hansı təzyiqlə üzləşməyib. Azərbaycanın yaradıcı ziyalılarının - bəstəkarların, yazıçıların, şairlərin, rəssamların yaradıcılıq zəkası hamı tərəfindən eyni dərəcədə sevilir və hörmət edilir. Qalib Məmmədovun Azərbaycanda yaşayan alban-udin xristian icmasının nümayəndələri ilə xüsusi dostluq münasibətləri vardır. Və biz bəstəkarın yeni əsərlərlə istedadının bütün pərəstişkarlarını sevindirəcəyinə və yaradıcılığında hələ alban dövrünün başa çatmadığına ümid bəsləyirik.

ƏDƏBİYYAT:

1. Hacılı Ü. Azərbaycan–Norveç musiqi əlaqələri: Sənətşünaslıq fəlsəfə doktoru diss. Avtoref. Bakı, 2016, 25 s.
2. Алиева Н.А. Об аспектах полифонического многоголосия в музыке устной традиции Азербайджана. Научно-методическая разработка. Баку, 1990, 56 с.
3. Гаджибеков У.А. Основы азербайджанской народной музыки. 2 изд., Баку: Азгосмузиздат, 1957, 116 с.
4. Мамедова Л.М. Музыка, в которой я живу: Галиб Мамедов – 70 // «Musiqi dünyası», Bakı, 2016, №1/66, с.59-67.
5. Мамедова Л.М. «Oratorium Albanum» Галиба Мамедова // «Musiqi dünyası», Bakı, 2016, №2/67, с.64-81.
6. Мамедова Л.М. Творческий путь Галиба Мамедова. «Oratorium Albanum». Учебное пособие. Баку: Тип. АГПУ, 2016а, 92 с.
7. Мамедова Л.М. Традиции и новаторство в хоровом творчестве Галиба Мамедова // Электронный журнал «Harmony» 2015, №14, 3 с. *http://harmony. musiqi-dunya.az*
8. Мамедова Н.Б. Обработки народных песен для хора (на примере творчества Галиба Мамедова) // Электронный журнал «Музыковедение», М., 2020, №9, с.32-40 *https://elibrary.ru/item.asp?id=43946064*
9. Рагимова Н.А. Норвежские страницы азербайджанской музыкальной культуры// журнал «Şərqi», Bakı, 2/2002, с.6-10.
10. Сеидов Т.А. Развитие жанров азербайджанской фортепианной музыки. Баку: Шур, 1992, с.215-217.

Сайтография: http://www.galibgasan.com







Rzayeva Səltənət
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin
"Dizayn və dekorativ-tətbiqi incəsənət" kafedrasının müəllimi,
sənətşünaslıq üzrə fəlsəfə doktoru

QAFQAZ ALBANİYASININ XRİSTİANLIQDAN ƏVVƏLKİ TƏSVİRİ RƏMZLƏRİNİN TİPOLOGİYASI

Azərbaycan ərazisində aşkarlanmış və tarixi e.ə. IV–III əsrlərə aid olan tarixi və sənət abidələrində təsvir edilmiş rəmzlər Qafqaz Albaniyasının xristianlıqdan əvvəlki təsviri rəmzlərinin tipologiyasının öyrənilməsi üçün dəyərli mənbədir. Şübhəsiz, bunlar məlumatların daşınması və ötürülməsi üçün vasitə kimi istifadə olunub və bu səbəbdən qədim tarixin öyrənilməsində böyük əhəmiyyət kəsb edir. Beləliklə, rəmz Qafqaz Albaniyasının əhalisinin dünyagörüşünün oxunulmasını mümkün edən açar qismində çıxış edir.

Azərbaycan ərazisində petroqliflər, keramik, tunc və digər məmulatlar üzərində təsvir olunmuş çoxlu sayda rəmzlər tapılmışdır. Tədqiq olunan təsvirlərin əksəriyyəti S.M.Qazıyev, İ.M.Cəfəzadə, T.İ.Qolubkina, R.M.Vahidov, O.Ş.İsmizadə, D.N.Rüstəmov, F.M.Muradova, C.A.Xəlilov, İ.H.Nərimanov, F.L.Osmanov, A.B.Bədəlov, A.İ.Ələkbərov, Q.O.Qoşqarlı, İ.Babayev, Q.Cəbiyev, Q.M.Aslanov, N.İ.Rzayev, R.Əfəndi, N.V.Quluzadə, F.S.Xəlilli, G.K.Axundova və digər arxeoloq-alimlər və sənətşünaslar tərəfindən diqqətlə öyrənilmişdir.

Bu tədqiqatın aktuallığı e.ə.IV əsr və b.e.III əsrində Qafqaz Albaniyasının ərazisində mövcud olmuş təsviri rəmzlərin indiyədək xüsusi tipoloji tədqiqatın obyekti olmaması ilə əlaqədardır. Alimlər rəmzləri müəyyən coğrafi areal, zaman müddəti, məmulat növləri, həmçinin material çərçivəsində öyrənmişlər.

Tədqiqatda rəmzlərin təsnifatını müəyyən etmək üçün həlledici parametr qismində təsvirlərin növlər üzrə bölgüsü seçilmişdir. Təsvirlər **antropomorf**, **astral, həndəsi, zoomorf, bitki, polimorf növlərə, həmçinin damğalara və işarələrə bölünür.** Bundan başqa, tədqiq olunan rəmzlərin semantik mənalarını aydınlaşdırmağa cəhd göstərilmişdir. Bu mövzunun genişliyi ilə əlaqədar olaraq, tarixi, arxeoloji, sənətşünaslıq, etnoqrafik **ədəbiyyat** və folklor məlumatları **əsasında** rəmzlərin semantikasının **öyrənildiyi** tədqiqatlar [Рзаева, 2011, 2013, 2015, 2019] və son illər **ərzində** arxeoloqlar tərəfindən aşkarlanmış məmulatların **üzərindəki** rəmzlərin tədqiqi də **əlavə** olunmuşdur.

Təsvir üsuluna görə bütün rəmzlər qrafik iki ölçülü və plastik üç ölçülü təsvirlərə bölünür. İki ölçülü qrafik təsvirlər arasında həm ayrı-ayrı, həm də kompozisiyalarda birləşmiş rəmzlərə rast gəlinir.

Antromorf rəmzlər. Qrafik kompozisiya təsvirləri mövzudan asılı olaraq ovçuluq, döyüş, kult və müəyyən edilməmiş mövzulara ayrılır.

1. ***Ovçuluq mövzusu***- daha qədim olan və Qobustan qayaüstü rəsmlərinin mövzularında rast gəlinən bu mövzu ovçuluq kultunu əks etdirir. Aşağıdakı alt-növləri var: *piyada ovçu* [Cəfərzadə, 1999, c.194, рис.10,13,14]*, ov edən atlı* [Ахундова, 2020, табл.XIX, рис.10; Cəfərzadə, 1999, c.178, рис.4.] *və insanın* şirlə *mübarizəsi* [Бабаев, 2010, c.19; Ахундова, 2020, табл.XXX, рис.5, 9].

2. ***Döyüş mövzusu*** – atlı ilə piyada döyüşçünün vuruşma səhnəsi asma möhürdə təsvir edilmişdir [Ахундова, 2020, c.66].

3. ***Kult mövzuları*** – aşağıdakı süjetlərlə: *kahinlər od mehrabının qarşısında* [Рзаев, 1976, рис.166]; *insan həyat ağacının qarşısında* [Ахундова, 2020, табл.XVIII, рис.1]; *adorant vəziyyətdə (dua edən) insan yanında heyvanla* [Cəfərzadə, 1999, c.154, p.11], *ulduzla* [Qaziyev, 1953, табл.II, рис.1] və *fallik səhnə* [Рзаев, 1964, рис.79].

4. ***Antik süjetlərə*** üzüklərin üzərində də rast gəlinir [Ахундова, 2020, c.93, табл.XVIII, рис.6].

5. ***Müəyyən edilməmiş süjetlərə*** fraqment şəklində saxlanılmış və ya ayırd edilməsi mümkün olmayan süjetlər aiddir [Azərbaycanda arxeoloji tədqiqatlar 2015–2016, c.253, рис.12].

Azərbaycanda tapılmış plastik insan təsvirlərini **monumental daş heykəllərə**, əhəngdaşı, **gil və tuncdan hazırlanmış kamera heykəllərinə**, həmçinin **keramik məmulatlara yerləşdirilmiş antropomorf qablara və heykəlciklərə** ayırmaq olar.

Kamera heykəlləri. Plastik antropomorf rəmzlərin arasında iki əsas növ mövcuddur:

1-ci növ. ***Beldən yuxarı təsvirlərə malik heykəlciklər*** **(1 üm.)** [Azərbaycan Antropomorf terrakotlar. Kataloq[1], 2010, рис.52].

2-ci növ. ***Ayaq*** üstə ***duran bütöv boylu heykəlciklər*** –bunlar da iki növə ayrılır.

2a) *ayaqları* əvvəldən *ayırd edilən* (Şəkil **1**) [AAт. Kataloq, 2010, рис.2, 3, 8-23, 26-31, 33-44, 51; Алекперов, 1994, табл.III, рис.1, 2, табл.IV, рис.4, табл.VI, рис.5, табл.VII, рис.1-3, табл.VIII, рис.5; Бадалов, 2003, табл.XXI, рис.2]. Bu geniş qrupa **49** nümunə daxildir. Antik dövrün bu növə aid terrakot qadın heykəlcikləri bir qayda olaraq, ayaq üstə, çılpaq vəziyyətdə, bir neçə cərgə yapışdırılmış lentlər, bilərziklər və kəmərlərdən ibarət boyunbağı formasında bəzəklərlə təsvir olunmuşdur. Uzun və yuxarı doğru incələn boynun üzərində üzsüz başa (**3 üm.**) və hörükləri və başında çalması olan üzə bənzər təsvirə (**2 üm.**) rast gəlinmişdir. Terrakot heykəlciklərin çoxunun başı, əlləri və ayaqları sınıb, lakin bütöv olanlara da rast gəlinir. Bəzi heykəlciklər kobud hazırlanıb, bəzisi isə qadın bədəninin plastikasını çox gözəl ötürür.

2b) *ayaqları ayırd edilməyən heykəlciklər* **(3 üm.),** bəzilərinin təməli konus formasındadır. Ayaqlar göstərilməyib, belə ki, fiqurun aşağı hissəsi aşağıya doğru genişlənir və ola bilsin ki, don və ya ətəyi təsvir edir. Cəmi üç qadın heykəlciyi var və bunlardan heç birinin başı qalmayıb. Xınıslı qəsəbəsində (Şamaxı) iki [AAт. Kataloq, 2010, рис.53, 60], Şamaxıda isə bir heykəlcik tapılmışdır [Алекперов, 1994, табл.IV, рис.2, инв.№72; Бадалов, 2003, табл.XXI, рис.1, XX, рис.1; Ахундова, 2020, табл.XIII, рис.14].

Həmçinin **qadın formasında antropomorf qabları** (**3 üm.**) (Şəkil **2**) [AAт. Kataloq, 2010, рис.1, 68; Алекперов, 1994, табл.XVI, рис.4] və **antropomorf detalları olan qabları** qeyd etmək lazımdır (3 üm.) [Xəlilov, 1973; Алекперов, 1994, табл.I, рис.4, 6, с.34; Quluzadə, 2012, рис.19]. Nərgizavadan tapılmış və üzərində bir neçə cərgə burma qaytan olan qab fraqmentinin bənzər qadın başları ilə oxşarlığına əsasən qadına aid olduğu düşünülür.

Cins əlamətləri **olmayan heykəlciklər** qrupu mövcuddur (**17 üm.)**: *bütöv heykəlciklər* [AAт. Kataloq, 2010, рис.24, 25, 32, 47, 65; Алекперов, 1994, табл.II, рис.2, IV, рис.6] və *fraqmentlər* [AAт. Kataloq, 2010, рис.4, 5, 46, 59, 63; Алекперов, 1994, табл.IX, рис.1, III, рис.3, 4, IX, рис.3, V, рис.4, II, рис.5]. Mollaisaqlıdan tapılmış və bənzəri bütöv qadın heykəlciyində olan baş fraqmenti qalmaqdadır, buradan da belə nəticəyə gəlmək olar ki, bu baş da qadın heykəlciyinin üzərində olub [AAт. Kataloq, 2010, рис.59].

Növbəti qrupa cinsiyyəti ayırd edilə bilən heykəlcik **fraqmentləri aid edilir** (**15 üm.**) və bunların arasında 11 fraqment *qadın heykəlciyinə aiddir* [AAт. Kataloq, 2010, рис.6, 7, 49; Алекперов, 1994, табл.VII рис.4, 6, 8, VI, рис.7, II, рис.6, IX, рис.4; Kərimov, Əliyev 2011, c.208; Quliyev, Xəlilli 2009, c.223], 4-ü *isə kişi başıdır* [Алекперов, 1994, табл.I, рис.5, V, рис.7; Рзаев, 1976, с.191].

Beləliklə, nəzərdən keçirilən **91** plastik antropomorf təsvirdən **69-u** (53 heykəlcik +3 qab + 13 fraqment (qad.)) heykəlciyin və qabın qadına, **6-sının** kişiyə (fraqmentlər), **16-nın** isə naməlum cinsə aid olduğu hesab edilir.

Bunların çoxunun başı, əlləri və ayaqları sınmışdır, lakin **18** nümunənin başı var (9 qadın, 6 kişi, 3 cins əlaməti olmayan heykəlcik). Bunlardan 8-i demək olar ki, bütöv heykəlciklər; 2-si bütöv keramik məmulatlar, 8-i isə fraqmentlərdir.

Göründüyü kimi, heykəlciklərin əksəriyyətində qadınlar təsvir olunub. *A.İ.Ələkbərovun fikrincə qadın heykəlcikləri ana ilahənin simvolik obrazları olub onun kultunun müxtəlif ayinlərdə istifadə olunan predmetlərini təşkil edir* [Алекперов, 1994, с.63-66, 68-74; Рзаева, 2015, с.8-9,12].

Yuxarıda qeyd olunan kamera heykəllərindən başqa Azərbaycan ərazisində **nəhəng daş heykəllərə** də rast gəlinir (Şəkil **3**). Zərdüştilər, xristianlar və müsəlmanlar tərəfindən bütpərəstlik abidələri dağıdıldığından bu cür heykəllər azdır. Daş antropomorf heykəllər Bərdə yaxınlığında Şatırlı kəndində, Şamaxı rayonunda (Xınıslı, Dağ Kolanı, Çıraqlı) və s. yerlərdə aşkarlanmışdır. Tədqiqatçılar

[1] *Azərbaycan Antropomorf terrakotlar. Kataloq, 2010 – Aam Kataloq*

öz əsərlərində onları ətraflı gözdən keçirmişdir [Халилов, 1985, табл.XXXVI, с.188-189; 1986, с.78-81; Геюшев, Халилов, 1986; Рзаев, 1976, рис.185-190, с.179-185; Эфенди, 1986]. Heykəllər iri kəsilmiş daş parçalarından bütöv boyda və ya dizəcən yonulub və bir çoxunun başı qalıb. Bunlar bədən hissələri detallı işlənilməmiş, üz cizgilərinin və bədənin şərti verildiyi sxematik şəkildə hazırlanmış iri monolit fiqurlardır. Bu fiqurların arasında əllərin iki vəziyyətinə rast gəlinir: dirsəkdən bükülmüş və yuxarı qaldırılmış vəziyyətdə və sol əl sağ əlin üzərində olmaqla hər iki əl sinəyə sıxılmış vəziyyətdə (bəzilərində sağ əl qarnın üzərindədir və ya sol böyrə doğru uzanır).

Moisey Kalankatuklu "Albaniya tarixi" əsərində bu daş fiqurların qüdrətli döyüşçü və sərkərdələrin şərəfinə ucaldıldığını qeyd etmişdir [Эфенди, 1986]. C.Xəlilova görə "Albaniyada yaşayışa dair məlumatlar var...tanrıların və əcdadların heykəlləri. Ola bilsin ki, araşdırdığımız heykəllər həm də *kult xarakteri daşımışdır….. Bu cür heykəllərin* çoxunu *qəbirüstü abidələr təşkil edirdi..."* [Халилов, 1985, с.188-189]. N.Rzayev tapılmış heykəllər arasında xatirə abidələri ilə yanaşı həmçinin *kult xarakterli abidələri, məsələn Tovuz rayonu, Qəribli kəndində aşkarlanmış qadın fiqurunu qeyd edir* [Рзаев, 1976, с.185]. Onun fikrincə həmçinin *"qəbirüstü abidələr dünyasını dəyişmiş* şəxslərin, *böyük ehtimalla cəsur və adlı-sanlı döyüşçülərin plastik obrazlarını təcəssüm etdirir"* [Рзаев, 1976, с.182]. Bu cür ənənə xüsusən qədim türk xalqları üçün xarakterikdir ki, bu da tədqiqatçıların diqqətini az çəkməmişdir.

Göründüyü kimi, antropomorf rəmzlər Qafqaz Albaniyasının incəsənətində daima yer almışdır.

Astral rəmzlər. Qədim albanlar göy cisimlərinə sitayiş edirdilər və bu cisimləri müxtəlif işarələr vasitəsilə qayaüstü rəsmlərdə, keramik və metal məmulatlarda təsvir edirdilər. Bu növə göy cisimlərinin formasını təkrarlayan rəmzləri (dairə, ulduz, aypara), həmçinin hamı tərəfindən qəbul edilmiş və müxtəlif semantikaya malik astral rəmzləri – xaç, svastika və spiralı aid edirik. Günəş işarələrinin bir neçə növü var və qədim dövrdə ən çox yayılmış işarələr idi.

Dairə rəmzi. *Adi dairə rəmzi* [Ахундова, 2020, с.54-55] və *konsentrik dairələr* [Ахундова, 2020, табл.XIV, рис.3; Халилов, 1985, табл.VII, рис.6], həmçinin şölələri *uzanan* üç *növ dairə*: 1) şüaları uzanan dairə (Şəkil **4**) [Исмизаде, 1956, табл.XIV, рис.1]; 2) dairə içərisində şüaları uzanan dairə [История Азербайджана, 1958, с.74; Ахундова, 2020, табл.XII, рис.4]; 3) içərisində bir və ya daha çox dairə olan və şüaları uzanan dairə [Гошгарлы, 2012, табл.XXXIV, рис.5; Quluzadə, Ağayev, 2012, с.69, 72] təsvirləri aşkarlanmışdır.

Ulduz *rəmzi astral kultun mövcudluğundan xəbər verir.* Mingəçevirdə qaz və maral fiqurlarının yanından tapılmış keramik qabın üzərində səkkiz şüalı, Mingəçevirdə kişi fiqurunun yanından tapılmış möhürün üzərində isə altı şüalı ulduz var [Рзаев, 1964, рис.84, 86; Qaziyev, 1953, табл.II, рис.1].

Aypara *rəmzi Ay kultundan xəbər verir,* açıq hissəsi üzü aşağı vəziyyətdə olmaqla Yaloylutəpə mədəniyyətinə aid qabların üzərində rast gəlinir (Şəkil **5**) [Исмизаде, 1956, табл.XIV, рис.2; табл. XVII, рис.1; табл.XX, рис.2; Халилов, 1985, табл.V, рис.4; Рзаев, 1976, рис.75].

Xaç *rəmzi dünyanın dörd tərəfini və Günəşi bildirir,* Mingəçevirdə tapılmış muncuğun üzərində profildən quş təsvirinin yanında, həmçinin keramikada işarə kimi rast gəlinir [Vahidov, 1961, табл.X, рис.19].

Svastika *rəmzi dünyanın dörd tərəfini, hərəkət ideyasını bildirir və Günəş rəmzidir.* Əsasını xaç təşkil edən dördtərəfli *svastikaya* 23 nömrəli küp qəbirdən tapılmış muncuğun və üzüyün üzərində rast gəlinir [Ахундова, 2020, табл.XVIII, рис.10].

Spiral *rəmzin, mənasını bir* çox *tədqiqatçılar Günəşlə, həmçinin həyatın hərəkəti ilə* əlaqələndirirlər. Spiral rəmzi tuncdan hazırlanmış asma bəzəklərdə təsvir olunmuşdur (Şəkil **6**) [Quluzadə, Ağayev, 2012; Xəlilov, Aslanov, 1973, табл.II, рис.15].

Sənət abidələrində təsvir olunmuş astral *rəmzlər* göy cisimlərinə pərəstişə daxil olan dini kultları əks etdirir [Рзаева, 2015, с.7, 13-14]. Faktiki material yalnız Strabonun albanların Helios, Zevs və Selenaya pərəstiş etdiyinə dair məlumatlarını təsdiqləyir [Алиев, 1992, с.151-152].

Həndəsi rəmzlər. Xətt, üçbucaq-ziqzaq, romb-şəbəkə.


Xətt *rəmzindən* Azərbaycanın müxtəlif məmulatlarının bəzədilməsində geniş istifadə olunmuşdur. Adətən bir və ya daha çox xətt qabın boğazını dövrələməklə haşiyə xətləri formalaşdırır. Bu rəmz predmetləri dövrələməklə bununla onları şər qüvvələrdən qoruyurdu.

Antropomorf  *1*  *2*  *3*

Astral  *4*  *5*  *6*

Həndəsi  *7*  *8*  *9*

Zoomorf  *10*  *11*  *12*

Bitki  *13*  *14*

Polimorf  *15*  *16*  *17*

İşarə və damğalar  *18*  *19*  *20*

Üçbucaq *rəmzinə* ayrılıqda üçbucaq formalı sırğalarda, həmçinin üfüqi xətt üzrə birləşərək ziqzaq şəkilli ornamentə (Qafqaz Albaniyası incəsənətində ən çox yayılmış ornamentlərdən biri idi) çevrilmiş formada rast gəlinir (Şəkil **7**). Zınqırovlarda kəsiklər adətən üçbucaq formasında olurdu [Ахундова, 2020, табл.XVI–XVII]. Üçbucaq işarəsi dağ mənası verə bilər. Ziqzaq şəkilli üfüqi xətt dağ silsiləsini, daha yumşaq variantda isə axan suyu bildirir və qoruyucu rolunu oynayır.

Romb *rəmzinə* Qafqaz Albaniyasının incəsənətində rast gəlinir. O, ayrılıqda təsvir oluna və ya üfüqi xətt üzrə birləşərək haşiyə formalaşdıra bilər (Şəkil **8**) (bəzən şaquli xətt üzrə birləşir) [Əliyev, Babayev, Hüseynova, Əliyev, 2009, c.192]. Romb rəmzləri bir-biri ilə birləşərək Mingəçevirdəki möhürün üzərində olduğu kimi şəbəkəli ornament yaradır (Şəkil **9**) [Vahidov, 1961, табл.X, рис.22].

Rombun erkən əkinçilik *rəmzi* kimi hamı tərəfindən qəbul edilmiş mənası məhsuldarlıq kultu ilə əlaqəlidir. Rombların birləşməsi ilə formalaşmış şəbəkəli ornament qoruyucu və məhsuldarlığın gücləndirilməsi mənasını daşıyırdı. Beləliklə, ən çox yayılmış həndəsi fiqurlar arasında xətt rəmzini, üçbucaq-ziqzaq şəkilli xətti və romb-şəbəkəni qeyd etmək olar [Рзаева, 2015, c.13-14].

Zoomorf rəmzlər. Bunların arasında quş, ilan, maral, at, öküz, keçi, qoyun, yırtıcı heyvan (pişikkimilər ailəsi, canavar, it) və dovşan *rəmzlərinə* rast gəlinir.

Quş *rəmzinə* Alban incəsənətində davamlı rast gəlinir (zoomorf qablar, həmçinin qabların və üzük-möhürlərin üzərində dekor formasında) [Бабаев, 2010, c.19, 21]. Müxtəlif quş *rəmzləri* arasında əsasən ördək və qaz təsvirləri üstünlük təşkil edir, bəzən isə qartal, xoruz və tovuzquşu təsvirlərinə rast gəlinir (Şəkil **10**) [Ахундова, 2020, табл.XV, рис.7; табл.XXXII, рис.7; Казиев, 1949, табл.IV, рис.4]. Həmçinin həyat ağacının qarşısında dayanmış su quşlarının təsvirinin olduğu kompozisiyalara rast gəlinir [Рзаев, 1964, рис.82, 84]. Ördək obrazı da zoomorf qablar arasında çox yayılmış və daha sonralar zoomorf mehtərəyə çevrilmişdir [Рзаев 1964, c.10; Голубкина 1951, рис.10, 11; Бадалов, 2003, табл.XXV, рис.3].

Quş obrazı amulet rolunu oynayırdı, həmçinin Günəş, məhsuldarlıq və dəfn kultları ilə, eləcə də zərdüştiliklə əlaqələndirilmişdir [Рзаева, 2015, c.7-10].

İlan rəmzi qabın yuxarısına doğru şaquli istiqamətdə sürünən vəziyyətdə və ya üfüqi istiqamətdə bütün qabı dövrələmiş formada təsvir olunmuşdur [Рзаев, 1964, рис.16]. Zərgərlik sənətində ilan obrazından çox vaxt sırğa və bilərziklərin hazırlanmasında istifadə olunurdu [Ахундова, 2020, табл.XXIII, рис.2, 3; табл.XXIV, рис.2, 4, 5; табл.II, рис.9, 10].

Müxtəlif məmulatların üzərində təsvir olunmuş ilan rəmzi erkən mərhələdə ola bilsin ki, amulet və qoruyucu mənası verirdi, lakin sonralar dini görüşlərin mürəkkəbləşməsi ilə yeraltı dünya ilə əlaqələndirilməyə və dəfn kultunda istifadə olunmağa başlanıldı [Рзаева, 2015, c.8-10].

Maral rəmzi Qobustan qayaüstü rəsimlərində, keramik qabların, sümük darağın [Рзаев, 1976, рис.161], tunc medalyonun və möhürlərin üzərində aşkarlanmışdır [Vahidov, 1961, табл.XIV, рис.4]. Tuncdan maral bədəni formasında asma bəzəklərin üç növü yayılmışdır: 1) maral formasında asma bəzək [Quluzadə, Ağayev, 2012]; 2) maral formasında, ayaqları halqa şəklində asma bəzək [Асланов, Нариманов, 1962, табл.V, рис.5,6]; 3) arxaya baxan maral formasında asma bəzək [Quluzadə, Ağayev, 2012, c.63]. Gildən maral bədəni formasında zoomorf qabların üç növü aşkarlanmışdır: 1) qabın boğaz hissəsi kürəyində olan maral [Бадалов, 2003, табл. XXV, рис.1, 2,5]; 2) qabın boğaz hissəsi sağrısında olan maral [Quliyev, Əbdürəhmanov, Quluzadə, Xəlilli, 2011, c.188]; 3) riton (Şəkil **11**) [Голубкина, 1951, c.19, рис.29]. Maral bədəninin fraqmentləri də mövcuddur [Алекперов, 1994, табл.XIV, рис.5]. Maral təsvirinə aşağıdakı qrafik kompozisiyalarda rast gəlinir: 1) maralların yerişi [Xəlilov, 1973, c.251-257]; 2) ov və parçalama səhnəsi [Azərbaycan arxeoloji qızıl və gümüş əşyaları, 2013, рис.143]; 3) kult səhnələri: maral həyat ağacının yanında [Рзаев, 1964, рис.13; Muradova, Rüstəmov, 1986, табл.IV, рис.2], maral adorant vəziyyətində insan fiqurunun yanında [Cəfərzadə, 1999, c.154, рис.12].

Tədqiqatçılar maralın qədim albanlar **üçün** *müqəddəs heyvan olduğunu hesab edirlər* [Рзаев, 1964, c.11; Göyüşova, 2018, c.147-149; Ахундова, 2020, c.165-169 и др.]. *Maral obrazları totemizmlə, qadın tanrısı heyvanların anası, Günəş və məhsuldarlıq kultu, həyat ağacı ilə* **əlaqələndirilir** *və qoruyucu rolunu oynayırdı. Orta* **əsr** *keramikalarında və qəbirüstü daşlarda, xüsusən*

ov səhnələrində maral təsvir etmək **ənənəsi** *davam etdirilirdi* [Rzayeva, 2011, c.178-208].

At rəmzinə Qobustan qayaüstü rəsmlərində, gildən hazırlanmış kamera plastikasında və tuncdan asma bəzəklərdə, zoomorf gil qablarda və onların detallarında rast gəlinir. At formasında tuncdan asma bəzəklər və terrakot kamera heykəlcikləri Nərgizava, Mollaisaqlı və İsmayıllıda aşkarlanmışdır (Şəkil **12**) [Quluzadə, Ağayev, 2012, c.89, 91-94, 96, 97; Ахундова, 2020, табл.XV, рис.2; Алекперов, 1994, табл.XIV, рис.1, 2]. At fiqurları və yarımfiqurları qablarda aktiv detal kimi istifadə olunurdu [Голубкина, 1951, рис.6]. Müxtəlif rəsmlər arasında ayrı-ayrı at təsvirləri, aşkar edilmişdir: ov [Cəfərzadə, 1999, c.178, рис.4; Ахундова, 2020, табл.XIX, рис.10]; döyüş səhnəsi [Ахундова, 2020, табл.XIX, рис.5] və müəyyən edilməmiş süjet [Azərbaycanda arxeoloji tədqiqatlar 2015–2016, c.253, рис.12].

Qədim Azərbaycan **əhalisi** *bütün ev heyvanları arasından* **ən çox** *ata ehtiram bəsləyirdi. Ata* **ən əziz** *münasibət onun (atın) bu xalqlar***ın** *həyatında böyük rol oynamasının nəticəsi idi. At obrazı amulet hesab edilir, ilahə-Ana ilə, totemizmlə* **əlaqələndirilir,** *məhsuldarlıq kultu ilə, həmçinin gün***əş** *və dəfn kultu ilə* **əlaqəli** *sayılır* [Рзаева, 2015, c.7-10].

Öküz **rəmzi** müxtəlif təsvirlərdə kamera terrakot heykəlcikləri, gildən riton, qabların fraqmentləri və tuncdan asma formasında tapılmışdır [Ахундова, 2020, c.170; Рзаев, 1976, рис.7; Алекперов, 1994, c.42; Quluzadə, Ağayev, 2012, c.85, 86].

Öküz rəmzi kişi tanrısı, Ay, totemizmi və məhsuldarlıq ilə əlaqələndirilir, həmçinin qurbanlıq heyvandır[Рзаева, 2015, c.7,9,10].

Keçi rəmzi daha çox Qobustanın müxtəlif dövrlərə, o cümlədən antik dövrə aid petroqliflərində təsvir olunmuşdur [Cəfərzadə, 1999, c.145, рис.2; c.149, рис.8; c.193, рис.2,4,5]. Qazaxda tapılmış gil tablo fraqmentində həyat ağacının qarşısında durmuş keçi təsvir olunub [Muradova, Rüstəmov, 1986, табл.IV, рис.2]. Keçinin təsvir olunduğu gil kamera heykəllərinə [Алекперов, 1994, табл. XV, рис.9, 10, 15], həmçinin zoomorf qablara [Голубкина, 1951, рис.28] da rast gəlinir. Keçi rəmzi Günəş, totem, məhsuldarlıq, bahar, bolluq və təbiətin yaşam gücünün inkişafının rəmzidir, su və ağac ilə əlaqələndirilir, gözdəymədən qoruyur [Рзаева, 2015, c.7-9].

Qoç rəmzi Qafqaz Albaniyasının keramik qabları çox vaxt qoç təsviri ilə bəzədilirdi. Müxtəlif heyvan fiqurları və yarımfiqurlarının təsvir olunduğu qablar arasında plastik qoç təsvirlərinin olduğu qablar üstünlük təşkil edirdi. Qoç bədəni və ya bədən hissələri formasında qab dəstəkləri və lüləklərinə, həmçinin ucları qoç-ibtidai öküz formasında düzəldilmiş bilərziyə rast gəlinmişdir [Голубкина, 1951, рис.5, 15, 16,17, 26, 32, 34; Рзаев, 1964, рис.20, 80; Алекперов, 1994, табл.XV, рис.17; табл.III, рис.5; табл.XIV, рис.6; Ахундова, 2020, табл.XXIV, рис.3]. Bu rəmzə həmçinin Lənkəranda tapılmış gümüş boşqabın üzərində rast gəlinir [Кошкарлы, 1985, рис.3а].

Qoç totem hesab edilir və Günəşlə, su ilə, məhsuldarlıqla əlaqələndiriiir və müxtəlif ayinlər zamanı qurban edilirdi [Рзаева, 2015, c.7, 9-10].

Pişikkimilər ailəsinə aid yırtıcıların rəmzlərinə istər heykəl [Əfəndi 2001; Рзаев 1976, рис.192], istərsə də qrafik təsvir formasında [Vahidov, 1961, табл.XIV, p.7] rast gəlinirdi. Kompozisiyaların arasında insanın şirlə döyüş səhnəsini [Бабаев, 2010, c.19; Ахундова, 2020, табл.XXX, рис.5, 9] və ov-parçalama səhnəsini [Cəfərzadə, 1999, c.169, рис.5] qeyd etmək olar.

Pişikkimilər fəsiləsinə aid yırtıcı rəmzi totemizmlə, günəş kultu ilə əlaqələndirilirdi, həmçinin təsvir olunduğu predmetlər üzərində qoruyucu funksiyaya malik idi [Рзаева, 2015, c.7-9].

İt **rəmzi.** Ayrı-ayrı it təsvirlərinə Qobustan qayaüstü rəsmlərində [Cəfərzadə, 1999, c.147], üzüklərin üzərində [Ахундова, 2020, табл.XVIII, рис.2], həmçinin kamera heykəli formasında [Алекперов, 1994, табл.XIII, рис.4, табл.XV, рис.12; Бадалов, 2003, табл.XXVII, рис.5] rast gəlinir. İt fiquru bir sıra keramik qabları bəzəyir [Голубкина, 1951, рис.7; Рзаев, 1964, рис.8; 64; Xəlilov, 1973, c.251-257]. Ov səhnəsinin təsvir olunduğu aşağıdakı kompozisiyalar mövcuddur: 1) it insanla ovda [Cəfərzadə, 1999, c.194, p.10]; 2) təqib və parçalama səhnəsi [Cəfərzadə, 1999, c.252, рис.14,15]; 3) mübarizə səhnəsi [Cəfərzadə, 1999, c.227, рис.1, 2]. İtin ilk növbədə mühafizə heyvanı olduğunu nəzərə aldıqda onun qablar və digər predmetlər üzərində təsviri də eyni funksiyanı yerinə yetirirdi - qabın

içərisindəkiləri, sahibini şər ruhlardan, gözdəymədən qoruyurdu [Рзаева, 2015, с.9-10].

Qədim Azərbaycan incəsənətində təsviri ***dovşan rəmzlərinə*** epizodik olaraq rast gəlinir [Бадалов, 2003, табл.XXVII, рис.1; İsmizadə, 1959, рис.5].

Müxtəlif mifopoetik ənənələrdə quş və heyvan rəmzləri dini-mifoloji ayinlər sisteminin müxtəlif funksiyalara malik vacib elementi kimi çıxış edir. Onlar ilk növbədə totem olub zamanla qəlbin təcəssümünə, demiurqa və tanrıya, onun yardımçısına və ya atributlarına çevrildi. Onların semantikası insanların dini görüşlərindəki dəyişikliklərə uyğun olaraq dəyişirdi.

Bitki rəmzləri. Bunlara şərti-naturalist *təsvir olunmuş ağac* (Şəkil **13**) [Рзаев, 1964, рис.82, 84, 86; Бадалов, 2003, табл.XXVI рис.1; Халилов, 1985, табл.V, рис.2], *ağac-palmetta* [Muradova, Rüstəmov, 1986, табл.IV, рис.2] və *gülşəkilli naxış (rozetka) aiddir*. *Gülşəkilli naxışın* iki növü var: uzanan ləçəkləri olan dairə (Şəkil **14**) [Ахундова, 2020, табл.XVII, рис.13, с.114] və ətrafında digər dairələr olan dairə [Исмизаде, 1956, табл.XV, рис.1, 2, 8; Ахундова, 2020, табл.VIII, рис.16]. *Ağacın köməyilə Kainatın* üç ölçülü *quruluşu* əks *olunurdu. Formasına görə gülü xatırladan gülşəkilli naxış Günəşin rəmzi hesab edilir. Bitki rəmzləri tədqiq olunan dövrdə Azərbaycan* ərazisində *yayılmış və ilahə-Ana kultu ilə* əlaqəli *olan bitki kultunu* əks *etdirirdi* [Рзаева, 2015, с.8,18].

Polimorf rəmzlər. Qafqaz Albaniyasının incəsənətində özündə müxtəlif əlamətləri (qrafik və plastik) ehtiva edən polimorf rəmzlərə rast gəlinir. Qrafik polimorf rəmzlər arasında aşağıdakılara rast gəlinir: *qanadlı insan* [Ахундова, 2020, табл.XXX, рис.4], *qanadlı it* [Рзаев, 1976, с.247, рис.169; Бабаев, 2010, с.19], *qartal başlı* **şir** *bədənli qrifon* (Şəkil **15**) və *kentavr* [Ахундова, 2020, табл.XVIII, рис.7, 6; Кошкарлы, 1985, табл.XI, рис.128].

Polimorf plastik təsvirləri üç növə ayırmaq olar:

1-ci tip (növ). ***Beldən yuxarı təsvirləri olan heykəlciklər*** *(büstşəkilli)* (5 üçün.) [AAт. Kataloq, 2010, рис.54-56, 58]; bunlara həmçinin başı sınmış bənzər bir büst-heykəlciyi də aid etmək olar [AAт. Kataloq, 2010, рис.57];

2-ci tip (növ). ***Bütöv boylu heykəlciklər*** *- iki növə ayrılır:*

1-ci növ (görünüş). *Oturaq vəziyyətdə heykəlciklər*: a) ayaqşəkilli; b) çöməlib oturmuş vəziyyətdə.

1a) mövcud heykəlin aşağıya doğru qalınlaşan boynunun üzərində başı və iri burnu var, ayaqları aralı vəziyyətdədir, pəncəsinin bir hissəsi sınıb [AAт. Kataloq, 2010, рис.64]. Bu cür heykəlciklər ədəbiyyatda ayaqşəkilli adını alıb və daha çox yarımoturaq vəziyyətdə hazırlanıb [Антонова, 1977, с.37];

2b) Mingəçevirdən və Şamaxıdan tapılmış 2 bənzər gümüş polimorf fibulalar xüsusi maraq kəsb edir (Şəkil **16**) [Azərbaycan arxeoloji qızıl və gümüş əşyaları 2013, с.64; Ахундова, 2020, с.108; Cəbiyev, 2019, с.127]. Bu oturaq vəziyyətdə doğan qadının plastik təsviridir. Qadının bədəni dimdiklərində insan başı tutan üç quşdan ibarətdir. Bu heykəlciyin polimorf terrakot heykəlciklərlə əlaqəsi, Azərbaycan xalçalarında bənzərləri, bədii və semantik mənası haqqında ayrı nəşrlərdə yazılıb [Рзаева, 2019, с.96-109].

2-ci görünüş. *Ayaq* üstə *duran heykəlciklərin* iki müxtəlif növü var:

2a) ayaqları əvvəldən ayırd edilən heykəlciklər **(5 üçün.)**: bütün heykəlciklərin aşağıya doğru qalınlaşan boynu üzərində kiçik başı var, qulaqları və ağızları yoxdur, burunları quş dimdiyinə bənzəyir, ayaqları buddan aşağı sınıb (Şəkil **17**) [Osmanov, 1982, с.91, табл.XVII, рис.3; AAт. Kataloq, 2010, рис.49; Рзаева, 2013, табл.II, рис.10, 23];

2b) ayaqları əvvəldən ayırd edilməyən, özülü konus formasında olaraq donu və ya ətəyi xatırladan heykəlciklər **(5 üçün.)** [AAт. Kataloq, 2010, рис.62, 66; Османов, 2006, с.151; Бадалов, 2003, с.82, табл.XXIII, рис.1, XXI, рис.3]. 2019-cu ildə Nərgizavada ayaq üstə duran vəziyyətdə qadın heykəlcik aşkarlanmışdır. "Qadının uzun hörükləri, yastı burnu, yumru gözləri, boyunbağısı yapma üsulla təsvir edilib. Heykəlciyin alt hissəsində əsaya keçirmək üçün deşik açılıb. Görünür, bu heykəlcik dini ayinlərdə istifadə edilib" [https://azertag.az/xeber/Nergizava…]. Əlavə edək ki, bu heykəlcik növünə görə Ağsu rayonunun Qırlartəpə və Nuran kəndində tapılmış heykəlciklərə bənzəyir. Heykəlciyin əsaya bərkidilə bilməsi xüsusən maraqlıdır.

3-cü növ. ***Qadın simasında antropomorf qablar*** **(2 üçün.)**: heykəllərin gözləri, saçları, boyunlarında boyunbağısı, burnu var, ağzı və qulaqlar

yoxdur [AAт. Kataloq, 2010, рис.70; Алекперов, 1994, табл.XVI, рис.2].

***Fraqmentlər*.** Qeyd etmək lazımdır ki, bədən hissələri qalan heykəlciklərin *cins* əlamətləri *bəlli olan* **(1 nüm.) [**AAт. Kataloq, 2010, рис.51] *və cins* əlamətləri *olmayan* **(5 nüm.)** iki müxtəlif növü var [AAт. Kataloq, 2010, рис.67, 61, 45; Рзаева, 2013, табл.II, рис.19; Əfəndi, 2001, c.28]. Bir fraqment Nuran kəndindən tapılmış qadın heykəlciyinin başına bənzər başdan ibarətdir.

Alban dövrünə aid antropomorf plastik təsvirləri, daha doğrusu terrakot heykəlcikləri tədqiq edərkən polimorf xarakterdə olduqları – *quş başı və insan bədəninin* birləşməsindən ibarət olduqları aşkarlanmışdır [Рзаева, 2013, c.280-292]. Bu polimorf obrazın aşağıdakı ***tipoloji xüsusiyyətləri*** aşkarlanmışdır: 1) aşağı hissədə yoğun olan boyun yuxarı doğru incələrək qeyri-proporsional şəkildə kiçik baş formalaşdırır; 2) baş, boyun, çiyinlər dəqiq ayırd edilmir; 3) burun mütləq var; 4) qulaqlar yoxdur; 5) ağız yoxdur.

Yeddi heykəldə qadın döşü ayırd edilir (birində döş göstərilməyib, lakin qadın üçün səciyyəvi olan geniş ombaları var). Burun qarmaq şəklində, aydın formalaşmış quş dimdiyi formasında və ya müxtəlif böyüklükdə və formada yapışdırılmış şəkildə təsvir olunur. Əksər hallarda bu burunlar insan üzü üçün tamamilə qeyri-tipikdir, belə ki, insan üçün yuxarı hissədə ensiz olan və aşağıya doğru enlənən burun forması xarakterikdir. Tədqiq olunan heykəlciklərin burnu özüldə enli başlayaraq aşağıya doğru daralır ki, bu da quş dimdiyinin formasına bənzəyir.

Beləliklə, 26 heykəlcik (23 terrakot, 1 tunc və 2 gümüş fibula) polimorf xarakterə malikdir, tədqiq olunan hibrid obrazın təsviri zamanı qadın cizgilərinin üstünlük təşkil etməsi isə onun qadın təbiətindən xəbər verir. Plastik və ya təsviri ilahə-quş obrazlarına çox vaxt müxtəlif ölkələrin qədim mədəniyyətlərində rast gəlinir. M.Gimbutas ilk dəfə ilahə-quş obrazını təsvir edərək onu Avropada aşkarlanmış və e.ə. VI–IV minilliklərə aid çoxsaylı terrakot heykəlciklərin şəkilləri ilə izah etmişdir [Гимбутас, 2006, c.251-258]. Açıq-aydındır ki, Qafqaz Albaniyasında aşkarlanmış heykəlciklər burada da qədim dünyanın digər regionlarında olduğu kimi ornitomorf cizgilərə malik ilahə-Ana kultunun mövcud olduğunu təsdiqləyir. O, məhsuldarlıq verən, həyat və ölümün sahibəsi hesab edilirdi.

Lakin son illərdə polimorfluğu insan-qurbağa, insan-ilan xüsusiyyətlərinin birləşməsindən ibarət olan bütöv terrakot və tunc heykəlciklər aşkarlanmışdır. Onlara dair nəşrlər haqqında xəbərimiz olmadığına görə onları tam təsvir edəcəyik. Antik dövrə aid ən iri terrakot qadın fiqurlarından biri Azərbaycan Arxeologiya və Etnoqrafiya Muzeyindədir. Bu, ayaq üstə dayanmış və əllərini yuxarı qaldırmış, hündürlüyü təqribən 30 sm olan heykəlcikdir. Yuxarıda təsvir olunanlardan fərqli olaraq bu heykəlciyin burnu yoxdur, amma ağzı azca uzanmış və aralanmış vəziyyətdədir. Gözləri başın yan hissələrində yumru oyuqlarla göstərilib. Boynunda və bir əlində 4 cərgəli boyunbağı və bilərziyi əks etdirən yoğun və dəyirmi yapışdırılmış burma qaytanlar görünür. Döşləri uzunsov formadadır. Bədənin bütöv ön hissəsində şaquli istiqamətdə üç cərgədə dayaz oyuqlar düzülüb. Başı yarı ilan – yarı qurbağa hibrid başa bənzəyir.

Digər terrakot qadın heykəlciyi Azərbaycan Dövlət İncəsənət Muzeyində qorunur. Bu, ayaq üstə dayanmış və əlləri yana doğru açılmış heykəlcikdir. Heykəlin burnu və ağzı yoxdur, gözləri isə dəliklərin köməyilə göstərilib. Başı ilan başını xatırladır. Boynu yuxarıya doğru incələn 12 cərgə yapışdırılmış halqa ilə bəzədilib. Heykəlcik arxadan hamar müstəviyə malikdir, görünür onu hazırlayanların heykəli arxadan göstərmək fikri olmayıb. Maraqlısı əllərin yerində dəliklərin olmasıdır. Bu dəliklərin köməyilə əlləri harasa bərkitmək olardı. Qollarında cərgələrlə bilərziklər təsvir olunub. Bədənin açıq səthində dairələr var. Döşlər təsvir olunub, həmçinin çiyinlərə və qarnın yuxarısına üç iri detal yapışdırılıb. Qadın heykəlciklərinin ilanla əlaqəsi fikri D.A.Axundov tərəfindən səsləndirilib, lakin o ilanları boyunbağı və bilərzik hesab edirdi [Ахундов, 1986, c.143-147]. Təxminimizcə, ilan obrazı qadın bədənində ilan başı təsvir etməklə göstərilə bilər. M.Gimbutas həmçinin ilahə-ilan obrazını təsvir etmişdir [Гимбутас, 2006, c.258-260].

Nərgizavada cins əlamətləri olmayan unikal tunc polimorf heykəlciklər aşkarlanmışdır. Bunlardan biri üç dairədən ibarətdir, yuxarı hissələrində halqaların olduğu uzun boynun üzərində üç yarı insan başı var. “Oval formada başlar, gözlər və burun oyma yolu ilə verilmişdir” [Quluzadə, Ağayev, 2012, c.62]. Burun nahiyəsi oyuqlarla düzəldilib. Növbəti bənzər heykəlcik üstlərində uzun boynun üzərində

başın olduğu iki şaquli istiqamətdə birləşmiş halqalardan ibarətdir. "Ağız, gözlər və qulaqlar çox kiçik oyuqlarla göstərilib" [Quluzadə, Ağayev, 2012, c.62]. F.Xəlillinin fikrincə bu əjdaha təsviridir (həm də üçbaşlı) [Xəlilli, 2015, c.29-30]. O, bu heykəlcikləri təsvir edərək gözlərin, burnun, ağzın, qulaqların və bığların olmasına işarə edir. Qədim insanlar tanrı obrazlarının ilahiliyini vurğulamaq üçün onlara fantastik sima verirdilər. Bu səbəbdən tədqiq olunan heykəl də polimorfizm ilahiliyin təsvirindən xəbər verir.

Damğalar və işarələr. Mingəçevirdəki III–V əsrə aid yaşayış məskənindən tapılmış keramik qabın üzərində R.Vahidov tərəfindən damğalara və işarələrə ayrılan təsvirlər tapılmışdır. 20-ə qədər damğa tapılıb ki, bunların arasında dördbucaqlı, dairə və oval var. R.Vahidovun fikrincə, bunlar dulusçuların şəxsi möhürləri idi, yaşayış məskənində bu cür möhürlərin biri tapılıb [Vahidov, 1961]. Həmçinin 200-ə qədər işarə aşkarlanıb ki, bunların əsas qismi təkrarlanır, lakin bəziləri yalnız bir nümunədə mövcuddur. Mingəçevirdə tapılmış üzük-möhürlər də diqqət çəkir [Бабаев, 2010, c.18]. Bunlar möhür olaraq istifadə olunurdu, yəni funksiyasına görə damğalara yaxındır. Ümumiyyətlə damğa və ya möhür qismində istifadə olunan motivlərin arasında kult-ovsun, astral, abstrakt-həndəsi, təsviri (antropomorf, zoomorf, bitki, məişət predmetləri, hərbi aksesuarlar (yay, ox və s.) və piktoqrafik işarələrə rast gəlinir.

Qafqaz Albaniyasının incəsənətində tayfa, qəbilə və ya ailə rəmzləri və ya damğaları olduğu ehtimal edilən müxtəlif işarələr mövcuddur. Damğaların istifadəsi Sibirdə, Orta Asiyada, Türkiyədə, Qara dəniz bölgəsində, Altayda, Qafqazda, Monqolustanda və Tuvada qeydə alınmışdır. Damğalar ümumi qəbilə damğalarından fərdi mülkiyyət nişanlarına inkişaf edirdi. Ən qədimləri qəbilə damğaları idi və bir qayda olaraq totem təsvirindən ibarət olurdu. Qafqaz Albaniyasında qəbilə nişanları qismində heyvan-totem (maral, ibtidai öküz və s.) təsvirlərindən, xətt və ya xətlərin birləşməsi formasında həndəsi-abstrakt işarələrdən (Şəkil **18**) və astral işarələrdən (Şəkil **19, 20**) (dairə, aypara, xaç, svastika, spiral) istifadə oluna bilərdi. Bu rəmzlər də digər bir çox rəmz kimi qədim əhalinin dünyagörüşünü əks etdirirdi.

Qafqaz Albaniyasının incəsənətinin çoxillik tədqiqatı nəticəsində sənətşünas N.Rzayev qədim Azərbaycanda rəssamların yaradıcılığının kult xarakteri daşıdığı qənaətinə gəlmişdir [Рзаев, 1976, c.190]. Geniş massivli təsviri rəmzlərin tədqiq olunması bir daha təsdiqlədi ki, Qafqaz Albaniyasının incəsənəti əhalinin kult-dini dünyagörüşü ilə sıx əlaqədə olub və kökləri dərin yerli ənənələrə dayanır. Beləliklə, təsviri rəmzlərin ilkin və əsas funksiyası dini məlumatların saxlanması və daşınmasından ibarət idi. Qafqaz Albaniyasının təsviri rəmzlərin (simvolikasının) xarakteri və tematikası burada öz aralarında əlaqəli olan çoxelementli dini sistemin mövcudluğundan danışmağa imkan verir. Bu sistem özündə erkən mərhələdə ilahə-Ana obrazında (məhsuldarlıq) təcəssüm etmiş *təbiət kultunu* (astral, su, torpaq və bitki), *totemizm kultunu* (heyvanlar və bitkilər), əcdad *atalar-qəbilə hamiləri* kultunu, *dəfn kultunu* və onunla əlaqəli *animizm kultunu*, həmçinin zərdüştiliyi özündə ehtiva edir. Bu inancların ifadə olunduğu rəmzlər çoxmənalı idi və müxtəlif tarixi mərhələlərdə rəmzlər müxtəlif semantik çalara malik olmuşdur.

Qeyd etmək lazımdır ki, kult və dinlər bu rəmzlərin mühüm elementi olduğu mürəkkəb ayin təcrübəsini formalaşdırmışdır. Dini dünyagörüşü insanın həyatına təsir edən təyinedici amil idi. Buna görə insanlar istər şər qüvvələrdən qorunmaq məqsədilə, istərsə də xeyir qüvvələri cəlb etmək və onların himayəsi üçün özlərini hərfi və təsviri rəmzlərlə əhatə etmişdilər. Daha bir mühüm nəticə təkrarlanan və Qafqaz Albaniyası üçün səciyyəvi süjetlərin, rəmzlərin və onların təsvir olunma üsullarının burada yaşayan multietnik və polikonfessional əhalinin mədəni birliyindən və incəsənətin inkişafı üzrə dərin ənənələrindən xəbər verməsidir.

Məqalənin yeniliyi ilk dəfə olaraq Qafqaz Albaniyasında aşkarlanmış təsviri rəmzlərin aşağıdakı növlər – antropomorf, astral, həndəsi, zoomorf, bitki, polimorf növlər, həmçinin e.ə. IV əsr – b.e. III əsrinə aid damğa və nişanlar üzrə təsnifatının tərtib olunmasından ibarətdir.

ƏDƏBİYYAT:

1. Azərbaycan Antropomorf terrakotlar. Kataloq. Bakı: Azərbaycan Milli Elmlər Akademiyası Milli Azərbaycan Tarixi Muzeyi, 2010, c.54
2. Azərbaycan arxeoloji qızıl və gümüş əşyaları. Kataloq. Bakı: "Ziya", 2013, 100 s.
3. Azərbaycanda arxeoloji tədqiqatlar 2015-2016. Bakı, s.262-274.
4. Cəfərzadə İ.M. Qobustan qayaüstü rəsmləri. Bakı:YNE'XXI, 1999, 350 s.
5. Cəbiyev Q. Dəmirçi nekropolu (Şamaxı rayonu) materiallarının interpretasiyasına dair / Milli Azərbaycan Tarixi Muzeyi, 2019, Bakı, c.127.
6. Əfəndi R. Azərbaycan incəsənəti. Bakı: Çaşıoğlu, 2001, 247 s.
7. Əliyev T.R., Babayev F.İ., Hüseynova T.T., Əliyev V.T. Qalatəpə şəhər yeri və nekropolunda arxeoloji tədqiqatlar (Ağcabədi rayonu) / Azərbaycanda arxeoloji tədqiqatlar 2009. Bakı, 2010, s.187-192.
8. Göyüşova T. Azərbaycan tunc kəmərləri. Bakı, 2018, 286 s.
9. Xəlilli F. Ağsuda zəngin Alban mədəni irsi – Nərgizava, 2015, 80 s.
10. Xəlilov C. Ə. Maraqlı incəsənət abidəsi // AMM, C.7, 1973, s.251-257.
11. Xəlilov C.Ə., Aslanov Q.M. Sırt-Çiçidə arxeoloji tapıntılar / Azərbaycanın maddi mədəniyyəti, VII c. Bakı, 1973, s.176-184.
12. İsmizadə Ö.Ş. Qaratəpədən zoomorf keramika // DAN Azərb. SSR, C.XV, 1959, №1, s.93-97.
13. Kərimov V., Əliyev M. Qax rayonunun Lələli kəndinyaxınlığındayaşayışyerindəTorpaqqalada arxeoloji tədqiqatlaq / Azərbaycanda arxeoloji tədqiqatlar 2009. Bakı, 2010, s.206-208.
14. Qaziyev C.M. İki küp və iki katakomba qəbri / Материальная культура Азербайджана. T.III, Bakı, 1953, s.17-48.
15. Quliyev A.A., Xəlilli F.S. Şamaxıda arxeoloji tədqiqatlar / Azərbaycanda arxeoloji tədqiqatlar 2009. Baku, 2010, s.221-228.
16. Quluzadə N.V. 2011-ci ildə Milli Azərbaycan Tarixi Muzeyinin Arxeologiya fonduna daxil olmuş maddi mədəniyyət nümunələri. Milli Azərbaycan Tarixi Muzeyi. Bakı, 2012, s.197-208
17. Quluzadə N.V., Ağayev Q. Şirvanın bədii metalı. Bakı: Milli Azərbaycan Tarixi Muzeyi, 2012, 101 s.
18. Muradova F.M. Rüstəmov C.H. Qazax rayonunda Alban dövrü tapıntıları // Azərvaycan SSR Elmlər Akademiyasının xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 1986, №4, s.33-44.
19. Osmanov F.L. Qavqaz Albaniyanın maddi mədəniyyəti. Bakı: Elm, 1982, 182 s.
20. Vahidov R.M. Mingəçevir III–VIII əsrlərdə. Bakı: Azərb. SSR E.A. nəşriyyatı, 1961, 160 s.
21. Алекперов А.И. Терракота древнего Азербайджана. Баку: Элм, 1994, 133 с.
22. Алиев К. Античная Кавказская Албания. Баку: Азернешр,1992, 237 с.
23. Антонова Е.В. Антропоморфная скульптура древних землевладельцев Передней и Средней Азии. М.: Наука, 1977, 151 с.
24. Асланов Г.М., Нариманов И.Г. Об одной группе погребальных памятников Мингечаура // Материальная культура Азербайджана, Т.4, 1962, с.217-250.
25. Ахундов Д. А. Архитектура древнего и раннесредневекового Азербайджана. Баку: Аз. Гос. Изд., 1986, 310 с.
26. Ахундова Г.К. Украшения Азербайджана античного периода. Баку: "Elm və təhsil", 2020, 276 с.
27. Бабаев И. Древние печати Азербайджана // İRS, 2010, №1 [43], s.18-21.
28. Бадалов А.Б. Гончарное ремесло Азербайджана античного периода [I–III вв.]. Баку: Элм, 2003, 186 с.
29. Геюшев Р.Б., Халилов М.Дж. Каменные изваяния раннесредневековой Албании. Баку: Элм, 1986, с.24 с.
30. Голубкина Т.И. О зооморфной керамике из Мингечаура // Материальная культура Азербайджана. Т.2, Баку, 1951, с.103-140.
31. Гошгарлы Г. Типология погребальных памятников античного периода на территории Азербайджана. Баку: Элм, 2012, 204 с.
32. Исмизаде О.Ш. Ялойлутепинская культура. Баку: Элм, 1956, 132 с.

33. История Азербайджана. Баку: Изд. АН Аз.ССР, 1958, 430 с.
34. Казиев С.М. Первые итоги археологически разведок и раскопок в городище Кабала // Материальная культура Азербайджана. T.VI, Баку, 1949, с.150-158.
35. Кошкарлы К.О. Античная и раннесредневековая торевтика из Азербайджана Баку: Элм, 1985, 117 с.
36. Османов Ф.Л. История культуры Кавказской Албании. Баку, 2006, 288 с.
37. Рзаев Н.И. Искусство Кавказской Албании. Баку: Элм, 1976, 254 с.
38. Рзаев Н.И. Художественная керамика Кавказской Албании. Баку: Изд. АН Аз.ССР, 1964, 123 с.
39. Рзаева С.Ш. Типологическая классификация полиморфных фигурок Азербайджана древнего периода / Milli Azərbaycan Tarixi Muzeyi – 2013, Bakı, с.280-292.
40. Рзаева С.Ш. Классификация доисламских символов в искусстве Азербайджана (пер. железа и античности): Автореф. дисс. док. фил. искусствоведческих наук. Баку, 2015, 25 с.
41. Рзаева С.Ш. Полиморфная фибула из Мингечаура / Milli Azərbaycan Tarixi Muzeyi – 2019, Bakı, с.96-109.
42. Халилов Дж.А. Материальная культура Кавказской Албании. Баку: 1985, 277 с.
43. Халилов Дж.А. Древнее святилище. связанное с каменными изваяниями у сел.Шатырлы // Доклады АН Аз.ССР. Том XLII, 1986, №7, с.78-81.
44. Эфенди Р. Каменная пластика Азербайджана. Баку: Ишыг, 1986.
45. Rzayeva S. The Symbol of Deer in the Ancient and Early Medieval Cultures of Azerbaijan, Peregrination, 2011, c.178-208. http://peregrinations.kenyon.edu
46. https://azertag.az/xeber/Nergizava_nekropolunda_yeni_tapintilar___qedim_ocaq_yeri_saxsi_qadin_heykelciyi_kup_qebirler-1328281

Təsvirlərin siyahısı:

1. Gildən qadın heykəlciyi. Mollaisaqlı, e.ə. III əsr – b.e. I əsr/ Azərbaycan Antropomorf terrakotlar. Kataloq, 2010, рис.51.
2. Antropomorf qab. Xınıslı, Şamaxı, e.ə. III əsr – b.e. I əsr / Azərbaycan Antropomorf terrakotlar. Kataloq, 2010, рис.52.
3. Daş heykəl / Азербайджанский Государственный музей искусства.
4. Keramik boşqab. Yaloylutəpə mədəniyyəti, e.ə. III–I əsrlər/ Исмизаде, 1956, табл. XIV, рис.1.
5. Keramik qab. Yaloylutəpə, e.ə. III–I əsrlər / Рзаев, 1964, рис.74.
6. Tuncdan asma bəzək. Sırt-Çiçi, Quba. e.ə. I minilliyin əvvəlləri / Xəlilov, Aslanov, 1973, табл. II, рис.15.
7. Qızıl sırğalar. Mingəçevir, e.ə. VII əsr – b.e. V əsr / Azərbaycan arxeoloji qızıl və gümüş əşyaları, 2013, рис.14.
8. Keramik qab. Qalatəpə, e.ə. III–II əsrlər / Əliyev T.R., Babayev F.İ., Hüseynov T.T., Əliyev V.T., 2009, c.192.
9. Möhür. Mingəçevir, b.e. III–VIII əsrlər / Vahidov, 1961, табл. X, рис.22.
10. Qızıl örtüklü tunc fibula. Xınıslı, Şamaxı, b.e. II əsrin sonları/ Azərbaycan arxeoloji qızıl və gümüş əşyaları, 2013, рис.86.
11. Zoomorf qab. Mingəçevir, e.ə. I əsr – b.e. I əsr / Археологические памятники. T.VII, рис.40.
12. Tuncdan asma bəzək. Nərgizava, e.ə. IV əsr – b.e. III əsr/ Quluzadə, Ağayev, 2012, c.94.
13. Keramik qabın üzərində təsvir. Mingəçevir, e.ə. I əsr – b.e. I əsr / Рзаев, 1964, рис.82.
14. Lövhəcik. e.ə. I əsr – b.e. I əsr / Ахундова, 2020, табл. XVII, рис.13.
15. Gümüş boşqab. Qax rayonu, Qarabulaq, b.e. II əsr – III əsrin əvvəlləri/ Azərbaycan arxeoloji qızıl və gümüş əşyaları, 2013, рис.143.
16. Gümüş fibula. Mingəçevir, e.ə. IV əsr – b.e. III əsr / Azərbaycan arxeoloji qızıl və gümüş əşyaları, 2013, c.64, рис.85.
17. Gildən qadın heykəlciyi. Mollaisaqlı qəs., e.ə. III əsr – b.e. I əsr/ Azərbaycan Antropomorf terrakotlar. Kataloq, 2010, рис.49.
18. Diskşəkilli asma bəzək. Mollaisaqlı, e.ə. IV əsr – b.e. III əsr/ Quluzadə, Ağayev, 2012, c.81.
19. 19-20. Keramika üzərində nişan və ya damğa. Mingəçevir, III–VIII əsrlər/ Vahidov, 1961, табл.10, рис.10,16.

Vahabova Dilarə
AMEA Elm Tarixi İnstitutunun "Elm tarixinin nəzəri və metodoloji problemləri" şöbəsinin aparıcı elmi işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru

"ALBAN ORATORİYASI". NAMİQ MƏMMƏDOVUN YARADICILIĞININ SƏHİFƏLƏRİ

Azərbaycan Respublikasının Əməkdar Rəssamı, "Humay" mükafatı laureatı, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının akademik rəngkarlıq və kompozisiya kafedrasının müdiri Namiq Məmmədovun adı Azərbaycanda istər bədii çevrədə, istərsə də geniş izləyici kütləsi arasında yaxşı məlumdur. Onun haqqında televerilişlər çəkilir, populyar jurnallarda yazılır. Rəssamın sərgi fəaliyyəti artıq 35 ildir ki, davam edir. Bu gün N.Məmmədovun fərdi və qrup sərgilərinin sıx qrafiki Rusiya, Gürcüstan, Türkiyə, Almaniya, Fransa, Norveç və Danimarkanı əhatə edir. Bu baxımdan Namiq Məmmədovun bu gün ən "açıq" Azərbaycan rəssamlarından biri olduğunu desək, şişirtmiş olmarıq - rəssamın artıq on ikidən yuxarı fərdi sərgisi baş tutmuşdur. Yeri gəlmişkən, heç də hər rəssam geniş izləyici kütləsi ilə bu qədər sıx dialoqa meylli deyil. N.Məmmədovun fərdi sərgiləri 1996-cı ildən başlayaraq həsəd doğuracaq mütəmadiliklə keçirilir və bu, rəssamın özünü, onun mövqeyini, Azərbaycanın bədii həyatının ayrılmaz hissəsi kimi öz yaradıcılığına münasibətini əhəmiyyətli dərəcədə səciyyələndirir.

Bu sənətkarın yaradıcılıq dəsti-xəttinin özəlliyi nədədir? Onun əsərlərini izləyici üçün bu qədər cəlbedici edən nədir?

Rəssamın müxtəlif illərdəki əsərlərinə nəzər saldıqda bütün aktiv yaradıcılıq fəaliyyəti boyu dəsti-xəttini vaxtaşırı dəyişdiyinin şahidi oluruq. Beləliklə bu gün Namiq Məmmədovun bütün yaradıcı ehtiyatı bir növ bu və ya digər onilliyə uyğun gələn böyük silsilələr toplusundan ibarətdir. Bununla yanaşı, rəssamın yaradıcılıq yolunun müxtəlif mərhələlərində ərsəyə gəlmiş silsilələr onun yaradıcılığının erkən və ya daha gec dövrünə aid olmasından asılı olmayaraq, rəssamlıq sənəti nöqteyi-nəzərindən eyni əhəmiyyətə malikdir.

90-cı illərin mənzərəsi müxtəlif janrlara məxsus əsərlərdən ibarət olan, lakin rəssamın kətan üzərində rəsmə yanaşmasının özündəki bütövlüklə fərqlənən parlaq bədii ansambldan ibarət idi. Bunlar bir çox boyanın vahid ton nisbəti ilə tamamlandığı və yekun nəticədə kətan üzərində əsrarəngizlik duyğusunun mütləq surətdə gözə çarpdığı mürəkkəb və çoxlaylı rəsm əsərləri idi. Natürmortlar, mənzərələr, fiqurlu kompozisiyalar rənglərin bir qayda olaraq, kontrast prinsipinə əsaslanmış ahəngdar nisbəti ilə eyni dərəcədə fərqlənirdi.

90-cı illərin sonlarına doğru istər rəng seçimlərində və boyaların çəkilmə xüsusiyyətlərində, istərsə də mövzularda daha çox ailə və qadın obrazlarına yönəlmiş müəyyən seçim baş verir. Sərbəst rəsm üslubunda qırmızı-sarı "alov" çalarlarında göstərilən qadınlar və qızlar rəssamın atelyesində davamlı yer almış və uzun illər ərzində rəssamın əsas diqqət mərkəzində qalmışdır.

Azərbaycan incəsənəti üçün bu, Azərbaycan bədii məktəbində rəssamlığın təsviri incəsənətin hələ də aparıcı növü olaraq qaldığı mürəkkəb keçid dövrü idi, lakin konseptual sənət əsərləri sərgi məkanında getdikcə daha geniş yayılmağa başladı.

Namiq Məmmədov Azərbaycanda ilk konseptual sənət sərgisini keçirdikdən sonra təqribən on il ərzində seçdiyi yolun izində gedən dərvişlər kimi boyalardakı meditasiyalara qapılmışdır. Əbədi "ratio versus sensus" - "hisslərə qarşı ağıl" mübahisəsində rəssam hisslərə üstünlük verirdi və rəssamlıq – "canlı yazı" - rəssamın xarakterinin xüsusiyyətlərinə olduqca yaxın idi: həyatın lirik qavrayışı, əşyalar dünyasının gözəlliyi, sevgi və ailə, nəhayət gizli, məhrəm olanı aşkarlamaq inancı və istəyi...

Lakin məlum olduğu kimi, təkcə insan əşyaları idarə etmir. Özündə müəyyən semantika daşıyan əşyalar hipnoz yolu ilə, konkret fikirləri təlqin



“Bahar”



“Göy natürmort”

edərək və konkret emosiyalar oyadaraq bizə təsir etmək qabiliyyətinə malikdir.

Təsvir üslubu dəyişməkdədir. Həcmli, canlı fırça boyalarla spontan yaradılmış çılpaq bədənlərin əvəzinə müstəvi, cisimsiz kölgə bədənlər təsvir olunur. Şəhvaniliyin yerini müvəqqətilik tutur, “moruğu” ehtiras öz yerini “mavi” meditasiyaya verir. Bu cür “mavi” (yaxud “firuzəyi”) kompozisiyaların çoxsaylı seriyası eyni üslubda çəkilir və mahiyyəti mənəviyyatın təsəvvürü kimi müəyyən edilə bilər. Bu zaman ən bəsit, elementar və həndəsiləşdirilmiş rəsm üslubunun son nəticədə necə individual və kəskin xarakterli obrazlar yaratdığı təəccüb doğurur. Bütün bu nöqtə və cizgilər vasitəsilə elementar üslubda çəkilmiş personajlarda birdən-birə müəyyən psixoloji vəziyyət təzahür edir.

Nəticədə bu onilliyə aid rəsmlərdə rəssam fərqli, yeni ampluada çıxış edir. Hansısa obraz və mövzular “yaddaş sapları” kimi keçmişdən, uzaq 90-cı illərdən uzanıb gəlir. Bunlar əlbəttə ki, ailə, sevgi, gözəllik (qadındakı və ətraf aləmdəki) və onlarda yaşayan sirlərdir. Lakin həm də yeni, ilk baxışda gözlənilməz olan və rəssamın düşüncəsində möhkəm kök salaraq onun son dövrə aid bir çox rəsmlərinin mövzularını müəyyən edən personajlar da meydana çıxır. Bu, əsgər obrazı (hərbi musiqiçi və ya gözətçi formasında), şəhər sakinlərinin obrazı və nəhayət, sevənlərin - rəqs edənlərin və mahnı oxuyanların obrazıdır. Lakin bütün bu gündəlik səhnələrinin arasından kədəri, müəllifin bu təlaş içərisindəki dünyadan açıq-aşkar uzaqlığını göstərən xəfif çalar sezilir.

İnstrumentaridə tutumlu, nəzərəçarpan və “koloritin yoxluğu” kimi adlandırıla biləcək xüsusi koloritə malik yeni material meydana çıxdı. Bunlar N.Məmmədovun rəsmlərində parçaları sıx təbəqə ilə hərfi mənada fon olaraq “döşənmiş” qəzetlər idi.

Rəssam qəzet materialının bu cür aspektini “Aqressiya” adlı kətan üzərindəki rəsmlərində daha nəzərəçarpan şəkildə ifadə edib. Kompozisiyalarda insanlar sanki izləyicinin gözlərinin önündə domkrat kimi cəmiyyəti qüvvətlə sıxaraq eynicinsli kütləyə çevirən “məlumat sahələri” ilə əzilirlər.

“Hərbi musiqiçi” rəsmində qızılı-moruğu qammada boruçu fiquru qəzet parçalarından ibarət boz, “adi” fonda çıxış edir. “Qızıl” boru - günəş işığının topası, kompozisiyanın fiziki və semantik mərkəzi daş-qaş kimi, həqiqətən mühüm, mənalı bir şey kimi göstərilib.

“Ailə” rəsmində qəzet fonuna demək olar ki “hörülmüş” dörd fiqurun birləşməsindən ibarət qrup yalanın, ikiüzlülüyün, xəyanətin olmadığı ada kimidir. “Desert” kompozisiyasında fiqurlar arasında “anlaşılmazlıq divarı” - süfrə arxasındakılar arasında təfriqə salan qatı, boğanaq məkan təsvir olunub.

Rəssam təsviri ardıcıllığında olduqca sabitdir. O özü üçün konkret məna kəsb edən rənglərlə düşünür, kompozisiyaları bir-birini mütləq surətdə müşayiət edən müəyyən predmetlərdən yaradır. Belə ki, əsərlərindəki qadın obrazlarını bir qayda olaraq gül təsviri müşayiət edir. Bu, dibçəkdə adi gül, məsələn, gündəlik həyatda geniş yayılmış fikusdur. Lakin Namiq Məmmədovun rəsmlərində o, saflıq və ilahilik simvoluna çevrilir - eynən orta əsr kompozisiyalarında ağ zanbağın Tanrının Anasının təsvirini müşayiət etdiyi kimi.

Burada dini incəsənətlə assosiasiya təsadüfi deyildir. Namiq Məmmədovun bir çox rəsmlərində dərin müqəddəslik hiss olunur, halbuki təsvir sanki heç bir hədəfə yönəlmiş simvolu ehtiva etmir. Zərif mənəvilik, daxili xəyalpərəstlik, sanki hökm sürən sakitçilik “Yolda”, “Uçub gələn”, “Firuzəyi fəza” kimi əsərləri idrak edərkən tam aşkarlığı ilə hiss olunur. Bu əsərlərin əsas məzmununu təşkil edən cismani və qeyri-cismani olan, ehtiras və xəyalpərəstlik, bədən

və qəlb arasındakı bu zərif tarazlığı pozmamaq üçün insan nəfəsini içinə çəkmək istəyir. Onlardakı məna təsvirdə, rənglərin münasibətində deyil, nəsə başqa, sözlərlə ifadə olunmayan bir şeydədir ki, rəsmlə şifahi ifadəni də məhz bu fərqləndirir.

Namiq Məmmədovun əsərləri arasında "Dua" adlı pastellər silsiləsi var. Rəssam bu silsilə üzərində demək olar ki, özünün bütün şüurlu həyatı boyu işləyib. Monoxrom, torpaq sarısı rəngli qammalardakı vərəqlərdə fərqli motivlər - dua edənlər, yolçular, musiqiçilər təsvir olunmuşdur. Az qala kağız fondan çıxacaq plastik obrazlar qoruyucu mələklər kimi sonsuz ardıcıllıqla bir-birini əvəz edərək rəssamı uzun illər boyunca müşayiət etməkdədir. Bütün bu sanki canlı, real vaxtda olan, izləyicinin gözlərinin önündə yaranaraq vərəqin boşluğunda həll olub gedən xəyali obrazlar rəssamın bir növ daxili baxışından, qeyri-maddi, mənəvi olanı, dünya sakinlərinin görmədiyini təsvir etmə istəyindən bariz xəbər verir.

Bu hekayənin təxminən 20 illik tarixi var. Namiq Məmmədovun atelyesinə gələn və onun əsərlərini layiqincə qiymətləndirən norveçli qonaqlar arasında Kişdə Müqəddəs Yelisey kilsəsini ziyarət edərək Norveç hökumətinin iştirakı ilə alban memarlığına aid bu abidənin bərpası üzrə layihə təşəbbüsünü irəli sürmüş görkəmli norveçli səyyah, tədqiqatçı və etnoqraf Tur Heyerdal da var idi.






Tur Heyerdal öz həyat yoldaşı ilə birlikdə Namiq Məmmədovun atelyesində. Bakı, 2000-ci ilin sentyabr ayı.

Bu, Azərbaycanın siyasi və mənəvi həyatında əlamətdar hadisə oldu. Azərbaycan və Norveç arasında arxeoloji qazıntılar və kilsənin bərpası üzrə birgə layihənin icrasına 2000-ci ildə Norveç Xarici İşlər Nazirliyinin maliyyə dəstəyi ilə başlanıldı. Azərbaycan tərəfindən layihənin reallaşdırılmasına məsul təşkilat olaraq universitetin rektoru professor Gülçöhrə Məmmədovanın rəhbərliyi altında Azərbaycan Memarlıq və İnşaat Universiteti çıxış edirdi. Norveç tərəfindən əsas iştirakçı isə arxeoloji tədqiqatlar və bərpa işləri üzrə Norveç Humanitar Təşkilatı idi. Qazıntılara memarlıq doktoru, məşhur arxeoloq, Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun böyük elmi işçisi professor Vilayət Kərimov rəhbərlik edirdi [Гошгарлы, 2002, с.54-56; Мамедова, 2002, с.41-49; Керимов, 2003**].**


Bərpa işlərinə Azərbaycanın istedadlı bəstəkarı Qalib Məmmədov şahidlik etmiş və nəticədə alban tematikasına həsr olunmuş bir sıra əsərlər ərsəyə gətirmişdir. Bəstəkar Azərbaycan-Norveç əməkdaşlıq proqramı çərçivəsində Norveç yazıçısı Eyvind Skeye ilə yaxınlaşmış və Horveçli yazıçı Qalib Məmmədovun "alban" mövzusundakı əsərləri üzrə librettonun müəllifi olmuşdur. Bunların arasında daha parlaq və monumental əsər Namiq Məmmədovu öz növbəsində "Alban oratoriyası" seriyasını yaratmağa ilhamlandıran "Oratorium Albanum" kantatası idi.

E.Skeye oratoriyanın mətni olaraq Əhdi-Ətiq və Əhdi-Cədidin həqiqi mətnlərindən istifadə etmişdir. Lakin bəstəkar Qafqaz Albaniyasının





“Kamança”



“Müqəddəs kasa”

mədəniyyətinin bir çox xalqların son nəticədə ənənəvi Azərbaycan mədəniyyətinin geofondunu təşkil edən ənənə və dillərinin birləşməsindən ibarət olduğunu nəzərə alaraq, əzəmətli xor parçasını bir sıra Azərbaycan muğamları - Şur, Çahargah, Bayatı-Şiraz, Humayun ilə zənginləşdirmiş, solo alətlərindən biri kimi isə kamança partiturasından istifadə etmişdir. Musiqi tənqidçilərinin də yazdığı kimi, “Oratorium Albanum” əsərinin ideyasının təməlində Azərbaycan tarixinin ən mühüm mərhələsinə - Qafqazda xristianlığın ən erkən ocaqlarından biri olan Qafqaz Albaniyasının dövrünə dair konsepsiyanın formalaşması dayanır.


Maraqlıdır ki, 30 əsərdən - rəsm əsərləri və qrafikadan - ibarət “Alban oratoriyası” silsiləsində Namiq Məmmədov da bəstəkar kimi ümumi qəbul edilmiş xristianlıq ikonoqrafiyasının müstəsna müəllif interpretasiyasını yaratmağa çalışmışdır.

25 sentyabr, 2003-cü il tarixində Bakı şəhərində yerləşən “Art salonu”nda “Alban oratoriyası” sərgisi böyük uğurla baş tutmuşdur.

Bibliya və İncil hekayələrinin ənənəvi obrazları və süjetlərinin dünya mədəniyyətinə xas olan hər hansı məşhur abidə ilə necə heç bir şəkildə assosiasiya olunmadığı heyrətamizdir. Lakin sakral tarixin son dərəcə individual oxunuşu bu cür təsvir olunan obrazları dərin mənəvi tamlıqdan məhrum etmir.

Bu xüsusən də pastel üsulu ilə hazırlanmış əsərlərə aiddir: “zamanla sovrulan” “divarlarda” güclə görünən kölgə fiqurlar izləyicini kiçik kağızlarda təsvir olunan tamaşalara daha dərinə baxmağa, onları qavramağa və son nəticədə dərindən düşünməyə vadar edir. Burada hər şey xüsusi sükunətə qərq olub, ona görə də təmsil olunan obrazların hər hansı üslubla assosiasiyası yoxdur, burada sanki bir şey haqqında - İlahi ideyanın həyatımızda, ağlımızda və qəlbimizdə dərinliyi, universallığı və demək olar ki, şüuraltımızda kök salması haqqında danışılır.

Rəssamın 2004-cü ilin 5-14 noyabr tarixləri arası Norveçdə keçirilən bənzər sərgisi Bakıdakı sərginin özünəməxsus davamı oldu. “Alban oratoriyası” silsiləsi böyük uğur qazandı. Sərgi Oslo və Fredrikstadda (Fredrikstad kafedralında) təşkil olunmuşdu. Əsərlərin kilsədə nümayiş olunması faktının özü sərgilənən əsərlərin mənəvi



“Qurbanlıq quzu”



“Qaçış”




“Xeyir-dua”


əhəmiyyətini və xüsusən həsr olunduqları süjetlərin sakral mahiyyətini əhəmiyyətli dərəcədə vurğulayırdı. Norveç tərəfin bu nümayişə necə böyük önəm verdiyini sərginin açılışından əvvəl Norveçin Baş Naziri cənab Kyell Maqne Bondevikin (Mr. Kjell Magne Bondevik) rəssamı həyat yoldaşı Nigar xanımla birgə qəbul etməsi faktı da təsdiqləyir. Sərgini bir çox norveçli rəssam, yazıçı və jurnalist ziyarət etmişdir. Onların arasında Norveçin ən nüfuzlu rəsm ustalarından biri Tario Qrostad da yer alırdı.



"Abi-həyat"



"Ana"



"Çarmıxdan enmə"



Oslo. 2004-cü il, sentyabr.



2004 11 DocScan.pdf

Kunstutstilling

i Fredrikstad domkirkes krypt

Oljemalerier og fettstifttegninger
av Namik Mammadov,
Aserbajdsjan

Høytidelig åpning fredag 5. november 2004 kl. 18:00

Åpningstider:

Fredag 5. november	kl. 18-21
Lørdag 6. november	kl. 10-15
Søndag 7. november	kl. 17-21
Lørdag 13. november	kl. 10-15
Søndag 14. november	kl. 12-15



"Qurban kəsmə"

Kafedralda keçirilən sərgi yazılı mətbuatda geniş işıqlandırıldı. "Alban oratoriyası"nın musiqisinin müəllifi Qalib Məmmədov da Norveçə gəldi. Bu hadisə çərçivəsində təkcə Namiq Məmmədovun əsərlərinin müzakirə olunduğu deyil, həm də müəllifin (Q.Məmmədovun) ifasında fortepiano musiqisinin səsləndiyi mədəniyyət gecəsi keçirildi. Gecə ümumilikdə Azərbaycanın qədim və orta əsrlər dövrünün müzakirəsinə, hər şeydən öncə Qafqaz Albaniyası ilə əlaqədar səhifələrə həsr olunmuşdu.

...Və bu gün rəssam enerji ilə və yaradıcı ideyalarla doludur və kim bilir, "rəssamlıq" adlı bu dibsiz dünyada mənəviyyat axtarışında gəzib dolaşdığı zaman daha hansı zahiri və obrazlı qərarlar meydana gələcək. Bir şeyi dəqiq demək olar: bu prosesi dayandırmaq mümkün deyil, axı duanı necə dayandırmaq olar?



Yazıçı Eyvind Skeye sərgidə "Oratorium Albanum" Fredrikstad kafedralında. 5 noyabr, 2004-cü il.

ƏDƏBİYYAT:

1. Гошгарлы Г. Кишский могильник (Kish burial ground) // The History of the Caucasus. The scientific-public almanac. Issue №2, June 2002. Baku, 2002, c..54-56.
2. Мамедова Г. Отчет о ходе азербайджано-норвежского проекта «Киш» (Report on Azerbaijan-Norway project «Kish») // The History of the Caucasus. The scientific-public almanac. Issue №2, June 2002. Baku, 2002, c.41-49.
3. Керимов В., Стурфиел Б. Киш (Kish). Баку: Изд-во «Чашыоглу», 2003, 183 с.



Bakı. Müasir incəsənət muzeyi



“Dua”



“Dua” silsiləsindən

Zammatteo Paolo
Memar və incəsənət müəllimi,
Trento (İtaliya)

AZƏRBAYCAN XRİSTİANLARI İTALİYADA: KOMANO TERME VƏ ONUN DAŞ QALIQLARI

Hazırkı tədqiqat Qafqaz Albaniyasının xristian incəsənətindən və onun erkən orta əsrlərdə şimali İtaliyaya gəlişindən bəhs edir. İtaliyada həmin dövrdə Kilsə yekcins deyildi. Akvileya və Milan dini cəhətdən Roma və Bizansdan ayrılmışdı. Lombard Romanesk üslubu Latın, Norman və ən əsası Şərqin təsirləri nəticəsində meydana çıxmışdı. Burada Ari və Nestorian incəsənəti ilə yanaşı Qafqaz Albaniyasındakı xristian incəsənətinin nümunələri də mövcud idi. Maddimədəniyyət nümunələrinə Qarda gölünün şimalındakı daş karxanalarında və ya Parma və Vareze yaxınlığındakı ziyarət yollarında rast gəlinir. Bundan başqa, Akvileya və Ravenna yaxınlığında Utis və ya Udine kimi yerlər vardır. Onlar Udin etnik qrupu ilə eyni kökdəndir.

Nümunələr irlandiyalı rahiblər sayəsində şimali İtaliyadan qərbə yayılmışdır. Dublinin Məsih Kilsəsində, transeptin xarici dekorasiyaları Nicdəki Müqəddəs Yelisey Kilsəsinin portalındakılarla eynidir.

Qafqaz Albaniyasının xaçı və onun Kilsəsinin qədimliyi

Qafqaz Albaniyası dövrünə aid xristian məbədləri Azərbaycanın müstəqilliyinin simvollarıdır. Bu qədim dövlətin, onun Kilsəsinin Həvari mənşəyi ətrafında əfsanələr dolaşır. İtaliyalı dizayner Bruno Munari demişkən: "Eşidirəm-unuduram, görürəm-yadda saxlayıram". Əşyalar hekayələr "danışır". Qafqaz Albaniyası Kilsəsinin qədimliyini başa düşmək üçün onun hansı formalarla təmsil edildiyini tədqiq etmək lazımdır.

Xaç. Ən mühüm forma xaçdır: o, Yer üzündəki ən qədim dinlərdən gələn təsvirləri əks etdirir. xristianlığın yayılmasını sübut edən ən mühüm maddi sübutlardan biri SATOR-dur: onlardan bəziləri eramızın 79-cu ilində dağılmış Pompey şəhərində tapılmışdır. O, Zərdüştilikdə və Günəşə tapınanlar tərəfindən müqəddəs sayılan alovlarla qarışıq təsvir edilmişdir.

Məbədlərin forması. Məbədlər üçün bugünkü ən sadə forma bizə II və III əsrin "domus ecclesiae" (toplantı evi, kilsə) adlanan tikilinin birinci təkamülünü xatırladır. Həmin dövrdə bu tikililər Nəsrani mədəniyyətindən ihlamlanmış Xaldey Suriya Kilsəsinin təsirinə məruz qalmışdır [Mamedova, 2006]. Əsas mövzu Qafqaz Albaniyası Kilsəsi və diofizitizm üçün ortaq mövzu olan Dirilmədir.

Doğulma və ölmə. Vəftizxanalar (xaç suyuna salma otaqları) yoxdur və müqəddəs məqbərə abidələrinin yayılması Nestorianlıqla ortaq cəhətdir. Bu abidələr Xəlifə Abd əl-Maliki Qafqaz Albaniyası Kilsəsini erməni Həvari Kilsəsinin tərkibinə daxil etməyə inandırmaq üçün sübut kimi istifadə edilmiş ola bilərdi [Johannes Rau, 2011]. Qafqaz Albaniyası Kilsəsi ilə Yerusəlim Kilsəsi arasındakı münasibətlər Qafqaz Albaniyası Kilsəsi ilə Bizans arasındakı münasibətlərdən daha güclüdür [Mamedova, 2006].

Günbəzlər. Qafqaz Albaniyası Kilsəsi ilə əlaqəli olan kilsələrin bir çoxunda günbəzlərin forması və hündürlüyü Yerusəlimdəki Müqəddəs Məqbərəyə oxşardır: doğrusu, bura əvvəllər Günəşə pərəstiş üçün istifadə edilən məbəd olmuşdur. Dekorasiyalar minimal saydadır: yalnız mərkəz hissədə xaç vardır. Kosmosun maddi ölçüləri barədə heç bir işarə yoxdur.

Qafqaz Albaniyası Kilsəsinin "təsvirlərinin dili" real olaraq I əsrdə formalaşmışdır. Qafqaz Albaniyası Kilsəsini tədqiq edərkən aşkar edilən fakt bunu deməyə imkan verir ki, [Marcigliano, Mecca, Visintainer, Zammatteo, 2014, p.67-119; Mamedova, 2006], onun müqəddəs motivləri Qərbi Avropaya qədər gedib çıxmışdır. Şimali İtaliya Bizans imperiyası sərhədləri xaricində bu motivlərin gedib çıxdığı ən uzaq nöqtə olmuşdur. Bu fərqli xalqlar arasındakı münasibətlər xristian təsvirlərinin

estetikasına, sənətinə və mahiyyətinə təsir etmişdir. Trentino vilayətində yerləşən birinci Viqo Lomazo kilsəsində [Gian Pietro Brogiolo, Enrico Cavada, Monica Ibsen, Nicoletta Pisu, Matteo Rapana, 2013] günümüzə həmin binanın yalnız bir neçə hissəsi gəlib çatmışdır.

Qafqazdan Avropaya

Avropa və Asiyanın arasında yerləşən, daim sivilizasiyaların gəlib keçdiyi və landşaftında müasirliklə keçmişin qalıqlarının təzadını əks etdirən bir ərazidə şifahi ənənələrlə və əzəmətli yerlərlə füsunkar bir səyahət. Qafqaz Albaniyasının keçmişi kilsələrdə və çoxsaylı maddi-mədəniyyət qalıqlarında öz əksini tapmışdır. Bütün region üçün simvola çevrilmiş bir yer isə Şəki şəhəridir. Burada bir neçə kilometrlik radius daxilində öz xüsusi dili olan azsaylı etnik qrup olan Udinlər məskunlaşmışdır. Onlar, güman ki, Alban dilinin varisi olan bir ləhcədə danışırlar, halhazırda istifadə olunan Alban xristian ayinlərinə və bir neçə müqəddəs binaya sahibdirlər.

Ən məşhur kilsə Kişdəki Müqəddəs Yelisey kilsəsidir. Ondan sonra Nicdəki kafedral gəlir. Kilsələr arxaik tipologiyalar üzərində modelləşdirilmiş və sonradan dəyişdirilmiş, lakin öz orijinal xarakterlərini qoruyub saxlamışdır. Kişdəki Müqəddəs Yelisey kilsəsi mərkəzi plana malikdir. O, I Konstantinin Yerusəlimdə inşa etdirdiyi Anastasis (Dirilmə) kilsəsinə bənzər olub məqbərə tiplidir və burada da günəşə pərəstişin təsirləri vardır: mərkəzi hissə hündür, daxili sahə isə məhduddur, əsas plan və əlavə olunmuş üç nişa əhəmiyyətinə görə sadə konusşəkilli damla örtülmüş günbəzlə və onun içəriyə işıq düşməsi üçün tikilmiş artırması ilə rəqabət apara bilməz. Digər məbəd də Şəki rayonunda, Nicdə yerləşir: o, sinif otağı formasındadır, üç hissəlidir, sərt dizayna, güclü sütunlara və adi formalı tağlara malikdir.

Bunun kimi memarlıq abidələrinə şimali İtaliyada da rast gəlmək mümkündür: Nicdəki Müqəddəs Yelisey modeli İtaliyada xüsusilə geniş yayılmışdır. Yeni tikililərin getdikcə daha mürəkkəb forma alan statik sistemində divarlar daha böyük, boşluqlar sayca daha az və daha iri, mərkəzi nef isə daha ensiz olmuşdur. Nəticədə, artıq bütün interyeri eyni anda görmək mümkün deyildi, daxili sahə bir sıra dolu və boş sahələrə bölünür, işıq Bizans tipli bazilikalarda olduğu kimi bərabər paylanmır, filtrlənir, işıqlanan sahələr konusşəkilli tünd kölgələrlə növbələşir, struktur daha səthlərin ardıcıllığından ibarət deyil və meydana çıxan struktur elementləri daha aydın nəzərə çarpır.

Həm Kişdəki, həm də Nicdəki binaları diqqətlə tədqiq edərkən həvari, erkən xristian və fars ənənəsini İslamdan ilhamlanmış detallarla yanaşı ayırd etmək mümkündür. Bu, sinkretizmdən, ərəb işçilərlə alban memarlar arasında virtuoz əməkdaşlıqdan xəbər verir və hətta eyni dövrdə Norman Siciliyasında Çefalu kafedralı və Monreale monastırında olduğu kimi XIII əsrdə kilsələrin birbaşa müsəlman mütəxəssislər tərəfindən inşa edildiyinin sübutdur.

Hətta dini binaların forması da bəzən eyni motivləri xatırladır: bu hal Nic kilsəsi üçün xarakterikdir - o, üç apsida ilə tamamlanan üç hissəli plana malikdir. Bundan əlavə, Nic kilsəsi Romaneskdən əvvəlki memarlıq tərtibatına malik olub, dairəvi tağları və Tevton sütunları olması ehtimalı olan iri kobud formalı sütunları, mərkəzi nefdə qotik üslublu tağlar və cənub transeptin zalının qarşısında "Müqəddəs Georgi və Əjdaha"nı təsvir edən divar rəsmi vardır. Bu isə bazilikanın qərb kilsəsinə çox oxşar olmasına səbəb olur. Müqəddəs Georgi təsviri bir çox Qərb nümunələrində olduğu ilə eynidir. Birbaşa üslub özü üst-üstə düşsə də, rəsmin aşağı hissəsindəki səkkiz şüalı günəşi əks etdirən friz daha əhəmiyyətlidir. Süvarilərin plaşlarının kürək tərəfdən yuxarı hissəsində baptizmə işarə edən oxşar simvollara rast gəlinir (bu simvollar bu döyüşçülərin piyadalar və oxçular tərəfindən tanınması üçün idi ki, onlar öz döyüşçüləri tərəfindən vurulmasın). Bundan başqa, eyni uniformada sinə hissədə Alban xaçı (kilsələrin qapılarının üstündəki tağlı hissədə (lunet) və Alban məbədlərində rast gəlinənlə eyni) da verilməli idi.

Nic bazilikasının divarları boyunca tağları saxlayan antresolların və sivri tağlı yan qapının arxitravının (sütunların yuxarı hissəsini qoyulan çəpəki tir) elementləri açıq-aydın İslam mənşəlidir. Bu cəhət ərəb saraylarının nişalarını və tağlarını bəzəyən çoxbucaqlı damcı formaları ilə eynidir: yenidən İtaliya və Siciliya nümunəsinə - bu dəfə Palermoda yerləşən Çiza Qalasına və onun Fatimilər dövrünə aid dekorativ divarlarındakı təmtəraqlı motivlərə nəzər salaq.

Hazırkı yazının predmeti olan tədqiqat bütün bu elementlərin təhlilindən sonra həyata keçirilmişdir. Burada məqsəd vaxt və hazırkı coğrafiya baxımından məhdudiyyətlərlə bağlı mövcud olan hər hansı şübhələri aradan qaldırmaq olmuşdur.

Qafqaz Albaniyası xristianları İtaliyada

Orta əsrlərdə VII əsr ərəb istilası və Qafqaz Albaniyasının XIII əsrdəki qısa dirçəlişdən sonrakı tənəzzülü təkcə ideyaların deyil, insanların da böyük köçünün baş verməsinə gətirib çıxardı. Bizansın tərkibində olmayan İtaliya ərazisində, *Böyük Lanqobardiyada*, bu keçidin nişanələri az deyil. Utis Udinin qədim adıdır. Latınlar Ravenna yaxınlığındakı Montone çayını Utis adlandırmışdılar [Della lingua de'primi abitatori dell'Italia opera postuma del Padre Stanislao Bardetti della Compagnia di Gesii Teologo di S.A.S. il Signor Duca di Modena In Modena MDCCLXXII Presso la Societa Tipografica Con Licenza de'Superiori, 156]. İlk dəfə Orta əsrlərdə qeyd olunan Udine şəhərinin adı həmçinin "Oudhn", yəni "kiçik dağ" sözündən gəlir [Giovanni Battista Della Porta, Giovanni Frau, 1991]. Müqəddəs Yeliseyin adı verilmiş yeganə italyan şəhəri Udine şəhərindən bir neçə on kilometrlərlə ölçülən məsafədə, Pers ("Persi", "Persiani" sözündəndir) kəndi yaxınlığında, Akvileya limanı istiqamətindəki əsas yolun üzərində yerləşir.

İlk əlaqəni Bizansın İtaliyada yerləşən və Ostqot kralı Böyük Teodorixin (VI əsr) hakimliyi altında olan Ravenna şəhərindəki Yeni Müqəddəs Apollinare bazilikasının mozaikasında görmək olar. "Səmavi krala - İsaya hədiyyələr gətirən, əynində fars paltarları və başında Frigiya papağı olan üç kral" mozaikası XIX əsrdə Roma bərpaçısı Feliçe Kibel tərəfindən, iki qədim relyefi – Müqəddəs Kirik və İulita ibadətgahı və İsasio ekzarxının sarkofaqını (V əsr) imitasiya edən orijinal Bizans taclarını dəyişməklə hazırlanmışdır: onlar şübhəsiz Ekzarxatın şimal sərhədində yerləşən çayın qədim adı olan Utislə əlaqəlidir.

Deyilənə görə, Kişdəki Müqəddəs Yelisey kilsəsi şəhidliyin baş verdiyi yerdə tikilmişdir və mavzoley tipli baş plana malikdir. Bu, Bizans tərəfindən təkrar istiladan sonra Ravenna şəhərində I Yustinian tərəfindən inşa olunmuş San-Vitale bazilikası ilə oxşarlıq təşkil edir. Hər iki bina Ravenna şəhərində yerləşən Teodorix mavzoleyi ilə müqayisə olunmalıdır.

Ostqotlar və Qafqaz albanları Odinə sitayişlə xarakterizə olunan ortaq dini mənşəyə malikdir: sonralar ostqotlar Vatan obrazını xristian tanrısına və onun oğlu Toru isə Məsihə çevirmişdir: onlar Ari məzhəbini ona görə qəbul etdilər ki, Ata ilə müqayisədə Tor-Məsih kiçik tanrıdır.

Ari vəftizxanasında da günbəzin mənəvi mahiyyətini, səmavi kosmoqoniyanın simvolik səmasını qoruyub saxlamaqla, interyerin minimal dekorasiyası baxımından eyni baxış və zövq əks olunur. Xaç baxımından analogiyalara Klasse limanındakı Müqəddəs Apollinare bazilikasında və Qalla Plasidiya Mavzoleyində rast gəlinir. Görünür, antik dövrün sonlarında Qafqaz Albaniyasının avtokefal kilsəsi ilə Ari məzhəbi arasında çox güclü yaxınlıq olmuşdur.

İmperiyanın sonları və Lombard dövrü arasındakı dövrdə qərbi Trentinoda (V–VIII əsrlər)

İtaliyanın Valtellina vadisindən Valli Cudikari bölgəsinə qədərki ərazini əhatə edən Alp-ətəyi regionu öz mədəni xüsusiyyətlərini Dəmir Dövründə (e.ə. V əsr) formalaşdırmışdır. Bu dövr ümumi dulusçuluq üslubları, "Kamuno" və ya "di Sondrio" kimi də tanınan Şimali Etrusk əlifbasından istifadə edən avtonom yazı ənənəsi və eyni obrazlı dildən istifadə ilə xarakterizə olunurdu. Uzun müddət istifadə edilmiş həmin dekorasiyalar Qarda gölündən şimalda və yəhudi karxanalarında təmərküzləşən bənnaların təcrid olunma dövrünü əks etdirir. Ən zərif işlər Lomazo kəndində yerləşən Lundo karxanasında aparılırdı. VI-IX əsrlər arası dövrdə inkişaf etmiş hörmə naxışların müstəsnalığı və xaç üzərindəki işləmədə çoxsaylı müxtəlif variantlardan istifadə bu tədqiqat ərazisinin özünəməxsus xüsusiyyətləri idi. Digər yerlərdə, Lombard hakimiyyəti altında olan ərazilərdə (568–774), tərəvəz və zoomorf ornamentlər və ya silsilə konsentrik dairələrlə mümkün simmetriyalara əsaslanan həndəsi fiqurlar üstünlük təşkil edirdi.

III - VI əsrlərdə qonşu xristian icmalarının hazırladığı xaçlar arasında seçilən Qafqaz Albaniyası xaçı xüsusilə aydın və xatırladıcı xüsusiyyətə malikdir: onun kökü Qafqazda mövcud olan günəşə

pərəstiş və Ahura-Məzdaya sitayiş, Zərdüştilik və Mitraya sitayiş kimi mistik kultlara gedib çıxır. Pifaqor-Dionis Orfizm Mistikalarına etiqad edir, uşaq ikən üzünü şərqə - günçıxana tutur və Qafqaz çayı ilə danışırdı. Qafqaz Albaniyasının xaçı zəngin və canlı bir mədəniyyətin simvoludur və İtaliyada Alban təsirlərinin araşdırılması hər iki mədəniyyət üçün ortaq olan simvola əsaslanır.

Hazırlandıqları Lundo karxanasından və qismən təkrar istifadə olunduqları San Silvestro kiçik kilsəsinin və Viqo Lomazo kilsəsinin yaxınlığındakı ərazidən əldə olunmuş bəzi yonulma elementləri Qafqaz Albaniyası incəsənəti ilə təmasların sübutudur.

San Lorenzo icma qalasından mənzərənin açıldığı qədim bir yaşayış məskəni olub, Lomazo hövzəsinin mənzərəli bir guşəsində yerləşir. Təxminən 1000–1100-cü illərdə burada daha erkən dövrə aid kilsə (VII əsr) bərpa edilmişdir. Oyma daşların bir çoxu (portal, vəftizxananın qurbangahı) yenidən istifadə edilmiş və ya yaxınlıqdan tapılmışdır. Fasadın dayaqları və qabırğavari dizayna malik tavanın tarixi 1300–1350-ci illərə gedib çıxır. Xarici apsida 1497-ci ilə aiddir: yan neflər və sovməələr sonradan fasada əlavə olunmuşdur və asanlıqla seçilə bilir. San Lorenzo Trentinoda yerləşən kənd prixodunun (Pieve Rurale) ən tam nümunəsidir: burada kilsə, vəftizxana, dini xadimlərin yaşaması üçün ev və qəbiristanlıq vardır. Bu prixod Lombard incəsənətinin ərazidəki ən qiymətli əsərlərindən biridir: ilk vaxtlar Romanesk üslublu, üç hissəli və üç apsidalı olmuş, sonradan qotik üslublu tağlar əlavə olunmuş, genişlənmə və hündürləşdirmə işləri aparılmışdır. Onu Nic bazilikasına yaxın edən cəhət hər şeydən əvvəl mənəvi aspektidir.

Lomazonun Oolit əhəngdaşının üzərində bir-birinə keçən meandra tipli naxışlar olan Karolinq dövrünə aid fraqment və xaçlarla Alban Kilsəsinin xaçları arasında paralellik vardır.

Maraqlısı budur ki, transeptin bayır hissəsində yaxın keçmişdə təkmilləşdirmə işləri aparılmışdır: bu, tağlı portalın içində olan və üç şüa saçdığı təsvir olunan dayaqsız xaçdır. Trentinonun şərqində Montanyaqa di Pine kəndində tapılmış dəmir broşkalı bürünc fibula [Report by Michele Toldo, 2016] üzərində də eyni motiv vardır və iki simmetrik tovuz quşu təsviri arasında yerləşən yunan xaçı ətrafında şüalar təsvir olunmuşdur. Bu, Mingəçevirdə tapılmış və hazırda Bakıdakı Azərbaycan Milli Tarix Muzeyində saxlanan VII əsrə aid sütun başlığının motivi ilə əlaqələndirilə bilər. Fibulanın tərkibindəki yüksək miqdarda qalaya görə cilalı olan bürünc gövdəsi onu göstərir ki, fibula xəlitənin əsasən misdən hazırlandığı Alp regionundakı zavodlarda hazırlanmamışdır. Bundan fərqli olaraq, Şərqi Avropada faydalı qazıntılar əsasən Azərbaycanın Kür və Araz çay yataqlarından əldə olunurdu.

Regionda günümüzə gəlib çıxmış yeganə nümunə San Lorenzonun Romanesk üslublu vəftiz-xanasıdır. Burada ən qədim kilsədən və ətrafdakı digər məşhur binalardan qalan cilalanmış qiymətli daş fraqmentlərinin kompozisiyası yerləşir. Üzərində əlində *labris* (ikiağızlı balta) tutan kişinin dayandığı və kelt ustaları tərəfindən hazırlandığı (e.ə. II əsr) ehtimal edilən dayaq xüsusilə məşhurdur.

Tapıntılar arasında biri xüsusilə fərqlənir, çünki o, Qafqaz Albaniyasının bədii elementlərinin Lomazo karxanalarına gəlişi fərziyyəsini gücləndirir: yaxınlıqdakı San Silvestro kilsəsində təkrar istifadə edilmiş künc daşı əhəmiyyətinə görə müqayisə edilməlidir. Viqo Lomazo vəftizxanasının qurbangahında hörülmüş çərçivə (üslubuna görə şərq üslublu ola bilər) daxilində mükəmməl simmetrik şəkildə bir-birinə baxan iki tovuz quşu vardır. Bundan başqa, Viqo Lomazo və Azərbaycanın təkcə xristian simvollarında deyil, xüsusilə günəş xaçına yaxın olan relyefləri də material, daş və üzvi şəkildə bir-birinə keçən əyməli dekorativ motivlər sayəsində eyni əbədilik mənasını verir.

Şimali İtaliyada

İmperiya dövrünün sonlarında Qafqazdan Alp dağlarına gələnlər əvvəllər Akvileyanın böyüklüyünə görə yalnız Romadan geri qalan yun bazarında keçmiş və “yun yolu”nun qolları ilə, sonra isə *Via Longobarda* (Lanqobard Yolu) ilə yuxarılara qədər qalxmışdılar. Bunun sübutu Udine yaxınlığındakı Müqəddəs Yelisey məhəlləsidir. Onun izləri Visentine Yüksəkliklərində [Armando De Guio, Paolo Zammatteo (a cura di), Luserna: la storia di un paesaggio alpino, Atti del convegno “Sul Confine... Percorsi tra archeologia, etnoarcheologia e Storia lungo ipassi della Montagna di Luserna”, p.43-61] və Lana d’Adige ilə Milan arasında, Qərbi Trentino və

Lombardiyanın Alp-ətəyi hissəsindəki zəvvar yolları üzərində hələ də qalır: Anauniya, Val di Sole, Val Kamonika, Valtellina.

Lombardiyada Alp dağlarının ətəklərində orijinal San Lorenzo və ya Nicdəki Müqəddəs Yelisey kilsələri kimi çox sayda kilsə VII–VIII əsrlərdən bəri mövcud olmuşdur. Mühüm müqayisələrdən biri Vareze yaxınlığındakı qədim Kastelseprio kəndi ilə aparıla bilər. Burada xaçlı qəbirlər Trentinoda olanlarla müqayisədə olduqca sadə, dini tikililər isə Viqo Lomazo və Şəki memarlığına təəccüblü dərəcədə yaxındır.

Üzü şərq istiqamətinə baxan Yevangelist İoann Bazilikası (V–VI əsrlər) üç nefə bölünmüşdür və xarici apsidası yoxdur. San Lorenzoda olduğu kimi, Bazilika səkkizbucaqlı vəftizxananın yanında yerləşir və interyeri Nic kilsəsinin interyerinə oxşayır. Həmin kilsədən olduğu hesab edilən və hazırda Qallarateze Tarix və İncəsənət Muzeyində nümayiş etdirilən VI–VII əsrlərə aid qurbangahın ön plitəsi dörd Alban xaçının siluetini xatırladır. Müqəddəs Pavel bazilikası (XI əsr) mərkəzi plana və yuxarı istiqamətdə nəzərəçarpan əlavə tikililərə malikdir: ideal şərtlərdə, o, ən qədim Santa Mariya foris Portas (hərfi mənası "Qapıların bayır tərəfində") kilsəsi (VI əsr) ilə birləşir. Nəticə Kişdəki Müqəddəs Yelisey kilsəsinin quruluşu ilə eynilə üst-üstə qoyulmaqla müqayisə edilə bilər.

Qərb barədə isə biz bir çox ilkin şərtləri olan və Orta Əsrlərin sonunda ilk əsl Avropa üslubu olan Romanesk üslubu ilə çiçəklənən texnoloji mədəniyyətdən ayrılmamış xristian mədəniyyətindən danışa bilərik. Lombard ərazisində yeni üslub erkən bir vaxtda – X əsrin ikinci yarısından başlayaraq meydana çıxdı. Bu dövr üçün xarakterik olan, xüsusilə Komo və Vareze ərazisində çox sayda mövcud olan prixod kilsələri fenomeni ilə bağlı aparılmış bəzi eksperimentlər bu üslubun mənşəyi ilə bağlı fundamental mərhələlərdir: onların çoxu ölkə ərazisinə əsaslı nəzarət imkanı verən, hazırda unudulsa da, vaxtilə şimali Avropa ilə vacib kommunikasiya xətlərinin üzərində yerləşən dağ kilsələridir. Bir qayda olaraq, əsasən daş və ya çınqıldan tikilən binalar bir nefli olur, həmişə olmasa da yarımdairəvi apsidaya malik olur, dam örtüyünün tirləri üstüaçıq olur. İnteryerdə freska ilə boyama üçün əlverişli olan hamar səthlər olur: bu kiçik binalar adətən dövrün ən gözəl rəssamlıq nümunələrindən bəzilərini qoruyub saxlayır, lakin heykəllərə daha az rast gəlinir.

Lombard ənənəsinin (comacina adı ilə tanınır) memarlıq ornamenti metodlarını əks etdirən təlimat kitabçalarında [Marazzi, 1931, Voll. 1-III, 1931], bu fakt barədə ətraflı məlumat verilir: Bizansda istifadə olunan dekorasiya yunan mənşəli ayıpəncəsi ornamentindən götürülsə də, spiralvarı bitki naxışları, hörmə və zoomorf təsvirlərdən ibarət motivlər birbaşa xristian Persiyadan götürülmüşdür.

Robert Mobili mənə başqa bir təsadüf (2017) haqqında da danışıb. Udinlər arasında "Dalian" soyadı ən qədim və patriarxal soyadlardan sayılır və İtaliyada beş yüzdən artıq ailə də bu soyadı daşıyır. XVI əsrdən əvvələ doğru ailə şəcərəsini izləmək mümkün olmasa da, həmin ailələrin harada yaşadığını müəyyənləşdirmək çətin deyil. 2017-ci ildə, 548 ailənin 200-ü Recio Emiliya şəhərində, 180-i Modena şəhərində, 20-si isə Bolonya şəhərində yaşayırdı: yəni, onların 77%-i Via Francigena (hərfi mənası "Frank Yolu") boyunca yerləşirdi – buraya həmçinin doqquz ailənin yaşadığı Parma şəhəri, iki ailənin yaşadığı Ferrara şəhəri və bir ailənin yaşadığı Pyaçenza şəhəri daxildir [*Web source: Cognomix. it.].* V əsrdən sonra Ravenna Akvileyanın limanı rolunu oynamağa başlamış və Via Francigena qərb istiqamətində ən təbii yola çevrilmişdi. Yeni ipucuları isə hələ də incəsənət tarixi təqdim edir: indiki Berseto kafedralının (Parma) yerində bir vaxtlar zəvvar kilsəsi olub. Qədimi qurbangahın ön plitəsi indiki yüksək qurbangaha qoyulub. Tamamilə təsadüfən Trentino regionunun Viqo Lomazo rayonundakı San Lorenzo vəftizxanasında da eyni hal baş verib. Berseto kafedralı Qafqazın orta əsrlərdə yaşamış hakim təbəqələri və memarlıq modellərinin öz mənşə yerlərindən yayılması barədə təsəvvürləri daha da genişləndirir. Xaçların və təkrarlanan zoomorf motivlərin səciyyəviliyi bunu sübut edir: Bersetonun xaçşəkilli dekorasiyası Trentinodakı Montanyaqa di Pine kəndində tapılmış fibula və Bakıda saxlanan Mingəçevir sütun başlığı üzərindəki dekorasiyalarla oxşardır. Həmin dövrün dini memarlığı üçün ortaq olan əsas mövzu Dirilmə və açıq-aşkar əbədiyyətə işarə edən tovuz quşları idi.

Qədim təsirlər: irland rahiblər və Qafqaz dizaynı

Gəlin, Nicdəki Müqəddəs Yelisey kilsəsinin yan portalına baxaq: onun Sasani incəsənətindən ilhamlanmış və ya onun bir nümunəsi olan yapmaların (V–VII əsrlər) bənzər formalarına müəmmalı bir şəkildə İrlandiyanın ən qədim Dublin kafedralı, yaşı 1100-cü ilə gedib çıxan xristian kilsəsi üzərində rast gəlinir. Görünür ki, Qafqaz Albaniyasının müqəddəs sənəti İtaliyadakı episentrlər vasitəsilə İrlandiya və Britaniya adalarının incəsənətinə – Kelt və Norman incəsənətinə bu iki ölkənin V–X əsrlərdə xristianlaşdığı dövrdə təsir göstərmişdir.

Hörmə naxış İrlandiyaya ilk monastır missiyaları vasitəsilə gəlib çatmış və kitabların dekorasiyası üçün qəbul olunmuşdu: irlandların əsasən spirallar və bir-birinə keçən dairələrdən istifadə edən yerli dekorasiya ənənəsi bu töhfələri modifikasiya edərək orijinal üsluba nail olmuş və sonralar onların bütün incəsənət formalarında eyni motivlərdən daşların dekorasiyası üçün istifadə olunmağa başlanmışdı: Şotlandiyadakı Pikt daşları, Anqlo-Saks qəbir xaçları və Dublindəki Məsih Kafedralı bununla bağlı kifayət qədər dəlil təmin edir.

İrland rahiblər Roma İmperiyasının süqutundan sonra kontinental Avropada formalaşmış barbar krallıqlarına üz tutdular: onlar yeni insanları xristianlaşdırmaq üçün Britaniya adaları, Bretan yarımadası, Luar vadisi və Frank krallığından keçərək və Alp dağlarını aşaraq şimali İtaliya və Toskana regionuna köç etdilər.

Po vadisi və Toskana-Emiliya Apennin dağları arasında 5-10% səviyyəsində yayılmış KeltBritaniya R-L21 haploqrupu üzrə genetik nəticələr erkən Orta əsrlər boyunca burada irland dini yaşayış yerlərinin olması ilə əsaslandırıla bilər. İrland rahibliyi mərkəzi kilsə hakimiyyətindən kifayət qədər sərbəstlik alması ilə xarakterizə olunurdu. VI əsrdə rahiblər evlənməkdə sərbəst idilər. Evlənməmə qaydası yalnız Kaşel Şurasından (1101) sonra icra edildi: həmçinin dini vəzifəni öz övladına ötürmək, bununla da əsl rahib sülalələri yaratmaq mümkün idi [Kehnel, 2008]. VI əsrdə Lombardlar hələ də bütpərəst və ya Ari məzhəbli xristianlar idilər [Jorg Jarnut, *Storia dei Longobardi,* 2002].

Yalnız 603-cü ildə katolik həyat yoldaşı Teodolindanın təsiri altında Aqilulfo öz oğlu Adolaldonu katolik ayinlərinə uyğun olaraq xaç suyuna saldırdı və irland rahib Kolumbaya (və ya Kollinə) öz himayəsini təklif etdi ki, rahib 612-ci ildə Bobbio monastırını qura bilsin [Stokes, 1892].

Lombardlar Toskananı işğal edəndə onlar Lukka şəhərində Movildən olan Finnian (San Frediano) adlı irland yepiskopu tapmışdılar. San Patriçionun partnyoru, Restitin oğlu Seçall Letingi adlı zadəgan Lanqobard ailəsinə mənsub idi [Stokes, *ibid.,* VII–VIII].

Laraqbrindən olan rahib VI əsrin sonlarında yaşamış irland rahib İrlandiyanın cənubundakı Li çayı sahilində yerləşən İnniskarra bölgəsində olarkən Latsiodan zəvvarları daşıyan bir gəmi gəlmişdi. Frediano di Lukka (vəfatı: 588-ci il), Kolumbano di Bobbio (542–615), Donato di Fyezole (vəfatı: 874-ci il), Andrea da Fyezole Skoto (IX əsr) və Silao di Lukkanın (Müqəddəs Sillan, XI əsr) həyatlarından bəhs edən yazılar yaxşı məlumdur. Bu rahiblərin hamısı zadəgan, hətta bəlkə də kral əsilli idilər [Stokes, *ibid.*].

Qeyd edək ki, ixtisasca arxeoloq olan Marqaret Stouks mətni memarlıq elementlərinin təsvirləri ilə zənginləşdirmişdir.

VIII əsrin sonlarına yaxın irland mədəni irsi Lombardların (Lanqobardlar) mədəni irsi ilə qarışmış və bədii yaradıcılıqda yenilənməyə gətirib çıxarmışdır. Romanesk üslubunun müəllifləri olan *Komaçin ustaları (*magistri comacini*)* müxtəlif millətlərdən olan və çox vaxt rahib olan rəssamların heterogen icması idi. Onlar VI əsrdə Lombard taxtının himayəsi altında Komo şəhərində məskunlaşmışdılar. Xüsusi qoruma və hüquqi statusla təmin olunmuş *Komaçin ustaları* yeni Romanesk incəsənətini – Avropa mədəniyyətinin yenidən təşəkkül tapması üçün əsas rolunu oynamış universal "memarlıq dilini" Avropada yaydılar. Son olaraq qeyd edək ki, biz Lanqobard memarlığı, Norman memarlığı və irland Romanesk üslubu arasında (eləcə də Qafqaz Albaniyasının təsirləri ilə), xüsusilə xaçşəkilli və zoomorf təsvirlərin təqdim olunmasında və ən

qədim hörmə dekorasiyalarda bir sıra bənzərlikləri müəyyən edə bilərik.

Güman ki, məhz əlverişli Aralıq dənizi coğrafiyası sayəsində Orta əsrlərin başlanğıcında Qafqazı, İtaliyanı və daha sonra bütün Qərbi əhatə edən münasibətlər yaranmışdı. Həmin dövrdə dini münasibət hər şeydən əvvəl vəhdət xarakterli idi. Təsvirlərdən əldə edilən duyğular İncil biliyindən daha təsirli idi. Qərb üçün ənənə ilə xətti münasibət önəmlidir. Məna kəsb edən simvol, əlbəttə ki, Qafqazla şimali İtaliya arasında xristianlığın erkən əsrlərində formalaşmış və yalnız bir neçə dəyərli və nadir nümunəsi günümüzə gəlib çatmış incəsənət münasibətidir.

ƏDƏBİYYAT:

1. Armando De Guio, Paolo Zammatteo (a cura di). Luserna: la storia di un paesaggio alpino, Atti del convegno “Sul Confine... Percorsi tra archeologia, etnoarcheologia e Storia lungo ipassi della Montagna di Luserna», p.43-61.
2. Della lingua de’primi abitatori dell’Italia opera postuma del Padre Stanislao Bardetti della Compagnia di Gesii Teologo di S.A.S. il Signor Duca di Modena In Modena MDCCLXXII Presso la Societa Tipografica Con Licenza de’Superiori, 156.
3. Gian Pietro Brogiolo, Enrico Cavada, Monica Ibsen, Nicoletta Pisu, Matteo Rapana, APSAT11. Progetti di archeologia. Chiese trentine dalle origini al 1250, Volume 2, Provincia autonoma di Trento, 2013, Pieve di Lomaso, in: www.cultura.trentino.it.
4. Giovanni Battista Della Porta, Giovanni Frau. Toponomastica storica della citta e del Comune di Udine, Society filologica Friulana, Udine, 1991.
5. Johannes Rau. II Nagorno-Karabakh nella storia dell’Azerbaigian, a cura di A.Biagini, D.Pommier Vincelli, ed. it., Edizioni Nuova Cultura, Roma, 2011.
6. Jorg Jarnut. Storia dei Longobardi, 2002.
7. Kehnel Annette. Father and Sons in the cloister: Ecclesiastical Dynasties in the Early Irish Church, 2008.
8. Mamedova F. Christianity in Caucasian Albania. History, Spring 2006, Volume 1.1, in: http:// www. visions.azien/news/150/d 1 b662a0/
9. Marazzi Aristide. Caratteristiche degli stili, Guida illustrata, Voll. 1-III, 1931.
10. Marcigliano A., Mecca A., Visintainer E., Zammatteo P. La Chiesa Apostolica Albana: le radici di m simbolo dell’Azerbaigian, II Nodo di Gordio 2014.
11. Stokes Margaret. Six Months in the Apennines, or A pilgrimage in search of vestiges of the Irish saints in Italy. With numerous illustrations, 1892.


BAKI BEYNƏLXALQ MULTİKULTURALİZM MƏRKƏZİ
QAFQAZ ALBANİYASININ ETNO-MƏDƏNİ İRSİ
БАКИНСКИЙ МЕЖДУНАРОДНЫЙ ЦЕНТР МУЛЬТИКУЛЬТУРАЛИЗМА
ЭТНОКУЛЬТУРНОЕ НАСЛЕДИЕ КАВКАЗСКОЙ АЛБАНИИ
BAKU INTERNATIONAL MULTICULTURALISM CENTRE
ETHNOCULTURAL HERITAGE OF CAUCASIAN ALBANIA

Çapa imzalanıb: 04.10.2021.
Formatı: 60x90 1/8. Həcmi: 14,5 ç.v.
Tiraj: 250.

“RS Poliqraf” MMC-nin mətbəəsində
hazır diapozitivlərdən çap olunmuşdur.